AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 2

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2016

Jurnalın təsisçiləri: Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutu və «Elm və təhsil» nəşriyyatı

REDAKSİYA HEYƏTİ: akademik Vasim Məmmədəliyev, akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Nizami Cəfərov, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Möhsün Nağısoylu, AMEA-nın müxbir üzvü, f.ü.e.d., prof. Əbülfəz Quliyev, f.ü.e.d., prof. Vilayət Əliyev, f.ü.e.d., prof. Fəxrəddin Veysəlli, f.ü.e.d., prof. Qəzənfər Kazımov, f.ü.e.d., prof. Rüfət Rüstəmov, f.ü.e.d., prof. Nadir Məmmədli, f.ü.e.d., prof. Məsud Mahmudov, , f.ü.e.d., prof. Buludxan Xəlilov, f.ü.e.d., prof. Mübariz Yusifov, f.ü.e.d., prof. Qəzənfər Paşayev, f.ü.e.d., prof. Əbülfəz Rəcəbli, f.ü.e.d., prof. Nizami Xudiyev, f.ü.e.d., prof. Cəlil Nağıyev, f.ü.e.d., prof. Kamilə Vəliyeva, f.ü.e.d., prof. Azadə Musayeva, f.ü.e.d., prof. Əzizxan Tanrıverdiyev, f.ü.e.d. Paşa Kərimov, f.ü.e.d., Məhəbbət Mirzəliyeva, fil.ü.f.d. Nəzakət Məmmədli

Buraxılışa məsul: akademik Teymur Kərimli
Rəyçi: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2016, № 1

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2016

www.filologiyameseleleri.net

DİLÇİLİK

RƏHMAN QULİYEV
Qafqaz Universiteti Sosial və Humanitar
Elmlər İnstitutunun Türkologiya şöbəsinin müdiri
rquliyev@qu.edu.az

MÜASİR TÜRK DİLLƏRİNİN ALINMA LEKSİKASINA BİR BAXIŞ

Açar sözlər: *alınma, türk, leksika, ingilis dili, müstəqillik*
Key words: *borrow, lexicon, Turkic, independence, English*
Ключевые слова: *заимствование, лексики, тюркских языках, английского языка, независимости*

Giriş:

Türk dillərindəki alınma szölərin müasir mənzərəsinə nəzər salmamışdan əvvəl "alınma" termini barədə məlumat verməyi lazım bilirik. «Alınma dildə xarici amilləri, yəni başqa dil ünsürlərinin qrafik, fonetik, leksik, semantik, morfoloji və sintaktik sahələrində özünü göstərən başqa dil təsirlərinin məcmusu kimi başa düşülməlidir… Bu proses öz daxili imkan və vasitələri əsasında gündən-günə təkmilləşməklə yanaşı, qohum və qohum olmayan, bilavasitə və bilvasitə kontaktda olan dillərin qarşılıqlı təsiri nəticəsində gedir» [1, s. 4-5]. Geniş mənada "alınma" bir dildən başqa dilə söz keçmə prosesini bildirir. Bu söz iki mənada işlənir. Beləliklə, II mənada bu termin proses, I mənada isə prosesin nəticəsini bildirir. "Alınma" və "alınma söz" terminləri eyni anlayışları bildirmir. "Alınma" dedikdə bir dildən başqa dilə keçən bütün linqvistik vahidlər , hər hansı bir dil elementi başa düşülür. "Alınma söz" dedikdə isə yalnız leksik vahidlərin mənimsənilməsi nəzərdə tutulur. Başqa sözlə desək "alınma" termini daha geniş anlayışı ifadə edir. Belə ki, "alınma söz" anlayışının özü də "alınma" termininin ifadə etdiyi mənanın tərkibinə daxildir (2, 5-6).

Bütün dünya dillərində olduğu kimi müasir türk dillərinin də lüğət tərkibinin inkişafında və zənginləşməsində dillərin daxili imkanları ilə bərabər alınma sözlərin də çox önəmli rolu olmuşdur. Tarixin müxtəlif mərhələlərində türk dilləri diğər dillərdən söz alımışdır. "İctimai-siyasi, iqtisadi şəraitdən asılı olaraq alınmalar bəzən xüsusi dalğa ilə özünü göstərmiş, bəzən geri çəkilərək müəyyən zaman kəsiyində yaxşı mənada qısqanclıqla qarşılanmışdır" (3,6). İctimai, siyasi məqamlardan asılı olaraq türk dillərinin bir qismi uzun müddət ərəb, fars alınmalarına, rus imperiyası dövründə rus dilindən və onun vasitəsilə Qərbi Avropa dillərindən alınmalara məruz qalmışlarsa, bir qismi Çin, bir qismi monqol və digər dillərin təsirinə məruz qalmışdır. Bəzən bu alınmalar həddini aşmış, bəzən isə dilimizin zənginləşməsində müsbət rol oynamışdır.

Bildiyimiz kimi alınma sözlərsiz heç bir dil mövcud deyil. O cümlədən türk dilləri tarixən türk xalqları başqa xalqlarla ictimai-siyasi əlaqədə olmuş, onlar arasında sıx mədəni,iqtisadi, dini münasibətlər yaranmışdır. Alınma leksikanın türk dillərində işlənmə dinamıkasını izlədikdə görürük ki, bu sözlərin türk dillərinə keçməsi müxtəlif mərhələlərə bölünür. "....alınma leksika vasitəsilə bir xalq diğər xalqı yaxından tanıya bilir"(4, 503).

Alınma sözlərin müəyyən hissəsi türk dillərinin fonetik və qrammatik qruluşuna tabe edilərək işlənir. Alınma sözlər türk dillərində öz ekvivalentləri ilə sinonimik cərgə təşkil edir, bir çox hallarda aktiv işlənir ki,hətta bəzən öz ekvivalentini dildən sıxışdırıb çıxarır. Bu baxımdan dilə gələn alınma sözlərin zəruri olub-olmaması bir an belə nəzərdən qaçmamalıdır.Bəllidir ki, heç bir dil tamamilə öz leksik vahidlərindən ibarət deyil. Diğər dildən sözalan dilləri isə kasıb, zəif dillər hesab etmək də doğru deyildir. Sözalma prosesi dillərin lüğət tərkibini zənginləşdirməklə xalqların, mədəniyyətlərin bir-birinə inteqrasiyasını təmin edir. "Alınma sözlər, ilk növbədə, özünü mətbuatda göstərir. Ona görə də hər bir cəmiyyətin mətbuatı o cəmiyyətin güzgüsü rolunu oynayır və təbii ki, həmin xalqın mədəniyyətinə vədilinə bəslədiyi münasibət bu güzgüdə əks olunur"(3,7). A. Reformatskiy sözalmanı da, dillərin qarşılıqlı əlaqəsini təbii bir proses adlandırmışdır. Sözalma prosesi həm ekstralinqivistik, həm də daxili linqvistik qaydalarla şərtləndirilmiş mürəkkəb hadisədir (5 ,104).

Türk dillərinə digər dildən sözlər bu səbəblər nəticəsində daxil olmuşdur:

1. Xalqın istilaya məruz qalması
2. Digər xalqlarla dostluq münasibətinin olması
3. Coğrafi şərait
4. Obyektiv inkişaf qanunları

Türk dillərində alınma leksikanın inkişaf dinamikasını izləmək, müasir dönəmdə bu dillərdə alınma leksikanın mənzərəsini canlandırmaq üçün tarixən türk dillərinə hansı dillərdən daha çox alınma leksik vahidlərin keçib işlənməsinə nəzər yetirməyi lazım bilirik.

Müasir **Azərbaycan** dilinin alınma leksikasını Azərbaycan sözləri və alınma leksik vahidlər təşkil edir.B. Xəlilov müasir Aərbaycan dilindəki xalis Azərbaycan sözlərini 4 yerə bölür:1. Türk dilləri ilə ortaqlı sözlər. Bu tip sözləri müəyyənləşdirmək üçün Orxan-Yenisey abidələrini istinad kimi götürən alim nümunə kimi bunları göstərir: *ov, aç, ana, at, əkin, adaş, qab, ata, biç, ağız* və s. 2. Həm türk, həm də monqol dilləri ilə ortaqlı olan sözlər. Bu tip sözlərdə fonetik, semantik və morfoloji fərqlər də ola bilər. Məsələn, *büger-böyrək, zirüxen-ürək; asaq-axsaq; xuuray-quru və s.* 3. Şumer dili ilə ortaqlı olan sözlər, məsələn, *ada-ata, aştar-açar, ar-arı, be-bu, sa-söz* və s. O. Süleymanov 60, A. Məmmədov 110-dan artıq sözün şumer və türk dillərində ortaqlı olduğunu aşkar etmişdir(6,34).4.Xüsusi Azərbaycan sözləri-B.Xəlilov bu tip sözlərin Azərbaycan dilinin müstəqil bir dil kimi formalaşmasından sonra yarandığını qeyd edir. Alim xalis Azərbaycan sözlərinə bu nümunələri misal göstərmişdir.Məsələn, *sanc, dinc, tunc, daraq, çəpər, yaraq, yırtıq, çadır, yarpaq* və s. (6, 37). B. Xəlilov bir dildən digər dilə leksik vahidlərin aşağıdakı yollarla keçdiyini söyləyir:1. Zəruri və məcburi yolla;2. Ədəbi və danışıq dili vasitəsilə;3. Vasitəli və vasitəsiz yolla alınma sözlər. Alimin bu təsnifatını qeyri-şərtsiz digər türk dillərinə də aid etmək olar.

Müasir Azərbaycan dilində alınma sözləri mənşəyinə görə belə qruplaşdırmaq olar:

a. ərəb mənşəli sözlər
b. fars mənşəli sözlər
c. rus mənşəli sözlər
d. Avropa mənşəli sözlər
e. Qafqaz mənşəli sözlər

"Fars dilindən dilimizə keçmiş olan sözlər həm ədəbiyyat və həm də şifahi danışıq dili vasitəsilə keçdiyi üçün burada müxtəlif sahələrə aid sözlərə təsadüf edilir"(7,48).

Ərəb dilindən keçən sözlər isə VII əsrdən sonrakı mərhələyə aiddir. İslam dini ilə əlaqədar Azərbaycan dilinə çoxlu miqdarda sözlər keçmişdir.

Digər Türk dil qrupuna aid olan Uyğur dilində ərəb-fars sözləri ilə bərabər Çin dilindən alınmalar da çoxluq təşkil edir. Çin dilindən uyğur dilinə əsasən idarəetmə-inzibati sahələrlə bağlı sözlər keçmişdir. "Qədim türklərlə çinlilər arasında uzun sürən, qanlı müharibələrlə yanaşı, sıx mədəni əməkdaşlıq da olmuşdur. Bunun nəticəsində iki xalq bir-birinin mədəniyyətini, dilini qarşılıqlı şəkildə zəngibnləşdirmişdir. Xüsusən də, Çin cəmiyyətinin ictimai fikrinin, başqa sözlə Çin dövlətinin formalaşmasında türklərin çox mühüm rolu olmuşdur. Çin sözlərinin uyğur dilinə keçməsinin tarixi çox qədimdir. Bu tarix XX yüzilliyin 50-ci illərindən başlanır. T. Rəhimov yazır ki, uyğur dilində Çin leksik alınmaları diğər dillərə nisbətən az olmuşdur. Çin dilindən alınmalar əsasən inzibati-idarə, ticarət, məişət, çox az sayda kənd təsərrüfatı, peşə və hərbi leksikanı əhatə edir (8, 3).

Hazırda da Çin dili uyğurların gündəlik həyat və məişətini geniş şəkildə dəyişir. Bu dil onların sosial funksiyalarına, ictimai-siyasi, iqtisadi və mədəni həyatına nüfuz edir. Çin dili-şençcan(ölkə başçısı);Şenu-şen(həyat)+u(materiya=biologiya; şen (həyat)+li(prinsip)+syuz(elm)=fiziologiya(9,46).

Türkiyə tükcəsindəki alınma leksikanı belə təsnif etmək mümkündür. 1. ərəb dilindən alınmalar. Məsələn, *adalet, tövbe, kıraat, silah, aşk, tabiat, tacir* və s. 2. Fars dilindən alınmalar. Məsələn, *efsane, laf, meğer, cengaver, mehter* və s. 3. Avropa dillərindən alınma sözlər.Məsələn, *efendi, lampa, tempo, tango* və s. (10, 126). Türkiyə Cümhuriyyəti 1923-çü ildə müstəqli respublika elan edildikdən sonra fransız, ingilis, italyan dillərindən külli miqdarda söz və terminlər keçmişdir. Fransız dilindən Türkiyə türkcəsinə sözlərin keçidi XVI əsrdən başlanır. Bu dönəm Osmanlının Fransa ilə iqtisadi və siyasi əlaqələrinin intensivləşdiyi bir dövr idi. XIX əsrdə isə ərəb və fars sözlərinin əvəzinə fransız kəlimələri dilə daxil oldu. Bu dönəmdə 5000-dən çox söz və termin fransız dilindən Türkiyə trkcəsinin lüğət tərkibinə, eləcə də danışıq dilinə daxil oldu. Ümumiyyətlə, fransızcadan Türkiyə türkcəsinə keçən sözlərməna-anlam baxımından 3 qrupa bölünür:1. Söylənişləri və anlamları heç dəyişdirilmədən alınan kəlimələr. Məsələn.*kamp, beton, artist* və s.; 2. Türk dilinin qrammatik qanunlarına uyğunlaşdırılan sözlər. Məsələn, *albüm, akvariyum, avukat* və s.; 3. Söylənişləri eyni, ancaq türk dilinə dəyişik bir mənada keçən sözlər. Məsələn, *apatman, atlet, daktilo* və s. (11, 73).Müasir dövrdə Türkiyə türkcəsinə keçən sözlərin böyük faizini yalnız ingilis dilindən keçən sözlər təşkil edir. Türkiyə türkcəsindəki alınma sözlərin türk sözləri ilə qarşılığının verilməsi dil devrimi zamanından başlamışdır. Məsələn, *kompromis (anlaşıt), vitse-prezident (başbakan), sektor (bölge), eksport (çıkat), tradisiya (gelenek), qarantiya(inanca)* və s.

Türkmən dilinin leksik tərkibinə müxtəlif ictimai-siyasi hadisələrlə əlaqədar ərəb, fars, monqol, rus və rus dili vasitəsilə başqa dillərdən külli miqdarda söz və terminlər, ifadələr, söz birləşmələri daxil olmuşdur.Fars dilindən alınmalar. Məsələn, *xörək, nan, peynir, bexişt, saray, kərxanə* və s. Ərəb alınmaları. Məsələn, *kitap, mektep, menzil, zexin, miras* və s. Gördüyümüz kimi, Azərbaycan və türkmən dilindəki alınmalar demək olar ki, eynidir. F. Zeynalov Türkmən dilindəki monqol mənşəli

sözlərə göstərdiyi misallar da demək olar ki, Azərbaycan dili ilə eynidir. Məsələn, *quda, bal, mal, altın, çöl, saqqal, zər* və s. Rus dilindən türkmən dilinə sözlərin keçmə tarixi 1880-ci ildən-Türkmənistanın Rusiya tərkibinə daxil olduğu dönəmdən sonra başlanır.Türkmən dilinə rus dili vasitəsilə digər dillərdən aşağıdakı leksik-terminoloji vahidlər keçmişdir.Yunan dilindən –*akademiya, aksioma, atom, gimnastika* vəs. Latın mənşəli-*abstrakt, avtor, norma, satira*və s. Fransız sözləri-*avans, adres, leytenant* və s.İngilis sözləri-*boks, basketbol, voleybol, futbol* və s. Alman sözləri-*abzas, kontora, papka* və s. Italyan dili-*ariya, balkon, qazet* və s.

Qaqauz dilində ərəb, fars, yunan, moldav, rumın, bolqar, rus dillərindən keçmiş sözlərə rast gəlinir. Təbii ki, eyni qrupa daxil olan Azərbaycan, türkmən, Türkiyə türkçəsi ilə müqayisədə ərəb, fars sözləri azlıq təşkil edir. Bu da qaqauzların dini inancları ilə bağlıdır. Qaqauz dilindəki ərəb-fars sözləri əsasən türk dili vasitəsilə keçmişdir. Məsələn, *maşalla, musaafir, raamet fena, memleket, masal* və s. Yunan dilindən keçən sözlər. Məsələn, *vatiz-xaç çəkmək; stenoz-kəbin kəsmək, klisa-kilsə; kaluqer-monax* və s. Bu sözlər qaqauzların xristian dininə tapınmaqları ilə əlaqədar dilə daxil olmuşdur. Moldav və rumın sözləri: *natra-məsafə; rışnişa-əldəyirmanı; ploşnisa-taxtabiti* və s.

Qazax dilinin leksik tərkibində- çoxlu miqdarda ərəb-fars sözlərinə rast gəlirik. Məsələn. *Düğa-dua; dost, ğajayip-əcaib, dünie-dünya; keremet-kəramət; raxat-rahat; riza-razı* və s. Ərəb-fars sözlərinin qazax dilinə keçməsi tatar, özbək, tacik dilləri vasitəsilə olmuşdur. Qazax dilindəki ərəb-fars sözləri əsasən aşağıdakı sahələri əhatə edir. 1. Elmi-mədəni anlayışları bildirən sözlər;Məsələn, *kalam, kağa, mektup, mağlümat, emtixan, ğılım, meçit* və s. 2. Dini anlayışları bildirən sözlər. Məsələn, *oraza, namaz, dəret, parız, küday, aət* və s. Qazax dilində monqol alınmaları da vardır: S. Cəfərov yazır: "Monqol dilindən alınmalar öz mənşəyi etibarı ilə daha qədim olduğu üçün müasir dilimizdə onları müəyyənləşdirmək çətindir" (7,44). Məsələn, *abdıra, abdara, ayan, baysal, baydı* və s.

Qazax dilində rus sözlərinin keçmə tarixi isə 3 dövrə bölünür. İ. Kazımov I dövrə XVII əsri aid edir. Bu dövrdən etibarən rus sözləri qazax dilinə keçməyə başladı. (11, 68). II dövr XVII-XIX əsrləri əhatə edir. Bu dönəmdən etibarən Qazaxıstan çöllərində ruslar məskunlaşmağa başladılar. *Soxa, borona, xodok, piket, xutor, çaşka, podnos, çarma* və s. Sözlər bu dövrdə qazax dilinə keçdi. III dövr isə sovet dönəmidir ki, bu zaman daha çox rus sözləri qazax dilinə keçməyə başladı. Qazax dilindəki alınma sözlər türkmənşəli və sırf qazax dilinin özünəməxsus sözlərlə əvəzlənir. Məsələn, rubrika(aydar), veteran (ardaqer), universal(əmbebap), şantaj(bopsa), kosmos(ğarış), auiditoriya(dərsxana), daça(jazxana), vizit(sapar) və s.

Qaraqalpaq dilinin alınma leksikasını bunlar təşkil edir: Ərəb alınmaları:*alım, ilim, medrese, payda, sadaka* və s.

Monqol dili ilə ortaq olan sözər: *balta, tütin, sarı, ağa, manlay və s.*

Fars alınmaları: *köşe, duşpan, saray, paxta, duşpan, kepkir və s.*

Rus dili və rus dili vasitəsilə keçən sözlər: *balans, salyut, voleybol, qumanizm, ximiya, və s.*

Qırğız dilindəki alınma leksikanın mənzərəsinə nəzər saldıqda görürük ki, bu dildə ərəbmənşəli alınmalar azlıq təşkil edir. Çünki qırğızlar XVIII əsrə qədər qırğız dili ilə təmasda olmamış, islamı qəbul etməmişlər(10 ,189). Qırğız dilinə ərəb-fars sözləri əsasən uyğurlar vasitəsilə keçmişdir. Lakin bununla belə qırğız dilində fars və

ərəb alınmaları vardır. Fars dili:*jan-can; mayda-balaca; qül;arzan-ucuz; pul;nas-məst; darız-qarpız* və s. Ərəb alınmaları:*bayan-bəyan etmək; kabar-xəbər; dalil-dəlil; mildet-minnət* və s. Qırğız dilində çoxlu miqdarda monqol və tunqus-mancur dilindən alınmalar mövcuddur. F. Zeynalov bu tip sözlərə ehtiyatla və differensial yanaşmanı məsləhət görür(10 , 190). Qırğızlar Altay-hun qəbilələrinin tərkibində olarkən monqollarla sıx əlaqədə olmuşlar. Qırğız dili ilə monqol dilinin müştərək sözlərinə bunları misal göstərmək olar. Məsələn, *sonun-yenilik; xaalğa-qapı; tulqa-dayaq; kele-dil; baraan-siluet* və s.

Təbii ki, qırğız dilində rus dili və rus dili vasitəsilə keçən sözlər xüsusi lay təşkil edir. Bu proses də Orta Asiyanın, o cümlədən Qırğızıstanın Rusiyaya ilhaqından sonra baş vermişdir.

Altay dilinin leksik mənzərəsinə nəzər saldıqda görürük ki, bu dildə külli miqdarda monqol sözləri mövcuddur. "Bu sözlərin əksəriyyərti Altay dövrü ilə bağlıdırsa(bəzi tədqqiatçılar bu sözləri alınma yox, hər iki dil qrupu üçün genetik cəhətdən ümumi hesab edirlər), müəyyən bir qismi Orta türk dövrünün, ikinci mərhələsi(monqol istilası dövrü) ilə əlaqədardır(10, 197). Məsələn, *orun-yer, saa-sağ, tala-talamaq, aru-təmiz, şili-şüşə, kulur-un, çak-çağ və s.*

Altay dilində ərəb-fars sözləri demək olar ki, yoxdur. Bu dildə mövcud olan ərəb, fars-tacik sözləri də XX əsrdə qazax dili vasitəsilə keçib. Məsələn: *aqıl, samın-sabın, kuday-xuda, çaazın-kağızbaa-qiymət və s.*

Tatar dilində işlənən alınma sözləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Ərəb alınmaları: *maksat, kitap, islax, xakim və s.* 2. Fars alınmaları: *dərman, doşman, divan, namaz, xoda, qonah, xərabə və s.* 3. Rus dilindən və rus dili vasitəsilə diğər dillərdən keçən sözlər: *qimn, karavat* və s.

Özbək dilində- alınma leksikanı ərəb-fars sözləri, rus və rus dili vasitəsilə digər dillərdən keçən sözlər təşkil edir. Ərəb-fars alınmaları-*abaydıy, avval, avlod, sabab, maarif, malumat, maxsul, rozi, ruxsat, ovoz* v s.(10, 260).Son illər özbək dilində ekologiya ilə, marketinqlə bağlı alınmalar çoxluq təşkil edir. Məsələn, özbək dilindəki, "ekoloqik, marketoloq" kimi. "Azərbaycan və özbək dillərinin lüğət tərkibində alınma terminlər milli terminlərə nisbətən üstündür" (12,118)."Qeyd etmək lazımdır ki, müstəqillik qazanmış azərbaycanlıların, özbəklərin, uyğurların, salarların dillərində ictimai-siyasi terminologiyanın inkişafında alınma sözlər üstünlük təşkil edir" (9 ,7). Müasir türk dillərində alınmaların iki başlıca istiqaməti mövcuddur. 1.Rus- Avropa mənşəli sözlərin alınıb işlədilməsi; 2. ərəb-fars mənşəli sözlərin alınıb işlədilməsi. Cənub- şərq dilləri ərazi cəhətdən çin dilinə, eləcə də monqol dilinə yaxın olduğu üçün bu dillərin lüğət tərkibinə çin və monqol sözləri də daxil olmuşdur (13 , 227).

"Azərbaycan və özbək xalqlarının tarix boyu başqa xalqlarla münasibəti, ictimai-siyasi, mədəni əlaqələri bu dillərin lüğət tərkibinin zənginləşməsinə gətirib çıxarmışdır. Bu cür şərait həm də bilinqivizmin formalaşmasına xidmət edir. Sözlərin bir dildən başqasına keçməsinin əsas səbəblərindən biri də bilinqivizmdir"(12,121). Məsələn, *afv, keçirim (üzv), polk(alay), ekipac(ekipaj), curnal(jurnal), kağazbazlık(bürokratizm)* .

1990–2000-ci illər Azərbaycan tarixinin elə bir dövrüdür ki, bu on ilin hər ili tarix səhifələrinə qızıl hərflərlə yazılmalıdır. Azadlıq uğrunda aparılan mübarizələrin sonunda müstəqillik əldə edən Azərbaycan bütün çətinliklərə baxmayaraq, bu yolla mətin addımlarla irəliləyir və bu tarixi inkişaf sözsüz ki, milli mətbuatımızdan da yan keçməmişdir. Illər boyu qapalı şəraitdə yaşayan Respublikamız sərhədlərin açılması ilə

həm yaxın qonşumuz Türkiyəyə, həm də Qərbə, Avropaya inteqrasiya etməyə başladı. Bu proses özü ilə dilimizə saysız-hesabsız leksik vahidlər gətirdi və bu, özünü ilk növbədə mətbuatda göstərdi" (3 ,18). "Tariximizin bir çox mərhələləri kimi, iştirakçısı və şahidi olduğumuz əsrimizin 80-cı illərin sonu, 90-cı illər dövrünün dil proseslərinin araşdırılıb öyrənilməsi də böyük əhəmiyyət kəsb edir. Bu illər keçmiş SSRİ-nin tərkibində olmuş türk xalqlarının dövlət müstəqilliyi uğrunda mübarizəsi, milli – demokratik hərəkatın başlanması, SSRİ-nin süqutu, beynəlxalq aləmdə baş verən ictimai-iqtisadi və siyasi proseslərlə, ilk növbədə demokratikləşmə hərəkatı ilə bağlı olmuşdur" (11,65).

Leksik və terminoloji vahidlərin bir dildən diğərinə keçməsi dillərin lüğət tərkibini zənginləşdirməkdə və daxili strukturunu dəyişməkdə önəmli qaynaqlardan biridir. Əgər Sövet dönəmi Türk dilləri Qərb sözlərini rus dili vasitəsilə alırdılarsa, son illərdə "...Qərbdən birbaşa alınmaların intensivliyi xeyli artmışdır"(11,66).

İ. Kazımov türk dillərinə son illərdə bu sahələrlə bağlı leksikanın sürətlə keçdiyini yazır: ictimai-siyasi leksika, maliyə sistemi ilə bağlı leksika, bazar iqtisadiyyatı ilə bağlı leksika, beynəlxalq münasibətlər və diplomatik əlaqələrlə bağlı alınma leksika, ekoloji sahə ilə bağlı leksika, demokratik proseslərlə bağlı alınma leksika, texnologiya sahəsində işlənən alınma leksika, neft strategiyası ilə bağlı leksika, pedoqoji sahə ilə bağlı leksika, transport və nəqliyyatla bağlı alınma leksika, müstəqilliklə bağlı alınma leksika, bazar iqtisadiyyatı ilə bağlı leksika, mətbuatla bağlı alınmalar.

Əsrlər boyu türk dillərinədə ərəb –fars, sonralar rus alınmaları geniş halda işlənsə də, son dövrlərdə bunların yerini Avropa, xüsusilə ingilis mənşəli alımaların işlənməsi tutub. Qərbdən gələn leksika, xüsusilə də, terminlər bütün türk dillərinin leksik fonduna sirayət etməkdədir.

Alınma terminlərin bəziləri müxtəlif türk dillərinə eyni şəkildə keçmişlər. Məsələn, ***insident*** sözü həm Azərbaycan, həm də türkmən dilinə eyni şəkildəkeçmişdir. ***"İneksiya"*** termini eyni şəkildə Azərbaycan və türkmən dillərində işlənir.

"XX əsrdə keçmiş SSRİ-də yaşayan türk xalqlarının milli müstəqillik şüuru təşəkkül tapır, SSRİ-nin dağılması ərəfəsində ölkədə iqtisadi, ictimai-siyasi vəziyyət, siyasi mübarizə və eləcə də ümummilli böhran dərinləşir. 80-ci illərin sonu, 90-cı illərin əvvələindəki ictimai-siyasi proseslər dövründə formalaşan leksikanın sosial-linqvistik təbiətinin açılması çox vacibdir (11 ,19).

Müstəqillik illərində türk dillərinə keçmiş alınma leksikanın öünəməxsus xüsusiyyətləri mövcuddur. Bu illərdə türk dillərindəki alınma leksikada əvvəlki illərdən fərqli xüsusiyyətlər meydana çıxmağa başladı. Alınmalar əvvəlki dövrlərdə olduğu kimi, rus dili vasitəsilə deyil, birbaşa Avropa dillərindən müstəqillik əldə etmiş türk xalqlarının dilinin lüğət tərkibinə keçmişdir (11,117). Müasir dövrdə də Avropa mənşəli alınmalarla paralel ərəb-fars alınmaları da işlənir. Avropa mənşəli alınmalar ərəb-fars alınmalrını sıxışdırır. Müstəqillik illərində türk dillərinə keçən sözlər əsasən KİV-in dilində aktivləşirdi. Türkiyə türkcəsinin, qazax, özbək və qırğız dillərindəki alınmalar keçdikləri dildə olduğu kimi işlənir. Azərbaycan dilində isə alınma leksika əksər hallarda dilimizin qayda qanununa tabe olur.

ƏDƏBİYYAT

1. Qarayev A.H. Müasir Azərbaycan dilində Avropamənşəli leksik alınmalar. Bakı, ADU nəşri, 1989, 95 s.
1. Xudiyev. N. Azərbaycan ədəbi dilinin sovet dövrü. Bakı: Maarif. 1986
2. Yaqubova. T. Azərbaycan mətbuat dilində alınmalar. (990-2000), Bakı, 2008
3. Блумфилд. Л. Язык. М, 1968
4. Реформатский . А. А. Введение в языкознание.М,1955
5. Xəlilov. B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı, 2008
6. Cəfərov. S. Müasir Azərbaycan dili. II, hissə, Bakı, 1982
7. Рахимов. Т. Китайские элементы в современном уйгурском языке. Словаръ. Изд. Наука, Москва, 1970
8. Kazımov. İ. Karluq qrupu türk dillərinin terminoloji leksikası. Türk dillərinin tarixi-müqayisəli leksikologiyası məsələləri, II c. Bakı, 2008
9. Zeynalov. F. Türkologiyanın əsasları. Bakı, 1981
10. Kazımov. İ. Müasir türk dillərinin müqayisəli leksikası. II cild. Bakı, 2010
11. Şükürova. T. Azərbaycan və özbək dillərində müstəillik dövründə termin yaradıcılığının əsas meyilləri. Bakı. 2010 s. . 118
12. Yusifov. M. Türkologiyaya giriş. Bakı. 2001

RƏHMAN QULİYEV

A REVIEW OF BORROW VOCABULARY OF MODERN TURKIC LANGUAGES

SUMMARY

The article is about the borrow lexicon in modern Turkic languages. Researching the development of dynamics of borrow lexical units the author investigated from which languages they were taken. It is learned from the result of investigation that in the independence years the borrow lexicon are specially borrowed from English to the Turkic languages. The most part of these borrowings are the terms. The different scientific literature was used in the writing of the article.

РАХМАН КУЛИЕВ

ОБЗОР ЗАИМСТВОВАНЫЙ ЛЕКСИКИ В СОВРЕМЕННЫХ ТЮРКСКИХ ЯЗЫКАХ

РЕЗЮМЕ

Статье о заимствование лексики в современных тюркских языках. Исследуя-развитие динамики лексических единиц автор исследовализ каких языков они были заимстованы. Из результатов расследования понятно, что в годы независимости заимствование лексики в тюркских языках заимствованы из английского языка. Большая часть из этих заимствований являются термины. Различная научная литература была использована в написании статьи.

Rəyçi: Nizami Cəfərov
professor

SEVDA AĞAYEVA
Bakı Slavyan Universiteti
Email: sevda@rambler.ru

V.SKOTTUN "AYVƏNHƏU" ROMANINDA İŞLƏNMİŞ LATIN DİLİ SÖZ, İFADƏ VƏ CÜMLƏLƏRİN DÖVRÜN MİLLİ-TARİXİ KOLORİTİNİN YARADILMASINDA ROLU VƏ ONLARIN TƏRCÜMƏ PROBLEMİ

Açar sözlər: *latın dili, milli-tarixi kolorit, nizamnamə, əcnəbi sözlər, şərhlər, mətndaxili izahat*
Ключевые слова: *латинский язык, национально-исторический колорит, иностранные слова, объяснения, устав, внутритекстовое объяснение.*
Key words: *latin, national-historical background, rules, foreignisms, commentaries, intra-textual explanation*

Məlumdur ki, zamanın, yerin koloritini yaratmaq üçün müıllif bir çox vasitələrdən istifadə edir. Bu məqsədlə V.Skott "ayvənhəu" romanında həmin effektə nail olmaq üçün çoxlu əcnəbi sözlər, o cümlədən böyük miqdardalatın dilindən olan sız və cümlələr işlətmişdir. Bunun səbəbi nədir?

Məlumdur ki, latın dili (Lingua Latina) qədim hind-avropa yazılı dillərindən biri olub hal-hazırda da Malta Ordeni, şəhər-dövlət Vatikan və qismən Roma-katolik kilsəsinin dilidir. Roma imperiyasının çiçəklənditi dövrdə romalılar Aralıq dənizi ətrafını, Avropanın böyük bir hissəsini, şimali Afrikanı işğal, hətta İngiltərəyə də iki dəfə yürüş etmişdilər. IV əsrdə "İncil"latın dilinə tərcümə olunmuş və bundan sonra o, latın dilindən bir çox dillərə tərcümə olunmuşdur. Avropada latın dili uzun müddət kilsələrdəki moizələrin dili olmuşdur. İngiltərədə indi də kilsələrin birində dini moizə və ibadət latın dilində aparılır.

Latın dili digər dillərin qrammatikası və qrammatik kateqoriyalarının formalaşmasına kömək etmişdir. Hazırda tibbdə, xüsusilə anatomiya, əczaçılıq, biolgiya, botanika, zoologiyada işlənən terminlərin əksəriyyəti latın sözləridir. V.Skottun "Ayvənhəu" romanında təsvir olunan hadisələrin baş verdiyi zamanda İngiltərədə belə bir mənzərə var idi. Bəs V. Skottun "Ayvənhəu" romanında latın dilindən kimlər və hansı məqsədlə istifadə edirlər? Romanda latıncanı birinci olaraq V.Skottun öz dilindən, sonra isə Prior Aymer, ordenin qrossmeystri (başçısı) Bomanuar və rahib Tukun dilindən eşidirik: It was to his person, such as we have described him, that the Prince addressed his imperious to make place for Isaac and Rebecca. Athelstane, utterly confounded at an order which the manners and feelings of the times rendered so injuriously insulting, unwilling to obey, yet undetermined how to resist, opposed only the *vis inertiae* to the will of John; and without stirring or making any motion whatever of obedience, opened his large grey eyes, and stared at the Prince with astonishment...(6). Tərcüməsi: Şahzadə Con üzünü məhz Atelstana tutaraq İsaak və Rebekkaya yer vermək üçün sıxlaşmağı amiranə bir tərzdə tələb edirdi. O zamanlar və o vaxtın anlamına görə təsəvvüredilməz dərəcədə təhqiramiz sayılan belə bir əmrdən özünü itirən Atelstan şahzadənin əmrinə riayət etmək istəmirdi, lakin necə müqavimət göstərməyi də qət edə bilmədiyindən yalnız heç bir cavab verməməklə, özünü eşitməməzliyə vurmaqla kifayətləndi, əmrə tabe olmaq üçün heç yerindən tərpənmədən

qonur rəngli gözlərini geniş açaraq təbəssümlə, gülüşdoğuran bir tərzdə şahzadəyə baxdı. Lakin səbrsiz şahzadə güləcək halda deyildi. (3, 83) *vis inertiae* ətalətin gücü, burada isə inadkarlıq mənasında işlənmişdir, tərcümədə ayrıca sız şəklində öz ifadəsini tapmasa da, cümlənin ümumi anlamında əks olunmuşdur.

Bu və digər misallardan görünür ki, V. Skott dövrünün ziyalıları kimi latın dilini mükəmməl bilirdi, bu təbiidir, çünki V.Skott hüquqşünas idi, indinin özündə də universitetlərin tibb, biologiya, filologiya, hüquq və s. fakültələrində latın dili tədris olunur.

Romanda latın dili sözlərini işlədənlərdən ikinci Kopmanhurst ibadətxanasının rahibi, üçüncüsü Prior Aymer, dördüncüsü benediktçilər ordeninin başçısı Bomanuardır. Kopmanhurst ibadətxanasının rahibinin adı rahibdir, meşədəki kiçik və tənha ibadətxana əslində onun özü və normanların zülmündən qaçaraq meşələrə sığınmış qaçaq-quldur üçün bir əlaqə yeridir.

Romanda nəql olunur ki, Aşbidə cəngavərlərin turniri keçiriləndən sonra turnirin qalibi və onun seçdiyi gözəllik-məhəbbət kraliçasının şərəfinə şahzadə Con böyük ziyafət verir, orada Recinald Fron de Bef, Morris Valdemar, Brayən de Buagilber, Moris de Brasi, prior Aymer, çox sayda norman zadəganları ilə birlikdə qalib tərəfdən yalnız Sedrik Saks və Nahazır ayaması ilə tanınan Atelstan iştiorak edirlər. Ziyafətdə sonuncu iki nəfərin yeməkdən əvvəl əllərini qurulamaları, yemək tərzləri, geyimləri, Hasting döyüşündə məğlub olmaları məsxərəyə qoyulur, bütün bunlara baxmayaraq həmin iki nədər ziyafəti də qalib kimi tərk edir, çünki Sedrik Saks ziyafətə sahiblik edən şahzadə Connun yox, onun qadaşı Şirürək ləqəbi ilə tanınan Riçardın şərəfinə badə qaldırır.

Turnirdə qardaşının Fransada həbsdən qurtulub vətənə döndüyünü xəbərini alan şahzadə Con ziyafətdən sonra tərəfdarlarını başına toplayaraq hansı yolla olursa-olsun qardaşı Riçardın öz qanunu taxt-tacına yiyələnməsini əngəlləmək yollarının axtarışında ikən orada Recinald Fron de Bef, Brayən de Buagilber, Moris de Brasi Sedrik Saks, qızı Robena, nökər və qulluqçuları, eləcə də təsadüfən yolda götürdükləri yəhudi İsaak, qızı Rebecca, nökər və qullqçuları, turnirdə yaralanmış Vilfred Ayvənhəunu əsir götürürlər. Burda hər kəsin özümün marağı var: Moris de Brasi zorla Rovenanı özünə arvad edib onun mal-mülkünə yiyələnmək, Brayən de Buagilber yəhudi İsaakın qızı Rebekkanın namusuna toxunmaq, atasından böyük məbləğdə pul almaq, Recinald Fron de Bef isə öz qəsrində yer verdiyi üçün onlardan yer haqqı almaq niyyətindədir. Lakin Loksli və Qara Tənbəl ayamalı cəngavər də öz xilas tədbirlərini davam etdirirlər. Əvvəlcə Qurt və Vambanın dilindən yazılmış bir məktubu qəsrə göndərirlər. Məktub müəllifləri qəsrdəki cəngavərləri döyüşə çağırır və əsirləri qeydsiz-şərtsiz azad etməyi tələb edirlər. Bu zaman məlum olur ki, nəinki sadə kütlə, cəngavərlərin, zadəganların əksəriyyəti tamamilə savadsızdır, yazıb oxuya bilmirlər. Recinald Fron de Bef, Brayən de Buagilber, Moris de Brasi göndərilən tələbi redd edir və əlavə olaraq əsirlərin etirafını qəbul eməsi üçün ora bir keşiş göndərilməsini istəyirlər.Təlxək Vamba keşiş libası geyinir, *Pax vobiscum!* (Sizə sülh, əminamanləq arzulayıram!) (3, 207) deməklə özünün latın dili bilgisini oradakılara nümayiş etdirir və qəsrə daxil olur, burada da eyni sözləri təkarlamaqla (p.207) qəsrdəkilərə başa salır ki, əsirlərin ölümqabağı etirafını qəbul etmək üçün gəlib. Orada ağası Sedrik Saksla görüşür, onunla palrarını dəyişir və onun yerinə əsir qalır. Sedrik Saks qəsrdən çıxaraq oranı mühasirə edənlərə qoşulur. Qəsrə girib-çıxmaq latın dilindən bir neçə kəlmənin hesabına əldə edilir. Təlxək Vamba

Recinald Fron de Beflə mükaliməsində latın dilində bir neçə kəlmə işlətməklə ona özünün keşiş olduğuna inandırır: 'Who and whence art though, priest?' said he. '*Pax vobiscum,*' reiterated the Jester, 'I am a poor servant of St Francis, who, travelling through this wilderness, have fallen among thieves, (as Scripture has it,) *quidam viator incidit in latrones*, which thieves have sent me unto this castle in order to do my ghostly office on two persons condemned by your honourable justice.' 'Ay, right, 'answered Fron-de-Boeuf; 'and canst thou, Holy Father, tell me the number of those banditti?' 'Gallant sir,' answered the Jester, '*nomen illis legio*, their name legion'. 'Tell me in plain terms what numbers there are, or, thy cloak and cord will ill protect thee'.

'Alas!' said the supposed friar, '*cor meum eructavit*, that is to say I was like to burst with fear! But I conceive they may be – what of yeomen – what of commons, at least five hundred men.' (2, 208) Tərcüməsi: - Rahib, kimsən, haradansan? – deyə soruşdu.

- *Pax vobiscum*, – deyə yenə də həmin salamı təkrar etdi.

- Müqəddəs fransiskan ordenindən kasıb bir rahibəm, yolla meşədən keçərkən quldurların əlinə keçdim. Müqəddəs "İncil"də deyildiyi kimi, *quidam viator incidit in latrones,* onlar məni bura göndərdilər ki, sizin hörmətəlayiq ədalətinizlə ölümə məhkum etdiyininz iki nəfərlə bağlı öz müqəddəs vəzifəmi yerimə yetirim.

- Hə, düz deyirsən, müqəddəs ata, bəs deyə bilməzsən ki, orada nə qədər quldur var idi? – Frn de Bef soruşdu.

- Hörmətli cənab, - təlxək cavab verdi, - *nomen illis legio*, yəni o sayda olan dəstəyə legion deyirlər.

- Mənə aydın şəkildə de görüm, neçə nəfərdirlər, yoxsa sənin nə rahib libasın,

nə də qurşağın canını qurtara bilər.

- Əfsuslar olsun! – yalançı təlxək cavab verdi, - *Cor meum eructavit*, yəni az

qalmışdı ki, qorxudan bağrım çatlaya! Ancaq mənim fikrimcə, yomen, adi adamlar və qaçaq-quldurla birlikdə, ən azı, beş yüz nəfər olardı (3, 256).

Qiyafəsini dəyişmiş təlxək Vamba *Pax vobiscum*!(Sizə sülh, əminamanlıq arzulayıram!) deməklə nəinki Recinald Fron-de-Befə, hətta ağası Sedrik Saks və Atelstana özünün keşiş olduğuna inandıra bilir. (p.209) Bütün bunlar romanda təsvir olunan hadisələrin baş verdiyi dövrdə dini-xürüfatın gücünü, din xadimləri üçün latın dili bilgisinin nə qədər vacib olduğunu göstərir, çünki xristianların müqəddəs kitabı "Incil" hələ ingilis dilinə tərcümə olunmamışdı. Məsələ burasındadır ki, bu romanda latın dilinin əsas və mükəmməl biliciləri Prior Aymer və Benediktçilər Ordenin başçısı Bomanuar sayılmalıdır. Prior Aymer əlindən alınmış əmlakının geri qaytarılmasını tələb edir, bundan sonra dəlisov rahibin söhbətə müdaxiləsi vəziyyəti gərginləşdirir, Prior Aymer yüksək ruhani rütbəsini latınca danışması ilə ilə nümayiş etdirir, onun Kopmanhurst ibadətxanasının dəlisov rahibi ilə ağızlaşmasını V.Skott belə təsvir edir: The yeomen separated the incensed priests, who continued to raise their voices, vituperating each other in the bad Latin, which the Prior delivered more fluently, and the Hermit with the greater vehemence. The Prior at length recollected himself sufficiently to be aware that that he was compromising his dignity, by squabbling with such a hedge priest as the Outlaw's chaplain, and being joined by his attendants, rode off with considerably less pomp, and in much more apostolical condition, so far as worldly matters were concerned, than he had exhibited before his rencounter (p. 292).

Tərcüməsi: Yomenlər bu iki qəzəblənmiş keşişi br-birindən araladılar, buna baxmayaraq, onlar ucadan bir-birini təhqir edir, sınıq salxaq latın dilində söyüşürdülər, ancaq Aymerin latıncası daha səlis, rahibinki isə səlis olmasa da, ifadəli idi. Nəhayət Aymerin yadına düşdü ki, qaçaqların kapellanı ilə bu cür ağız-ağıza verməsi onu hörmətdən salır, ona görə də monax yoldaşlarını çağırıb əvvəlki qaydada yox, təmtəraqsız, keşişə yaraşan tərzdə yola düşdü. (3, 361).

Romandakı hadisələrin baş verdiyi dövrdə latın dili Avropada mühüm rol oynaıyırdı, beləki bütün Avropa dövlətləri səlib yürüşlərinə cəlb olunmuşdu, ayrı-atrı yerlərdə yaranmış cəngavər ordenlərinin nizamnamələri latın dilində yazılırdı ki, bütün Avropa əhli onları oxuya bilsin. Bu, benediktçiləroOrdeninin başçısı Luka Bomanuarın Templstou monastrının başçısı Konrad Mont Fitçet ilə mükaliməsində, Brayən de Buagilberlə sorğu-sual etməsi və yəhudi qızı Rebekkanın cadugərlikdə ittiham olunaraq mühakiməsi prosessində bariz şəkildə müşahidə olunur. Məsələn, Bomanuar Konraddan ordenlərinin nizamnaməsinin qırx-beşinci maddəsində belə yazıldığını deyir, ancaq onu izah etmir: 'Why are you mute?' continued the Grand Master. "Is it permitted to me to reply?' answered the Preceptor, in a tone of the deepest humility, although by the question he only meant to gain an instance's space for arranging his ideas.

'Speak, you are permitted', said the Grand Master – 'speak, and say, knowest thou the capital of our holy rule, *De commilitonbus of Templi in sancta civitate, qui cum misserrimis mulieribus versantur, propter oblectationem carnis?*' (2, 313) Tərcüməsi: - İcazə verirəm, danış; de görüm bizim müqəddəs *nizamnamənin De commilitonbus of Templi in sancta civitate, qui cum misserrimis mulieribus versantur, propter oblectationem carnis* fəslini bilirsənmi?(Ordenin latın dilindəki nizamnaməsinin bu bəndinin tərcüməsi romanın sonunda belə verilmişdir: *Ordenimizin cəngavərlərinin müqəddəs şəhərdə öz ehtiraslarını söndürmək üçün ən pozğun qadınlarla əlaqədə olduğuna dair fəsli*). Bomanuar məhkəməni davam etdirdikcə öz ordeninin nizamnaməsinə istinad edir. Orada yazılanları hamı bilməsə də preseptoriyaların başçıları onu tam şəkildə bilməli idilər, buna görə də Bomanuar nizamnamənin müvafiq maddələrini sadaladıqda ingilis dilində onların izahatını vermir: '…If we could suppose it otherwise, think not rank, valour, high repute, or any earthly consideration, should prevent us from visiting him with punishment, that the evil thing might be removed, even according to the text, *Auferte malum ex vobis.* For various and heinous are the acts of transgression against the rule of our blessed Order in this lamentable history. First, he has walked according to his proper will, contrary to capital thirty-three, *Quod mullus juxta propriam voluntatem incedat. Second, he hath held communication with an excommunicated person, capital fifty-seven, Ut fratres non participent cum communicatis*, and therefore hath a portion in *Anathema Maranatha*. Third, he hath conversed with strange women, contrary to the capital, *Ut fratres non conversantur cum extraneis mulieribus.* Fourth, he hath not avoided the last rule of our renowned Order, *Ut fugiantur oscula,* the soldiers of the Cross ate brought into a snare.'... He paused. A low murmur went through the assembly. Some of the younger part, who had been inclined to smile at the statute *De osculis fugiendis*, became now grave enough, and anxiously waited what the Grand Master was next to propose. (2, 322) Tərcüməsi: ...Əgər ayrı cür düşünsəydik, onun rütbəsini, göstərdiyi igidlikləri, yüksək nüfuza malik olduğunu, yaxud digər xidmətlərini nəzərə almasayadıq, onda bu şəri kökündən çıxarıb məhv etmək üçün heç nə bizə mane ola bilməzdi. Hətta müqəddəs kitabda deyilir ki,

Auferte malum ex vobis, yəni iblisi aranızdan çıxarmaq lazımdır. Biz bu təəssüf doğuran hadisədə ordenimizin müqəddəs nizamnaməsinə qarşı bir sıra cinayətlərin edildiyini görürük. Birincisi, otuz üçüncü bənddə deyilənlərin əksinə olaraq, o, özbaşına bu işi görmüşdür, quod mullus juxta propriam voluntatem incedat, yəni heç kəs özbaşına hərəkət etməməlidir. İkincisi, əlli yeddinci bənddə deyilir: *Ut fratres non participent cum communicatis,* yəni kilsədən üz döndərmiş bir şəxslə intim əlaqəyə girmişdir; buna görə də *Anathema Maranatha* –da payı var, yəni ordendən qovulmağa və lənətlənməyə layiqdir. Üçüncüsü, həmin bənddə deyilir: *Ut fratres non conversantur cum extraneis mulieribus,* yəni cəngavər qardaşımız yad ölkənin qadınları ilə ünsiyyətə girməməlidir. Bunun ziddinə olaraq Buagilber tanış olmadığı qadınla söhbər etmişdir. Dördüncüsü, o, həmin qadını öpməkdən imtina etməmişdir, xeyr, çox güman ki, özü qadından öpülməyə icazə verməyi xahiş etmişdir. Ordenimizin nizamnaməsinin son bəndinə *Ut fugiantur oscula,* the soldiers of the Cross are brought into a snare. yəni öpməkdən imtina etmək – bu da müqəddəs xaç əskərlərinin şirniklendirilməsi, tələyə salınması deməkdir, yəni cəngavər öpməkdən yayınmalıdır. ..Bundan sonra Bomanuar nitqinə ara verdi. Zaldan pıçıltı dolu bir uğultu keçdi. Qrossmeyster nizamnamənin *De osculis fugiendis,* yəni öpməkdən özünü saxlamaq zərurəti haqqındakı bəndindən danışarkən oradakı gülməyə meylli cavan təbəqə Bomanuarın son sözlərini eşitdikdə tutuldu; intizar içində nə təklif edəcəyini gözləməyə başladılar. (6, 399-400).

Beləliklə, romanda dövrün səciyyəsini təsvir etmək üçün latın dilindən istifadə edilməsinin əsasən üç məqamını və üç tərcümə variantının şahidi olduq. Birinci halda latın dili materialı neytrallaşdırılmışdır, bundan ancaq romanı orijinalda oxuyan adam hali ola bilər. Ikinci halda latın dilindəki qısa ifadə, yaxud sözün mənası oradaca mötərizədə verilir. Üçüncü halda uzun cümlə, yaxud ifadənin mənası həmin cümlə, yaxud ifadədən sonra vergül işarəsi qoyularaq tərcüməsi verilir. Bu üsul oxucunun işni asanlaşdırır, o, sözün, ifadənin, yaxud cümlənin mənasını çıxışda, yaxud əsərin şərhlər hissəsində axtarmalı olmur, diqqəti hadisələrdən yayınmır. V. Skott bu romanda ayrı yolla getmişdir. Məlumdur ki, yazıçının oxucuları da latın dilinin biliciləri deyildilər, ona görə də müəllif romanı böyük sayda, təxminən dörd yüz iyirmi yeddi şərhlə təchiz etmişdir.

ƏDƏBİYYAT

4. Scott W. “Ivanhoe”, London, 2000, 439 p.
5. Skott W. “Ayvənhəu”. Bakı, 2013, 518 s.
6. Bayramov Q.H. Tərcümə sənəti, Bakı, 2008, 251 s.
7. Galperin I.R. Stylistics, M., 1971, 343 p.
8. Newmark P. Approaches to Translation, Cambridge University Press, 1988, 200 p.
9. The Translation Studies Reader, edited by Lawrence Venuti, L., 2000, 524 p.
10. Nord Ch. Text Analysis in Translation, Amsterdam, 1991, 249 p.

С.Г.АГАЕВА

ИСПОЛЬЗОВАНИЕ ЛАТИНСКИЙ СЛОВ, ФРАЗ И ПРЕДЛОЖЕНИЙ В РОМАНЕ В.СКОТТА «АЙВЕНГО» ДЛЯ СОЗДАНИЯ НАЦИОНАОЛЬНО-ИСТОРИЧЕСКОГО КОЛОРИТА И ПРОБЛЕМ ИХ ПЕРЕВОДА

РЕЗЮМЕ

В статье говорится об использовании латинского языка, о его специальном предназначении в период, описанный В.Скоттом в романе "Айвенго" и о путях перевода его на азербайджанский язык. Автор указывает на то, что переводчик элементы латинского языка может реализовать в переводе тремя путями: в первом случае материалы латинского языка нейтрализуются, об этом может знать лишь читающий произведение в оригинале. Во втором случае там же дать перевод латинских слов и выражений в скобке, а в третьем случае преложения с помощью знаков препинания, в частности запятой, давать перевод.

S.H.AGAYEVA

THE USAGE OF THE LATIN LANGUAGE, ITS PURPOSE IN THE PERIOD DESCRIBED BY W. SCOTT IN HIS NOVEL “IVANHOE” AND THE METHODS OF HOW THEY HAVE BEEN TRANSLATED INTO AZERBAIJANI

SUMMARY

The article speaks about the usage of the latin language, its purpose in the period described by W. Scott in his novel “Ivanhoe” and the methods of how they have been translated into Azerbaijani. The author says that the translator has transformed the said elements into Azerbaijani in three ways, first, by neutralizing the Latin elements, second, by giving their meaning in brackets, third, by giving their translations directly after those elements by adding Azerbaijani *yəni,* which means “that is”.

Rəyçi: prof. Q.H.Bayramov

İLAHƏ MƏMMƏDOVA
ADU
ilaha_1976 @ mail.ru

İNGİLİS DİLİNDƏ PREFİKSLƏR VASİTƏSİLƏ SÖZDÜZƏLTMƏ

Açar sözlər: *söz yaradıcılığı, məhsuldar, suffiks, prefiks, kök, linqvistika, söz.*
Key words: *word-formation, productive, suffix, prefix, stem, linguistics, word.*
Ключевые слова: *словообразование, продуктивный, суффикс, префикс, корень, лингвистика, слово.*

Xalqın elmi və bədii təfəkkürünün güzgüsü dilin lüğət tərkibidir. Lüğət tərkibinin zənginliyi bu və ya digər xalqın təfəkkürünün dərinliyindən və genişliyindən xəbər verir. Xalqın ictimai şüurunun inkişafı, ümumi intellektual səviyyəsinin yüksəlməsi və s bu kimi faktorların təsiri ilə dilin lüğət tərkibi durmadan dəyişir və zənginləşir. Dilin lüğət tərkibi həm dilin öz milli bazası, yəni öz lüğət fondu hesabına, həm də başqa dillər hesabına zənginləşə bilir. Qeyd etmək lazımdır ki, dilin öz milli bazası – lüğət fondu hesabına lüğət tərkibinin zənginləşməsi daha mütərəqqi haldır. Belə ki, elmi, ədəbi-bədii dil və ümumiyyətlə, milli ədəbi dilin bütün üslubi sahələri milli mənbə hesabına zənginləşdikdə daha anlaşıqlı və ifadəli olur. İngilis dilində söz yaradıcılığı dillərdə olduğu kimi dilin yarandığı dövrdən başlayaraq daim inkişafda olmuş,bir proses kimi insanların bir tarixi quruluşdan digərinə keçidi zamanı özünü daha aydın büruzə vermış və yeni anlayışları ifadə etmək üçün yeni sözlərin meydana gəlmə ehtiyacını təmin etmişdir.

Artıq çoxdan sübut olunmuşdur ki, dünyada heç bir dil təcrid edilmiş şəkildə inkişaf etmir. Xarici aləm daim ona təsir edir və onun müxtəlif sahələrində diqqəti cəlb edən izlər buraxır. Qeyd etmək lazımdır ki, dillərin qarşılıqlı əlaqə və münasibətləri hələ qədim zamanlardan mövcud olmuşdur. Dünyada başqa xalqlardan tam təcrid olunaraq yaşamış xalq təsəvvürə gətirmək çətindir. Cəmiyyət yaranandan müxtəlif tayfa, qəbilə, xalq və millətlər hə- mişə bir- biri ilə təmasda olmuşdur.Bu təmasın forma və məzmunundan asılı olmayaraq, güclü etnik birləşmələr zəif etnik birləşmələri özünə tabe etmiş, müxtəlif xalqlar arasında müxtəlif əlaqələr yaratmışlar. Bütün bunların nəticəsində xalqlar, onların dilləri qaynayıb- qarışmış, bir- birinə qarşılıqlı təsir və bir- birindən sözalma prosesləri baş vermişdir. Ona görə də xalqların həyatında dil əlaqələrinin rolu inkaredilməz dərəcədə böyükdür. Dil əlaqələrini xalqlar və millətlər arasındakı digər əlaqələrdən ayırmaq mümkün deyil. Qeyd etdiyimiz kimi bu əlaqələr nəticəsində dilin lüğət tərkibi kifayət qədər zənginləşmişdir.

Dilin söz ehtiyatının zənginləşməsi yollarından biri də söz yaradıcılığıdır. Söz yaradıcılığı dilçilik elminin yeni sözlərin yaranması ilə məşğul olan sahəsidir. Söz yaradıcılığının aşağıdakı üsulları vardır:

a) Sözlərin kökünə müxtəlif şəkilçilər artırmaqla yeni sözlərin düzəldilməsi;

b) Sözlərin kökünə söz artırmaqla yeni sözlərin düzəldilməsi;

c) Sözün bir nitq hissəsindən başqa nitq hissəsinə keçməsi ilə yeni sözlərin düzəldilməsi;

d) Sözə yeni məna verməklə yeni sözlərin düzəldilməsi.

Bunlardan birincisi, dilçilik ədəbiyyatında morfoloji üsulla söz yaradıcılığı da adlanır. Müxtəlif dillərdə şəkilçilər müxtəlif olduğundan bu üsulun müxtəlif növləri vardır:

a) son şəkilçili söz yaradıcılığı;

b) orta şəkilçili (infeksial) söz yaradıcılığı;

c) önşəkilçili (prefiksal) söz yaradıcılığı.

Yuxarıda qeyd edildiyi kimi söz yaradıcılığında, ingilis dilinin lüğət ehtiyatının zənginləşməsində prefikslərin də xüsusi yeri, əhəmiyyəti vardır. Sözün əvvəlinə artırılan şəkilçilərə prefikslər deyilir. Prefiklər ən çox flektiv dillərdə olur. Məsələn, rus dilində вход, выход, доход, проход, приход, уход, заход, переход, преход, сход, отход sözlərində *в, вы, до, про, при, у, за, пере, пре, с, от* morfemləri prefikslərdir. Fars dilində basəfa, namərd, binəsil, miqoft sözlərində *ba, bi, na, mi* morfemləri də prefikslərdir. İngilis dilində disappear, overwork, rewrite, subdivision, uncomfortable sözlərində *dis, over, re, sub, un* morfemləri prefikslərdir.

İngilis dilinin qrammatik quruluşuna aid ingilis dilində yazılmış monoqrafiya, dərslik və dərs vəsaitlərində, habelə digər dillərdə (məsələn, Azərbaycan və rus dillərində) yazılmış əsərlərdə, ingilis dilinin praktik və nəzəri qrammatikalarında ingilis dilində işlənən prefisklər haqqında məlumata rast gəlmək olar. Azərbaycan dilçiləri İ.Rəhimov və T.Hidayətzadə "İngilis dilinin praktik qrammatikası" kitabında ingilis dilində işlənən prefikslərə aid geniş məlumat verilir: "İngilis dilində düzəltmə sözlər törəmə və mürəkkəb sözlər qrupuna bölünür. Törəmə sözlər aşağıdakı qayda ilə əmələ gəlir: a) sözdəki vurğunun dəyişməsi vasitəsilə əmələ gələn sözlər; b) sözün tələffüzü və yazısı dəyişmədən əmələ gələn yeni sözlər; c) səslərin əvəzlənməsi vasitəsilə əmələ gələn yeni sözlər; ç) şəkilçilər vasitəsilə əmələ gələn yeni sözlər" Müəlliflər şəkilçiləri iki qrupa ayırırlar: prefikslər və suffikslər. Onlar prefisklər haqqında ətraflı danışır, habelə göstərirlər ki, prefisklər sözün mənasını dəyişir, lakin sözü bir nitq hissəsindən başqa bir nitq hissəsinə çevirmir; məsələn: *happy (sifət) "xoşbəxt" – unhappy (sifət) "bədbəxt", to like (feil) "xoşlamaq" – to dislike (feil) "xoşlamamaq", comfortable (sifət) "rahat" – uncomfortable (sifət) "narahat", to load (feil) "yükləmək" – to overload (feil) "həddindən artıq yükləmək* və s.

Prefikslərin təsviri zamanı bəzən belə bir faktı xüsusilə vurğulayaraq qeyd edirlər ki, suffikslərdən fərqli olaraq, guya prefikslərin bir nitq hissəsini digərinə nəql etmə xüsusiyyətləri yoxdur və onlar yalnız sözlərin mənalarını dəyişməyə xidmət edirlər. Müəlliflərin bəziləri bu barədə kəskin şəkildə fikir yürüdərək deyirlər ki, prefikslərlə suffikslər arasında prinsipial fərq mövcuddur. Bu təkcə onunla izah olunur ki, suffikslər söz kökündən sonra, prefikslər isə söz kökündən əvvələ qoyulur. Əsas fərq ondan ibarət olur ki, suffikslər bu və ya digər nitq hissəsinin kökünə qoşularaq, onları digər qrammatik kateqoriyalara (*to eat-eatable, home – homeless, happy – happiness, to develop – development və s.)* aid edə bildikləri halda, prefikslər bu cür xüsusiyyətlərə malik deyil (*to like-dislike, comfortable-uncomfortable, to divide – to subdivide, to act – to interact, to connect – to disconnect, reliable – unreliable və s.).* İngilis dilində prefikslər yalnız və yalnız sözlərin leksik mənasını yenidən qurma vasitəsi olma funksiyasını yerinə yetirirlər". Digər linqvistlər isə prefikslərin bir nitq hissəsinin digərinə nəql etmə xüsusiyyətlərinə malik olduğunu qəbul edirlər, lakin belə hesab edirlər ki, bu funksiyada prefikslər yalnız istisna hallarda çıxış edirlər.

Rus dilçisi M.A.Belyayev ingilis dilində məhsuldar işlənən prefiskləri aşağıdakı kimi təsnif edir:

1. İsim və sifətlərə artırıldıqda inkarlıq mənası əmələ gətirən prefikslər: *un, dis.*
2. Fellərə artırıldıqda hərəkətin əksi mənası yaradan prefikslər: *de*, *dis,un.*

Bundan başqa müəllif *pre, re, sub* prefiklərini də araşdırır. Tanınmış dilçi-alim M.Y.Blox "İngilis dilinin nəzəri qrammatikası kursu" adlı əsərində prefikslərə aid geniş məlumat verir. İngilis dilində işlənən prefikslərə aid müfəssəl məlumata V.L.Kauşanskayanın "İngilis dili qrammatikası" adlı əsərində də rast gəlmək olar. K.A. Levkovskaya "Sözdüzəltmə sistemində prefiksasiyanın spesifikliyi haqqında" (alman dilinin materialı əsasında) əsəsrində prefiksləri sözdüzəldici morfemlər adlandırır və onların söz kökündən əvvəl gəldiyini və sözün leksik mənasını dəyişdiyini və əksər hallarda onun bu və ya digər leksik-qrammatik sinfə məxsus olmasına təsir göstərmədiyini qeyd edir. Başqa bir Azərbaycan dilçisi O.Musayev "İngilis dilinin qrammatikası" adlı dərsliyində ingilis dilində prefisklərin mövcudluğundan bəhs edir və *unhappiness, reconstruction* tipli sözlərin *un+happi+ness, re+construct+ion* şəklində bölgüsünü göstərir.

Yuxarıda qeyd etdiyimiz məlumatları ümumiləşdirərək ingilis dilində prefiksləri (ön şəkilçiləri) aşağıdakı kimi təsnif etmək olar.

I. Prefiks + feil → feil

1.***Un*** – ziddiyyət, əks məna, inkarlıq bildirir. Məs:
To button (düymələmək) – to unbutton (düyməni açmaq)
To dress (geyinmək) – to undress (soyunmaq)
To believe (inanmaq) – to unbelieve (inanmamaq)
To bend (əyilmək) – to unbend (düzəlmək, dikəlmək)
To fasten (bağlamaq, bərkitmək) – to unfasten (açmaq) və s.

2.***Dis*** – həm inkar, həm də əks məna əmələ gətirir. Məs:
To like (xoşlamaq) – to dislike (xoşlamamaq)
To appear (meydana gəlmək, peyda olmaq) – to disappear (yoxa çıxmaq, gözdən itmək)
To connect (əlaqə yaratmaq) – to disconnect (əlaqəni ləğv etmək, əlaqəni kəsmək)
To arm (silahlanmaq) – to disarm (tərk-silah etmək)
To agree (razılaşmaq) – to disagree (razılaşmamaq) və s.

3.***Re*** – yenidən, təkrar mənasını əmələ gətirir. Məs:
To write (yazmaq)n - to rewrite (yenidən yazmaq)
To build (tikmək) - to rebuild (yenidən tikmək)
To visit (baş çəkmək, getmək) – to revisit (yenidən baş çəkmək)
To open (açmaq) – to reopen (yenidən açmaq)
To read (oxumaq) – to reread (yenidən oxumaq) və s.

4.***Mis*** – düzgün olmayan, səhv mənasını ifadə edir. Məs:
To understand (başa düşmək, anlamaq) – to misunderstand (səhv başa düşmək, yanlış anlamaq)
To inform (məlumat vermək) – to misinform (səhv məlumat vermək)
To hear (eşitmək) – to mishear (səhv eşitmək)

To lead (rəhbərlik etmək) – to mielead (çaşdırmaq, azdırmaq, yolundan çıxarmaq)
To pronounce (tələffüz etmək) – to mispronounce (səhv tələffüz etmək)
5.***Over*** – daha çox, həddindən artıq mənasını ifadə edir. Məs:
To load (yükləmək) – to overload (həddindən artıq yükləmək)
To sleep (yatmaq) – to oversleep (çox yatmaq)
To cook (bişirmək) – to overcook (çox bişirmək)
To work (işləmək) - to overwork (həddindən çox işləmək)
To produce (istehsal etmək) – to overproduce (həddindən çox istehsal etmək) və s.
6.***Under*** – az, kifayət etməyən mənasını ifadə edir. Məs:
To value (qiymətləndirmək) – to undervalue (az qiymətləndirmək)
To pay (ödəmək, haqqını vermək) – to underpay (az ödəmək, qiymətindən kəsmək)
To feed (yedizdirmək) – to underfeed (kifayət qədər yedizdirməmək)
To develop (inkişaf etmək) – to underdevelop (zəif inkişaf etmək)
To sell (satmaq) – to undersell (dəyərindən aşağı qiymətə satmaq) və s.
7.***Co*** – birlikdə mənasını bildirir. Məs;
To operate (əməliyyat etmək) – to cooperate (əməkdaşlıq etmək)
To exist (mövcud olmaq) – to coexist (bir yerdə yaşamaq)
To own (yiyələnmək, sahibi olmaq) - to coown (birlikdə sahiblik etmək) və s.
8.***Inter*** – arasında, qarşılıqlı mənasını bildirir. Məs:
To act (hərəkət etmək, fəaliyyət göstərmək) – to interact (qarşılıqlı fəaliyyət göstərmək)
To face (üzləşmək, qarşılaşmaq) – to interface (qarşı-qarşıya gəlmək)
To mix (qarışdırmaq) – to intermix (qarşılıqlı şəkildə qarışdırmaq) və s.

II. Prefiks + isim → isim

1. ***Ex*** – keçmiş, sabiq mənasını ifadə edir. Məs:
President (prezident) – ex-president (keçmiş prezident, eks- prezident)
Minister (nazir) – ex-minister (keçmiş nazir)
Chairman (sədr) – ex-chairman (keçmiş sədr) və s.
2. ***Co*** – birgə mənasını bildirir. Məs:
Author (müəllif) – co-author (həmmüəllif)
Operation (fəaliyyət) –cooperation (birgə fəaliyyət)
Existence (mövcud olma, mövcudiyyət) – co-existence (birgə yaşama) və s.
3. ***Counter*** - əks, kontr mənasını ifadə edir. Məs:
Attack (hücum) – counter-attack (əks hücum)
Blow (zərbə) - counter-blow (əks zərbə)
Proposal (təklif) – counter-proposal (əks təklif)
Example (nümunə) – counter-example (əks nümunə) və s.
4. ***Mis*** – səhv mənasını bildirir. Məs:
Pronunciation (tələffüz) – mispronunciation (səhv tələffüz)
Management (menecment, idarəçilik) – mismanagement (səhv idarəetmə)
Behavior (davranış) – misbehavior (səhv davranış) və s.
5. ***Dis*** – əks mənasını bildirir. Məs:
Comfort (rahatlıq) – discomfort (narahatlıq)
Like (xoşlama) – dislike (xoşlamama)

Agreement (razılıq) – disagreement (razılaşmama)
Advantages (üstünlüklər) – disadvantages (çatışmazlıqlar) və s.

III. Prefiks + sifət → sifət

1. ***Un*** – ziddiyyət, əks məna əmələ gətirir. Məs:
Known (tanınmış) – unknown (naməlum)
Happy (xoşbəxt) – unhappy (bədbəxt)
Certain (müəyyən) – uncertain (qeyri-müəyyən)
Believable (inanılan) – unbelievable (inanılmaz)
Able (bacarıqlı) – unable (bacarıqsız) və s.
2. ***Im, ir, il, in*** - əks məna ifadə edir. Məs:
Definite (müəyyən) – indefinite (qeyri-müəyyən)
Regular (qaydalı) – irregular (qaydasız)
Patient (səbirli) – impatient (səbirsiz)
Legal (qanuni) illegal (qeyri-qanuni)
Direct (vasitəsiz) – indirect (vasitəli)
Visible (gözə görünən) – invisible (gözəgörünməz) və s.
3. ***Dis*** - əks mənanı ifadə edir. Məs:
Honest (vicdanlı) – dishonest (vicdansız)
Loyal (sadiq) – disloyal (qeyri-sadiq)
Similar (oxşar) – dissimilar (fərqli, oxşar olmayan) və s.
4. ***Non*** - əks məna ifadə edir. Məs:
Effective (effektli) – non-effective (effektsiz)
Productive (məhsuldar) – non-productive (qeyri-məhsuldar)
Political (siyasi) – non-political (qeyri-siyasi)
Neutral (neytral) – non-neutral (neytral olmayan) və s.
5. ***Pre*** -əvvəl, ***post*** – sonra, ***anti*** - əleyhinə mənasını ifadə edir. Məs:
War (müharibə) - prewar (müharibədən əvvəl)
postwar (müharibədən sonra)
antiwar (müharibə əleyhinə) və s.

Bəzi hallarda sözə prefix əlavə etdikdə söz bir nitq hissəsindən başqa bir niyq hissəsinə keçir. Məs: en – large (geniş) – to enlarge (genişləndirmək), rich (varlı, dövlətli) – to enrich (varlanmaq). Bəzi hallarda isə prefikslər tarixən sözdüzəltmədə istifadə edilsə də bu gün onları kökdən ayırmaq olmur. Məs: remain, reduce, discuss, submit, prepare və s. Buna səbəb həmun prefikslər ayrıldiqdan sonra kökün heç bir mənaya malik olmaması və ya prefikslə işlənən sözün mənası ilə üst-üstə düşməməsidir. Bu səbəbdən bu sözlər artıq düzəltmə deyil, sadə sözlər hesab edilirlər.

ƏDƏBİYYAT

1. Babayev A. “Dilçiliyə giriş” Bakı, 1992
2. Məmmədov N., Axundov A. Dilçiliyə giriş, Bakı, 1980.
3. Rəhimov İ., Hidayətzadə T. İngilis dilinin praktik qrammatikası, Bakı, 1965.
4. Musayev O. İngilis dilinin qrammatikası. Bakı, 1986.
5. Каушанская В.Л. Грамматика английского языка. Ленинград, 1973.

6. О.Д.Мешков. «Словообразование современного английского языка». Издательство, «Наука», Москва, 1976.
7. Беляев М.А. Грамматика английского языка. М., 1976.
8. Bloch M.Y. A Course in Theoretical English Grammar. M., 2006.
9. Oxford Dictionary 2010
10. http://en.wikipedia.org/wiki/prefix
11. www.azerdict.com.
12. http://www.homeenglish.ru/prefix

ILAHA MAMMADOVA

WORD-FORMATION IN ENGLISH BY MEANS OF PREFIXES

SUMMARY

The article deals with the prefixes and their role in word-formation in English. English is a very flexible language and you can build on your vocabulary and learn how to make new words.
One way of doing this is to add prefixes before the word. Prefixes are added to the front of the base. Prefixes usually do not change the class of the base word. We also speak about the differences between prefixes and suffixes. In the article we give a list of common prefixes with their meanings and some examples.

ИЛАХА МАМЕДОВА

ПРЕФИКСАЛЬНОЕ СЛОВООБРАЗОВАНИЕ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В статье говорится о префиксах и об их роли в словообразовании в английском языке. Словообразование имеет большое значение среди отраслей лингвистики, особенно среди языковых уровней. Все языковые уровни имеют свои собственные единицы. Словообразование является отраслям лингвистики, которая занимается образованием новых слов. Префиксы имеют также важные значение в словообразовании и обогащении английского словаря. И так в статье рассматривается префиксы, даны некоторые продуктивные префиксы, их значения и примеры.

Rəyçi: prof. Qaraşarlı Çingiz

fil.f.d. NURİYYƏ ƏLİYEVA
KÖNÜL FƏRƏCBƏYLİ
ADU
konul@mail.ru

DİL MATERİALLARININ TƏDRİSİNƏ DAİR BƏZİ QEYDLƏR

Açar sözlər: *fonetika, intonasiya, tələffüz*
Ключевые слова: *фонетика, интонация, произношение*
Key words: *phonetics, intonation, pronunciation*

Müstəqilliyimizə yenidən qovuşdugdan sonra olkəmizdə bir çox nailiyyətlər əldə edilmiş ,xüsusən xalq maarifi və təhsil sahəsində qazanılan uğurlar bunu deməyə əsas verir.Milli təhsil elm və mədəniyyətin inkişafına gostərilən qayğı bu xeyirxah missiyanın həyata keçirilməsinə təkan verdi. Azərbaycanda milli təhsil sahəsində islahatlrın aparılması ,təhsil in inkişafına dovlət təminatının verilməsi yüksək qiymətləndirilir. Dövrü müzün qloballaşma prosesi məhz bu gün müxtəlif dilli xalqları bir-birinə yaxınlaşdırır.Onların bir-birinə təsirini gücləndirir. Bu təsir yalnız dilin leksikasında deyil, həm də digər sahələrdə özünü kəskin şəkildə göstərir. Hər bir dilin elmi cəhətdən öyrənilməsinin böyük əhəmiyyəti vardır. Dil çox mürəkkəb xüsusiyyətlərə, dərin və gizli sirlərə malikdir. Bütün bu xüsusiyyətləri mənimsədikdən sonra dil insan həyatında fikrin ifadəsində daha da güvvətli vasitəyəyə çevrilir. Dil bəşəriyyət tarixində insanların əldə etdiyi ən böyük nailiyyətdir. İnsanlar dil vasitəsilə qazandıqları təçrübəni nəsildən-nəsilə ötürərək,çəmiyyət dilin vasitəsilə inkişaf edir. Dilcilik elminin tədrisi adətən fonetikadan başlayır. Yazılı və şifahi nitq vahidlərdən ibarətdir-səslər, sözlər, cümlələr və s.

Yeri gəlmişkən qeyd edək ki,sözün məntiqi və semantik tərifi belədir:söz müəyyən məfhum ,anlayış ifadə edən səslər kompleksidir. (toplusudur). Sözə verilən bu tərif hamı tərəfindən qəbul olunmasa da(məsələn ,nidalar,səs təqlidi olan sözlər məfhum ifadə etmir,lakin söz hesab olunur), bu gün ən az qüsuru olan məhz bu tərifdir.Burada bir məsələni də qeyd etmək lazımdır ki, bir qayda olaraq dil cilər sözü müxtəlif cəhətdən tədqiq edirlər. Fonetika dilcilik elminin bir sahəsi kimi dil səslərinin əmələ gəlməsini, onların fiziologiyasini, bir-birinə münasibətini, keyfiyyət və kəmiyyətini,nitq prosesindəki funksiyasını, keyfiyyət və kəmiyyətində baş verən dəyişikliklərin səbəb və təbiətini öyrənən bir sahədir. Fonetika umumiyyətlə ,səsdən deyil, ancaq danışıq səslərindən bəhs edir.İnsanın yaratdığı danışıq səsləri digər səslərdən fərqli olaraq ,ictimai mahiyyət daşıyır.Söz fonetik baxımdan tədqiq edilir,səs və ya səslər toplusu şəklində öyrənilir.Bu zaman hər hansı dildə vurğu ,heca,sözün tərkibində sait və samitlərin sıralanma qaydaları,sözün əvvəlində və ya sonunda bu və ya digər səsin işlənə bilib bilməməsi və s. məsələlər diqqət mərkəzində durur.Fonetikanın həm nəzəri, həm də əməli əhəmiyyəti vardır. Fonetikanı bilmədən dilin lüğət tərkibini, qrammatik quruluşunu istənilən şəkildə öyrənmək mümkün deyildir.Fonetika dilin tarixini öyrənməyə, ayrı-ayrı sözlərin etimologiyasını aydınlaşdırmağa və dillərin qohumluğunu müəyyən etməyə geniş imkan yaradır.Fonetikanın dərindən öyrənilməsi əsasında ana dilimizin düzgün tələffüz qaydaları mənimsənilir. Fonetika orfoqrafik normaların qaydaya salınması və

mənimsənilməsində də müəyyən əhəmiyyət kəsb edir. Fonetikanın tədrisi ilə əlaqədar olaraq, tələbə və şagirdlərdə səs sisteminin xüsusiyyətləri haqda aydın təsəvvür yaradılmalı,onlara ədəbi tələffüz qaydalarının mənimsənilməsinə xüsusi diqqət yetirilməlidir.Qeyd edək ki,ingilis dili hansı səviyyədə öyrənilirsə öyrənilsin, çətin tələffüz xüsusiyyətlərinə, mürəkkəb və çoxcəhətli qrafik sistemə, yazı və oxu qaydalarına yiyələnmədən bu dildə şifahi və yazılı formada ünsiyyət saxlamaq çox çətindir.Ünsiyyətdə əsas cəhət ünsiyyətə girən tərəfdaşrların dil-danışıq zəminində bir-birini başa düşüb anlamasıdır.Əgər ünsiyyət prosesində anlama yoxdursa ,ünsiyyət baş tutmayacaq. İngilis dilinin çətin tələffüz xüsusiyyətlərini nəzərə alan görkəmli ingilis fonetisti D aniel Counz 1917-ci ildə ilk dəfə olaraq tələffüz lüğəti çap etdirir. 80 ildən artıq zaman kəsiyində həm yerli ,həm də bütün dünyada ingilis dilini xarici dil kimi öyrənən insanlar ondan istifadə etmişlər və etməkdədirlər. Hal-hazırda bu lüğətin 17-ci nəşri (Cambridge Enqlish pronouncing dictionary 2009)çapdan çıxmışdır. İngilis dilinin orfoepik və qismən də orfofonik qaydalarını özündə əks etdirən bu lüğətin yeniliyi ondan ibarətdir ki,bu model BBC tələffüz modelinə əsaslanır və ingilis dilinin Amerikan tələffüz variantı ilə paralel verilir. BBC tələffüz modeli bir növ "invariant" ruhunda olan modeldir və bu modelə əsaslanan tələffüz dünyanın hər yerində eşidilib anlaşılır. Digər tələffüz modelləri (Amerikan, Kanada,Avstraliya, Yeni Zelandiya, Cənubi Afrika) BBC tələffüz modelinin variantlarıdır ki, onlara əsaslanan tələffüz xarici dinləyicilər tərəfindən çətin başa düşülür. Odur ki, BBC ixtisası ingilis dili olan tələbələrə BBC modelinə əsaslanan tələffüz qaydalarının öyrənilməsi başlıca məqsəd kimi qarşıya qoyulur. Beləliklə, fonetika bəhsinin tədrisi qarşısında qoyumuş başlıca vəzifələr aşağıdakılardır: 1.Bu bəhsin tədrisi ilə əlaqədar tələbə və şagirdlərdə aydın təsəvvür yaradılmalıdır ki, fonetika dilçilik elminin bir bölməsi olmaqla dilin səs sistemini,səslərin əmələ gəlməsi və xüsusiyyətləri,bunların hərflərlə ifadəsi, heca, vurğu və s. haqqında məlumat verir. 2.Bu tələbə və şagirdlərə səs və hərfin, səsli dillə yazılı dilin, orfoepiya ilə orfoqrafiyanın fərqini, eləcə də bunların qarşılıqlı münasibətini elmi surətdə anlamaq, dərk etmək üçün möhkəm əsas verməlidir.

3.Fonetikanın tədrisi prosesində tələbələrə dil qrafikasının əsas xüsusiyyətləri haqqinda möhkəm bilik verilməlidir. Onlarda müvafiq orfoqrafik vərdişlərin möhkəmlənməsi təmin edilməlidir.

Fonetikaya aid bilik və vərdişlərin verilməsində müəyyən sistem yaratmağın, həmin bilikləri nitq təcrübəsi ilə daha möhkəm əlaqələndirməyin mühüm rolu, əhəmiyyəti xüsusi olaraq, nəzərə alınmalıdır. Düzgün tələffüz vərdiş lərinin aşılanması linqvistik, o cümlədən, fonetik-fonoloji səviyyədə müəyyən bilik bacarıqla müşahidə olunmalıdır. Burada tələbələrə dilin fonetik quruluşunun komponentlərinə və əsas tələffüz vahidlərinə rabitəli danışıqda, o cümlədən, yazı və oxu qaydalarına bu komponent və element ləri müşayət edən fonetik və fonoloji hadisələrə dair bilik bacarıq verilməli və onların əsasında düzgün tələffüz vərdişləri aşılanmalıdır. Bu bir tərəfdən tələbələrə filoloji təfəkkürün formalaşmasına və inkişafına, digər tərəfdən tələbələrdə ədəbi dilin tələffüz normalarının şüurlu mənimsənilməsinə zəmin yaradır. Fonetika dilçiliyin bütün sahələri ilə üzvi surətdə bağlıdır.

Fonetikanın leksika ilə əlaqəsi onunla izah olunur ki,səslərdən məhrum olmuş söz yoxdur və ola da bilməz. Tələbələr səslə hərf arasındakı fərqin nədən ibarət olmasını, bu fərqin mahiyyətini bilməlidirlər. Onlar bilməlidirlər ki, biz səsi tələffüz edirik və eşidirik,hərfi isə yazır və oxuyuruq. Səslə hərfi, bunların arasındakı qarşılıqlı

münasibətin mahiyyətini bilmədiklərinə görədir ki, onlarda bir sıra orfoqrafik vərdişlərin formalaşması və möhkəmləndirilməsi ciddi surətdə ləngiyir, tələffüzləri nöqsanlı olur. Odur ki, tələffızın qoyuluşunda və aşılanmasında ünsiyyətin baş tutması üçün müəyyən fonetik hadisələrin öyrənilməsi və fərqləndirilməsi zərurəti ortaya çıxır. Buna görə də tələffüzün qoyuluşunda aşılanmasında onun əsasını təşkil edən dilin fonetik quruluşunun komponentlərinin (fonem və fonemlərin birləşməsi, distribusiyası, heca, vurğu, intonasiya) aspektləri barədə tələbələrə bilik,bacarıq verilməsi zərurəti ortaya çıxır. Başqa sözlə, tələffüz normalarının danışıqda düzgün realizasiyası fonoloji-fonetik tələffüz tipindən, onların sintezindən keçir.İngilis dilini ixtisas kimi öyrənən kadrlara, o cümlədən ,müəllimlərə, tərcüməçilərə, regionşünaslara, politoloqlara BBC tələffüz modeli tövsiyyə olunur, çünki bu model bir növ "invariant" ruhunda olub, dünyanın hər yerində eşidilib anlaşılır və başa düşülür. Bununla bu ixtisas sahibləri ingilis dilinin yerli və milli regional variantların (Amerikan, Kanada, Avstraliya, Yeni Zelandiya, Cənubi Afrika) tələffüz xüsusiyyətlərindən də halı olmalıdır, çünki bu regionlardan olan insanların tələffüzündə ingilis ədəbi tələffüz normalarından kənara çıxma halları-variasiyalar vardır və onlarla canlı ünsiyyət prosesində olduqda anlamada çətinlik olmasın deyə, milli variantların tələffüz xüsusiyyətlərindən halı olmaq tövsiyyə edilir.Qeyd edək ki, dilin öyrənilməsində səslə hərfin fərqinə xüsusi diqqət yetirilməsinin mahiyyətini prof.Y.K.Qrot çox düzgün qiymətləndirərək yazmışdır: "Dillərin öyrənilməsində daima nəzərdə tutmaq lazımdır ki,səs və hərf heç də həmişə bir-birinin eyni olmur".Tələbələrə danışıq səslərinin (sait və samitlərin) nitqdəki məna əhəmiyyəti haqqında müəyyən anlayış vermək lazımdır.Hər bir səsin (fonemin) sözün ən kiçik, lakin son dərəcə mühüm mənalı hissəsi olduğunu onlara dərk etdirmək mühüm əhəmiyyət kəsb edir. Səslə hərfin, sözün səslənməsi ilə yazılış formasının, fərqini tələbələrə yaxşı öyrətmək üçün fonetikadan ilk dərslərdə müvafiq sözləri onlara səs tərkibinə görə təhlil etdirmək daha əlverişli dir. Görkəmli rus alimi Q.P. Firsova görə, belə halda tələbələrə sözü yazdırmadan, yəni, sözü görərək yox, eşidərək səs tərkibinə görə təhlil etdirməyə xüsusi diqqət yetirilməlidir. Onu da qeyd etmək lazımdır ki, səslərin əmələ gəlməsi haqqında tələbələrə verilən bilik fonetikadan onların ilk dərsdə aldıqları məlumatla məhdudlaşmır. Saitlərin və samitlərin öyrənilməsi daha da genişləndirilir və dəqiq ləşdirilir. Məsələn, saitlərlərlə samitlərin, dodaqlanan saitlərlə dodaqlanmayan saitllərin, kar samitlərlə cingiltili samitlərin fərqi öyrədilərkən tələbələr bunların əmələ gəlməsində danışiq üzvlərinin iştirakı üzərində müşahidə və müqayisələr çıxarırlar. Tələbələrə sait və samitlər haqqında məlumat verərkən mütləq onlara Azərbaycan dilindəki sait və samitlər arasındakı oxşar və fərqli cəhətləri də göstərmək lazımdır. Əgər gələcək müəllimlər "thin-sin" qəbildən olan fonemləri və onların fonetik realizasiyasının, pea-stalks-pace-talks qəbildən olan birləşmələrdə aspirasiyanın (nəfəslənməni) vvritten-retain qəbildən olan sözlədə vurğunun yerini, i have a plan to leave – i have a plan to leave cümlələrində tonik vurğunun yerini və neçə-neçə fonetik –fonoloji hadisələr haqqında bilik və bacarığa malik deyilsə, o ingilis ədəbi tələffüz normaların ınecə mənimsəyə bilər, axı ünsiyyət prosesində bütün leksik, qrammatik, intonasiya ilə ötürülən münasibət, mənalar və üslubi xüsusiyyətlər fonetik baxımdan, daha doğrusu, fonoloji-fonetik tip tələffüzlə ifadə olunur,onun zəminində anlaşılıb başa düşülür. Beləliklə, fonetikanın tədrisinin ilkin mərhələsində qarşıda duran əsas məqsəd tələbələrdə düzgün artikulyasiya yaradılması və nitqin intonasiya cəhətdən formalaşdırılmasıdır. Bu məqsədə çatmaq üçün müəllim tədrisin ilkin mərhələsində bəzi

faktorları nəzərə almalıdır. Belə ki, dil ünsiyyət vasitəsi funksiyasını yerinə yetirdiyindən tələffüz üzərindəki iş tələbələrin nitq vərdişləri və bacarıqlarından asılıdır. Bu o deməkdir ki,eşitmə və artikulyasiya vərdişlərinin yaradılmasına kömək etməlidir. İngilis və azərbaycan dili fonemlərinin spesifik xüsusiyyətləri dərk edilməlidir. Tələbələrdə düzgün tələffüz vərdişlərinin yaradılması ilk növbədə lap birinci dərsdən hər bir səsin tələffüzünü dəfələrlə, yorulmadan məşq etdirməkdən çox asılıdır. Tapşırıqlar fonemləri düzgün anlamaqda, onların oxşar fonemlərdən fərqləndirilməsində mühüm əhəmiyyətə malikdir. Lakin ayrı-ayrı sözlərin öyrənilməsi ilə də kifayətlənmək o qədər də səmərəli nəticə verə bilmir, həmin səslərin sözlərdə işlədilməsi, onların da dərk edilərək mənimsənilməsinə çalımaq lazımdır. Beləliklə, fonetikanın məqsədi dilin səs tərkibini aşağıdakı üsullarla öyrənməkdən ibarətdir: 1.Səslərin fikrimizin ifadəsindəki rolunu göstərmək; 2.Dil materiyasının təzahür formalarında fiziki xassələri müəyyənləşdirmək və dil səslərinin danışıq orqanları vasitəsilə yaranması və eşitmə üzvləri vasitəsilə qavranılmasındakı anatomik və fizioloji xüsusiyyətlərini müəyyən etməkdir.

Beləliklə, düzgün tələffüz olunan hər bir söz müxtəlif məna çalarları ,səs tembrləri, melodikliklərlə və s. şərtlənir.

Bununla da ,rəngarəng akustika, mənalı nitq, rəvan danışıq formalaşır. Öyrənilən dillə ana dili arasındakı oxşar və fərqli cəhətlərin aşkarlanması daha da dərin mənimsənilməyə səbəb olur. Bundan başqa deyə bilərik ki, adətən tələbə diqqətli olduqda fəaliyyətin nə dərəcədə düzgün yerinə yetirildiyini dərk edir. Tələbənin təlim prosesində diqqətini cəlb edən amillərdən biri də yeniliyin kifayət qədər intensivliyə malik olması, yəni Pavlovun dediyi kimi bələdləşmə reaksiyasının yaradılmasıdır. Müasir təlimdə problemin qoyuluşu ,müəllimin verdiyi yönəldici suallar, auditoriyaya gətirilən əyani və texniki vasitələr, yoldaşlarının söylədiyi fikirlər bir tələbə üçün daim yenilikdir. Şərhetmə zamanı müəllim intonasiya, məntiqi vurğu, fasilə surəti, mimikanın köməyi ilə şagirdlərin diqqətini fəallaşdırır, sözün həqiqi mənasında onu idarə edir. Müəllim dərs müddətində öz şagirdlərində və tələbələrində nəzarət mexanizmini aktuallaşdırmalıdır. Bundan əlavə, ölkəmizin xarici ölkələrlə əlaqələrini möhkəmlətmək üçün xarici dil tədrisinin, xüsusilə, düzgün şifahi nitqin inkişafının böyük əhəmiyyəti vardır. Qarşıya qoyulan yeni məqsədləri həyata keçirmək üçün istiqaməti şifahi nitqə yönəltmək lazımdır. Bu məqsədlər üçün eksperimental iş aparmaq, yeni-yeni üsullar tapıb tətbiq etmək məqsədə uyğundur. Şifahi nitqə başlamaq üçün şagirdə müəyyən dil materialı vermək lazımdır. Bu mə'nada xarici dillərin tədrisində müəllim dil öyrənənlərin danışığında nəzərə çarpan hər bir yayınmanı tutmalı, düzgün variantı öz səliqrast danışığı ilə düzəltməli, həssas eşitmə qabiliyyətinə malik olmalıdır. Xarici dildə artıq ilk gündən danışıq etiketləri ilə rastlaşan tələbə kommunikativ məqsədin tələbinə əsasən həm tələffüz vərdişlərinə, həm qrammatik qaydalara yiyələnməlidir. Deməli, canlı nitq prosesində müxtəlif kommunikativ tipli cümlə və ibarələr intonasiyanın müxtəlif funksiyalarının kəmiyyətcə nisbi fəaliyyəti nəticəsində meydana gəlir. İntonasya vasitəsilə nitqimiz məna tərkibindən asılı olaraq cümlələrə, cümlələr də öz növbəsində sintaqmlara ayrılır. Müxtəlif tipik quruluşa malik cümlələr, onların müxtəlif növləri formalaşır. Beləliklə, xarici dillərin tədrisində dil öyrənən tələbə öz arsenalında olan dil qaydalarından səmərəli istifadə etməli,öz fikrini ifadə etməyə, başqasının nitqini başa düşməyə çalışmalı, leksik ehtiyyatdan qrammatik və leksik, fonetik qaydaları bilməklə danışıq vərdişlərini inkişaf etdirməlidir. Beləliklə,

nitqlə bağlı canlı qar şılıqlı əlaqələr və qarşılıqlı təsir prosesi şəraitində cümlənin kommunikativ funksiyası aparıcı yer tutur. Buna görə də cümlənin təhlili məhz funksional baxımdan həyata keçirilir. Sintaktik təhlil zamanı həmişə cümlə üzvləri fərqləndirilir, məntiqi təhlildə cümlənin (fazanın) informasiya mənası aydın olur. Aktual təhlildə isə konkret ünsiyyət şəraitində fazanın anlam dairəsi müəyyənləşdirilir. Bu mənada xarici dillərin tədrisində tədris edən müəllimin öhdəsinə ciddi vəzifələr düşür. Xarici dili tədris edən müəllim yaradıcı və çevik mütəxəssis kimi fəaliyyət göstərməyi bacarmalı,ana dilinin tədrisdə yeri və rolu məsələsinə yaradıcı şəkildə yanaşmalı, dilin tədrisi prosesini hər bir konkret şəraitdə düzgün şəkildə təşkil etməli və tələbələri müxtəlif fəaliyyət növlərinə cəlb edərkən, izahatların ingiliscə verilməsi, lazım gəldikdə Azərbaycan dilinə tərcümə edilməsi, dərsdə xarici dil mühitini yaratmaqla tələbələri həmin mühitə fəal iştirakçı qismində cəlb etmək və eyni zamanda verilən tapşırıqların düzgün şəkildə başa düşülməsi və yerinə yetirilməsi üçün təminat verə bilər.

Qeyd etməliyik ki, uzun illər şifahi nitqin inkişafı ilə, intensiv öyrədilməsi ilə məşğul olmuş alimlər şifahi nitqin inkişafını birinci dərəcəli hesab etmişlər. Müşahidələr göstərir ki,şifahi nitqin inkişafında müəllim əsas simadır.

Beləliklə, şifahi nitqin düzgün inkişaf etdirilməsi işində əsas məsələlərdən biri düzgün tələffüz vərdişlərinin öyrədilməsidir.

Tədrisin ilk mərhələsində şifahi nitqi inkişaf etdirmək üçün daxil olan informasiyaların optimal dil materialları düzgün müəyyən edilməlidir. Bu materiallar proqram tələblərinə uyğun olduqda öyrəncilər dil materiallarını yaxşı mənimsəyir və onu şifahi nitqdə işlədə bilirlər.

Bu bir həqiqətdir ki,müəyyən informasiyaların verilməsində tələffüz müəyyən rol oynayır.Öz təbiəti etibarilə səslə nitq genetikaya əsasən birinci olur. Əvvəl eşidilən səs əsasında söz yazıya çevrilir. Ona görə də şifahi nitq əvvəlcə eşitmə vasitəsilə başlanmalıdır.

İngilis dili müəllimi qarşısında duran mühüm problemlərdən biri də eşitmə vasitəsilə şifahi nitqə alışdırmaqdır. Bu işi lazımi səviyyədə yerinə yetirmək üçün müəllim şifahi nitq vərdişini aşılamalıdır, hekayələr oxunmalı, daha sonra da hekayələrin məzmunu soruşulmalıdır.

Beləliklə, materiallar tələbələrin maraq və idrak dairəsinə uyğun olması dərsi daha canlı təşkil etməyə imkan verir,həvəslə fəaliyyətə qoşulan tələbələrin təlim nəticələri sevindirici olur, onlar asanlıqla dilə və nitqə yiyələnirlər.

ƏDƏBİYYAT

1. Dəmirçizadə Ə.M. Müasir Azərbaycan dili. Bakı., 1984
2. Tahirov A.,Salayev Ə., Orta məktəblərdə ingilis dilinin tədrisi metodikası. Bakı., 1978
3. Danes F.Sentence intonation from a functional point of view. Kopenhagen.,1960.
4. Widdovvson H .Y. Exploration in Applied Linquistics. Oxford University Press, 1979
5. Brown, H.D.Principles of language learning and teaching. Longman publication, 2000.

N. ALIYEVA
K. FARACBAYLI

SOME NOTES ABOUT THE TEACHİNG OF LİNGUİSTİC MATERİALS

SUMMARY

The article is devoted to the teaching of linguistic materials.Spoken language represents the definite interest in psychological plan.Parallel vvith the teaching audition compeletely are solved in this stage teaching problems of dialogical speech of prepared as vvell as unprepared. VVhile analyzing great attention vvas given to the phonetic facts taken from the linguistic literature.One of the important goals of the article is to detect and find out their use.

НУРИЯ АЛИЕВА
КЕНЮЛЬ ФАРАДЖБЕЙЛИ

НЕКОТОРЫЕ ОТМЕТКИ О ПРЕПОДАВАНИИ ЛИНГВИСТИЧЕСКОГО МАТЕРИАЛА

РЕЗЮМЕ

Статья посвящена о преподавании лингвистического материала. Устная речь представляет опеределенный интерес и в психологическом плане. Параллельно с обучением аудированию совершенно особо решаются на этом этапе. Задачи обучения диалогической речи как подготовленной, так и не п одготовленной. Течение анализа большое внимание обращено на фонетические факты, полученные из лингвистических литератур. Один из важнейщих цель раскрывать их употребление.

Rəyçi: prof. Ə.Y.Səfiyev

TƏRANƏ NƏCƏFOVA
ADU
terane@gmail.com

XARİCİ DİL MƏTNLƏRİ ÜZƏRİNDƏ İŞİN TƏŞKİLİNƏ DAİR BƏZİ TÖVSİYYƏLƏR

Açar sözlər: *oxu, mətn, nitq.*
Key words: *reading, text, speech*
Ключевые слова: *чтение, текст, речь*

Xarici dil mətnləri üzrə işin təşkili metodikada aktual olaraq qalmaqdadır. Mətnlərin səciyyəvi və tipoloji xüsusiyyətlərinin təhlili göstərir ki, mətnlər üzrə iş müəllimdən böyük nəzəri bilik və təcrübə tələb edir. Məhz təcrübəli müəllimlər anlayırlar ki, nəzəri bilik, bu sahədə həmişə təcrid edilmiş şəkildə səmərə verə bilməz. Dərsliklərdə oxuya kifayət qədər yer ayrılmışdır. Xarici dil təlimində oxu nitq fəaliyyətinin bir növüdür. Onun məqsədi leksik və qrammatik material əsasında tərtib olunmuş mətni oxuyub başa düşməyi öyrətməkdir. Oxu fəaliyyəti xarici dilin tədrisini müvəffəqiyyətli aparılmasında xüsusi yer tutan aspektlərdən biridir.

Bəllidir ki, oxu zamanı informasiyalar görmə kanalı ilə daxil olur və onlar nitq vasitəsilə ifadə edilir. Oxunun aşağıda göstəriləcək növlərindən xarici dilin tədrisində istifadə etmək məsləhətdir. Bu problem öz aktuallığını xarici dilin tədrisində həmişə saxlamalıdır.

Mətnlər –böyük, cümlələr – uzun, sözlər – çoxmənalı və mürəkkəb və təbii ki, belə oxu şagirdləri maraqlandıra bilməz, onlar oxuduqlarından zövq ala bilməzlər.

Səsli oxu ilə şagirdlər aşağı siniflərdə çox məşğul olublar. Odur ki, orta mərhələdə olsa-olsa minimal (bir-iki absaz) vaxt ayırmaq lazımdır. Əsas məqsəd onları səssiz oxuya alışdırmaqdır.

Tələbələrə şifahi nitqi inkişaf etdirmək, onlarda nitqi başa düşmək və öz fikrini başqasına anlatmaq bacarığı və vərdişlərini aşılamaq işin birinci cəhəti olmalıdır.

Metodiki ədəbiyyatda oxudan xarici dillərin tədrisində məqsəd və vasitə kimi istifadə edilməsi də geniş tədqiq olunmuşdur.

Hər şeydən əvvəl qeyd etməliyik ki, oxu prosesi həmişə müəyyən mətnlərdən (cümlələrdən) «hazır nitq modellərinin» qəbul edilməsinə (onların yaradılmasına yox) və bu əsasda informasiya almasına xidmət etdiyindən onu reseptiv nitq fəaliyyəti kimi müəyyənləşdirmək lazımdır. Mətnlərin xarakterindən də çox şey asılıdır. Dərsliyə salınmış müxtəlif və rəngarəng mətnlər müəllimə imkan verir ki, mətnin xrakterinə uyğun iş növü seçə bilsin. Məs: bədii mətn üzərində işləyərkən əsas diqqət onun formasına, yəni mətndəki adamlar, onların hərəkətləri, hərəkətin icra olunduğu məkan, təsvir olunarkən istifadə olunan qrammatik, leksik və kompozisiya cəhətinə yönəlmiş olur.

Elmi-kütləvi mətnlərdə əsas olanı faktlar və onların qarşılıqlı əlaqəsidir. Publisistik məqalədə işə nəinki faktlar, həmçinin onların interpretasiyası da diqqət mərkəzində olmalıdır.

Qoyulan məqsəddən asılı olaraq, oxunu əsasən nəzərdən keçirmək (skimming reading), tanışlıq (general reading), öyrədici (close reading), diqqətli (scanning reading) və konkret məlumatın alınması (searching reading) növləri geniş yayılmışdır. Göstərilən oxu növləri ayrı-ayrılıqda kommunikativ xarakter daşıyır və hamısı bütövlükdə informasiya olunması işinə xidmət edir.

Oxu nitq fəaliyyətinin bir növü kimi, kommunikativ vəzifənin həllinə, yəni oxunulan materialın başa düşülməsinə xidmət etdiyindən yalnız leksik və qrammatik materialların mənimsənilməsi vasitəsinə çevrilməlidir. Oxu prosesində istər-istəməz sözlərin, söz birləşmələrinin, qrammatik modellərin yadda saxlanılması əməliyyatı həyata keçirilir və onlardan nitq prosesində istifadə olunur. Bu işin nəticəsində oxu bir vasitə kimi çıxış edir və əsas məqsəd alınmış məlumatın tamlığı kimi xarakterizə edilir.

Mətnin başlığı da mühüm amildir. O, oxunan materialın məzmununun açılması üçün dayaqdır və oxucunu özünə cəlb edən bir faktordur. Mətnə nəzər salmaq – bu iş təklif olunarsa şagirdlərin zənnetmə yolu ilə mətni anlamağa can atmaları müsbət nəticə kimi qiymətləndirilməlidir. Məs: ən zəruri alanını tap; əsas fikri dəqiqləşdirən mühüm məqamların mətndən seçilib tapılması, mətni anlamaq üçün öz həyat təcrübəsindən istifadə və s. mühüm şərtlərdəndir.

Son illər mətnlərin adabtə edilməsinə dair bir sıra elmi-tədqiqat işləri yazılmışdır ki, bunlar da müxtəlif xarakterli mətnlərin spesifik xüsusiyyətlərini aşkar etmək imkanı yaradır.

Oxu prosesinin şəraitindən asılı olaraq, iki qrupa bölünməsi faktı da nəzərdən qaçmamalıdır. Birinci halda oxucu oxunulan materialdan ancaq məlumat almaq istəyini (məqsədini), ikinci halda isə oxunulan materialı başqasına və ya başqalarına olduğu kimi çatdırmaq ehtiyacını həyata keçirmiş olur. Beləliklə, birinci qrup oxu səssiz, ikinci qrup oxu isə ucadan oxu adlanır.

Şübhəsiz, hər iki qrup oxu nitq fəaliyyətinin bir növü kimi azərbaycanlı şagirdlər və tələbələr tərəfindən mənimsənilməli və səssiz oxu məqsədi kimi tədrisin bütün mərhələlərində əsas götürülməlidir.

Apardığımız müşahidələr və söhbətlər bizdə belə bir qənaət və əminlik hissi yaratmışdır ki, müxtəlif kurs tələbələri düzgün ucadan oxu bacarığına tam yiyələnə bilmirlər. Səbəblər müxtəlifdir və onlardan bəzilərinin üzərində dayanaq:

1. Sözlər ayrı-ayrılıqda düzgün tələffüz edilmir. Oxu qaydalarına riayət olunmur, vurğunun (söz və cümlə) rolu nəzərə alınmır, sözlərin və söz birləşmələrinin məna qrupları daxilində artikulyasiyası düzgün aparılmır.
2. Tələbələrin əksəriyyəti rəvan oxumağa çalışaraq, bəzi sonluqları, hətta sözləri belə tam tələffüz etmirlər.
3. Onlar hər bir sözü ayrı-ayrılıqda oxumağa çalışırlar. Onlar unudurlar ki, yaxşı oxucu tək-tək sözləri deyil, bütöv cümləni düzgün oxumağı bacarmalıdır.
4. Oxunun sürəti düzgün seçilmir, aydın olunan ritm və manaton oxu həm oxuyanı, həm də dinləyəni tez yorur.
5. İnformasiyanın rolu nəzərə alınmadığından oxunulan materialın həm başa düşülməsi, həm də dinləyiciyə düzgün çatdırılması işi öz həllini tapa bilmir.

6. Ana dilində yazılmış bacarıq və vərdişlər zəif olduğundan xarici dildə rəvan oxumaq qabiliyyəti və texnikası gec inkişaf etdirilir.
7. Tələbələr ucadan oxunun mahiyyətini düzgün anlamırlar, onun şifahi nitqdə birbaşa əlaqəsini unudurlar və nəticədə «oxumaq üçün oxuyurlar».
8. Tələbələr «oxu təcrübəsinə» tam yiyələnə bilmirlər. Oxunulan materialların hansı məqsəd daşıdığı nəzərə alınmır.

Nəticə etibarilə bir daha xatırlatmaq istərdik ki, xarici dillərin tədrisində oxunun rolu və imkanları çox genişdir və nitq fəaliyyətinin bu növündən səmərəli şəkildə istifadə edilməlidir.

Bədii ədəbiyyat asanlaşdırılan vaxt çox şey itirsə də yenə də o məzmununu qəhrəmanların xasiyyətlərini, onların qarşılıqlı əlaqələrini, müəllifin bu və ya digər həyati hadisələrə münasibətini, əsərdə işıqlandırılan məsəlləri saxlamış olur.

Hadisələrin təsviri, iştirakçıların hərəkətləri, onların nitqi bir sıra sintaktik və üslubiyyət formalarını saxlamağa imkan verir, məs., paralellər, təkrarlar. Ellipslər, cümlələrin bağlayıcısız birləşdirilməsi və s. Bədii nitqin ifadəliliyinə mətndəki metaforalar, tutuşdurma və müqayisələr, rişxənd və s. nail olunur. Müəllif nitqinə personajların dialoqları qoşulur. Ümumiyyətlə, bədii ədəbiyyat bütün sujet xəttini qoruyub saxlayır. Publisistik və elmi-kütləvi mətnlər aşağıdakı özünəməxsus dil və kompozisiya xüsusiyyətlərinə malikdir. Həcmcə çox da böyük olmayan mətnlərin mənası bir neçə tezislə, böyük həcmli mətnlər isə bir sıra yarımmövzülarla açılır. Başlıq və mətnin əvvəli, adətən də birinci abzas mövzunu şərh edir və tematik fon yaradır. Sonra mövzunun əsaslandırılması və nəticəsi gəlir. Lakin bəzi informativ və qısa elmi-kütləvi mətnlərdə yekun hissəsi olmaya bilər.

Elmi-kütləvi və publisistik mətnlər bəzi leksik və qrammatik xüsusiyyətlərə malik olurlar. Məs.: beynəlmiləl və düzəltmə sözlərdən geniş istifadə olunmasını, ixtisarları göstərmək olar. Təhlil edilən mətnlər üçün ritorik suallar, giriş cümlələləri, passiv konstruksiyalar, cerund və feli tərkibləri və s. məxsusdur. Məs.: *…a shance of becoming part-time students; … the stand, taken by the USA; Greated by the American side…*

Beləliklə, hər bir mətndə asanlaşdırıcı və çətinləşdirici anlar mövcuddur. Məs.: elmi-kütləvi mətnlərdə sözlər ədatən öz konkret mənalarında işlənir ki, bu da mətn üzərində işi asanlaşdırır. Bədii ədəbiyyatda isə sözlərin kontekstdə və emosional işlənməsi onların anlamını çətinləşdirir. Məna-kompozisiya və dilçilik xüsusiyyətlərinə əsasən oxu prosesində çətinliklər də rəngarəng olacaq. Odur ki, həmişə eyni metodlarla işləmək effekt verməz. Mətnlərin rəngərəngliyi, onlara xas olan bütün xüsusiyyətləri ilə birlikdə bütün kompleks məsələlərin həlli üçün geniş meydan açır. Məs.: bədii mətn şagirdlərin dildən biliklərini artırmaqdan, savayı yuxarı siniflərdə tərbiyəvi və ümumtəhsil əhəmiyyəti kəsb edir, şagirdlərin həyat təcrübəsini artırır, hiss və həyəcanlarına təsir edir.

Elmi-kütləvi mətnlər isə dil zənginləşdirməklə yanaşı, belə mətnlərin xüsusiyyətlərinin mənimsənilməsinə xidmət göstərir. Onlar informativ və ümumtəhsil əhəmiyyətli olurlar. Bu cür mətnlərin forması artıq şagirdlər üçün informativdir. Bu mətnlər şagirdlərə yeni xəbərlər verir, başqa sözlə, onların dünyagörüşünü artırmaqla təlim iş görür. Bütün bu deyilənlər mətnin seçilməsi, metodların təyin edilməsi və s. baxımdan çox qiymətlidir. Beləliklə mətn üzrə işə başlarkən aşağıdakıları rəhbər tutmaq lazımdır.

1. Mətnin xarakterindən asılı olmayaraq l bütöv (tam) halda götürülməlidir.
2. İş forması səssiz oxu olmalıdır, oxunun məhz bu forması diqqəti – mətnin mənasına yönəldir.
3. Mətn üzərində iş zamanı əsas diqqət həm məzmunun, həm də formanın üzərində cəmləşməlidir, çünki yalnız belə olduğu halda anlama məzmun və formanın vəhdətindən baş verir.
4. Tərcüməyə o vaxt yol vermək olar ki, mətndəki ifadə vasitələrinə adekvat olan ana dili ifadə vasitələrini nümayiş etdirməyə ehtiyac duyulsun. Bu ona görə edilir ki, şagirdlərə hər iki dilin ifadə vasitələrinin publisistik və elmi-kütləvi mətnlərin tərcüməsində məzmunu vermək üçün hər iki dilin xüsusiyyətlərinin rolu göstərilsin.
5. Tədrisin məqsədinə nail olmaq üçün mətnin xüsusiyyətlərindən maksimal dərəcədə istifadə etmək.
6. Şagirdlərin fərdi xüsusiyyətlərinin inkişafı və hesaba alınması onların marağını mətn üzrə işə yönəltmək.
7. Mətnin oxunmasından əvvəl leksik-qrammatik çətinliklərin qarşısını ala biləcək material üzərində işləmək lazımdır.

Mətn üzərində iş o vaxt tədris xarakteri daşıyar ki, biz şagirdlərə gördürəcəyimiz işi aydın təsəvvür edək. Məs.: onlar mətnlə işləyəndə hansı üsula əl atacaqlar, mətnə necə yanaşacaqlar, mətndə nədən başlayıb, nədən qurtaracaqlar və s.

Beləliklə, müəllim tələbələri mövcud strategiyalar haqqında məlumatlandırmalı, onları bir növ "silahlandırmalıdır". Həm də müəllim tələbələrə başa salmalıdır ki,eşidib-anlamanın təlimi zamanı əsas vəzifə və məqsəd sözlərin semantikvə qrammatik mənalarının öyrənilməsi deyil, eşidib-anlama vərdişlərinin günün tələbinə uyğun olan səviyyədə inkişaf etdirilməsidir.Sözlərin mənimsənilməsi isə burada bir vasitədir. Təlim prosesində yerinə yetirilən tapşırıqların əsas məqsədi həmin prosesin səmərələşdirilməsi və daha yüksək nəticələrin əldə edilməsidir.

ƏDƏBİYYAT

1. Языкова Н.В. Сборник задач и заданий по методике преподования иностранныч языков. Л., 1977.
2. Елухина Н.В. Мусницкая Е.В. Какими должны быть тексты для аудирования. ИЯШ, 1978. №3.
3. Пассов Е.И. Основы методики обучения иностранным языкам. М., 1973.

NAJAFOVA TARANA

SOME THOUGHTS ON ORGANİZATİON OF FOREİGN LANGUAGE TEXTS

SUMMARY

The Present article is devoted to some thoughts on organization of foreign language texts. While analyzing great attention was given to the facts, taken from the practice. The main goal of the article is to detect and find out the lacks in the precess of teaching raading activities. The author wants to detect the role of reading at the English lessons.

НАДЖАФОВА ТАРАНА

НЕКОТОРЫЕ РЕКОМЕНДАЦИИ НАД ОРГАНИЗАЦИИ ТЕКСТАХ ИНОСТРАННОГО ЯЗЫКА

РЕЗЮМЕ

Данная статья посвящена об организации над текстах иностранного языка. В течение анализа большое внемание обрашено на фактом, полученные из практики. Один из вайщих целей раскрыть роль чтении на уроках. Автор пытается раскрыть рол чтении на уроках английского языка.

Rəyçi: prof. Ə.Səfiyev

GÜLNAR AXUNDOVA
LDU

ZAMAN BİLDİRƏN SÖZLƏRİN SEMANTİK FUNKSİYALARI

Açar sözlər: Zaman*, temporallıq, mütləq zaman, nisbi zaman*
Ключевые слова: *Время, темпоральность, обсолютное время, относителное время*
Key words: *Time, temporality, absolute time , relative time*

Hər bir dilin müxtəlif səviyyələrdə ifadə olunmasında zamana aid olan faktlar yerindəcə öz əksini tapır. Dilin hər bir səviyyəsinə aid müxtəlif ifadə vasitələri pərakəndə, dağınıq halda səpələnmiş vahidlərin təsadüfi yığını deyildir, onlar biri-biri ilə əlaqəli sistemi təşkil edir. Temporallığın ifadə vasitələri arasında sistemli münasibətlərin mövcud olması ona dilin müxtəlif səviyyəli ifadə vasitələrinin sistemi olaraq funksional-semantik sahə kimi yanaşmağı mümkün edir və burada həmin ifadə vasitələri semantik funksiyaların qarşılıqlı əlaqəsi əsasında birləşir. (5,34s)

Dil vahidinin semantik funksiyası haqqında tanınmış tədqiqatçı A.V.Bondarko dilçilik ədəbiyyatında semantik funksiyanı bir sıra mənanın ifadə edilməsində dil vahidinin imkanları kimi ifadə edir.

Temporallıq sahəsində «zaman koordinatı» ümumi məna daşıyır. Başqa sözlə , temporallıq sahəsi zamanca lokallaşma funksiyasının reallaşmasına xidmət edir. Zamanca lokallaşma ümumi semantik funksiya kimi özündə bir sıra xüsusi semantik funksiyaları ifadə edir: 1) mütləq zaman lokallaşdırma funksiyası; 2) nisbi zaman lokallaşdırma funksiyası.

Azərbaycan və ingilis dilllərinin materialları əsasında bunları nəzərdən keçirək.

Mütləq zaman lokallaşdırma funksiyası

Bu semantik funksiyanın mahiyyəti ondan ibarətdir ki, o , hadisəni fərdi və şəxsi zaman oxu üzərində lokallaşdırır. Bu halda hesablanma nöqtəsi kimi zaman daim dəyişən nitq momenti kimi götürülür və zaman sıfır nöqtəsindən zamanın hesablanma istiqamətini göstərir. Hərəkət və ya hadisə isə danışanla fərdi zaman kəsiyi ilə əlaqələnir. Fərdi zaman nöqtəsi və ya kəsiyi nitq momentindən asılı olaraq üç şəkildə ola bilir: hərəkət və ya hadisə nitq momenti ilə üst-üstə düşürsə, indiki zamana, nitq momentindən əvvəl gəlirsə, keçmiş zamana, nitq momentindən sonra gəlirsə, gələcək zamana aid olur. Tədqiqatçı Q.Mileykovskaya öz yazılarında dildəki zaman kateqoriyasını obyektiv zamanın danışan tərəfindən dərk edilməsindən asılı olduğunu bildirir. (8,76s) Buna etiraz edən mülahizələrin də fikirləri maraqlıdır. (1,201-203s) Fərdi zaman oxu dildə, hər şeydən öncə, felin qrammatik zaman kateqoriyası ilə əks olunur, çünki qrammatik zaman kateqoriyası temporallıq sahəsinin nüvəsini təşkil edir. Keçmiş, indiki və gələcək arasında sərhədin müəyyənləşdirilməsində nitq momentinin əsas götürülməsi tamamilə qanunauyğundur.

Temporal leksika da mütləq temporal lokallaşdırma funksiyası daşıya bilər. Bu funksiyanı daşıyan leksik vahidlərin mənaları da «indiki zaman», «keçmiş zaman» və «gələcək zaman» da fərqlənir.

Keçmiş zaman planında temporal leksika:

Azərbaycan dilində: *dünən* (is., z.), *dünənki* (sif.), *keçmiş* (is., sif.), *bildir* (z.), *bildirki* (sif.), *dün* (is.), *əvvəlki* (sif), *sabiq* (sif.), *yaxında* (z.) *yaxınlarda* (z.), *onda* «keçmişdə» və s.

İngilis dilində: *yesterday* (n., adv.), *since* (adv., prep., conj.), *hitherto* (a.), *former* (a.), *early* (a.), *recent* (a.), *recently* (adv.), *ever* (adv.), *then* (adv.).

İndiki zaman planında temporal leksika:

Azərbaycan dilində: *indi* (z.), *indiki* (sif.), *bugünkü* (sif.), *çağdaş* (sif.) *müasir* (is., sif.), *cari* (sif.), *anən* (z.), *ani* (sif.), *yeni* (sif.) «dövrümüzə aid olan» və s.

İngilis dilində: *today* (n., adv.), *present* (a.), *presently* (adv.) "indiki zamanda, indi ", *the moment* (n.), *now* (adv.), *nowaday* (a.), *current* (a.), *currently* (adv.), *modern* (a.), *instant* (a.) "indiki zaman haqqında", *yet* (a.)

Gələcək zaman planında temporal leksika:

Azərbaycan dilində: *sabah* (is., z.), *səhər* (z.), *gələcək* (is., z.), *növbəti* (sif.), *həmişə* (z.), *daim* (z.) *yaxında, yaxınlarda, onda* «gələcəkdə» və s.

İngilis dilində: *tomorrow*, (adv., n.), *morrow* (n.), *future* (a., n.), *hereafter* (adv.), *hereupon* (adv.), *next* (a.), *oncoming* (a.)

Nisbi zaman lokallaşdırma funksiyası

Bu semantik funksiya hərəkətin zaman koordinatlarını müəyyənləşdirir. Onlar hərəkətin zaman koordinatlarını iş, hal və hərəkəti hesablanma və ya istinad nöqtəsi kimi təyin edir. Bunu linqvistik cəhətdən nisbi zaman oxu da adlandırırlar.

Burada söhbət iki zaman oxunun – mütləq və nisbi zaman oxlarının bir- birinə nisbətindən gedir. Həmin zaman oxları üzrə hərəkətlərin bir-birinə qarşılıqlı münasibəti çox mürəkkəb olduğundan bu, daim mütəxəssislərin diqqətini cəlb etmişdir.

Nisbi temporal lokallaşdırma funksiyası temporallıq sahəsinin digər leksik vahidləri də ola bilər. Hər iki dilə aid belə vahidlərin izahı lüğətlərdə verilmişdir. Təhlil göstərir ki, Azərbaycan dilinə aid seçilmiş sözlər *qabaq, əvvəlcədən, irəlicədən, öncə, eyni zamanda, eyni vaxtda, sonra, sonradan* və b.k. təyinedici söz və söz birləşmələrindən, ingilis dilinə aid seçilmiş sözlər isə *before, beforehand, in advance, simultaneously, after, afterwards, at the same time, prior, soon* və b.k. təyinedici sözlərdən və ya yaxın mənalı söz birləşmələrindən istifadə olunur.

Nümunə kimi diqqət yetirək.

«Tezdən – z. 1. alaqaranlıqdan, sübh erkəndən T. yola çıxmaq 2. Vaxtından əvvəl, qabaq, tez T. yatmaq»; (4,93s)

«Müasir – sif. və i. 1. Başqası və ya başqaları ilə bir əsrdə, bir zamanda yaşamış və ya yaşayan; həməsr // Müasir(lər)imiz – bizimlə bir əsrdə, bir dövrdə yaşayan(lar) 2. indiki əsrdə, indiki dövrdə olan; çağdaş M. ədəbiyyat»; (3,281s)

«Postsovet – sif. sovet quruluşu, SSRİ dağıldıqdan sonrakı dövr». (2,322s)

«early (a., adv.) - near the beginning of a period of time, or before the usual, expected or planned time»; (6,385s)

early (a., adv.) 1 near the beginning of a period of time, an event etc: 2 arriving, or done before the usual, expected or planned time; (9,396s)

«presently *adv* 1 soon: *I"ll be with you presently*. 2 (US) at the present time: *The Secretary of State is presently in Africa*»; (7,154s)

«antecedent (*n.*) [C] someone or something existing or happening before, especially as the cause or origin of something existing or happening later; (*a.*) previous». (6,43s)

Azərbaycan dili üçün lüğətlərdən nisbi temporal lokallaşdırma funksiyasına malik olan aşağıdakı sözlər seçilmişdir:

Leksik mənasında ***ÖNCƏGƏLMƏ*** olan sözlər:

İsim: arxaizm, avans, başlanğıc, başlanılma, başlanış, dün, dünən, düngün, ərəfə, əzəl, əzəlilik, əzəliyyət, ilkinlik, müqəddimə

Sifət: arxaik, bayaqkı, əvvəlinci, əvvəlki, əzəli, əzəlki, ilkin, inişilki, irəlidəki, irəliki, qabaqdakı, qabaqkı, məktəbəqədər, tarixəqədərki

Zərf: axşamayaxın, axşamqabağı, bayaq, bayaqdan, bayramqabağı, bildir, çoxdan, erkən, ertə (tez, qabaq, əvvəl), ertədən, əqdəm, əvvəl, əvvəlcə, əvvəlcədən, əvvəldən, əvvəli, əvvəllər, əvvəllərdə, əvvəlləri, əzəllər, əzəlcə, ibtidada, ibtidadan, inişil, irəli, irəlicə, irəlicədən, irəlidə, qabaq, qabaqca, qabaqcadan, onda (keçmişdə) öncə, öndən, sübhəyaxın,

Qoşma: əvvəl, qədər, müqəddəm, -dak (-dək), -can (-cən), kimi,

Ara söz: Əvvəla, əvvələn,

Leksik mənasında ***EYNİZAMANLILIQ*** olan sözlər:

İsim: birvaxtlılıq, eynivaxtlılıq, eynizamanlılıq, əsrdaş, həməsr, həmyaş, həmyaşlıq, həmyaşıd, həmyaşıdlıq, həmzaman, indilik, müasir, müasirlik, nəsil, sinxroniya, sinxronizm, sinxronluq, sinxronlaşdırma

Sifət: buaykı, bugünkü, builki, çağdaş, eynivaxtlı, eyniyaşlı, eynizamanlı, hazırkı, həmvaxt, həmyaş, həmyaşıd, indiki, müasir, mövcud, sinxron

Zərf: İndi, indilik, indicə, indilikdə, indilikcə, vaxtında, vaxtlı-vaxtında, dərhal, ələstü, hazırda, hələ (ki), hələlik

Fel: yaşamaq, var olmaq, mövcud olmaq müasirləşdirilmək, müasirləşdirmək, müasirləşmək, sinxronlaşdırmaq

Bağlama: ikən

Leksik mənasında ***SONRAGƏLMƏ*** olan sözlər:

İsim: axır, axırzaman, axirət, geclik, mabəd, postimpressionizm, postmodernizm, son

Sifət: növbəti, postsovet, postmodernist, sonralıq,

Zərf: axırda, ertə (hazırkı gündən sonra gələn), gec, gecdən, gecdən-gec, gec-gec, həftəsonu, nəhayət, nəhayətdə, nəticədə, onda (indi yox, o zaman), sonra, sonradan, sonradan-sonraya, sonralar, sonralıqca, sonrası, tezliklə, yaxında, yaxınlarda

Qoşma: bəri, sonra, doğru,

Ara söz: nəhayət, axırda, ikincisi, saniyən

İngilis dili üçün lüğətlərdən nisbi temporal lokallaşdırma funksiyasına malik olan aşağıdakı sözlər seçilmişdir:

Leksik mənasında ***ÖNCƏGƏLMƏ*** olan sözlər:

İsim: Antecedent, antecedence, antedate, anteriority, anticipation, eve, ex, forenoon, forerunner, foreplay, prearrangement, precondition, precaution preface, prejudice, precedent, pre-election, prevention

Sifət: Antenatal, anterior, early, foregoing, past, precedent pre-classical, preconscious, pre-election, pre-dynastic, pre-Columbian, pre-human, preliminary, premature, predictable, premier, previous, prior, primary

Fel: Foreordain, prearrange, predict, pre-elect, preoccupy, prepay, prepossess, presuppose, preview, prevent, predetermine, predestine

Zərf: Afore, aforetime, already, anteriorly, before, beforehand, ago, early, formerly, lately, latterly, previously, recently, yesterday, once

Sözönü: Afore, before, ere, till, by, until

Bağlayıcı: before, since, till, until, when

Leksik mənasında ***EYNİZAMANLILIQ*** olan sözlər:

İsim: Attendant, coexistence, coincidence, concomitance, concourse, contemporary, coeducation, contemporaneity, modernity, modernization, simultaneity, simultaneousness, synchronism, synchronization

Sifət: Attendant, coexistent, coexisting, co-extensive, coeval, coincident, concurrent, contemporary, contemporaneous, simultaneous, synchronous

Zərf: Coincidently, meantime, meanwhile, (at) once "*at the same time*", still, yet

Fel: Accompany, attend, concur, modernize, synchronize

Sözönü: At, in, on, over, upon, with, during

Bağlayıcı: As, no sooner … than, when, whenever, while

Leksik mənasında ***SONRAGƏLMƏ*** olan sözlər:

İsim: Aftercare, aftereffect, aftergrass, afterlife, afterimage, aftershave, aftershock, posteriority, posterity, post-graduate, post-impressionism, sequence, subsequence

Sifət: After, consecutive, conesquent, posterior, post-classic, post-graduate, postwar, subsequent, successive, ulterior, belated, coming, late, latter, next

Zərf: After, afterwards, immediately, instantly, lastly, late, next, nextly, prospectively, subsequently, successively,

Fel: Defer, delay, postdate postpone

Sözönü: After, following, on, past, since

Bağlayıcı: After, as soon as, directly, immediately

Müqayisə edilən hər iki dildə nəzərdən keçirilmiş leksik vahidlərin lüğət təhlili göstərir ki, nisbi temporal lokallaşdırma funksiyası müxtəlif leksik vahidlərdə müxtəlif cür təzahür edir.

Hər iki dildə tədqiq edilən temporal leksik vahidlərin semantik strukturunda ikili məna çaları vardır. Onlardan biri «hərəkət, hadisə, proses və ya işin adı»dır və o özünü söz köklərində (kök-morfemlərdə) göstərir. Digər çalar isə «aidlik, nisbət, əlaqələndirmə» çalarıdır. O da özünü mürəkkəb sözlərin ikinci komponentində büruzə verir.

Qeyd etmək lazımdır ki, *post-* önşəkilçisi Azərbaycan dilində hələ tam vətəndaşlıq hüququ qazanmamışdır. Son dövrlərdə Qərbi Avropa dillərindən bizim dilimizə keçən sözlərin tərkibində özünü göstərən bu şəkilçinin hələlik Azərbaycan mənşəli sözlərlə birləşərək söz yaratması müşahidə olunmur. Sonragəlmə mənası ***...****sonrakı* komponentinin iştirak etdiyi mürəkkəb sözlərdə özünü göstərir. Mürəkkəb sözlərdə ***...****qabağı, ...öncəsi,...qədərki* komponentləri öncəgəlmə mənası yaradır.

Bu sahədə ingilis dilində önşəkilçilər üstünlük təşkil edir. İngilis dilində nisbi temporal lokallaşdırma funksiyalı sözyaratma vasitələrinə *after-, ante-, fore-, co- (con-, com-), post-, pre-* önşəkilçilərini nümunə göstərmək olar. Onlardan *ante-, fore-, pre-* önşəkilçiləri öncəgəlmə, *co- (con-, com-)* önşəkilçisi eynizamanlılıq, *after-, post-* önşəkilçiləri isə sonragəlmə ifadə edir.

Faktik dil materialının araşdırılması göstərir ki, temporal leksikanın reallaşdırdığı semantik funksiyalar ayrı-ayrılıqda deyil, nitqdə yalnız mütləq temporal lokallaşdırma funksiyası ilə birlikdə reallaşa bilir.

ƏDƏBİYYAT

1. Axundov A. Fəlsəfi və qrammatik zaman kateqoriyaları // Ağamusa Axundov. Dil və Ədəbiyyat. I cild
2. Axundov A. Azərbaycan dilinin izahlı lüğəti. Bakı, 2005.
3. Azərbaycan dilinin izahlı lüğəti. II c., Bakı, 1999.
4. Azərbaycan dilinin izahlı lüğəti. III c., Bakı, 2000.
5. Бондарко А.В. Функциональная грамматика.Л., Наука, 1984.
6. 6.Cambridge Advanced Learner's Dictionary. Cambridge University Press, 2003.
7. Hornby A.S. Oxford Advanced Learner's Dictionary of Current English, Vol. I-II, 1982.
8. Милейковская Г.М. О соотношении объективного и грамматического времени // Вопросы языкознания. 1956, № 5.
9. The Oxford English Dictionary, Volume X1, T-U, Oxford, At the Clarendon Press.

ГЮЛЬНАР АХУНДОВА

СЕМАНТИЧЕСКИЕ ФУНКЦИИ СЛОВА ОБОЗНАЧАЮЩИЕ ВРЕМЯ

РЕЗЮМЕ

В статье на материале азербайджанского и английского языка анализированы семантические функции слова обозначающие время. Различные языковые средства выражения темпоральности представляют собой не случайный набор изолированных единиц, а систему взаимозависимых и взаимодействующих средств. Эти средства объединяются на основе общности и взаимодействия их семантических функции. Общность семантических функции означает принадлежность семантических элементов к определенной семантической зоне. Все семантические функции обладают общим значением «временная координата» и служат для реализации функции временной локализации. Общая функция временной локализации включает в себя ряд специальных семантических функций: 1) функция абсолютный темпоральной локализации; 2) функция относительной темпоральной локализации;

GULNAR AKHUNDOVA

THE SEMANTIC FUNCTIONS OF WORDS EXPRESSING OF TIME

SUMMARY

This article deals, on the material of the Azerbaijani and English languages, with the semantic functions of words expressing of time . The different linguistic means of expression of temporality are not a casual set of disconnected, incoherent units, but a system of the organic and associated means. These expression means combine on the basis of commonness and interrelationship of their semantic functions. The commonness of semantic functions means belonging of semantic elements, expressed by various language means, to a definite semantic zone. All constituents of the field of temporality have a common meaning of 'time dating' ('time coordinate') and serve for the realization of the function of time localization. The common semantic function of time localization includes a number of special semantic functions as 1) the absolute temporal localization; 2) the relative temporal localization.

Rəyçi: İlham Tahirov, fil.e.d., professor

f.e.n., SEVİL ƏLİYEVA
ADNSU
sevil.aliyeva.72@mail.ru

DEVELOPING THE SKILL OF ASKING AND ANSWERING QUESTIONS

Açar sözlər: *sual, cavab, bacarıq, inkişaf etdirmək, dil, müəllim, tələbə, ünsiyyət*
Key words: *question, answer, skill, to develop, language, teacher, student, communication*
Ключевые слова: *вопрос, ответ, умение, развивать, язык, преподаватель, студент, коммуникация*

A daily activity in every classroom is the asking and answering of questions. There are many purposes for asking questions including, the following: to actively engage the students in the lesson, to create interest in the topic and to develop the students' critical thinking abilities. Unfortunately, teachers are sometimes unaware of the most beneficial approaches to implementing this activity, and that the techniques that they do employ might, in fact, be inhibiting student participation and learning.

Teachers ask questions for several purposes, and for that reason, they may formulate their questions in various ways. There are many ways of categorizing questions, and we will review several approaches in this article.

The simplest way to distinguish between types of questions is the difference between display questions and referential questions. A display question is a question for which for which the answer is obvious; for example, what is this colour? Alternatively, how many arms do I have? The purpose of a display question is to allow the student to show that they know and can express the answer in the target language. A referential question, on the other hand, poses a problem for which the answer is not obvious and may be unknown to the teacher and student alike. The purpose of this type of question is to discover the unknown information.

a) Refocusing questions are used when learners are off-task or in a transition to a new topic,

b) Clarifying questions are used if the learner's answer was not clear, if the teacher is looking for a different answer or if the teacher wants the answer expressed differently,

c) Verifying questions are used to elicit more detail and clarification,

d) Narrow the focus questions are used to refocus answers within a narrower framework; that is, to restrict the content of the answers,

e) Supporting questions are used to assist students in establishing connections and relationships between concepts.

Teachers should consider preparing some questions in advance. This would benefit the students since it would ensure that various types of questions with differing levels of difficulty and complexity would be explored. It is advisable to keep Bloom's Taxonomy in mind when preparing questions. This would oblige the teacher to consider the type of information they are seeking to elicit with the question.

Two types of wait time are apparent in a classroom setting. One type of wait time is the time between asking a question and getting an answer from a student. The second type of wait time concerns the length of time that the teacher allows to pass after a student stops speaking before the teacher speaks up, again. Some studies have shown that the average wait time allowed by teachers is less than a second, which does not

allow much opportunity for students to internalize the discussion. A wait time of 3 to 5 seconds has been found to result in higher student performance standards. Waiting those extra few seconds can produce several other positive outcomes including, the following:

a) Improved student retention,
b) Increased length of student responses,
c) More unsolicited student responses,
d) Increased contributions by students who normally would not with a wait time of under 3 seconds, and;
e) Fewer student interruptions.

In addition to evaluating their techniques of posing questions, teachers should also actively assess their techniques of answering questions, as well. Teachers should consider whether to answer questions directly, indirectly or not answer the question at all and redirect it to someone else.

As we can see the process of posing and answering questions, whether by the teacher or by the students, is of critical importance in the language classroom. All students need to be made to feel comfortable asking questions, even if the answer has already been covered. The teacher must acknowledge the value of each question. Students should be given plenty of opportunity to ask questions, so that they do not need to be constantly interrupting the class to ask something. All of these considerations may be facilitated if the teacher provides an opportunity for the student to ask questions at regular intervals. By demonstrating the necessary patience to indulge students' curiosity, a teacher will create a "question-friendly" environment, and this would go a long way toward creating a "student-friendly" classroom.

Question forming is often difficult for foreign language speakers due to the mandatory word order inversion in English questions. This is especially true for Spanish speaking students, where word order inversion is uncommon. In each question, students are presented with a group of words. The object is to put these words in the correct order to form a syntactically correct question. Practice involves rewriting sentences.

Below you will find our forming questions worksheets. On these worksheets, students learn common question formats. These worksheets work especially well with English as second language students because English differs from many other languages in regards to interrogative structure.

Interested in using interactive versions of our worksheets? Want to use a study tool which automatically scores your work and allows you to review your mistakes? Have fun and help preserve the environment at the same time. As we know learning a language is done on mainly three levels:

1) beginning
2) intermediate
3) advanced

Answering questions by students is changed, i.e. is from simple to complex according to these levels. For example:

Beginning Level

Beginning Forming Questions Worksheet - Who?
Beginning Forming Questions Worksheet - What?
Beginning Forming Questions Worksheet - When?
Beginning Forming Questions Worksheet - Where?
Beginning Forming Questions Worksheet - Why?
Beginning Forming Questions Worksheet - How?

Beginning Forming Questions Worksheet - To be?
Beginning Forming Questions Worksheet - To do?

Intermediate Level

Intermediate Forming Questions Worksheet - Who?
Intermediate Forming Questions Worksheet - What?
Intermediate Forming Questions Worksheet - When?
Intermediate Forming Questions Worksheet - Where?
Intermediate Forming Questions Worksheet - Why?
Intermediate Forming Questions Worksheet - How?
Intermediate Forming Questions Worksheet - To be?
Intermediate Forming Questions Worksheet - To do?

Advanced Level

Advanced Forming Questions Worksheet - Who?
Advanced Forming Questions Worksheet - What?
Advanced Forming Questions Worksheet - When?
Advanced Forming Questions Worksheet - Where?
Advanced Forming Questions Worksheet - Why?
Advanced Forming Questions Worksheet - How?
Advanced Forming Questions Worksheet - To be?
Advanced Forming Questions Worksheet - To do?

The first step in asking better questions is to identify the types of questions we are currently asking, why we are asking them, and finally, what techniques can we utilize to improve the questioning that occurs in our classrooms. Questions help teachers fulfill multiple agendas in the classroom. Questions are used to help teachers ascertain the level at which their students understand (or misunderstand) concepts presented during lecture, they are used to engage or encourage students' active participation in a lesson, they are used to allow students to express their thoughts and hear explanations offered by their peers, and they are used to keep students alert or on task during class time. Focusing on why questions are asked leads us to ask the deeper question of how questions are being asked. When we look within the broader context of classroom interaction, how questions are asked has a tremendous impact on learner outcomes. These outcomes are shaped not just by how the instructor phrases and uses questions, but are also shaped by the ways in which students are encouraged to generate their own questions. How questions are asked and answered have broader implications than mastering content. Effective instructors "model the process of inquiry and organizing the search for solutions for their students". Teach Talk, a newsletter for educators dedicated to promoting best practices in the classroom, suggests that successful questioners utilize several skills when crafting and asking good questions. These include: phrasing and sequencing questions effectively, responding to questions so that class time is used efficiently, keeping questions from leading to digression (unless the 7 digression is useful), and using the right tone and delivery both when asking and responding to question.

Techniques for Successful Questioning

1. Phrasing; teacher communicates the question so that the students understand the response expectation (i.e.: no run-on questions).

2. Adaptation; teacher adapts the question being asked to fit the language and ability level of the students.

3. Sequencing; teacher asks the questions in a patterned order indicating a purposeful questioning strategy.

4. Balance; teacher asks both convergent and divergent questions and balances the time between the two types. The teacher uses questions at an appropriate level or levels to achieve the objectives of the lesson.

5. Participation; teacher uses questions to stimulate a wide range of student participation, encouraging responses from volunteering and non-volunteering students, redirects initially asked questions to other students.

6. Probing; teacher probes initial student answers, and encourages students to complete, clarify, expand or support their answers.

7. Wait Time (Think Time); teacher pauses three to five seconds after asking a question to allow students time to think. The teacher also pauses after students' initial responses to questions in class.

8. Student Questions; teacher requires students to generate questions of their own.

The techniques listed above are straightforward points that most instructors are familiar with. However, even though we know that these simple techniques make for best practice in the classroom, many of us simply forget to employ them regularly. Most often forgotten is the practice of "wait time." Research shows that instructors wait between .7 seconds and 1.4 seconds for pupils to respond to questions. Furthermore, teachers will wait less than .7 seconds if they believe that their students might not know the answer to the question posed. "Wait time" – or the time an instructor waits silently between asking a question and expecting an answer – can impact the classroom dynamic tremendously. Mary Bud Rowe first described the positive outcomes associated with "wait time" in 1972. Rowe's research indicated that when teacher directed questions were followed by at least three seconds of undisturbed silent time for students to formulate responses, the students answered the question more successfully. Student success in formulating answers was not the only positive outcome observed when "wait time" techniques were introduced to classrooms. Other researchers found that regular use of "wait time" had positive impacts on both students and teacher attitude and behaviors.

Student behaviors observed when increased "wait time" was introduced to the classroom:

1. Decrease in "I don't know" responses

2. Length and accuracy of answers increased

3. The number of volunteered, appropriate responses by larger number s of students increased.

4. Achievement test scores rose. Teacher behaviors observed when increased "wait time" was introduced to the classroom:

5. Questioning strategies became more flexible and varied.

6. The quantity of questions asked decreased, while the quality and variety of questions increased.

7. Higher-order, divergent questions were asked more often.

In 1985, Stahl updated Rowe's conception of "wait time" with the introduction of "think time". Stahl's idea is based upon Rowe's research, but goes a step further, defining this time as a "distinct period of uninterrupted silence by the teacher and all students so that they can both complete appropriate information processing tasks, feelings, oral responses and actions" (Stahl, 1994). Stahl articulates his preference for the term "think time over "wait time" in a 1990 article published by the Arizona State University:

1. Think time names primary academic purpose and activity of the period of silence thus allowing students and teachers to complete "on-task" thinking.

2. There are numerous places where periods of silence are as important as those "wait time" periods reported in the literature.

3. There is at least one exception labeled "impact pause time" that allows for periods of less that 3 seconds of uninterrupted silence.

Whether calling it "wait time" or "think time," instituting breaks between the questions and anticipated student responses proves to be a technique that makes questions more powerful teaching tools. Questioning at post-secondary level few students, even those at graduate levels are skilled at asking higher-cognitive questions in class, and observations of college-level instructors reveal that even at the post-secondary level, teachers are not modeling high level divergent questioning for their students.

ƏDƏBİYYAT

1. Brualdi, Amy C. (1998). Classroom questions. ERIC Clearinghouse on Assessment and Evaluation, Washington DC.
2. Ciardiello, Angelo, V. (1998). Did you ask a good question today? Alternative cognitive and metacognitive strategies. Journal of Adolescent & Adult Literacy, 42(3), 210-219.
3. Leven, T. and Long, R. (1981). Effective instruction. Washington DC: Association for Supervision and Curriculum Development.

S.Q. ƏLİYEVA

SUAL-CAVAB BACARIĞININ İNKİŞAF ETDİRİLMƏSİ

XÜLASƏ

Məqalə sual-cavab bacarığının inkişaf etdirilməsindən bəhs edir. Bildiyimiz kimi sualların verilməsi və cavablandırılması dərslərdə gündəlik fəaliyyət növüdür. Sualların verilməsinin bir neçə səbəbi ola bilər: tələbələrin dərsə cəlb edilməsi, müzakirə edilən mövzuya marağın yaradılması, mövzu barədə fikirlərin söylənə bilməsi bacarığının inkişafi və s. Bu baxımdan bu bacarığın inkişaf etdirilməsi üçün müəllim hər dərs tələbələr üçün qabaqcadan suallar hazırlamalıdır.

Məqalədə yuxarıda qeyd olunanlar barədə geniş məlumat verilmişdir. Bu baxımdan məqalə sual-cavab bacarığının inkişaf etdirilməsi haqqında geniş informasiya əldə etmək istəyənlər üçün faydalı ola bilər.

С.К. АЛИЕВА

РАЗВИВАТЬ НАВЫКИ ВОПРОС И ОТВЕТ

РЕЗЮМЕ

В статье рассматриваются развитием навыков по вопросы и ответы. Как мы знаем, задавать вопросы и отвечать на этих вопросы подобного деятельности ежедневных классов. Вопросы могут быть несколько причин для введения: привлечение студентов; создавая интерес к предмету; развитие навыков разговаривать об идеях субъект, и так далее. В этом отношении, каждый урок учитель должен подготовить вопросы для студентов заранее.

Они были упомянутой информированы в статье. В связи с этим, статья могут быть полезны для тех, кто хочет получить подробную информацию о развитие навыков по вопрос и ответ.

Rəyçi: **dosent R..V.Məmmədova**

b/m. MƏTANƏT PAŞAYEVA
ADU
paşayeva@gmail.ru

TƏLİM PROSESİNDƏ ÖYRƏNMƏ VƏ ÖYRƏTMƏ FƏALİYYƏTİNİN NƏZƏRİ ƏSASLARINA DAİR BƏZİ QEYDLƏR

Açar sözlər: *fəaliyyət, texnologiya, öyrənmə.*
Key words: *activity, technology, learning*
Ключевые слова: *Деятельность, технология, изучение*

Təhsil hər bir şəxsin fərdi karyera uğurlarının təminatı olmaqla yanaşı, bütövlükdə cəmiyyətin özülünü təşkil edir və onun iqtisadi gücünün, sosial rifahının, siyasi nüfuzunun təminatında əsas prioritet kimi nəzərdən keçirilir. Təhsil cəmiyyətin ehtiyaclarını öyrənərək bu istiqamətdə fəaliyyət göstərməyi mümkün edir və cəmiyyətdəki çatışmazlıqların aradan qaldırılmasına yardımçı olur. Gələcək üçün ən yaxşı investisiya rolunu oynayan təhsilin cəmiyyət üçün əhəmiyyətini nəzərə alaraq, hər bir ölkə təhsilə böyük önəm və dəstək verir. Azərbaycan dövləti də hər sahədə olduğu kimi təhsil sahəsində də uğurlu siyasət həyata keçirərək bu sahəyə böyük dəstək olmaqla yanaşı, onun beynəlxalq təhsil sisteminə inteqrasiyasını təmin etmək yolunda da xeyli işlər görür. Ölkəmiz müstəqillik əldə etdikdən sonra Milli dövlətçilik, istərsə də sosial iqtisadi və mədəni quruculuq sahəsində əsaslı islahatlar aparılmışdır. Bütün sahələrdə olduğu kimi təhsil sistemində də inkişaf prosesi getməkdədir. Burada aparıcı amillərdən biri də milli təhsil sahəsində dünya standartlarına uyğun fundamental islahatların aparılması, təhsilimizin milli və ümumbəşəri dəyərlər, demokratik, dünyəvi prinsiplər əsasında, xalqımızın, millətimizin tarixinə, mənəviyyatına, milli ənənələrinə müvafiq şəkildə qurulmasıdır.

Son zamanlar Respublikamızda geniş miqyasda təhsil islahatları keçirilir. Təhsilin məzmunu yeniləşir. Təlimin humanistləşməsi, humanitarlaşması və demokratikləşdirilməsi prinsipləri ilə bərabər onun yeni təfəkkür baxımından təkmilləşdirilməsi zərurəti meydana çıxır.

Azərbaycanda dünyəvi dövlət qurmaq, cəmiyyəti mənəvi cəhətdən sağlamlaşdırmaq, milli qürur hisslərini layiqincə formalaşdırmaq, təhsilimizi necə quracağımızdan, dünya təcrübəsindən necə istifadə edəcəyimizdən çox asılıdır. Bununla yanaşı, təhsil işçilərinin xarici ölkələrə həyata keçirilən səfərləri, bu ölkələrin təhsil sistemi ilə tanışlıq, yeniliklərin mənimsənilməsi təhsilin maddi-texniki bazasının inkişafını təmin edir. «Təhsil sahəsində həyata keçirilən birgə proqramlar və adı çəkilən səfərlər nəticəsində qarşılıqlı əməkdaşlığın daha da inkişaf etdirilməsini nəzərdə tutan protokollar imzalanıb. Məqaləmizdə təlim prosesində öyrənmə və öyrətmə fəaliyyətinin nəzəri əsaslarını tədqiq etməyə çalışacağıq.

Fəaliyyət nəzəriyyəsi hər şeydən əvvəl insanın ətraf mühiti fəal mənimsəməsi və onun dəyişməsində iştirak etməsidir. Fəlsəfi ensiklopediya lüğətində qeyd olunur ki, fəaliyyət elə bir prosesdir ki, bunun gedişində insan təbiəti təcəssüm etdirir və yaradıcı surətdə dəyişdirir. Bununla da, özünü fəal subyektə çevirir və mənimsəməkdə olduğu təbiət hadisələrini öz fəaliyyətinin obyektinə çevirir.

Tədris fəaliyyətini özünüidarəsinin müstəqil işlərə necə təsir etdiyini göstərmək üçün müstəqil tədris fəaliyyəti prosesində bu psixi hadisənin yaranma məsələsinin öyrənilməsi zəruridir.

Bu məqsədlə müstəqil tədris fəaliyyətinin tərkib hissəsinin dəqiqləşdirilməsi, onların müəyyənləşdirilməsi tələb olunur. Biz bütün fəaliyyət növləri üçün ümumi olan aşağıdakı əsas cəhətlərin nəzərdən keçirilməsini zəruri hesab edirik: motivasiya, üsul, vasitə, özünənəzarət, özünüqiymətləndirmə.

Fəaliyyətin işəsalma mexanizmi motivasiya hesab olunur.

Əsasən təcrübədə xarici dilin öyrənilməsi, xarici faktorlarla tənzimlənir. Lakin xarici dil üzrə müstəqil tədris fəaliyətinin səmərəliliyi əsasən xarici dilin öyrənilməsinə olan daxili tələbatın formalaşdırılmasından asılıdır.

Tələbədə ali məktəbdə tədris fəaliyyəti haqqında müəyyən təsəvvürün olması tədris vasitələri ilə tanışlıq və onlardan çətin şəraitdə istifadə edə bilmək bacarığı, nəinki ayrı-ayrı işlərin təsisi və qiymətləndirilməsi, hətta, bütövlükdə fəaliyyətin, daha doğrusu öz tədris fəaliyyətini müstəqil idarə etmək bacarığın olması kimi faktorlar onun tədris motivasiyasının səviyyəsinə təsir edir. Qeyd edək ki, fəaliyyət insanın daxili tələbatlarının təsiri ilə meydana çıxır. Burada aşağıdakı amillər həlledici rol oynayır:

1) Öyrənmə və öyrətmə fəaliyyəti stiuasiyada cərəyan edir. Bunun əsas komponentləri motiv, məqsəd və nəticədir. Yəni hər hansı bir informasiya verildikdə motiv yaradılır, qarşıya məqsəd qoyulur və onun cavab reaksiyası gözlənilir. Bu öyrətmə fəaliyyətinin strukturunu təşkil edir.

2) Öyrənmə və öyrətmə fəaliyyəti marağı və fərdi xüsusiyyətləri nəzərə alır.

3) Bilik verən, bacarıq və vərdişlər aşılayan şəxs – öyrədən zəngin biliyə və bu bilikləri çatdırmaq qabiliyyətinə malikdir.

4) Öyrənmə və öyrətmə fəaliyyəti əlverişli şəraitdə keçirilir.

İ.A.Xaramovun fikrinə görə təhsilin məzmununu müəyyən edən səbəbləri iki qrupa ayırmaq olar: obyektiv və subyektiv. Obyektiv amillərə böyüməkdə olan nəslin təhsil səviyyəsinin müəyyənləşdirilməsində cəmiyyətin tələblərini və təhsilin daim yeniləşməsini və təkmilləşməsini daim tələb edən elm və texnikanın inkişafındakı dəyişiklikləri misal göstərmək olar. Subyektiv amillərə isə təhsil və tərbiyə sahəsində dövlət siyasətini və ideologiyasını aid etmək olar. Bu amillər öyrənmə və öyrətmə fəaliyyətinin əsasını təşkil edir və təlimin məqsədində, motivində və nəticəsində öz ifadəsini tapır.

Fəaliyyətin uğurlu olması üçün təkcə bütün motivasiya növləri deyil, eləcə də motivasiyanın dinamik modeli sistemində mövcud olan bütün struktur komponentlər, o cümlədən təşəbbüsün tənzimlənməsi, seleksiya, həyata keçirmə və sonrakı fəaliyyəti göstərməlidir.

Beləliklə, təlim prosesində, öyrənmə və öyrətmə fəaliyyəti psixoloji, sosioloji, fizioloji əsaslarla və didaktik prinsipləri nəzərə almaqla aparıldıqda müasir metod və texnologiyalar səmərəli şəkildə həyata keçirildikdə tədrisin fəaliyyəti yüksəlir, müəllimlərin potensial imkanlarından istifadə edilməsi üçün imkan yaranır, tədrisin elmi-pedaqoji əsaslarla qurulmasına zəmin yaradır.

Məqsədə çatma mərhələ-mərhələ həyata keçirilir. Bunlar biliklərin mənimsənilməsi, vərdiş və bacarıqların formalaşdırılması mərhələlərindən keçir ki, bu da müəyyən səy və zaman tələb edir.

Bununla əlaqədar olaraq məqsədə çatma sanki uzaqlaşır ki, bu da motivasiyanı aşağı salır. Ona görə belə halda kifayət qədər yüksək səviyyəli daxili motivasiya və öz səviyyəsində daxili həvəsləndirmə bacarığının olması əsas şərtdir. Tələbə bacarıqların formalaşdırılmasına qədər həmin mərhələlərdən keçməyin zəruriliyini dərk etməlidir.

Psixologiyada tədris fəaliyyəti tələbə tərəfindən yerinə yetirilən elə hərəkət sistemidir ki, onlar yeni bilik, bacarıq və vərdişlərə yiyələnirlər. Təlim bacarığının formalaşdırılması, təsnifatı və seçmə problemi ilə İ.A.Arxıpov, V.P.Bayko, M.M.Roxlerner, Q.P.Korotkin, V.A.Kulko və başqaları məşğul olmuş və tədqiqat aparmışlar.

Bir sıra alimlər (V.Qraf, İ.İ.İlyasov və b.) aşağıda göstərilən təlim fəaliyyətini müəyyənləşdirir: təyinedici fəaliyyət (şəraitin təhlili, onun öz imkanları ilə qarşılıqlı əlaqəsi), icraçılığı (materialın izahı və onun işlənməsi) təshihedici (düzəlişlər etmə, təshihedici və icraedici hərəkətlərdə səhvlər və uğursuzluqlarla əlaqədar təyinedici dəqiqləşdirmə və dəyişikliklər), qiymətləndirmə (şəxsi fəaliyyətin təhlili və nəzarət).

Xarici dilin öyrənilməsidə tədris fəaliyyəti həmçinin dil materialı üzrə iş və xüsusi kommunakativ fəaliyyət deməkdir. Dil materialı üzərində iş dedikdə aşağıdakıları xüsusi qeyd etmək lazımdır: formasını dəyişmə, qurma, analogiya, birləşdirmə, yenidən qurma, nağıl və tərcümə.

Hər bir tədris fəaliyyəti fərd tərəfindən şüurlu şəkildə qarşıya qoyulmuş materialı mənimsəmə məqsədi əməliyyatlar sistemindən və həmin fəaliyyətin həyata keçirilməsi mexanizmindən ibarətdir.

M.M. Roxlerner, İ.A. Rapoportun davamı kimi belə hesab edirik ki, tədris fəaliyyətinin həyata keçirilməsi elmi şəkildə tədris prosesində formalaşdırılan təlim bacarıqlarının yaradılmasını nəzərdə tutur.

Bacarıq və vərdişlər ümumi və xüsusi ola bilər. Ümumi bacarıq və vərdişlər ümum elmi xarakter daşıyır, onların formalaşdırılması bütün fənlər üzrə mənimsəməyə təsir edir (öz vaxtını və işini planlaşdırmaq bacarığı, özünə nəzarət bacarığı, dərsliklə işləmək bacarığı, məlumat kitabçaları, oxu, yazı və s. işləmək bacarığı). Xüsusi bacarıq və vərdişlər isə müvafiq tədris fənni üzrə səmərəli iş üçün zəruridir. Onlar tədris fəaliyyətində spesifik priyomlar hesab olunur ki, bunlar məhz müəyyən tədris fənni üçün səciyyəvidir. Məsələn, xarici və rus lüğətindən istifadə bacarığı.

dil üzrə müstəqil tədris fəaliyyəti müxtəlif növ çalışmaların yerinə yetirilməsini nəzərdə tutur. Buraya hazırlıq (şərti nitq) nitqindən başlamış nitq çalışmaları da daxil olmaqla hər cür çalışmaları daxil etmək olar.

Şərti nitq çalışmaları materialın izahına yiyələnməyi tələb edir, nitq çalışmaları isə öyrənilmiş qaydaların tətbiqini, fikir mübadiləsi zamanı işələdə bilməyi tələb edir.

Şərti nitq çalışmaları çalışmalarının yerinə yetirilməsi müəyyən işləri-fəaliyyətə yiyələnməyi tələb edir: oxunan və dinlənilənі deməyi və izah etməyi, orada olan bitgin bir fikrin tapılmasını, sərlövhələr düşünmək, tapmaq, plan tərtib etmək; nağıl etmək hadisə və strukturu müqayisə etmək, suallara cavab vermək, dəyişikliklər etmək, yenidən qurmaq, sxem tərtibi və s. Niqt çalışmalarının yerinə yetirilməsi isə yeni faktların müəyyənləşdirilməsini, dil hadisəsi və onların xarakteristikası; faktların sistemləşdirilməsi və təhlili, qrammatik qaydalar, leksik vahidlər, öyrənilmiş materialın fəallaşdırılması və onun yeni materialla

əlaqələndirilməsi; öyrənilmiş nəzəri materialın təcrübədə (nitqdə) tətbiqi (işlədilməsi), yeni leksik vahidlərin müxtəlif nitq situasiyalarında işlədilməsi, çalışmaların icra ardıcıllığı, linqvistik (dilçilik) vasitələrin seçilməsi, yoxlamanın həlli yollarının tapılması və s.

Reproduktiv, şərti nitq çalışmalarının həlli üçün nəzərdə tutulan fəaliyyət təlim motivi ilə həvəsləndirilir. Həmin işlər tələbə tələfindən növbəti işin məqsədindən asılı olmayaraq yerinə yetirilir və qaydaya görə müəllimin köməyi ilə modelləşdirilir. Bu işlərin yerinə yetirilməsində tələbə əməliyyatın yerinə yetirilməsi texnikasını öyrənir. Onların tədris situasiyasını görmə diapozonu məhduddur. Onlar hər dəfə zəruri əməliyyatların yerinə yetirilməsində fikirlərini ayrı-ayrı detallar üzərində cəmləşdirirlər. Bu çalışmalar tələbədən öz fəaliyyətini nizamlamaq bacarığı tələb etmir.

Lakin nitq-produktiv çalışmaların həlli üçün nəzərdə tutulan fəaliyyət bütövlükdə həmişə tələbələrin növbəti fəaliyyət məqsədləri ilə əlaqədar olur. Ona görə də nəzərdə tutulan hər bir işin məzmunu tələbə tərəfindən dərk olunur. Bu işləri görməklə planlaşdırılmış işlə tələbə planlaşdırılmış nəticə əldə edir.

Fikrən gözlənilən nəticə idarəedici funksiyanın icrasına münasibət zamanı yerinə yetirilir.

Nitq çalışmaları tələbədə öz fəaliyyətini idarə edə bilmək bacarığı tələb edir. Bu məqsədlə təkcə yuxarıda sadalanan xüsusi bacarıqlara yiyələnmək deyil, həm də hərəkətin səmərəli ardıcıllığını, daxili və xarici şəraitin nəzərə alınması, bu və ya digər çalışmanın yerinə yetirilməsi vacibliyinin dərk olunması kimi mühüm cəhətlərin nəzərdə tutulması lazımdır.

Şərti nitq və nitq çalışmalarının müstəqil yerinə yetirə bilmək bacarığı tələbəyə nəinki materialı möhkəmləndirmək, onu işləmək, həm də onu qeyri-iədris situasiyalarında tətbiq etmək və həmin iş növlərini təkmilləşdirmək imkanı verir.

Xarici dil üzrə tədris fəaliyyətinin uğurla idarə olunması məqsədilə xüsusi tədris bacarığını fərqləndirmək, onların formalaşdırılması şəraitini nəzərə almaq tələbə üçün zəruridir.

Xarici dil üzrə müəyyən mövzuya müraciət etməzdən əvvəl, tələbə həmin mövzu ilə əlaqədar leksik materialı, onun qrammatikası və ölkəşünaslıq materiallarını mənimsəməlidir.

Tələbələrin material üzərində işləmə priyomunu bildirməməsi dilçilik materialının səmərəliliyinə və onun öyrənilməsi tezliyinə qüvvətli təsir edir.

Müstəqil tədris fəaliyyətində özünüidarənin nümayiş etdirilməsi nitq fəaliyyəti ilə məhdudlaşmır, bütövlükdə xarici dil üzrə tədris fəaliyyəti sahəsini əhatə edir. Ona görə yaxşı olar ki, şərti olaraq dörd tədris bacarığı qrupuna bölünə bilən ümumi tədris bacarığını nəzərdən keçirək. Tədris işinin müəyyənləşdirilməsi və planlaşdırılması üçün zəruri olan ümumi tədris bacarığına aşağıdakı aid etmək olar.

1. Ali məktəbdə təlim prosesində bacarıqların müəyyənləşdirilməsi.
2. Dərsliklərin, onların quruluşu, fənn üzrə məlumat kitabları, ümumi və xüsusi lüğətlər, cədvəllər, çertyoj və s. materialların metodik cəhətdən müəyyənləşdirilməsi bacarığı.
3. Müəllimin məqsədini, tədris tapşırığına verilən təlimat və müəllimin tədris məqsədini qəbul etmək.
4. Əməliyyat planında olan nəzəri biliklərin tətbiqi bacarığı.

5. Müxtəlif kodlardan (elmi əsasların müxtəlif kodlarından istifadə etmə bacarığı və təbii dilin, ana dilin kodundan spesifik dilin koduna keçmə bacarığı və əksinə) istifadə etmək bacarığı və əksinə.

Xarici dildə nitq fəaliyyətinə yiyələnmə müəyyən ardıcıllıqda baş verir: bilik-vərdiş-bacarıq. Ancaq eyni zamanda təcrid edilmiş şəkildə deyil, vəhdətdə paralel şəkildə həyata keçirilir.

Tələbə ali məktəbdə öz müstəqilliyini, özünüidarəetmə fəaliyyətini dərk etməlidir. Onlarda özünüidarə bacarığı aşılanmalıdır. Bu, həm də bütövlükdə bütün qrup tələbələrinin kommunikativ səviyyələrinin yüksəlməsini təmin etməlidir. Belə olduqda müəllimin işi müəyyən qədər yüngülləşər və tələbə müəllimin qarşılıqlı təlim işi səmərəli olar.

ƏDƏBİYYAT

1. Ассев В.Т.Мотивация поведения и формирование личности 1976.
2. Васильев И.А. Мотивация и контроль. М., МГУ, 1991.
3. Маркова А.К. Формирование. Мотивации учения. Книга для учителя. Москва, просвещение, 1990.
4. Орлов Ю.М. Потребностно-мотивационные факторы эффективности учебной деятельности студентов. М., 1984.
5. Граф В., Ильясов И.И. Основы самоорганизации учебной деяытельности и самостоятельной работь студентов. М., МГУ, 1981.
6. Рохлернер М.М., Рапопорт И.А. Учебные умения их сущность, специфика и требования к ним. «Иностранные языки в школе», 1979.
7. Зимняя И.А. Педагогическая психология Ростов-на-Дону 1997.

ПАШАЕВА МАТАНАТ

НЕКОТОРЫЕ ОТМЕТКИ О ТЕОРЕТИЧЕСКИХ ОСНОВАХ УЧЕБНОЙ ДЕЯТЕЛЬНОСТИ

РЕЗЮМЕ

В статье раскрываются теоретические основы учебной деятельности. Указывается что при учете психологических, физиологических и дидактических основа также при рациональном испоьзавании новых технологий обучения повышается качество обучения. В течение анализа большое внимание обрашено на лингвистические факты, полученные из лингвистических литератур.

PASHAYEVA MATANAT

SOME NOTES ABOUT THE THEORETHICAL BACKGROUNDS OF TEACHING ACTIVITY

SUMMARY

The article deals with the backgrounds of foreign language teaching activity. It is shown that with the help of plsycho-logical, physiological and didactic basis even rational using of new technology, the quality of education is getting to be risen. While analyzing great attention was given to the linguistic facts taken from linguistic literature.

Rəyçi: fil.f.d. Nuriyyə Əliyeva

QAHİRƏ ZEYNİYEVA
E-mail: zeyniyevaq-@ gmail.com

İBTİDAİ SİNİFLƏRDƏ LEKSİK VƏ QRAMMATİK ŞƏKİLÇİLƏRİN TƏDRİSİ PROSESİNDƏ FƏAL/İNTERAKTİV TƏLİM METODLARINDAN İSTİFADƏ

Açar sözlər: *dil qaydaları, leksik (sözdüzəldici) şəkilçilər, qrammatik (sözdəyişdirici) şəkilçilər, praktik istiqamət*
Ключевые слова: *правила языка, лексические (словообразование) суффиксы, грамматические (слово-изменение) суффиксы, практическая направленность*
Key words: *language rules, lexical (word formation) suffixes, grammar (word-change) suffixes, practical direction*

Azərbaycan dilinin bütün sahələri bir-birilə əlaqədardır. Dil qaydalarının öyrədilməsində yol verilən nöqsanlar digər təlim materiallarının mənimsənilməsinə ləngidici təsir göstərir. İbtidai siniflərdə dil qaydalarının öyrədilməsi vahid sistem-də, dəqiq məzmun əsasında aparılmalıdır. Azərbaycan dili iltısaqi dillər qrupuna daxil olduğu üçün söz formaları üzrə iş daim diqqət mərkəzində olmaqla dilə kompleks yanaşmanı təmin etməlidir(7,20-28).

Dil ünsiyyət vasitəsidir və sözlərin cümlədə birləşib bitmiş fikir ifadə etməsi labüddür. Ünsiyyət üçün leksika tikinti materialı, morfologiya isə bitişdirici rolunu oynayır, yəni sözlər müəyyən qrammatik vasitələrin köməyi ilə bitmiş fikir ifadə edən dil vasitələrini – cümlələri əmələ gətirir.

Мцяллимляр leksik (sözdüzəldici) və qrammatik (sözdəyişdirici) şəkilçilərin öyrənilməsində практик ящямиййятя малик мясяляляря чох вахт фикир вермир, nitqimizdə oynadığı rolu dəyərləndirmir, бu şəkilçiləri мцгайисяли шякилдя тящлил етдирмирляр(5, 197). Belə ki, sözün ayrılıqda işlənə bilən və leksik mənası olan hissəsinə kök deyilir. Sözün ayrılıqda işlənə bilməyən və leksik mənası olmayan hissəsinə isə şəkilçi deyilir. Dilimizdə, bir qayda olaraq, əvvəl kök, sonra isə şəkilçi gəlir. Məsələn: məktəb+li, dəniz+çi, çəmən+də və s.

Qeyd olunduğu kimi, şəkilçilər vəzifəsinə görə iki növə bölünür: leksik (sözdüzəldici) və qrammatik (sözdəyişdirici) şəkilçilər.

-Leksik şəkilçilər qoşulduğu söz köklərindən yeni mənalı sözlər düzəldir, yəni onun mənasını dəyişdirir: üzüm - üzüm+lük, kənd-kənd+li, balıq-balıq+çı və s.

-Qrammatik şəkilçilər isə sözün yalnız formasını dəyisdirir. Bu şəkilçilər söz birləşmələrində və cümlələrdə sözlər arasında qrammatik əlaqə yaradır. Buna görə də həmin şəkilçilər qrammtik şəkilçilər adlanır. İsimlərdə cəm, hal, mənsubiyyət və xəbərlik şəkilçiləri, fellərdə isə zaman və şəxs şəkilçiləri qrammatik şəkilçilərdir. Məsələn: kitab+lar, qələm+in, şa+gird+dir, yaz+dı+q, yaz+acaq+san və s. İbtidai siniflərdə leksik və qrammartik şəkilçilərin tədrisi aydın, anlaşıqlı, ardıcıl və müqayisəli şəkildə aparılmalı, istər Azərbaycan dili, istərsə də oxu materiallarında yeri gəldikcə təkrarlanmalı, əlaqələndirilməlidir. Leksik və qrammartik şəkilçilərin tədrisi sadədən mürəkkəbə doğru aparılmalıdır. Əvvəlcə,

kök və şəkilçi haqqına anlayışlar verilməli, növbəti dərslərdə isə şəkilçilər haqqına nəzərdə tutulan ayrı-ayrı məlumatlar öyrədilməlidir. Leksik və qrammartik şəkilçilərin haqqında yeni məlumatlar verilərkən ənənəvi yollardan da istifadə etmək məqsədəuyğundur. Bu zaman problem situasiya yaratmaq üsulundan istifadə edə bilər. Ənənəvi təlim metodları ilə yanaşı, yeni metodlardan isifadə leksik və qrammartik şəkilçiləri şüurlu mənimsəməyə şərait yaradır. Təlim prosesi uşaqda fəallığı, məntiqi düşünməyi, müstəqil bilik almağı tərbiyə edir. İbtidai siniflərində leksik və qrammartik şəkilçilərin tədrisində interaktiv təlim metodlarından istifadə səmərəli nəticə verir. Həmin metodların hamısı deyil, yalnız ibtidai sinifdə leksik və qrammartik şəkilçilərin tədrisi prosesində istifadə edilməsi mümkün olanlar haqqında danışacağıq. Bunlara klasteri (şaxələndirmə), dəyirmi masa, Venn diaqramını, iki hissəli gundəlik strategiyasını və s. göstərmək olar.

Şagirdlərin leksik və qrammartik şəkilçiləri yaxşı mənimsəmələri məqsədi ilə sorğular aparmaq, müqayisə üsulundan istifadə etmək olar. Məsələn, şəkilçilərin tədrisi başa çatdıqdan sonra şagirdlərin leksik və qrammartik şəkilçilərlə bağlı aldıqları bilikləri möhkəmləndirmək məqsədi ilə müəyyən praktik çalışmalar tərtib edilə bilər. Bu zaman şagirdlərin cavabları sinifdə müzakirə edilib, səhvlər şagirdlər tərəfindən düzəldilərsə, bu, daha effektli olar.

Leksik və qrammartik şəkilçilərin öyrənildikdən sonra isə müəllim həmin şəkilçiləri müqayisə edərək oxşar və fərqli cəhətlərini müəyyənləşdirməyi tapşıra bilər. Bunun üçün müvafiq interaktiv təlim metodlarından istifadə (Venn diaqramı) etmək səmərəli nəticə verir. Bu isə şagirdlərin fəallığını təmin etməklə yanaşı, onların məntiqi təfəkkürünü inkişaf etdirir. Digər tərəfdən isə mövzu şagirdlər tərəfindən daha yaxşı mənimsənilir.

Şəkilçilərin tədrisi başa çatdıqda bu üsuldan istifadə etmək olar. Klaster (şaxələndirmə)metodu. Klaster hər hansı bir mövzu və ya firkin mümkün qədər açilmasına, şagirdlərin bu haqda geniş, sərbəst düşünməsinə yönətlmə, həm də düşünmə mərhələsində istifadə etmək olar və s. Şaxələndirmə metodunu keçirmək üçün iri ağ kağız götürülür. Kağizın mərkəzində hər hansı termin, söz, cümlə və ya şəkilçi yazılır. Klaster metodundan IV sinifdə leksik və qrammartik şəkilçilərin öyrənilməsi ilə bağlı aldıqları bilikləri möhkəmləndirmək məqsədilə nitq hissələrinin tədrisinin yekunlaşdırılması mərhələsində istifadə etmək olar.

Leksik və qrammartik şəkilçilərin öyrənilməsinə həsr olunmuş, fəal/interaktiv təlim metodları ilə təşkil olunmuş dərs nümunəsinə nəzər salaq:

Standart: 2.1.2; 4.1.3; 4.1.4; 4.1.5.

Mövzu: Şəkilçilər

Təlim nəticəsi:

1.Öyrəndiyi yeni şəkilçiləri təqdim edir

2. Cəm şəkilçilərindən məqamında düzgün istifadə edir

3. Leksik və qrammartik şəkilçiləri tanıyır və onları bir-birindən fərqləndirir

4. Cümlələrin düzgün qurulmasında şəkilçilərin yerini dəqiq müəyyən edir

İnteqrasiya: Riy.: 2.1.1; H.b.: 1.2.3; T.s. 2.1.2.

İş üsulu: əqli hücum, klaster, müzakirə, Venn diaqramı

İş forması: böyük və kiçik qruplarla iş

Resurslar: vatman, iş vərəqi, rəngli flamasterlər, şəkillər, qayçı, qələm, karandaş, pozan və s.

Dərsin gedişi:

Motivasiya. Problemin qoyuluşu

Müəllim şagirdlərin nitq hissələri haqqında biliklərini sullarla yada salır. Sonra şagirdlərin diqqətini lövhədən asdığı plakata cəlb edir:



Müəllim:- Şaxələndirmədə nələr əks olunub?(Söz və şəkilçilər).

-Gəlin, söz və şəkilçiləri birləşdirək. Hansı sözlər alındı?(Güldan, güllük, güllü, güldən, düllər, gülün, gülü və s.).

-Bu sözlərin hansında yeni məna yarandı?(Güldan, güllük, güllü).

-Bəs güldən, düllər, gülün, gülü sözlərində gül sözünün mənası dəyişdimi?(Güldən, düllər, gülün, gülü sözlərində gül sözünün mənası dəyişmədi).

-Niyə gül sözünə şəkilçi qoşulduqda bir qismində məna dəyişdi, bir qismində isə məna dəyişmədi? Səbəb nədir?(Ona görə ki, -dan, -lük, lü şəkilçiləri sözdüzəldici, -lər, -ün, -ü və s. sözdəyişdirici şəkilçilərdir).

-Sözdüzəldici şəkilçilər daha necə adlanır?(Leksik şəkilçilər).

-Sözdəyişdirici şəkilçilər daha necə adlanır?(Qrammatik şəkilçilər).

Fərziyyələr dinlənilir və tədqiqat sualı müəyyənləşdirilir.

Tədqiqat sualı: Leksik və qrammatik şəkilçilərin hansı xüsusiyyətləri var?

Tədqiqatın aparılması

Müəllim sinifdəki sagirdləri gül adları(lalə, bənövşə, qızılgül, yasəmən) ilə qruplara ayırır. Hər qrup özünə ad seçir: “Ziya”, “Şəfəq”, “Ulduz”, “Səma”. Qruplara iş vərəqi təqdim olunur.

“Ziya” qrupu

İş vərəqi -1

1.İsim düzəldən şəkilçilərdən: -çı4, -lıq4, -lıq4, -lı4, -gil-ə aid nümunələr göstərin.

2.Bu sözlərdən beşini cümlədə işlədin.

“Şəfəq” qrupu

İş vərəqi-2

1.Leksik və qrammartik şəkilçilərin hərəsinə aid beş nümunə yazın.

2. Onların fərqli və oxşar xüsusiyyətlərini diaqramda qeyd edim.

Fərqli **Oxşar** **Fərqli**



“Ulduz” qrupu

İş vərəqi-3

1. Azərbaycan dilində hansı qrammatik şəkilçilər var?
2. Bir neçə isim hallandırın, hal şəkilçilərinin altından xətt çəkin.

"Səma" qrupu

İş vərəqi-4

Vətən, bağ, ot, üzüm, bax sözlərinə leksik şəkilçilər artırın. Yeni yaranmış sözlərin mənasını izah edin.

Ana, kitab, ordu, əsgər, torpaq sözlərinə qrammatik şəkilçilər artırın və həmin sözləeri cümlələrdə işlədin.

Məlimat mübadiləsi

Qruplar verilmiş vaxt ərzində işlərini tamamladıqdan sonra təqdimata başlayırlar. Hər bir qrup öz işi haqqında məlumat verir.

"Ziya" qrupu

İş vərəqi -1

1.İsim düzəldən şəkilçilər: -çı4 : bostançı, dəmirçi, traktorçu, üzümçü;

-lıq4 : ağaclıq, düzənlik, odunluq, üzümlük; başlıq, gözlük; yaxşılıq, pislik, dostluq, ərköyünlük;

-daş: vətəndaş, silahdaş, əməkdaş, yoldaş, sirdaş ;

-lı4 : Məmmədli, Paşalı, Qafarlı, Hacıbəyli, N.Gəncəli, Ə.Qarabağlı; azərbaycanlı, məktəbli, kəndli;

-gil: Afiqgil, Aliməgil, atamgil, bacımgil

2.Cümlələr: 1. Dəmirçi qızmar odun üzərindən götürdüyü dəmirdən qılınc düzəldirdi.

2.Düzənlik başdan-başa üzümlük idi.

3.Yaxşı yoldaş qardaşdan irəlidir.

4.Ü Hacıbəyli müsiqi sənətimizin dahisidir.

5. Bacımgil Gəncədə yaşayır.

"Şəfəq" qrupu

İş vərəqi-2

1. -ma, -sov, -xana, -ça, -çə(bağlama, uzunsov, kitabxana, meydança, dəftərçə);

-lar, -lər, -da, -də, -dən, -acaq(kitablar, çiçəklər, ağacda, çəməndə, çörəkdən, baxacaq).

Fərqli



“Ulduz” qrupu

İş vərəqi-3

1.İsimlərdə cəm, mənsubuyyət və hal şəkilçiləri, xəbər şəkilçiləri. fellərə məxsus şəkilçilər qrammatik şəkilçilərdir.

2. Cədvəl 1.

İsmin halları	Sualları	İsimlər
A.	kim? nə?	balıq çörək
Y.	kimin? nəyin?	balığın çörəyin
Yön.	kimə? nəyə?	balığa çörəyə
T.	kimi? nəyi?	balığı çörəyi
Yer.	kimdə? nədə?	balıqda çörəkdə
Ç.	kimdən? nədən?	balıqdan çörəkdən

“Səma” qrupu

İş vərəqi-4

1.Vətən-vətəndaş, vətənli, vətənsiz; bağ-bağça, bağlı, bağ-bağatlı, bağça, ot-otlu, otlaq,otluq, otlu, otar(maq), üzüm-üzümlük, üzümçü, üzümlü, bax-baxış.

- Vətən müəyyən əraziyə, milli adətlərə, ümumi dilə malik insanların tarixən yaşadığı ərazi.
- Vətəndaş vətəndə- müəyyən əraziyə, milli adətlərə, ümumi dilə malik insanların tarixən yaşadığı ərazi yaşayan şəxs.

3. Anadan, kitabı, ordusu, əsgərlər, torpaqın.

Anadan əziz olan yenə anadır.

Kitabı cirmaq olmaz.

Ordusu güclü olan dövlət yenilməzdir.

Əsgərlər sərhədi ayıq-sayıq qoruyurlar.

Torpağın qədrini bilmək və onu düşməndən qorumaq lazımdır.

Məlumatın müzakirəsi

Qruplar işlərini təqdim etdikdən sonra biri digərinin işinə münasibət bildirir. Orup işlərinin müzakirəzi mövzunun tam şəkiıldə dərk olunmasına imkan yaradır.

Ümumiləşdirmə və nəticələrin şıxarılması

Müəllim deyilənləri yekunlaşdirir:

-Sözün tərkibi dedikdə nəyi nəzərdə tuturuq?(Kök və şəkilçini).

-Kök nəyə deyilir?(Sözün ayrılıqda işlənə bilən və leksik mənası olan hissəsinə kök deyilir).

-Şəkilçi nəyə deyilir?(Sözün ayrılıqda işlənə bilməyən və leksik mənası olmayan hissəsinə isə şəkilçi deyilir).

-Şəkilçilər neçə cür olur?(Şəkilçilər vəzifəsinə görə iki növə bölünür: leksik (sözdüzəldici) və qrammatik (sözdəyişdirici) şəkilçilər).

-Leksik şəkilçi nəyə deyilir?(Söz köklərinə qoşularaq yeni mənalı sözlər yaradan şəkilçilər leksik şəkilçilər adlanır).

-Qrammatik şəkilçi nəyə deyilir?(Qrammatik şəkilçilər isə sözün yalnız formasını dəyisdirir).

Deməli, şəkilçilər dilimizin zənginliyi və nitqimizin qurulmasını təmin edən hissəciklərdir. Bizim dilimiz iltisaqi dildir, yəni nitqimiz şəkilçilər vasitəsi ilə qurulur.

Yaradıcı tətbiqetmə

"Şəkilcilər" mövzusunda qrammatik esse yazın.

Qiymətləndirmə

Qiymətləndirmə dərsin bütün mərhələlərində meyarlarla aparılır.

Təcrübə göstərir ki, müəllimlər leksik (sözdüzəldici) və qrammatik (sözdəyişdirici) şəkilçilərin öyrənilməsində praktik əhəmiyyətə malik məsələlərə çox vaxt fikir vermir, belə şəkilçiləri müqayisəli şəkildə təhlil etdirmirlər. Dərslikdə də həmin məsələ kifayət qədər nəzərə alınmamışdır. IV sinif "Azərbaycan dili "dərsliyində şəkilçilərə dair belə bir məlumat verilir: "Bir çox sözlər şəkilçi qəbul edərək dəyişir; məsələn: yaxşı(sözün kökü)+lıq(şəkilçi)=yaxşılıq. Söz kökünün mənası var vəayrıca işlənə bilir. Şəkilçi isə sözün kökündən ayrı işlənmir. Ayrılıqda onun mənası olmur.

Dilimizdə bir çox şəkilçilər ahəng qanununa uyğun olaraq dəyişir. Qoşulduğu sözün son hecasından asılı olaraq şəkilçilər müxtəlif cür yazılır; məsələ:

-dan:dağdan, şəhərdən: -dı: qaçdı, gəldi, qondu, gördü"(1, 21).

Belə bəsit məlumatdan sonra bir çalışma verilmişdir ki, bunula da şəkilçilərin tədrisini uğurla həyata keçirmək mümkün deyildir. Dərsliklərin səif işlənməsinə rəğmən müəllim daha çox yaradıcı olmalı, əlavə didaktik materiallar, tapşırıqlar hazırlamalı, şagirdlərin şəkilçilər haqqında aydın təsəvvürə malik olmasını, praktik olaraq təmin etməli, tədrisi bu istiqamətdə qurmalıdır.

Bunun üçün nitq hissələrinin tədrisi imkanlarından daha cox istifadə edilməlidir. Əsas nitq hissələrinin(isim, sifət, say, əvəzlik, fel, zərf) tədrisi zamanı hər bir nitq hissəsinin yaranmasında iştirak edən leksik şəkilçilərin və həmçinin qrammatik şəkilçilərin qarşılıqlı və müqayisəli öyrədilməsi qayğısına qalınmalıdır.

İsim, Sifət, Say, Əvəzlik mövzularının tədrisində həm isim, sifət, say, əvəzlik düzəldən şəkilçilər üzərində, həm də cəmlik, hal, məsubiyyət, xəbərlik şəkilçiləri üzərində iş aparılmalıdır.

Həmçinin şəkilçilər vasitəsilə xüsusi isimlərdən ümumi isimlərin düzəldilməsi hadisəsinə də diqqət etmək lazımdır: Azərbaycan-azərbaycanlı, Bakı-bakılı və s.

Fellərin tədrisi üzrə iş prosesində et, get felləri indiki və gələcək zaman şəkilçiləri qəbul edərək t samitinin d samiti ilə əvəz olunması, həmçinin gələcək zaman şəkilçilərindən sonra I şəxsin sonluqları əlavə olunduqda q-nın ğ-ya, k-nın y-ya keçməsi şagirdlərin nəzərinə çatdırılmalıdır. Burada onların əvvəllər öyrəndikləri bir qanunauyğunluğu - iki sait arasında q-nın ğ-ya, k-nın y-ya keçməsini xatırlatmaq lazımdır. Qeyri-qəti gələcək zaman şəkilçilərinin yazılışı ilə əlaqədar yeni bir qanunauyğunluq öyrədilməlidir. Şagirdlərə başa salınmalıdır ki, yoxla, işlə kimi sonu saitlə bitən düzəltmə fellərə -ar, -ər şəkilçilərini artırmaq üçün sözlə şəkilçinin arasına bitişdirici y samiti əlavə edilməlidir: yoxlayar, işləyər. Fellərin qrammatik formasının dəyişməsi ilə əlaqədar qaydalardan biri də et, get təkhecalı fel köklərinin eləcə də sonu t ilə bitən çoxhecalı düzəltmə fellərin sonuna saitlə başlanan şəkilçilər artırıldıqda t-nın d-ya keçməsi qaydasıdır. Məsələn, et-

edir, edər; get-gedir-gedər və s. Bu qayda aşağıdakı xarakterik cəhətlərə malikdir: a) kar samitin cingiltili samitə keçməsi və ya cingiltiləşməsi hadisəsi ilə əlaqədar yazımızda qəbul olunmuş yeganə qaydadır; b) yalnız fellərə aiddir; c) tələffüzə əsasən çox asanlıqla müəyyənləşir. İbtidai siniflərdə "Fel" mövzusunun tədrisi ilə bağlı felin zamanları və bu zamanları yaradan qrammatik şəkilçilər, fellərdə inkar şəkilçilərinin işlənməsi, məsdərlərin hallanması və s. məsələlər öyrənilir.

İbtidai siniflərdə indiki və gələcək zaman fellərinin tələffüz qaydasını başa salmaq, izah etmək üçün çalışmalar sistemindən, didaktik oyunlardan, interaktiv təlim metodlarından istifadə etməklə yanaşı, əyanilikdən istifadə mühüm əhəmiyyət kəsb edir.

Bu qayda ilə şagirdlər praktik olaraq I sinifdə tanış olur, sonrakı siniflərdə nəzəri şəkildə öyrənirlər. Sonu t ilə bitən çoxhecalı fellərin (məsələn, oxut-oxudur, oxudar, oxudacaq və s.), sonu d ilə yazılıb müəyyən qrammatik vəziyyətlərdə t kimi tələffüz olunan isimlərlə müqayisəli öyrədilməsi də faydalıdır.

İbtidai siniflərdə "Fel" mövzusunun tədrisi ilə bağlı aşağıdakı orfoepik işlər aparılır:

1. İndiki və gələcək zaman fellərinin tələffüzü.
2. Fellərdə inkar şəkilçilərinin işlənməsi və tələffüzü.
3. Məsdərlərin hallanması və tələffüzü.

İndiki və gələcək zaman fellərinin tələffüzü ilə bağlı qaydalar əsasən sonu a, ə saitləri ilə bitən fellərə aiddir. Sonu a, ə saitləri ilə bitən fellər indiki və gələcək zaman şəkilçilərini qəbul edərkən ahəng qanununa uyğun olaraq a, ə saitləri ı, i, u, ü saitlərindən biri ilə əvəz olunur. Məsələn, indiki zaman: başlayır-başlıyır, başlayıram-başlıyıram, gözləyirsən-gözlüyürsən, gözləyirlər-gözlüyürlər və s.; gələcək zaman: səsləyəcəyəm-səsliyəcəm, oynayacağam-oynuyacam(6, 93).

İbtidai siniflərdə indiki və gələcək zaman fellərinin tələffüz qaydasını başa salmaq, izah etmək üçün çalışmalar sistemindən, didaktik oyunlardan, fəal/interaktiv təlim metodlarından (Venn diaqramı, əqli hücum, klaster, anlayışın çıxarılması, suallar, müzakirə, akvarium, karusel və s.)(7, 283) istifadə etməklə yanaşı, əyanilikdən istifadə mühüm əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1. Abdullayev M. İbtidai siniflərdə söz yaradıcılığı üzrə işin təşkili // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 1971, № 5, s.18-22
2. Cəfərov S.Ə. Azərbaycan dilində sözdüzəldici və sözdəyişdirici şəkilçilər. Bakı: Maarif, 1968, 108 s.
3. Cəfərov S.Ə. Sözdüzəldici şəkilçilərin bəzi xüsusiyyətləri // Azərbaycan dili və ədəbiyyat tədrisi, II buraxılış, 1964, s. 20-30
4. Cəlilov F.A. Azərbaycan dilinin morfonologiyası. Bakı: Maarif, 1988, 285 s.
5. Həsənov M., Cəfərova N. İbtidai siniflərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 2013, 410 s.
6. Həsənov M., Cəfərova N., Bəhmənova C. İbtidai sinif müəllimləri üçün kurikulumun məzmunu və həyata keçirilməsi yollari Elm və təhsil"nəşriyyatı , Bakı: Elm və təhcil 2014, 70 s.
7. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008, 480 s.

8. Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)// Kurikulum, 2010, №3, s. 116-130
9. http://www.derslik.edu.az/forums/19/215/

ЗЕЙНИЕВА ГАХИРА

ИСПОЛЬЗОВАНИЕ АКТИВНЫХ И ИНТЕРАКТИВНЫХ МЕТОДОВ ОБУЧЕНИЯ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ ЛЕКСИЧЕСКИХ И ГРАММАТИЧЕСКИХ СУФФИКСОВ В НАЧАЛЬНЫХ ШКОЛАХ

РЕЗЮМЕ

В начальных классах в процессе преподавания лексических суффиксов применение интерактивных методов обучения дает эффективные результаты. Использование новых методов способствует сознательному усвоению лексических и грамматических суффиксов. Процесс обучения делает детей активными, заставляет их логически мыслить,приобрести знания самостоятельно. В начальных классах в процессе обучения лексических и грамматических суффиксов применение таких методов как кластер (диверсификация), круглый стол, диаграмма Венна,ежедневная стратегия из двух частей, БИБО и др. стимулируют усвоение.

ZEYNIYEVA QAHIRA

THE USE OF ACTIVE AND INTERACTIVE TEACHING METHODS IN THE TEACHING OF LEXICAL AND GRAMMATICAL SUFFIXES IN PRIMARY SCHOOLS

SUMMARY

The use of interactive teaching methods in the prosses of teaching of lexical suffixes gives efficient results. The use of new methods contributes to the conscious appreciation of lexical and grammatical suffixes. The training makes the children active, forcing them to think logically, to acquire knowledge independently. In The primary classes in learning lexical and grammatical suffixes using such methods as a cluster (diversification), a round table, a Venn diagram, daily strategy of two parts, BİBO and others stimulate assimilation.

Rəyçi: prof. M.M.Həsənov

İRADƏ CƏFƏROVA
ADİU
iradə-aynurə.@.mail.ru.

İNGİLİS HƏYAT TƏRZİNİN İDARƏÇİLİK, RƏSMİ-İŞGÜZAR DAİRƏLƏRİNDƏ SİYASİ-DİPLOMATİK ÜSLUBİYYƏTİN İŞLƏNMƏSİNDƏ ƏSAS MEYARLAR

Açar sözlər: *funksional, nominativ, terminoloji, universal, rəsmi, humanitar.*
Ключевые слова: *функциональный, номинативный, терминологический, универсальный, официальный, гуманитарный.*
Key words: *functional, nominative, terminological, universal, official, humanitarian.*

İngilis dilinin siyasi-diplomatik üslubun xüsusiyyətləri. Məlumdur ki, üslub və üslubiyyət dilçilik elminin mərkəzi problemlərindəndir. Təqdim olunmuş məqalə müasir ingilis dilinin rəsmi-işgüzar üslubuna həsr olunub.

Müasir dövrdə ingilis dili beynəlxalq dil kimi çıxış etdiyi üçün işgüzar ingilis dilini bilən mütəxəssislərə zəruri ehtiyac yaranmışdır.Siyasi-diplomatik üslub təkcə ünsiyyət yox, həmçinin məlumatvermə funksiyasını da yerinə yetirir. Fuknsioanl üslubların hər biri mürəkkəb bir sistemdir: o, müxtəlif nitq növlərinə ayrılır və həmin nitq növləri vasitəsilə fəaliyyət göstərir, bu proses zamanı inkişaf edir, formalaşır, təkmilləşir. Məsələn, həmin prosesi rəsmi-işgüzar üslubda siyasi-diplomatik, ictimai-siyasi, ictimai-hüquq nitq növləri vasitəsilə mümkünləşir.

Üslubi norma deyildikdə üslub fərqlərə aid olan norma, xüsusiyyətlər nəzərdə tutulur. Normativlik müxtəlif funksional üslublarda müxtəlif cür özünü göstərir. Məsələn, əgər rəsmi-işgüzar üslubda ifadənin qurulması mütləq bu üslubun qaydalarına riayət olunmasını tələb edirsə, elmi üslublu mətnlərdə isə qeyri-üslub çalarlı olan hissələrin daxil olunmasına yol verilir; bu da tədqiqatçının fərdi-müəllifliyini qeyd etmək üçün edilir.

Siyasi-diplomatik üslubun aydın və dəqiq tərifini Ş.Ağakişiyeva verir: «Siyasi-diplomatik üslubun vəzifəsi dövlət və ictimai idarə sənədlərinin yazıldığı mətnlərdə əlaqədardır. Rəsmi-işgüzar üslubun əsas xüsusiyyətləri: konkret leksikaya malik olması; hansısa məsələni izah etmək üçün artıq izahata, təsviri vasitələrə yol verilmir. Əmr, qərar, müqavilə, fərman, qanun, qətnamə, nizamnamə, bəyanat ültimatium və s. kimi rəsmi sənədlərdə fikir konkret, ardıcıl, aydın və inandırıcı olur. Rəsmi-işgüzar üslubda standart formalar və hazır ifadələr işlədidir, bədii təsvir vasitələri işlədilmir; sənədin növündən asılı olaraq sahə terminlərindən, ümumxalq sözlərindən istifadə olunur».

Rəsmi sənədlərin dilində orfoqrafik qaydaların pozulma hallarına yol verilmir, çünki, mühüm rəsmi və dövlət sənədləri müəyyən funksional məxfilik və mütləqlik mahiyyətini kəsb edir.

Siyasi-diplomatik üslub üçün düzgünlük ən yaxşı üslubi normadır. Bunun yaxşı cəhəti nümunəviliyi izləmək, standartı gözləmək, leksik vahidlərin dəqiq, həqiqi, xüsusi nominativ mənada işlədilməsidir.

Rəsmi-işgüzar üslub əsasən rəsmi münasibətlərin dil ifadəsini özündə əks etdirir və bu tipli münasibətlərinə yaranmasından və formalaşmasından başlanır. Nəticədə də çağdaş dövrdə bütün rəsmi münasibətləri öz əhatə dairəsinə salır. Buraya müxtəlif

subyektlər arasında gedən rəsmi əlaqələr daxil edilir. Ona görə lə, bu üslubun fuksional təzahür xüsusiyyətləri olduqca geniş və rəngarəngir. Amma, bununla yanaşı, onun konkret standartları formalaşmışdır. Belə ki, cəmiyyətdə yaranan ictimai-siyasi, inzibati-bürokratik hüquqi, iqtisadi və mədəni institutların hər birinin səciyyəvi cəhətləri də bu üslubun funksional təzahür imkanlarını genişləndirir. Müxtəlif rəsmi müraciət formaları əmsallər və instansiyalar üzrə genişlənsə də, vahid standartlar üzrə genişlənsə də vahid standartlar hər yerdə məcburi qayda kimi qəbul edilir. Adi ərizədən tutmuş, beynəlxalq münasibətləri əks etdirən sənədlərə qədər hər birinin riayət olunmala normaları m.vcuddur. Siyasi-diplomatik üslubun norma təzahürü özünü müəyyən edilmiş standartlara uyğun tətbiqində göstərir.

Ədəbi dilin siyasi-diplomatik üslub üçün iki xüsusiyyəti xarakterikdir:

1. məsələnin aydın və qısa izahı;
2. artıq, lazımsız ifadələrin işlədilməməsi.

A.Qurbanov da qeyd edir ki, «rəsmi üslubda yazılan sənədlərdə fikrin konkret şəkildə izahı tələb olunur. Buna əsasən də rəsmi üsluğun özünə aid dil əlamətləri mövcuddur».

Tədqiq olanun üslubun əsas funksiyaları kimi məlumatlandırma və göstəriş, əmr oluduqdan, dil vasitələri elə seçilir ki, nəql olunan mətn maksimal dərəcədə dəqiq, konkret və lakonik olsun. Siyasi-diplomatik üslubda dil vasitələrinin yeknəsəqliyi dil standartlarına gətirib çıxarır. Dil siyasi-diplomatik – üslubun funksional cəhətdən şərtlənmiş xüsusiyyətidir. Bu qaydalar univkersal deyil, janrların tələbatından asılı olaraq dəyişir. Kargüzarlıq ştamplarının işlənməsi fikrin qısa və dəqiq şəkildə ifadəsinə kömək edir. Onlar məhdud kommunikativ şəraitdə işlənilir və məhdud sayda anlayış bildirir. Bu cür kargüzarlıq ştamplarından ibarət mətnlərə aid edə bilrik aşağıdakıları. Məsələn:

Self-Drive Hire Agreement of a Motor-Car – Minik avtomobillərinin kirə verilməsi haqqında saziş;

Guarantee for the Perfomance of the Contract – Müqavilənin həyata keçirilməsinie zəmanət öhdəlikləri;

Delivery Verification – Çatdarılmanın təsdiqi.

Siyasi-diplomatik üslubun xüsusiyyətlərindən biri olan obyektivlik – bütün tərəfdarların maraqlarını müəyyənləşdirmək və əks etməsini nəzərdə tutur.

Qeyd etdiyimiz kimi, onların əsas hissəsi universal xarakterli olduğundan rəsmi üslubun leksik normasına ümumbəşərilik səciyyəsi verir. Beynəlxalq terminlər və internasional sözlərin bu üslubun leksik normasına çevrilməsi ona bütün dünya ədəbi dilləri üçün standartlaşdırılmış fuksional üslub səciyyəsini qazandırır. Terminlər digər üslublarda işlənsə də, onların sintaksisi standanrtlaşdırılmadığına görə rəsmi üslubdakı universallılıq keyfiyyətini bütün hallarda əldə etmir.

Z.Cəfərovanin siyasi-diplomatik üslubunun verdiyi qruplaşdırma ilə biz bir qədər razı deyilik. Z.Cəfərova yazır: «Rəsmi üslub anlayışı özündə bir çox məsələləri ehtiva edir. Bu anlayışa daxil olan sənədlər janr və məzmun baxımından bir-birindən fərqlənir. Rəsmi sənədlərin müxtəlifliyi, onaların çoxistiqamətli olması rəsmi üslubun daxilində müəyyən yarımqrupların yaradılmasına və üslubun adında variantlılığa səbəb olur».

Rəsmi üslubun əhatə etdiyi sənədləri və onların fəaliyyət göstərdiyi sahələri nəzərə alaraq onu aşağıdakı kimi qruplaşdırmaq olar:

1. dövlət və qanunvericilik orqanlarının sənədləri;

2. hüquq və mühafizə orqanlarının sənədləri;
3. diplomatik sənədlər.

I qrupa xüsusi hallarda tərtib edilən rəsmi dövlət sənədləri daxildir və rəsmi üslubun bu qolunu rəsmi-inzibati üslub adlandırılması məqsədəuyğundur. II qrup isə özündə hüquq və dəftərxana sənədlərini ehtiva edir. Bu səbəbdən onu rəsmi üslubun rəsmi-kargüzarlıq və ya rəsmi-işgüzar adlandırmaq mümkündür. III qrup isə artıq müstəqil funksional üslub kimi fəaliyyət göstərən diplomatik üslub adlandırıla bilər. Gördüyümüz kimi, müxtəlif fəaliyyət sahələri nəzərə alınsa da, nədənsə yalnız üç yarımüslub qrupu göstərilib. Bir çox sahələr, məsələn, iqtisadiyyat (biznes, ticarət) və s.-ləri əks olunmayıb. Rəsmi-işgüzar üslubda bir 4 yarımüslub qeyd edirik: qanunverici; hüquq; inzibati; diplomatik. İnzibati öz növbəsində əsl inzibati və inzibati-ticarət növlərinə ayrılır.

Janrlara gəldikdə qeyt etməliyik ki, dicər üslublarla müqayisədə rəsmi-işgüzar üslubda janrların bölgüsü daha dəqiqdir. Bu bölgü formal cəhətdən sənədlərin başlıqlarında əks olunub (əmr, qərar, müqavilə, fərman, qanun, qətnamə, nizamnamə, ültimatium, bəyanət və s.). İşgüzar üslubda olan janrları belə qruplaşdırmaq olar: qanunverici-nizamnamə sənədlərin janrları; korrespoendensiya (ərizələr və s.) janrı; məlumatlandırıcı sənədlərin janrı və yekunlaşdırıcı sənədlər janrı. Bu janrların bölgüsü rəsmi-işgüzar üslubun yerinə yetirdiyi funksiyalardan irəli gəlirn:

- əmr vermə;
- ərizə formasında xahiş;
- məlumat vermə.

İşgüzar ingilis dili üçün konkret peşə sahiblərini, yerinə yetirdiyi vəzifəni adlandıran özünəməxsus antroponimlərin xüsusi siyahısı var: *teller, auditor, accountant, manager, executor, testator, vendor, purchaser*. Bu siyahıda sabit söz birləşmələri ilə adlandırılan vəzifə adları xüsusi yer tutur:

The Head of the Credit Department – Kredit şöbəsinin müdiri;
Loan Officer – İstiqraz üzrə iqtisadçı;
Sales Manager – satış üzrə müdir;
Production Manager – istehsalıt üzrə müdir;
Staff Manager – kadrlar şöbəsinin müdiri və s.

Dilin digər sahələrində bu leksik-semantik qrup tam şəkildə işlənmir. Sintaktik səviyyədə paralel konstruksiyalar, izahlı-təyini budaq cümlələri,e lmi üsluba xas olan cümlə modellərinin işlənməsini izləmək olar. Rəsmi-işgüzar üsluba aid mətnlər sadəcə oxumaq üçün deyil, sakit, rahat şəraitdə dəqiqliklə öyrənməsi üçün nəzərdə tutulub, ona görə də onlar çox saylı uzun cümlələrin işlənməsi ilə fərqlənir.

Rəsmi-işgüzar üslubu ədəbi dilə təsiri güclüdür. Belə ki, rəsmi-dövlət sənədlərinin tərtibində olan qaydaları rəsmi-işgüzar üslub özü müəyyənləşdirir. Ədəbi dil bu qaydalara təsir etmir, əksinə rəsmi-işgüzar üslubdan hazır şəkiodə alır.

İngilis dilinin siyasi-diplomatik üslubunun tədqiqi. İngilis dilinin siyasi-diplomatik üslubunun tədqiqinə həsr olunmuş İ.S.Volskayanın «Sintaktik səviyyədə siyasi-diplomatik üslubun differensial əlamətləri» adlı dissertasiyasında rəsmi-işgüzar üslubun müxtəlif janrları araşdırılır. Müəllf rəsmi-işgüzar üslubun iki növünü fərqləndirməyi təklif edir: güclü (hansına ki, qanunlar aiddir) və digər işguzar sənədləri əhatə edən zəif növ. «Güclü» növ invariant sistem hesab olunur. Lakin rəsmi-işgüzar üslub daxilən funksional cəhətdən həmcins olmadığından bu növlərin arasındakı fərqlər

get-gedə silinir. Diplomatik sənədlər hansısa razılaşmanın məhdud şərait və nəticələrini müəyyənləşdirdiyi üçün daha konkret, tədqiqi səciyyə daşıyır.

Lakin İ.S.Volskayanın siyasi-diplomatik üslubun janrlarını bədii əsərlərinin mətnləri ilə müqaiysəl aparılması, zənnimizcə, əsassızdır, çünki bədii mətni yaratmaqda əsas məqsəd estetik təsirdir, yazıçı bütün dil vasitələrini bu məqsədə tabe edir. V.V.Kalüjnayanın «İngilis üslubunun siyasi-diplomatik şəhrinin səciyyələri» adlı dissertasiyada da oxşar fikirlər söylənilir. Material kimi rəsmi-işgüzar üslubun janrlarından biri olan diplomatik sənədlər seçilir. Üslubun «güclü» növünə aid sənədlərin dili (nizamnamə, prosedurların keçirilmə qaydası, sazişlər, müqavilələr, konvensiyalar və s.) o dərəcədə normalaşdırılıb, sabitləşib ki, digər janrlara da öz təsirini göstərir.

İ.S.Volskayanın tədqiqatında rəsmi-işgüzar üsluba aid cümlələrin uzunluğu haqqında statistik məlumatlar da verilir. Qeyd olunur ki, qanunların dili daha mürəkkəbdir. 40 sözdən çox olan cümlələr 68% təşkil edir («söz» anlayışı altında qrafikada iki boş yer arasındakı cümlənin bir kəsiri başa düşülr) . 50 sözdən çox olan cümlələr 39,5% təşkil edir.

M.N.Kojina qiymətləndirmənin 2 növünü qeyd etmişdir: linqvistik və konkret kontekstdə aşkarlanan funksional qiymətləndirmə. Məsələn, «herein after refered to» kimi söz birləşməsi, hətta kontekstdən kənarda belə göturuldukdə, linqvistik qiymətləndirməyə malikdir, çünki bu söz birləşməsi rəsmi-işgüzar üslub üçün səciyyəvi sabit leksik birlik kimi qəbul olunur. Bunun əksinə olaraq, köməkçi felin (shall) müstəqil mənalı fel ilə birləşməsi müqavilə mətnində funksional qiymətləndiriləcək, çünki burada, o, sadəcə gələcək zamanı yox, qəbul olnumuş qərarın məcburiliyini, göstərişini nəzərdə tutur. Məsələn,

The Vendor shall sell and the Purchaser shall purchase as from – satıcı satacaq, alıcı isə aşağıdakıları alacaq ...;

The purchase prise shall be for ... - satış qiyməti təşkil edir;

The purchase shall be complefied on – satış (filan tarixdən) keçirilir… .

Dil vahidi dəyişilir və onun funksional mənası ekstralinqvistik şəraitdən asılı olaraq geniqlənir (gələcəyə aidlik qorunub saxlanılır, üstünə modal məna əlavə olunur).

İngilis üçlubiyyatçıların rəsmi-işgüzar üslub haqqında olan fiikrləri bir qədər fərqlidir. Məsələn, №nin üslubiyyatı üzrə məşhur müütəxəssislər D.Kristel və D.Devis 5 əsas dil formalarını qeyd edirlər, bunlar da funksional üslublar sisteminə uyğun gəlir: danışıq dili, yazılı sənədlərin dili, dini dil, qəzet dili, qanunverici aktlarının dili. D.Kristel və D.Devis belə hesab edirlər ki, üslublar içərisində yalnız bədii mətnlərdə hər hansı dil hadisələri, vahidləri işlənilə bilər; digər dillər isə «məhdud» dillər adlandırılır, çünki onlarda bəzi dil formalarına rast gəlmək olar. Eyni zamanda qeyd olunur ki, konkret formaların işlənməsi konkret situasiyadan asılıdır.

Müasir ingilis dili istifadəsinin öəyrənilməsi üzrə London mərkəzinə (The Survey of English Usage) başçılıq edən prof. Kverk vahid registrlar təsnifatının vahid sistemini işləyib hazırlanmışdır. London mərkəzinin alimləri bütün üslubları iki böyük qrupa ayırırlar: danışıq üslub və yazılı üslub; bunlar da öz növbəsində bir sıra yarımqruplara bölünürlər. Məsələn, yazılı üslubda qeyd olunur:

1. söhbət (televonla; adi sözbət – danışanların icazəsi olaraq və xəbəri olmadan). Bunlar da öz növbəsində bölünə bilər: həmsöhbətlərin yaxın münasibətdə olan familyar

üsluba; həmsöhbətlər cəmiyyətdə tutduqları ictimai mövqeyə görə bir-birinə bərabər olan eynihüquqlu üsluba və hüquqca bərabər olmayan üslub;

2. əvvəlcədən hazırlanmayan şərhlər (idman və qeyri-icman şərhləri);

3. əvvəlcədən hazırlanmamış nitq çıxışı;

4. əvvəlcədən hazırlanmış nitq, çıxış.

Yazılı üsluba aid edilir:

1. şifahi deyilmək üçün nəzərdə tutulmuş mətnlər (elmi-pedaqoji söhbətlər, yaradıcılıq söhbətləri, xəbərlər, əvvəlcədən hazırlanmış rəsmi çıxışlar, hekayələr, pyeslər);

2. əlyazma mətnləri (şəxsi yazışmalar, işgüzar yazışmalar, gündəliklər);

3. çap olunmuş mətnlər (təmaülü və humanitar elmlərin mətnləri, təlimat, göstrəiş, qəzet mətnləri, rəsmi-məlumatlandırıcı mətnlər, inzibati-işgüzar mətnlər, hüquq sənədlərinin mətnləri, publisistik, reklam mətnləri, bədii-belletristik mətnlər).

Gördüyümüz kimi, bizi maraqlandıran rəsmi-işgüzar üslub bu təsnifatın müxtəlif bölmələrinə aid ola bilər.

ƏDƏBİYYAT:

1.Ağakişiyeva Ş.M. Ədəbi dil normaları və üslubları. Filol. elm. nam. alim. dər. almaq üçün təq. e. dissertasiya. B., AMEA, Dilçilik İnstitutu, 2008, 136 s.

2.Cəfərova Z.B. Rəsmi-işgüzar üslub (Milli Məclisin və Avropa Şurasının sənədləri əsasında). Filol. elm. nam. alim. dər. almaq üçün təq. e. dissertasiya. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti, B., 2008, 154 s.

A.DJAFAROVA,A.MANAFOVA

SOME NOTES CONCERNING TO INVESTIGATION OF THE OFFICIAL-BUSINESS STYLE OF ENGLISH

SUMMARY

Represented article has been devoted to the official-business style of the modern English. Official-business style is in connection with post of the style the writing documents of state and social office.

Preliminary studies show that more and more official style based on the writing text. Official-business style forning warning and informational texts.

И.ДЖАФАРОВА,А.МАНАФОВА

ОБ ИССЛЕДОВАНИЯХ ОФИЦИАЛЬНО-ДЕЛОВОГО СТИЛЯ АНГЛИЙСКОГО ЯЗЫКА

РЕЗЮМЕ

Данная статья посвящена официально-деловому стилю современного английского языка. Функции официально-делового стиля связаны с текстами письменных документов государственных и общественных ведомств.

Последние исследования показывают, что официальный деловой стиль в основном опирается на письменный текст. Официально-деловой стиль формирует предупреждения и информацию в тексте.

Rəyçi: Həbib Mirzəyev

filologiya elmləri namizədi,dosent.

SEVİNC ŞAHLAROVA
Bakı Dövlət Universiteti
KƏMALƏ HÜSEYNOVA
Azərbaycan Texniki Universiteti
kəmalə,sevinc.@.mail,ru.

İNGİLİS DİLİNDƏN AZƏRBAYCAN DİLİNƏ TƏRCUMƏSİ PROSESİNDƏ OPTİMAL VARİANTIN TAPILMASI VƏ ONUN İFADƏ ÜSULLARI

Açar sözlər: *eimi-iqtisadi tərcümə, vətn, feil, qrammatik terminlər, praktik tərcümə, cümlələr.*
Ключевые слова: *научно-экономический перевод, текст, глагол, грамматические термины, практический перевод, фразы.*
Key words: *scientific and technical translation, text, verb, grammar terms, practical translation.*

Bu məqalədə elmi-iqtisadi tərcümənin bir sıra çətinliklərindən danışılır.

Texnikanın sürətlə inkişafı və elmi-texniki informasiyanın genişlənməsi ilə əlaqədar olaraq, elmi-texniki tərcümənin praktik əhəmiyyəti xeyli artmışdır. Tərcümə zamanı meydana gələn çətinlikləri aradan qaldırmağın yollarını göstərən bu məqalədə əsas məqsəd elmi-texniki mövzuda mətnin müxtəlif elementlərini analiz edə bilmək, düzgün tərcümə etmək bacarığı və vərdişlərini inkişaf etdirməkdir.

Giriş və üç hissədən ibarət olan bu məqalədə əsasən ingilis və Azərbaycan dillərinin leksik, qrammatik və stilistik xüsusiyyətləri aydınlaşdırılır.

Birinci hissədə, yəni «Elmi-iqtisadi tərcümənin leksik problemləri»ndə elmi texniki tərcümənin bəzi xüsusiyyətlərindən, neologizmlərin yaranması üsullarından, onların qurulmasından və tərcümə vasitəsi ilə çatdırılmasından bəhs edilir.

İkinci hissədə – «Tərcümənin qrammatik problemləri»ndə praktik tərcümə zamanı rast gələn olduqca mürəkkəb qrammatik quruluşlar araşdırılır. Felin şəxsiz formaları və onların tərkiblərinin izahına xüsusi yer ayrılır. Bu hissədə xüsusilə ingilis və Azərbaycan dilləinin müxtəlif struktur quruluşundan irəli gələn tərcümə problemlərinə fikir verilir, məchul növlü tərkiblər, sözün çoxmənalılığı və çox funksiyalılığı izah edilir.

Üçüncü hissədə – «Elmi-iqtisadi mətnlərin praktik tərcüməsi»ndə isə iqtisadi məqalələrin başlıqlarının struktur və tərcüməsi açıqlanır.

Elmi-iqtisadi məqalələri tərcümə edərkən nəzərə alarmaq lazımdır ki, onların dili ümummilli dilin bir hissəsi olsun. Elmi-iqtisadi ədəbiyyatın dilini bədii ədəbiyyatın dilindən fəqləndirərkən əsas cəhət mətnlərdə müəyyən edilən termin bolluğudur. Mətnin tam dolğun bir şəkildə tərcüməsi üçün vacib olan tələblər aşağıdakaılardır:

1. Orijinalda olan mətnin dəqiq dolğun verilməsi;
2. Fikrin tam aydınlığı ilə lakonik formada çatdırılması. Bunun üçün ingilis dilinin spesifik xüsusiyyətlərini Azərbaycan dilində əks etdirmək vacib deyil. Burada milli kalorit gözlənilməlidir;
3. Tərcümə tam şəkildə Azərbaycan ədəbi dilinin normalarını özündə qoruyub saxlamalıdır. Tərcümə zamanı Azərbaycan dilində yox dərəcəsində olan, lakin ingilis dili üçün xarakterik hesab edilən sintaktik tərkiblərin nəzərə alınması da vacibdir.

Elmi-iqtisadi ədəbiyyatda sübhəsüz ki, emosionallıq, obrazların fərqliliyi, metafora, yumor və s. olmur.

Lakin onu da qeyd etmək lazımdır ki, canlı danışıq dilinə aid olan bu ifadə üsulları olmasa da, elim-texniki mətnlərdə bəzən texniki üslubda obrazlı frazeoloji birləşmələrə də rast gəlmək olar.

Məsələn: *The wife is alive – Məftil cərəyan altındadır.*

Dead man´ s handle – Təhlükəsizliyi təmir edən düyməli dəstək.

4. Elmi-iqtisadi terminologiyada bir neçə komponentdən ibarət çoxlu terminlər vardır. Çoxkomponentli terminlər elə sözbirləşmələridir ki, onların komponentləri arasında məntiqi əlaqə uzlaşma əlaqəsi ilə ifadə olunur.

Məsələn: *load governer – gücün tənzimlənməyicisi.*

Onlar həm də elə söz birləşmələridir ki, bunların komponentləri qrammatik yolla, yəni sözönü vasitəsilə, ya da saysız-hesabsız şəkilçilərin köməyilə düzəlir.

Məsələn: *rate of ejchange – valyuta kursu.*

Terminli söz birləşmələri sözün həqiqi mənasında tam leksik vahidlərdir.

Birinci qrupa elə terminli sözbirləşməlri aiddir ki, onların hər iki komponenti xüsusi lüğətə aid olan sözlərdir. Onları sərbəstdirlər və verilmiş birləşmələrdən kənarda işlənə bilər. Məsələn: *brake – tormoz.*

Belə ki, bu komponentlərdən ibarət olan terminli birləşmələr sərbəst şəkildə yeni məna kəsb edir.

Məsələn: *brake gear – tormozlaşdırma avadanlığı.*

İkinci qrupa elə terminlər aiddir ki, bu terminlərin birinci komponenti olan sifət bu və ya digər elm sahəsi ilə bağlı xüsusi, spesifik məna kəsb edir.

Məsələn: *vitreous electricty – yarımkeçirici cərəyan.*

İkinci qrupa həm də elə termin birləşmələr aiddir ki, onların 2-ci komponenti həqiqi mənalarda işlənmiş olsun, lakin 1-ci komponentlə birləşmədə isə müəyyən elmi sahəsinə uyğun xüsusi, spesifik məna kəsb etsin.

Məsələn, *electric eye – foto element.*

Üçüncü qrupa aid terminlər terminoloji cəhətdən bölünməzdirlər və onların komponentləri arasındakı əlaqə bir qədər sıx olur.

Məsələn, *wire – gərginlik altında olan naqil; live steam – ilkin buxar.*

Terminin xarakter xüsusiyyəti onun müəyyən anlayışla çıx əlaqədə olması, dəqiqliyi və təkmənalılığa meyd etməsidir. Terminli birləşmələrin komponentləri təyini əlaqədə olur. Bir qayda olaraq terminli birləşmələrin əsas komponenti axırda işlənin. Elmi-texniki terminli birləşmələrin tərcüməsinin əsas üsulları bunlardır.

5. Təyin kimi işlənən birləşmədə komponentlərin ardıcıllığında dəyişiklik etməklə tərcümə.

Məsələn: *avtomobile repair plant construction project – avtomaşın təmiri zavodunun tikinti proyekti.*

Elmin inkişafı, xüsusən də texnikanın, radiotexnikanın inkişafı dildə bir sıra neologizmlərin yaranmsına təkan vermişdir. Yeni sözlər digər bir tərəfdən atom texnikasının başa düşmən tələbatından yaranmışdır. Məsələn, *atom* sözündən bir çox terminlər əmələ gəlmişdir – *atomize, atomizatron, atom energy* və s.

Elmi-iqtisadi terminologiyada neologizmlərin yaranma yolları aşağıdakılardır:

- şəkilçilərlə;
- konvensiya yolu ilə;
- mürəkkəb elmi-texniki sözlərlə;

- ixtisar etmə yolu ilə.

Şəkilçilərlə düzələn neologizmlər özləri də iki yerə bölünür: suffikslər və prefikslər.

Elmi-texniki terminologiya sahəsində ən geniş istifadə olunun prefikslər isə bunlardır: *-re, -over, -under*.

Məsələn: *undervoltage – azaldılmış gərginlik, instellar - ulduzlar* və s.

İngilis dilində yeni sözlər əks hallarda dildə mövcud olan sözlərin dəyişmədən bir nitq hissəsindən, başqa bir nitq hissəsinə keçməsi ilə əmələ gəlir. Bu proses konvensiya adlanır. Konvensiyanın ən geniş yayılmış növü isimlərin felləşməsi prosesidir. Məsələn: *power, to power, motor, to motor* və s.

Mürəkkəb elmi-iqtisadi terminlər yeni söz əmələ gətirmənin elə bir üsuludur ki, burada iki sözün birləşməsindən bir söz yaranır və onlar ya bitişik, ya da defislə yazılır.

Məsələn, *bootleg – kabelin dirəyi, flashbulb – impuls lampası*.

Bəzi mürəkkərb neologizmlər bir-birinə sözün vasitəsi ilə birləşən iki sözdən ibarət olur. Məsələn, *voltage to groud – yerə nisbətən gərginlik*.

Son zamanlar ixtisaretmə yolu ilə yeni sözlərin əmələ gəlmə tendensiyası xeyli genişlənmişdir. İxtisarların sayca artımı onunla izah oluna bilər ki, mürəkkəb söz və söz birləşməlri həcmcə böyük və əlverişli deyillər və təbii ki, buradan onların qısa şəkildə verilməsi tələbatı yaranır. İxtisarların aşağıdakı növləri var:

- hərbi ixtisarlar – *E-east, R-ramlway, HB-hidrogen bomb;*
- hecalarla ixtisarlar – *Maxcap-maximum capacity – maksimum güc;*
- yeni söz əmələ gələrkən bəzən başlanğıc sözdən şəkilçi düşür;
- sözün sonuncu hecasının saxlanması ilə əmələ gələn neologizmlər: *chute – parachute*;
- iki sözdən süni yolla əmələ gələn neologizmlər də vardır ki, buraya əsasən *electronic – elektrikin köməyi ilə hərəkət edən, motel – avtoturistlər üçün mehmanxana* və s. bu kimi sözlər daxildir.

Elmi-texniki neologizmlərin tərcüməsi zamanı ilk növbədə onların yaranması üsullarını bilmək, bunlardan başqa söz və söz birləşməsinin strukturunu da analiz etmək baracığına malik olmaq lazımdır. Belə ki, *follower* sözündəki *er* suffiksi yarışın icraçısını, ya da əşyanı göstərə bilər. Bu sözün əsas mənası eisə follow sözündən yaranan izləmək sözüdür. Sözün strukturu baxımından məzmuna istinad edərək Azərbaycan dilində *follower* termininə bir qədər uyğun gələn məna tapırıq: *təkrarlayıcı, izləyici mexanizm*. Azərbaycan dilində oxşarlığı olmayan neologizmlər bir qayda olaraq əvvəlcə müxtəlif cür tərcümə olunur və müəyyən vaxt keçəndən sonra verilmiş neologizm üçün irəli sürülmüş variantlardan ən yaxşısı seçilir və doğma dilimizdə möhkəmləndirir.

İngilis dilində formaca məlum, məzmunca isə məchul olan felin səxsiz formalarına rast gəlmək olar. Bunlara misal olaraq gerund və məsdəri göstərmək olar.

Məsələn: *after weighing the loads were shipped to the consumers – yüklər çəkiləndən sonra slıcılara göndərildi*.

Bu cür cümlələr xəbəri məchul növdə olan tabeli mürəkkəb cümlə vasitəsilə tərcümə edilir.

To need, to want, to require, to stand, to endure və s. fellərindən sonra gerund məlum növdə işlənir, lakin mənaca məchul növ olur. Bu halda onun ifadə etdiyi hərəkətin kiminsə tərəfində icra edildiyi və ya icra edilməli olduğu göstərilir. Məsələn: *The equipment needs repairing – Bu avadanlıq təmir olunmalıdır.*

Bəzən elmi-texniki məqalələrdə bu cür cerundla yanaşı formaca məlum, məzmunca isə məchul növdə olan məsdə də işlənir.

Məsələn: They were not to use – Onlardan istifadə etmək lazımdı gəlmədi.

Bu cür məsdər əksər hallarda təyin funksiyasını yerinə yetirir və Azərbaycan dilinə təyin bucaq cümləsi kimi tərcümə olunur. Beləliklə də, formaca məlum növdə, lakin məzmunca məchul növdə olan məsdər və cerundlu cümlələr Azərbaycan dilinə ya məlum növdə olan qeyri-müəyyən şəxsli cümlələrdə, ya da müxtəlif budaq cümlələrdə tərcümə oluna bilər. Digər dillərdə olduğu kimi müasir ingilis dilində də modallıq kateqoriyası bir sıra vasitələrlə ifadə edilir. Bunlardan biri də modal fellərdir. Modal fellər məsdərin müxtəlif formaları ilə işlənir. Məsdərlə işlənərkən, modal fellər hərəkətin mümkünlüyünü, qeyri-mümkündüyünü, vacibliyini, gerçəkliyini, lazımlığını və s. bildirir. Modal fellər *car, may, must* məchul növdə olan məsdərlə işlənərkən Azərbaycan dilinə olar, bilər, lazımdır+məsdər növdə olan məsdərlə tərcümə olunur.

Məsələn: *The machine tool can be stopped at any moment –*

Dəzgahı istənilən anda dayandırmaq olar

və yaxud *Dəzgah istənilən anda bayandırıla bilər.*

Must, may və *micht* kimi modal fellər məsdərin bitmiş forması ilə işlənərkən bu zaman hərəkətin bitməsinə əhəmiyyətli dərəcədə əminlik ifadə edir.

Məsələn: *He may have got the condenser he needed – Bəlkə də o ona lazım olan kondenseoneri alıb.*

İndiki zaman feli sifəti, yəni Participle I cümlədə əsasən 2 funksiyanı – təyin və zərflik funksiyalarını yerinə yetirir və əsasənf elin axırına – *ing* şəkilçisi artırmaqla düzəlir. Bu feli sifət məchul növdə olanda çox nadir hallarda təyin funksiyasını yerinə yetirir və təyin olunan sözdən sonra işlənir.

Məsələn: *The compound being treated for several hours turned dark red – Bir neçə saat ərzində tədqiq olunan maddə tünd qırmızı rəngə çevrildi.*

Keçmiş zaman feli sifəti, yəni P II əsas felin 3-cü formasından əmələ gəlir və sərbəst işləndikdə iki funksiyanı yerinə yetiririr.

Təyin funksiyasında olanda o təyin etdiyi söz və yaxud isimdən əvvəl yazılır. Feli sifət II təyin etdiyi sözdən sonar gələ bilər. Bu halda feli sifət indiki və keçmiş zamanın məchul növü ilə, ya da bucaq cümlə kimi tərcümə oluna bilər.

Məsələn: *He offered the best solution of the problem concerned – O müzakirə olunmuş problemin çox yaxşı həllinə təklif etdi.*

Bəzi hallarda Partisiple I tərcümə edərkən Azərbaycan dilində söz sırasını dəyişməku tələb olunur.

Məsələn: *The capactance received is belived to be half the total capacatance required – Əldə edilmiş həcm tələb olunan ümmui həcmin yarısı hesab olunur.*

Feli sifət I və feli sifət II izah edici sözlərin köməyi ilə bir təyin birləşmə əmələ gətirir ki, bu da Azərbaycan dilinə ya indiki və keçmiş zamanın məlum və məchul növləri, ya da təyin budaq cümləsi şəklində tərcümə oluna bilər.

Feli sifət II zərflik funksiyasında işlənəndə onun qarşısında *when, while, if, az, thouch* bağlayıcıları işlənir. Bu zaman onlar Azərbaycan dilində zaman budaq cümləsi və güzəşt bucaq cəmləri şəklində, ya da feli bağlama kimi tərcümə oluna bilər.Məsələn:

They worked as ordered – Onlar tələb olunduğu kimi işlədilər.

While used precision instruments require very dedicate handing –

Dəqiq qurğulardan istifadə edrəknə, onlarla ehtiyatla davranmaq tələb olunur.

İngilis dilində tamamlıq feli sifət tərkii mövcuddur ki, bu da əsasən ümumi halda isim və feli sifətdən ibarətdir. Bu tərkib bütövlükdə cümlədə mürəkkəb tamamlıq funksiyasını yerinə yetirir və Azərbaycan dilinə budaq cümlə vasitəsi ilə, ya da təsirlik halda olan isim və feli sifət vasitəsilə tərcümə edilir.

Tamamlıq feli sifət tərkibi adətən hissi və əqli qavrayış ifadə edən fellərdən – *to have, to get* fellərdən və arzu, istək, niyyət ifadə edən *to want, to wish, to keep* fellərindən sonra işlənir.

They wanted the test results plotted and explained – Onlar istəyirdilər ki, yoxlamanın nəticələri diaqramlar şəklində olsun və izah edilsin.

ƏDƏBİYYAT

1. N.Xudiyev: "Azərbaycan dilinin zənginləşmə yolları".
2. A.Qarayev: "Müasir Azərbaycan dilində Avropa mənşəli leksik alınmalar"
3. E.Haugen: "The analyse of indiguistic horriwing", "Lang.", 1950.
4. R.C.Cəfərov: "Azərbaycan dilində işlənən Qərbi Avropa mənşəli alınma sözlər".

S.SHAKHLAROVA,K.KUSSEYNOVA

TRANSLATION SCIENTIFIC TERMINOLOGY IN ENGLISH AND AZERBAIJANI

SUMMARY

This article deals with the difficulties of scientific-technical literature in Azerbaijani and English has got some ways of training. The article gives the whole analyse of their learning. Problem arising during the translation and elimination methods of these matters have been reflected in this article, too. Important terms of the translation are those that the text should be rich in content; idea should be fully clear and laconic and should keep the norms of the literary language.

С.ШАХЛАРОВА, К.КУСЕЙНОВА

НАУЧНО ТЕХНИЧЕСКИЙ ПЕРЕВОД В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

В этой статье рассматриваются трудности научно-технического перевода и техническое развитие, проблемы. Трудности, возникающие при переводе и методы их устранения также нашли за свое отражение. Основными условиями при переводе является то, что текст должен быть содержательны, идея – ясной и лаконической, обязательное сохранение норм литературного языка. Научно-техническая литература в азербайджанском и английском языках имеет некоторые способы изучения. В статье дается полным анализ их присвоение.

Rəyçi: Y.Süleymanov.
Filologiya üzrə fəlsəfə doktoru,dosent.

SEVİNC QULİYEVA
ADİU
sevinc.@.mail.ru.

OMONOMLİYİN KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ SİSTEMİNDƏ TUTDUĞU MÖVQE VƏ ONLARIN QARIŞILIQLI ƏLAQƏSİ

(ingilis dili materialları əsasında)

Açar sözlər: *sözönü, zərf, bağlayıcı, omonimik, qrammatik omonimlik, leksik omonimlik, dil hadisəsi*
Key words: *preposition, adverb, conjunction, hmonymy, grammatical homonymy, lexical homonymy, language phenomenon*
Ключевые слова: *предлог, наречие, союз, омонимичность, грамматические омонимы, лексические омонимы, языковое явление.*

Məlum olduğu kimi, dilçiliyin bir çox sahələrində rast gəlinən dil hadisələrindən biri də omonimlikdir. Omonimlik dedikdə formaca eyni, mənaca fərqli olan sözlər nəzərdə tutulur. Bu məqalədə, indiyə qədər məlum olan sözlərlə yanaşı, məlum olmayan sözlərin yaratdığı omonimlik də təsvir olunmuşdur. Onu da qeyd edək ki, araşdırma konkret olaraq üç nitq hissəsi – zərf, sözönü və bağlayıcı arasında omonimliyə həsr olunmuşdur.

Artıq qeyd etdiyimiz kimi, dilçilikdə mövcud olan hadisələrindən biri də omonimlikkdir. Əvvəlcə omonimliyə verilən tərifləri nəzərdən keçirək. Görkəmli dilçi alimlərdən A.Kuninin omonimliyə verdiyi tərifi aşağıdakı kimidir:

Mənasına görə fərqlənən, səslənməsi ilə yazılışına görə, yaxud da yazılış və səslənmə baxımından eyniyyət təşkil edən sözlər omonim adlanır.

L.Bulaxovskinin omonimliyə verdiyi tərifi aşağıdakı kimidir:

Eyni səslənməyə malik olan, lakin tamamilə müxtəlif mənalar ifadə edən iki və ya daha çox söz omonim adlanır.

E.Vorno və M.Kaşeyevanın da omonimliyə verdiyi tərif yuxarıdakı tərifdən bir o qədər də fərqlənmir:

Yeni formaya malik olan, lakin, mənaca bir-birinə oxşamayan sözlərə omonimlər deyilir.

K.Barantsevin omonimliyə verdiyi tərif də yuxarıdakılardan az fərqlənir:

Omonimlər elə sözlərdir ki, onlar eyni səsləndiyi halda müxtəlif məna kəsb edirlər.

K.Levkovskayanın omonimliyə verdiyi tərif öz lokanokliyi ilə seçilir:

Səslənmə örtüyünə görə üst-üstə düşən sözlər omonim adlanır.

E.Kroteviç və N.Rodzeviçin verdikləri tərif də yuxarıdakılarla eyniyyət təşkil edir:

Omonimlər səslənmə baxımından eyni, məna baxımından müxtəlif olan sözlərdir.

V.Arakin isə omonimlərə aşağıdakı kimi tərif vermişdir:

Tamamilə eyni olmyan mənaya malik olan və əsasən də müxtəlif nitq hissələrinə malik olan sözlər omonim adlanır ki, belə sözlər eyni səs tərkibinə və ya eyni qrafik formaya malik olurlar.

Dilçi alimlərdən daha bir neçəsinin fikirlərini nəzərdən keçirək. İ.Arnold omonimliyi aşağıdkı kimi xarakterizə etmişdir:

Omonimlər səslənmə və yazılışca eyni, mənaca fərqli sözlərdir.

M.Stepanova isə omonimliyi aşağıdakı kimi təsvir etmişdir: Eyni cür səslənən, lakin müxtəlif mənalara malik olan sözlər omonim adlanır.

R.Ginzburqun omonimliyə verdiyi tərif yuxarıdakı tərfilərdən elə də fərqlənmir: Səslənmə formasına görə üst-üstə düşən, lakin mənaca fərqlənən sözlər ənənəvi olaraq omonim adlanır.

Dilçi alim O.Axundova isə omonimliyi belə səciyyələndirir:

Səslənmə baxımından eyni olan iik və daha çox müxtəlif dil vahidi omonim adlanır.

Omonimliyin növlərinə gəldikdə isə, o, iki hissəyə ayrılır: leksik və qrammatik omonimlik. F.Mauler qrammatik omonimliyi aşağıdakı kimi təsvir etmişdir:

Qrammatik omonimlik qrammatik işarənin ifaədə edən ilə ifadə olunanı arasında assimmetriyanın elə bir növüdür ki, burada bir ifadə edənə iki və daha çox ifadə olunan uyğun gəlir.

Omonimliyi tədqiq edən S.Stati öz tədqiqatında leksik və qrammatik omonimliyə toxunmuşdur. Lakin omonimlik dedikdə o, eyni nitq hissəsinə aid olan iki və daha çox sözü nəxərdə tutup. Müxtəlif nitq hissələrinə xas olan və öz aralarınd üst-üstə düşən paradiqmatik formalar leksik-qrammatik omonimlər adlanır.

O.Duxaçekin fikrincə, qrammatik omonim dedikdə, müxtəlif nitq hissələrinə aid olan, lakin eyni cür səslənən sözlər nəzərdə tutulur və yaxud da eyni nitq hissəsinə aid olaraq, hansısa qrammatik kateqoriyaya görə fərqlənən sözlər qrammatik omonim adlanır.

İndi isə zərf, bağlayıcı, sözönü nitq hissələri kimi işlənən sözlərdə omonimlik məsələsini təkbətək araşdıraq. Omonimliklə bilavasitə bağlı olan 70-dən çox vahidi tədqiq edərkən onlardan 9-nun dildə həm zərf, həm sözönü, həm də bağlayıcı kimi çıxış etdiyi məlum olmuşdur. İndi onları ayrılıqda nəzərdən keçirək.

AFTER

Dildə həm zərf, həm bağlayıcı, həm də sözönü kimi çox işlənən sözlərdən biri avter-dir. Hər üç ahlad after zaman anlayışı ifadə edir. Bağlayıcı kimi, after-dən sonra indiki və keçmiş bitmiş zaman formaları işlədilir.

Shortly after we returned from Basel, Roy moved to London.

Biz Bazeldən qayıtdıqdan qısa bir müddət sonra Roy Londona köçdü. (bağlayıcı)

I′ ll go to the post office after the lesson – Dərsdən sonra poçta gedəcəm (sözönü).

Zərf kimi after həm zamanla, həm də yerlə bağlı anlayışları ifadə edir.

They lived more happily after – Sonralar, onlar daha xoşbəxt yaşadılar (zaman zərfi).

She followed on after – O, arxadan gəlirdi (yer zərfi).

BEFORE

Həm zərf, həm bağlayıcı, həm də sözönü kimi çıxış edən sözlərdən biri də before-dur. O, zərf kimi işləndikdə indiki və keçmiş qeyri-müəyyən və indiki və keçmiş bitmiş zamanlarla işlənir.

You should have talked to him before he had made up his mind.

Siz, gərək onunla o, qərar verməkdən əvvəl danışa idiniz (bağl.)

She′ s lived there before the war – O, müharibədən əvvəl burada yaşayıb (sözönü).

Sözönü kimi, həm zaman, həm də yer anlayışları ifadə edir.

V comes before C in the alphabet – Əlifba cədvəlində B C-dən əvvəldə gəlir (sözönü).

I have seen that film before – Mən o filmə əvvəllər baxmışam (zərf).

BUT

Müasir ingilis dilində ən çox omonimlik yaratmağa qabil olan sözlərdən biri but-dur. Sözönü kimi, but, bir qayda olaraq inkarlıq ifadə edən əvəzliklərdə sonra (nobody, none, nowhere), xüsusi sual sözləri (who, where) və qeyri-müəyyənlik əvəzliklərilə (all, everyone, anyone) birgə işlənir. Bu halda but except sözü ilə sinonimolik təşkil edir və dilimizə başqa. savayı kimi tərcümə edilir.

Everyone was there but him – Ondan başqa hamı orada idi (sözönü).

Nobody but you could be so selfish – Səndən savayı heç kim belə axmaqlıq edə bilməz (sözönü).

Tabesizlik bağlayıcı kimi iştirak edən but ziddiyyət ifadə edir.

This is the rule, but there are many exceptions – Bu bir qaydadır, amma çoxlu müstəsnalar da vardır (bağlayıcı).

But həm də zərf kimi işlənir. Lakin but-ın bu funksiyada işlənməsinə çox nadir hallarda rast gəlinir. Bu halda o, qırağa, kənara, qıraqda, kənarda mənalarını daşıyır.

Go but anad wail there – Çəkil qırağa və orada gözlə (zərf).

LİKE

Qeyd olunan hər üç nitq hissəsi kimi işlənən digər dil vahidi like-dir. Like-da ən çox sözönü kimi işlənir.

It′ s just like her to tell everyone about it – Bu haqda hamıya danışmaq elə ona xasdır (sözönü).

Like nadir hallarda bağlayıcı funksiyasında da işlənir. Buna ən çox danışıq dilində rast gəlinir.

No one sings the blues like she did (= as well as) – Heç kimi blyuzu o oxuduğu kimi oxumur (bağlayıcı).

Like sözönü zərf funksiyasında çox nadir hallarda işlənir.

He xust, like, refused to talk to me (like = surelessly).

O sadəcə, qeyri-əminliklə, mənimlə danışmaqdan imtina etdi (zərf).

NOTWITHSTANDING

Bu söz də zəfr, bağlayıcı və sözönü kimi işlənir. Qeyd etmək lazımdır ki, notwithstanding bağlayıcı kimi çox az hallarda işlənir və bir qayda olaraq that ilə birlikdə işlənir.

Notwithstanding that I enjoyed myself, I am glad to be back.

Baxmayaraq ki, mən çox əyləndim, geri qayıtdığım üçün şadam (bağl.).

notwithstanding zərf kimi işləndikdə buna baxmayaraq və hər bir halda, sözönü kuimi işləndikdə isə baxmayaraq kimi tərcümə edilir.

They will do it notwithstanding

Buna baxmayaraq (= har bir halda) onlar bunu edəcəklər (zərf).

They travelled notwithstanding the storm.

Tufana baxmayaraq onlar səyahətə getdilər (sözönü).

SİNCE

Müasir ingilis dilində ən çox işlənən sözlərdən bri də since-dir. Yuxarıda qeyd olunan vahidlər kimi, bu da hər üç nitq hissəsi kimi çıxış edir.

Since zərf, bağlayıcı və sözönü kimi, bəri mənasını daşıyır və bir qayda olaraq indiki və keçmiş bitmiş zamanlarla bircə işlənir.

She′ s been working in a bank since leving school.

O, məktəbi bitirəndən bəri bankda işləyir (sözönü).

He left home two weeks ago and we haven′ t heard from him since.

O, iki həftə əvvəl evdən gedib və o vaxtdan bəri biz ondan heç bir xəbər eşitməmişik (zərf).

Cath hasn′ t phoned since she went to Berlin.

Ket Berlinə gedəncən bəri zəng vurmayıb (bağl.).

Bundan başqa, since bağlayıcısı zaman budaq cümləsindən başqa səbəb budaq cümləsini də baş cümləyə bağlamağa xidmət edir.

Since I haven′ t got her address. I can′ t write to her.

Məndə onun ünvanı olmadığından, ona məktub yaza bilmirəm (bağl.).

SİN

Sin sözü də zərf, sözönü, bağlayıcı funksiyalarında çıxış edir. Lakin bu söz arxaikləşmişdir və indi dildə bir o qədər də işlənmir. Zərf kimi, sin o vaxt, o zaman, sonra, nəticədə, o vaxtdan başlayaraq, əvvəllər kimi tərcümə edilir. Sözönü kimi isə, sin sonra, arxasınca kimi, bağlayıcı kimi isə o vaxtdan bəri, belə ki, nəzərə alaraq kimi tərcümə edilir. Sir-in bəzi tərcümə variantları since-inki ilə eyniyyət təşkil etdiyindən, sin-i since-in bir variantı hesab etmək olar.

WITNOUT

Without sözönüsü də həm zərf, həm də bağlayıcı kimi işlənə bilər. Zərf kimi işləndikdə o, bayırda, bayır tərəfdə/tərəfdən, küçədə, zahirən mənalarını da ifadə edir.

The messenger stands without – Çapar bayırda durub (zərf).

Bağlayıcı kimi işləndikdə, without, əksərən əgər sız[4], (ma[2]) kimi tərcümə olunur.

I shan′ t go without I get the letter – Əgər məktubu almasam getməyəcəm (bağl.).

Sözönü kimi işləndikdə isə without ssız[4] və qıraqda, bayırda kimi tərcümə edilir.

He cannot walk without a stick – O, əsasız gəzə bilmir (sözönü).

Without the door, there as a doğ – Qapıdan qıraqda (kənarda) bir it var idi. (sözönü).

ERE

Zərf, bağlayıcı, sözönü funksiyasında çıxış edən sonuncu söz ere-dir.

Ere zərf kimi işləndikdə erkən mənasını kəsb edir. Sözönü kimi işləndikdə o, qədər, kimi, əvvəl, qabaq kimi tərcümə edilir.

Ere night I′ ll meet her – Mən onunla gecəyə kimi (gecə olmamış) görüşəcəm (sözönü).

Bağlayıcı kimi isə o, nisbət ifadə edir və müqayisə budaq cümləsini bağlamağa xidmət edir.

I would die ere I would consent – razılaşmaqdansa ölməyi üstün tutardım/ölərdim (bağl.).

Beləliklə, biz, müasir ingilis dilində sözönü, zərf və bağlayıcı kimi çıxış edən 9-a yaxın vahidi nəzərdən keçirdik. Onu da qeyd etmək lazımdır ki, müasir ingilis dilində omminimik təkcə bu 3 nitq hissəsi arasında deyil, digər nitq hissələri (isim, fel, sifət, ədat, nidalar və modal sözlər) arasında da mövcuddur.

ƏDƏBİYYAT

1. Варантсев К. Омонимия как системная категория языка. Мн.: БГУ, 2007, 132 с
2. Кашейева М. Практикум по английской лексикологии. Ленинград: Просвещение. Ленинградское отделение, 1974, 205 с
3. Musayev O. İngilis dilinin qrammatikası. Bakı, 1979.
4. Xanbutayeva L. İngilis dilində qrammatik omonimlik və onlara aid çalışmalar toplusu. Bakı, 2007.

S.KULIYEVA

HOMONIYMY DEALS WITH AUXILIARY PART OF SPEECH THE POSITION OF AND THEIR CONNECTION TO MIXTURE

SUMMARY

The article deals with the matter of homonymy. In English most parts of speech are homonymous with one another. Firstly, the definitions of different scholars given to homonymy are described in the article. Then, the homonymy of three parts of speech, i.e. adverbs, conjunctions and prepositions is given. The main part of the aricle is devoted to the investigation of the following 9 words: after, before, but, like, notwitzstanding, sin, since, without, ere. All these words can be used as an adverb, a conjunction and a preposition. Besides these worrds in English there are many words which are homonymous with other part s of speech.

С.КУЛИЕВА

ОМОНОМИКА –УПОТРЕБЛЕНИЯ В ВСПОМОГАТЕЛЬНОЙ ЧАСТИ РЕЧИ, ЕГО МЕСТО РАСПОЛОЖЕНИЕ И ИХ ВЗААИМНЫЕ СВЯЗИ

РЕЗЮМЕ

В статье рассматриваются омонимы. В английском языке большинство частей речи омонимичны друг с другом. Сначала, определения данные омонимам разными исследователями описаны в статье. Далее, даны омонимы трёх частей речи: наречий, союзов и предлогов. Основная часть статьи посвящена исследованию следующих 9 слов: after, before, but, like, notwithstanding, sin, since, without, ere. Все эти слова могут быть использованы как наречие, союз и предлог. Кроме этих, в английском языке много слов, которые омонимичны с другими частями речи.

Rəyçi: Adilə Zeynalova
filologiya üzrə fəlsəfə doktoru,dosent.

DÜRDANƏ VƏKİLOVA
ADİU
dürdanə.@.mail.ru.

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ ƏKSMƏNALI SÖZLƏRİN TƏSNİFİ VƏ ONLARIN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Açarsözlər: *antonim, konsersivantonimlər, mütləq və ya kök antonimlər, düzəltmə antonimlər*
Key words: *antonym, condrodictory, contrary antonyms, absoluteorroot antonyms, derivational antonyms*
Ключовые слова: *антонимы, вопреки антонимы, абсалютные или корневые антонимы*

Həm ingilis, həm də Azərbaycan dillərin də antonimlərin təsnifi meyarlarını nəzərdən keçirdikdə görürük ki, ingilis dilində antonimlər əsasən onlarda olan daxili ziddiyətlərə əsasən təsnif olunur və çox vaxt onların quruluşu, mənşəyi, hansı nitq hissəsinə aidliyi haqqında heç bir söz deyilmir. Misal üçün Websters New Dictionary of Snonyms lüğətinin giriş hissəsini götürək. Burada antonim adı altında götürülən sözlər altı qrupa bölünüb.

Bölgü zamanı sözlərin nə dərəcədə bir-birinə zidd olması əsas götürülüb. Bu qruplar arasında iki qrupa daha çox yer ayrılıb ki, bunlar dan birincisi «contradictory terms», digəri isə «contrary terms» adlanır. Dilə daxil olan alınma terminlər terminoloji sistemli zənginləşdirir, dildə leksik alınmaların sayı artır. Dilə yeni gələn sözün dilin normalarına uyğunlaşması mürəkkəb linqvistik proses olduğuna görə sözlərin mənimsənilmə dərəcələri də müxtəlif səviyyədə özünü göstərir.(1,s.75)

Bəzi sözlər dilə yeni gəldiyinə, yaxud müəyyən dildaxili səbəblərlə bağlı məhdud dairədə işləndiyinə görə yarım mənimsənilmiş alınmalar hesab olunur. Azərbaycan dilindəki ingilis mənşəli ***absentizm*** (absenteeism), ***aqnostizm*** (agnosticism), ***buklet*** (booklet), ***doker*** (docker), drenaj (drainage), ***dissident*** (dissident) ***klan*** (clan) və s. alınmalar belə sözlərdəndir. Bu tip leksik vahidlər semantik cəhətdən birmənalı olur, daha чox «özgə» reallığı əks etdirir və yeni anlayışların, əşyaların hadisələrin dilimizdə ifadəsində xidmət edir.

Linqvistik təhlil göstərir ki, əsasən terminoloji leksikaya aid olan həmin alınmalar semantik cəhətdən sabitdir, müəyyən funksional sahələrdə işlənir. Onlarda semantik dəyişmələr nadir hallarda baş verir.

Azərbaycan dilində geniş dairədə istifadə olunan, hətta ümumişləklik qazanaraq dil daxil olan kifayət qədər ingilis mənşəli sözlər vardır. Belə alınmalar sözün leksik sistemində özünə möhkəm yer tutmuşdur.

Büdcə, vaqon, vazelin, boks, yumor, eksport, finiş, park, mağaza, kofe və s. alınma terminlər dilimizdə geniş işlənməkdədir. Bu sözlərin çoxu həm fonetik, həm də qrammatik cəhətdən assimilyasiyaya uğramışdır. Bu tip alınmalar tam mənimsənilmiş leksik vahidlərdən sayılır.

Dil əlaqələrinin linqvistik problemləri dəfələrlə diqqət mərkəzində olsa da, alınmaların semantik mənimsənilməsi hələ də kifayət qədər tədqiq olunmasıdır.

Məsələn, tədqiqatçılar alınma sözlərin «yerli» dildəki semantik inkişafını iki mərhələdə götürmüşlər: sözün alınması və onun tam mənimsənilməsi.

Halbuki, leksik alınma mürəkkəb və çoxfazalı prosesdir. Bir sıra hallarda leksik alınma dildəki lüğəvi mənasından başqa sıozalan dildə yeni mənalarda işlənə bilər. Məsələn, ictimai-siyasi leksikada işlənən *baykot* termininin işlənməsində də semantik dəyişiklik hiss olunmaqdadır.

Məlumdur ki, bu söz Azərbaycan dilinə siyasi və iqtisadi mübarizə formasını bildirən termin kimi daxil olmuşdur. Müasir dilimizdə *"baykot"* leksik vahidi özünün terminoloji mənasını saxlamaqla yanaşı, semantik tutumunu da genişləndirmişdir. Həmin alınma ictimai-siyasi termin sahəsindən çıxıb məişət çərcivəsində işlənməklə, ümumədəbi dilin fəal leksik vahidinə çevrilmişdir. *"Baykot"* leksemi müxtəlif sahələrin terminoloji sistemində də özünə yer almışdır.

Diplomatiya termini kimi, baykotun mənası "bir dövlətin başqa dövlətlə, ya bir qrup dövlətlə ticarət əlaqələri yaratmaqdan və saxlamaqdan imtina etməsi"dir. Diplomatiya terminləri lüğətində tərkibində baykot sözü olan aşağıdakı termin-birləşmələr vardır: *«beynəlxalq* münasibətlərdə baykot», «baykot elan eləmək»,«baykotu ləğv etmək», «baykota məruz qalmaq», «baykot siyasəti», «siyasi baykot», «baykota əl atmaq», «baykota çağırmaq» və s.

Dilin başqa dildən aldığı sözlər müəyyən anlayışların, əşyaların, hadisələrin adlarını ifadə etməyə xidmət edir. Alınma ilkin dövrdə konkret semantikaya malik olur. Adətən söz adi olduğu halda dildə bir sıra mənalara malik olursa, kecdiyi yeni dildə onun bu mənalarından çox vaxt biri istifadə olunur.

Zaman keçdikcə, alınma söz yeni mənalar qazana bildiyi kimi, əvvəlki mənasını itirə bilir. Alınma obyekt dildə semantik transformasiyaya məruz qalır. Semantik transformasiya dilçilikdə araşdırılmış məsəllərdəndir. Obyekt dildə alınma sözün mənasının genişlənməsi və ya daralması, onun məcazi mənada işlənməsi semantik transformasiya kimi başa düşülür.

Bir sıra tədqiqatçılar alınma sözlərə yalnız onların mənalarının daralmasının, bu sözlərin məcazi mənalarda işlənməsinin xas olmasını qeyd etmişlər. Bu fikir sonralar tənqid olunmuşdur (2,s.18) Alınma sözlərin yeni keyfiyyət qazanması cəmiyyətdə baş vermiş dəyişikliklərlə millətlərarası əlaqələrin, o cümlədən dil əlaqələrinin genişlənməsi ilə bağlıdır. Masir dıovrdə sözlərin semantik strukturunun genişlənməsi, onların yeni mənalarının yaranması müşahidə olunur.

İngilis dilində alınmaların semantik cəhətdən genişlənməsi onların həyatımızın müxtəlif sahələrinə nfuz etməsi prosesində baş verir. Termin alınan dildə ictimai-tarixi şəraitlə əlaqədar ilkin təbiətindən uzaqlaşmış, yeni məna kəsb etmişdir.

Məsələn "server" və "servis" terminləri: 90-cı illərdə həm servis, həm də server sıozlərinin semantikasında dəyişmə baş vermişdir. Terminlər indi sosial-iqtisadi və başqa sahələrə aid anlayışları ifadə edir. *Server* - «kiçik və orta biznesdə istifadə olunan, əsas məlumatları saxlayan və ötürən kompyuter» mənasındadır. ***Servis*** söznün daha iki mənası yaranmışdır:

1. məhsulun istehlakı və satışı sisteminin təkmilləşdirilməsinə yönəlmişkompleks xidməti təmin edən marketinq fəaliyyətinin alt sistemi;

2. sosioloji sorğu. Eyni hadisə öznü ***server*** termininə mnasibətdə də göstərir. Bu termin də yeni məna qazanmış, mxtəlif sölərlə yeni terminoloji birləşmələr əmələ gətirmişdir. İndi ***server*** «internet şəbəkəsinə qoşucu kompyuter» mənasında işlənir:

İnternetə girmək üçün əvvəlcə serverə qoşulmaq lazımdır. Bunun üçün serverin telefon nömrəsi yığılmalıdır» («Media Press» qəzeti, 25 iyul, 2011). Alınma leksika, o cümlədən ingilis dilindən alınma sözlər dilin leksik sistemində gedən proseslərdə fəal iştirak edir.

Ümumişlək leksik vahid kimi alınmış söz terminləşə bildiyi kimi, alınma terminin xüsusi leksik vahid səciyyəsini qazanması də mümkündür. Müasir dövürdə terminoloji mənanın itirilməsinin tez-tez baş verməsi tədqiqatlarda qeyd olunur.

İngilis dilindən alınma sözlərdən publisistik mətnlərdə, mətbuatda tez-tez istifadə olunması onların semantikasına əsaslı təsir göstərir. Mətbuatda işlənən alınma sözlərin semantik strukturunda dəyişmə baş verir. Sözün məna həcminin genişlənməsi yeni semlərlə zənginləşməsi özünü göstərir.

Belə hallarda determinləşmə semantik genişlənmənın təzahr amilidir. Bir çox innovasiyalar məcazi mənada istifadə olunur, yeni mənalı söz mxtəlif semantik qrupun sözləri və söz birləşməsi tərkibində işlənir.

Semanik derivasiya prosesində mənanın genişlənməsi əsas yer tutur. Alınma sıozlərdə mənanın genişlənməsində ilkin leksiksemantik variantın arxiseminin mumiləşməsi baza sözlərdə leksik-semantik paradiqmasının hüdudlarından kənara çıxması da mühüm rol oynayır. Məsələn: ***Treninq*** yarış dövür üçün orqanizmin maksimal hazırlığını təmin etmək üçün edilən məşqlər nəzərdə tutulur. Arxisema «idman məşqidir». Masir dövürdə sözün mənası genişlənmiş və müxtəlif fəaliyyət sahələrində işə hazır olmaq üçün məşqləri, formanı saxlamağı əhatə etməyə başlamışdır. *Reytinq* fərdi və komanda fəailiyyətlərinin ədəbi göstəricisidir.

İlk əvvəl şahmata, sonralar tennisə aid olmuşdur. Hazırda həmin təkbətək mübarizə komanda idman növlərində istifadə olunur. Qiymətləndirmənin ədəbi göstəricisi arxisemində dəyişmə baş vermişdir. Ədəbi göstərici əsas götürülmür. Hazırda reytinq sözünün semantikası genişlənmişdir: «FİFA dnya yığmalarının sentyabr ayı üçün reytinq cədvəlini dərc edib» («Olimpiya dnyası», qəzeti, 9-11.10.2011).

Monitor - Bu termin informatikada "1. emal sistemlərində əməliyyatları idarə və nəzarət edən, yoxlayan maşın proqramı; 2.proqramlaşdırma dillərində ümumi vasitələrdən istifadə etmək üçün proseslərin sinxronlaşdırılması və əlaqələndirmə mexanizmi; S.sistemi idarə edən displey" kimi mənalarında işlənir.

Kompyuterin insan məişətində geniş yer alması onun dəstəsinə daxil olan *monitor* söz də ümumişlək leksik qata daxil olmuşdur. Bununla yanaşı, monitorun *«ekran»* mənası da vardır. «Kompyuter dəstinə yeni kvars monitoru daxildir. Belə sıozlər, bir qayda olaraq etnoqrafik, tarixi, coğrafı, bədii mətnlərdə işlənir.

Realiyalar bu və ya digər mətndə ilk dəfə istifadə olunanda tərcüməçi və ya müəllif onun haqqında əlavə izah verir. Sözün sonrakı istifadəsi belə izahı tələb etmir. Alınma söz müxtəlif müəlliflərin əsərlərində və müxtəlif mənbələrdə rast gəlinirsə və bu zaman alınma sözün semantikası haqqında əlavə izah verilirsə, onda həmin sözün semantik mənimsənilmə dövrünün başlanması haqqında danışmaq olur.

Alınma terminin dildə istifadə olunma tezliyi, ümumişləkliyi artdıqca onun yeni dilin leksik sisteminə uyğunlaşma dərəcəsi artır, alınma termin dildə işləələklik və yeni semantik çalar qazandığı zaman özünün əvvəlki mənasını da saxlayır.

Bu zaman termin semantik cəhətdən tam mənimsənilir, ümumişlək sözə çevrilir, söz yaradıcılığında fəal iştirak edir. Bəzən də termin kimi yox, dilimizə söz kimi daxil olur və etimon dildən fərqli olaraq leksik-semantik məzmun dəyişərək terminoloji

səciyyə qazanır. Məsələn, ərəb dilində ümumişlək olan xəta, əmsal, hədd, təcil, srət dilimizdə riyazi sahədə terminləşmişdir.

Alınma terminlərin mənimsənilməsi prosesində dəyişmələr müxtəlif mərhələlərdən ibarətdir. Tədqiqatçılar qeyd edirlər ki, əcnəbi söz semantik cəhətdən əvvəlcə okkazionalizm kimi götürülür və mətndə xsusi izahat tələb edir. Sonra əcnəbi söz bir qədər mənimsənildikdə və məzmun planının vahidi ilə onun yeni ifadə üsulu arasında əlaqə başa düşüldükdə əcnəbi söz resipientin passiv ehtiyatının vahidi hesab edilir və yalnız bundan sonra aktiv ehtiyata keçərək tam mənimsənilmiş sayılır [4,s.6].

Beləliklə də, alınma sözlər dilin öz sözləri kimi dəqiqləşir, aydınlaşır. Dil daşıyıcıları arasında yayılır. Alınma söz yeni dilin leksik-semantik və qrammatik sisteminə uyğunlaşır. Söz müxtəlif leksik, frazeoloji sintaktik birləşmələrdə istifadə olunur, sözdüzəldici morfemlərlə işlənmə imkanları artır, determinləşmə və terminləşmə prosesində iştirak edir. Azərbaycan dilinə keçən belə terminlərin çoxu ümumişlək leksik vahidlər cərgəsində yer almış, mənimsənilmiş, dilimizin müxtəlif sözdüzəldici şəkilçilərini qəbul edərək, yeni sözlər yaratmışdır.

N.Məmmədli yazır ki, alınma terminin söz yaradıcılıq məhsuldarlığı, müntəzəm işlənməsi, məna anlamının genişlənməsi və s. əlavə əlamətləri törəmə kimi qəbul edilməlidir. (3,s.38) A.R.Mayorovun fikrincə, «alınma söz təkcə yeni mənalarını və ya söz yaradıcılığı məhsuldarlığını genişləndirməsi ilə deyil, dil sisteminə daxil olduğu üçün bu keyfiyyətləri qazanması yaxud qazana bilməsi ilə dildə möhkəmlənir. (5.s.8)

Y.R.Krısin isə qeyd edir ki, sıozn funksional aktivliyini semantik mstəqillik təyin edir. Azərbaycan dilində də alınmaların mstəqillik qazanması, dildə sabitləşməsinin ən mühüm səbəbləri dubletlik yaratmaması,mənaca differensiallaşmasıdır. Son dövrlərdə komp-yuterin insan məişətinə daxil olması hesablama texnikasının srətli inkişafı bu sahədə alınmaların sayının günbəgün artmasına zəmin yaradır. Kompyuterin məişət texnikasına чevrilməsi alınma sıozlərin də hesablama texnikası terminləri olmasına baxmayaraq ümumişlək leksik qatda yer alması ilə şərtlənir. Məsələn, drayver, monitor, sayt, klaviatur, bord, fotoşop, veb-sayt, veb-dizayn, internet, internet-klub, intert-klass və s.

Masir Azərbaycan dilində ingilis dilindən ardıcıl və artan sayda sözalma terminologiya sahəsində getdikcə artır. Müxtəlif elm sahələrinin inkişafı onlarda terminoloji bazanın zənginləşməsinə səbəb olur. Dilin terminoloji sisteminə, yeni terminlərin gətirilməsinə müxtəlif aspektlərdən yanaşmaq mümkündür.

Yeni terminə yaranan tələbatın ödənilməsi üçün istifadə olunan termin yaradıcılığı yollarından biri də terminalmadır. Terminalma terminin başqa dildən hazır alınmasıdır. Azərbaycan dilinə son illərdə yeni terminlər hazır şəkildə ingilis dilindən alınır. Siyasi, iqtisadi, sosial sahələrə aid terminlərin dilimizə keçməsi artmışdır.

Bunun əsas səbəbi ıolkənin yeni demokratik inkişaf yolunu seçməsi, yeni iqtisadi siyasəti qəbul etməsi ilə əlaqədardır. Lakin Azərbaycan dilinə ingilis dilindən gələn terminlər yalnız bu sahələrlə məhdudlaşmır.

Müxtəlif elm sahələrinə aid terminoloji lüğətlərin araşdırılması zamanı son dövrdə ingilis dilindən alınmaların srətlə artması öznü göstərir. Ancaq dilin quruluş baxımından fərqliliyi ingilis dilindən alınma terminlərin unifikasiyasına xüsusi diqqət tələb edir.

ƏDƏBİYYAT

1. Арнолд И.В. Лексикология современного английского языка. М., 1973
2. Комиссаров В.Н. Словар антонимов современного английского языка. М.: Введение,1964.
3. Уримцева А.А. «Слововлексико-семантической системе языка» М.,1968
4. webstersdictionaryofsynoyms.USA

D.VEKILOVA

CLASSIFICATION OF ANTONYMS IN ENGLISH AND AZERBAIJANI LANGUAGES

SUMMARY

In English and Azerbaijani languages V.N.KOMISSAROV′ S, A.A Ufimtev's, I.V Arnolds and a number of other scholars opinions and classification of antonyms, members of the human body, as well concerning the names of dishes and drinks, including words that express the concept of time and space' ass well as some abstract nouns and ete. Have been taken into account.

The article montioned correction of antonyms, noted the correction of the correction of the words with the addition of prefixes –un, -int, -il, -im, -ir, -dis.

There were given a value of antonyms.

Д.ВЕКИЛОВА

КЛАССИФИКАЦИЯ АНТОНИМОВ В АЗЕРБАЙДЖАНСКОМ И АНГЛИЙСКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

В статье рассматривается антонимы в Английском и Азербайджанском языках,их лексико-семантические свойства в простых и сложных предложениях,а также исследуется их место назначение в части речи в английском терминологическом системе.

В данной статье также анализируется проблемы дублестности и паралели между Азербайджанским и Английским языками и в некоторых случаях проявляют полную семантическую адекватность к уже имеющимся в языке антонимы с лексическими единицами.

Rəyçi: Həbib Mirzəyev
filologiya üzrə fəlsəfə doktoru, dosent.

RƏFİQ CƏFƏROV
AzTU
rəfiq.@.mail.ru.

ÜMUMİ DİLÇİLİK SİSTEMİNDƏ MORFOLOJİ YOLLA SÖZ YARADICILIĞININ BƏZİ MƏSƏLƏLƏRİNƏ DAİR

Açar sözlər: *sözyaradıcılığı, morfologiya, qrammatika, morfema, dilşünaslıq, semantika, leksika.*
Ключевые слова: *словообразование, морфология, грамматика, морфема, лингвистика, лексика, семантика.*
Key words: *word formation, morphology, grammar, morpheme, linguistics, leksical, semantic*

Söz yaradıcılığı anlayışı ilə dilçilikdə iki linqvistik hadisəni izah edirlər. Birincisi, dildə olan hazır modellər və nümunələr əsasında affiksasiya və digər formal vasitələrlə eyniköklü sözlərdən düzəltmə və mürəkkəb sözlərin yaradılması söz yaradıcılığı hesab edilir. Söz yaradıcılığının digər mənası daha geniş əhatə dairəsinə malikdir. Belə ki, söz yaradıcılığı dilçilikdə düzəltmə və mürəkkəb sözlərin yaranmasının, quruluşunun və təsnifatının bütün aspektlərini öyrənən müstəqil bir sahədir.

Söz yaradıcılığı nominasiya prosesini və onun nəticələrini təmin etməklə insanın dərketmə fəaliyyətində əhəmiyyətli rol oynayır. Söz yaradıcılığı həm də dilin lüğət tərkibinin zənginləməsinin və nitq hissələri arasında əlaqələrin yaradılmasının əsas vasitələrindən biridir.

Söz yaradıcılığına verilən digər bir tərifdə deyilir ki, söz yaradıcılığı dilin motivə edilmiş təksözlü işarələrinin yaradılması haqqında elmdir. Bu tərifə əsasən alimlər söz yaradıcılığına onomasiologiyanın bir sahəsi kimi yanaşırlar.

L.V.Şerbaya görə, söz yaradıcılığı düzəltmə və mürəkkəb sözləri dinamik və statik aspektlərdə öyrənir. Yəni dinamik dedikdə məsələ - *söz necə yaranır*, statik dedikdə isə, - *söz necə yaradılıb* – şəklində qoyulur. Bundan əlavə, alimin fikrincə, söz yaradıcılığı sözün diaxronik va sinxronik yaradılma qaydalarını da ehtiva edir.

Amma dilçilikdə belə bir fikir də formalaşmışdır ki, söz yaradıcılığı hər zaman diaxronik vəziyyətdədir. Bu fikir əsasən rus dilçisi O.N.Trubaçovun tədqiqatlarında izlənilir. Faktik materiala gəlincə isə, dilin inkişafının müəyyən mərhələsində söz yaradıcılığı nəzəriyyəsi yeni sözlərin yaranması və bu yaranma şəraiti barədə məlumatlar verə bilər, həm də belə sözlərin yaranması üçün yeni qaydalar da yarada bilər. Bu qaydalar əsasında isə dildən istifadə edənlər sinxronik planda yeni düzəltmə və mürəkkəb sözlər yarada bilər.

Dildə söz yaradıcılığı sisteminin mürəkkəbliyi bir neçə amillə şərtlənir. Onları bu şəkildə qruplaşdırmaq olar:

1. dilin digər səviyyələri ilə - fonologiya, morfonologiya, morfologiya, sintaksis, və ümumiyyətlə qrammatika ilə six əlaqələrlə;
2. sistemin inanılmaz hərəkətliliyi ilə; məhz bu səbəbdən onun potensiyaları və faktiki reallaşma səviyyəsi arasında, habelə söz yaradıcılığı və söz dəyişmələri arasında kəskin və qəti sərhəddi müəyyənləşdirmək mümkün olmur.
3. Sinxroniyanın və diaxroniyanın differensiasiya çətinliyi ilə;

4. bu prosesdə iştirak edən vahidlərin çoxluğu və rəngarəngliyi ilə; bu vahidlərə ən kiçik söz yaradan morfemin affiksdən tutmuş söz yaradan kateqoriyalara qədər çoxsaylı vahidlər daxil edilir. Sistemin təsvirini verməyi mümkün edən bir çox nəzəri anlayışlar (söz yaradıcılığının paradiqmaları, söz yaradıcılığı növləri və s.) da həmçinin buraya daxildir.

Söz yaradıcılığı aktında iştirak edən formal vasitələrə görə söz yaradıcılığının bir neçə növü fərqləndirilir:

ajjiksusiya, suffiksasiya və prefiskasiya ilə baş verən söz yaradıcılığı prosesi;

iki eynihüquqlu vahidin iştirakı ilə baş verən söz yaradıcılığı prosesi;

konversiya hadisəsi – sözlərin bir nitq hissəsindən digərinə keçidi və ya transpozisiyası;

abreviasiya hadisəsi -qısaldılmış sözlərin iştirakı və s.

Formal vasitələrin köməyi ilə yeni sözlərin yaradılması prosesi çox zaman *derivasiya* da adlandırılır. Derivasiya prosesində yaradılan düzəltmə və mürəkkəb sözlər isə bu halda ümumi termin olan "derivatlar" termini ilə işaralənir.

Dünya dilçiliyində çox zaman söz yaradıcılığı iə derivativ morfologiya arasında bərabərlik işarəsi qoyulur.

Söz yaradıcılığı nəzəriyyəsinin əsas anlayışları bunlardır:

1. Motivasiya anlayışı. Bu anlayış düzəltmə və mürəkkəb sözlərin mənalarının onları yaradan sözlərlə sıx semantik əlaqəsini bildirir. Söz yaradıcılığı aktında bir qisim vahidlər motivasiya mənbəyi kimi çıxış edir, digər vahidlər isə nəticəyə yönəldilmiş olur.

2. Düzəltmə sözlərin yaradılması anlayışı. Bu anlayışa görə, yeni yaradılmış düzəltmə söz formal və semantik baxımdan ilkin vahiddən müəyyən əlamətlərinə görə fərqlənmir və ya sezilir. Bu anlayışların söz yaradıcılığında isifadə edilməsi düzəltmə sözlərə xüsusi struktura malik vahid kimi yanaşmağa xidmət edir. Bu vahidin daxili strukturu onun məzmununu tam ifadə edir. Bu zaman düzəltmə sözün əsasında duran söz motivasiya edilmiş sözlərə birbaşa işarə edəcəkdir.

3. Söz yaradıcılığı qaydası anlayışı. Bu söz yaradıcılığı nəzəriyyəsinin ən əsas anlayışı sayıla bilər. Bu anlayış istər rus dilçi-alimləri (Kubryakova, Uluxanov və b.), istərsə də xarici dilçilər (M.Aronov, F.Plank, V.Dresler, S.Skalize və b.) tərəfindən öyrənilmişdir. Bu anlayış düzəltmə sözlərin morfoloji strukturunun yaradılması zamanı və onların yeni məna ifadə etməsi zamanı meydana çıxan qanunauyğunluqları ifadə edir.

Söz yaradıcılığı qaydaları derivasiya prosesində düzəltmə sözlərin modelləşməsi xüsusiyyətlərini təsvir edir, bu prosesi daimilik/qeyri daimilik, produktivlik, qeyri-produktivlik baxımından xarakterizə edir, morfemlərin uyuşmasını və onalrın morfonoloji dəyişmələrini göstərir, fonetik, morfoloji, semantik və praqmatik məhdudiyyətləri ifadə edir.

Bu anlayışın söz yaradıcılığı nəzəriyyəsinə gətirilməsi söz yaradıcılığında sintez probleminin aydınlaşdırılmasına doğru yönəlmiş bir addım kimi dəyərləndirilə bilər. Kubryakova, Uluxanov, Qinzburq, Miloslavskiy, Saxarnıy və digər alimlərin əsərlərində ilk dəfə olaraq bu anlayış öz elmi təsdiqini tapmışdır.

Derivat anlayışının düzgün izah edilməsi üçün onun morfoloji və söz yaratma strukturlarının münasibətlərini müəyyənləşdirmək lazım gəlir: morfoloji təhlil zamanı

minimal sözyaratma vahidləri – morfemlər fərqləndirilir. Bu morfemlər derivatın format hissəsi iə tutuşdurulur. Bunun sayəsində də sözün strukturu yaradılmış olur.

Söz yaradıcılığı təhlilinin məqsədi derivatla başlanğıç vahid arasında münasibətlərin yaradılması sayıla bilər. Bu da motivasiya mənbəyinin aşkarlanmasına, derivatın strukturunda onun ifadə formalarının müəyyən edilməsinə xidmət edir

İki hissənin - başlangıç və formant hissənin birləşməsindən yaranan sözün yeni mənası söz yaradıcılığı mənası adlanır. Bu məna derivatm formant hissəsinin mənası ilə müəyyən oluna bilər .Söz yaradıcılığı mənası formal ifadə olunmuş mənadır, bir qisim sözlərdə eyni formantla ifadə oluna bilər.

Söz yaradıcılığı hadisələrinə onomasioloji yanaşmanın meydana gəlməsi və geniş yayılması ilə söz yaradıcılığı mənası mürəkkəb struktura malik məna kimi dəyərləndirilməyə başlanıldı. Yəni yeni yaranmış sözün onomasioloji bazisi ilə onomasioloji əlaməti arasında yeni tip münasibətləri ifadə edən məna kimi.

Rus dilçiliyində söz yaradıcılığı hadisələrinin təsviri tarixi çox qədim ənənələrə malikdir. Bu ənənələr Boduen de Kurtene, Fortunatov və Kruşevskidən başlanır. Amma müstəqil sahə kimi söz yaradıcılığı nisbətən sonralar, XX əsrin 40-cı illərində öyrənilməyə başlanıldı. Müstəqil dilçilik fənni kimi isə söz yaradıcılığı XX əsrin 60-cı illərindən sonra qəbul edildi. Söz yaradıcılığının yeni nəzəriyyəsinin əsasları Pokrovski və Şerbanm əsərlərində qoyuldu. Smirnitski, Vinokur, Stepanova və Jirmunski və nəhayət Vinoqradov bu istiqamətin əsas davamçıları oldular.

Vinoqradov söz yaradıcılığı ilə leksikologiya, digər tərəfdən söz yaradıcılığı ilə qrammatika arasındakı çox yaxın əlaqəni müəyyən etdi, və dilçilikdə ilk dəfə olaraq söz yaradıcılığının dilçilikdə yeri barədə konstruktiv tezis irəli sürdü.

Vinokur isə elmi əsərlərində düzəltmə sözün xüsusiyyətləri barəsində mühüm fikirlər söylədi. Bu dilçi-alim düzəltmə sözün xüsusi məna - söz yaradıcılığı mənası daşıyıcısı olduğunu da ilk dəfə vurğuladı.

Söz yaradıcılığı nəzəriyyəsinin formalaşması prosesi bir neçə mərhələdən keçmişdir. Bu mərhələlərin hər biri bu və ya digər yanaşmaların ön plana çəkilməsi ilə xarakterizə olunur. Birinci yanaşma, *morfoloji* yanaşmadır. Morfoloji yanaşma zamanı sözün yaranması zamanı minimal yaranma vahidi morfem götürülür. Bu məhələdə söz yaradıcılığı ancaq morfologiyanın bir isiqaməti kimi araşdırılırdı.

İkinci yanaşma, *struktur-semantik* yanaşmadır. Struktur-semantik yanaşma sözə yalnız morfoloji vahid kimi baxmaqdan əlavə, onun strukturuna və semantikasına da fikir verməyi ehtiva edir. Söz yaradıcılığı nəzəriyyəsinin formalaşmasının bu mərhələsində söz yaradıcılığı təcrübəsinə sözün motivasiyası və ümumiyyətlə, motivə edilmiş vahidlər anlayışları daxil edildi. İkinci mərhələ həm də söz yaradıcılığı prosesinin təbiətini və daşıdığı məna yükünün araşdırılması cəhdləri ilə yadda qaldı.

Ötən əsrin 60-70-ci illərindən başlayaraq dünya dilçiliyindi söz yaradıcılığı problemlərinin intensiv həlli istiqamətində işlərə başlanıldı. Əsas vurğu isə söz yaradıcılığının modelləri içərisində yerinin müəyyənləşdirilməsi üzərində qoyuldu. Dilçi amilməri düşünürən suallar içərisində söz yaradıcılığının leksika və ya qrammatika daxilində öyrənilməsi ön plana çəkildi. Nəhayət, məhz bu zamandan etibarən söz yaradıclığının öyrənilməsində indiyədək davam edən üç əsas istiqamət formalaşdı: birinci istiqamət –*sintaktik, transformasiya olunmuş və yaradıcı.*

Bu istiqamətin əsası H.Xomski və P.Liz tərərfindən qoyuldu və yarandığı gündən də çox kəskin tənqid hədəfinə çevrildi. Bu istiqamətin tərəfdarları yeni yaranmış sözün

semantikasını və strukturunu müxtəlif sinaktik konstruksiyalar vasitəsilə izah etməyə çalışırdılar. Söz yaradıcılığı qaydaları isə başlanğıc sintaktik konstruksiyaların zəncirvari keçid vasitəsilə yeni yaranmış derivata çevrilməsi kimi təqdim edilirdi.

İkinci istiqamət- *onomasioloji* ıstiqamətdir ki, bu istiqamətin tərafdarları söz yaradıcılığına yuxarıda da qeyd etdiyimiz kimi, nominasiya yəni adlandırma aspektindən yanaşmağa başladılar. Bu istiqamətlə söz yaradıcılığı prosesinə, onomasioloji bazis, onomasioloji əlamət və onomasioloji kateqoriya kimi anlayışlar daxil edildi. Bu istiqamətin əsası polyak və çex dilçı-alimləri tərəfindən qoyuldu.

Nəhayət, üçüncü istiqamət-*funksional* istiqamətdir ki, özündə dinamik və onomasioloji yanaşmanı sintez edərək, yeni yaradılan sözün semantik, funksional və digər problemlərini canlı nitqdə və mətn daxilində düzəltmə və mürəkkəb sözlərin yaranması məsələsini ön plana çıxarır.

Rus dilçiliyində uzun illər söz yaradıcılığının əsası problemi (A.Tixonov, P.Soboleva, Qinzburq və digərlərinin əsərlərində), düzəltmə sözün semantikası problemi (Uluxanov, Kubryakova, Lopatin, Yansenetskaya, Blinova və digərlərinin əsərlərində), söz yaradıcılığının danışanların nitqində (Zemskayanın əsərlərində) və nominativ fəaliyyətində iştirakı (Kubryakova, Saxamıy, Nikitoviç və başqalarının əsərlərində) problemi, uşaq nitqinin ontogenezində söz yaradıcılığı problemi (Şaxnaroviç və başqaları) və sair bu kimi elmi-nəzəri problemlər diqqət mərkəzində olmuşdur.

Avropa dilçiliyində isə söz yaradıcılığı V.Dressler, X.Brekle, D.Kastovski, L.Lipka, E.Uilyams və digər dilçi-alimlərin elmi yaradıcılığında aparıcı istiqamət kimi diqqti cəlb edir. Onların bu problemə həsr olunmuş əsərlərində leksikalist fərziyyə irəli sürülmüşdür ki, bu fərziyyəyə əsasən, söz yaradıcılığının dilin sistemindəki yeri onun bu və ya digər leksik komponentə aidliyi ilə müəyyən olunur.

ƏDƏBBİYYAT

1 Щерба JI.B. Что такое словообразование // Вопросы языкознания. 1962, № 2 i

2. Виноградов В. Словообразование в отношении к грамматике и лексикологии // 3Избранные труды. Исследования по русской грамматике. Москва: 1975

4Земская Е., Кубрякова Е. Проблемы словообразования на современном этапе / 5/Вопросы язьжознания, 1978, №6

6.Кубрякова К. Что такое словообразование. Москва: 1965

Р.ДЖАФАРОВ.

ОБ ОБЩИХ ВОПРОСАХ СЛОВООБРАЗОВАНИЯ

РЕЗЮМЕ

В лингвистике словообразование характеризируется как образование слов, на ываемыми производными и сложными, как правило, на базе однокорневых слов по существующем в языке образцам и моделям с помощью аффиксации и т.д.

В статье исследуются вопросы словообразования, становление теории словообразования, место словообразования в языке. Автор на широком материале изучает интенсивную разработку проблем словообразования в мировом языкознании.

R.CAFAROV

ABOUT THE GENERAL QUESTIONS OF THE WORD-GOMBINATIONS

SAMMURY

In linguistics the word formation is characterized as the formation of the words called derivatives and complex, as a rule on the basis of single rooted words in the language of the existing examples and models with the help of the affixation, etc.

In the article the problems of the word-formation, the theory of word formation, the place of the word formation in the language are investigated, of the place. The author studies the intensive development problems of word formation in the world linguistics in a plenty of materials.

Rəyçi: Adilə Zeynalova
filologiya üzrə fəlsəfə doktoru,dosent.

NAİLƏ HACIYEVA
ADİU
Nailə-arzu.@.mail.ru.

MÜASİR İNGİLİS ƏDƏBİ DİLİNİN SÖZ YARADICILIĞINDA OMONİMLƏRİN YERİ

Açar sözlər: *dilin semantik sistemi,semosiologiya,omonimlər,omofonlar, omoqraflar və paronimlər*
Ключевы слова: *Семантическая система языка,семасиология,омоними, омофоны,омографы и пароними*
Keys words: *semantical system of language semasiology,omonyms,omophons, omographs and paronyms*

Nəzəri dilçiliyin əsrlər boyu inkişafı əsasında onun bir sıra şöbələri yaranıb müəyyənləşmişdir.Belə müstəqil şöbələrindən biri də semasiologiyadır.

Semasiologiya -dilin semantik sistemi haqqında linqvistik təlimdir.Bu termin yunan mənşəli olub ,"semasion"-məna,fikir,"loqos" isə təlim anlayışını bildirir.

Semasologiyanın kökü soz və ifadənin mənşəcə öyrənilməsi ilə bağlıdır.Məlumdur ki,sözün mənşəyi haqqında düçüncələr hələ eramızdan çox-çox əvvəl qədim və antik nelmdə təşəkkül tapmışdır.Bu məsələlərlə bağlı semantik hadisələrin şərhində də yer verilmişdir.Məsələn müasir semasilogiyanın ən vacib problemlərindən biri çəxmənalılıq problemi öz başlanğıcını yunan mütəfəkkiri Aristoteldən götürmüşdür.

Dilin semantik hadisələri lüğət işləri ilə əlaqədar da şərh edilmişdir.Bizim eranın II əsrində Çin alimi Lyu Si yaratdığı "Şi min" adlı lüğətində semasiologiya məsələrinə xüsusi yer vermişdir.

Semantika məsələlərinə dair dərin tədqiqatlar aparmış alman alimi Karl Rayziq 1820-ci ildə semasiologiyanı dilçiliyin müstəqil şöbəsi kimi ayırmış və bu şöbənin məqsəd və vəzifələrini müəyyənləşdirməyə səy etmişdir.Semasiologiyanın bir şöbə kimi müstəqilləşməsində fransız dilçisi Mişel Brealın xüsusi xidmətləri olmuşdur.Onun bəzi alimlər tərəfindən linqvistik semantikanın atası hesab edilməsi heç də təsadüfi deyil.Mişel Brealın "Essai də Semantigue" adlı əsəri semasiologiyanın tarixində əvəzsiz əhəmiyyət kəsb edir.

Dilin semantikası olduqca çoxcəhətli və mürəkkəbdir.BU movzu ilə təkcə dilçilik deyil məntiq və fəlsəfə də məşğul olur.Filosoflar tədqiq etdikləri bu səhəni fəlsəfi semantika məntiqşünaslar isə məntiqi semantika adlandırırıar.

Dildə söz və ifadənin mənası mənanın dəyişməsi mənanın genişlənməsi daralması sözün məcazi məna bildirməsi çoxmənalılıq omonimlik antonimlik və sair kimi semasioloji məsələləri tədqiqi semasiologiya şöbəsinin mövzusunu təşkil edir.

Semasiologiya tərkib hissəsi olan dünya dillərində geniş yayılmışdır.Formaca eyni mənaca müxtəlif olan leksik vahidlər omonim sözlər adlanır.

Məsələn:

Ingilis dilind'ki "light" sözünün bir neçə mənası vardır.Məsələn

This box is very light

My room is very light

Birinci cümlədəki "light"sözü "yüngül" mənasında verilmişdir.İkinci cümlədəki "light" sözü isə "işıqlı" mənasını daşıyır.Run fast (quickly)and stand fast (firmly) ifadələri arasındakı fərq onların mənalarındadır.

"A clean fast is better than a dirty breakfast:

Who feasts till he is sick must fast till he is well."

Nümunədə omonim kimi verilmiş "fast"sözü istifadə şərtlərindən asılı olaraq müxtəlif məna dəyəri qazanır.Hər bir omonimik cütlük omonim lüğətlərində sadalanır.

Omonimlik çoxlu dildə movcuddur ancaq ingilis dilində birhecalı sözlər arasında xüsusilə tez-tez rast gəlinir."Oksford ingilis dili lüğəti"də omonim siyahısında verilən 2540 omonimlərdən 89% i birhecalı sözlərin payına düşür.və yalnız 9.1% iki hecalı sözləridir.Onların morfoloji quruluçlarının nöqteyi-nəzərindən onlar əsasən təkmorfem sözlərdir.

Omonimliyi təşkil edən sözlər həm eyni bir nitq hissəsinə həm də ayr-ayrı nitq hissələrinə aid ola bilir .Məsələn :"If you dust the bedroom you have to removethe dust."Verilmiş cümlədə birinci halda "dust" feildir,"təmizləmək" mənasında nəzərdə tutulub .İkinci halda "dust" isimdir və" toz"mənasındadır.

Omonimlər öz zahiri cəhətinə görə çoxmənalı sözlərə oxşayır.Çünki çoxmənalı sözlər də formaca eyni mənaca müxtəlifdir.Lakin daşıdığı mənaya görə omonimlər çoxmənalı sözlərdən fərqlənir.Çoxmənalı sözlərdə mənalardan biri əsas digərləri isə ondan törəmə olur.Yəni çoxmənalılıq sözün əsas mənasını məcazlaşması yolu ilə yaranır.Məsələn:

Fire n:

1.Flame

2.An instance of destructive burning:a forest fire

3.Burning material in a stove fireplace:There is a fire in the next room.A camp fire.

4.The shooting of guns:to open (cease)fire

5.Strong feeling,passion,and enthusiasm:a speed lacking fire.

Omonimlərdə isə sözün mənaları arasında heç bir bağlılıq yoxdur onlar ayrı-ayrı leksik vahidlərdir.Məsələn

board n - a long and thin piece of timber

board n -daily meals esp as provided for pay e.g room and board

board n -an official group of persons who direct or supervise some activity e.g board of directors

Omonimlərin çoxmənalı sözlərdən fərqini qısaca olaraq aşağıdakı kimi qeyd etmək olar.

1.Çoxmənalı sözlərdən fərqli olaraq omonimlər ayri-ayrı mənaları bildirir.

2. Çoxmənalı sözlərdən fərqli olaraq omonimlər yalnız həqiq mənada olur.

3. Çoxmənalı sözlərdən fərqli olaraq omonimlər həm eyni həmdə ayrı-ayrı nitq hissələrinə aid olur.

Söz yaradıcılığında omonimlər müxtəlif üsullarla yaranır.Bu üsullardan biri fonetik dəyişiklikdir.Söz tarixi inkişafda dəyişikliyə məruz qalır.Belə dəyişiklərin nəticəsində sözlər əvvələr fərqli şəkildə tələffüz edilsələr də tarixi inkişaf prosesində sözlərin eyni səslənməsi formalaşır.

Məsələn müasir ingilis dilində omonim cütlüyü olan "Night" and "knight"sözləri qədim ingilis dilində omonim deyildilər çünki ikinci sözdəki "k"samiti tələfüz edilirdi.

Başqa bir misalda "to write" feli ilə "right" ышаəеш omonimdir,amma "to write" felinin qədim ingilis dilində olan variantı "to writan" ilə " right" sifətinin qədim variantı " reht"yaxud " riht" sözləri arasında fərq böyükdür.Eləcə də sea(dəniz)isimi qədim ingilis dilində sea kimi to see (görmək)feili isə seon kimi yazılır.Belə fərqi work(iş)ismi ilə to work (işləmək)feili arasında da görmək olar bu sözlərin qədim ingilis dilindəki qarşılıqları wyrkean və weork-dir.

Omonimlərin yaranma üsullarından biri də alınma sözlərdir.Alınma sözlər fonetik uyğulaşmanın son mərhələsində dildə olan doğma sözlərləuyğulaşır."rite to write-right"omonimik qrupda olan sözlərdən ikinci və üçüncü söz ingilis dilinin öz mənşəyinə aiddir amma "rite"sözü Latın mənşəlidir(Latın"ritus"). Ingilis dilində bir çox dillərində alınmış sözlır vardır.Bu sözlər zaman keçdikcə dildə formalaşaraq dildə əvvəldən mövcud olmuş sözlərlə omonimlik yaradır.Misal üçün fransız dilində alınmış race(reis)-(running)və müasir ingilis dilində mövcud olan race (reis) (a distinct ethnical stock)sözləri tarixi dəyişikliklər nəticəsində omonim cütlüyünə çevrilmişdir...

Söz yaradıcılığının bir növü olan çevrilmə (conversion)də omonimliyin inkişafına xeyli töhfə vermişdir.Buna misal olaraq "comb" n-"comb"v,"pale"adj "pale" v,"make" v -"make" n omonim cütlüklərini göstərə bilərik.bu tip omonimlər müxtəlif nitq hissələrinə aid olur və leksiko-qrammatik omonimlər adlanır.Söz yaradıcılığının başqa bir növü olan qısaltmalar(shortening) da ingilis dilində omonimlərin sayını artıran amillərdən biridir.Məsələn "fan"sözü "fanatic"(fənaetik)sözünün qısa formasıdır.bu sözün ontonim qarşılığı Latın dilində alınmış "fan"(an element for waving and produce some cool wind)sözüdür."rep"sözü 4 omonimə malikdir:

1)rep=repertory:
2)rep=representative
3)rep=reputation
4)rep=repetition(in school slang smth,need to know by hard)

Dildə omonimlərin yaranmasının digər bir növü də abbreviaturalardır.Müəsisə təşkilat və ya ölkə adının baş hərflərlə qısadılması ingilis dilinin lüğət tərkibindən artıq mövcud olan hər hansısa bir sözü uyğun gələ bilər.Misal Amerika Birləşmiş Ştatları(United States of America)qısaca olaraq US yazılır.Bu da tələffüzü zamanı us əvəzliyinə uyğundur.

Səs yamsılama ilə düzələn sözlər həmçinin başqa sözlər ilə omonim cütlərini formalaşdıra bilər:bang(n,a loud,sudden,explosive noise)-bang (n,a fringe of hair combed over the forehead).Həmçinin mew(n,the sound the cat makes)-mew (n,a sea gull) - mew (n,a pen in which poultry is fattened) mews (small terraced houses in Central London) Məlumdur ki dildə ayrı-ayrı kök sözlərinomonim olması ilə yanaşı bəzən nitq prosesində müxtəlif mənalı sözlərin eyni şəkildə səslənməsi hadisəsi də baş verir.Bu da omonimlik hesab olunur.Dilçilikdə omonimlərin fonetik omonimlər omofonlar və morfoloji omonimlər- omoqraflar tipi şərh olunur.

İngilis dilində fərqli qurluşa malik olan sözlərin eyni səslənməsinin şahidi oluruq .Məsələn

1. sea(si) - dəniz see (si) - görmək
2. buy(baı) - almaq by(baı) - yanında
3. know(nau) - bilmək now(nau) indi
4. I (aı) mən cye(aı) göz
5. for(fo) - üçün four(fo)- dörd

6. knight(nait) -cəngavər night(nait) -gecə
7. not(not) - xeyr knot(not) - düyün
8. or(o) yaxud oar(o) - avar

Bu sözlərin hərf tərkibi fərqli olsa da səslənməsi eynidir.Belə sözlər omofonlar adlanır.

The play-wright on my right thinks that some conventional rite should symbolize the right of every man to write as he pleases-cümləsində istifadə olunan wright,right,rite,right və write sözləri fərqli hərf tərkibinə malik olsalar da səslənməsi eynidir.Verilmiş nümunədəki omofonlar eyni zamanda fərqli nitq hissələrinə də aiddir.Bu cümlədə (rait)səs kompleksi həm isim həm sifət həm zərf həm də feil kimi verilmişdir və dörd fərqli hərf tərkibinə altı fərqli mənaya malikdir.

Omofonlar eyni zamanda böyük hərflərdən istifadə etməklə də yaranır.

"How much is my milk bill?"

"Excuse me,Madam ,but my name is John,nit Bill

Nümunənin birinci cümləsində istifadə olunmuş bill sözü hesab mənasında ikinci cümlədə işlədilmiş Bill sözü isə ad mənasında verilmişdir.

Digər tərəfdən bütöv cümlə omofonik ola bilər:*The sons raise meat The sun s rays meet*-cümlələrin təşkil edən sözlərin hərf tərkibi fərqlidir.Amma buna baxmayaraq,hər iki cümlə eyni səs tərkibi ilə tələffüz edilir.

Omoqraflar isə yazılışı eyni,tələffüz fərqli olan sözləridir.Omoqraflar cümlədə iki grammatik funkisiya nəticəsində yaranır.Məsələn When I graduate (graedjueit)the University, I,II become a graduate (groedjuit)Dont desert (di zə:t)me here in the desert(dezət)

Verilən misallardan göründüyü kimi,omoqraf cütlüklərindən biri isim,biri isə feil kimi işlənmişdir.Aşağıdakı omoqraf cütlüklərə nəzər salaq:

bow (bou) -bow (bau): lead (li:d) lead (led): row (rou) -row (rau)sewer (soue) sewer (sjue): tear (tie) tear (te e): wind (wind) wind (waind)

Verilmiş bu nümunələrdə tələffüz fərqi olduğu kimi,məna fərqi də vardır.

Əksər hallarda omoqrafların tələffüzlərindəki fərq ya onların vurğularında,ya da xüsusi nəzərə çapdırılmalarında olur.Əslində,sözün hansı hecasının vurğulu olması əsas şərtdir.İki hecalı sözlərə nəzər salsaq,görərik ki,əsasən isimlərdən birinci heca vurğulu olur,fellərdə isə vurğu ikinci hecaya düşür.Məsələn,constest (n) - con test (v).Amma elə sözlər də vardır ki,onlarda vurğu dəyişmir.Məsələn,abuse və use sözləri.Burada səs əvəzlənməsi (sound interchange)baş verir.Feil formasında (z) cingiltili, isim formasında isə kar samit(s) olur.Lakin həmişə isim və fel dəyişmələri olmur. İngilis dilində bir sıra sözlər vardır ki,onlar müxtəlif nitq hissələrinə mənsubdurlar və komponentlərdən biri cəm şəkilçisi qəbul etsə də cütlüklər eyni cür səslənir. Məsələn, asses-asses omoqrafik cütlüyündə birinci asses-ass sözünün cəm forması,ikinci asses sözü isə Latın mənşəli olub" qəpik"mənasındadır.Read sözü də omoqrafdır,çünki feilin indiki və keçmiş zaman formalarında eyni cür yazılır.lakin hər iki zamanda səslənməsi fərqlidir.Məsələn,I want to read the sequel(conclusion)today,because I rea the first book yesterday

Bunlar qramatik funkisiyalı omoqraflardır cə əsl omoqraflardan fərqlənir,çünki əsl omoqraflar mənaca fərqli olur,yəni onlar nitq kateqoriyalarına görə fərqlənirlər,burda isə read(ri:d) və read (red)sözlərinin tələffüzləri müxtəlif olsa da,eyni nitq hissəsidir.

Leksikologiyanı önəmli bölmısi olan omonim mövzusu bir çox alimlərin tədqiqat obyekti olmuşdur.Bu alimlərdən biri dilçi alim professor A.İ.Smirnitski olmuşdur.O,öz

tədqiqatlarında bu mövzunu geniş şəkildə tədqiq etmiş və omonimlərin aşağıdakı təsnifatını vermişdir.

Professor A.İ.Smirnitski omonimləri iki bölmə üzrə təsnifləşdirilmişdir.

a)tam omonimlər

b)qismən omonimlər

ƏDƏBİYYAT

1.A.M.Qurbanov "Müasir Azərbaycan ədəbi dili"Bakı 1985

2.Hacıyeva A.H. "English Lexicology",Bakı 2011.

3. Hacıyeva A.H. "Contrastive Lexicology", Bakı 2010.

N.GADJIYEVA

PLACE OF HOMONYMS IN WORD FORMATION

SUMMARY

The article deals with homonyms and their classifications. In lexical system of the Elglish language there are the words that sound the same, but have different meaning. These words called lexical homonyms. Homonyms are words indentical inpronunciation and spelling.English vocabulary is rich with homonyms and word group. The most widely accepted classification in that recognizing homonyms,homophones and homographs. When different words are spelled the same way but pronounced differently, they belong to the category of homographs. By contrast, when different words are pronounced the same way but spelled differently, we may properly call them homophones. The classification of omonyms of English language by A.I.Smirnitsky was presented in this work.Accordingly, Professor A.I. Smirnitsky classified homonyms into two large classes; full homonyms, partial homonyms

Н.ГАДЖИЕВА

МЕСТО ОМОНИМОВ В СЛОВООБРАЗОВАНИЕ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Омонимы-это слова одной части речи,различные по звучанию и написанию,имеющие прямо противоположные лексические значения.

Лексические единицы словарного состава языка оказывается тесно связанными не только на оснавании их ассоциативной связи по сходству или смежности как лексико-семантические варианты многозначного слова. Большинство слов языка не сдержит признака,способного к противопоставлению, однака, в переносном значении они могут обрести омоним.

Rəyçi: Nuriyyə Rzayeva
filologiya üzrə fəlsəfə doktoru, dosent.

RƏSMİYƏ BABAYEVA
ADİU
rəsmiyə-səbinə.@.mail.ru.

İNGİLİS DİLİNDƏ SƏRBƏST SÖZ BİRLƏŞMƏLƏRİNİN TƏDQİQİ TARİXİ

Açar sözlər: *Söz birləşməsinin tədqiqi, sərbəst söz birləşməsi, Avropa dilçiləri.*
Keywords: *Liearning of word combination, free word combination, European linguists.*
Ключевые слова: *Изучения словосочетании, независимый словосочетание, Европейские лингвистов.*

18-ci əsrin əvvəllərində Qərbi Avropa və Amerika dilçiliyində söz birləşməsi haqqında hec bir nəzəriyyə mövcud deyildi. Lakin hənim dövrdə Rusiya dilçiləri tərəfindən bu nəzəriyyə artıq tədqiq edilirdi. Daha sonra bu nəzəriyyə Qərbi Avropa alimlərinin də nəzərini cəlb etmişdi və onlar da söz birləşməsini nəzəri baxımdan tədqiq etməyə başlamışlar. Buna baxmayaraq Rusiya və Qərbi Avropa dilçilərinin bu nəzəriyyəyə olan baxışları heç də eyni deyildi və onların fikirləri üst – üstə düşmürdü.

Qərbdə söz birləşməsinin sintaksisdə geniş öyrənilməsi amerikan dilçisi L. Blumfildin adı ilə bağlıdır. Burada söz birləşməsi “ phrase ” termini ilə ifadə edilmişdir. Daha sonra söz birləşməsini ifadə etmək üçün “ word combination ”, “ word group ” terminindən istifadə etmişlər.

Rus alimləri hesab edirdilər ki, söz birləşmələri yalnız əsas nitq hissələrinin iştirakı ilə yaranır. Qərb dilçiləri isə bu məsələyə başqa cür yanaşırdılar. Onlar belə bir fikir irəli sürürdülər ki, söz birləşmələri iki və daha artıq sözün birləşməsindən yaranır və bu sözlərin əsas nitq hissəsi olub olmamasında fərq görmürdülər. Məsələn, “ black shoes ” –“qara ayaqqabılar” “under the table ”- “ stolun altında ” kimi söz birləşmələrini mahiyyətcə eyni hesab edirdilər. Birincisi “noun phrase”, ikincisi isə “ prepositional phrase” kimi ifadə etmişlər.Buna baxmayaraq onlar bu məsələdə Rus dilçilərinin nəzəriyyələrini inin dəqiqnkar etmirdilər.

Rus dilçisi B. İlyis ingilis dilində söz birləşməsinin parametrlərinin dəqiqləşdirilməsini təkid etmişdir və onun sözlərinə əasalanan O. Musayev söz birləşməsinin ən azı iki sözdən- əsas və asılı tərəfdən ibarət olduğunu göstərmişdir. Məsələn, “ take an exam ”, “ red apple”, “go for a walk”, “life in New York”, “the leg of the table” və s. Digər rus dilçisi N. S. Qrinbaum söz irləşməsini belə tərif edir. “ Söz birləşməsi iki və daha artıq sözün birləşməsidir. Hər bir söz birləşməsinin əsas tərəfi vardır ”. Parrot isə belə demişdir: “ İsmi, birləşmə ad, əvəzlik, və ya isim kimi yalnızca bir sözdən də ibarət ola bilər”

Qərbdə söz birləşməsinin tədqiqində ingilis alimi Ben Consonun da qrammatikası böyük rol oynamışdır. Özündən əvvəl yaşamış alimlərdən-Viliam Lili, Viliam Bulokar,və Aleksandr Gildən fərqli olaraq o, söz birləşməsini xırdalıqlarına qədər təhlil etmişdir. Bu alimlərdən Lili və Bulokar da söz birləşmələrini qrammatik bölgü ilə qruplaşdırmağa cəhd göstərmişlər.

Viliam Lili söz birləşməsindəki sözlər arasında üç növ əlaqə olduğunu bildirmişdir.Bu əlaqələr aşağdakılardır :

1. Fell isim arasında

2. Sif□t il□ isim arasında
3. Asılı söz il□ t□yin ed□n söz arasında

Alim ilk dəfə olaraq söz birləşmələrinin bu əlaqələrsiz əmələ gələ bilmədiyini qeyd etmişdir və onun bu fikri daha sonra digər alimlər tərəfindən də nəzərə alınmışdır. Onun fikirləri də yuxarıda qeyd etdiyimiz alimlərin fikirlərindən çox də fərqlənmir.Gilin fikirləri daha çox sözlərin qarşılıqlı əlaqələrinə əsaslanır və o söz birləşməsi yarada bilən əsas elementlərə toxunmur. A. Gil " my brother's toys " kimi ismi birləşmələri təhlil etmiş və bunlarında öz növbəsində " the toys of my brother" kimi birləşməyə çevrilə biləcəyini vurğulamışdır. Alim sifət və feli birləşmələrə eyni üsulla yanaşmış və onların hansı birləşmələr əmələ gətirdiyini göstərmişdir. O, sifət birləşmələrindən daşınarkən sözönülü asılı elementlərdən təşkil olunmuş " for the rich life " kimi birləşmələrdən danışır.Feli birləşmələri təhlil edərkən isə o, isim və əvəzliyin hansı hallarla bu birləşmələri əmələ gətirə bilməsindən bəhs edir. Məsəslən, " take care of yourself", " apply for a job" və s. A. Gil öz araşdırmasında daha çox ismi birləşmələrəyer vermişdir.

Bildiyimiz kimi söz birləşmələri haqqında bir cox alimlər araşdırmalar aparmışlar. Bu araşdırmalar içərisində Ben Consonun tədqiqat işləri daha geniş yer tutur. O, söz birləşmələrinin təsnifatını başqa bir forma ilə vermişdir, yəni onları təşkil edən elementlərə görə qruplaşdırmışdır. Beləliklə də B. Conson əsas sözlərə görə söz birləşmələrinin müxtəlif növlərini, ismi və feli birləşmələrin olduğunu göstərmişdir. O, ismi birləşmələrin 3 növü olduğunu qeyd etmişdir və onları aşağıdakı formada təsnif etmişdir

1.adjective+noun (sifət+isim)

2.article+adjective+noun (artikl+sifət+isim)

3.noun+noun və ya noun + of+ noun (yiyəlik halda olan isim + isimvə ya isim + of (sözönü) + isim)

Ben Consonun bu bölgüsünə nəzər salan zaman görürük ki, onun bu təsnifat ilə Aleksandr Gilin təsnifatı arasında çox az fərq var. Lakin Ben Conson da feli birləşmələri ətraflı şəkildə işıqlandırmamışdır. Çünki alim onların sintaksis bölməsində felin digər analitik zaman formaları ilə təhlil olunmaqlarını vacib hesab etmişdir.Bir faktı da qeyd etmək lazımdır ki, alim feli birləşmələri təhlil edərkən diqqətini daha çox felin şəxssiz formaları olan participle I (feli sifət 1), participle II (feli sifət 2), gerund (cerund) və infinitivə yönəltmişdir. Beləliklə də, Ben Consonun qrammatikası bu sahədə bir ilkdir.

Digər dilçi alim Con Vilkinsin dil nəzəriyyəsi söz birləşməsinə daha çox uyğun gəlir.Onun göstərdiyi forma belədir : əvvəldə idarə edən, sonra ismin yiyəlik halı və təsirlik halı. Lakin bu formada bəzi nöqsanlar mövcuddur. Bəzi hallarda idarə edən söz əvvəldə yox, axırda gəlir. Dilçilər söz birləşməsinin strukturunu əmələ gətirən 2 əlaqə növündən : uzlaşma və idarə əlaqəsindən daha çox bəhs etmişlər.Bu fikir də sonralar nəsildən nəslə ötürülmüşdür.

18-ci əsrin əvvəllərində ingilis qrammatikasında yeni dilçi alimlər – Con Braytland, Ceyms Qrinvud və Tomas Dilvort peyda oldu. Onların əsərlərində söz birləşmələri və onların strukturları barədə bilavasitə məlumat olmasa da, bəzi bölmələrdə bu problem işıqlandırılmışdır.

Con Braytland öz əsərlərində söz sırasının tədqiqinə geniş yer vermişdir. O, mübtəda ilə tamamlığın xəbər arasındakı əlaqəsindən bəhs etmişdir. Ən əsası o, söz

birləşməsini yaradan iki əlaqəyə- uzlaşma və idarə əlaqəsinə daha çox yer vermişdir. Braytlandın fikrinə görə uzlaşm, əlaqəsi bütün dillərdə eynidir, çünki hər yerdə eyni üsulla işlədilir. Onun fikrinə görə idarə əlaqəsi isə əksinə, bütün dillərdə fərqlidir.

Beləliklə, C. Braytland belə bir nəticəyə gəlmişdir ki, isimlər, sifətlər və fellər arasında olan əlaqə sözönülər arasında yaranır və bu sözönülər bir əşyanın digərindən asılılığını bildirir. Bu yolla alim ismi sifət və feli birləşmələrin strukturunu xarakterizə edir. O, ismi birləşmələri müəyyən qruplara bölərək onlar haqqında ətraflı izahat vermişdir. Sifətlə olan söz birləşmələrini tədqiq edərəkən isə o, qeyd etmişdir ki, sifət həmişə təyin etdiyi ismin qarşısında gəlir. Bunlra baxmayaraq alim onu da qeyd etmişdir ki, sözlərin düzgün sıra ilə sıralanması məntiqə uyğun deyil. C. Braytlandın fikrinə görə əşyanın adı onun keyfiyyətindən daha əvvəl nəzərdə tutulmalıdır. Bəzən ismi birləşmələr ism və bir neçə sifətdən ibarət ola bilər. Bu halda Braytland sifətin ismin ardınca gəldiyini qeyd etmişdir. Alim feli birləşmələrin isə fel və zərfdən ibarət olduğunu vurğulamışdır.

Söz birləşməsinin tədqiqi sahəsində Ceyms Qrinvudun əsərlərini qeyd etdiyimiz mütləqdir. O, öz əsərlərində yalnız elementlərin birləşə bilməsindən və düzgün sırayla düzülməsindən deyil, müxtəlif formalarda işlənən elementlərin formalarından da danışır. Beləliklə də, alim sifətin hal, cins və kəmiyyətdən asılı olmadan ismə qoşulduğunu qeyd etmişdir.

Digər dilçilərdən fərqli olaraq C. Qrinvund feli birləşmələri tədqiq etməmişdir.Onun əsərlərində əsas yeri ismi birləşmələr tutur.

Söz birləşməsinin tədqiqində ingilis alimi Doktor Losun da böyük rolu olmuşdur. İlk dəfə olaraq o, söz birləşməsini bildirmək üçün “ phrase” terminindən istifadə etmişdir. D. Losun fikirinə görə “ phrase ” düzgün yerləşdirilmiş iki və ya daha artıq sözün birləşməsindən əmələ gəlir və bəzən ya da bütöv cümləni əhatə edə bilir. D. Los söz birləşmələrinin on iki formada əmələ gələ biləcəyini qeyd etmişdir.

1. Noun + verb – isim + fel He is, I am reading
2. Verb + noun – fel + isim Tom opens the door
3. Verb +adjective – fel+ sif□t The book is interesting
4. Verb + noun – t□sirli fel +isim She gave to read books
5. Verb+ verb – fel + m□sd□r Mary like to read books

6. Noun + noun ; noun + of + noun – yiyəlik halda olan isim + isim və ya isim+of sözönü + isim The book’s pages or The pages of the book

7. Noun + noun – isim + isim Doctor Robert

8. Adjective+ noun ; participle + noun – sifət + isim və ya feli sifət + isim A sharp knifer or A sleeping child

9. Adjective + verb – sifət + məsdər Long to catch

10.Verb + adverb – fel + zərf He spoke quickly

11. Verb + preposition + noun – fel + sözönü + isim My mother wento to the market

12. Positive + as + noun, a comparative + isim as strongs as you, longer than me, happiest of all

Digər qrammatiklərin fikrinə görə Doktor Los bölgüsündə bəzi nöqsanlara yol vermişdir. Onların fikrinə görə alim ismi və feli birləşmələri qarışdırmamalı, ilk öncə ismi birləşmələri sonra isə feli birləşmələri göstərməli idi. 1795 – ci ildə digər alim Lindli Marrey öz qrammatikasını dərc etmişdir. Alimin fikrinə görə söz birləşməsi söz

sırası ilə düzgün düzülmüş iki və ya daha artıq sözün birləşməsidir və həmçinin qeyd etmişdir ki söz birləşməsi ya cümlənin bir hissəsini yada bütöv bir cümlə əmələ gətirə bilər

L.Marrey yazdığı qrammatikada bütün əvvəlki qrammatiklərin əsərlərinə əsaslanmış və onların fikir və düşüncə felərini ümumiləşdirmişdir. Feli birləşmələrin tədqiqində Marrey qeyd edir ki, fellər ya yiyəlik halda olan ismi ya da ondan sonra gələn feli idarə edir. O, həmçinin bildirmişdir ki, birləşmədə iki fel olarsa, bu zaman ikinci fel məsdər formasında olue. Məsələn, decide to learn Japanese.

Digər alim Villiam Lenniləri söz birləşməsi haqqında bu fikirləri qeyd etmişdir. Söz birləşməsi fikirləri bir-birinə bağlayan əlaqələri ifadə edən iki və ya daha artıq sözlərdən ibarətdir. Lenni də rus dilçiləri kimi söz birləşməsi və cümləni mahiyyətcə eyni tutmur və onlar arasında fərq qoyur.

Digər bir dilçi Riter Bulionz söz birləşməsi haqqında belə bir fikir söyləmişdir. Söz birləşməsi belə bir qayda ilə düzlmüş iki və ya daha artıq sözün birləşməsindən ibarətdir və bitmiş bir fikri ifadə etmir. Məsələn, in the world, to walk slowly və s.

Bütün deyilənləri nəzərə alsaq görərik ki, səz birləşməsinə iki cür yanaşma mövcuddur: 1. bəzi qrammatiklər söz birləşməsi və cümlə arasında fərq görürlər. 2. Bəziləri isə söz birləşməsi və cümləni eyniləşdirirlər.

Başqa bir alim Quld Braun bildirmişdir ki, sözlər mənaya görə asılı olduqları digər sözlərə uzlaşma, idarə və yanaşma əlaqələri ilə birləşirlər. Q. Braun cümlənin söz birləşməsindən fərqini göstərməyi vacib hesab etmişdir. O, qeyd etmişdir ki, söz birləşməsi və cümlə məna fərqinə görə seçilirlər. Q. Braunun fikrinə görə cümlə söz yığımından ibarət ismi və xəbəri olan birləşmədir və bitmiş bit fikri ifadə edir. Söz birləşməsi isə müxtəlif məhfumlar arasında əlaqə yaradan iki və ya daha artıq sözdən təşkil olunur.

19-cu əsrin 50-ci illərində alim Henri Svitin Məntiqi və tarixi ingilis dilinin yeni qrammatikası əsəri dərc olundu. Bu əsərdə ingilis dilinin qrammatikası detallarına qədər təhlil olunmuş və qrammatikada olan bütün nöqsanlar aradan qaldırılmışdır. O, sintaksis bölməsində söz birləşməsində söz sırası və onun strukturunu yaradan elementlərə daha çox yer vermişdir. O, isimdən əvvəl və sonra gələn sifətlərdən ibarıt ismi və feli birləşmələrin yeni bölgüsünü vermişdir. Onun dediynə görə sifətlər isimdən asılı olur və ondan əvvəl gəlir, miqdar sayı kimi işlənən sıra sayları isə isimdən sonra gəlir. Məsələn, a beautiful woman, chapter four və s. Svit söz birləşməsindən danışarkən çalışmışdır ki, “ phrase ” terminini işlətməsin. Onun fikrinə görə bu termin alimlər arasında çaşqınlıq yarada bilər. Ona görə də o, “ phrase” termini əvəzinə “ word group” terminini istifadə etmişdir.

Söz birləşməsinə verilən təriflər içərisində ən dəqiqi Aleksandr Alen və Ceyms Konvelin verdiyi tərifdir: söz birləşməsi cüzi məna bildirən sözlərdən ibarətdir və onlar bütöv bir fikri ifadə edə bilmir. Söz birləşməsini bütöv bir məna ifadə edə bilməməsinin səbəbi isə bu birləşmədə felin şəxsli formalarının iştirak etməməsidir.Məsələn, broken cups, flying birds, a nice child və s.

Digər bir alim Aleksandr Beny sözlərin düzgün sıralanması haqqında maarqlı fikir irəli sürmüşdürş Onun fikrincə ilk nəzərdə tutulan söz əvvəl gəlməlidir.Birlikdə düşünülən məhfumlar isə bir- birinin yanında gəlməlidir. A. Beyn zərf, sözönü və feli sifətlə olan birləşmələri təhlil edərkən “ phrase” terminini işlətmişdir.

Müasir dövrdə ingilis qrammatikləri “ phrase” məhfumunu ingils dilindəki “ birləşmə ” mənasında işlədirlər.Burada “phrase” məhfumu həm bir söz, həm də iki və daha artıq sözdən ibarət bir tərkibə aid edilir.

Nəticə etibarilə, ingilis dilçiliyində söz birləşmələrinin strukturu, növləri,onların komponentləri arasında olan sintaktik əlaqələrin xarakteri barədə müxtəlif və hətta təzadlı fikirlər olsa da müasir dövrdə bu barədə nisbətən aydın və sistemli təsəvvür yaranmışdır. Deməli, ingilis dilçiliyində kompleks fraza termini bizim anladığımız söz birləşməsi kimi dəyərləndirilə bilər.

ƏDƏBİYYAT

1. Каушанская В. Л - Грамматика английского языка 1967
2. Galperin I. R(1981). Stylistics. Moscow : Aura publishers
3. Axundov A. A. Ümumi dilçilik
4. Aslanov A. B. Müxtəlifsistemli dillərdə ismi frazeoloji sahəsi, Bakı, 1997.

R.B.ABAYEVA,S.MAMEDOVA

THE HISTORY OF LEARNING WORD COMBINATION IN THE ENGLISH LANGUAGE

SUMMARY

This article deals with definitions of the term “phrase”, the history of learning word combination. The article emphasizes different forms of word combinations and shows the linguists’ opinions about word combinations

Observationshow that ohrazeological components play an important role in English teashing?in lexicology in translating from English to Azerbaijan or from Azerbayjan to English in forming English-Azerbaijani dic tionaries.

Р.БАБАЕВА,С.МАМЕДОВА

ИСТОРИЧЕСКОЕ ИССЛЕДОВАНИЕ НЕЗАВИСИМОЕ СЛОВОСОЧЕТАНИЕ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

Данная статя посвящена исследованию структурных особенностей употребления независимый словосочетаний в современном Английском языке.Независимое словосочетания любого языка представляет большие трудности для изучающих иностранный язык,также и для переводчиков.

Независимая словосочетания является одним из главных источников обогащения языка.С нашей точки зрения,как словосочетания,так и предложения,включая пословицы и поговорки,является фразеологическими единицами.

RƏYÇİ: Adilə Zeynalova
Filologiya üzrə fəlsəfə doktoru, dosent

İRADƏ ABDULLAYEVA
NÜBAR TAĞIYEVA
ADİU
Iradə-nübar.@.mail.ru.

AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ TERMİN YARADICILIĞINDA LEKSİK-SEMANTİK VƏ MORFOLOJİ XÜSUSİYYƏTLƏRİN TƏDQİQİ

Açar sözlər: *lüğət tərkibi, söz yaradıcılığı, terminlərin yaranma mənbələri morfoloji və sintaktik üsullar, alınma sözlər, termin yaradıcılığı, terminlərin yaranma üsulları, dilin lüğət fondu, terminin tərkib hissələri, sistemlilik xüsusiyyəti.*
Ключевые слова: *состав словаря; словообразование; происхождение созданных терминов; морфологические и синтаксические способы; заимствованные слова; создание терминов; способы создания терминов4 словарный состав языка; компоненты термина; особенность систематичности.*
Key words: *composition of dictionary; word creative work; arise sources of the terms; morphological and syntactical methods; borrowing; term creative work; the methods of the origin terms; word stock of the language; composition parts of the term; the feature of systematic character.*

Terminlər dilin lüğət tərkibinin əsas hissələrindən biridir. Dilin müxtəlif sahələrində gedən dəyişmələr daha çox terminoloji sistemdə hiss olunur. Termin kimi işlənən ümumişlək sözlərin böyük bir qismi dilin qədim dövrlərində yaranmışdır. Bu cəhət həm ingilis, həm də Azərbaycan dilləri üçün eynidir.

Azərbaycan istərsə də, ingilis dilində termin yaradıcılığı semantik, morfoloji, sintaktik, kalka, sözlərin ixtisarı (abrevaiaturlar) üsulları ilə gedir. Semantik üsulla yaranan terminləri – dilin lüğət tərkibinin zənginləşməsi dildə işlənən sözlərin mənasında baş verən dəyişmələrlə bağlıdır. Sözün mənaca dəyişməsinin iki növü fərqləndirilir:

1) sözün mənaca tamamilə dəyişməsi;
2) mövcud sözün əsas mənası qalması ilə yeni məna qazanması.

Hər bir leksik vahid bu və ya digər mənanın ifadəsinə xidmət edir, hər bir söz adlandırma funksiyasını yerinə yetirir. Semantik üsulla söz yaradıcılığı dildə kəmiyyət dəyişmələri deyil, keyfiyyət dəyişmələri hesabına gerçəkləşir.

Dil vahidləri – sözlər səs cildlərini saxlamaqla müxtəlif mənalar ifadə edir və beləliklə, dilin lüğət tərkibini zənginləşdirir. Bu proses müasir dilin terminoloji qatında özünü daha çox göstərir.

Semantik yolla yeni terminin yaranması müxtəlif dillərin sadə terminologiyalarında geniş yayılmışdır. Anlayışların yaxınlığı əsasında və əlamətin oxşarlığına görə adın köçürülməsinə çox rast gəlinir.

Predmet və hadisələr arasındakı məkan, material, məlumat, hərəkət, hərəkətin nəticəsi kimi əlaqələr vardır. Bu əlaqələr yeni anlayışın ümumişlək sözün köməyi ilə adlandırılmasında əhəmiyyətli rol oynayır.

Semantik üsulla yaranan yeni termin, təbii ki, yeni anlayışı ifadə edir, onu adlandırır. «Yəni meydana çıxmış yeni anlayış, əşya arasında müəyyən assosiativ əlaqə yaratmaqla sözlərin mənası genişlənir, onlar terminoloji mahiyyət kəsb edilər. Deməli,

semantik üsulda anlayış yalnız mövcud sözlərlə ifadə edilir, terminin, sözün məna yükü artır».

Semantik üsulla termin yaradıcılığından bəhs edərəknə nəzəri əsərlərdə ümumişlək sözlərin yeni məna kəsb edərək terminləşməsində iki aparıcı xüsusiyyət göstərilir:

1. ümumişlək sözün semantikası genişlənir və bu söz termin səciyyəsi qazarı; belə termin-sözlər müasir Azərbaycan dilinin terminoloji sistemində müəyyən kəmiyyət göstəricilərinə malik olur və terminologiyada bu proses davam edir;

2. müxtəlif terminoloji sahələrə və ya dar işləklik keyfiyyətinə malik olan termin səciyyəli sözlər başqa sahədə müəyyən anlayışı ifadə etməyə yönəlir və yenibir sahənin terminoloji sisteminə daxil olur.

Real gerçəklikdə əşyalar, predmetlər, obyektlər çoxdur və onlar adlandırılmışdır. Əşya və predmetlər arasında müəyyən əlaqələr vardır. Onlar bir-birinə formaca oxşar ola bildiyi kimi, predmet, məkan, zaman və s. əlaqələrlə də bağlanırlar.

Predmetlərin assosiativ olaraq bir-birinə bənzədilməsi onları eyniləşdirilmir, onların mahiyyətindəki fərqləri aradan qaldırmır. Lakin oxşarlıq, assosiativ bənzətmə müxtəlif olan predmet və obyektlərin eyni sözlərlə adlandırılmasına səbəb ola bilər.

Nəticədə ümumişlək söz yeni məna kəsb edir. Bu hadisə termin yaradıcılığında daşa çox baş verir. Semantik üsul adi söz yaradıcılığından fərqli olaraq termin yaradıcılığında məhsuldarlığı ilə seçilir. Bunun səbəbi dilin lüğət tərkibinə daxil olan ümumişlək sözlərin terminləşməsidir.

Termin yaradıcılığında dilin öz potensial imkanlarından da geniş istifadə olunur. Həm ingilis, həm də Azərbaycan dilində yeni terminin əmələ gəlməsində sözün semantik strukturunda dəyişmələr də mühüm rol oynayır.

Bəzi hallarda sözün semantik konversiya və ya semantik sıxılma baş verir. «termin yaradıcılığı sistemi çox mürəkkəb orqanizmdir. Bu orqanizm elmi dilin yaranıb inkişaf etdiy dövrdə cilalanaraq formalaşmışdır. Formal komponentlərlə (termindüzəltmə vasitələri) yanaşı, bura törədici əsasın semantik strukturu ilə sıx bağlı olan mənam elementləri daxildir».

Semantik üsulla termin yaradıcılığı terminoloji sistemin inkişafının müxtəlif mərhələlərində özünü fərqli şəkildə göstərir. Ümumişlək sözlərin semantikasında baş verən dəyişmələr əsasında onların, yəni ümumişlək sözlərin terminə çevrilməsinin ən məhsuldar dövrü yeni terminoloji sistemin yaranma dövrünə təsadüf edir.

Belə ki, «terminlər mövcud sözlər əsasında yaradılır və sözlər yeni məna qazanır. İngilis və Azərbaycan dili terminologiyası *coin-sikkə, client-müştəri, benefit-fayda, bonus-mükafat, balance-qalıq, allotment-bölgü, alloüance-güzəşt, accumulation-yığım, account-hesab, aboundance-bolluq, category-dərəcə, crash-iflas, corvee-biyar, crisis-böhran, damage-zərər, ziyan, work-iş, debt-borc, deduction-ayırma, demand-tələb, base-baza, farm-ferma, fashion-moda, fee-qonarar, hire-muzd, kind-növ, label-yarlıq, labour-əmək, list-siyahı, loss-zərər, market-bazar, means-vəsait, master-usta, misey-dilənçilik* və s.».

Eləcə də,Menecment (manage) ingilis sözü olub hərfi idarəetmə deməkdir. İngilis dilinin iqtisadi terminologiyasına daxil olmuş bu söz «idarəetmə» elminin nailiyyətlərinin istifadə edilməsi ilə istehsalatın və istehsal personalının idarəetmə prinsiplərinin, formalarının, üsullarının və vasitələrinin məcmusunu ifadə edir.

Ümumişlək söz kimi «idarəetmə» mənasında işlənir.

Kapital. Bu söz ingilis dilinə latın dilindən (capitalis) keçmişdir. Mənası «əsas» deməkdir. Hazırda iqtisadi terminologiyada – mürəkkəb iqtisadi kateqoriya kimi pul, torpaq, maddiləşmiş əmək mənalarını ifadə edir. Hamı tərəfindən başa düşülən kapital sözü ümumişlək söz kimi yığım məqsədi ilə toplanmış pul kimi də başa düşülür.

Firma (ital. firma) – müəssisənin, şirkətin, təsərrüfat cəmiyyətinin, kommersiya təşkilatınıün ən ümumiləşdirilmiş adıdır.

Firmanın aşağıdakı tipləri fərqləndirilir: affiləşdirilmiş – filial, törəmə firma şəklində daha iri, əsas şirkətə birləşdirilmiş yaxın, qohum firmalar; broker-kommersiya məqsədlərini güdən və müştərinin tapşırığı ilə və onun hesabına hərəkət edən vasitəçi firmak; vençur – elmi-tədqiqat və mühəndis işlərini maliyyələşdirən kiçik, yaxud orta investisiya firması; investisiya – investisiya və qabiliyyətli kağızlarla əməliyyatlarla aparmaqla məşğul olan firma; engineer – mühəndis-məsləhət xidmətlərinin göstərilməsində ixtisaslaşmış firma; innovasiya – elmi-tdəqiqat işləninin nəticələri bazasında yeni texnologiyaların işlənmsi üçün şəriki olduğu firma tərəfindən yaradılan firma; konsaltinq – fəaliyyət dairəsi müxtəlif sferalarda məsləhətlərdir; istehsalat – konkret məhsulun istehsalı ilə məşğul olan firma; ticarət – ticarət vasitəsi fəaliyyətlə məşğul olan firma; rieltor – daşınmaz əmlak sahəsində əməliyyatlarla məşğul olan firma.

Azərbaycan və ingilis dillərinin lüğət tərkibində, onun terminoloji sistemində köklü dəyişmələr olmuşdur. Terminlər dilin lüğət tərkibinin əsas hissələrindən biridir. Araşdırma və tədqiqatlar göstərir ki, dilin müxtəlif sahələrində müşahidə olunan dəyişmələr daha çox terminoloji sistemdə hiss olunur.

İngilis dilində sözdüzəltmədə üç əsas vasitədən istifadə olunur: köklər, ön şəkilçilər və suffikslər. Azərbaycan dilindən fərqli olaraq burada köklərin morfoloji üsulla sözdüzəltmədə iştirak etməsi bir qədər qəribə səslənir və morfoloji üsulla söz yaradıcılığının ənənəvi şərhindən kənara çıxır.

Belə ki, ingilis dilində müəyyən sayda kök vardır ki, onlar dilin lüğət fondunun tərkibinə daxil olan öütün sözlərin böyük bir hissəsinin yaranmasında iştirak edir. İngilis dilində sözdüzəltmə prosesində fəal olan əsas köklər çoxdur. Məs.: agr, ad, agr, alte, anima, anthro, aqua, ann, carn və s.

Belə köklərin əvvəlinə ön şəkilçisi, sonuna suffiks artırılması ilə yeni sözlər düzəlir. Qeyd olunan köklər termin yaradıcılığında də fəaldır. Semantik üsulla termin yaradıcılığı terminoloji sistemin inkişafının müxtəlif mərhələlərində özünü fərqli şəkildə göstərir. Ümumişlək sözlərin semantikasında baş verən dəyişmələr əsasında onların, yəni ümumişlək sözlərin terminə çevrilməsinin ən məhsuldar dövrü yeni terminoloji sistemin yaranması dövrünə təsadüf edir.

S.Sadıqova yazır: «Azərbaycan dilinin daxili imkanları əsasında bu dilin söz yaradıcılığı üsulları ilə müəyyən anlayışın ifadəsi üçün müvafiq ifadəsi termin yaratmaq mümkün olmadıqda başqa dildən həmin anlayışı ifadə edən termin hazır şəkildə alınıb işlədilir».

Alınma terminlər bütün dillərdə vardır. Belə alınmaların bir qismi mənşəyindən asılı olmayaraq bütün dillərin sahə terminologiyalarında eyni şəkildə işlənir. Belə terminlər internasional və ya beynəlmiləl terminlər kimi qruplaşdırılır.

İngilis dilinin lüğət tərkibi rəngarəngliyi ilə seçilir. Bu dildə müxtəlif dillərdən alınmaları dilin ümumişlək sözləri səviyyəsində də çoxdur. Terminlərdə qeyd olunan

cəhət daha yüksək səviyyədədir. Bunun nəticəsidir ki, ingilis dilində birbaşa alınmalara daha çox rast gəlinir.

Beynəlmiləl terminlərin böyük bir qismi heç bir müasir dillə bağlı deyildir, əsasın yunan və latın dillərinə məxsus elementlərin birləşməsindən əmələ gəlmişdir. Hər hansı bir sözün geniş şəkildə işlədilməsi, bir dildən başqasına keçməsi və nəhayət beynəlmiləl terminə çevrilməsi onun ifadə etdiyi anlayışla, hadisə və proseslə əlaqədardır.

Elmi-texniki nailiyyətlər artdıqca zərurətdən doğan məfhumlar və anlayışları ifadə edən sözlərin beynəlmiləl terminlərə çevrilməsi prosesi də sürətlənir.

İngilis və Azərbaycan dillərinə daxil olan terminlərin sayı getdikcə artır, bu sahənin terminoloji bazası sürətlə zənginləşir. Vaxtıilə dildə ümumişlək xarakter daşyıan yüzlərlə ümmişlək söz terminləşməyə doğru inkişaf etmiş, ən qədim dövrlərdən bəri termin yaratmaq xüsusiyyətlərini qoruyub saxlamışdır.

-müasir dövrdə terminologiyada gedən proseslər səciyyələndirən əsas cəhətlərdən biri beynəlmiləl terminlərin sayının sürətlə artmasıdır.

Beləliklə, nəticə etibarı ilə istər ingilis, istərsə də Azərbaycan dillərində termin yaradıcılığı həm dilin daxidi imkanları, həm də alınmalar hesabına yaranır.

ƏDƏBİYYAT

1. Qasımov M. Azərbaycan dili terminologiyasının əsasları. Bakı, Elm, 1973, 185 s.
2. Qurbanov A.M. müasir Azərbaycan ədəbi dili. Bakı, Maarif, 1985, 406s.
3. Sadıqova S.A. Azərbaycan dili terminologiyasının təşəkkülü və inkişafı. Bakı, Elm, 2005.
4. Hüseynzadə J.A. İqtisadiyyat terminlərinin linqvistik təhlili (Azərbaycan və ingilis dili materialları əsasında). Bakı, 2011, 27 s.
5. Sadıqova S.A. Azərbaycan dili terminologiyası. Bakı, Elm, 2011.

И.АБДУЛЛАЕВА, Н.ТАГИЕВА

МЕТОДЫ СОЗДАНИЯ ТЕРМИНОВ И В АЗЕРБАЙДЖАНСКОМ И АНГЛИЙСКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

Автор стать рассказывает о развивающихся и обогащающихся языковых средствах общения. И в азербайджанском и в английском языках, значительная часть общеупотребительных слов создана древности.

Как отмечает автор, термины, считающиеся словарной составляющей основных частей языка, во время своего развития, подвергались определенным изменениям.

Это ещё больше чувствуется в системе терминологии.

И в азербайджанском и в английском языках, создание терминов осуществляется при помощи семантических, морфологических, синтаксических способов, кальки и т.д.

В статье говорится также и об увеличении количества терминов, входящих в состав английского и азербайджанского языков и комментируются исследования интенсивного обогащения терминологической базы языка.

В заключении, автор статьи приходит к выводу, что в английском и азербайджанском языках термины создаются за счёт внутренних возможностей языка и в том числе заимствования.

I.ABDULLYEVA, N.TAGUIYEVA

THE COLLABORATOR OF THE ACADEMY OF MES METHODS OF TERM CREATION AN AZERBAIJANI AND ENGLISH

SUMMARY

The autor of this article deals with the means of communication which is developing and prospering today. The majority of words that are generally used as terms in both Azerbaijani and English were formed in the ancient times of language.

According to the author, terms that are considered as the main parts of language were on the turn due to development.

And it was reflected mostly in the terminological systemö Term creativity in Azerbaijani and English is formed by semantic, morphological, syntactical, loan translation and so on.

The increase in the number of terms that are included Azerbaijani and English and the enrichment of the terminological base are mentioned and are interpreted.

Consequently, the author has come to a conclusion that the creativity of terms in both Azerbaijani and English.

Rəyçi: Həbib Mirzəyev
filologiya üzrə fəlsəfə doktoru, dosent.

RƏNA HÜSEYNOVA
ATU
rəna.@.mail,ru.

ÜMUMİ DİLÇİLİK ELMİNDƏ FRAZEOLOGİZMLƏRİN TUTDUĞU MÖVQE VƏ DİLÇİ ALİMLƏRİN RƏY VƏ MÜLAHİZƏLƏRİ

Açar sözlər: *leksikoqrafiya, diaxronik, sinxronik*
Key words: *lexicography, diachronic, synchronic*
Ключевые слова: *лексикография, диахроник, синхроник*

Frazeologiya hər hansı bir dildəki sabit söz birləşmələrini öyrənən dilçilik terminidir. Adətən, insanlar gündəlik həyat təcrübəsində-adi danışıqda çox zaman sərbəst söz birləşmələrindən istifadə edirlər. Məs: *yaxşı tələbə (a good student), gözəl qız (a beautiful girl), beş kitab (five books), söz demək (to say a word)*, və s.

Lakin hər hansı bir dilin lüğət tərkibində külli miqdarda söz birləşmələri vardır ki, onların tərəflərini bir-birindən ayırmaq çətin olur. Belə birləşmələr sərbəst yox, sabit birləşmələrdir ki, bunlar da dilçilikdə frazeoloji birləşmələr adlanır.

Buna görə də, dildə işlədilən sərbəst söz birləşmələrini sabit birləşmələr (frazeologizmlər) ilə qarışdırmaq olmaz, çünki sərbəst söz birləşmələrinin vahid lüğəvi mənası olmadığı halda frazeologizmlərin lüğəvi mənası vardır.

Sərbəst birləşmələrdən fərqli olaraq, sabit birləşmələr (frazeologizmlər) öz mənasına görə dildə xüsusi bir qrup təşkil edir və həmin qrupa daxil olan sözlər tək-tək sözlərdən fərqlənir-birləşmə daxilində vahid (bütöv) bir məna ifadə edir. Məs: *to make up one's mind (to decide), to put an end (to finish), to beg pardon (to excuse)* və s.

Misallardan göründüyü kimi, frazeoloji birləşmələrdə olan vahid məna və qrammatik vəzifə sözlərlə yaxınlıq təşkil edir. Məhz buna görə də dildə işlədilən frazeoloji tərkiblərlə leksik tərkiblər arasında ümumi cəhətlər çoxdur, çünki frazeoloji birləşmələr də sözlər kimi insanın fəaliyyəti ilə bağlı olan xüsusiyyətləri ifadə edirlər.

Frazeoloji birləşmələrin ifadə etdiyi mənalar bütöv haldadır. Frazeoloji birləşmələr sabit birləşmələrdir, yəni belə birləşmələrdə sözlərin sırası dəyişməzdir, buna görə də onlar qrammatik cəhətdən ayrı-ayrılıqda təhlil olunmur.

Frazeologiyanın məqsədi frazeoloji vahidlərin (frazemlərin) dildə mövqeyini müəyyənləşdirmək, onların müvafiq prinsiplərə əsasən təsnifini vermək, üslubi xüsusiyyətlərini aydınlaşdırmaq, əmələ gəlmə və inkişaf etmə yollarını aşkar etməkdən ibarətdir.

Frazeologiya dilçiliyin tam müstəqil şöbəsi kimi çox gəncdir. Lakin, bu heç də o demək deyildir ki, frazeologiya məsələləri ilə əvəllər məşğul olunmamışdır. Bu məsələ alimlərin diqqətini çoxdan cəlb etmiş və frazeologiya "gizli" inkişaf yolu keçmişdir.

Frazeoloji vahidlərin birinci müşahidəçiləri lüğət tərtib edənlər – leksonoqraflar olmuşlar. Lüğət tərtib edənlər bəzi sözlərin mənalarının itdiyini müşahidə etmişlər. Belə vəziyyət, adətən, bu və ya başqa söz bölünməz birləşmə tərkibində olduqda nəzərə çarpmışdır.

Ş.Balli frazeoloji vahidlərin əlamətini müəyyənləşdirməkdə birləşmənin həm zahiri, həm də daxili cəhətinə nəzər yetirməyi mühüm şərt hesab edirdi. O, sabit birləşmələri öz əsərində leksik-semantik və üslubi-məna cəhətdən şərh emişdir. Dilçilik

tarixində sabit birləşməyə bu şəkildə yanaşmaq tamamilə yeni idi. Ş.Ballinin nəzəriyyəsi frazeologiyanın inkişafına böyük təsir göstərmişdir.

Frazeologiyanı belə fərqləndirmək və ononla da kifayətlənmək doğru deyil. Frazeologiya dedikdə onu lüğəvi vahidlərin məcmusu kimi nəzərdə tutmaq lazımdır.

Məlumdur ki, dil tarixi, ictimai hadisədir. Bu cəhətdən dilin başqa sahələri kimi, onun frazeologiyasına da aiddir, belə ki, hər bir konkret dilin frazeoloji vahidləri də zəruri ehtiyac nəticəsində tədricən formalaşaraq zənginləşmə prosesi keçirib bir sistem halına düşür. Bununla əlaqədar olaraq hər bir konkret dilin frazeologiyası da iki planda (diaxronik və sinxronik) tədqiq edilir.

Diaxronik planda dilin frazeologiyasının tarixən formalaşması və müasir dövrə doğru semantik və struktur cəhətdən inkişafı öyrənilir. Sinxronik planda isə dilin frazeologiyasının müasir vəziyyətinin semantik və struktur təsviri verilir.

Dilçilikdə frazeologiyanın tədqiqat obyektindən bəhs dən müəllifləri iki qrupa bölürlər: 1) ümumiyyətlə hər hansı bir dildə hazır şəkildə olan söz birləşmələrinin hamısını frazeologiya hesab edənlər;

2) dildə hazır şəkildə olan söz birləşmələrinin hamısını deyil, onlardan nitq və ya dil vahidlərinə ekvivalent olub, komponentləri məna və quruluşca parçalanmayan qismini frazeologiya adlandıranlar. Dilçilikdə bunlardan birincisi "geniş mənada frazeologiya", ikincisi "dar mənada frazeologiya" adlandırılır.

Ferdinant dö Söseür dildəki sabit ifadələri sərbəst söz birləşmələrindən belə fərqləndirir: " Biz hər şeydən əvvəl, külli miqdarda ifadələrə rast gəlinir ki, bunları dilə aid etmək lazımdır. Bunlar dildə elə hazır nitq parçalarıdır ki, adətən, daxilindəki ayrı-ayrı mənalara malik olan sözləri dəyişmək mümkün olduğu halda, bu məşğul sayılmır.

Bunların ənənəyə görə daşıdığı məna, komponentlərinin bütövlükdəki mənasından və sintaktik quruluşundan asılıdır. Belə ifadələr düzəldilmir, bunlardan dildə hazir şəkildə istifadə edilir".

Qeyd etmək lazımdır ki, Ş.Balli "frazeoloji bitişmə" adı ilə nəzərdə tutduğu semantik qrupdan olan frazeoloji vahidlərin xarici cəhətinin xüsusiyyətindən bəhs edərkən bunlarda üç əlamətin olduğunu göstərir:

1) sözlərin ayrı yazılması;

2) onların müəyyən sabit sırada olması və komponentlər arasına başqa sözün daxil edilə bilməməsi;

3) komponentlərdən heç birinin başqa sözlə əvəz oluna bilməməsi.

Akademik V.V.Vinoqradov dildə frazeoloji vahidləri "frazeoloji birləşmələr", "frazeoloji bitişmələr" və "frazeoloji birləşmələr" adı ilə üç semantik qrupa bölür, bunların hər birinin özünəməxsus əlamətini göstərir.

O,frazeolji birləşmələrdən bəhs edərkən yazır ki, bunların ümümi mənası ilə komponentlərinin mənası arasında heç bir yaxınlıq, əlaqə, hətta potensial əlaqə belə yoxdur. Bunların tərkib hissələri dildəki bu və ya digər sözlə eyni səs tərkibinə malik olsa da, bu cür qarşılıqlı əlaqə omonimlikdən başqa bir şey deyildir.

Frazeoloji bitişmə sözün potensial ekvivalentidir. Bu cəhətdən bunlar frazeoloji birləşməyə yaxınlaşır, lakin öz məna quruluşlarının mürəkkəbliyi, komponentlərinin məna əlaqəsinin potensial şəkildə mövcud olması ilə frazeoliji birləşmələrdən fərqlənir.

Frazeoloji bitişmə xarici səs forması ilə sərbəsr söz birləşməsinə uyğun gəlir. Frazeoloji birləşmədə sərbəst mənada olmayan sözlərin sinonimlərlə əvəz edilməsi mümkündür.

V.V.Vinoqdovun bu bölgüsündə "frazeoloji birləşmə" adlandırılan qrup ilk baxışdan Ş.Ballinin təsnifatındakı "frazeoloji qrup" və ya "adi birləşmələrə"də oxşayır. Lakin əslində bunlar bir-birindən kəskin surətdə fərqlənir.

Beıə ki,V.V.Vinoqdovun bölgüsündə frazeoloji birləşmə səciyyəvi daşıyanların komponentlərindən biri ancaq məhdud sözlərlə frazeoloji cəhətdən "bağlı məna" daşıyır, Ş.Ballinin təsnifatında isə, özünün qeyd etdiyi kimi, "...birləşmə parçalandıqdan sonra sözlər öz mənalarını saxlayır".

V.V.Vinoqradovun bu bölgüsü bir meddət həm rus dilinin, həm də bir sıra başqa dillərin frazeologiyasından bəhs edən əsərlərdə tamamilə məqsədəuyğun sayılmış və olduğu kimi saxlanmışdır. Lakin son illərdə bir sıra dillərin frazeologiyası ilə daha dərindən məşğul olan tədqiqatçılar meəyyələşdirmişlər ki, bu təsnifat özünü doğrultmur.

N.N.Amosova, V.V.Vinoqradovun bölgüsünün dərin təhlilini verərək yazır ki, buradakı təsnifat vahid bir prinsipə əsaslanmır, belə ki, iki əvvəlki semantik qrup (frazeoloji birikmə və frazeoloji bitişmə) komponentlərinin mənasından asılı olmayaraq, ümumi mənalarının dərk edilməsi dərəcəsinə görə müəyyənləşdirildiyi halda, "frazeoloji birləşmələr" adı ilə üçüncü qrupa aid edilənlər tərkibindəki sözün başqa leksik vahidlərlə məhdud şəkildə birləşməsi əlamətinə görə səciyyələndirilir.

N.N.Amosova yazır ki, V.V.Vinoqradovun frazeologiya ilə əlaqədar olan məqalələrində frazeologiyanın bir sıra ümumi məsələləri, o cümlədən frazeoloji vahidin daxilən yarılıqda formalaşması problemi frazeoloji vahidlərin tərkib hissələrinin mütəlif tiplərinin müəyyənləşdirilməsi kimi məsələlər nəzərə alınmamışdır.

Sonra N.N.Amosova V.V.Vinoqradovun "...frazeoloji vahiddə onun ümumi məmununun müəyyənləşməsi üçün kiçik bir işarə belə olarsa, frazeoloji birikmə haqqında danışmaq olmaz" cümləsini xatırladaraq yazır ki, burada frazeoloji vahidlərin mənalarının dərk edilməsi haqqındakı fikir dil faktları ilə obyektiv şəkildə əsaslandırılmır.

Belə ki, V.V.Vinoqradovun özü onların frazeoloji birikmə hesab edir, halbuki bunların daxilində daşıdıqları ümumi mənaya zəif də olsa işarə vardır. Daha sonra N.N.Amosova qeyd edir ki, V.V.Vinoqradovun "frazeoloji bitişmə"nin mənası onun komponentlərinin mənası ilə bağlı deyildir fikri inandırıcı deyildir..." Əgər nitq prosesində biz əvvəlcədən məlum olan idiomatik birləşmənin mənasını başa düşə biliriksə, deməli, burada həlledici onun komponentlərinin mənası ilə əlaqədar olaraq dərk edilməsi deyil, kontekstdən sutiasiyadan irəli gələn cəhətdir.

A.İ.Smirnitski frazeoloji vahidlərin struktur tiplərini, onların komponentləri arasındakı ferqli cəhətləri, frazeoloji vahidlərin müxtəlif funksiyalarda işlənən tiplərini müəyyənləşdirməyə xüsusi fikir verib.

Bundan başqa, o, ingilis dili frazeoloji vahidlərin üslubi cəhətdən də nəzərdən keçirərək, iki qrupa ayırır:

1) üslubi cəhətdən neytral olub məcaziliyini itirənlər: məsələn (to) get up, (to) fall in love; 2) xüsusi idiomlar: məsələn, *(to) take chair. Müxtəlif bunlardan başqa, idiomatikliyə meyl etməyən rough sketch "çernovoy nabrosok",* eskiz tipində olan sabit birləşmələrdən də bəhs edərək belələrini frazeoloji vahid hesab etmir və dilin "ənənəvi birləşmələri" adlandırır.

Dilçilik fənnlərində sistemində frazeologiya, bəzən özünə heç yer tapa bilmir, lakin əksər hallarda frazeologiyanı leksikologiyaya aid edirlər. Frzeologiyanın əsas

kateqoriyalarının, məqsəd və vəzifələrinin qeyri-müəyyən olması ona müstəqil inkişaf etməyə mane olur. "Fraza" sözü azı sabit və aydın mənalı termin kimi qəbul edilə bilər.

Dilçilikdə onun tətbiqi müxtəlifdir. Ona görə də frazeologiyanın idiomatikası ilə əvəz olunması üçün bir çox səylər göstərilmişdir. Lakin "idiom", "idioma", "idiomatizm" terminləri də 400 il mövcud olmalarına baxmayaraq avropa dilləri daxilində elmi əsaslarla tərifləmməmişdir. Sözlərin mənalarının öyrənilməsi artıq onların frazalı kontekst daxilində işlənmələrinin analizini də bir məqsəd tutaraq, frazeologiyanın qeyri-aydın məzmunlu olmasına xidmət edir.

Qeyd olunduğu kimi, frazeoloji vahid sabit törəmədir. Bu tərif heç kəs tərəfindən iddia edilmir. Ancaq dilçilərin sabitliyə dair fikirləri üst-üstə düşmür. Frazeologiyanın bir linqvistik fənn kimi inkişaf etməsi frazeoloji sabitlik nəzəriyyəsini işləmədən mümkün deyil. Bu isə sabitlik məsələsinə kompleks şəkildə yanaşmasını tələb edir.

Frazeoloji vahidin sabitliyin ona məxsus olan müxtəlif növ invariantlığa əsaslanır, yəni normativ dəyişiklər baş verdikdə onun elementlərinin dəyişilməsinə-sabit qalmasına. Dildə invariantlılığın və mikrosabitliyin aşağıdakı növləri vardır:

1. Işlənmənin sabitliyi, yəni frazeologizmin individual törəmə deyil, bir dil vahidi olması faktı;
2. Struktur-semantik sabitlik, frazeoloji vahid iki dənədən az olmayan sözlərdən ibarətdir və topoloji mənaya malik deyil, yəni struktur-sematik modelə görə analoji frazeoloji vahidlərin yaradılması üçün nümunə ola bilməz;
3. Sematik sabitlik;
4. Leksik sabitlik, yəni komponentlərin əvəz oluna bilinməməsi və yaxud, komponentlərin yalnəz frazeoloji variantlılıq və struktur sinonimiya çərçivəsində, semantik və leksik invariantlılıq saxlamaqla normativ şəkildə əvəz olunması;
5.Sintaktik sabitlilik, yəni yalnız variantlılıq çərçivəsində frazeoloji vahidlərin komponentlərinin nizamının dəyişə bilməsi, qrammatik inversiya, məsələn, felin məchul növdə işlənməsi, stilistik (üslubi) inversiya, məsələn, *What a cross he has to bear!*

Beləliklə, frazeoloji vahid-leksemlərin bütöv və ya qismən dərk olunmuş mənaları ilə sabit birləşməsidir. Frazeoloji vahidləri leksem adlandırmaq olar. Leksemlərin bir qismi potensial sözlərdir, yəni frazeoloji vahidlərin tərkibində onlar həqiqi mənalarını itirirlər. Digər leksemlər isə frazeoloji vahidlər tərkibində tam dərk olunmamış sözlərdir və burada onlar cümlə üzvü kimi çıxış edə bilməzlər.

Frazeoloji vahidin özü cümlə üzvüdür. Potensial söz sərbəst leksik mənaya malik deyil, ona görə ki, onun məna strukturu yoxdur və o, sadəcə olaraq, frazeologizmin məna strukturunun bir elementidir. Biz frazeoloji vahidin və mürəkkəb sözün komponentlərini ayırırıq. Bu da ingilis dili üçün xüsusilə vacib olan bir şərtdir.

Leksemlər sözdəyişdirici formalara malikdir və frazeologizmlərdə dəyişkən elelmentlərlə uzlaşırlar. Məsələn, *close (shut) one's eyes to something "nəyə göz yummaq" və to take one's time "tələsməmək"*. bəzən, frazeoloji vahidlərin tərkibində fiktiv leksemlərə *(ghost-words)* rast gəlinir, məsələn, *Lets us return to our muttons* "söhbətimizin məğzinə qayıdaq".

Ingilis dilində muttons sözü mövcud deyil, o, fransız dilindən götürülüb və yalnız verilmiş frazeoloji vahiddə rast gelinir.

Bununla belə, bu nəticəyə gəlmək olar ki, frazeoloji vahid tam (bütöv) dərk edildikdə potensial sözlərin, qismən dərk edildikdə isə potensial və real sözlərin uzlaşmasıdır.

ƏDƏBİYYAT

1. Bayramov H. Azərbaycan dili frazeologiyasının əsasları. 1978.
2. Qurbanov A.M. Ümumi dilçilik. Bakı 1977.
3. Arnold İ.V. The English Word. 1973.
4. Амосова Н.Н. Основы английской фразеологии. Л.,1963.
5. Арнолд И.В. Стилистика современного ангийского языка. Л.,1973.
6. Балли Ш. Стилистика французского языка. 1909.
7. Кунин А.В. Английская фразеология. М., 1970.
8. Реформатскии А.А. Лексикология русского языка. М., 1964.
9. Смирнитски А.И. Лексикология английского языка. М., 1956.
10. Соссюр Ф.Де. Крус обшей лингвистики, пер с фр. А.М.Сухотина. М., 1933.
11. Шанский Н.М. Лексикология современного русского языка. М., 1964.

R.KUSSEYNOVA

CLASSIFICATION OF FRAZEOLOGICAL UNITS AND THEIR STRUCTURAL – SEMANTIC PECULIARITIES

SUMMARY

This leaving paper is devoted to the classification of frazeological units and their structural – semantic peculiarities. The very article 8 pages and acquires summary and bibliography. As a result of our scientific investigation we have come to such a conclusion. Frazeology is really considered to be the treasure of any language. In frazeology the history of people, their culture, social life as well as their traditions find their reflection.

Surely when we address frazeologizms our speech, becomes rich and interesting. Relying upon frazeologizms we achieve to get rid of monotonious speech. In our article we have especially stressed the classification of the frazeological units. Introduce frazeological synonyms, homonyms and antononyms.

Later we underlined the difference between frazeological and leksikal meaning. Thus we have become once more witnesses of the fact that the frazeology which is considered to be one of the branches of lexicology plays the important role in the development and enriching of speech.

Р.КУСЕЙНОВА

ИССЛЕДОВАНИЕ АНГЛИЙСКОЙ ФРАЗЕОЛОГИИ В ЛИНГВИСТИКЕ

РЕЗЮМЕ

Исследование английской фразеологее в диахроническом плане постепенно набирает силу. Однако имеющиеся работы посвящены в основном диахроническому изучению слово сочетании. Изыскания подобного рода в области фразеологии.

А настоящей статье делается попытка сделать научное исследования в этом направлении. Кроме того,в статье рассматривается некоторые мысли и выссказивание известых учёных-лингвистов о фразеологизмах и фразеологических соединениях в английском языке.

Rəyçi: Nuriyyə Rzayeva
filologiya üzrə fəlsəfə doktoru,dosent.

ÇİÇƏK BƏDƏLOVA
H.Əliyev ad.AAHM
çiçək-vüsalə.@.mail,ru.

BOLONİYA TƏHSİL PROSESİNDƏ KREDİT SİSTEMİ ÜZRƏ XARİCİ DİLİN TƏDRİSİNİN APARILMASI PRİNSİPLƏRİ

Açar sözlər: *baloniya təhsili,kredit sistemi,konvensiya,avtonomiya.*
Ключевые слова: *балонский просесс образования,кредитный систем, конвенсия,автономия.*
Key words: *balongna education,credit system,convention,autonomy.*

Avropa ali təhsil sistemlərində bu gün baş verən inqlabi dəyişikliklər hamı kimi Azərbaycan təhsil sisteminin işçilərini də narahat etməyə bilməz. Respublika ali təhsil məktəblərini yaxın gələcəkdə nə gözləyir?

Avropa sisteminə qoşulmuş bizim ali məktəblərdə xarici tələbələrin kütləvi təhsil ala bilməsi nə qədər realdır və bu sahədə hansı işlər görülməlidir ? Avropa təhsil xidməti bazarında mövcud olan rəqabətə bizim ali məktəblər davam gətrə bilərlərmi ? Bütün bu suallara cavab vermək üçün birinci növbədə Boloniya konvensiyasının nə olduğunuu aydınlaşdıraq.

1997-ci il aprel ayının 11-də Avropada ali təhsil kvalifikasiyasının tanınması üzrə Lissabon konvensiyası qəbul edildi. Bu sənəd , Avropa ali təhsil sistemlərinin vahid metodoji bazasını yaratma istiqamətində 1953-1997-ci illərdə qəbul edilmiş konvensiyalarının bir növ özündə ümumiləşdirmişdir.

1998-ci ildə Fransa , Almanya , İtalya və Böyük Britaniya Sarbon deklarasiyasına qol çəkdilər. Deklarasiyada Avropa ali təhsil sisteminin arxitekturasının hormonizasiyası nəzərdə tutulurdu.

1999-cu ilin sentiyabrında Boloniya Universitetinin 900 illik yubileyinə toplanmış 29 Avropa ölkəsinin rektorları Universitetlərin Xaritiyasını qəbul etdilər.

Avropa təhsil sistemlərinin bir-birinə uyğunlaşdırılması ilə əlaqədar Boloniyada davam edən proses 2001-ci ildə Praqada 32 ölkənin ali təhsil nazirlərinin << 2001-ci ilə qədər Avropa ali təhsil məkanı yaratmaq >> təşəbbüsü ilə nəticələndi.

Bu konvensiyada müasir dövr üçün ali təhsilin əsas prinsipləri formalaşmışdır:

-universitetlərin avtonomiysı;
-universitetlərin dövlətdən asılı olmamsı;
-müəllimliklə-alimliyin sıx vəhdəti;
-Avropa humaniziminin əsas dəyərlərinin qorunmasi və s

Beləliklə,Boloniya prosesinin əsas prinsipləri və arxitekturasi formalaşdi.

Avropa Boloniya konvesiyasinin yaranmasina səbəb nə idi?

Məsələ ondadır ki,90-cı illərdə dunya təhsil sistemlərində inqilablar baş vermişdi.

Təhsil iqtisadiyyatın bir sahəsinə çevrilirdi.İnkişaf etmiş ölkələr bundan cox böyuk qazanc əldə etməyə başlamişdılar.Bu inqilab şimali Amerikada baş vermişdir,və 90-cı illərin ortalarında avropa unverisitetləri başa düşürdülər ki, bu sahədə cox geridə qalirlar.Düunyanın müxtəlif gənclər ABŞ-da oxumaga axışırdılar.

Bu yariş-müsabiqədə uduzmamaq üçün Avropa öz elm-təhsil potensialını səfərbərliyə almaq istiqamətində fəaliyyətini gücləndirdi.Boloniya kovensiyası da bu qəbildən olan tədbirlərdəndir.

Buradan belə bir nəticəyə gəlmək olur ki,əgər Azərbaycan bu proserdən kənarda qalarsa,inkişafda olan dünyanın xammal əlavəsinə çevrilə bilər.

Azərbaycan ali təhsil sistemi də Avropa təhsil sisteminin tərkib hissəsi kimi Boloniya konvensiyasinin irəli sürdüyü prinsipləri öz fəaliyyətində əsas götürməyə çalişir.

Artiq, Azərbaycan da vahid ümumavropa təhsil məkanina qəbul edilmək ərəfəsindədir.Yaxın gələcəkdə Azərbaycan və Avropa universitetlərinin diplomlarının qarşıliqlı tanınması mümkün ola bilər.Boloniya konvensiyasını qəbul etmək bizim tələbələrə sərbəst olaraq Sorbonda,Praqada və ya Boloniyada mühazirələrə qulaq asa bilmək ,40 avropa ölkəsinin 3 mindən artıq universitetlərinin diplomlarina uyğun diplomlar almaq imkanları verəcəkdir.

Birinci növbədə hər bir tələbə və müəllim yaxın gələcəkdə özünün şəxsi həyatında və professional fəaliyyətindəki prespektivləri reallaşdırmaq ücün yeni imkanlar əldə edəcəklər.Ancaq bunun ücün universtetdə iri miqyaslı reformalar aparmaq

,”Açıq sistem “ prinsipi üzrə universteti açıq universtetə çevirmək lazımdır.Azerbaycanin hər bir vətəndaşi muasir təhsil sisteminin istifadə etmək imkanina malik olmalidir.Bu imkan təhsilin butun munkun formalarini,distansion təhsildən ,fərdi -əyani təhsilə qədər əhatə etməlidir.

Hal hazirda Azərbaycan milli musteqillik səraitində qəbul edilmiş Milli Təhsil Konsepsiyasi strateji əhəmiyyət kəsb edib, fovqəladə xarakter daşimaqla,olkədə yaranmiş çətin vəziyyətdə dövlət və xalq qarşısında tezliklə həlli gözlənilən ən mühüm və ən əhəmiyətli məsələlərdən biridir.

1990 cı illərdən sonra Azərbaycanın müstəqil inkişaf yoluna qədəm qoyması,qabaqcıl qoyması ,qabaqcıl qərbi Avropa dövlətləri ilə siyasi ,iqtisadi və mədəni əlaqələrin genişlənməsi,habelə ,yeni neft müqavilələrinin bağlanması ,qədim ipək yolunun bərpa olunması ,paytaxtimizda dünya dövlətlərinin səfirliklərinin açılması və xarici ölkələrdə respublikamızın səfirlik və nümayəndəliklərinin fəaliyyət göstərməsi kimi müsbət dəyişikliklərin baş verməsi xarici dillərin oyrənilməsini vacib edir.

Azərbaycan respublikasında yeni Təhsil sistemi həyata vəsiqə aldıqdan sonra ,xarici dillərin tədris problemi ziyalılarımızın qarşısında əsas vəzifə kimi qoyulmuş və onun həll edilməsi yolları araşdırılır,optimal yollar axtarılır

.Elm və texnikann sürətlə inkişafı ilə əlaqədar,yeni tədqiqat sahələrinin meydana gəlməsi ,mühüm ixtirların ,kəşflərin aşkar olunması təbiət və dəqiq elmlərin qarşılıqlı əlaqəsi və s mühüm elmi problemlərin meydana gəlməsi müasir Azərbaycanın iqtisadi və siyasi həyatında xarici dillərin öyrənilməsi mühüm zərurət kəsb edir və təhsil konsepsiyasında ona geniş yer verilir.

Xarici dillərin ali məktəblərdə tədris olunması,praktiki təlim xarakter daşıyır.Praktiki xarakter dedidə xarici dildən ünsiyyət vasitəsi kimi istifadə olunması nəzərdə tutulur.Tələbələr dinlədikləri nitq və proqram da nəzərdə tutulan mövzular üzrə verilmiş mətnləri oxuyub başa düşməli ,müxtəlif mövzular ətrafinda söhbətlər aparmalı və ixtisaslarına görə yazişmalar tərtib etməyi bacarmalıdırlar.

Praqramda xarici dil fənninin öyrənilməsi texniki məktəblərdə tədris olunan bütün fənn proqramlarının tərkib hissəsi kimi qəbul olunur.Ali məktəblərdə xarici dilin tədrisi

xalq təhsil sistemində əsas element kimi qəbul edilir.Buraya orta məktəb ,bakalavr magistratura və s daxildir.

Kadırların coxpilləli təkminləşdirilməsinə aid məsələlərin həlli ücün Baloniya prosesi çərçivəsində ikipilləli ali təhsil sistemi (bakalavr,magistrura),təhsilin keyfiyyətinə nəzarət (akkreditasiya),həm ölkə daxilində ,həm də ümumavropa məkaninda müəllim və tələbələrin sayinin sürətlə artması,diplomları tanınması,ali məktəb məzunlarının işlə təmin edilməsi,yaşlıların təhsil alması və digər məsələrə aid munasib tədbirlər həyata keçirilir.

Bu tələblər baxımından Azərbaycan Texniki Unverstetinin "Xarici dillər" kafedrasının təhsil planları və proqramları ,ümumavropa məkanında ali məktəblərdə olan sənədlərə uyğundur.Kafedrada Azərbaycan və rus bölməsinin bütün fakultələri ücün xarici dillər uzrə bakalvr hazirligini təmin edən proqramlar tərtib edilmisdir.

Proqrama xarici dilin tədrisində nitq fəaliyətinin novləri kompleks şəkildə ,ana dili ilə muqayisə edilerek, ardicilliqla realizə edilməlidir: şifahi nitq,dinləyib anlama,oxu, yazi , tərcumə.

Proqram ixtisasi xarici dil olmayan ali məktəblərdə xarici dilin tədrisi ucun nəzərdə tutulur və dilin oyrənilməsi 1 və 2 semestrləri əhatə edərkən 150 saat ayrilir.Ayrilan saatlar 2 semestr ərzində 2 mərhələyə bolunərək ,xarici dilin tədris metodikasina əsaslanaraq oyrənilir.Burada asandan cətinə ,sadədən murəkkəbə prinsipinə ustunluk verilir.

Proqramda oxu,yazi,şifahi nitqin inkişafi,yazili və şifahi məruzələrin edilməsi,oxunulan ədəbiyyatdan ixtisasa dair tərcümələr hazırlanması ,işgüzar məktəb və bağlamaların tərtib edilməsi və s əsas vəzifə kimi qarşıya qoyulur.

Burada leksik materiallarla yanaşı ,qramatik materiallaın da tədrisi və mənimsənilməsi proqramın tərkib hissəsi kimi qəbul edilir.Proqram 2 semest ərzində veriləcək bütün leksik və qramati materialların minimum mənimsənilməsinə zəmin yaradır və bu proses nəzərdə tutulan mərhələlər əsasında aparılır.

19 may 2005 ci ildə Azərbaycan baloniya prosesinə qoşularaq öz üzərinə Avropa standart və normalaına uyğun qanunvericiliyi təkmilləşdirmək ,təhsildə islahatlar aparmaq ,Avropanın vahid məkanına sürətlə inteqrasiya olmaq məqsədilə informasiya və tərcumə mübadiləsi aparmaq kimi öhdəliklər götürmşdür.Bu öhdəliklərdən biri də ali təhsil müəssələrində kredit sistemi tətbiq edilmişdir.Kredit sistemi əsasinda təşkil olunmuş tədris prosesi aşağıdakı xüsusiyyətlərlə səciyyələnir:

1)Kiredit sisteminin səciyyəvi xususiyyətləri :
- hər bir tələbənin fərdi tədris planın olması və onların bu planın tərtibində iştirakı;
- tələbənin fənn və müəllim seçimində müstəqilliyi;
- tədris prosesinə məsləhətcilərin (tyutor)cəlb olunması və onların bu prosesdə hər tələbəyə köməkliyi;
- tədris prosesinin lazimi çap materialları və onların elektron versiyaları ilə təminatı;
- tələbələrin biliyinin qiymətləndirilməsində coxballı tətbiqi.

2)kredit sistemində tədris-metodiki təminatı.
- kredit sistemində 4 formada tədris planları olur;

a) ixtisasin tədris planı(forma-1);

b) tələbənin fərdi tədris planı(forma-2)
c) ixtisasın və tələbənin fərdi planlarına əsaslanan illik işçi tədris planı,tədris proqramları;
ç)müəllimlərin işçi –tədris planlari.
-smest üzrə auditoriya dərsləri- 15 həftə ,1 kredit 15 akademik saat;

Belelikle ali məktələrdə xareici dilin tədrisi praktiki məqsəd daşiyaraq ,dildən bir ünsiyyət vasitəsi kimi istidfadə etməklə yanaşı müayyən ixtisasa uyğun mətnlər atrafında söhbətlər aparılması vərdşlərinin aşılmasından ibarətdir.

a)Kursun quruluşu. Baza kursunun məcburi minimumu əsasən 1ci -2ci smestrlarda xüsusi ixtisas kurslarında verilmiş saatların sayına uyğun olaraq müxtəlif cür planlaşdırılır.Buraya nitq vərdişləri, oxu, tərcümə, nitq tapşırıqları, fərdi oxu üçün müxtəlif məzmunlu materiallar daxil edirlir

1ci –2 ci smestrlərin sonunda test imtahanları nəzərdə tutulur.

Məcburi təhsilə 150saat ayrılır.bu saatlar 1-2ci smestlərdə 2 mərhələyə bölünərək aşağıdakı kimi planlaşdırlır.

1ci smestr -75 saat ; həftədə 8-5 s.
2ci smestr -75 saat ; həftədə 8-5 s.

Hər semestrin sonunda yoxlma yazı işi və qramatik materialın planlaşdırlır.

Tədris proqramı əsasında tərtib olunmuş planlarda şifahi danişıq mətinlərinin öyrənilməsi nəzərdə tutulur və onlar hər smestrdə 3 mövzu olmaqla cəmi 12 mıtindın ibarətdir.

b)Baloniya təhsil sisteminə əsasən xarici dil fənni üzrə tədrisin 1ci mərhələsində nitq fəalliyyətinin əsas növlərinə verilən tələblər.

Şifahi nitqin təliminə veriıən tələb orta məktəbdə mənimsənilmiş bilik ,bacarıq və vərdişlər əsasinda tələbələrin şifahi nitq vərdişlərini daha da inkişaf etdirilməsi ,həmçinin dialoji və monoliji nitq formalarında öz fikirlərini fadə etməkdən ibarətdir.

ƏDƏBİYYAT

1..M.Mahmudov “Respublika “qəzeti .”Baloniya prosesi və Azərbaycan “.26 yanvar 2008 .s.5-6.
2 .. AzTU “Ziya “qəzeti.N 4.(1016) dekabr 2006.Məqalə: “Azərbaycan Texniki Unveristetində kredit sistemi ilə tədrisin təşkili barədə muvəqqəti “Əsasnamə” s.3.
3..R.Ağamaliyev, İ.Pirmmədov.Avropa ali təhsil sisteminin inkişaf tendensiyalrı:”Baloniya prosesi və Azərbaycan konteksti”, Azərbaycan müallimi” qəzeti, 08.10.2004 ,s.3-4
4..H.Hüseyinov.Coxpilləli təhsildə yeni tədris texnalogiyaları.AzTU.2005.

Ч.БАДАЛОВА

ПРИНСИПЫ ПРЕПОДОВАНИЯ ИНОСТРАННЫЕ ЯЗЫКИ ПО КРЕДИТНОМУ СИСТЕМАМ БОЛОНСКИМ УЧЕБНОМ ПРОЦЕССЕ

РЕЗЮМЕ

В статье рассматривается Болонский процесс образования в соответствии с Европейскими стандартами и нормами, усовершенствование законо дательства, проведение реформ на базе кредитной системы образования и их реалии в системе образования Азербайджана.

Балонский процесс образования также рассматривает нижеследующие принципы:

-Автономия университетов;

-Суверитет университетов;

-Зашита и сохранение Европейские ценности;

-Распространение и пропоганда успехи и принципы

Балонский систем образования

CICEK BEDELOVA

BOLOGNA EDUCATION PROCESS THE TEACHING OF THE PRINCIPLES OF CONDUCT FOREIGN LANGUAGE

SUMMARY

Ln this article is shown the educaion system of the Bolonga process according to the European standart and nrms about the reforming on base of the credit system in the education system and its reality according education system Azerbaijan/

The article is about the methodies of teaching of the English Language on spesyality in national higt schools of the Republic And different principles of text translation are taught. Student havi to work individucelly on the themes while translating Scientific-technical literature and each theme must be on the spesiality.

Rəyçi: **Adilə Zeynalova**
filologiya üzrə fəlsəfə doktoru, dosent.

GÜLNAR NAĞIYEVA
H.Əliyev ad. AAHM
aida-gülnar.@.mail.ru.

MÜASİR İNGİLİS DİLİNDƏ LEKSİK VƏ GRAMMATİK YOLLA SÖZ YARADICILIĞI VƏ ONUN AZƏRBAYCAN DİLİNDƏ İFADƏ ÜSULLARI

Açar sözlər: *zaman yaratma, qrammatik xüsusiyyətlər, məsdər formaları, əvəzedicilər, modullaşdırmaq, mübtəda, ismi ifadələr, bağlayıcı, funksiya, cümlənin hissəsi.*
Key words: *formation of tense, grammatical peculiarities, forms of the infinitive, sbustitutes, modify, subject, noun phrase, conjunction, function, part of a sentence.*
Ключевые слова: *образование времен, грамматические особенности, формы инфинитива, заменители, модифицировать, подлежащее, фразы имени, связывание, функция, часть предложение.*

Hər bir sözün yaranması müəyyən ehtiyacdan doğur. Ünsiyyətin müəyyən şəraitə bağlı ehtiyacından yaranan söz sonra bütün dil daşıyıcıları üçün zərurətə çevrilir. Əslində dilin lüğət fonduna daxil olmuş sözün hər birinin etimologiyasına gedib çıxmaq olar, amma bu xüsusi elm sahəsi olan etimologiyanın mövzusudur.

Adətən etimon axtarışı ulu dilə cedib çıxır, bəzən də başqa dillərlə qarşılıqlı tarixi əlaqənin aşkarn olunmasını tələb edir. German dillərinəd söüzn strukturu, onun morfem quruluşu çox mürəkkəb və müxtəlifdir.

Düzəltmə sözlər bir leksik morfemdən və bir və ya biri neçə sözdüzəldici morfemdən ibarət ola bilər. Araya sözdüzəldici morfem də girə bilər. Leksik morfem həm də morfoloji funksiya yerinə yetirə bilər, yəni bir sözdən başqa söz düzəldə bilər. Bu sözdüzəldici mofremləri affiks adı altında birləşdirirlər və buraya prefiks və suffiks daxildir. İngilis dilində söh heç bir şəkilçi qəbul etmədən bir nitq hissəsindən başqasına keçə bilir. Buna konversiya deyilir. Məsələn, to bridge – abridge; to look – a look; to drop – a brop; to work – a work və s. Son dövr elmi-nəzəri ədəbiy1yatda mürəkkəb sözlərlə bağlı diqqəti çəkən məsələlərdən biri də yaranan sözlərin dilin lüğət tərkibinə möhkəm daxil olması və digər başqa sözlərlə tam hüquqda işlənə bilməsidir.

Dilin lüğət tərkibinin zənginləşməsinin birinci və əsas mənbəyini dilin daxili vəsaiti təşkil edir. Bu mənbədən danışarkən biz aşağıdakıları nəzərə almalıyıq. Bunlar əsasən:

- leksik yolla;
- morfoloji yolla;
- sintaktik yolla;
- kalka (yamsılama) yolu ilə yaranan sözlərdir.

Biz əsasən leksik və morfoloji yollara nəzər salacaq və onları izah etməyə çalışacağıq.

1. Leksik yolla yaranan sözlər ümumxalq danışıq dili və onun müxtəlif sözdüzəltmə vəsaiti (sözdüzəldici şəkilçi və sözlərin birləşməsi) istər dilin tarixi inkişafı prosesində və sözlərin yaranmasında əsas olmuşdur. Ümumxalq danışıq dilindən qidalanmayan və onun hesabına zənginləşməyən hər hansı bir ədəbi dil nəticədə məhv ola bilər. Dilin söz ehtiyatından istifadə etməklə yeni hadisə, anlayış və dəyişmələri

ifadə etmək üçün başlıca yol dildə tarixən mövcud olan sözdülətmə formalarına uyğun surətdə yeni sözlər yaratmaqdır.

Sözyaradıcılığında süniliyə yol vermək olmaz, çünki belə düzəltmə sözlərin ömrü az olur.

Dildə onun öz materialı zəminində yaranan üğət tərkibinin zəngin¬ləşmə-si¬nə səbəb olan sözdüzəltmə qaydaları dilin daxili inkişaf qaydaları ilə bağlıdır. Belə sözdüzəltmə qaydalarını müxtəlif istiqamətlərdə öyrənmək olar. hər bir nitq hissəsinə daxil olan söz qruplarının konkret məzmunu, qrammatik forması, sintaktik quruluşu və bunların hər biri ilə əlaqədar olan sözdüzəltmə qaydaları da vardır.

II. Morfoloji yolla yaranan sözlər Dünya dillərində sözdüzəldici şəkilçilər ön, orta və son olmaqla üç yerə bölünün. Azərbaycan dilinin özünəməxsus sözdüzəldici şəkilçiləri yalnız son şəkilçilərdən ibarətdirsə, ingilis dilində sözdüzəldici şəkilçilər həm ön, hm də son şəkilçilərdən ibarətdir. Yuxarıda qeyd etdyimiz kimi dünya dilləri bir-birilə əlaqədar inkişaf etmiş və etməkdədir. Həmin əlaqə nəticəsində bu dillər arasında qarşılıqlı surətdə bir-birinin lüğət tərkibinin zənginləşdirdiyi kimi, bu və ya başqa qrammatik formalarda bir dildən başqa bir dilə keçə bilər.

Dilin lüğət tərkibinin zənginləşməsində sözdüzəldici şəkilçilərin rolu çox böyükdür. Çünki şəkilçilər vasitəsilə bir sözdən bir çox yeni sözlərə mələ gətirmək mümkündür. bu da öz növbəsində dilin lüğət tərkibini zənginləşdirir. Sözdüzəldici şəkilçilər bu və ya digər nitq hissəsinin sonuna artırıla bilər. Bu şəkilçilər qoşulduğu sözlərə təsir edərək, bir nitq hissəsindən başqa bir nitq hissəsi də əmələ gətirir. Məsələn, short-to shorter; deep-to deepen; bright-to brighten, etc.

III. Sintaktik yola yaranan sözlər dilin lüğət tərkibinin zənginləşməsində sözlərin yanaşdırılması və birləşdirilməsinin də rolu az deyildir. Bu üsulla yaradılan müxtəlif mənşədən ola bilər. Dilin tarixi inkişafında sadə və ya düzəltmə sözlər müxtəlif üs3ullarla birləşərək bir çox mürəkkəb sözlər əmələ gətirmişdir. Deməli, birləşən hər iki söz mənalarına görə qaynayıb-qarışır, qovuşma və ya birləşmə halında işləndiyi zaman hər iki sözün əvvəlki mənaları əsasında onlardan fərqli olaraq ümumiləşmiş, vahid yeni anlayış ifadə edir.

Belə qovuşma və ya birləşmələrdə yalnız formanı nəzərə azıb, məna və məzmunu yaddan çıxarmaq, əlbəttdə dili təfəkkürlə bilavasitə əlaqədardır. İnsanın idral fəaliyyətinin müvəffəqiyyətlər sözlər şəklində və söz birləşmələri vasitəsilə cümlələr şəklində dildə qeyd və təsbit olunur.

Dil öz inkişafında sadəcə olaraq məhdud bir çərçivə dairəsində deyil, aşağıdan uxarıya, sadədən mürəkkəbə doğru inkişaf edir. məhz belə bir inkişafında nəticəsidir ki, dilimizdə mürəkkəö sözlərin və söz birləşmələrinin miqdarı artmışdır.

Beləliklə, yuxarıda deyilənlərdən aydın olur ki, dilin lüğət tərkibinin zənginləşməsinin mənbə və üsullarının öyrənilməsinin dilçilik nöqteyi-nəzərdən xüsusi əhəmiyyəti vardır.

IV. Kalka (yamsılama) yolu ilə yaradılan sözlər. Yeni söz və terminlərin yaradılmasında kalka üsulunun da müəyyən rolu vardır. Bu üsulla əmələ gələn yeni sözlər dilimizin öz daxili materialı əsasında yaradılır. buna görə də burada dilin daxili inkişaf qanunları həlledici rol oynayır. Kalka yolu ilə yeni sözlərin yaradılmasında həm sözlərin, həm də dilin sözdüzəldici şəkilçilərindən geniş surətdə istifadə olunur.

Kalka yolu ilə yaradılan yeni söz və terminlər hərdən tərcümə vasitəsilə dilə gətirilir. Bu proses zamanı tərcümə olunan söz həmin dildə (tərcümə edilən dildə) eyni

mənanı verən sözlərlə yaxud söz və sözdüzəldici şəkilçilərlə ifadə olunmalıdır. Buna görə də burada tərcümə edilən sözün tam qarşılığı verilməlidir, yoxsa onu kalka adlandırmaq olmaz. Bu kimi tərcümələr eyni zamanda sərbəst tərcümə adlanır.

Bu və ya başqa bir dildə kalka yolu ilə yaradılan hər hansı bir sözün kök və şəkilçilərinə uyğun gəlməlidir. Kalka üsulu ilə yaradılan söz və terminlər həm morfoloji, həm də leksik yolla əmələ gəlir.

a) morfoloji yolla yaradılan yeni sözlər həm dilin öz sözləri, həm də başqa dillərdən keçərək həmin dilin sözdüzəldici şəkilçilərinin əlavə edilməsi ilə əmələ gəlir;

b) kalka üsulu ilə yaradılan sözlərin bir qismi də sintaktik yolla əmələ gəlir. İstər morfoloji və istərsə də sintaktik yolla yaradılan yeni söz və terminlər dilin zənginləşməsinə xidmət edir.

Sintaktik yolla yaradılan yeni sözlər iki və daha artıq sözün birləşməsi və ya yanaşması ilə əmələ gəlir. Bunların bir qismi bitişik və bir qismi də ayrı yazılır. Sözlərin birləşməsi və yanaşması üsulu ilə bir çox söz və terminlərin yaranmasını kalka adlandırmaq olar.

Bu və ya başqa dildə kalka yolu ilə yaradılan hər hansı bir sözün kök və şəkilçiləri həmin sözün alındığı dilin kök və şəkilçilərinə uyğun gəlməlidir. Kalka üsvulu ilə yaradılan sözlər həm morfoloji, həm də leksik yolla əmələ gəlir. İstər morfoloji, istərsə də sintaktik yolla yaradılan yeni söz və terminlər dildə yeni anlayışları ifadə etməyə xidmət edir. düzəltmə sözlərin içərisində şəkilçilərlə düzələn sifətlər xüsusi əhəmiyyət kəsb edir. Sözdə dəyişmə, əsasən, məna ilə əlaqədardır. Sözün fonetik tərkibi dəyişməz qalır, mənası təzələnir, yenidən yarana bilir. Fonetik tərkibi də modifikasiya yolu ilə yeni struktur əmələ gətirir, mənaya təsir edir, yeni məna yaranır.

Struktura sözün ünsürləri ilə əlaqədarlır. Sözün məna Strukturu onun ifadə etdiyi əşya və ya məfhumla bağlıdır. Sözün məna strukturu sabi deyildir. Onun dəyişməsi əsasən üç planda olur:

1. sözlərin məentiqi-əşyavi məzmununun dəyişməsi;
2. sözlərin leksik-qrammatik əlaqələrinin dəyişməsi;
3. leksik-semantik sistemdə sözlərin məna əlaqələrinin dəyişməsi.

Buların strukturlarında bir-birinə yaxınlıq olsa da, onlar mənalarına görə fərqlənir. Söz öz daxili formasına görə üç struktur elementdən ibarətdir: fonoloji, morfoloji və semantik.

Hər hansı bir söz yeni məfhum ifadə etdiyi zaman öz əvvəlki mənasını da saxlayır. Əvvəlki forma yeni məfhumu ifadə edən formaya çevrilir.

Söz yaradıcılığı, göründüyü kimi, dilin iki sahəsi – qrammatika və leksika ilə yaxından bağlıdır.

Söz yaradıcılığının nəticəsi leksikaya aid olub, dilin luğət tərkibinə yeni-yeni leksik vahidlər verir.

Söz yaradıcılığı prosesi ilə qrammatikaya aid olub, onun maddi imkanları əsasında fəaliyyət göstərir. Bu baxımdan, söz yaradıcılığını qrammatika və leksika ilə həmhüdud dilçilik sahələrindən hesab etmək olar.

Söz yaradıcılığının əsas vəzifəsi dilin inkişafı prosesində meydana gələn qanunauyğunluqlarını və xüsusiyyətlərini öyrənməkdən ibarətdir.

Sözsüz ki, yeni sözlərin yaradılması – söz yaradıcılığının əsas funksiyası¬dır. Buna görə də ümumi dil sistemində söz yaradıcılığının böyük rolu vardır.

Məlumdur ki, ingilis dilində sözün sintaktik funksiyası morfoloji əlaməti üstələyir. Sözün qrammatik təbiəti tam şəkilədə mətndə müəyyənləşir. Beləlik¬lə, germanistikada yeganə vahid prinsip əsasında nitq hissələrini təsnif etmək üçün göstərilən bütün təşəbbüslər nəticəsiz qalmışdır. Ənənəvi bölgü isə pis deyildir, sözün üç əlamətini nəzərə almaq lazımdır.

İngilis dilində sözdüzəltmədə üç əsas vasitədən istifadə olunur: köklər, ön şəkilçilər və suffikslər. Azərbaycan dilindən fərqli olaraq burada köklərin morfoloji üsulla sözdüzəltmədə iştirak etməsi bir qədər qəribə səslənir və morfoloji üsulla söz yaradıcılığının ənənəvi şərhindən kənara çıxır. Belə ki, ingilis dilində müəyyən sayda kök vardır ki, onlar dilin lüğət fondunun tərkibinə daxil olan öütün sözlərin böyük bir hissəsinin yaranmasında iştirak edir. İngilis dilində sözdüzəltmə prosesində fəal olan əsas köklər çoxdur. Məs.: agr, ad, agr, alte, anima, anthro, aqua, ann, carn və s. Belə köklərin əvvəlinə ön şəkilçisi, sonuna suffiks artırılması ilə yeni sözlər düzəlir. Qeyd olunan köklər termin yaradıcılığında də fəaldır. Semantik üsulla termin yaradıcılığı terminoloji sistemin inkişafının müxtəlif mərhələlərində özünü fərqli şəkildə göstərir. Ümumişlək sözlərin semantikasında baş verən dəyişmələr əsasında onların, yəni ümumişlək sözlərin terminə çevrilməsinin ən məhsuldar dövrü yeni terminoloji sistemin yaranması dövrünə təsadüf edir.

S.Sadıqova yazır: «Azərbaycan dilinin daxili imkanları əsasında bu dilin söz yaradıcılığı üsulları ilə müəyyən anlayışın ifadəsi üçün müvafiq ifadəsi termin yaratmaq mümkün olmadıqda başqa dildən həmin anlayışı ifadə edən termin hazır şəkildə alınıb işlədilir».

Alınma terminlər bütün dillərdə vardır. Belə alınmaların bir qismi mənşəyindən asılı olmayaraq bütün dillərin sahə terminologiyalarında eyni şəkildə işlənir. Belə terminlər internasional və ya beynəlmiləl terminlər kimi qruplaşdırılır. İngilis dilinin lüğət tərkibi rəngarəngliyi ilə seçilir. Bu dildə müxtəlif dillərdən alınmaları dilin ümumişlək sözləri səviyyəsində də çoxdur. Terminlərdə qeyd olunan cəhət daha yüksək səviyyədədir. Bunun nəticəsidir ki, ingilis dilində birbaşa alınmalara daha çox rast gəlinir.

Beynəlmiləl terminlərin böyük bir qismi heç bir müasir dillə bağlı deyildir, əsasın yunan və latın dillərinə məxsus elementlərin birləşməsindən əmələ gəlmişdir. Hər hansı bir sözün geniş şəkildə işlədilməsi, bir dildən başqasına keçməsi və nəhayət beynəlmiləl terminə çevrilməsi onun ifadə etdiyi anlayışla, hadisə və proseslə əlaqədardır. Elmi-texniki nailiyyətlər artdıqca zərurətdən doğan məfhumlar və anlayışları ifadə edən sözlərin beynəlmiləl terminlərə çevrilməsi prosesi də sürətlənir.

İngilis və Azərbaycan dillərinə daxil olan terminlərin sayı getdikcə artır, bu sahənin terminoloji bazası sürətlə zənginləşir. Vaxtıilə dildə ümumişlək xarakter daşyıan yüzlərlə ümmişlək söz terminləşməyə doğru inkişaf etmiş, ən qədim dövrlərdən bəri termin yaratmaq xüsusiyyətlərini qoruyub saxlamışdır.

müasir dövrdə terminologiyada gedən proseslər səciyyələndirən əsas cəhətlərdən biri beynəlmiləl terminlərin sayının sürətlə artmasıdır.

Beləliklə, nəticə etibarı ilə istər ingilis, istərsə də Azərbaycan dillərində termin yaradıcılığı həm dilin daxidi imkanları, həm də alınmalar hesabına yaranır.

Г.НАГИЕВА

СЛОВАОБРОЗАВАНИЯ В АНГЛИЙСКОМ ЯЗЫКЕ ЛЕКСИЧЕСКИМ И ГРАММАТИЧЕСКИМИ СПОСОБАМИ

РЕЗЮМЕ

. В статье рассматривается словаобразования в современном английском языке и его способы и методы выражения в Азербайджанском языке.Словаобразование в английском языке происходит нижеследующим способами:
-Словаобразования морфологическими способами;
-Словаобразования грамматическими путями;
-Словаобразования лексическими способами;
-Словаобразования с помощью калки.

G.NAGIYEVA

WORD FORMATION IN MODERN ENGLISH

SUMMARY

The article deals with the word formation of modern English distinguished by its urgensy. Words in the English language are formed in different ways, as well as lexical, semantic and morphological ways have been explained in the article.

Belonging to grammar word formation process operates on the basis of its material resources. The main duty of word formation process is to study objective laws and peculiarities appeared in the development of a language.

ƏDƏBİYYAT

1. Yespersen O.A. Modernq English Grammar on Historical Princples Copenhagen, 1972 part VI; Marchand H. The Categories and Types of Present Day English Word Formation. Wisbade, 1972.
2. Stein, Gabriel. English Word Formation Over Two Centures. Tubingen, 1978, p. 27-32.
3. Soudek Lev. Structure of Subsiandard Words in Britich American English Bratislava, 1988. p. 52-58.
4. Hornby A.S. Oxford Advanced Learner Dictionary I edition, Coie A.P. Oxford University press, 1994.
5. Axundov A. Ümumi dilçilik. Maarif, Bakı, 1988, səh. 20-28.
6. Musayev O. Azərbaycanca-ingiliscə lüğət. B

Rəyçi: Rəfiq Cəfərov
Filologiya elmlərinamizədi,dosent.

AYTƏN HÜSEYNOVA
H.Əliyev ad.AAHM
aytən.@.mail.ru.

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MƏTNDAXİLİ CÜMLƏLƏR ARASINDA ƏVƏZLİYİN ROLU VƏ ƏHƏMİYYƏTİ

Açar sözlər: *mətn, əvəzlik, əlaqə, məlumat*
Key words: *text, pronom, connection, information*
Ключевые слова: *текст, местоимение, связь, информация*

Mətn yaradan dilçilik faktorlarından biri də mətndaxili əlaqə vasitələridir. Bu vasitələr hər bir dildə çoxsaylı olduğu kimi, dünya dillərində də həm çoxsaylı, həm də çoxcəhətlidir.

Müstəqil cümlələrin özləri cümlədaxili əlaqələrinə malik olduğu kimi, mətni təşkil edən cümlələr arasında da müxtəlif əlaqə vasitələri mövcud olur. Bu əlaqə vasitələri hər bir dilin konkret qrammatik quruluşundan asılıdır.

Tipoloji cəhətdən flektiv dillər qrupuna daxil olan ingilis dilinin də özünəməxsus mətnyaradan vasitələri vardır.

Azərbaycan dilində mətnə daxil olan cümlələr arasında əlaqə yaratmaq üçün bir sıra başqa vasitələrdən də istifadə edilir. Bu vasitələr arasında əsas nitq hissələri mühüm yer tutur.

İngilis dilində əvəzliklərin mətnlərin yaranmasında rolunu aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Əvəzlik semantik kateqoriyanı təmsil edir və o, sözlər arasında deyil, cümlələr arasında əlaqələri şərtləndirir;
2. Əvəzlik məlum olanı bildirir;
3. Əvəzlik həm anaforik (əvvəlki cümləyə bağlılıq), həm də kataforik (sonrakı cümləyə bağlılıq) funksiyalarını yerinə yetirir;
4. Əvəzlik yalnız statik (donuq) deyil, həmçinin dinamik (dəyişkən) funksiyanı da yerinə yetirir.

Qeyd olunduğu kimi əvəzliklər müəyyən olanı bildirir, çünki o artıq müəyyən olanı əvəz edir. Buna görə də, dinləyənin (oxucunun) işarə edilən predmet haqqında artıq müəyyən məlumatı var.

Məsələn: *The gong sounded, and putting her white arm within his, Irene took him into the dining-room. She seated him in Soame´ s usual place, round the comer on her left*.

Normal şəraitdə birinci və ikinci şəxs əvəzlikləri (I, You), yalnız proqmatik nöqteyi-nəzərindən işlədilir, qayıdış əvəzlikləri isə yalnız anaforik funksiyanı yerinə yetirir. Üçüncü şəxs əvəzliklərini (he, she, it), həm proqratik, həm də anaforik şəkildə işlətmək mümkündür.

Məsələn: *He ran across the soft Moorish carpets, and opened the door. No! Shen was not here either. Having reached the door he turned the key, and opened it*.

Əvəzliklərin yığcamlığı istən ingilis, istərsə də Azərbaycan mətnlərində onların tez-tez işlənməsini şərtlən dirir. Doğrudan da hər dəfə əvəzliklər təkrarlanldıqca onların

göstərdikləri hadisə, proses irəliləyir, inkişaf edir. Bu da onu göstərir ki, əvəzlik mətn daxilində əlaqəyaradıcı funksiyanı yerinə yetirir.

Belə bir cəhəti də yaddan çıxartmaq olmaz ki, mətnin məzmun cəhəti ilə əvəzliyin mətndaxili fəaliyyəti arasında qırılmaz «zəncir» olur. yəni onlar bir-biri ilə sıx əlaqədə olurlar. Belə ki, mətninməzmunu onun semantikasını müəyyənləşdirirsə, əvəzlik işarə etmə forması hesab olunur ki, bu da semantik bütövlüyü ifadə edir.

İngilis dilində əvəzlyin mətndaxili fəaliyyətini şərtləndirən müxtəlif vasitələr var. Bunlardan «It is … who (that) …» birləşməsidir.

Məsələn: *The girl, she is playing the piano. It is the girl who is playing the piano*.

Digər isə «it» əvəzliyinin ixtisar olunan mübtəda kimi çıxış etməsidir. Yəni «it» əvəzliyinin formal mübtəda vəzifəsini yerinə yetirməsidir. Belə bir misala diqqət yetirək: *The pianter stated in amazement. It was so unlike. Dorian to speak like that. What had happened? He seemed quite angry. His face was flushed and his cheeks burning*.

Bu misalda da «it» əvəzliyi mübtədanı əvəzləyir və mətnin sonrakı cümlələrində mənanın genişlənməsinə xidmət edir. Bundan əvvəlki misallarda da göründüyü kimi, əvəzlik ya özündən sonra, ya da özündən əvvəl ümumiləşmiş şəkildə olsa da, hər hansı bir sözlə, cümlə və yaxud ifadə ilə bağlı olub həmin vahidi izah edir.

Mətndə əvəzliklər vahidi dil vasitəsi kimi öyrənilir. Burada birinci cümlə müstəqil olur, tərkib hissələri isə bir-birinə bağlı olur. Ümumilikdə isə əvəzlik mətnin formalaşmasında böyük rol oynayır. O, mətn daxilində birbaşa özündən əvvəlki, yaxud sonrakı fikrə işarə edir, nəinki sadə hətta mürəkkəb mətnlərin formalaşmasında yaxından iştirak edir. əvəzliyin daxil olduğu cümlələr bir-biri ilə sıx surətdə bağlı olur.

Mətndən kənarda heç bir sərbəst yəni ayrıca cümlə mümkün deyildir, onlar mütləq mətn daxilində yaranır, öz dolğun mənasını kəsb edir. mətndəki cümlələr bəzən də abstrakt yüklü olur, müəyyən bir mətnaltı məna ilə, əlavə informasiya bloku ilə silahlanır, oxunan kimi müəllif söhbətindən başqa, ikinci bir səsi də «eşidirik». Müəllif bu cür əlavə yüklü cümlələri özü nizamlayır, müəyyən bir istiqamətə yönəldir.

Doğrudur, mətnə daxil olan cümlələr arasında əlaqə yaratmaq üçün bir sıra başqa vasitələrdən də istifadə edilir. Bu vasitələr arasında sözsüz ki, əsas nitq hissələri mühüm yer tutur.

Bunu da qeyd etmək lazımdır ki, mətnin qurulmasında əsas nitq hissələrindən bəziləri daha mühüm rol oynayır, lakin mətnin elementləri olan ayrı-ayrı müstəqil cümlələrin sintaktik tam daxilində birləşib əlaqələnməsində onlar yeganə vasitə ola bilmir. Bunun üçün müxtəlif morfoloji göstəricilərdən, o cümlədən bir sıra nitq hissələrindən, həmçinin sintaktik elementlərdən istifadə etmək lazımdır.

Morfoloji vasitələr mətnin hüdudlarının müəyyən olunmasında əhəmiyyətli rol oynayır. Bu cəhətləri nəzərdə tutan Ə.Xəlilov yazır ki, sintaktik bütövə daxil olan cümlələr ya bu vahidin daxilindəki morfoloji elementlərin, və yaxud da sintaktik vahidlərin (söz birləşməsinin, cümlənin) mənasının, orada ifadə olunmuş fikrin tam açılmasına xidmət edir.

Ona görə də sintaktik bütövün sərhədləri həmin vəzifəni ödəmək üçün mətnin lazım olan hissəsinin haradan başlayıb harada qurtarması ilə müəyyənləşir. Müvafiq mətnlərin düzəldilməsində isə əvəzliklər ən mühüm rol oynayır.

Əlaqəli mətn müxtəlif elementlərlə hağlanmış zənciri xatırladır. Əlaqəli mətn təkcə sözlərin cümlə daxilində, birləşməsi ilə məhdudlaşmır, ayrı-ayrı cümlə qrupları da

öz aralarında müxtəlif vasitələrlə əlaqələnir və bir-biri ilə müəyyən münasibətlərdə olur. Biz artıq qeyd etmişik ki, mətni təşkil edən, onu formalaşdıran cümlələr arasında zaman, məkan, səbəb-nəticə, müqayisə, qarşılaşdırma və s. kimi semantik münasibətlər mövcud olur.

Mətnin əsasında həmişə bir bazis cümlə mövcud olur. həmin bazis cümlənin tərkibində konkret mənadan məhrum olan söz və ya ifadə yerləşir. Mətnin bu və ya digər cümləsi konkret mənası olmayan sözü və ya ifadəni müəyyənləşdirir. Bu, ya bazis cümlədən əvvəlki, ya sonrakı, ya da bazis cümlənin hər iki hissəsindəki mətnlərin məzmunu ilə mümkün ola bilir. Müstəqil cümlələr arasındakı əlaqələri öyrənmək üçün lazım olan tələblərə əlaqəli nitqin hansı hissəsi cavab verirsə, mətnin da hüdudları ondan asılı olaraq müəyyən olunur.

Bizə görə, mətnlərin həcmindən asılı olmayaraq, başlanğıc və sonu olmalıdır. Belə mətnlərin tərkibində işlənən əvəzliyin mənası nə vaxt açılarsa, həmin mətn də bitmiş hesab edilir. Yəni mətnin həcmi bazis cümlənin tərkibindəki əvəzlyin mənasının açılmasından asılıdır. Mənası açılmış əvəzliklər, şəxs əvəzliklərindən əlavə, işarə əvəzlikləri də Azərbaycan dilində mətn düzəltmə faktoru kimi fəaliyyət göstərir. Həmin əvəzliklər bunlardır: o, bu, həmin (haman). Aşağıdakı misala diqqət yetirək:

Bu sözlərdən zavallı Gülzarın ciyrələri parçalanır, amma artq bir şey düşünmür; bir şey hiss etmir, köhnə qabıqlı quranı batrına basıb, başqalarının zövqü ilə yeriyirdi.

Buradan da göründüyü kimi, işarə əvəzliklərinin mətnin tərkibində işlənməsi bir tərəfdən vəhdətdə olan avtonom cümlələrin təşkilində, onlar arasında struktur-qrammatik əlaqələrin əmələ gəlməsində, başqa bir tərəfdən isə mənanın aydınlaşmasında, konkretləşməsində aparıcı rol oynayıp.

Dilimizdə mətndaxili cümlələr arasında əlaqə yaradan vasitələrin biri də «budur» işarə əvəzliymdir. Bu işarə əvəzliyinin də mətnin formalaşmasında çox böyük rolu olduğunu qeyd etmək vacibdir. *Budur* işarə əvəzliyi daha çox xəbər budaq cümlələrində işlənir.

Xəbər budaq cümlələrində bu işarə əvəzliyinin məzmunu açıldığı kimi, mətni təşkil edən müstəqil cümlələri də həmin əvəzlik məna cəhətdən bir-birinə bağlayır ki, əvvəlinci cümlədə işlədilən *budur* əvəzliyinin ümumi şəkildə ifadə oluqmuş səbəb mənası sonra gələn sözlər vasitəsilə interpretasiya olunur.

Beləliklə də, dolğun bir mətn yaranır. Məsələn belə elə bir mətnə diqqət yetirək: *Qənirə anasını kiçik oğlunun kiçik toyuna çağrımamışdı, yaddan çıxarmışdı.*

Doğrudur, mətnin qurulmasında əsas nitq hissələrindən bəziləri daha mühüm rol oynayır, lakin mətnin elementləri olan ayrı-ayrı müstəqil cümlələrin sintaktik tam daxilində birləşib əlaqələnməsində onlar yeganə ola bilmir. Bunun üçün müxtəlif morfoloji göstəricilərdən, bir sıra nitq hissələrindən, həmçinin sintaktik elementlərdən istifadə etmək lazımdır.

Bu cəhətdən nəzərə alaraq qeyd etmək lazımdır ki, nitq hissələri, xüsusi ilə də əvəzlik mətndaxili cümlələr arasında əlaqə yaratmaqda mühüm rol oynayır.

Müstəqil cümlələrin özləri cümlədaxili əlaqə vasitələrinə malik olduğu kimi, mətni təşkil edən cümlələr arasında da müxtəlif əlaqə vasitəlri mövcud olur. Bu əlaqə vasitələri hər bir dilin konkret qrammatik quruluşundan asılıdır.

Mətn yaradan vasitələr bizim auditoriyamıza sistemli şəkildə çatdırılması da unutmamalıyıq ki, bu sahədə görkəmli tədqiqatçılarımızın, məsələn, Ə.Xəlilovun, K.Abdullayevin, Ə.Abdullayevin və başqalarının dəyərli tədqiqat əsərləri mövcuddur

Hər hansı rabitəli nitqdə, yazılı əsərlərin dilində cümlələr bir-birindən təcrid olunmuş şəkildə deyil, yaxın məna əlaqəsində fəaliyyət göstərirlər. Mətndəki cümlələr istər mənaca, istərsə də quruluşca, və yaxud da qrammatik cəhətdən bir-biri ilə qırılmaz surətdə bağlı olur. Əlaqəli nitq müxtəlif vasitələrlə bağlanmış zənciri xatırladır.

Bu zəncir biri digərindən asılı fikirlərin vəhdətidir. Odur ki, cümlədə fikirin bitkinliyi nisbi mənadə qəbul edilməlidir. Fikri daha əhatəli və bitkin vermək üçün bir-biri ilə həm qurulşca, həm də mənaca bağlı olan cümlələr qrupundan istifadə edilir.

Hər iki dildə əvəzliliyin işlənməsi mətndaxili cümlələr arasında əlaqə yaratmaqda çox mühüm rol oynayır. Mətn mənanın açılması prosesində formalaşır. Məna açımı işarə əvəzliyinin mətndə təkrarlanması ilə də baş verir. Mətn daxilində işarə əvəzliyi daha çox təkrar olunur. Həm də elə mətnlər var ki, burada əvəzlik aid olduğu sözlə birlikdə işlənir. Məsələn:

O bilirdi ki, bütün millətlər arasında zavallı vətəndaşları ən geri qalmış bir xalqdır. O, bilirdi ki, vətənində zəhmətkeş xalq, onun biliyinə, iki ildə aldığı təcrübələrə, onun qüvvətinə və çalışqanlığına möhtacdır. Bütün qüvvətini, biliyini bu zavallı xalıq yolunda işlətmək arzusu onu həmişə vətəninə doğru sürükləyirdi.

Bu misalda göründüyü kimi, «o, onun» əvəzliyi cümlədə təkrarlanaraq mətnin mənasını daha da rəngarəng edir. bu növ mətnlərə ingilis dilində də tez-tez rast gəlinir. Məsələn:

When he came out of the king´ s room, he saw his wife. «I have done it», he said. Did you hear anything? Did you speak? I thought I heard a voice. Machkth has murdered sleep it said.

He will never sleep again.

Burada da Azərbaycan dilində olduğu kmi, *o* və *onun* əvəzliyi təkrarlanaraq mətnin mənasını daha da dolğunlaşdırır, onu daha da qabarıq şəkildə oxucuya təqdim edir.

Mətnin qurulmsında qrammatik vasitələr də böyük rol oynayır. Bu qrammatik morfoloji göstəricilər ilə oxucu və dinləyicinin nəzəri müəyyən sözə, və ya bütövlükdə hər hansı bir ifadəyə cəlb olunur.

Mətndüzəltmədə formal-qrammatik vasitələrin rolunu nəzərə alaraq demək olar ki, indi mətn dilçiliyinin əsas problemi leksik, morfoloji və sintaktik münasibətlər vasitəsi ilə fəaliyyət göstərən və onları idarə edən mətndüzəldən faktorların axtarılmasıdır.

Mətndüzəltmədə formal-qrammatik faktorlar cümlənin tərkibində əlaqə yaratmaqla çıxış edir. Həmin vasitələrdən müxtəlif sistemli dillərin müvafiq mətnlərinin düzəldilməsində müvəffəqiyyətlə istifadə edilir.

Yuxarıda qeyd etdiyimiz kimi, mətn düzəldən formal-qrammatik elementlərdən ən mütəhərriki əvəzliklərdir. Əvəzliklər mətnin tərkibindəki söz və cümlələri bir-birinə bağlayaraq bütöv sintaktik tama çevrilə bilir. Söz və söz birləşmələri eləcə də cümlələr arasında işlədilən əvəzliklərin demək olar ki, hamısı mətnin yaranmasında, onun formalaşmasında iştirak edir. Bunlardan ən fəalı və ən lazımlısı bizim fikrimizcə, «o» və digər şəxs əvəzlikləridir.

Bu əvəzliklər həmçinin böyük mətnlərin də bir-birinə bağlanmasında ən çevik elementlərdəndir. Fikrimizcə bu əvəzliklər sadə, sürəkkəb cümlələr, cümlənin həmcins üzvləri, tabesiz mürəkkəb cümlənin tərkib hissələri arasında, ikinci, üçüncü növ təyini söz birləşməsinin həmcins tərəfləri arasında, feli sifət və feli bağlama tərkiblərinin daxilindəki həmcins üzvlər arasında əlaqə yaradır, komponentlər arasında məna münasibətləri ilə müvafiq işlənərək mürəkkəb tam, birləşmiş cümlə daxilində sərhəd

rolunu oynayır. «O» əvəzliyi mətnin əvvəlində və ortasında işlənərək nəticənin açılmasında fəallıq göstərir.

Beləliklə, tədqiqat göstərir ki, mətn başlanğıc və sonludur, bağlama daxilində bütöbvləşir. Bağlılıq mətni yaradır, onun məzmununu ortaya çıxarır. Bu bağlılıq çox zaman isə əvəzliklərlə həyata keçirilir. Həmin bağlılığın itirilməsi isə mətni dağıdır, məhv edir.

ƏDƏBİYYAT

1. K.Abdullayev: «Azərbaycan dili sintaksisinin problemləri», B. 1998.
2. Ə.Abdullayev: «Aktual üzvlənmə və mətn». Xəzər Universiteti nəşr. B., 1998.
3. B.Bayramov. Seçilmiş əsərləri, I cild, B., 1968.
4. Ə.Xəlilov: «Əvəzliklərin müstəqil cümlələr arasında əlaqə yaratmaqda rolu». Azərb. SSR EA-nın xəbərləri. 1961 NI.
5. C.Cabbarlı. Əsərləri, III cild. B., 1969.
6. O.Whilde. M., 1958, The picture of Dorian Gray.
7. O.Whilde. 1979, Fairy tales.
8. J.Golsworthy. Bookl, M., 1974. The Forsite Saga.
9. William Shakespeare Level 4, Three great plays of Shakespeare.

А.ГУСЕЙНОВА

РОЛЬ И ЗНАЧЕНИЕ МЕСТОИМЕНИЯ ВО ВНУТРИ ТЕКСТА В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

В статье затронуты актуальные вопросы связанные с местоимениями в лингвистике.

Местоимением называется часть речи, которая употребляется вместо имени существительного и прилагательного. Автор показал что, местоимения играют большую роль меж предложениями и также они связывают эти предложения и словосочетания в тексте.В статье также рассматриваетсяграмматическая категория местоимении в Английском языке и его сравнение с Азербайджанском языкам,а также анализируется некоторые ее виды,таких как личные, демонстративные, и др.виды м

A.KUSSEYNOVA

ROLE AND IMPORTANCE OF PRONOUNS ENTRETEXT IN SENTENCE IN ENGLIND AND AZERBAIJANY

SUMMARY

In the article the auther speaks about different connections that create the texğ. The writer shows that the pronouns play a great role among the sentsnces of different texts, they are used to connect words and clauses.

The auther shows coordinating pronouns, ispesially personad prnouns which connect the same parts of speech and also indenpendent clauses.

The article speaks about the grammatical cathegory of pronoun in English and Azerbaijani its compare its same kinds sush as personal,demonstrative,interrogative et c.

Rəyçi: Nuriyyə Rzayeva
filologiya üzrə fəlsəfə doktoru,dosent.

RUHİYYƏ ƏHMƏDOVA
ADİU
ruhiyyə.@.mail.ru.

SOVET DÖVRÜNDƏ NƏŞR OLUNAN ENSİKLOPEDİK LÜĞƏTLƏRDƏ İNGİLİS VƏ BAŞQA AVROPA DİLLƏRİNƏ MƏXSUS SÖZ VƏ TERMİNLƏRİN İFADƏ ÜSULLARI

Açar sözlər: *sovet dövru,ensiklopedik lüğətlər,termin,qrammatika.*
Ключевые слова: *советская время,энциклопедические словари,термин.*
Key words: *soviet times,ensiklopedic dictionnary,termin,qrammary.*

Məlum olduğu kimi, Azərbaycan dilinin izahlı lüğəti kitabları 4 cilddən ibarət olub, akademik M.A.Dadaşzadənin rəhbərliyi ilə 1969-cu ildə başa çatmışdır.Geniş oxucu kütləsi üçün tərtib edilmiş bu ilk filoloji lüğət, Sovet hakimiyyəti illərində respublikamızda iqtisadiyyatın, həm də keyfiyyətcə dilimizin lüğət tərkibində meydana çıxmış yeni mənalar, məfhumlar və məna incəliklərini izahlı anlamını açıb göstərmişdir.”Azərbaycan dilinin izahlı lüğəti” kitabı müasir ədəbi dilimizin bütün leksikasını əks etdirməyi nəzərdə tutmuşdur.Lüğətdə əks olunan ana dili sözləri ilə yanaşı Şərq mənşəli ərəb və fars sözləri, həmçinin Qərb mənşəli ingilis alman, fransız və s. mənşəli sözlər də daxil edilmişdir.Lüğətdə əcnəbi sözlərin mənşəsinin verilməsi xüsusi çətinlik törədən məsələlərdən biridir. Çünki, məlum olduğu kimi, əcnəbi sözlərin çoxu müxtəlif dillərdə olduğu kimi yazılmır və işlənmir.Lüğətdə həmçinin əks olunan ingilis dili mənşəli sözlər də dilimizin lüğət tərkibinə keçərək onun fonetik və qrammatik qanunlarına uyğunlaşaraq işlənmişlər.İngilis dilinə məxsus sözlər idman, ailə-məişət, hərbi sənaye və bir çox sahələrdə işlənməklə yanaşı, elm və texnika sahəsində də onlardan geniş şəkildə istifadə edilmişdir.Lakin bununla yanaşı Azərbaycan dilinin izahlı lüğətlərində əks olunan ingilis dili mənşəli sözləri tədqiq edərkən aşağıdakı prinsipləri nəzərə almaq lazımdır:

1) İngilis dilinə məxsus söz və terminləri düzgün və səlist ifadə etmək,
2) Onların məna və məna incəliklərinin açıb göstərmək,
3) Hər hansı bir ingilis dilinə məxsus söz və terminlərin işləndiyi sahənin hüdüd və çərçivəsini müəyyən etmək,
4) İngilis dilinə məxsus söz və terminlərin ana dilinin fonetik və qrammatik dəyişikliyə uğramasını açıb göstərmək və s.
5) Azərbaycan dilinin izahlı lüğəti müəyyən dərəcədə normativ bir lüğət olduğundan orada işlənən ingilis dilinə məxsus söz və terminlərin heç də hamısını əhatə etmir.Azərbaycan dilinin izahlı lüğətində əks olunan, özünəməxsus yer tutan ingilis dili mənşəli sözləri öz işlənmə məqamlarına görə aşağıdakı qruplara bölmək olar:

a)Azərbaycan dilinin izahlı lüğətində əks olunan ingilis dili mənşəli sözlərin əksəriyyəti terminoloji xarakter daşıyır.Termin qəti surətdə müəyyənləşmiş mənaya malik olan sözdür.İngilis dilinə məxsus sözlərin Azərbaycan dilinin izahlı lüğətinə daxil olunması üçün əsas şərt onlara olan tələbat və onların az-çox geniş yayılmasıdır.Azərbaycan dilinin izahlı lüğətində tibb, biologiya, ailə-məişət, texnika,

iqtisadiyyat, hərbi sənaye və s. sahələrə aid yüzlərlə alınma sözlər vardır ki, bunların da müəyyən bir hissəsi ingilis dilinə məxsusdur.

b)Azərbaycan dilinin izahlı lüğətində əks olunan ingilis dili mənşəli sözlərin daha bir işlənmə sahəsi onların ümumtəhsil məktəbləri üçün tərtib edilmiş dərslik və dərs vəsaitlərində, həmçinin elmi-kütləvi ədəbiyyat, mətbuat səhifələrində və s. sahələrdə işlənməsidir.

Quruluşca növləri:İngilis dili mənşəli sözlər Azərbaycan dilinin izahlı lüğətində struktur quruluş baxımından aşağıdakı növlərə ayrılır:

1.Sadə tərkibli ingilis dili mənşəli sözlər:

Məsələn; avral,lift,boks,futbol,kompyuter,rinq,akr,bunker,allo,vaqon,vağzal və s.

2.Ana dilinə mənsub şəkilçilərlə işlənən düzəltmə tipli ingilis dili mənşəli sözlər,

Məsələn; boksçu,liftçi,vaterpolçu,futbolçu və s.

3.İngilis və başqa Avropa dillərinə məxsus iki sözün birləşərək mürəkkəb tərkibli sözlər.Məsələn; vaqon-restoran,qaz-holder,kinofilm,qazlift və s.

FONETİK ARAŞDIRMA:

Azərbaycan dilinin izahlı lüğətində ingilis dili mənşəli sözləri yazılış və fonetik tərkibinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Yazılmış və fonetik tərkibini dilimizdə saxlayanlar:Məsələn; lift-lift,film-film və s.
2. Yazılışına görə fərqli, lakin fonetik tərkibcə dilimizə yaxın sözlər. Məs: check-çek və s.

3.Həm yazılış, həm də fonetik xüsusiyyətlərinə görə fərqlənən ingilis mənşəli sözlər. Məsələn: meeting-mitinq və s.

Qeyd etmək lazımdır ki, başqa əcnəbi sözlər kimi, ingilis dili mənşəli sözlər də dilimizə rus dili vasitəsilə keçmişdir və onun fonetik, qrammatik qanunları əsasında formalaşmış və onlar Azərbaycan dilinin 4 cildlik izahlı lüğətində rus dili variantında olduğu kimi işlənmişlər.Azərbaycan dilinin izahlı lüğətində rus dilindən və rus dili vasitəsilə ingilis dilindən alınan sözlərin əksi orijinala maksimum dərəcədə yaxın yazılır.Amma, hər halda ingilis sözlərinin Azərbaycan dilindəki trələffüzü rus dilində olduğundan müəyyən dərəcədə fərqlənir.Azərbaycan dilinin izahlı lüğətində işlənən ingilis dili mənşəli sözləri Azərbaycan dilinin fonetik sisteminə tabe olması qanunauyğun və obyektiv prosesdir.Bu terminlərin, yəni ingilis dili mənşəli sözlərin fonetik cəhətdən dilimizdə dəyişilməsi dil sistemləri arasındakı fərqlərdən irəli gəlir.

A.A.Reformatski bu barədə yazır:” Biz ana dili və öyrəndiymiz əcnəbi dilin ayrıca bir səsini deyil, sistemdə götürülmüş tam fonetik kateqoriyaları müqayisə etdikdə, hər bir fonetik sistemin özünəməxsusluğuna inanırıq.Bu hər bir dilin özünəməxsus təkrarsızlığı, hər bir dilin əsas xüsusiyyətidir.”

ORFOQRAFİK TƏHLİL:

Azərbaycan dilinin izahlı lüğətində ingilis dili mənşəli sözlərdən bəhs etdikdə orfoqrafik təhlil aparılması zəruri və məqsədə müvafiq hesab edirik.

Orfoqrafiya- yazılı nitq formasıdır.Orfoqrafik təhlil Azərbaycan dilinin yazı normalarına görə qanunlaşdırılmış müxtəlif təzahürləri, onların yazılmışının tənzimləməsidir.

Əlbəttə, bütün bunlar müəyyən prinsiplər əsasında müəyyənləşir və dilimizin daxili inkişaf qanunlarına əsasən uzlaşır.İngilis dili sözlərinin orfoqrafik mənimsənilməsinin əsas içtimai mahiyyəti dil daşıyıcılarından yazılı anlaşmasını təmin etməkdir.Bunun əsasında Azərbaycan dilinin orfoqrafiya qaydaları durur.Həmin qaydaların özəyini isə fonetik, morfoloji və tarixi ənənəvi prinsiplər təşkil edir.Bə"zən orfoqrafiyanın əməli qaydalarına ciddi riayət olunmadıqda eyni tipli ingilis sözlərinin yazılışında müxtəlifliyə yol verilir.

Məs:, Azərbaycan dilində" d "samiti "r" samiti iyanaşıişlənir. Məs: dörd, dərd, mərd, yurd və s.

Burada " d" samiti karlaşsa da tam " t " samiti tələffüzündə düşmür.Bu qayda ingilis dili mənşəli sözlərə şamil edildikdə bə"zən yazılış normasında vahidlik prinsipi pozulur.

Məsələn, standard – standart, crossvord – krasvord, start- start.

Rus dili vasitəsilə ingilis dilində alınmış bu sözlərdə qoşa samitli sözlərin yazılışı ingilis və Azərbaycan dillərində müxtəlif olurlar.Məs: cottedj-koteç;crassvord-krasvord,voleyballe-voleybal,effect-efekt,differential-diferensyal və s.

QRAMMATİK TƏHLİL :

Azərbaycan dilinin izahlı lüğətində əks olunan ingilis dili mənşəli sözlərin qrammatik təhlili dilçilik və lüğətçilik baxımından maraqlı bir məqam olub, əcnəbi sözlərin ana dilimizin qrammatik qaydalarına uyğunlaşmasını, onunla həmahəng işlənməsini nəzər diqqətimizi cəlb edir.Qrammatik mənimsəmə dedikdə ingilis sözlərinin dilimizin morfoloji kateqoriyalarına uyğunlaşmasını nəzərdə tutur.Ana dilinin qrammatik ölçülərini nəzərə almadan qəbul edilmiş əcnəbi sözlər formasız, biçimsiz leksik parça kimi qəbul edilir.Azərbaycan dilinin izahlı lüğətlərində əks olunan ingilis dili mənşəli sözlərin aşağıdakı seçilmiş sözlərdə ana dilimizin qrammatik qanunlarına uyğunlaşaraq işlənməsinə nəzər salaq:

a)-çı, çi, çu, çü-şəkilçiləri ilə: liftçi, voleybolçu, traktorçu, rekordçu, kombaynçı, buldozerçi

b)layıcı, ləyici-şəkilçiləri ilə,ştamp-ştamplayıcı ,asphalt-asfaltlayıcı,şrift-şriftləyici,press-presləyici

v) lamə, ləmə-şəkilçiləri ilə:şirf-şirfləmə,pres-presləmə,mina-minalama

q) ləşdirmə-şəkilçisi ilə:modern-modernləşdirmə,kredit-kreditləşdirmə

SEMANTİK ARAŞDIRMA:

Azərbaycan dilinin izahlı lüğətlərində əks olunan ingilis dili mənşəli sözlərin semantic təhlili xüsusi maraq kəsb edir.

Qeyd etdiyimiz kimi, əcnəbi sözlərin ana dilimizdə mənimsənilməsi iki xüsusi əlamət daşıyır:

1) Formal əlamət
2) Funksional əlamət

Formal mənimsəmə -əcnəbi sözün fonetik,qrafik və morfoloji xarakterini alan dilin müvafiq normalarına maksimum yaxınlaşma xəttinə deyilir.

Funksional mənimsəmə-əcnəbi sözlərin leksik-semantik dəyişməsi işlədilməsinin müxtəlif aspektlərini əhatə edir.Dilimizdə işlənən ingilis sözləri semantik sistemə daxil olur,müstəqil dəqiq mə"nalar qazanır.İngilis mənşəli sözlərin dilimizdə işlənərkən ilk

növbədə mə”na seçimi faktı əsas götürülür.Əcnəbi sözlər dilimizin leksik semantik sisteminin tələblərinə müvafiq olaraq dəyişikliyə uğrayır.

Dilimizdə semantik strukturunu genişləndirən ingilis mənşəli << sonq >> sözü də Azərbaycan musiqi terminologiyasında << komik operalar, musiqi nömrələrində oxunan satirik mahnılar>> mə”nasında deyil, hal-hazırda tamamilə fərqli mə”nalarda işlənməyə başlayır: 1) caz elementləri ilə sosial-tənqidi məzmunlu mahnıların xüsusi növü; 2) Ən dəbdə olan və populyar mahnıların cazla muşaiyət olunması.

Başqa bir ingilis mənşəli menager-menecer sözü 2 mə”na daşıyır: 1) Təsərrüfatda, idarəetmədə işləyən mütəxəsis; 2) peşəkar idmanda idmançıların məşq və yarışını təşkil edən şəxs. “ Menecer” sözünü Azərbaycan dilinin izahında rus dilindən gəlmə əlavə mənaları təkrar olunur:

1) Şirkətlərin, bankların, maliyyə idarələrinin, onların struktur bölmələrinin rəhbər heyəti;

2) Emissiyaların və borc istiqrazların kapital bazarında yerləşdirilməsini həyata keçirən rəhbər qrupun iştirakçıları.

İngilis dili mənşəli “blok” termini Azərbaycan dilinin izahlı lüğətində (1 cild, səh.210) Azərbaycan dilinin həm siyasi və həm də texniki lüğətlərində çoxmənalı söz kimi işlənir:

1) Blok- ağır şeyləri qaldırmaq üçün sadə maşın, mexanizm və onun fırlanan dişdən (çarxdan) ibarət olan hissəsi;

2) Blok- sözü bir sıra element və hissələrdən ibarət olan qurğunun hissələri.Məsələn: qapı blokları və s.

3) Blok- beton kütlədən ibarət iri kərpiclər şəklində tikinti.

4) Blok- böyük bir binada mənzillər qrupu.

5) Blok- siyasi məfhum- Atlantik bloku.

Beləliklə,yuxarıda deyilənlərdən aydın olur ki, Azərbaycan dilinin izahlı lüğətində əks olunan ingilis dili mənşəli sözlərin öyrənilməsi xüsusi maraq doğurur və onların elmi – tədqiqat obyektinə çevrilməsi Azərbaycan dilçiliyində əsas mövzulardan biridir. İngilis dili mənşəli sözlər əsasən Azərbaycanda Sovet hakimiyyəti illərində dilimizin lüğət tərkibinə daxil olmuş, onun təkmilləşməsinə və zənginləşməsinə xidmət etmişdir. İctimai – siyasi şəraitdən asılı olaraq demək olar ki, bütün ingilis dili sözlərin Azərbaycan dilinin lüğət tərkibinə rus dili vasitəsilə daxil olmuş və bu səbəbdən də izahlı lüğətlərimizdə işlənən ingilis sözləri rus dilinin fonetik və qrammatik qanunlarına uyğun olaraq işlənmişlər.Məqalədə qeyd olunan ingilis dili mənşəli sözlər dilimizdə struktur quruluş etibarilə - sadə, düzəltmə və mürəkkəb olmaqla 3 qrupa aid olması canlı misallarla izah edilmişdir. Leksik – semantik araşdırma bir neçə ingilis dili mənşəli sözlə sübuta yetirilmişdir və orfoqrafik, fonetik, qrammatik analiz mə”ruzənin ana xəttinin təşkil edir.

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin izahlı lüğətləri. 1, 2, 3, 4 cildlər.(1969 – 1987 – ci illər).
2. Nadir Məmmədli: Alınma terminlər - 1997. “ Elm” nəşriyyatı.
3. Aslanov A.Ə. “ Azərbaycan ədəbi dilinin lüğət tərkibində başlıca dəyişikliklər”. 1954. Azər. Respubl.EA.
4. Qarayev A.A. “ Azərbaycan dilində Avropa dillərindən alınma sözlər “. Bakı. 1990.
5. Qasımov M.Ş. “ Azərbaycan dilinin terminologiyasının əsasları “. Bакı.1963.

Р.АХМЕДОВА

ЗАМЕСТВОВАННЫХ СЛОВ АНГЛИЙСКОГО ПРОИСХОЖДЕНИЯ В АЗЕРБАЙДЖАНСКИХ ЭНЦИКЛОПЕДИЧЕСКИХ СЛОВАРЕЙ

В статье рассматриваются в азербайджаних словарей замествованных слов английского происхождения, методы их перевода на азербайджанский язык, а также рассматриваются использование в терминологический словарей.В Этой же статье также рассматривается аккоьодасия-фонетическое влияние гласных звуков на согласных или наобарот,а также фонетическое явление элизия-выпадания звуков на английском языке.

В статье также анализируется некоторые основные приципы заимствования в лингвистике и трансфер английских слов в другие Западно-Европейских языков.

R.AKHMTDOVA

UZAGE AND INVESTIGATION THE TRANSLATION WORDS ENDILSHS ENSIKLOPEDIC DICTIONNARY

SUMMARY

The article ingestigates the translation styles of English origin words and terms of the Azerbaiyan lauguage at the use of member compasite and wouycomposent terms at the Azerbaijani terminological dietiouuairies. The article deals with phonetic influence of the vowels to the consonants- accomodation or contrary also the dropping of the sound in English-elision.The article deals with the borrowings and semantical devlopement of the words enriching the ensiclopedic variant of the English landuage.

Rəyçi: **Adilə Zeynalova**
filologiya üzrə fəlsəfə doktoru,dosent.

ÜLVİYYƏ DADAŞOVA
ADİU
ülviyyə.@.mail.ru.

TERMİN YARADICILIĞINDA LEKSİK VƏ MORFOLOJİ ÜSULLARDAN İSTİFADƏ EDİLMƏSİ

Açar sözlər: *lüğət tərkibi, söz yaradıcılığı, terminlərin yaranma mənbələri morfoloji və sintaktik üsullar, alınma sözlər, termin yaradıcılığı, terminlərin yaranma üsulları, dilin lüğət fondu, terminin tərkib hissələri, sistemlilik xüsusiyyəti.*
Ключевые слова: *состав словаря; словообразование; происхождение созданных терминов; морфологические и синтаксические способы; заимствованные слова; создание терминов; способы создания терминов4 словарный состав языка; компоненты термина; особенность систематичности.*
Key words: *composition of dictionary; word creative work; arise sources of the terms; morphological and syntactical methods; borrowing; term creative work; the methods of the origin terms; word stock of the language; composition parts of the term; the feature of systematic character.*

Terminlər dilin lüğət tərkibinin əsas hissələrindən biridir. Dilin müxtəlif sahələrində gedən dəyişmələr daha çox terminoloji sistemdə hiss olunur. Termin kimi işlənən ümumişlək sözlərin böyük bir qismi dilin qədim dövrlərində yaranmışdır. Bu cəhət həm ingilis, həm də Azərbaycan dilləri üçün eynidir.

Azərbaycan istərsə də, ingilis dilində termin yaradıcılığı semantik, morfoloji, sintaktik, kalka, sözlərin ixtisarı (abrevaiaturlar) üsulları ilə gedir. Semantik üsulla yaranan terminləri – dilin lüğət tərkibinin zənginləşməsi dildə işlənən sözlərin mənasında baş verən dəyişmələrlə bağlıdır. Sözün mənaca dəyişməsinin iki növü fərqləndirilir:

1) sözün mənaca tamamilə dəyişməsi;
2) mövcud sözün əsas mənası qalması ilə yeni məna qazanması.

Hər bir leksik vahid bu və ya digər mənanın ifadəsinə xidmət edir, hər bir söz adlandırma funksiyasını yerinə yetirir. Semantik üsulla söz yaradıcılığı dildə kəmiyyət dəyişmələri deyil, keyfiyyət dəyişmələri hesabına gerçəkləşir.

Dil vahidləri – sözlər səs cildlərini saxlamaqla müxtəlif mənalar ifadə edir və beləliklə, dilin lüğət tərkibini zənginləşdirir. Bu proses müasir dilin terminoloji qatında özünü daha çox göstərir.

Semantik yolla yeni terminin yaranması müxtəlif dillərin sadə terminologiyalarında geniş yayılmışdır. Anlayışların yaxınlığı əsasında və əlamətin oxşarlığına görə adın köçürülməsinə çox rast gəlinir.

Predmet və hadisələr arasındakı məkan, material, məlumat, hərəkət, hərəkətin nəticəsi kimi əlaqələr vardır. Bu əlaqələr yeni anlayışın ümumişlək sözün köməyi ilə adlandırılmasında əhəmiyyətli rol oynayır.

Semantik üsulla yaranan yeni termin, təbii ki, yeni anlayışı ifadə edir, onu adlandırır. «Yəni meydana çıxmış yeni anlayış, əşya arasında müəyyən assosiativ əlaqə yaratmaqla sözlərin mənası genişlənir, onlar terminoloji mahiyyət kəsb edilər.

Deməli, semantik üsulda anlayış yalnız mövcud sözlərlə ifadə edilir, terminin, sözün məna yükü artır».

Semantik üsulla termin yaradıcılığından bəhs edərəknə nəzəri əsərlərdə ümumişlək sözlərin yeni məna kəsb edərək terminləşməsində iki aparıcı xüsusiyyət göstərilir:

1. ümumişlək sözün semantikası genişlənir və bu söz termin səciyyəsi qazarı; belə termin-sözlər müasir Azərbaycan dilinin terminoloji sistemində müəyyən kəmiyyət göstəricilərinə malik olur və terminologiyada bu proses davam edir;

2. müxtəlif terminoloji sahələrə və ya dar işləklik keyfiyyətinə malik olan termin səciyyəli sözlər başqa sahədə müəyyən anlayışı ifadə etməyə yönəlir və yenibir sahənin terminoloji sisteminə daxil olur.

Real gerçəklikdə əşyalar, predmetlər, obyektlər çoxdur və onlar adlandırılmışdır. Əşya və predmetlər arasında müəyyən əlaqələr vardır. Onlar bir-birinə formaca oxşar ola bildiyi kimi, predmet, məkan, zaman və s. əlaqələrlə də bağlanırlar.

Predmetlərin assosiativ olaraq bir-birinə bənzədilməsi onları eyniləşdirilmir, onların mahiyyətindəki fərqləri aradan qaldırmır. Lakin oxşarlıq, assosiativ bənzətmə müxtəlif olan predmet və obyektlərin eyni sözlərlə adlandırılmasına səbəb ola bilər. Nəticədə ümumişlək söz yeni məna kəsb edir.

Bu hadisə termin yaradıcılığında daşa çox baş verir. Semantik üsul adi söz yaradıcılığından fərqli olaraq termin yaradıcılığında məhsuldarlığı ilə seçilir. Bunun səbəbi dilin lüğət tərkibinə daxil olan ümumişlək sözlərin terminləşməsidir.

Termin yaradıcılığında dilin öz potensial imkanlarından da geniş istifadə olunur. Həm ingilis, həm də Azərbaycan dilində yeni terminin əmələ gəlməsində sözün semantik strukturunda dəyişmələr də mühüm rol oynayır.

Bəzi hallarda sözün semantik konversiya və ya semantik sıxılma baş verir. «termin yaradıcılığı sistemi çox mürəkkəb orqanizmdir. Bu orqanizm elmi dilin yaranıb inkişaf etdiy dövrdə cilalanaraq formalaşmışdır. Formal komponentlərlə (termindüzəltmə vasitələri) yanaşı, bura törədici əsasın semantik strukturu ilə sıx bağlı olan mənam elementləri daxildir».

Semantik üsulla termin yaradıcılığı terminoloji sistemin inkişafının müxtəlif mərhələlərində özünü fərqli şəkildə göstərir. Ümumişlək sözlərin semantikasında baş verən dəyişmələr əsasında onların, yəni ümumişlək sözlərin terminə çevrilməsinin ən məhsuldar dövrü yeni terminoloji sistemin yaranma dövrünə təsadüf edir.

Belə ki, «terminlər mövcud sözlər əsasında yaradılır və sözlər yeni məna qazanır. İngilis və Azərbaycan dili terminologiyası *coin-sikkə, client-müştəri, benefit-fayda, bonus-mükafat, balance-qalıq, allotment-bölgü, alloüance-güzəşt, accumulation-yığım, account-hesab, aboundance-bolluq, category-dərəcə, crash-iflas, corvee-biyar, crisis-böhran, damage-zərər, ziyan, work-iş, debt-borc, deduction-ayırma, demand-tələb, base-baza, farm-ferma, fashion-moda, fee-qonarar, hire-muzd, kind-növ, label-yarlıq, labour-əmək, list-siyahı, loss-zərər, market-bazar, means-vəsait, master-usta, misey-dilənçilik* və s.».

Eləcə də:"Menecment" (manage) ingilis sözü olub hərfi idarəetmə deməkdir. İngilis dilinin iqtisadi terminologiyasına daxil olmuş bu söz «idarəetmə» elminin nailiyyətlərinin istifadə edilməsi ilə istehsalatın və istehsal personalının idarəetmə prinsiplərinin, formalarının, üsullarının və vasitələrinin məcmusunu ifadə edir.

Ümumişlək söz kimi «idarəetmə» mənasında işlənir.

Kapital. Bu söz ingilis dilinə latın dilindən (capitalis) keçmişdir. Mənası «əsas» deməkdir. Hazırda iqtisadi terminologiyada – mürəkkəb iqtisadi kateqoriya kimi pul,

torpaq, maddiləşmiş əmək mənalarını ifadə edir. Hamı tərəfindən başa düşülən kapital sözü ümumişlək söz kimi yığım məqsədi ilə toplanmış pul kimi də başa düşülür.

Firma (ital. firma) – müəssisənin, şirkətin, təsərrüfat cəmiyyətinin, kommersiya təşkilatınıün ən ümumiləşdirilmiş adıdır.

Firmanın aşağıdakı tipləri fərqləndirilir: affiləşdirilmiş – filial, törəmə firma şəklində daha iri, əsas şirkətə birləşdirilmiş yaxın, qohum firmalar; broker-kommersiya məqsədlərini güdən və müştərinin tapşırığı ilə və onun hesabına hərəkət edən vasitəçi firmak; vençur – elmi-tədqiqat və mühəndis işlərini maliyyələşdirən kiçik, yaxud orta investisiya firması; investisiya – investisiya və qabiliyyətli kağızlarla əməliyyatlarla aparmaqla məşğul olan firma; engineer – mühəndis-məsləhət xidmətlərinin göstərilməsində ixtisaslaşmış firma; innovasiya – elmi-tdəqiqat işləninin nəticələri bazasında yeni texnologiyaların işlənmsi üçün şəriki olduğu firma tərəfindən yaradılan firma; konsaltinq – fəaliyyət dairəsi müxtəlif sferalarda məsləhətlərdir; istehsalat – konkret məhsulun istehsalı ilə məşğul olan firma; ticarət – ticarət vasitəsi fəaliyyətlə məşğul olan firma; rieltor – daşınmaz əmlak sahəsində əməliyyatlarla məşğul olan firma.

Azərbaycan və ingilis dillərinin lüğət tərkibində, onun terminoloji sistemində köklü dəyişmələr olmuşdur. Terminlər dilin lüğət tərkibinin əsas hissələrindən biridir. Araşdırma və tədqiqatlar göstərir ki, dilin müxtəlif sahələrində müşahidə olunan dəyişmələr daha çox terminoloji sistemdə hiss olunur.

İngilis dilində sözdüzəltmədə üç əsas vasitədən istifadə olunur: köklər, ön şəkilçilər və suffikslər. Azərbaycan dilindən fərqli olaraq burada köklərin morfoloji üsulla sözdüzəltmədə iştirak etməsi bir qədər qəribə səslənir və morfoloji üsulla söz yaradıcılığının ənənəvi şərhindən kənara çıxır.

Belə ki, ingilis dilində müəyyən sayda kök vardır ki, onlar dilin lüğət fondunun tərkibinə daxil olan öütün sözlərin böyük bir hissəsinin yaranmasında iştirak edir. İngilis dilində sözdüzəltmə prosesində fəal olan əsas köklər çoxdur. Məs.: agr, ad, agr, alte, anima, anthro, aqua, ann, carn və s.

Belə köklərin əvvəlinə ön şəkilçisi, sonuna suffiks artırılması ilə yeni sözlər düzəlir. Qeyd olunan köklər termin yaradıcılığında də fəaldır. Semantik üsulla termin yaradıcılığı terminoloji sistemin inkişafının müxtəlif mərhələlərində özünü fərqli şəkildə göstərir. Ümumişlək sözlərin semantikasında baş verən dəyişmələr əsasında onların, yəni ümumişlək sözlərin terminə çevrilməsinin ən məhsuldar dövrü yeni terminoloji sistemin yaranması dövrünə təsadüf edir.

S.Sadıqova yazır: «Azərbaycan dilinin daxili imkanları əsasında bu dilin söz yaradıcılığı üsulları ilə müəyyən anlayışın ifadəsi üçün müvafiq ifadəsi termin yaratmaq mümkün olmadıqda başqa dildən həmin anlayışı ifadə edən termin hazır şəkildə alınıb işlədilir».

Alınma terminlər bütün dillərdə vardır. Belə alınmaların bir qismi mənşəyindən asılı olmayaraq bütün dillərin sahə terminologiyalarında eyni şəkildə işlənir.

Belə terminlər internasional və ya beynəlmiləl terminlər kimi qruplaşdırılır. İngilis dilinin lüğət tərkibi rəngarəngliyi ilə seçilir. Bu dildə müxtəlif dillərdən alınmaları dilin ümumişlək sözləri səviyyəsində də çoxdur. Terminlərdə qeyd olunan cəhət daha yüksək səviyyədədir. Bunun nəticəsidir ki, ingilis dilində birbaşa alınmalara daha çox rast gəlinir.

Beynəlmiləl terminlərin böyük bir qismi heç bir müasir dillə bağlı deyildir, əsasın yunan və latın dillərinə məxsus elementlərin birləşməsindən əmələ gəlmişdir. Hər hansı

bir sözün geniş şəkildə işlədilməsi, bir dildən başqasına keçməsi və nəhayət beynəlmiləl terminə çevrilməsi onun ifadə etdiyi anlayışla, hadisə və proseslə əlaqədardır.

Elmi-texniki nailiyyətlər artdıqca zərurətdən doğan məfhumlar və anlayışları ifadə edən sözlərin beynəlmiləl terminlərə çevrilməsi prosesi də sürətlənir.

İngilis və Azərbaycan dillərinə daxil olan terminlərin sayı getdikcə artır, bu sahənin terminoloji bazası sürətlə zənginləşir. Vaxtıilə dildə ümumişlək xarakter daşyıan yüzlərlə ümmişlək söz terminləşməyə doğru inkişaf etmiş, ən qədim dövrlərdən bəri termin yaratmaq xüsusiyyətlərini qoruyub saxlamışdır.

müasir dövrdə terminologiyada gedən proseslər səciyyələndirən əsas cəhətlərdən biri beynəlmiləl terminlərin sayının sürətlə artmasıdır.

Beləliklə, nəticə etibarı ilə istər ingilis, istərsə də Azərbaycan dillərində termin yaradıcılığı həm dilin daxidi imkanları, həm də alınmalar hesabına yaranır.

ƏDƏBİYYAT

1. Qasımov M. Azərbaycan dili terminologiyasının əsasları. Bakı, Elm, 1973, 185 s.
2. Qurbanov A.M. müasir Azərbaycan ədəbi dili. Bakı, Maarif, 1985, 406s.
3. Sadıqova S.A. Azərbaycan dili terminologiyasının təşəkkülü və inkişafı. Bakı, Elm, 2005.
4. Hüseynzadə J.A. İqtisadiyyat terminlərinin linqvistik təhlili (Azərbaycan və ingilis dili materialları əsasında). Bakı, 2011, 27 s.
5. Sadıqova S.A. Azərbaycan dili terminologiyası. Bakı, Elm, 2011.

У.ДАДАШОВА

МЕТОДЫ СОЗДАНИЯ ТЕРМИНОВ И В АЗЕРБАЙДЖАНСКОМ И АНГЛИЙСКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

Автор стать рассказывает о развивающихся и обогащающихся языковых средствах общения. И в азербайджанском и в английском языках, значительная часть общеупотребительных слов создана древности.

Как отмечает автор, термины, считающиеся словарной составляющей основных частей языка, во время своего развития, подвергались определенным изменениям.

Это ещё больше чувствуется в системе терминологии.

И в азербайджанском и в английском языках, создание терминов осуществляется при помощи семантических, морфологических, синтаксических способов, кальки и т.д.

В статье говорится также и об увеличении количества терминов, входящих в состав английского и азербайджанского языков и комментируются исследования интенсивного обогащения терминологической базы языка.

В заключении, автор статьи приходит к выводу, что в английском и азербайджанском языках термины создаются за счёт внутренних возможностей языка и в том числе заимствования.

U.DADASHOVA

THE COLLABORATOR OF THE ACADEMY OF MES METHODS OF TERM CREATION AN AZERBAIJANI AND ENGLISH

SUMMARY

The autor of this article deals with the means of communication which is developing and prospering today. The majority of words that are generally used as terms in both Azerbaijani and English were formed in the ancient times of language.

According to the author, terms that are considered as the main parts of language were on the turn due to development. And it was reflected mostly in the terminological system.

Term creativity in Azerbaijani and English is formed by semantic, morphological, syntactical, loan translation and so on.

The increase in the number of terms that are included Azerbaijani and English and the enrichment of the terminological base are mentioned and are interpreted. Consequently, the author has come to a conclusion that the creativity of terms in both Azerbaijani.

Rəyçi: Adilə Zeynalova
filologiya üzrə fəlsəfə doktoru,dosent.

SAFURA İBRAHİMOVA
ADIU
safura.@.mail,ru.

İNGİLİS DİLİNDƏ BƏZİ QRAMATİK MATERİALLARIN TƏDRİSİ METODİKASI

Açar sözlər: *ingilis dili, qrammatik materiallar, metodika, analitik dillər, felin zamanları.*
Ключевые слова: *английский язык, грамматические материалы, методика, аналитические языки, время глагола.*
Key words: *english, grammatical materials,methods,analytical language, verbs times.*

Müasir ingilis dili analtik dillər qurupuna daxildir. Bu isə o deməkdir ki, müasir ingilis dilində söz birləşməsində və cümlədə süzlər arasındakı qrammatik-sintaktik əlaqələr köməkçi sözlər və cümlədə sözlərin sırası ilə ifadə olunur. Müasir ingilis dilində vəziyyət həqiqətən də belədir: bu dildə sözlər arasındakı sintaktik əlaqələr başlıca olaraq, köməkçi sözlərlə- sözönüləri, köməkçi fellər, artikıl və söz sırası vasitəsilə ifadə edilir.

Müasir ingilis dilində felə xas olan zaman formalarının əksəriyyəti köməkçi fellər vasitəsilə düzəldilir.: indiki və keçmiş zamanların davam formaları to be köməkçi feli, indiki və keçmiş zamanların bitmiş formaları to have köməkçi feli, gələcək zamanın qeyri müəyyən forması shall/vill köməkçi felləri , gələləcək zamanın davam forması shall/vill və to be köməkçi felləri, indiki və keçmiş zamanların davam edib bitmiş formaları to have və to be köməkçi felləri, gələcək zamanın davam edib bitəcək forması isə shall/vill, to have və to be köməkçi fellərin vasitəsilə düzəldilir. Məsələn:

1. I am speaking.-He is going;I hey are evorking;the evas sluping.;they evere reading.

2. I have said :He has gone;they had come. 3. We shall go;they evill stay at home

4. I shall be evhey evill be evatching. 5. we have been working.;they had been sluping.

6. I shall have been evorking.;they will have been working.

Müasir ingilis dilində məchul növ forması, felin vasitəli şəkilləri və felin inkarlıq kateqoriya forması da analtik yolla düzəlir.

Müasir ingilis dilində isimin hal kateqoriyası morfoloji ifadə baxımından çox zəifdir. Sintetik dillərdə , məsələn, Azərbaycan və rus dillərində ismin ismin hal şəkilçilərinin ifadə etdiyi qramatik mənalar, müasir ingilis dilində sözönü adlanan köməkçi nitq hissəsi ilə ifadə edilir. Məsələn:

The struts of baki–Bakının küçələri

I am going to sehool–mən məktəbə gedirəm.

They are at home –onlar evdədirlər.

ingilis dilində isimə xas olan qeyri müəyyənlik və müəyyənlik kateqoriyası da analtik yolla, daha doğrusu artikıl adlanan köməkçi nitq hissəsi ilə ifadə olunur, məsələn: I su a tree. The tree is tall.

Müasir ingilis dilində sözlərin cümlədə və habelə söz birləşməsində sırası da sözlər asrasın da sintaktik əlqələrin ifadəsində ciddi rol oynayır. Bunu aşağdakı misallardan aydın görmək olar:

1. ligth lamp– lamp ligth

Yuxarda verilmiş söz birləşməsi və cümlələrdə mövcud olan sözlər arasındakı sintaktik əlaqələr ancaq sözlərin sırası ilə ifadə edilmişdir.

Müasir ingilis dilində qramatik məlaların bu təzdə ifadə edilməsinə dair daha bir çox misal vermək olar.buradan tamamilə aydın olur ki, müasir ingilis dili quruluşunun ümumi mənzərəsini təşkil edən başlıca cəhət analtizimdir.

XIX başlanğicında məşhur alman diloloqu F.Şlegelin dillərin tipologiyasına dair verdiyi bölgü elm aləminə məlum olduğu ilk illərdən belə bir həqiqətdə məlum olmuşdur ki, bu bölgünün özüdə qüsurludur; heç bir dil saf sitektik və ya analtik ola bilmir; sinitetik dillərdə analtizim ünsürləri , analtik dildə isə sintetik ünsürlər mövcud olur.

Qeyd etmək lazımdır ki, analtik dillərin klassik forması hesab edilən ingilis dilidə bu həqiqətdən kənarda qala bilmir. Müasir ingilis dili analtik dil olmasına baxmayaraq, bu dildə də qramatik mənaların bir qismi sintetik vasitələrlə ifadə edilir. Bunlar aşağadakilardan ibaretdir.

1. ismin kəmiyyet kateqoriyasini ifadə eden–s, -es, -en, sufiksləri : tables, foxes, oxen;

2. indiki zamanın qeyri–müəyyən formasını üçüncü şəxsin təkində işlənən –s, suffiksi: the reads. The goes;

3. canlı əşya bildirən isimlərin tərkibində yiyəlik hal formasını düzəltmək üçün isimlənən s suffiksi : the boy” s name

4. qaydalı fellərin keçmiş zaman qerri müəyyən formasını düzəltmək üçün işlədilən –ed suffiksi: invited, ekored;

5. Bir və bəzi iki hecalı sifət və zərflərin müqaisə və üstünlük dərəcə formasını düzəltmək üçün istifdə edilən –er, -est suffiksləri qadın cinsi formasını düzəltmək üçün işlədilən fıransız mənşəli –ess suffiksi misterss.

Müasir ingilis dilində sözün morfoloji gormasını dəyişmək üçün daha iki üsuldan istifadə olunur.

1.daxili infleksiya

2. supletiv üsul

Doğrudur, bu üsullardan heç biri müasir ingilis dilində geniş miqyasda istifadə olunmur. Onun qrammatik quruluşu üçün protuktiv sözdəyişmə üsulu hesab edilə bilməz; daxili infeleksiya üsulu ilə yalnız bir neçə isimin cəm forması (man-men,, evoman-evomen , foot –fuut), bir qisim qaydası fellərin keçmiş zaman qeyri müəyyən və keçmiş zaman sifət forması düzəldilir. Supletiv yolla isə cəmi bir neçə yolla felin keçmiş zaman qeyri–müəyyən forması və bəzi şəxs əvəzliklərinin obyekt hal forması (I-me, we–us) düzədilir.

Hətta öz formasının düzəldilməsində istifadə edilən bu üsulları da sintetik üsul hesab etsək, yəni demək mümkündür ki, müasir angilis dilinin qrammatik(morfoloji) quruluşunun ümumi mənzərəsini səciyyələndirən başlıca cəhətlərdən biri də onun sintetik nforma baxımından kasıb olmasıdır.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, müasir ingilis dilinə xas olan bu xüsusiyyət yəni, sözdə sintetik formaların xeyli dərəcədə az olması bəzən admda belə

bir təsəvvür yaradir ki, bu dilin qrammatikası çox asndır, lakin qeyd etmək lazımdır ki. Bu. Sadəcə olaraq illuziyadan başqa bir şey hesab edilə bilməz.

Əslidə hər hansı bir dildə, ocümlədən də , müasir ingilis dilində morfoloji–sintetik formaların azlığı dilin qrammatikasının asanlığına deyilir, onun mürəkkəbliyinə, çətinliyinə dəlalət edir. Çünki bu dildə formal sintetik əlamətə malik olmayan qrammatik mənaları yerli– yerində işlətmək daha çətindir. Əslinə qalsa, bizcə, dillərin qrammatik baximdan asan və ya çətin deyə quruplaşdırmaq nə nəzəri nə də praktik cəhətdən inandırıcı ola bilməz.

Qeyd etmək lazımdır ki, ingilis dili morfoloji–sintetik forma baxımından heçdə həmişə indiki kimi kasıb olmamışdır. Qədim ingilis dili(700–1100–cü illər) zəngin və mürəkkəb sintetik formalar sisteminə malik olmuşdur. Bu dovürdə isim qrammatik cins, hal və kəmiyyət kateqoriyalarına malik olmuşdur: isimin üç qrammatik cinsi (kişi, qadın və orta) və dörd halı (adlıq, yiyəlik, təsirlik və yönlük) var idi. Hər bir cins və halı bildirmək üçün qədim ingilis dilində, müasir rus dilində olduğu kimi, isimlə hala, kəmiyyətə və cinsə görə uzlaşırdı. Təbidir ki, bunun üçün dildə müvafiq şəkilçilər olmuşdur. Şəxs və kəmiyyət kateqoriyaları fellərdə xüsusi şəkilçilər vasitəsilə ifadə edilmişdir və s.

Bu da məlumdur ki, dil ictimai bir hadisə olaraq statik vəziyyətdə donmuş qalmır, insan cəmiyyətinin bilavastə məhsulu olan dil cəmiyyətin inkişafı və dəyişməsi ilə paralel olaraq inkişaf edir və dəyişir. Ingilis dili də, ümumiyyətlə dilə xas olan bu qanunauyğunluqlardan kənarda qalmamış, zaman keçdikcə öz daxili inkişaf qanunu əsasında inkişaf etmiş və dəyişmişdir.orta ingilis dili dövründə baş vermiş bir sıra hadisələr, xüxusən the treat vouvelshife adlanan fonetik hadisə nəticəsində ingilis dilinə xas olan bir sıra sintetik formalar –şəkilçilər zəifləməyə başlamış və sonra isə istifadədən çıxmış yox olmuşdur.

Məlumdur ki, qrammatik formanın yox olması, qrammatik mənanın yox olması demək deyildir. Buna görədə sintetik formasını itirmiş qrammatik mənalar hər hansı digər bir vasitə forma ilə ifdə edilməli idi. Forma və məzmun arasında olan dialekt vəhtət bunu tələb edir.

Buna müvafiq olaraq orta ingilis dövründə sintetik formasını itirmiş qrammatik mənaların ifadəsi üçün yəni, qrammatik formalar, həm də, əvvəlki formalardan keyfiyyətcəfərqli formalar – analtik formalar əmələ gətirmişdir ki,müasir ingilis dilinin qrammatik morfoloji quruluşunun ümumi mənzərəsini əsaslı şəkildə dəyişmişdir.qədim ingilis dili dövründə əsasən sintetik dil olan ingilis dili, orta dövrə əsasən analtik dilə çevrilmişdir.

Sözün analtik forması nədir?

Sözün analtik forması onun elə bir şəklidir ki, o, distant vəziyyətdə işlənən iki və daha artıq komponentdən ibarət olur. Bunlardan biri tərkibin nominativ mənasını, qalanı yaxud qalanları hamin tərkibə xas olan qrammatik mənaları ifadə edir., məsələn:

Am/is/are reading
Have/has read
Shall/will read
Shall/will have been reading
Have/has been envited və s.

Bu tərkibin hamısı müasir ingilis dilində işləməkdə olan analtik formalarıdır. Burada birinci komponentlər tərkiblərin qrammatik mənalarını, komponentlər isə onların nominattiv mənasını bildirir.

Hər bir dildə o cümlədən müasir ingilis dilində işlədilən sintetik və analtik formalar bir-biri ilə qarşılıqlı əlaqədə olur və dialektik vəhtət təşkil edir. Həmin əlaqə və vəhtət bir tərəfdən bu formaların dildə ki, funksiyası baxmından, digər tərəfdən də onların mınşəyi baxmından nəzərə çarpır.

Qeyd etmək lazımdır ki, konkret dildən asılı olmayaraq sözün morfoloji prosesində bu formalardan hər biri bir mərhələ təşkil edir. lakin onların biri digərinin nəticəsi və ya başlanğıcı olur. Sözün analtik və sintetik formaları mövcud olan qarşılıqlı əlaqə və vəhtətdə bununla şərtləşir. Analtik formalar öz başlanğıcını söz birləşməsindən götürür.

Söz birləşməsinin komponentlərindən biri zaman keçdikcə öz leksik mənasını zəiflədir.və əsasən qramatik məna bildirməyə başlayır. Beləliklədə dildə sözün analtik forması yaranır. Buna parlaq misal olaraq ingilis dilində mövcud olan shall/will+məstər tərkibli analtik formanı göstərmək olar.tarixən bu forma modal fel+məstər tərkibindən ibarət olmuşdur.

Sonralar (orta ingilis dövründə) modal fel öz leksik mənasını itirmiş və gələcək xaman formatına çevrilmişdir. Beləliklə də müasir ingilis dilində işlənməkdə olan shall/will+məstər tərkibli analtik forma yaranmışdır. Maraqlıdır ki, müasir ingilis dilində shall, vvill köməkçi felləri şəkilçiləşmə istiqaməti almışdır; onların hər ikisi ll şəklində işlənir ki, bu da köməkçi felin şəkilçiyə keçməsindən başqa bir şey deyil

Dildə ki, funksiya baxmından analtik və sintetik formalar arasındakı əlaqə qrammatik mənaların makro-sahəsində müşahidə edilir. Yəni eyni bir qrammati kateqriya bir mikro-sahədə sintetik, digərində isə analtik forma ilə ifadə edilir.

Buna misal olaraq müasir ingilis dilində felin zaman kateqoriyalarını göstərmək olar. Felin keçmiş qeyri müəyyən zaman forması sintetik, gələcək zamanın qeyri-müəyyən forması isə analtik vasitə ilə ifadə edilir.

Yuxarıda deyilənlərdən aydın olur ki, ingilis dili öz inkişaf tarixində sintetiklikdən analtikliyə doğru getmişdir. Qarşıya belə bir sual çıxa bilər: bəs müasir dövürdə ingilis dilinin inkişafı hansı istiqamətdə gedir?

Müasir ingilis dilinin faktik materialları əsasında aparılmış müşahidələr göstərir ki, bu dilin morfoloji quruluşu hal-hazırda analtiklikdən sintetikliyə doğru inkişaf etməkdədir. Müasir ingilis dilində bu inkişafı göstərərn əsas amillərdən biri, bəlkədə başlıcası ondan ibarətdir ki, həmin dildə mövcud olan bir sıra köməkçi sözlər şəkilçiləşmə dövrü keçməkdədir.

Məsələn, müasir ingilis dilində mövcud olan və tarixən modal fellərdən əmələ gəlmiş shall, willvə onların keçmiş zaman formaları olanshold, would köməkçiləridir.

Yuxarıdakı misallarda bərəabərliyin sağ tərəfində köməkçi nitq hissələri analtik morfem kimi, müatəqil söz kimi işləndiyi halda, bərabərliyin sağ tərəfində həmin köməkçi sözlər özlərindən əvvəl gələn leksemlə birləşərək şəkilçi kimi işlənmişdir.

Bu halda yəni köməkçi nitq hissələrinin əsas sözlə birləşərək işlənmə məqamında, bizcə nə köməkçi nitq hissəsindən, nə də analtik morfemdən danışmaq mümkündür. Bu halda ancaq köməkçi nitq hissəsinin şəkilçiləşməsindən danışmaq lazım gəlir.

ƏDƏBİYYAT

1. А.Н.Щевалдышев «Методика выработки автоматизированных навыков в процессе обучения устной речи», М. 1982г., изд. «Наука».
2. И.В.Рахманов «Модели и их использование при обучении иностранному языку». Иностранный язык в школе 1965г. №4.
3. А.П.Грызулина «Обучение чтению научно-популярной литературы на английском языке». М, 1986г., изд. Наука.
4. П.М.Каралук «Словообразование английского языка». Москва 1978г., изд. «Просвещение».

С.ИБРАГИМОВА

МЕТОДИКА ПРЕПОДАВАНИЕ НЕКОТОРЫХ РАММАТИЧЕСКИХМАТЕРИАЛОВ НА АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В статье рассматриваются методика обучения грамматического материала английского языка, синтетические и аналитические формы, морфологические структуры языка, внутренняя инфлекция и суперлативный способ преподавания английского языка, а также, сравнительная характеристика азербайджанского и английского языков.

Кроме того,в данной статье анализируется основные методы преподавание английского языка

в Азербайджанских аудиториях,а также рассматривается некоторые принципы обучения иностранного языка на начальных этапах преподования английского языка

S.IBRAGUIMOVA

TEACHING METHOD OF SOME GRAMMATICAL MATERIALS IN ENGLISH

SUMMARY

The article deas with the method of training of grammatical material of English, syntactical and analytical forms of morphological structure of the language, inner inflection and superlative method of teaching of English, also comparative characteristics of the Azerbaijan and English languages.

The article speaks about the grammatical category of pronoun in English and,its compare its same kinds such as personal,demonstrative,interrogative,define and indefini pronoun.

The article speaks about the use of the gerund in English and is equivalent in Azerbaijani also analyses some forms of gerund in simple and complex sentences in varicose situation.

Rəyçi: Elmira Ağahüseynova
filologiya üzrə fəlsəfə doktoru,dosent.

SƏBİNƏ MƏMMƏDOVA
ADİU
səbinə.@.mail.ru.

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FEİLİN GƏLƏCƏK ZAMAN NÖVLƏRİ, FEİLİN ŞƏKİLLƏRİ VƏ FEİLİ XƏBƏRİN SİNTAKTİK-FUNKSİONAL XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *ingilis dili, azərbaycan dili, feil, sintaksis, feili xəbər, funksional xüsusiyyətlər.*
Ключевые слова: *Английский язык, Азербайджанский язык, глаголы, синтаксис, предикат, функциональные свойства.*
Key words: *English,Azerbaijani, verbs, syntaksis, verd predicat, funcsional peculiarity.*

Müasir İngilis və Azərbaycan dilləri istər genesis, istərsə də tipoloji quruluş baxımdan müxtəlif dil qruplarına daxildirlər: İngilis dili Hind – avropa dillərini german qrupuna daxil olub, analitik dil hesab edilir. Azərbaycan dili isə türk dillərinin oğuz qrupuna daxil olub, aqlyutinativ (sintetik) dil adlanır. Bu zəmində də həmin dillər arasında ciddi xarakterik xüsusiyyətlər mövcuddur. İngilis dilinin analitik dillər qrupuna daxil olması, o deməkdir ki, müasir ingilis dilində söz birləşməsində və cümlədə sözlər arasındakı qramatik-sintaktik əlaqələr köməkçi sözlər və cümlədə sözlərin sırası ilə ifadə edilir. Müasir ingilis dilində felə xas olan zaman formalarının əksəriyyəti köməkçi fellər vasitəsilə düzəldilə bilər.

Yuxarıda qeyd etdiyimiz kimi Azərbaycan dilində 2 əsas gələcək zaman forması mövcuddur. Bunlardan birincisi qəti-gələcək zamandır. Qəti-gələcək iş, hal və hərəkətin danışıq vaxtından sonra şübhəsiz yerinə yetiriləcəyini bildirir və aşağıdakı şəxs sonluqlarına qəbul edir.

Təkdə–1.am, -əm, -yam, -yəm, -alacağam 2.– san, -sən, -alacaqsan 3.–dır, -dir, -dur, -dür, -

Cəmdə:1–ıq, -iq, -uq, -üq,-alacağıq; 2.sınız, -sunuz, -sünüz, -alacaqsınız;3.–lar, -lər, -alacaqlar

III şəxsin cəmində zaman şəkilçisinə (acaq, -əcək, -yacaq, -yəcək) lar, -lər cəm şəkilçiləri artırılır.

İngilis dilində isə nə zaman şəkilçisi nə də sonluqları gələcək zaman növlərində işlənmir. Müasir ingilis dilində gələcək zaman fellər vasitəsilə düzəlir: nümunə üçün gələcək zamanın qeyri müəyyən şəxslər formasına açağıdakı ıimi yazmaq olar.

Təkdə:I. J shall- mən işləyəcəm;II. You will work- sən işləyəcəksən;III. He (she) will work- o işləyəcək.Cəmdə: I. We shall work- biz işləyəcəyik; II. You will work- siz işləyəcəksiniz; III. They will work- onlar işləyəcəklər.

Bu nümunələrdən aydın oldu ki, qəti-gələcək zamanda hal və hərəkətin icrasına heç bir şübhə qalmır. Qeyri- qəti gələcək zaman qəti-gələcəkdən formal cəhətdən olduğu kimi, məna etibarı ilə də fərqlənir. Qeyri-qəti gələcəyin özünəməxsus forma və mənasının varlığı onu gələcək zamanın müstəqil növü kimi qeyd etməyə haqq verir. İş, hal və hərəkətin gələcəkdə icra olunacağı nəzərdə tutulur. Lakin qəti gələcəkdə olduğu kimi, icrası nəzərdə tutulan iş, hal və hərəkətin yerinə yetirilib- yetiriləməyəcəyi qəti surətdə təsdiq edilmir.

Qeyri-qəti gələcək –ar, -ər, -yar, -yər şəkilçisinin əlavəsi ilə düzəlir.

Məsələn: alar, gələr, oxuyar, işləyər. Beləki Azərbaycan dilində olan qeyri-qəti gələcək zamanda olan fellərin hamısı hər 3 şəxs üzrə dəyişə bilir və aşağıdakı şəxs şəkilçiləri ilə düzəlir:

Təkdə:1–am, -əm, -yəm, -alaram;2–san, -sən, -alarsan-Cəmdə:1.–ıq, -ik, -alarsan

2–sınız, -siniz, -sunuz, -sünüz, -alarsınız.3–lar, -lər (cəm şəkilçisi qəbul edir) – alarlar

İndi biz ingilis dilində işlənən gələcək zaman formalarını Azərbaycan dilində olan gələcək zaman növləri ilə müqayisə edək:

1) The future İndefinite Tense Form (gələcək zamanın qeyri müəyyən forması) bildiyiniz kimi, gələcək zamanın qeyri-müəyyən forması gələcəkdə baş verəcək, icra ediləcək hərəkətləri bildirmək üçün işlədilir. İşlənən gələcək zamanın qeyri-müəyyən forması konteksdən asılı olaraq Azərbaycan dilinə ya gələcək zamanın qəti, yaxud da qeyri-qəti forması kimi tərcümə edilir.

Məs:tom will write a letter to me 1)tom mənə məktub yazacaq (hökmən)2) tom mənə məktub yazar (güman ki).

Bununla əlaqədar olaraq nəzərə almaq lazımdır ki, müasir Azərbaycan dilinə xas olan gələcək zamanın hər 2 forması (qəti və qeyri-qəti) ingilis dilinə bir zaman forması ilə- The future İndefinite Tense Form (gələcək zamanın qeyri müəyyən forması ilə) tərcümə edilməlidir.

Məsələn: 1) Mən məktub yazacağam2) Mən məktub yazaram. J shal write a letter

2) The future İndefinite in the Past (keçmişə nəzərən gələcək zamanın qeyri-müəyyən forması)

Məsələn: He said that they would come- o dedi ki, onlar gələcəklər (yaxud gələrlər)

1)The futureContinuos Tense Form (Gələcək zamanın davamedici forması). Bu zaman növü də əsasən gələcəkdə dəqiq bir vaxtda baş verəcək, icra ediləcək hərəkətləri üçün işlədilir. Belə hərəkətin baş vermə, icra edilmə vaxtı ya gələcək ya da baş verəcək hərəkətlə, ya da aşağıdakı zərf birləşmələri bildirilir: at two (three, four)o”clook tomorrow at that time tomorrow”

Məsələn: a)J shall working in the garden when you return tomorrow- Sabah siz qayıdanda mən işləyəcəyəm (işləməkdə olacağam)

b)They will be going to the willage at two o” clock tomorrow- Sabah saat 2-də onlar kəndə gedəcəklər (getməkdə olacaqlar)

1.The Future Tense Form (Gələcək zamanın bitmiş forması)-bu zaman növü gələcəkdə müəyyən bir vaxta qədər baş verir, icra edilir qurtaracaq hərəkətləri bildirir. Hərəkətin bitdiyini ya vaxtla, ya da digər baş verəcək hərəkətlə ifadə etmək olar.

Məsələn: J shall have finished my work by that timetomorrow-mən sabah o vaxta öz işimi qurtarmiş olacağam.

Bütün yuxarıda göstərdiyimiz xarakterik xüsusiyyətləri nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, müasir İngilis və Azərbaycan dillərini gələcək zaman formalarını istər məlum növdə istərsə də məchul növdə işlənməsi onun necədüzəldilməsindən asılı olaraq fərqlənir. İngilis dilində gələcək zaman formalarının düzəldilməsində heç bir şəxs şəkilçisi iştirak etmir. Sadəcə olaraq köməkçi fellərin köməyi ilə cümlələrdə iş, hal və hərəkətin məhz gələcək zamana aid mənasını tamamlayır. Bildiyiniz kimi müasir ingilis dilində cümlələrdə söz sırası sabitdir.

Azərbaycan dilində isə əksinə zaman və şəxs şəkilçiləri olmadan gələcək zaman formalarını düzəltmək olmaz. Məhz bu 2 dil arasında gələcək zaman formalarının düzəldilməsi baxımından həm formaya həmdə mənaya görə xarakterik xüsusiyyətləri vardır.

İngilis və Azərbaycan dillərində felin müqayisəli tədqiqi və felin lazım və vacib şəklinin morfoloji əlamətləri.

Bildiyimiz kimi çoxdilli şəraitində dillərin qarşılıqlı öyrənilməsi istər dil faktları, istərsə də ayrı-ayrı dillərin öyrənilməsi, mənimsənilməsi baxımından böyük əhəmiyətə malikdir. Bu nöqteyi nəzərdən də müxtəlif dil ailələrinəhətta müxtəlif tipoloji quruluşlara malik ingilis sintetik və analitik dil qrupları ilə müqayisəli öyrənilməsinin müəyyən tarixi vardır. Toplanan təcrübələr zəminindən ingilis və Azərbaycan dillərini qarşılaşdırılaraq öyrənilməsi müasir dövrdə aktual problemlərimizdəndir. Bu məqaləmizdə ingilis dilində cerund adlanan şəxsiz formasının dilimizdə felin şəxsiz forması olmadığından araşdırmalarımızın elmi və praktiki maraq doğuracağından bədii ədəbiyyatdan xeyli dil faktları toplayaraq müqayisə etməyə başladıq. Bildiyimiz kimi cerund fel əsasına **-ing** şəkilçisi artırmaqla düzəlir. Məsələn: to read-reading, to ask-asking və s.

Cerun ikili xüsusiyyətə malikdir. Yeni cerund həm feli isim, həm də feli sifətdən əmələ gəlir. O .Musayevin yazdıqlarına əsasən deyə bilərik ki, cerund özünə xas olan ismi xassəsini feli isimdən, feli xassəsini də feli sifətdən götürmüşdür.

Beləliklə müasir ingilis dilində cerun həm isim, həm də fel xüsusiyyətinə malik olur. O.Musayevin dediklərinə əsaslanaraq, cerundun cümlədə mübtəda, xəbər, tamamlıq, təyin, zərflik funksiyaların göstərə bilərik. Cerundun həm funksiyalarına cümlə daxilində nəzər yetirək.

1)Mübtəda funksiyasında:Looking for food had lasted for more that two hours.(R.K). Qida axtarmaq 2 saatdan artıq davam etdi.Eating is always good.(R.K). Yemək həmişə yaxşıdır.

An elephant s trumpeting is always nasty especially on a dark night.(R.K). Filin bağırtısı həmişə vahiməlidir. Xüsusilədə qaranlıq gecədə.

Gördüyümüz kimi ingilis dilində mübtəda vəzifəsində olan cerundlarAzərbaycan dilində də mübtəda vəzifəsində çıxış edir. Lakin nümunələrdən aydın olur ki, mübtəda 1-ci və 2-ci cümlədə məsdərlə, 3-cü cümlədə isə 3 növ təyini söz birləşmələri ilə ifadə olunmuşdur.

1.Predikativfunksiyada: the thing is getting there in time (C.D).Əsas şey ora vaxtında çatmaqdır.

His idea is finding the Qalibi (A.C).Müasir ingilis dilində mürəkkəb ismi və feli xəbərin sintaktik birləşmələrin funksional xüsusiyyətləri aşağıdakılardır:

Mürəkkəb ismi xəbər mübtədanın halını, keyfiyyətini bildirir, ona görə də ona predicat deyilir.

Mürəkkəb ismi xəbər həmişə iki hissədən ibarə olur:1.bağlayıcı feldən (link verb);

2.predicative hissədən.Predicative hissə düzəltmə xəbərin konkret mənasını, məzmununu ifadə edir. bağlayıcı felin müstəqil mənası olmur, o yalnız kəmiyyət, şəxs, növ, forma, zaman, kateqoriyasını ifadə edir.We are students.We are happy.She is not a student.

İngilis dilində bağlayıcı fel funksiyasında əsas etibarilə köməkçi to be feli işlədilir. Bu feldən əlavə bir sıra digər fellər də bağlayıcı fel funksiyasını daşıyır. Bunlar aşağıdakılardır:

to grow, to turn, to feel, to become, to get, to remain, to keep, to stay, to see.Bu fellər bağlayıcı fel funksiyasında işlənərkən öz mənalarını dəyişir və xəbərin predicativ hissəsi ilə birlikdə müəyyən bir hal və ya vəziyyət ifadə edir.Mürəkkəb ismi xəbər 3 növdə olur.

1. of being (olmaq.)Müəyyən hallarda və yaxud vəziyyətdə olmağı bildirir: bağlayıcı fel funksiyasında əksəriyyətlə to be feli işlənilir, lakin to ful, to smel, to taste, to look felləri də işlənilə bilər.He is quite – O şağirddir.The milk tastes sour – Süd turş dadır.

2. of becoming yeni bir hala, vəziyyətə düşməyi bildirir. Bağlayıcı funksiya¬sında to become, to get, to turn, to grow felləri işlədilir.The turned crimson with anger – O hirsindən qıpqırmızı qızardı.He has grown very old – O çox qocaldı.It is getting dark – Qaranlıqlaşır.

3. of remaining müəyyən halda yaxud vəziyyətdə qalmağı bildirir. Bağlayıcı fel funksiyasında to remain, to sontinue, to stay və s. fellər işlədilir.The weather continues fine – Hava xoş keçir.

Mürəkkəb düzəltmə xəbər modallıq, yəni danışanın münasibətini göstərirsə, bağlayıcı fellər funksiyasında to seen, to appear fellərdən istifadə edilir.You seen tired – Siz yorğun görünürsünüz.

They appeared suppressed – Mənə elə gəldi ki, onlar təəssüblənmişdilər.

PREDICATE;THE PRETICTIVE

Mürəkkəb ismi xəbərin predikativ hissəsi aşağıdakı sözlərlə ifadə oluna bilər:

1.İsimlə: He is a worker.2.Əvəzliklə: Ii is ours.3.Qarşısında sözünü olan isim, yaxud əvəzliklə: My are of one age.4.Sayla: We are seven; I am the first.5.Sifətlə yaxud feli sifətlə: The night was cold; A book is missiny.6.Məsdərlə: Our desire is to help you – Bizim arzumuz sizə kömək etməkdir.

7.Qerundla: Seeing is believing – Görmək inanmaq deməkdir.8.Zərflə: Shi is well; The lesson is over. Predikativ funksiyasında işlənən zərf müstəqil mənasını itirir, hal yaxud vəziyyət göstərir. Məsələn:I feel at home here – Mən özümü burada rahat hiss edirəm.9. Sözbirləşmə ilə başlanır.

The most important thing was our not knowing the address – Ən əsas məsələ bizim ünvanı bilməməyimiz idi.Bəzən mürəkkəb ismi xəbər qoşa xəbər Double adlanan şəkildə olur. Məsələn:

The moon rose red (the moon was red when it rose) – Ay çıxanda qıpqırmızı idi.

She went away quite a child (she was quite a chid when she went away) – O gedəndə lap uşaq idi.

Bu cümlələrdə rose, went sözləri bağlayıcı fel funksiyasını daşıyır və moon, she mübtədalarını red, child predikativlə bağlayır.

MÜRƏKKƏB FELİ XƏBƏR; THE COMPOUND VERBAL PREDICATE

Mürəkkəb feli xəbər 2 feldən ibarət olur: bu fellərdən biri şəxsiz fel, yəni felin dəyişən, o birisi isə felin dəyişməyən formasında olur.

Birinci hissə qrammatika kateqoriyaları, danışanın hərəkətə münasibətini, II hissə isə xəbərin əsas mənasını ifadə edir.We stopped reading – Biz oxumağu kəsdik.;She

began to translate the article – O, məqaləni tərcümə etməyə başladı.They went on writtery – Onlar yazmağa da ram etdilər.

Bəzən mürəkkəb feli xəbərin I hissəsi olan fel məcburiyyət, mümkünat, icazə, məsləhət və ya şübhə ifadə edir. Belə xəbərlər modal mürəkkəb fel xəbər adlanır.

We must be ready at 5 oclock – Biz saat 5-də hazır olmalıyıq.I can translate it by myself – Mən özüm bunu tərcümə edə bilərəm.You ought to be move attentively – Siz daha diqqətli olmalısınız.

You may open the window – Pəncərəni açа bilərsiniz.İngilis dilində there is, there are sözbirləşmələri ilə ifadə olunan xəbər forması da var.There – sözü bu birləşmələrdə öz zəriflik mənasını itirir və köməkçi söz kimi işlənərək cümlədə mübtədanın yerini, yəni I yeri tutur. Bu növ xəbər məntiqi Azərbaycan dilinə tərcümə edilərək cümlə yer zərfliyi ilə başlayır.There is only one book on the table – Masanın üzərində yalnız bir kitab var.

SİNTETİK BİRLƏŞMƏLƏR;SYNTACTICAL COMPLEXES

İngils dilində sintaktik kompleks adlanan komplekslər, yəni bir cümlə üzvü təşkil edən iki və ya daha artıq sözün birləşməsindən ibarətolan birləşmələr mövcuddur. Onlardan ən çox işlənəni mürəkkəb tamamlıq (Complex Object), mürəkkəb mübtəda (Complex Subject), xüsusiləşmiş feli sifətli idarə (Absolute Nominative Participle Constraction) və for sözünün bəzi birləşmələridir (for Complexs). Hər bir sintaktik kompleks adlıq hissədən (ümumi halda və ya obyekt halda əvəzlikdən) və feli hissədən (məsdər, qerund, feli sifətdən) ibarət olur. Bunlar Azərbaycan dilində sadə geniş cümlənin bir üzvü olur, yaxud tam bir budaq cümlə qədər genişlənə bilir ki, bu zaman kompleks adlıq hissəsi mübtəda, feli hissəsi isə xəbər olur.Ən çox yayılmış sintaktik birləşmə mürəkkəb tamamlıqdır.I want you to translate this books – Mən istəyirəm ki, siz bu kitabı tərcümə edəsiniz.We have never seen her sewing – Biz heç vaxt o qızı tikiş tikən görməmişik.To have felindən sonra gələn birləşmə də mürəkkəb tamamlıqlar qrupuna daxildir. Bu mürəkkəb tamamlıq da feli xəbərlə və keçmiş zaman feli sifəti ilə ifadə olunmuş hərəkət şəxsin özü icra etmədiyini, hərəkət şəxsin xahişi və ya əmri ilə başqa bir adam tərəfindən həyata keçirildiyini göstərir.

I had my photo taken – Mən şəklimi çəkdirmişəm (Fotoqraf mənim şəklimi çəkib).He will have his hair cut – O, başını qırxdıracaq (dəllək qırxacaq).

(She will have his) She must have he shoes mended – O, ayaqqabılarını təmir etdirməlidir (pinəçi təmir etməlidir).İngilis dilində for sözünü ilə işlənən mürəkkəb mübtəda, mürəkkəb təyin və ya mürəkkəb məqsəd zərfliyi birləşmələrinə də təsadüf etmək mümkündür.

For a young girl to live all alone was very hard – (mürəkkəb mübtəda) Cavan qız üçün yalqız yaşamaq çətin idi.This is an easy for you io fulfill – Bu sizin yerinə yetirə biləcəyiniz ən asan plandır.İngilis dilində sintaktik birləşmələr sırasına xüsusiləşmiş feli sifət adlanan ibarə də daxildir.

Belə quruluşda feli sifət predikativ vəzifəsi daşıyır. Özünün əsas mübtədadan fərqlənən mübtədası olduğu üçün bir növ xəbər rolunu oynayır. Bu quruluş genişlənib səbəb, zaman və ya şərt zərflik bucaq cümlələrinə çevirə bilər.Work having been the workers went home – İş bitdiyinə görə işçilər evə getdilər.Belə cümlələr Azərbaycan dilinə həmişə müvafiq zərflik budaq cümləsi ilə tərcümə edilir.Weather permitting we shall strat to morrow – Hava imkan versə sabah yolu düşəcəyik.

ƏDƏBİYYAT

1. Azərbaycan və ingilis dillərində sadə cümlənin struktur tipləri. Tədqiqlər. AMEA. Bakı, Elm nəşr. 2004.
2. Azərbaycan və ingilis dillərində sadə cümlənin funksional xüsusiyyətləri. AzTU, Elmi əsərlər, №3, Bakı-2007.
3. Sintaktik birləşmələrdə ingilis dili mənşəli sözlərin Azərbaycan dilinin izahlı lüğətində işlənməsi. Bakı-1999. «Nurlan» nəşr.
4. Sintaktik üsulla yaranan ingilis dili mənşəli texniki terminlər. EA Folklor İnstitutu. «Elmi axtarışlar». Bakı-Səda-2006.

С.МАМЕДОВА

СИНТАКТИЧЕСКИ- ФУНКЦИОНАЛЬНЫЕ ОСОБЕННОСТИ ГЛАГОЛОВ В СОВВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В статье рассматриваются функциональные особенности сложных существительных и глагольных предикативов в синтаксических соединениях в современном английском языке, а также анализируются семантико-функциональная роль сложных в простых предложениях.

В статье также рассматривается некоторые виды глаголов,их расположения в простых и сложных предложениях и употребления в родном и иностранном языке.

S.MAMEDOVA

VERBE WITH FUNCTIONAL PECULIARITY OF COMPROUND NOUN AND VERBAL IN ENGLIS AND AZERBAIJANI

SUMMARY

The article deals with functional peculiarities of compound nouns and verbal predicatives in the syntactical wits in she contemporary English language, also semantical-functional role of compound words in the simple

The articlesays about studying aspects of paremiological units.By the levelof verbalstructure are opposed not only to classicx sentences?but also verbs expressions.

Verbs sentence expression are subject to the analysise both from a semantic point of view and from position.

Rəyçi: Həbib Mirzəyev
filologiya üzrə fəlsəfə doktoru,dosent.

GÜNEL ƏLİYEVA
ADPU xarici dillər kafedrası

BƏDİİ MƏTNİN ONOMASTİK MƏNZƏRƏSİ HAQQINDA

Açar sözlər: *Bədii mətn,onomastika,mənzərə,stilistika,semantika*
Ключевыеслова: *литературный текст, ономастика, взгляд, стилистика, семантика*
Key words: *Literary text,onomastics,view,semantics,stylistics*

Müasir linqvistik tədqiqatlarda bədii mətn və onunla bağlı problemlərə geniş yer verilir. Mətnə bu cür maraq linqvistik tədqiqatların sem paradiqması ilə bağlıdır. Bu və ya digər məsələyə mətn səviyyəsində yanaşma onun minimal linqvistik vahidinin cümlədən böyük olmasını da nəzərdə tutur (5, s.39)

Bədii əsərdə hər bir dil işarəsinin mətnə daxil edilməsi təsadüfi deyildir. Müəllif, özünün həyat təcrübəsi, sosial-mədəni və intellektual-psixi xüsusiyyətləri ilə şərtlənən, onların təsiri ilə real, gerçəklikdən götürülmüş hadisə, xassə, keyfiyyət və s. əsərə daxil edir. O, gerçəkliyin fərdi modelini qurur. Mətni yaradarkən müəllif gerçəkliyin surətini çıxarmır, onun elementlərini seçib təsvir olunanın təşkilediciləri kimi paylayır (1, s.155).

Bu baxımdan, bədii əsərdəki xüsusi adların da müəllif seçimi mətn yaradıcılığının əhəmiyyətli hadisəsidir. "Onomastiklik mətnin əhəmiyyətli parametri, mətn yaradıcılığının zəruri amilidir" (7, s.9). Bədii mətnin onomastik tərkibinin təhlili müəllifin həyat baxışları, əsərin ideya-bədii dəyəri barədə məlumat verir. Hər bir əsərin öz onomastikonu olur. Ora müxtəlif xüsusi adlar daxil olur.

Bədii əsərdə hər bir ad, eləcə də, hər bir söz ətraf kontekstlərlə müxtəlif şəkilli əlaqələrə malikdir. Bədii mətn estetik cəhətdən təşkil edilmiş funksional qapalı sistem olduğundan ad onun tərkibində çoxlu məna, mürəkkəb assosiativ və konnotativ əlaqələr qazanır. Beləliklə, adın fərdi bədii semantikası meydana gəlir. Adlar əsərdə bədii mətnin mümkün aləmini yaradan detallar funksiyasını yerinə yetirir.

Ədəbi əsərin personajının adı kimi fəaliyyət göstərən şəxs adı assosiasiyalarla zənginləşir. Bu assosiasiyalar personajın obrazının koqnitiv fəzasının təşkiledicilərridir. Beləliklə, bədii əsərdə şəxs adı eyniləşdirmə funksiyası ilə yanaşı, bədii-üslubi funksiya da qazanır. Antroponim bədii əsərdə özünün denotativ mənasını və çoxsaylı konnotativ mənalarını alaraq bəzi hallarda ümumi adlara yaxınlaşır. Şəxs adları ilə müəyyən xüsusiyyəti bildirən ümumi ad arasında bərabərlik iki qrup amil əsasında tədricən formalaşır. Birinci qrup amillər personajın addan kənar xüsusiyyətləridir. Bu, personajın fəaliyyəti, onu görkəmi, daxili aləmi və s. haqqında məlumatlardır. İkinci qrup amillər isə adın özündə cəmləşir (2, s.27).

Mətnyaratma funksiyası onomastik vahidin mətnin struktur və məzmun-məna informasiya fəzasının formalaşdırıcı elementi kimi çıxış etməsidir.

V.Nabokovun "Sevastyan Naytın həqiqi həyatı" romanının məzmununun yaxşı başa düşülməsi üçün vacib şərt mətnyaradıcı "şahmat" onomastikasıdır. Əsərin baş qəhrəmanının soyadı Knight şahmatda "at" mənasındadır. Əsərin digər personajlarının adları da şahmatla əlaqələndirilmişdir. "Knight"ın ilk sevgilisi Clare Bishop, ikinci qadın isə Turovets soyadlı xanımdır. "Bishop" ingilis dilində şahmatda "fil"i bildirir. Turovets soyadında isə şahmat topunun rus adı "tura" sözündəndir. Turovets ərə

getdikdən sonra aldığı Leserf familiyası fransız dili ilə bağlıdır. Fransız "le" artiklini atdıqda "serf" qalır. Bu isə, anaqrammatika "ferz" (şahmatda vəzir) sözünə çevrilir (serf=fers/ferz). Sevastiyanın əmisinin adı –N.Stainton da şahmatla izah olunandır. XIX əsrin 40-cı illərində İngiltərədə yaşamış məşhur şahmatçı və şahmat tarixçisi Howard Staunton ilə H.Stainton arasında familiyalarda u=i fərqi nəzərə çarpır. Bundan başqa "Stainton" sözündə də anaqrammatika xüsusiyyət aşkar nəzərə çarpır Stainton=Seitnot.

Ümumiyyətlə, bu əsərdə "şahmat" mövzusu personaj və hadisələri bir yerə toplamağa imkan verir. Sevastyan gəncliyində şerlər yazır və onların altında imza əvəzinə qara şahmat aşının şəklini çəkir. Belə bir atı Pavel Reçnoy oyun zamanı vurub əlinə götürür. Döyülən qapını açarkən bu at Pavelin əlində olur. Qapını döyən hadisələri nəql edən V. adlandırılan şəxsdir. O, St.Damier hospitalında olan qardaşı ilə görüşmək arzusundadır. Lakin əsəri danışan hospitalın adını xatırlamır. Ad təsadüfən onun yadına düşür. Telefon avtomat köşkündə o görür ki, kimsə burada şahmat taxtası çəkmək istəmişdir: ein Schachbrett, un damier… "Bu zaman mənim beynimdə nəsə oyandı və dilimə gəldi: *Cen-Damje*!" "*Some anonymous artist had begun blacking squares-a chess board, ein Schachbrett, un Damier…There was a flash in my brain and the word settled on my tongue: St.Damier!*" (8, s.185).

"Damier" fransız dilində şahmat taxtasıdır. Əsərin baş qəhrəmanının anası Roquebrune şəhərində vəfat edir. Fransız dilində "roquer" qalaqurma (rokirovka) mənasındadır. Əsərdə situativ motivləşmiş daha iki ad vardır. Bunlar "ağ" və "qara" sifətlərinin substantivləşməsindən alınan "Black" və "White" adlarıdır. Bu iki şəxs şahmat oynayır. "White" adlandırılan Pavel Reçnay, "Black" isə onun qohumudur. Pavel ağlarla oynayır. Ona iştirak edir. Başqa bir personaj "Shvarts" familiyalı qocadır. O, qocalar evində balaca yetim uşağa atın necə hərəkət etməsini göstərir. Qocanın familiyası alman dilindən tərcümədə "qara" mənasını verir (8, s.203).

Ümumiyyətlə, V.Nabokovun ingilis dilində qələmə aldığı bu əsər bədii əsərdə antroponimlərin funksionallığını, rolunu, xüsusiyyətlərini öyrənməkdə mühüm rol oynayır. Hər şeydən əvvəl, əsərdə müəllif müxtəlif dillərdən-ingilis, fransız, alman, rus dillərindən irəli gələn semantika və podtekstdən istifadə etmişdir. Qəhrəmanların adları bilavasitə müəyyən bir sahəyə bağlıdır (şahmat onomastikası). Eyni zamanda, başqa onomastik vahidlərdə də bu cəhət qabarıqdır. Əsərdə mətnyaratma vasitəsinin əsas vasitəsi antroponimlər və digər onomastik vahidlərdir. Müəllif bütün şahmat terminlərini onomastik vahidlərə çevirmir. Piyada, şah, mat, pat və s. terminləri onomastikləşməsi müşahidə olunmur. Bununla belə, əsərin başlığında ilk "şahmat" antroponimi Knight daxil edilir və bədii mətnin inkişafı da buradan başlanır. Oyunda qara at vurulur. Onu vuran oyunçu əlində qara at qapını açır. Qara at taxtadan "damıer"dən götürülmüşdür. Qapıdan girən "B"-nin qardaşı da bu anda St.Damier xəstəxanasında vəfat edir. B. içəri girəndə qara atı qapını açanın əlində görür. Lakin o, "St.Damier"də qardaşının ölümündən xəbərsizdir. Təbii ki, şahmat partiyası atın taxtadan götürülməsi ilə bitmir. Ona görə də, əsərin qeyd olunan sonluğu əlavə şərh və yozumlar tələb edir. Nəyə görə qəhrəmanın anası "Roquer" sözü ilə bağlı şəhərdə ölür, niyə "qara at" taxtadan götürülür, niyə soyadının mənası "qara" olan qoca yetim uşağa məhz atın gedişlərini öyrədir. Bütün bu suallar şübhəsiz ki, əsərin dərin təhlili prosesində açıla bilər.

Bədii əsərdəki antroponimlərin mühüm funksiyalarından biri də allüziyadır. Adlar mədəni-tarixi realiyaları, ədəbi faktları yada salır və ya əsərə gətirir. Nəticədə, antroponimlərin mətnyaratma və allüziya funksiyaları bir-biri ilə əlaqələnir. Bədii

əsərdə allüziyadan istifadə olunmasının məqsədi resipientə (oxucuya) informasiya təsirini gerçəkləşdirməkdir. Ədəbi allüziya geniş dairədə məlum olmalıdır. Məhz bu səbəbdəndir ki, bədii allüziyanın obyekti, bir qayda olaraq, klassiklər və klassik qəhrəmanlardır. Adresant (müəllif) allüziya ilə informasiya ötürərkən adresatın məlumatı deşifrovka etməkdə çətinlik çəkməyəcəyini nəzərdə tutur. Bir çox hallarda allüziyadan istifadə edən müəllif adresata mətnin adına çəkir. Lakin bu xüsusiyyət bütün müəlliflərə xas deyildir. Bəzən müəllif oxucusunun ön biliklərinə inanır və ya bu qənaətdə olur ki, onun adresatları söhbətin kimdən getməsini müəyyənləşdirəcəkdir.

V.Nabokovun ingilis dilində yazdığı "The Real life of Sebastian Knight" əsərindəki Sebastian Knight antroponimi özündə bir çox ön bilikləri saxlayır. Həmin biliklərin hamıya aydın olması, təbii ki, doğru deyildir. Lakin əsərin başa düşülməsi üçün bu adla bağlı biliklər mühüm əhəmiyyət daşıyır. Sevastyan adı ruslarda yayılmış antroponim deyildir. Əsərə görə Sevastyanın atası XIX əsrin sonu XX əsrin əvvəllərində yaşamışdır. Belə olan təqdirdə, müəllif antroponimi əsərə daxil etməklə başqa bir mənanı açmaq istəmişdir. "Sebastian Knight" antroponimində bir sıra allüziv elementlər vardır. Qəhrəman dekabrın 31-də doğulmuşdur. Həmin gün xristianlar Sevastyan adlı müqəddəsin doğum tarixini qeyd edir. Əfsanəyə görə, Sebastyan Roma oxucular legionunun kapitanı olmuş, xristianlığı qəbul etmiş və onu təbliğ etmişdir. Bu səbəbdən Roma imperatoru Diokletian 20.01.354 tarixdə onu edam etdirmişdir. Müqəddəs Sevastyanın zühuru V əsrə aiddir və xalqı cüzamdan müdafiə edən kimi təqdim olunur. Əsərin adında "Sevastyanın həqiqi həyatı" ifadəsi oxucunu məhz haqqında bəhs olunan Sevastyanın həyatı barədə məlumata kökləyir.

Müqəddəs Sevastyanın və əsərin qəhrəmanının çəkdiyi əzablar da paralel aparmağa imkan verir. "Kinght" sözünün bir mənası da "cəngavər"dir. Müəllif "knight" sözünün kart oyununda "baet"i bildirir. Müəllif bunu nəzərə alı rvə romanın fabulasında "King, Queen, Knove" sözlərini işlədir. "Knight" və "night" sözləri fonetik omonimlərdir. Bu da qaranlıq", "qara" xəttini əmələ gətirir. "Night" Şekspirlə allüziv əlaqəni ortaya çıxarır: *whight - black, işıq - zülmət* və s.

V.Nabokovun ingilis dilində yazdığı əsərlərdə öz adını personajların adlarında şifrələməsi də məlumdur. Adı çəkilən romanda nəqledən "V" adı ilə verilir. Bu, Vladimir kimi qəbul oluna bilər.

"Kinght" sözünün tələffüzü "N" fonemi ilə başlanır. Buradan "Nabokov" soyadına keçid görünür.

Bədii ədəbiyyatda əlavə informasiya daşıyan adların istifadə olunması xüsusi ədəbi üsuldur. Əsərdə istifadə edilən adların az olmayan bir qismi mədəni realiyalardır. Əsərdəki ad təsvir olunan hadisələrin antroponim mənzərəsi ilə həmişə səsləşir. Hazırda linqvistlər onimlərin bədii əsərdə imtiyazlı bir yer tutduğunu qəbul edirlər. Bu imtiyaz müəllifin həmin adlara əlavə etdiyi assosiativ əlaqələrdən doğur və əsərin semantik qayəsini açmaqda, praqmatik funksiyalar yerinə yetirdikdə mühüm rol oynayır. Bəzi müəlliflərin əsərlərində bu cəhət xüsusi yer tutur. Məşhur ingilis yazıçısı V.Skottun əsərlərinin onomastikonu bədii mətnlərdə antroponimlərin funksiyaları probleminin öyrənilməsində olduqca əhəmiyyətlidir. Müəllifin yaratdığı və ya istifadə etdiyi antroponimlər sisteminin həm ayrılıqda, həm də müxtəlif dövrlərdə, o cümlədən XX əsrdə yazılmış ingilisdilli bədii ədəbiyyatlardakı şəxs adları ilə müqayisəli araşdırmalar üçün vacib faktoloji materialdır. V.Skottun antroponimləri intensional yükü və praqmatik potensialı ilə seçilir. Bu baxımdan onlar antroponimlərin həm müəllif intensiyasını, həm də praqmatik potensialını müəyyənləşdirmək üçün diqqət mərkəzinə

çəkilməlidir.

Qeyd edək ki, V.Nabokovun romanında işlənmiş "knight" antroponimi "cəngavər" mənasında bir sıra müəlliflərin, xüsusən də V.Skottun romanlarında mürəkkəb antroponimin tərkib komponenti kimi çox istifadə edilmişdir. Müəllifin "Ayvənhou" romanında tərkibində "knight" olan aşağıdakı adlar vardır: *Knight Disinheritod* –Əmlakdan məhrum edilmiş cəngavər; *The Black Knight* – Qara cəngavər; *Knight of the Fetterlock* – Asılan Qəsrin cəngavəri, *Blue Knight* – Mavi cəngavər. Bu adlar V.Nabokovun romanındakı adla V.Skottun "knight" tərkibli antroponimləri arasında assosiativ əlaqə yaradır. Təbii ki, belə əlaqə hər şeydən əvvəl, tərkib komponentinin üst-üstə düşməsi ilə üzə çıxır. Real olaraq belə əlaqənin mövcudluğu hər iki əsərdəki surətlərin müəyyən parametrlər üzrə qarşılaşdırılmasını tələb edir.

V.Skott yaradıcılığının təkrarolunmaz onomastik mənzərəsi vardır. Bu əsərlərdə antroponimlər xüsusi yer tutur və məhz V.Skott yaradıcılığı bədii əsərlərin antroponim ehtiyatının təsnifinə əsaslı zəmin yaratmışdır.

Tədqiqatçılar V.Skottun "Ayvənhou" romanında bir, iki və üçüzvlü adları ayırmışlar. "Ayvənhou"da qeydə alınan 354 antroponimdən 216-sı birüzvlü, 121-i ikiüzvlü, 17-si üçüzvlüdür (3, s.3487).

V.Skottun "Ayvənhou" romanında ikiüzvlü antroponim konstruksiyalarının müxtəlif modellərini qurmaq mümkündür. Məsələn, ad+soyad, ad+titul, ad+ləqəb, atribut+ad. Bədii əsərdə antroponimlərin işlənmə xüsusiyyətlərinin V.Skott yaradıcılığında üzə çıxan maraqlı cəhətlərdən biri də eyni şəxsə aid antroponimin variativliyidir. Məsələn, "Ayvənhou" əsərində 354 addan altısında variativlik qeydə alınır. Bu adların bəzilərinin iki, bəzisinin daha artıq variantına rast gəlinir. Variativlik göstəricisi 2 ilə 7 arasında dəyişir. Məsələn,

Cedric the Saxon – Saxon-Cedric Rotervudsky;

Wilfred Ivanhoe – Ivanhoe-Knight Disinherited – wilfred-Desdichado-Disinherited;

Athelstane-Athelstane Komingsburgsky – Athelstane the Unready;

King Richard the Lionheart-Richard the Lionheart-Richard-The King of England-Richard I-Richard Engilish –The Black Knight-Knight of the Fetterlock-Black Night of the Fetterlock-Black couch potato;

Prince john-Prince-Prince of Anjou;

Loxley-Robin Hood-Locksley of sherwood Forest-waldemar Fitz Urs-blue knight.

Variativ adlar antroponimlərin praqmatik əhəmiyyətli nüvəsini təşkil edir. Bəzi adlarda antroponimik variativlik fonetik və ya qrafik səviyyədə özünü göstərir: *Ladu Rowenaledi Robena, Rebecca-Rewecca, Isaac-Isaack Wamba-Bamba* və s.

İngilis bədii ədəbiyyatında işlənən adlar mənşəcə rəngarəngliyə malikdir. Bu məsələyə iki istiqamətdən yanaşmaq olar. Birinci istiqamət ingilis dilinin leksikasının, eləcə də, onomastikonu müxtəlif dillərdən alınmalarla zəngindir. Bəzi millətlərdən fərqli olaraq ingilislər istər leksikada, istərsə də onun mühüm layını təşkil edən onomastik vahidlərdə özləşdirmə və dəyişdirmə siyasəti aparmamışlar. Alınma antoropnimlər, toponimlər saxlanılmış, onlarda fonetik, qrafik və leksik dəyişmələr aparılmamışdır.

İkinci istiqamət ədəbiyyat və bədii əsərin bəhs etdiyi mövzu ilə bağlıdır. Hansı janrda yazılmasından asılı olmayaraq bədii əsərdə müxtəlif xalqların nümayəndələrinin personajı kimi iştirakı mümkündür. Belə hallarda müəllif personaja onun mənsub olduğu millət üçün səciyyəvi adlardan istifadə edir. Tarixi, müxtəlif xalqlar arasındakı müharibələrdən bəhs edən əsərlərdə, həmçinin hadisələrin bir ölkədən digərinə keçməsi

ilə inkişaf edən süjetlərdə fərqli mənşəli antroponimlər kifayət qədər müşahidə olunur.

İngilis ədəbiyyatında yəhudi mənşəli adlarda vardır: *İsaak, İshmael, Rebecca, Kridzhat Jairam, Abraham, Joseph, Nathan Ben Samuel, Lazarus* və s. Bu adlar bədii əsərdə tarixi kolorit vermək məqsədilə də işlədilir. XII əsr İngiltərəsi milli tərkibin qarşılığı ilə seçilmişdir. Müasir Böyük Britaniya da çoxmillətliliyi ilə seçilir.

Yəhudilər Britaniyaya ərəb adları da gətirmişlər. V.Skottun əsərlərində ərəb adlı yəhudi surətləri də vardır (*Abdullah, Mahmoud, Mohammed, Sultan Saladin* və s.). Adonimlər bədii əsərdə resipient üçün əhəmiyyətli informasiya daşıyıcısıdır. Belə adlar müəllif tərəfindən bəzən informasiyanı gizlətmək məqsədilə də əsərə daxil edilir (4, s.4). Bir millətə məxsus adın başqa millətin nümayəndəsinin daşıması da bədii əsərdə əlavə informasiya və koheziya xətləri açır. Bədii mətnlərdə antroponimlərin işlənmə xüsusiyyətləri probleminin maraq doğuran tərəflərindən biri də budur.

Bir sıra hallarda müəllif personajı adlandırmanı motivləşdirir və adı intensional praqmatik potensialla zənginləşdirir. Məsələn, *Loxley-Robin Hood. "-Call me no longer Locksley, my Liege, but know me under the name which, I fear, fame hath, blown too widely not to have reached even your royal ears: I am Robin Hood of Sherwood Forest*" (9, s.464).

XX əsr ingilis ədəbiyyatından bəhs edərkən əsərlərdə istifadə olunmuş ad və ləqəblərin də praqmatik yöndən izahı ilə müqayisə və paralellər aparmaq maraq doğurur. İngilis romanlarında ləqəbin personajın məşğuliyyət növünə, xarici görünüşünə, xarakterinin xüsusi cəhətlərinə, geyiminə, saçına, bədən hərəkətlərinə və s. verilməsi müşahidə olunur. Məsələn, məşğuliyyət: Robin Hood: "King of autlaws, and Prince of good fellows!"-said the King (9, s.465); Richard the Lionheart: "…" görkəm: Athelstane…; qəhrəman xarakter…; qəhrəmanın sosial vəziyyəti və s.

Antroponimlər onları daşıyan şəxslərin tanınma dərəcəsi əsasında da qruplaşdırılır. Tanınma allüziyasının reallaşması oxucunun, adresatın erudisiyası, biliyi qarşısında əlavə tələblər qoyur. Allüziya uğurla gerçəkləşdirildikdə bədii əsərin oxucuya estetik təsiri güclənir. Bu güclənmə intensiv assosiativ təsirlərə əsaslanır, bədii mətni dilxarici reallıqlarla vəhdətə gətirir (6, s.8).

Bədii əsərdə tanınan adlar müəyyən bir sistem təşkil edir. Bəzi adlarda tanınma əlavə komponentlə bağlı bəlirlənirsə, başqa hallarda assosiasiya və kontekst dəqiqləşdirici funksiya ilə məsələyə aydınlıq gətirir: *Henry II, Wilhelm II, Edward III, St.Mary, the Blessed Virgin, St.John, The Lord God, Richard the Lionheart, St.Mark, St.Viol, Napaleon* və s.

Bədii əsərin antroponimikonu ikili motivləşməyə malikdir. Bir tərəfdən, motivləşmə əlaqələri real adlara uyğun gəlir, digər tərəfdən, antroponimik sistem bədii əsərin məzmun kontekstində assosiativ əlaqələrlə süni motivləşdirilmiş sistem əmələ gətirir. Adlar, əsərdə təsvir olunan dövrün müxtəlif aspektli keyfiyyətlərini açır. Əsərin baş qəhrəmanlarının adları praqmatik, kommunikativ, nominativ, idioüslubi, koqnitiv və s. funksiyaları yerinə yetirir.

Deyilənlərdən aydın olur ki, bədii əsərin strukturuna daxil edilmiş şəxs adı bu əsərin yaradılması ilə bilavasitə bağlıdır. Ədəbi onomastikanın öyrənilməsi, hər şeydən əvvəl, bədii əsərin yaxşı dərk olunması üçün vacibdir. Xüsusi adın mətn funksionallığının öz xüsusiyyətləri vardır. Ad və başlıqlar bədii əsərin formasının ayrılmaz elementləri bədii obraz yaradan vasitələridir. Onimlər özlərində mətn yükü, səs cildi daşıyır, assosiativ fona malik olur. Xüsusi adlar üslubi cəhətdən doğru və dəqiq olmalı, bədii əsərin ideya-bədii qayəsinə, məfkurəsinə, məqsədlərinə uyğun gəlməli,

səciyyəvi koloriti, bəzən hansısa xüsusi mənanı, müəllif ideyasını ötürməlidir. Uğurlu seçilmiş ad personajın xarakterinin açılmasının əlavə elementi olub tam əsərdən doğan emosional təsəvvürü gücləndirir.

ƏDƏBİYYAT

1. Бабенко Л.Г. Филологический анализ текста. Основы теории, принципы и аспекты анализа. М., 2004.
2. Бакастова Т.В. Семантизация имени собственного в целом художественном тексте: на материале англ. яз.: Автореф. дис. … канд. филол. наук. Одесса, 1987.
3. Волкова О.А., Серебряков А.А. Коммуникативно-прагматические особенности антропонимического пространства романа В.Скотта "Айвенго" // Philological sciences. Fundamental research. М., 2010, № 10. с. 3486-3490.
4. Зинин С.И. Введение в русскую антропономию. Ташкент, 1972.
5. Колшанский Г.В. Коммуникативная функция и структура языка. М., 1984.
6. Перкас С.В. Парадигматические и синтагматические аспекты лингвистического потенциала топонимов в современном английском языке: Автореф. дисс. … канд. филол. наук. М., 1980.
7. Спрун В.И. Ономастическое поле русского языка и его художественно-эстетический потенциал. Волгоград, 2000.
8. Nabokov V. The Real Life of Sebastian Knight. Из-во Vintage, 1992.
9. Scott W. Ivanhoe. Moscow, 2010.

АЛИЕВА ГЮНЕЛЬ

ОБ ОНОМАСТИЧЕСКОЙ КАРТИНЕ В АНГЛИЙСКИХ ЛИТЕРАТУРНЫХ ТЕКСТАХ

РЕЗЮМЕ

Beləliklə, fəal dərs şagirdin dərs prosesində müstəqil şəkildə öyrənməsinə və keçilən mövzunun dərindən qavramasına, müstəqil düşünməsinə və onların potensial imkanları izlənilməsinə münbit zəmin yaratması qənaətinə gəlməyə imkan yaradır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Ümumtəhsil məktəbləri üçün Azərbaycan dili üzrə təhsil proqramı (Kurikulunu) (I - XI siniflər) Bakı, 2013
2. Əliyeva F., Məmmədova Ü. Müasir təlim texnologiyaları. Bakı: MBM, 2014
3. http://www.kurikulum.az
4. Qəndilov R.T., Tağıyeva S.Ş., Qocayev Ş.Ə. və b. Həyati Bacarıqlara Əsaslanan Təhsil. Bakı: Çaşıoğlu, 2007

5. Ağayev Ş., Sadıqov M., Muxtarova Z.və b. İbtidai siniflərdə fəal təlimin nəzəri və praktik məsələləri Bakı "Nasir" 2007
6. Babayeva Ü., Əhmədova S. Ümumi təhsil pilləsində yeni fənn kurikulumlarının tətbiqi üzrə təlim vəsaiti. Bakı: 2007
7. 2012-ci ildə AR Təhsil Nazirliyinin sifarişi ilə "Təlim prosesində yeni pedaqoji və İKT texnologiyalardan istifadənin elmi əsasları və təlimin keyfiyyətinə onların təsiri" mövzusunda yerinə yetirilmiş tədqiqat işinə dair hesabat. Bakı: 2012

БАХМЕНЛИ З.Ф.

ОТ ТРАДИЦИОННОГО УРОКА К АКТИВНОМУ УРОКУ

РЕЗЮМЕ

В статье рассматриваются методы активного обучения, т.е. совокупность педагогических приёмов, направленных на организацию учебного процесса и создающего условия, мотивирующие обучающихся к самостоятельному, инициативному и творческому освоению учебного материала. Традиционное обучение предполагает предоставление обучаемым готовых решений в качестве образца и задача обучаемого при обучении традиционными методами заключается в основном в том, чтобы выучить заданное и воспроизвести его при оценивании. Активное обучение, представляя взаимосвязанной деятельности педагога и обучаемых, направлено на развитие у обучаемых самостоятельного творческого мышления и способности успешно решать поставленные задачи.

BAHMENLI Z.F.

FROM TRADITIONAL LESSON TO INTERACTIVE LESSON

SUMMARY

The paper is dealing with the methods of interactive learning, i.e. The set of pedagogical devices aimed at organization of teaching process and creation conditions motivating learners to acquire teaching materials independently and creatively. The traditional learning provides learners reading – made decisions as pattern and the task of learners is to learn given material and to answer during assessment. Intractable learning is a mutually – limited. Activity of a teacher and student with the goal to promote learners independent creative thinking and their ability to fulfill given tasks.

Rəyçi: Əlirza Əliyev,
filologiya üzrə fəlsəfə doktoru, dosent

ZƏHRA QƏHRƏMANOVA
ADU
zaxra-adu@mail.ru

XARİCİ DİLİN TƏDRİSİNDƏ DİOLOJİ NİTQİN ÖYRƏDİLMƏSİNƏ DAİR BƏZİ QEYDLƏR

Açar sözlər: *dialoji nitq, şifahi nitq, monoloji nitq.*
Key words: *dialogical speech, oral speesh, monological speech*
Ключевые слова: *диалогический речь, устный речь, монологическая речь.*

Təlim edilən hər bir fənnin məqsədi olduğu kimi, xarici dil tədrisinin də məqsədi vardır.

Gənc nəslin xarici dilləri öyrənməsi xalqlar arasında qarşılıqlı anlaşmanı asanlaşdırır, dostluq, işgüzar və mədəni əlaqələrin genişlənməsinə və möhkəmləndirilməsinə kömək edir. Xarici ədəbiyyatla müstəqil işləmə bacarığına yiyələnmək, elmi-texniki və bədii ədəbiyyatdan istifadə etmək üçün geniş imkanlar açır. Hər bir cəmiyyət xarici dili öz quruluşunun tələbləri fonunda öyrənir.

Xarici dilin tədrisini şərtləndirən əsas amillərdən biri onun kommunikativ məqsədi və bu məqsəddən irəli gələn vəzifələrin həyata keçirilməsidir.

Öyrədilən hər hansı xarici dil ünsiyyət vəzifəsinə xidmət etməlidir.

Dialoji nitq forması ünsiyyət üçün əlverişli formadır və dialoji nitq zamanı tələbə zəngin lüğət ehtiyatına, qrammatik materiala, tələffüz vərdişlərinə malik olur. Dialoqda iştirak edən tələbə deyəcəyi fikri ana dilində fikirləşir və odur ki, dialoqun əsasında duran fikirlərin düşünülməsi və nitq vasitəsilə ifadə olunması arasında müəyyən zaman olur. Bu zaman hər bir ifadə birbaşa müraciət edənə yönəldilir, öz fikrini aydın, səlis, təsirli və emosional ifadə etməsi üçün tələbə ədəbi tələffüz normalarına, ifadəli oxu vərdişlərinə yiyələnməli, zəngin söz ehtiyatına malik olmalı, düzgün cümlə qurmağı bacarmalıdır.

Qeyd edək ki, dialoq sözü mənşəcə yunan dilinə məxsus olub, bir neçə nəfər arasında danışıq mənasını ifadə edir.

Dialoji nitq iki və ya bir neçə şəxsin bilavasitə ünsiyyət prosesidir. Bu, dialoji nitqin kommunikativ funksiyasıdır və onun başlıca funksiyalarından biri kimi qiymətləndirilməlidir. Kommunikativ akt bir qayda olaraq ən azı iki şəxs arasında baş verir. Həmin şəxslər linqvistik və metodik ədəbiyyatda «partnyor», «müsahib», «danışan», «dinləyən», «dialoq iştirakçısı», psixoloji ədəbiyyatda isə daha çox «kommunikator» (informasiya verən) və resipient (informasiyanı qəbul edən) terminləri kimi adlandırılmışdır. Dialoq zamanı onların mövqeyi dəyişə bilər. Onların arasında ümumi informasiya məkanı yaranır.Bu zaman informasiya nəinki verilir, həm də o ünsiyyət prosesində formalaşır, dəqiqləşir, inkişaf edir.

Dialoq verbal ünsiyyətin əsas formasıdır. Bu həm real, həm də auditoriyada təşkil edilən və müəyyən dərəcədə süni xarakter daşıyan və əsasən «tələbə-tələbə», «tələbə-müəllim» səviyyəsində baş verən nitq ünsiyyətinə aid edilə bilər. Onu da qeyd etmək vacibdir ki, ünsiyyət məqsədilə ilk növbədə onun struktur elementlərinə, xüsusilə də monoloji nitqdə mövcud olmayan və dialoji nitqin xüsusiyyətlərini təşkil edən elementlərə yiyələnmək zəruridir. Sözü gedən struktur elementləri sırasına ilk növbədə dialoji nitqin komponentləri olan replikalar

daxildir. Təcrübə və müşahidələr, keçirilən söhbətlər və sorğular onu deməyə əsas verir ki, dil fakültələrində təhsil alan tələbələrə dialoji nitqin öyrədilməsi istiqamətində aparılan iş monoloji nitqin öyrədilməsi prosesində istifadə edilən üsul və metodlar vasitəsilə həyata keçirilir. Burada diqqət əsasən verbal ünsiyyətin əsas vasitəsi olan dialoji nitqə xas olan spesifik struktur elementlərə yiyələnmək deyil, ünsiyyət şəraitinin təşkil edilməsinə yetirilir. Bunun nəticəsi olaraq yuxarı kurs tələbələrinin dialoji nitqi irəli sürülən tələblərə cavab vermir və əksər hallarda ünsiyyəti təmin etmək əvəzinə ona maneələr törədir.

Qeyd edək ki, dialoq iki və daha çox həmsöhbətlər arasında elə bir interaksiya formasıdır ki, bu zaman həmsöhbətlər öz replikaları ilə cavab verir və ya əksinə, qarşı tərəfə reaksiya bildirməyə cəhd edirlər.

Replikaları replika – reaksiya və replika – stimul kimi növlərə ayırmaq olar. Hər iki növ müəyyən semantik yük daşıyır və informasiya ötürülməsi məqsədinə xidmət edir. Replikada obyektin, hadisənin olub-olmaması, varlığı, mahiyyəti, vaxtı haqqında məlumat verilə bilər.

Dialoji nitq bacarıqları dedikdə əsasən aşağıdakılar nəzərdə tutulur.

a) kommunikativ vasitə kimi tələbələrdə motivasiya yarada biləcək maraqlı sualların verilməsi,

b) suallara müvafiq situasiyaya əsaslanan cavabların verilməsi

c) informasiyanın təhrif olunmadan dəqiq verilməsi.

d) alınmış informasiyaya müəyyən münasibət bildirilməsi.

Zənnimizcə dialoji nitqin öyrədilməsi məsələsinin həllinə xüsusi diqqət yetirilməlidir. Burada ciddi, bəzən də radikal xarakterli dəyişikliklərin gətirilməsi prioritet məsələlərdən birini təşkil etməlidir.

İngilis dili fakültələrində dialoji nitqin öyrədilməsi məqsədyönlü, sistemli, mərhələli şəkildə təşkil edilməlidir. (4)

Onu da qeyd etmək vacibdir ki, tədrisin müxtəlif mərhələlərində dialoji nitqin öyrədilməsi müvafiq mərhələnin xüsusiyyətlərini nəzərə almaqla təşkil edilməlidir.

Belə ki, dil fakültələrinin I və II kurslarında söhbət verbal ünsiyyətin əsas forması olan dialoji nitqin öyrədilməsindən, yəni müvafiq vərdiş və bacarıqların formalaşdırılmasından getdiyi halda, yuxarı kurslarda formalaşdırılmış vərdiş və bacarıqların inkişaf etdirilməsi və təkmilləşdirilməsindən danışmaq daha düzgün olardı. Eyni zamanda, dialoji nitqin öyrədilməsinin bütün mərhələlərində bu nitq növünün monoloji nitq növündən fərqli olduğu, ona xas olan xüsusiyyətləri, o cümlədən, həmin spesifikanı təmin edən xüsusi struktur elementlər nəzərə almaq tədrisin səmərəliliyini təmin edən əsas şərtlərdəndir.

Onu da qeyd edək ki, tələbələrin nitq bacarıqlarına nə dərəcədə yiyələnməsi dialoji nitq aktında aydın olur.

– Dialoqlar real, təbii və konkret olmalı, gündəlik ictimai həyatda təsadüf edilən süjetlər əsasında keçirilmiş leksik və qrammatik materiallara əsaslanmalı, məktəb proqramının tələbinə uyğun qurulmalıdır.

– Danışığa başlayan zaman müəllim tələbəyə kömək etməli, onun danışığını düzgün istiqamətləndirməlidir. Bu isə müəllimdən diqqət, gərgin yaradıcı iş rejimi tələb edir.

– Dialoqda iştirak etmək üçün psixoloji cəhətdən eyni və yaxın olan tərəflər seçilməli, onlara düzgün istiqamət verilməlidir. Onların düşüncə tərzi, etdiklərinə qarşı göstərdikləri reaksiya, danışıq templəri, ümumi dil bilikləri eyni olmalıdır.

– Dialoji nitqin yaxşı qavranılması üçün öyrənilən mövzu çərçivəsində ünsiyyət üçün mümkün qədər uyğun gələn stiuasiya seçilməli, mövzunun öyrənilməsi prosesində seçdiyi dialoq nümunələrinin təqdim olunma ardıcıllığı müəyyənləşdirilməli,dialoqda rast gəlinən eyni sözlər və qrammatik konstruksiyalar başa salınmalı, düzgün tələffüz vərdişlərinə riayət olunması diqqət mərkəzində saxlanılmalı, dialoqun məzmununun tam başa düşülməsi təmin olunmalıdır.

– Xarici dil dərslərində dialoqda iştirak edən tələbələr əsl dil daşıyıcıları olmadıqları üçün bu zaman real dil mühiti yaranır. Əgər müəllim dialoqun mövzusunu real həyatdan götürülmüş stiuasiya əsasında qurmaq istəyirsə, o, dili öyrənilən xarici ölkənin reallıqlarına əsaslanan dil materiallarından istifadə etməlidir. Müsahibələrin fəallığı stiuasiyadan, prosesin gedişindən, tələbələrin ümumi dil biliyindən, dialoqun mövzusuna olan maraqdan asılı olmalıdır.

Dərslikdə verilmiş dialoq nümunələrinin dinlənilməsi, üzündən oxunması, əzbərlənməsi tələbələrin müstəqil dialoq qurmaq bacarığını inkişaf etdirmək üçün kifayət etmir, onların tələffüz vərdişlərinin təkmilləşdirilməsinə xidmət edir.

Dərsin başlanğıcında müəllimin tələbə ilə və ya tələbələrin öz aralarında qurduğu söhbət dialoqun ən sadə nümunələrindən biri hesab olunur. Bu dialoqun məzmununu əsasən, həftənin günü, ayın tarixi, dərsdə iştirak etməyən tələbələr haqqında məlumat, ev tapşırığı və s. əhatə edir. Tədrisin ilk mərhələsindən yuxarı mərhələsinə doğru belə sadə dialoqların mövzusu genişlənir və tədricən mürəkkəbləşir. Belə çalışmalar xarici dil mühitinin, yəni təbii ünsiyyət prosesinin yaradılmasına kömək edir.

Çox vaxt sualların cavablandırılması sual tərtib etməkdən daha asan olur. Dialoji nitqin bu psixoloji xüsusiyyəti onunla izah olunur ki, suallarda haqqında danışılan mövzu ilə bağlı dil materialı mövcud olur, bu da cavab verənin işini asanlaşdırır və o, hazır konstruksiyalardan istifadə edərək sualı cavablandırır. Sualların tərtib olunması prosesi zəngin lüğət ehtiyatı, yüksək xarici dil bilikləri, qrammatik və tələffüz vərdişləri, ingilis dilində düşünmə, anlama qabiliyyəti, sərbəst məntiqi və kommunikativ fəallıq tələb edir.

Dialoji nitq üç mərhələdə öyrənilir: a) Dinlənmə (Receptive), b) Reproduktiv (Reproductive), c) Yaradıcı (Creative – Constructive).

Dialoqun öyrənilməsi də özünü üç dildə göstərir:

1) Eşidiklərini təqlid yolu ilə əzbər söyləmək (İmmediate)
2) Öyrənilmiş dialoqu surətlər üzrə demək (Delayed)
3) Müəyyən dəyişiklik etməklə söyləmək (Modification) (4, s. 18)

Danışığın hər iki forması – dialoji və monoloji formaları tədrisin aşağı mərhələsindən başlayaraq paralel olaraq tələbələrin səviyyəsinə və proqram tələbinə uyğun şəkildə öyrədilməlidir.

Dialoji nitqin öyrədilməsi zamanı dialoqun hər bir komponentinin problematik xüsusiyyətləri nəzərə alınmalı, sual vermək bacarığı formalaşdırılmalı və elementar dialoqdan başlayaraq müəyyən ardıcıllıqla, sistemli şəkildə tədricən həyata keçirilməlidir.

Beləliklə, ingilis dilində dialoji nitqin daha məzmunlu, daha düzgün olmasını təmin edən şərtlərdən ən vacibi dialoji nitqin struktur elementlərinin yüksək səviyyədə tələbələr tərəfindən mənimsənilməsi, onların avtomatlaşdırılmasıdır. Bu nitq prosesində dialoji nitqin məzmununa yönəldilməsini təmin edən şərtlərdəndir.

Dialoji nitq vərdişlərinin tələbələrə aşılanması prosesini daha effektiv etmək üçün dilin tədrisi prosesi bütövlükdə, o cümlədən də dialoji nitqin xüsusiyyətlərini təşkil edən spesifik strukturların tələbələrə öyrədilməsi prosesi kommunikativ-funksional prinsip üzərində qurulması tövsiyyə edilir. Belə ki, bu və ya digər kommunikativ funksiyaların müvafiq strukturlarla əlaqələndirilməsi, tələbələrə dialoji nitq vərdişlərinin aşılanması prosesinin daha səmərəli şəkildə təşkil edilməsi və keyfiyyət və kəmiyyət baxımdan daha uğurlu nəticələrin əldə edilməsini təmin edə bilər.

Dialoji nitqi səmərəli şəkildə tədris etmək üçün aşağıdakı təklifləri nəzərə almaq məqsədəuyğundur.

– Zəngin ətraf mühiti təmin etmək məqsədilə tələbələrə danışmaq üçün maksimal imkan yaratmaq.

– Dialoji nitq fəaliyyətinə bütün tələbələri (qrup şəklində) cəlb etmək.

– Müəllimin danışıq vaxtını azaltmaq, tələbələrin danışıq vaxtını artırmaq.

– Öyrənən şəxs üzərində mərkəzləşən, tələbələrdə bir sıra bacarıqları eyni zamanda inkişaf etdirən, ilk növbədə tələbələrin öz aralarında ünsiyyət qurmasına yönəldilən interaktiv tədris üsulunu təmin etmək.

– Dialoji nitq zamanı tələbələrin fikirlərinin mənalı aə məntiqi ardıcıllığını müşahidə etmək və lazım gəldikdə onları daha çox danışmağa təhrik etmək üçün suallardan istifadə etmək.

– Ünsiyyət bacarıqlarının inkişafında dil mühitini yaradan interaktiv çalışmaları tətbiq etmək və tələbələri danışmağa vadar edən hər hansı bir səbəb, ünsiyyət qurmaq ehtiyacı və istəyi aşılamaq.

– Dinləmə üçün nəzərdə tutulmuş şifahi dialoqlardan istifadə etmək və müxtəlif üsulların köməyilə həmin dialoqları təhlil etmək.

Məşğələlər zamanı interaktiv mühitin yaradılması və tələbələrin kommunikasiya prosesinə cəlb edilməsi istiqamətində yuxarıda qeyd edilənlərin rolu əvəzsizdir.

Bu baxımdan tələbələrə tədrisin mərhələsindən asılı olmayaraq kommunikativ vərdişlərin yaradılması ilə nəticələnən dialoji nitqin inkişaf etdirilməsi üçün tapşırıqlar sistemi təklif olunmalı, innovativ üsullarla tədris imkanları yaradılmalıdır. Bunlar isə tələbələrə cəmiyyətdə inteqrasiya edərək onun fəal üzvlərinə çevrilməsinə kömək etmiş olar.

ƏDƏBİYYAT

1. Гусейнзаде Г.Д. Обучение речевой коммуникации на иностранном языке. Баку, 2001
2. Исмаилова Д.А. Методика обучения диалогической речи современного английского языка на начальных курсах вузов. Баку. 2002.
3. Саломатов К.А. Проблема обучения диалогическим единством // Иностранные языки в школе. 1967
4. Littlewood W. Teaching Oral Communication. Oxford. 1992

QAHRAMANOVA ZAHRA

SOME THOUGHTS ON TEACHING DIALOGICAL SPEECH OF FOREIGN LANGUAGES

SUMMARY

The article deals with the problem of teaching dialogical speech to language students. Radical changes Should be brought into the process of teaching dialogical speech. Dialogical speech in the main form of verbal communication. The process of teaching English should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching dialogical speech should be goal-oriented systematic. It will make the process of teaching dialogical speech more effective.

ГАХРАМАНОВА ЗАХРА

НЕКОТОРЫЕ ОТМЕТКИ ПО ОБУЧЕНИЮ ДИАЛОГИЧЕСКОЙ РЕЧИ ИНОСТРАННОГО ЯЗЫКА

РЕЗЮМЕ

В данной статье рассматриваются вопросы обучения диалогической речи. На английском языке в условиях языкового вуза. Здесь говорится о необходимости внесения радикальных изменений в существующую систему обучения диалогической речи на иностранном языке. Процесс английскому языку в целом и процесс обучения диалогической речи должен базироватьвся на коммуникативно – функциональном принципе. Обучением диалогической речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению еффективности данного процесса.

Rəyçi: fil.f.d. Əliyeva Nuriyyə

SEVƏR ORUCOVA
ADİU "Xarici dillər-1" kafedrası
seva_o@ mail.ru

THE PROCESS OF ENGLISH TEACHING AND ITS HISTORY IN UNEC

Açar sözlər: *ünsiyyət vasitəsi - means of communication- средства связи*
dil qabiliyyətləri - language skills- языковые навыки
işgüzar dil - business language – деловой язык
qabaqcadan görmək - to anticipate –предвидеть
bəşəriyyətin mədəni zənginləşdirilməsi - cultural enrichment of humanity - культурное обогащение человечества
dərslik – textbook –учебник
mühüm − crucial −решающий
doğma dil – native language – родной язык

Language is a means of communication between people. It is an ocean of knowledge. Language is primarily verbal because it is part of the grammatical machine in humans that uses sound, phonology, to express ideas and emotions. Produced by the organs of speech, this vocal language helps in the communication of ideas between individuals. In some ways, language is one of the oldest topics in human history, fascinating everyone from ancient philosophers to modern computer programmers. Language is used by millions of people every minute. It is used in two ways:

1) For learning a foreign language. Another important point is how the person's native language functions. The other important point is that the teacher must translate each detail into the pupil's mother tongue and compare the two languages. 2) If pupils make good progress in language skills they become interested in learning the language. They must always hear the language spoken, speak, write and read.

A major source of content in the classroom is the students themselves. They have had experiences of life; they have opinions and ideas of their own. Before teaching a foreign language one must develop pupils' habits and skills in hearing, speaking, reading and writing. For developing them the psychology of habit, skills should be taken into account. Effective learning depends on memory, so teacher must find the most useful ways to make pupils remember materials. The pupils should try to fix the material in their memory through numerous repetitions. Among all ways of teaching the language aims are the most important considerations.

Generally when the teacher starts to explain materials to pupils, she must know what her pupils want to achieve. It is very important to know why they have chosen particularly this aspect (subject) and what abilities they have.

While teaching a foreign language many problems will be met. For choosing methods of foreign language teaching attention should be paid on aims of teaching a foreign language. Each professional has to know all general problems of foreign language teaching. Nowadays foreign languages are taught at schools, nursery-schools and in other educational institutions. And the teacher must know what to teach and how to teach to provide learners with simple and available information. In discussions of language and education, language is usually defined as a shared set of verbal codes,

such as English, Spanish, Mandarin, French, etc. But language can also be defined as a generic, communicative phenomenon, especially in descriptions of instruction. Teachers and students use spoken and written language to communicate with each other–to present tasks, engage in learning processes, present academic content, assess learning, display knowledge and skill, and build classroom life. In addition, much of what students learn is language. They learn to read and write (academic written language), and they learn the discourse of academic disciplines (sometimes called academic languages and literacies). Both definitions of language are important to understanding the relationship between language and education.

English is a West Germanic language that was first spoken in Anglo-Saxon England in the early Middle Ages. Learning another language opens new doors in life. It's true that it's taught as a foreign language, but it is now a global language of business and trades, as many international organizations are making it as a common corporate language. Bilingual individuals have access to new movies, music, literature and other forms of communication. It is now the most widely used language in the world. This foreign language firstly are taught at Azerbaijan schools. From the fifth or at some schools from the first grade the pupils learn the secrets of the English language. It includes different texts, grammar and vocabulary exercises.

As known this international foreign language has being taught at Azerbaijan universities for many years. A bright example of it is UNEC. For about 9 years ago future economists of Azerbaijan could learn Business English for three years at the university.

What is the difference between general and business English? The truth is, there are probably more similarities than differences. They both require the development of core skills in fluency, reading, writing and listening, the application of linguistic principles and, of course, plenty of hard work. It is important to have a good basis of General English to be able to communicate effectively. However, Business English courses focus on particular vocabulary, topics and skills that are applicable to the workplace and enable you to communicate accurately. Here are some examples:

making phone/conference calls
doing presentations
taking part in meetings
being involved in negotiations
writing emails/reports

You will also be able to concentrate on topics that are relevant to your industry or company, which could include law, finance, medicine, IT, Marketing or Human Resources, while simultaneously enhancing your General English skills. By studying Business English the students can improve their overall English language ability while targeting areas that will help them achieve their goals at work. These could be anything from starting on their career path, looking for a promotion, pushing for a pay rise or simply feeling more confident in their role. Whatever your reasons may be, learning Business English can contribute to your professional progress, not to mention being rewarding and enjoyable. In order to meet the demands of modern employers, everyone from university graduates to senior managers must be able use English for work. Effective internal and external communication is essential to the success of any business, but professionals who need to communicate with each other as non-native

English speakers can greatly benefit from learning Business English. It's used in business related issues rather than conversations that are made in general. It is used by the business people and the employees who need to use it in connection with their daily business or job related activities.

English is the dominant business language and it has become almost a necessity for people to speak English if they are to enter a global workforce. Research from all over the world shows that cross-border business communication is most often conducted in English. Its importance in the global market place therefore cannot be understated, learning English really can change our life. There are five tips to get your business English teaching off to a good start:

1. Find out what students really want to achieve
2. Get a clear idea about the contexts in which learners use English
3. Be businesslike but keep energy levels high
4. Choose your materials wisely
5. Be flexible and try to anticipate problems

To make the right impression, it's important to teach in a business-like way. This affects not only what you say and how you behave, but also what you wear. If you're going to work in company, then punctuality, professionalism and competence are crucial.

Learning English for about three years gave good opportunities to the students of the eleven faculties of the university. The textbook taken by the university teachers was "English for businessmen" in six volumes by I. F. Jdanova, O. E. Kudryacheva, N.S. Popova and others. Each volumes of the textbook had different texts, vocabulary and exercises on them, writing abilities of business letters. The aim of the book was helping the students in the field of foreign trade, training of oral speech on the basis of development of automated speech skills. In the opinion of the teachers taken this textbook, an advantage of "English for businessmen" was a wide vocabulary. "For precise and expressive speech of the students, the main task is widening and enriching their vocabulary by quality and quantity" [1, p68]. Using antonyms, synonyms, figurative speech and expressions the students could convey their thoughts to the teacher and other people exactly and clear. There were not only the words of economic and financial field and also the words of everyday life, cultural words, etc. Most of the exercises included translation of the business articles and translation of literary texts. "Translation of literary texts has a great significance in the cultural enrichment of humanity as the people of one country get acquainted with life and culture of the other one by means of translated literature" [2, p.60].

The other textbook taught to the students of UNEC was again called "English for businessmen". But the author of the textbook was O.I.Antonov and it was published in Moscow in 1999. This book was translated to the native language by N.Nabiyev and R. Rustamova in 2009. The textbook provided the readers of business English with small but interesting texts. There were only fifteen texts in it, with the titles like " *Partnerships", "Corporations", "Retailing", "Pricing", "International Business", etc.* The exercises of that book were of different character. These were comprehension questions, vocabulary practice, vocabulary exercises and translations. With a wide range of exercises the students could easily apply their language knowledge. But this textbook had a poor content and didnt have in common with that time. For the students

possessing the language well it was not enough to learn business English only with this book.

As in the general English classroom, learners will expect you to bring materials to class. There are lots of books and online resources available, but it's important to choose materials that create 'authentic' situations in the classroom. Probably the most important resource is the learners themselves. They can provide you with real materials from their working lives - the things they need to read and understand or perhaps even create and present. These could be leaflets, emails, PowerPoint presentations or reports. Learners will probably expect you to take some of these resources and create your own worksheets from them. This shouldn't be a harrowing experience though! Don't forget: concentrate on goals and needs. Find out why these resources are important and what your learners want to take away from the lesson. Then come to an agreement with them about how to meet these needs. As you see if the teachers want their lessons to be interesting and interactive, they should use presentations relating with the lessons and hold team work constantly. But a new problem arises: "Is interactivity limited by usage of modern technological means?" No. Interactivity includes presenting interviews, mini lectures, case study, showing participants photos, video, pictures, participating in group work, lab sessions, etc. So each of us can see that interactivity is not only interaction of science and technology, this is working together with students, being close to each other. Interactivity is initiative of teachers to build a new atmosphere of teaching.

We couldnt really speak about real interactivity in UNEC of those days. But of course there were some exceptions. There was shortage of good textbooks, language studies of high quality then. Print of new and better books was of great importance. And both foreign departments managed it. These were two books, one of which was "Business English" by A. Abbasova for the first term, another was "English on economics" by N. Nabiyev and A.Jafarova for the second term.

The textbook written for the first term "Business English" had eighteen lessons and a very wide vocabulary. The author stated that the submitted manual was intended for the students studying for economy and finance and for a wide readership that had a practice in finance. And also the book was for the people with 2000 – 2005 lexical units base [3, p.5]. The book was very interesting and made a deep impression on the teachers and economists. Because there were such texts there that promoted understanding of unknown economic and financial terms.

In the book titled "English on economics" it was stated by the author that the textbook consisted of six parts. "The first part informs a reader about the role of the English language in modern life. The texts submitted to the readers in the second part are dedicated to Adam Smith's role in the formation of economy as a science and to the main features of macroeconomics and microeconomics" [4, p.3]. If we have a look at the textbook, we can come across different texts about market economy, advertisement and its role in modern life. It informs the students about international financial institutions, like International Monetary Fund, World Bank, etc. An advantage of the textbooks was that in previous books we couldn't see materials about Azerbaijan economy, development of oil and gas industry of Azerbaijan. But this book had it.

How is the situation of today's English teaching in UNEC? The teachers of the university use two books at the lessons. These are *"Market Leader"* pre-intermediate

level by D. Cotton, D. Falvey and S.Kent and *"Business English"* intermediate level by Bill Mascull. In the introduction of the first textbook the authors write about the book: "Market Leader is a multi-level business English course for businesspeople and students of business English. It has been developed an association with the *Financial Times,* one of the leading sources of business information in the world. It consists of 12 units based on topics of great interest to everyone involved in international business" [5, p.4]. The book is rich with materials of different character. What is in each unit? There are starting up, vocabulary, reading, listening, language review, case study in a new textbook. It creates favorable conditions for the students to deepen their language knowledge.

"Business Vocabulary in Use" Intermediate is full of different economic terms. The book is designed to help learners of business English to improve their business vocabulary and to develop their business communication skills. The context and the topics of the textbook are different. The book has 66 two-page units. The first 46 pages look at the vocabulary of business areas such as people, organizations, production, marketing and finance. The other 20 units focus on the language of skills needed in business, such as those for presentations, meetings, telephoning and negotiations. All of these units are on the left-hand page. But the right-hand page is full of the different vocabulary and some grammar exercises.

The teachers of the university also use some additional materials: newspaper materials, PowerPoint presentations at the lesson to make the teaching process more interesting and assimilated.

So we witness that the history of English teaching at UNEC has been complex and long. Foreign language teaching initiators of the university have done their best to improve foreign language skills of future economists and to see them in the world economic arena.

ƏDƏBİYYAT

1. Seyidov F. Texniki vasitələrin köməyi ilə şifahi nitqin inkişaf yolları. Bakı: Maarif, 1969
2. Orujova I. Teaching translation of figures of speech / Xarici dillərin tədrisinin aktual problemləri Respublika elmi-praktik konfransının materialları, Bakı: Mütərcim, 2014, p.60-62
3. Abbasova A. Business English. Bakı: «İqtisad Universiteti » nəşriyyatı, 2011
4. N.H.Nəbiyev, A.B.Cəfərova. English on Economics. Bakı: "Çıraq", 2011
5. D. Cotton, D. Falvey, S. Kent. Marker Leader. Pre-intermidiate. Pearson, 2015

ORUCOVA SEVƏR

İNGİLİS DİLİNİN TƏDRİSİ PROSESİ VƏ ONUN ADİU-DA TARİXİ

XÜLASƏ

Bu məqalədə Azərbaycan Dövlət İqtisad Universitetində İngilis dilinin tədrisi və onun keçdiyi inkişaf yolu haqqında məlumat verilir. Həmçinin məqalədə tədris zamanı istifadə olunmuş və hal – hazırda istifadə olunan dərsliklərdən söz açılır. Gördüyümüz kimi, Azərbaycan Dövlət İqtisad Universitetində ingilis dilinin tədrisi zamanı bir sıra müxtəlif səpkidə dərsliklərdən istifadə edilmişdir. Bu kitablar tələbələrin gələcəkdə

dünya iqtisadi arenasına çıxmasına şərait yaradıb. Hal-hazırda da istifadə edilən hər iki dərslik öz rəngarəngliyi və müasirliyi ilə seçilir. Həmçinin bu dərsliklər xarici müəlliflər tərəfindən yazılıb.

ОРУДЖЕВА СЕВАР

ПРОЦЕСС ПРЕПОДОВАНИЯ АНГЛИСКОГО ЯЗЫКА И ЕГО ИСТОРИЯ АГЭУ

РЕЗЮМЕ

В этом статье дается информация о преподавание английского языка и о его пути развития в Азербайджанском Государственном Экономическом Университете. Также в статье упоминается об учебниках использованным в процессе обучение и еще используемых в настоящее время. Как мы видим в Азербайджанском Государственном Экономическом Университете в процессе преподавания английского языка была использована ряд несколько книг. Эти книги помогли в дальнейшем студентам выйти на мировой экономической арену. В настоящее время оба учебники

отличаются со своими современностями. Также эти учебники написаны иностранными авторами.

Rəyçi: dos.Nacaf Nabiyev

MAYA MUSAYEVA
ADPU
musayeva.maya91@mail.ru

KOSMOQONİK MİFLƏR ƏSASINDA YARANAN MİFOLOJİ TOPONİMLƏR FOLKLOR ONOMASTİKASININ BİR LAYI KİMİ

Açar sözlər: *Folklor, mifologiya, onomastika, toponim, mifoloji toponimlər, kosmoqonik miflər, ay, günəş, göy*
Ключевые слова: *Фольклор, мифология, ономастика, топонимика, мифологические топонимы, космогонические мифы, луна, солнце, небо*
Key words: *Folklore, mythology, onomastics, toponymy, mythological places, cosmogonic myths, the moon, the sun, the sky*

Azərbaycan xalqı zəngin folklora sahibdir. Tarix boyu xalqımız müxtəlif janrlarda yüzlərlə dərin məzmunlu əsərlər yaratmışdır. Elə həmin əsərlərdə, xüsusilə Azərbaycanın dastan, nağıl və digər folklor nümunələrində külli miqdarda xüsusi ad mövcuddur. Məhz bu baxımdan folklor nümunələrimiz hər zaman onomastik tədqiqatın diqqət mərkəzindədir.

İstənilən xalqın folklorundan bəhs edərkən onun mifoloji dünyagörüşündən və folklorda qoyduğu izlərdən bəhs etməmək qeyri-mümkündür. Çünkü hər bir xalqın ilk söz sənəti olan folklor nümunələrimizdə insanın mifoloji baxışı daha çox özünə yer edibdir. Və bu özünü mifoloji toponim yaradıcılığında da saxlamışdır. Bu da o dövrdə yaşayan və fəaliyyət göstərən insanların təbiətə mifoloji baxışından irəli gəlirdi. Belə ki təbiətdə baş verən hər hansı bir hadisənin mifoloji izahı bunu tələb edirdi. Bütün bunlar obyektiv aləmin mifoloji dərki əsasında yaranırdı. İnsanlar ta ki təbiətdə baş verən hadisələrin mahiyyətini olduğu kimi dərk edənə, onun baş vermə səbəbini öyrənənə qədər yaranan əsərlərdə xalqın fantaziyasının süzgəcindən keçirdi.

Italyan filosofu Cambatista Viko yazırdı "...Uşaqlar çox vaxt cansız əşyaları əlinə alır, onları az qala insan kimi danışdırır, əyləndirir. İbtidai insanlar da uşaqlar kimi təsəvvürlərə uyğun söz cilasını yaratmaqla heyrətamiz bir iş görmüşlər" [19, s.5].

Onomastik vahidlərin bir yarımşöbəsi olan toponimlərin mifoloji nümunələrinin izlərinə məhz folklorumuzun ən qədim qatlarında, insanın ətraf aləm və dünyanı dərk etdiyi, naməlum qalan məqamlara mifik don geydirdiyi ərəfələrdə yaratdığı janrlarda rast gəlmək mümkündür. Folklorumuzda qorunan bu onomastik vahidlərin mifoloji toponim qolu onun tərkibində birlikdə el-el, oba-oba gəzərək ağızdan-ağıza düşüdükcə kollektiv tərəfindən cilalanır, səlisləşir, əlavə və dəyişikliyə uğrayaraq, dilin özünəməxsus tələffüz şəklinə düşərək müəyyən yer tutur. Əlbəttə bu yaradıcılıq məhsulu göründüyü kimi bütün keyfiyyət və xüsusiyyətləri ilə günümüzə qədər gəlib çıxmamışdır. Hətta elə mifoloji toponimlər var ki, onları aydınlaşdırmaq üçün çox məqamlara əlaqəli yanaşaraq, düzgün izahı ortaya çıxarmağı tələb edir.

Mifoloji toponimlərə nəzər yetirdikdə onların müəyyən hissəsinin kosmoqonik, bir qisminin zoomorfik və mifoloji inamlar əsasında yarandığı məlum olur. Məlumdur ki, miflərin əksəriyyəti kosmos sistemində birləşən hissələrin-günəş, ay, göy mifoloji obrazlarının yer aldığı toponimlərlə zəngindir. Türk xalqlarının mifologiyasında Yer tanrı, Göy tanrı, Ay Tanrı, Kün tanrısı kimi ifadələr tez-tez rast gəlinir. Bu tipli mifoloji toponimlər kainatın və dünyanın yaranmasının təsvirini özündə təcəssüm etdirir.

Aygünlü – Azərbaycan Respublikasının Şabran rayonunun Gəndob inzibati ərazi vahidində kənd. Baş Qafqaz silsiləsinin ətəyindədir. Etnotoponimdir. XIX əsrdə

Aygunlu Kəngərli adı ilə qeydə alınmışdır. Həmin əsrin ortalarında Aygunlu, Burbur (Borbor), Kəngərli, Molla Kamallı, Obey Məhəmməd Hacıbəbir və Ağamirzə obası adlı kicik məntəqələr birləşərək Aygunlu Kəngərli, Burbur Molla Kamallı və Burbur adlı 3 böyük kənd icması əmələ gətirmişdir. Sonralar oykonimin tərkibindəki "kəngərli" komponenti düşmüşdür [5, s. 92].

Aygünlü toponimində Ay və Günün – iki əks qüvvənin qoşa – birlikdə verilməsi qədim türklərin dual təfəkkürü ilə bağlıdır ki, bu da özlüyündə əksliklərin vəhdətinə və mübarizəsinə əsaslanır. Aygünlü toponimi quruluşca mürəkkəbdir, Ay və Gün sözlərindən və -lü şəkilçisindən ibarətdir [4, s. 37].

Aydınlı – Eçmiədzin rayonunda kənd adı. 1918-1919-cu illərdə əhalisi qovulmuş və Türkiyədən gələn ermənilər yerləşdirilmişdir. 1946-cı ildə kənd ermənicə Senuqs adlandırılmışdır. Orta əsrlərdə Akadduda yaşamış Yeryük tayfa birləşməsinin Aydınlı tayfasının məskunlaşması nəticəsində yaranmışdır [8, 115]. Məfhum şəxs adına keçib, daha sonra isə etnonim və toponim istiqaməti üzrə inkişaf etmişdir. Bu toponimin etimologiyası mifonimə gedib çıxır.

"1034-cü ildən (425-ci ildən) başlayaraq Azərbaycana Səlcuq adı ilə tanınmış bir türk tayfası gəlməyə başlamışdır... Səlçuqlar bir sıra tayfalara bölünmüşlər və bunlardan bir çoxları monqol hücumu dövründə onlara tabe olmaq istəməyib, Kiçik Asiyaya çıxıb getmiş və ordan sonralar müxtəlif vaxtlarda Azərbaycana gəlmişdilər, bir hissəsi isə monqollar dövründə də Azərbaycanda qalmışdı. Səlcuq tayfaları indi də Ayrum, Şamlı, Bəydilli, İnallı, Təklə, Qaramanlı, Əhmədli, Aydınlı, İmirli, Düxər və s. adlarla məşhurdur" [20].

Aydoğmuş – 1728-ci ildə İrəvan əyalətinin Şirakel (Şörəyel) nahiyəsində kənd adı [13, s. 135]. Hal-hazırda isə həmin kənd ermənilər tərəfindən dağıdılmışdır. Aydoğmuş toponimi mürəkkəb söz olub «Ay» və «doğmuş» komponentlərindən ibarətdir. Bu toponimin də Aya inamla bağlı olması heç kimdə şübhə doğurmur. Burada Ayın doğmağı kosmoqoniya ilə bir başa bağlı olan məsələdir [4, s. 40].

Qaşqa - Qərbi Azərbaycanın Vedi rayonu ərazisində kənd adı 1948-ci ildə Qaşqa adı ermənilər tərəfindən dəyişdirilərək Vardaşat qoyulmuşdur [8, s. 198; 11, s. 115].

Demək olar ki, bütün mənbələr Qaşqa toponiminin qaşqaylarla əlaqədar olduğunu təsdiq edir. Yalnız onlardan M.Seyidovun mülahizələri həmin toponimin «Qaşqa» və «ay» hissələrindən əmələ gəldiyini göstərir və eyni zamanda qaşqanın, «yandırmaq», «alovlandırmaq», «işıq vermək» mənalarında olduğunu qeyd edir [9, s. 81-83; 7, s. 74].

Bu toponim də qədim türk mifoloji dünyagörüşü ilə dolayı yolla əlaqədardır. Qaşqa toponimi teonim-etnonim-toponim istiqamətində inkişaf xətti keçmişdir.

Dədəgünəş - Ağsu çayının sol sahilindən bir qədər aralı, dağətəyi ərazidədir. Kənd adını oradakı Dədəgünəş pirinin adından almışdır. Yerli əhali bu piri Piri-Sultan Dədəgünəş adlandırır. Dədəgünəş türbəsi 1602-1603-cu illərdə tikilmişdir. Türbənin kitabəsinə görə, orada Dədəgünəş (Əfzələddin Xəqaninin əmisinin ləqəbi) nəslindən Şeyx Dədəqulunun oğlu Şeyx Məhəmməd dəfn olunmuşdur. Rəvayətə görə, Dədəgünəş quduzluğa tutulmuş xəstələri müalicə edirmiş. Odur ki, vəfatından sonra türbəsi müqəddəsləşdirilmişdir. Zəngin təbiəti və müalicə suları ilə məşhur olan Dədəgünəş orta əsrlərdə məşhur elm mərkəzlərindən biri olmuşdur və Xaqaninin əmisi Kafiəddin Ömər Osman oğlu bu mərkəzin hörmətli alimlərindən idi [5, s. 219].

Dədəgünəş məşhur alim təbib və filosof idi. Rəvayətə görə onu "yerin və insanların günəşi" adlandırmışdılar. Kəndin adı da onun adı ilə əlaqədardır. Dədəgünəş həm də böyük Sufi alim hesab olunurdu. Dədəgünəş məqbərəsi şamaxılıların ocaq kimi inanclı məqbərələrindəndir. Bu məqbərənin yerləşdiyi yerdə bir vaxtlar böyük tibb mərkəzi olmuşdur.

Günəşli –Dəvəçi, Xaçmaz, Beyləqan, Xocavənd, Şəmkir, Bakı, Qərbi Azərbaycanın Basar-Keçər və Noyemberyan rayonlarında kənd və qəsəbə adı [6, s. 330-331]. Günəşli adı ilə adlanan yer-yurd adlarmız heç şübhəsiz mifologiya ilə bağlılığıda xalqımızın Günəşi özləri üçün rəmzləşdirməsi və müqəddəsləşdirməsi ilə əlaqələnir.

Ərgünəş – Xocavənd və Füzuli rayonları ərazisində dağ. Oronimin tərkibindəki «ər» komponentini müxtəlif şəkildə yozanlar var. Bəzilərinə görə, bu komponent türk dillərində «gədik» mənasında işlənən ar sözü ilə bağlıdır [6, s. 213].

Qədim türklər – azərbaycanlılar Günəşi obrazlaşdıranda mifik təfəkkürə uyğun olaraq ona ər kimi müraciət etmişlər. Ərgünəş sözündə həm də Günəşə bir ehtiram, hörmət də ifadə olunmuşdur. Xocavənd və Füzuli rayonlarında yerləşən Ərgünəş dağı «əzəmət», «ucalıq» rəmzi kimi yerli camaat tərəfindən mənalandırılır [4, s. 32].

Göylər – Şamaxı rayonunun Göylər inzibati ərazi vahidliyində iki kənd. Kəndlərdən biri dağətəyi ərazidə yerləşdiyi üçün Göylərdağ, digəri isə Şirvan düzündə yerləşdiyi üçün Göylərçöl adlanır. Hər iki kəndin adı Səlcuq oğuzlarının «göglər» qolunun admı əks etdirir. [6, s. 325]. Türk inancları arasında Göyə – Səmaya müqəddəs varlıq kimi baxmaq, ona tapınmaq, onu hətta tarının özü kimi mənalandırmaq geniş yayılmışdır. Bu özünü adlarında da göstərir ki türklər Göytürklər adlanmışlar. Məhz burdan qaynağını alaraq «göy» rəng dünya türklərinin rəmzinə çevrilmişdir. Türklər tanrılarının adını öz övladlarında əbədiləşdirmişlər. Bildiyimiz kimi Oğuzun 6 oğlundan birinin adı da Göy xan idi. Və bununla da ad etnonim toponim istiqamətində irəliləmişdir.

«Oğuznamə»lərin uyğur versiyasının birində deyilir: «Yenə günlərdən bir gün Oğuz xaqan bir yerdə Göy tanrısına tapındı. Qaranlıq düşdü. Göydən bir göy şüa düşdü. Günəşdən işıqlı, aydan parlaq idi. Oğuz xaqan yüyürdü, gördü bu şüanın arasında bir qız var, tək oturubdur» [14, s. 46].

Orxon-Yenisey abidələrində də Göy tanrı kimi, müqəddəs hesab olunur. Məsələn, «Yuxarıda Göy tanrı aşağıda qonur torpaq yarandıqda, ikisi arasında insan oğlu yaranmış [15, s. 139].

Beləliklə, Göylər toponimindəki Göy elementinin izahı onun ta qədim türklərin tanrçılığına, qədim mistik inanclarına aparıb çıxarır ki, bu da mifoloji nəzərdən izahat tələb edir.

Göynük - Şəki rayonunda iki kəndin adı. Aşağı Göynük və Yuxarı Göynük. Toponim cox vaxt Koynuk variantında da işlənir. Ehtimal edilir ki, Goynuk yaşayış məntəqəsini orta əsrlərdə Kicik Asiyada adı çəkilən Goynuk mahalından və ya eyniadlı qaladan gəlmiş ailələr salmışlar. Goynuk/goyruk Azərbaycan toponimiyasında "yaşıl sahə, otlu sahə" mənasını ifadə edir. Koynuk variantı isə "kənd, el, məskun yer" mənasını bildirir [5, s. 298].

Mənbələrə [16, 46] əsaslanaraq demək olar ki, Göynük toponimi «göy» və «-lük» komponentlərindən ibarətdir və quruluşca düzəltmədir. Həmin toponimdə «göy» məfhumu yerin - ərazinin yaşıllığını deyil, təmizliyini, saflığını ifadə edir ki, bu da «göy» sözünün mifoloji anlamından doğan məsələdir. -lük şəkilçisi isə adlardan ad düzəldən leksik şəkilçidir ki, Göynük toponimində «ı» saiti «n» samiti ilə əvəz olunmuşdur.

Mənbələrdə [17, s. 61; 10, s. 46; 18, s. 71; 12, s. 273] göy morfeminin əsasən iki mənasını – səma, göy qübbəsinin rəngi kimi mavi və çəmənlik, otluq yerləri ifadə etməsini qeyd etmişlər. Əksəriyyəti «göy» morfeminin birinci olaraq səma ilə bağlılığını əsaslandırmışlar.

Göydəlləkli - Ağsu rayonunun Ərəbsarvan inzibati ərazi vahidində kənd. Şirvan düzündədir. Kəndin adı goy/koy (kənd) və dəlləkli (ərəbŞamlı tayfasının tirələrindən

birinin adı) sözlərindən düzəlib, "kənd dəlləkli və ya dəlləkli kəndi" deməkdir. Kənd keçmişdə Dəlləkli adlanan digər coğrafi obyektlərdən fərqləndirmək üçün belə adlandırılmışdır [5, s. 298].

Göyərcik - Qubadlı rayonunda kənd. Bərgüşad silsiləsinin yamacındadır. Bəziləri toponimin göylük, yaşıllıq, otluq mənası ilə bağlı olduğunu izah edirlər. Digərləri isə onu kürd dilindəki kuvər (arxac) sözü ilə əlaqələndirib (-cik Azərbaycan dilində kiçilmə şəkilçisidir) «kiçik arxac» kimi yozurlar. Toponimi türk dilli kürəcik etnonimi ilə əlaqələndirənlər də var [6, s. 324]. Digər mülahizəyə görə isə ehtimal olunur ki, Göyərcik toponimi «Göy», «ər» və «-cik» komponentlərindən ibarətdir və «Göylər tayfasının məskunlaşdığı yer» mənasındadır. Bu da öz növbəsində qədim türklərin kosmoqonik inamları ilə bağlıdır [4, s. 43].

ƏDƏBİYYAT

1. Əliyev O. "Kitabi-Dədə Qorqud" və Azərbaycan folkloru. Bakı, “Elm”, 1999, 72 s.
2. Qurbanov A. Azərbaycan dilinin onomologiyası. Bakı. "Maarif" nəşriyyatı, 1988, 423 s.
3. Rzasoy S. Mifologiya və folklor: nəzəri-metodoloji kontekst. Bakı, ”Nurlan”, 2008, 188 s.
4. Tapdıqov A. Azərbaycan dilində mifoloji toponimlər. Bakı, "Elm və təhsil", 2013, 125 s.
5. "Azərbaycan toponimlərinin ensiklopedik lüğəti". İki cilddə. I cild. Bakı, “Şərq-Qərb” , 2007. 427 s.
6. Azərbaycan toponimləri (Ensiklopedik lüğət). Bakı, 1999, 588 s.
7. Bayramov T. Qərbi Azərbaycanın türk mənşəli toponimləri. Bakı, 2002, 696 s.
8. Budaqov B.Ə., Qeybullayev Q.Ə. Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı, 1998, 452 s.
9. Cəlilov F. A. Azərbaycan dilində «al» köklü sözlər (tarixi-etimoloji etüd). «Azərbaycan filologiyası məsələləri», Bakı, 1983, s. 165-173
10. Əhmədov T.M. Azərbaycan toponimikasmm əsasları. Bakı, 302 s.
11. Əliyev F.V. Qaşqa toponimi haqqında. Az.O.P. №4, Bakı, 1993, s.115.
12. Əsgərov N.Ə. «Göy» komponentli Azərbaycan hidronimləri. Az. O. P. №2, Bakı, 1988, s.272-274.
13. İrəvan əyalətinin müfəssəl dəftəri. Bakı, 1996, 184 s.
14. R.Fəzlullah.F. «Oğuznamə». Bakı, 1992, 72 s.
15. Şükürov.Ə. Qədim türk yazılı abidələrinin dili. Bakı, 1993, 336 s.
16. Еремеев Д.Е. К семантике тюркской этнонимии – Этнонимика. М., 1970, с.133-142.
17. Койчубайев.Е. Краткий толковый словарь топонимов Казахыстана. Алма-Ата, 1974, 110 с.
18. Гейбуллаев Г.А. Топонимия Азербайджана. Баку, 1986, 182 с.
19. Britaniya adalarının xalq nağılları.“Britaniya adalarının nağıl dünyası" məqaləsi, Bakı, 2005.
20. Vəliyev.M. (Baharlı) “Azərbaycan: Coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat”

М.Ш.МУСАЕВА

МИФОЛОГИЧЕСКИЕ ТОПОНИМЫ, ОБРАЗОВАННЫЕ НА ОСНОВЕ КОСМОГОНИЧЕСКИХ МИФОВ КАК СЛОЙ ФОЛЬКЛОРНОЙ ОНОМАСТИКИ.

РЕЗЮМЕ

В статье описаны мифологические топонимы, образованные на основе космогонических мифов Азербайджанского фольклора. Азербайджанский фольклор — устное народное творчество азербайджанского народа, представленное трудовыми, обрядовыми и бытовыми песнями, легендарными, любовными и историко-героическими эпическими произведеними (дастанами), сказками, юморесками (лятифа), пословицами, поговорками, загадками. Азербайджанская мифология является составной частью общетюркской мифологии. Наша мифология – это творческая сфера обогащенная источниками древнетюркской мифологии, которая, оберегая древнетюркские мифологические модели, обогатила их новыми мифами, поверьями, культами, традициями и обрядами. Азербайджанская мифология богата древними верами, поклонениями, антропоморфическими и зооморфическими взглядами. Азербайджана в качестве ведущего мотива выступает мифологическое мышление древних тюрков. Это можно наглядно усмотреть в космогонических мифах, связанных с созданием мира, этногенетических мифах, связанных с источниками этноса, а также календарных мифах, связанных с сезонными процессами. По отдельности описаны топонимы, образованные на основе таких мифологических образов, как луна, солнце, небо. Среди них обяснено значение таких мифологических топонимов, как "Aygünlü", "Aydınlı", "Dədəgünəş", "Günəşli", "Göylər", "Göynük".

M.SH.MUSAEVA

MYTHOLOGICAL PLACE NAMES FORMED ON THE BASIS OF COSMOLOGICAL MYTHS AS A LAYER OF FOLK ONOMASTICS.

SUMMARY

The article dealt with the mythological places where was registered as cosmological myths on the basis of Azerbaijan folklore. Azerbaijani folklore - folklore of the Azerbaijani people, represented by labor, ceremonial and domestic songs, legends, love, historical and heroic epic works (dastans), tales, proverbs, sayings, riddles. Azerbaijani mythology is part of Turkic mythology. Our mythology - is the creative sphere of enriched sources of ancient Turkic mythology, which, preserving ancient Turkic mythological model, enriched by new myths, beliefs, faiths, traditions and customs. Azerbaijan is rich in mythology of ancient faiths, worship, anthropomorphic and zoomorphic views. Azerbaijan as a leading motive appears mythological thinking of the ancient Turks. This can be clearly seen in the cosmogonic myths associated with the creation of the world, ethnogenetic myths associated with sources of ethnicity, as well as calendar myths associated with the seasonal processes. The explanation of places was given separately which is based on mythological character of the created images such as the moon, the sun, and the sky. 'Aygunlu', 'Aydinli', "Dədəgünəş", "Günəşli", "Göylər", "Göynük" and etc. was explained as the mythological places.

Rəyçi: T.M.Əsgərova
Filologiya elmlər namizədi

f.ü.f.d. NAHİDƏ HƏSƏNOVA
Bakı Dövlət Universiteti
hnahide@mail.ru

MÜASİR AZƏRBAYCAN DİLİNDƏ -ÇILIQ ŞƏKİLÇİSİNİN İŞLƏNMƏSİNİN QANUNAUYĞUNLUĞU

Açar sözlər: *-çı*[4]*, -lıq*[4]*, -çılıq*[4]*, qovuşuq şəkilçi, sözyaratma.*
Ключевые слова: *-çı*[4] *(-чы*[4]*), -lıq*[4] *(-лыг*[4]*), çılıq*[4] *(-чылыг*[4]*), слитный суффикс, словообразование.*
Keywords: *-çı*[4] *(-chi*[4]*), -lıq*[4] *(-lig*[4]*), -çılıq*[4] *(-chilig*[4]*), solid suffix, word – formation.*

Dilçilik ədəbiyyatında artıq mürəkkəb quruluşlu şəkilçi kimi, daha dəqiq desək, bu tip şəkilçilər sırasında özünə yer qazanmış sözyaratma üsullarından biri də *-çılıq*[4] şəkilçisidir. Bu şəkilçinin yaranma etibarilə *-çı*[4] və *-lıq*[4] sayəsində formalaşması inkaredilməzdir. Məhz buna görə də *"*bu sözdüzəldici vasitə *-çı* + *-lıq*, yoxsa elə *-çılıq* birləşməsindən ibarətdirmi?" və həmin düşüncələrdən doğaraq *-çılıq* tərkibli sözlərin yaranmasında "*–çı* və *-lıq* şəkilçisinin ayrı –ayrılıqda rolu nədən ibarətdir?", "mövcud oppozisiyada üstünlük daha çox hansı leksik göstəricinin üzərinə düşür?" kimi suallara cavab axtarışına təşəbbüs göstərdik.

İstər söz yaradıcılığından, istərsə də ismin yaranma yollarından bəhs edilən elmi ədəbiyyatlarda *-çı* və *-lıq* şəkilçilərinin hər biri müxtəlif leksik məna çalarlıqları ilə xarakterizə olunmuşdur. Sözyaratma qaydalarına əsasən, şəkilçilərin sıralanması baxımından əvvəlcə *-çı,* sonra isə *-lıq* ilə bağlı fikirləri ümumiləşdirərək vermək istərdik.

-çı[4] şəkilçisindən bəhs edilərkən sənət, peşə, ixtisas sahibliyi və mücərrəd mənəvi xüsusiyyətləri [1,s.156], əlavə olaraq adət, xasiyyət, əqidə, hal-vəziyyət, keyfiyyət və s. [3,s.160], və ya ümumən şəxs anlayışı ifadə edən isimlər düzəltməsi [5, s.49] kimi xüsusiyyətləri göstərilir. Hətta *–çı* nın iş görəni, sənət və ya peşə sahibini, subyekti bildirməsinin daha qədim dövrlərdən mövcud olması, əqidə, məslək və s. bu sıradan məzmunları ifadə etməsi isə nisbətən müasir dövrlərə təsadüf etməsi [7,s.55-56] kimi ayrıntılar tarixi qrammatikamızda da öz əksini tapmışdır.

Verilənlərdən belə aydın olur ki, *-çı* şəkilçisi "fəaliyyət göstərənin adını əmələ gətirməklə" [6, s.62] , əsasən, iki istiqamətə ayrılır:

-müxtəlif sahələri əhatə edən İŞ GÖRƏN (şəxs, subyekt, müəyyən peşə və ixtisas sahibi), məsələn, *dəmirçi,təbliğatçı, pambıqçı, arabaçı, arançı, çərçi* və s.

-əsasən, mənfi mənaları ehtiva edən mücərrəd mənəvi xüsusiyyətlərin (adət, xasiyyət, əqidə, hal-vəziyyət) DAŞIYICIsı, məsələn, *küyçü, çürükçü, süründürməçi, işğalçı, şikayətçi; əlaçı, milyonçu* və s.

-lıq[4] şəkilçisinin də leksik-semantik funksiyası göstərilən ədəbiyyatlar da daxil olmaqla, təxmini, eyni mənalar üzrə bu və ya digər şəkildə qruplaşdırılmışdır. Bunların içərisində məkan və ya topluluğu, çoxluğu: *ağaclıq, dağlıq, qumluq*; cisimlərə məxsus əlaməti: *bərklik, sarılıq*; müəyyən və ya qeyri-müəyyən kəmiyyəti: *yüzlük, azlıq*;

konkret bir əşyanı: *dizlik, gözlük, arxalıq*; mücərrəd mənanı: *dostluq, yaxşılıq* və s. göstərmək olar.

Çoxsaylı nümunələrdən də aydın olur ki, əsasən, "bu şəkilçi mücərrəd və konkret hər hansı bir şeyin birləşməsi və təmərküzləşməsini bildirir" [2, s.77]. Lakin *–lıq* şəkilçisinin yaratdığı təmərküzləşmə prosesi sadaladığımız məna qrupları ilə kifayətlənmir. Buraya müəyyən sənət, peşə və ixtisas sahibliyini: *dülgərlik, həkimlik, müəllimlik* və mənsubiyyət və adətkarlığı, vəziyyəti: *dağlılıq, üstünlük* bildirən isimlər də daxildir. Bu sırada *–lıq* şəkilçisinin sözyaratmada maraqlı tərəfi həm də *-çı* şəkilçisi ilə birləşməsidir. Belə ki, *-çılıq*[4] şəkilçisinin yaranmasında və işlədilməsində ixtiyari şəkildə düşünülən *-çı* + *-lıq* formatının bir-birinə bağlılığında həmin məna qruplarının rolu böyükdür:

-müəyyən peşə, sənət və ixtisas sahibliyini bildirən konkret isimlər, məsələn, *ovçuluq, kömürçülük, toyuqçuluq, pambıqçılıq* və s.

-mənsubiyyət və adətkarlığı, mənəvi keyfiyyətləri bildirən mücərrəd isimlər, məsələn, *yalançılıq, uzunçuluq* və.s.

Bu münasibətdə maraqlı cəhətlərdən biri budur ki, *-çı*[4] və *lıq*[4] üzrə yuxarıda göstərdiyimiz istiqamətlər (bax: s.1 və s.2) məna bağlılığı etibarilə biri digərini tamamlayır. Lakin daha diqqətçəkən məsələ budur ki, eyni məna qrupundan çıxış edən *çı*[4] + *lıq*[4] birləşməsi hansı hallarda özünü döğruldur və hansı səbəblərdən?

Birincisi, baxaq, ümumiyyətlə, peşə, sənət və ixtisas sahibliyini bildirən isimlərin *–çı* şəkliçisi ilə məna inkişafına:

İsimlər	**-çı**[4]	**-lıq**[4]
müəllim	-	lik
həkim	-	lik
bağban	-	lıq
zərgər	-	lik
dərzi	-	lik
alim və s.	-	lik
dəmir	çi	lik
pambıq	çı	lıq
araba	çı	lıq
ov	çu	luq
kömür	çü	lük
lüğət və s.	çi	lik

Birinci cədvəldə verilən isimlər özlüyündə insan anlayışı ifadə edərək artıq konkret bir sənət və ya peşə sahibliyinin adı olduğu üçün birbaşa *–lıq*[4] şəkilçisinin qəbulu özünü doğruldur. İkinci cədvəldə isə cansız əşyaları ifadə edən isimlər işləndiyindən bu tip sözlərdə şəxs anlayışı ifadə edən leksik vasitəyə ehtiyac duyulur ki, bu da *–çı*[4] şəkilçisidir.

Mənsubiyyət və adətkarlığı, mənəvi keyfiyyətləri bildirən mücərrəd isimlərdə də fərqli hallar görünməkdədir:

İsimlər	**-çı[4]**	**-lıq[4]**
küy süründürmə uzun çürük yalan	çü çi çu çü çı	lük lik luq lük lıq
şikayət əla milyon	çi çı çu	- - -

Burada isə fərq *–lıq*[4] şəkilçisinin işlənməsi ilə bağlıdır. Ikinci cədvəldən göründüyü kimi, bəzi adlara qoşulan *–çı*[4] şərti olaraq insan anlayışı ifadə etdiyi üçün onlara *–lıq*[4] artırmaq olmur. Həmin və o sıradan olan sözlər "müvəqqəti" bir prosesin ifadəsidir. Burada *–çı*[4] nın yaratdığı məna "şəxsin özü" anlayışından çox, bu işi, sadəcə, icra edən mənasında dərk olunur. Ikinci cədvəldəki sözlərlə müqayisədə daha aydın olur ki, birincilər hər hansı bir mənəvi keyfiyyəti, xasiyyəti ozündə daimiləşdirmiş, özünə peşə etmiş şəxsi bildirdiyi üçün həmin anlayışın məcmusu olaraq *–lıq*[4] la işlənməsi də labüddür, lakin digər tərəfin göstərilən səbəblərdən dolayı "təmərküzləşmə" si formalaşmayıb.

Beləliklə, *-çı*[4] *və -lıq*[4] şəkilçisinin işlənməsi ilə gəldiyimiz nəticələr sayəsində diğər isim düzəldən şəkilçilərlə müqayisədə daha cavan bir qrammatik vahid olan *–çılıq*[4] şəkilçisinin leksik-semantik funksiyası ilə bağlı müəyyən suallarımıza da qismən aydınlıq gətirmiş olarıq.

Azərbaycan dilçiliyində *-çılıq*[4] şəkilçisinin ayrılmaz hissəciklər olaraq vahid sözyaratma vasitəsi kimi mövcudluğu müvafiq elmi ədəbiyyatlarda öz əksini tapmışdır. [1,3,4,5,7] Qovuşuq şəkilçilər adı altında bəhs edərək bu qrammatik vahidlə bağlı ən konkret faktlar Ş.Hüseynovun tədqiqatındadır. "İki sözdüzəldici şəkilçinin qovuşması məna sintezinə əsaslanır və onlarda məna sintezi əsasında vahid məna mərkəzi yaranır, məsələn, *-çılıq (düzçülük, əyriçilik)* həm isimlərə, həm də sifətlərə artırılan bu şəkilçinin qovuşmasını təsdiq edən fakt odur ki, Azərbaycan dilində *düzçü, əyriçi* sözləri işlədilmir*"* [4, s.176-177]. Sonra isə *əkinçilik, tərəvəzçilik* sözləri ilə müqayisə edərək birincilərin qovuşma faktoru olduğunu əsaslandırır. Ümumiyyətlə, müəllif *-çılıq*[4] şəkilçisini də aid edərək qovuşma faktorunu tərkib hissələrinə ayırmamaqla vahid bir formant hesab edir. Həmin formantın vahidliyini isə bir məna atmosferi yaratmasında görür. Bunu "vahid morfosemantik mərkəzin yaranması ilə bağlı" izah edir. [4, s.194]

Deyək ki, *-çı*[4]*+ -lıq*[4] → vahid bir format → vahid məna atmosferi → vahid morfosemantik mərkəz modeli bütün bu qəbildən olan sözlər üçün keçərli deyildir. Belə ki, bu şəkilçi isimlərə və sifətlərə artırılaraq fərqli məna çalarlıqları yaratmaqla bərabər, qoşulma dərəcəsinə görə də eyni söz əsasından çıxış etmirlər. Beləliklə də, isimə və sifətə qoşulması səbəbindən "vahid"lik prinsipi öz gücünü saxlaya bilmir.

İsimlərə qoşulan -*çılıq*[4]da qovuşmanın birinci və mühüm komponenti olan -*çı*[4]nın işlənmə tezliyi üzrə sözləri belə qruplaşdıra bilərik:

1) komponentin birinci tərəfi zəif inkişaf edənlər: *sözçülük, öhdəçilik, ədavətçilik, türkçülük, azərbaycançılıq və s.*

2) komponentin birinci tərəfi qismən inkişaf edənlər: *bağçılıq, arıçılıq, südçülük, meyvəçilik, tərəvəzçilik, qoyunçuluq, toyuqçuluq və s.*

3) komponentin birinci tərəfi heç inkişaf etməyənlər: *müəllimçilik, çobançılıq, həkimçilik və s.*

Birinci və ikinci bölgü arasında işlənmə baxımından fərq, əsasən, mücərrədlik(1) və konkretlik(2) baxımındandır. Bu, birbaşa -*çı*[4] -nın leksik-morfoloji funksionallığından irəli gəlir ki, bu barədə artıq əvvəldə bəhs etmişik.

Qeyd: *qoyunçuluq* sözü ilə bağlı deyək ki, bu barədə bəhs etdiyimiz dilçilik əsərlərində fərqli baxışlar müşahidə olunur. S.Cəfərov və Q.Kazımov *qoyunçu* sözünü müstəqil söz kimi vermişdir. H.Mirzəzadə və B.Xəlilovda isə -*çuluq* bu sözün vahid komponenti kimi verilmişdir. Ayrı verilməsinə görə *toyuqçuluq* və *tərəvəzçilik* sözü də o sıraya aid edilmişdir ki, biz bununla razılaşmadığımız üçün -*çılıq*[4] –ı bütöv götürdük.

Üçüncü bölgüdə verilən sözlərdə isə -*çı*[4] –nın işlənməsi sırf üslubi xarakter daşıyır. Burada -*çı*[4] konkret bir peşəni adlandıran həmin sözlərə ikiqat sahiblik məzmunu verərək onun mənasını qüvvətləndirir. Eyni zamanda bu qüvvətləndirmə sırf üslubi xarakter daşıyıb ifadə tərzi olaraq onların sənət etibarilə adiləşdirilməsinə xidmət edir. O sıraya *düşmənçilik* sözünü də aid etmək olar; konkret bir peşəni olmasa da, hər hansı bir mövqeni "peşə edən" şəxsi bildirdiyindən həmin üslubi səviyyədən çıxış edərək işlədilir.

Beləliklə, isimlərdə -*çılıq*[4] şəkilçisinin işlənməsi 1-ci və 2-ci bölgülərdəki nümunələrdə eyni və ya yaxın məna funksiyasından çıxış edən şəkilçilərdən birinin digərini törətməsidir. 3-cü bölgüdə isə üslubi ehtiyacdan yaranan bir prosesdir.

Sifətlərin üzərinə artırılan -*çılıq*[4] şəkilçisinin -*çı*[4] ilə işlənməsi vacibliyi duyulmur. Belə düşünmək olar ki, əlamət bildirən sözdən hər hansı bir sənət, peşə anlayışının düzəlməsi mümkün deyil. Qaldı ki, əqidə, məslək və mücərrəd məfhum ifadə etməsi bu, elə keyfiyyət bildirən sifətlərin morfoloji-semantik qanunauyğunluğudur.

Avaraçılıq (avaralıq), kasıbçılıq (kasıblıq), yetimçilik (yetimlik), dilxorçuluq (dilxorluq), nigarançılıq (nigaranlıq), qəribçilik (qəriblik), bədbəxtçilik (bədbəxtlik), xoşbəxtçilik (xoşbəxtlik), satqınçılıq (satqınlıq), peşmançılıq (peşmanlıq), düzçülük (düzlük), əyriçilik (əyrilik), mehribançılıq (mehribanlıq).

Bu sırada təbii ki, istisna sözlər də var ki, (*yalançılıq, çürükçülük, biabırçılıq, rüsvayçılıq, uzunçuluq)*bu sözlər –*çı*sız heç bir leksik məna daşımır.

Uzunçu sözü ilə bağlı onu deyə bilərik ki, *uzun* keyfiyyət deyil, əlamət bildirdiyi üçün -*çu* şəkilçisi ilə mücərrədləşməyə ehtiyac yaranır.

Rüsvayçı, biabırçı sözləri isə qrammatik mənasına görə müstəqil şəkildə formalaşmamış, *etmək, olmaq* köməkçi sözləri ilə funksionallıq qazanmışdır. Buradakı –*çı* şəkilçisi də məhz həmin vəzifədən çıxış edərək *edən , olan* mənasını daşıyır, hətta

aid olduqları sözlər də , əksərən, dinamik bir məzmunu ifadə edir. Məsələn, *biabırçı hərəkət, rüsvayçı çıxış* və s.

Beləliklə, verilən nümunələrdən də göründüyü kimi, sifətlərdə işlənən *-çılıq*[4] şəkilçisinin birinci komponenti heç də ənənəvi tanıdığımız (qeyd etdiyimiz mənaları ilə!) *-çı*[4] deyil. Ona görə də sırf birikmiş *–çılıq*[4] şəkilçisi olaraq sözlərə qoşulur. Və burada komponentin birinci hissəsi yalnız qüvvətləndirici təsir göstərmək vəzifəsindədir. Həmin sözlərin *-çı*[4]sız işləndiyi təqdirdə heç bir məna fərqi yaratmaması da bu fikrin təsdiqidir.

ƏDƏBİYYAT

1.Cəfərov S. Müasir Azərbaycan dili (leksika) II hissə. B., Maarif, 1982.

2.Дмитрийев Н.К. Грамматика башкырского языка. М., 1951.

3.Həsənov İ. Müasir Azərbaycan dilinin leksikası. B., 2007.

4.Hüseynov Ş. Azərbaycan dilində qrammatik vahidlərin inkişafı (şəkilçilər). B., BDU nəşr.,2003.

5.Kazımov Q. Müasir Azərbaycan dili (morfologiya). B., Nurlan, 2010.

6.Кононов А.Грамматика турецкого языка. М., 1941.

7.Mirzəzadə H. Azərbaycan dilinin tarixi qrammatikası. B., ...

8.Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. II hissə. B., Nurlan, 2007.

9.Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. B., Nurlan, 2008.

ГАСАНОВА НАХИДА

ЗАКОНОМЕРНОСТЬ УПОТРЕБЛЕНИЯ СУФФИКСА –ÇILIQ[4] (-ЧЫЛЫГ[4]) В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В статье речь идѐт об общей закономерности употребления суффикса –çılıq[4] (-чылыг[4]) в современном азербайджанском языке. На основе слов разных частей речи исследуются статус и структура этого суффикса и разъясняется, состоит ли он из морфем –çı+lıq (-чы+лыг) или является слитным суффиксом -çılıq[4]. В словообразовании азербайджанского литературного языка наряду с суффиксами –çı и –lıq функционирует и суффикс -çılıq[4], состоящий из слитных компонентов. Данный суффикс, являющийся новой лексической единицей относительно указанных компонентов, за последние годы стал весьма продуктивным. В то же время при его употреблении наблюдаются нарушение опроделѐнной закономерности и избыточность речи. Суффикс -çılıq[4], участвующий в образовании имѐн существительных в основном в форме –çı+lıq (*öhdəçilik «обязательство», arıçılıq « пчеловодство»* и др.), в образовании прилагательных закрепился как окаменевшая единица (*nigarançılıq «беспокойство», mehribançılıq « дружелюбие, задушевность», kasıbçılıq «бедность, беднота»* и др.).

Основная цель исследования – подтвердить тот факт, что первый компонент слитного суффикса -çılıq[4] в именах существительных во всех случаях не оправдывает себя (*toyuqçuluq «куроводство», həkimçilik « врачевание»* и др.), в прилагательных же в целом он не играет новой лексической роли (*xoşbəxtçilik-xoşbəxtlik «счастье», narahatçılıq-narahatlıq «тревога, волнение»*).

HASANOVA NAHIDA

THE REGULARITY OF USE OF SUFFIX -ÇILIQ[4] (-CHILIG) IN THE MODERN AZERBAIJANI LANGUAGE

SUMMARY

The article deals with the general regularity of use of suffix -çılıq[4] (-chilig[4]) in the modern Azerbaijani language. The status and structure of this suffix are studied on the basis of the words of the different parts of speech, it is explained whether it consists of two morphemes -çı+lıq (-chi+lig) or is a solid suffix -çılıq[4]. The suffix -çılıq[4] which consists of solid components functions in the word –formation of the Azerbaijani literary language together with the suffixes –çı and –lıq. This suffix being a new lexical unit in regard to the components has been very productive recently. At the same time there is breach of a certain regularity and surplus speech during its use. The suffix -çılıq[4] that takes part in formation of nouns in the form -–çı+lıq (*öhdəçilik «obligation», arıçılıq « beekeeping»* etc.), has taken root as a petrified unit in formation of adjectives (*nigarançılıq «anxiety», mehribançılıq « sincerity, friendly spirit», kasıbçılıq «poverty»* etc.).

The main purpose of the research is to confirm the following fact: the first component of the solid suffix -çılıq[4] in nouns doesn't justify itself in all cases (*toyuqçuluq «poultry», həkimçilik « doctor's activity»*), and it doesn't play a new lexical role in adjectives (*xoşbəxtçilik-xoşbəxtlik «happiness», narahatçılıq-narahatlıq «alarm»*).

Rəyçi: professor Qulu Məhərrəmli

MİRVARİ QASIMOVA
ADPU
qasimovamirvari@gmail.com

ANTONİMLƏRİNİN ZİDİYYƏTİN DƏRƏCƏSİ BAXIMDAN TƏHLİLİ

Açar sözlər: *antonim, ziddiyyət, kontrar, komplementar, konversiv, vektorial.*
Key words: *antonym, contradiction, contrary, complementary, conversiv, vectorial.*
Ключевые слова: *антоним, противоречие, контрарный, комплементарный, конверсивный, векториальный.*

Antonimlərdən bəhs edərkən "ziddiyyət, əkslik" və "antonimlik" anlayışlarını bir-birindən fərqləndirmək zəruridir. Əslində, "ziddiyyət" daha geniş kateqoriyanı təmsil etməklə leksik ziddiyyətin komplementarlıq (single-married), ənənəvi antonimlər, konversivlik (buy-sell), homoantonimlik, avtoantonimlik kimi müxtəlif növlərini əhatə edir. Antonimlik ikinci növ zidiyyətdir. Ənənəvi olaraq ziddiyyətin antonimliklə üç növü əlaqələndirilir:

1) kontradiktor (high-low);

2) qradual (keyfiyyət bildirən, dərəcələnən; large-small) və *3) vektorial* (to widen-to narrow). Beləliklə, antonimlik bir neçə növdə mövcud olur [11, 83 -84].

Göstərilən antonim növləri barədə mövcud linqvistik fikirləri nəzərdən keçirdikdə məsələyə yanaşma aspekti rəngarəngliyi ilə diqqəti cəlb edir. Bunlardan bir neçəsinə diqqət yetirək:

I. Kontrar (dərəcələnən) antonimlər – Bu antonimlər əkslik münasibətində olan sözlərin ən tipik növünü təmsil edirlər. "Kontrar antonimləri ifadə etdikləri keyfiyyətdə artan fərqə görə nizama düzmək (sıralamaq) mümkündür. Bu zaman sıranın bir-birindən ən uzaqda yerləşən elementləri kontrar anlayışlar kimi təsnif olunacaqlar" [14, 50].

Kontrar antonimlər bir sıra fərqləndirəndirici xüsusiyyətlərə malikdirlər:

I) antonim cütlük üzvlərindən birinin istifadəsi (təsdiqi) digərininin mütləq inkarı nəticəsini vermir. Yəni, əgər biz bir şeyi inkar ediriksə, bu antonim cütlüyün əks qütbündə duran digər sözün mütləq təsdiq edilməsi demək deyil, məsələn, "Anam *cavan* deyil" fikri mütləq şəkildə "Anam *qocadır*" fikrinə dəlalət etmir, əsas vermir. Bu hal nisbidir, belə ola da bilər, olmaya da. Bundan başqa cütlüyü əmələ gətirən hər iki sözün də xarakterizə edilən şəxs, hal, vəziyyət, proses və s. üçün müvafiq olmaması halı mümkündür. Məsələn, insanın nə gözəl, nə də çirkin, vəziyyətin nə yaxşı, nə də pis; havanın nə isti, nə də soyuq, filmin nə maraqlı, nə də cansıxıcı olması mümkündür [6, 15].

II) dərəcələnən antonimlər adından da göründüyü kimi müəyyən bir halı, vəziyyəti, əlaməti, keyfiyyəti hansısa dərəcədə ifadə edirlər. Onlara daha çox sifətlər arasında rast gəlinir. Bu tip antonimlər "biri-birini qarşılıqlı istisna etməmək (are not mutually exclusive)"[6, 15] xüsusiyyətinə malik olduqlarından asanlıqla dəyişdirilə, müqayisə və üstünlük dərəcələrində istifadə oluna bilirlər. *Məsələn, cold-colder-the coldest / hot-hotter-the hottest; dood-better-the best /bad-worse-the worst:* "It was *the best* of times, it was *the worst* of times, it was the age of *wisdom*, it was the age of *foolishness" (C.Dickens "A tale of two cities).*

III) dərəcələnən antonimlər arasında üçüncü bir sözün mümkünlüyü də onu fərqləndirən cəhətlərdən biri kimi göstərilə bilər. Bu zaman həmin o "üçüncü" söz

antonim cütlüyün iki zidd qütbündə duran sözlər arasında orta, aralıq mövqedə olur, ifadə olunan məna baxımdan cütlük üzvlərindən heç birinə yaxınlığı ilə fərqlənmir. "İngilis dili *wide-narrow, big-small, old-young* tipli hər hansı bir *keyfiyyətin müxtəlif dərəcəsini* bildirən antonim sifətlərlə zəngindir. Hər hansı bir keyfiyyətin müxtəlif *dərəcələrini* bildirən antonim cütlük üzvlərini dərəcələnən (gradable) və ya kontrar antonimlər adlandırmaq mümkündür. Bu qəbildən olan antonimlər eyni bir anlayışa aid olan müəyyən bir keyfiyyəti müxtəlif dərəcələrdə ifadə etməklə səciyyələnir. Dərəcələnən antonimlər arasında aralıq mövqeli (intermediate) sözlərin mövcud olması onları fərqləndirən cəhətlərdən biri kimi göstərilə bilər, məs: *hot-cold* antonim cütlüyü arasına bu keyfiyyətin nisbətən zəif dərəcəsini bildirən *warm-cool* sözlərinin daxil edilə bilməsi təbiidir: *hot-warm-cool-cold* "[9, 53-54].

Antonimlərin bu qeyd edilən keyfiyyəti də məhz real aləmdəki proses, hal, vəziyyət və s. bağlıdır. Belə ki, insanın nə *kök*, nə də *arıq* olmayıb *dolu* olması, filmin nə *əla*, nə də *pis* olmayıb "*babat*" olması, hasarın nə *hündür*, nə də *alçaq* olmayıb *orta hündürlükdə* olması real və təbiidir.

IV) Kontrar antonimlərin "dərəcə bildirmə" xüsusiyyəti müxtəlif normalar əsasında müəyyən edilir. Yəni bütün obyeklər üçün vahid norma müəyyən etmək mümkün olmadığından nəyinsə müəyyən dərəcədə olması fikri həmişə nisbi xarakter daşıyır. Belə ki, eyni bir hal,vəziyyət, keyfiyyət, xüsusiyyət bir obyektə görə çox, digərinə görə isə az dərəcədə ola bilir, məsələn, *kasıb* milyoner *varlı* kasıbdan həmişə varlıdır; kiçik tarla böyük bostandan bir qayda olaraq böyükdür və s.

Lih C. bu obyektyönümlü normanın həm də danışan, "hərəkəti icra edən yönümlü" olmasına diqqət verməyi təklif etmişdir. Dilçi hesab edir ki, "X çirkindir" fikri danışanın biri üçün doğru, digəri üçün yalan ola bilər; "X yaxşı müdirdir" fikri işçi üçün doğru, müdirin qızı və ya arvadı üçün səhv ola bilər, belə ki, onun iş icraçısı kimi yaxşı, ər və ya ata kimi isə pis olma ehtimalı da vardır" [8, 100-110].

2. Komplementar (binar) antonimlər- əksər dilçilik mənbələrində antonimlərin ənənəvi növlərindən hesab edilir və ingilis dilində *man/woman, alive/dead, married/unmarried* (qadın-kişi, erkək –dişi, canlı-ölü, evli-subay) tipli antom cütlüklərin timsalında nümunələşdirilir. Dilçilik mənbələrində antonim sözlərin bu növünün çoxlu sayda fərqli terminlərlə adlandırılmasına rast gəlirik: "binary taxonomy" [8, 109]; "komplementar" [9; 5]; "simple binary opposition" [10, 84]. Zənnimizcə, belə termin pərakəndəliyi məsələdə çətinlik və dolaşıqlıq yaradan məqam kimi qiymətləndirilməli, lüzumsuz hesab edilməlidir.

Antonimlərin bu növü həm də fərqli yanaşmalarla da səciyyələnir:

Komplementar antonimlər zidd anlayışları bildirən, bir-birini qarşılıqlı inkar edən və eyni zamanda da biri-birini ümumi bir məfhumda tamamlayan sözlər kimi tanımlanır. Qeyd edilir ki, bu növ antonimlərdə dərəcələnmə və nəticə etibarilə aralıq mövqedə olan anlayış yoxdur [12, 64].

İngilis dilində antonimlərin bu növü İ.V.Zıkova tərəfindən də fərqləndirmişdir, lakin o, kontradiktor terminindən istifadə etmişdir [13, 46].

Antonimlər arasındakı zidiyyətin *komplementar* novünə A.D.Kruz da toxunmuşdur. Məfhumlar ardasında zidiyyətin bir neçə formada mövcud olduğunu düşünən dilçi komplementar ziddiyyəti konseptual cəhətdən bunlardan ən sadəsi hesab edir və bu ziddiyyətli antonimik münasibəti olan cütlüklərin mahiyyətini onlar arasına üçüncü, aralıq mövqeli hər hansı bir elementi daxil etməyin mümkün olmaması ilə izah edir. Yəni bu növdə əlaqəsi olan cütlüklərin bildirdiyi anlayış ancaq onlardan birinə

şamil olur, nisbi xarakterli digər bir hala yol verilmir; məs: *ölü-diri (sağ); açıq-bağlı; doğru-yalnış; keçmək-kəsilmək (imtahandan)* və s. " Əgər iki sözdən biri verilmiş situasiyada inkar edilirsə, onda digəri həmin situasiya üçün məqbul hesab edillir və əksinə, məs: "Con ölməyib " cümləsi "Con sağdır" fikrinə əsas verir [4, 199].

C.Layonz *male-female, married–single, alive-dead* nümunəli antonimləri *komplementar* adlandırır və qeyd edir ki, bu növün fərqləndirici əlaməti onların yalnız iki sözdən ibarət olması, yəni onun tərəfləri arasına əlavə, aralıq mövqeli sözlərin daxil ola bilməməsidir. C.Layonz komplementar antonimləri ümumilikdə götürdükdə antonim növü kimi tanımağın bir o qədər də tərəfdarı olmamışlar və "antonimlik" terminini *(label)* ancaq antonimlərin dərəcələnə bilən növünə (kontrar) şamil etməyi, onlarla məhdudlaşdırmağı doğru hesab etmişdir [7, 277-279].

C.Layonzun fikirləri A.D.Kruz tərəfindən dəstək görsə də, bir sıra dilçilərə inandırıcı gəlməmişdir: "Demək olar ki, istənilən dərəcələnməyən antonimi dərəcələndirmək mümkündür, məs: qadın-kişi antonim cütlüyü cinsiyyəti dəyişmə və ya xoromosom tədqiqatı kontekstikdə" dərəcələnə bilər [5, 76].

Bundan başqa ənənəvi dərəcələnməyən antonimlər də kontekstin tələbi ilə dərəcələnə bilir. Buna da antonim sözün qarşısında *very, more, extremely, too və s.* kimi qüvvətləndirici sifət və ya zərflərin istifadə edilməsi ilə nail olmaq mümkündür :

I feel much <u>more alive</u> when I am acting

Mən səhnədə özümü <u>daha canlı</u>, <u>daha diri</u> hiss edirəm.

Dərəcələnən antonimlərdə isə bu mütləqlik nəzərdə tutulmur, yəni burada verilmiş keyfiyyət mənalı bir sözün inkarı o biri anlayışın mütləq təsdiqini şərtləndirmir, məs: isn"t wide = is narrow nəticəsi mütləq xarakter daşımır, bu belə ola da bilər, olmayada [9, 55].

Azərbaycan dilçiliyində fərqləndirilən *nisbi* antonimlər ingilis dilçiliyindəki *kontrar* antonimlərə *tam* antonimlər isə *komplementar* antonimlərə qismən yaxındır. Belə ki, əvvəldə göstərdiyimiz kontrar antonimləri fərqləndirən üçüncü əlamət nisbi antonimlərə şamil edilir, tam antonimlərin isə bu xüsusiyyətdə olmaması qeyd edilir: "Tam antonimlər bildirdikləri anlayışda üçüncü, zəif ehtimala yer qoymurlar, məs: *artıq-əskik, ağıllı-dəli,almaq-vermək*, *ağ-qara, dağ-dərə, yay-qış,acı-şirin və s.* Nisbi antonimlərdə isə əksinə, ifadə olunan anlayışlarda ziddiyyət nisbətən zəifdir, şərtidir, məs: *azarlı-sağlam, avara-işgüzar*, *yatmış-ayıq*, *ağ-yaşıl, dağ-düz, yay-yaz, acı-turş və s.*[1, 36-37]; [3, 189-190].

Nisbi antonimlər məsələsi heç də bütün dilçilər tərəfindən məqbul qarşılanmır "nisbi antonimlik anlayışı olsa-olsa nitq (mətn) və üslubiyyat üçün yararlı sayıla bilər. Həmin anlayışı dil sisteminə gətirmək heç də əlverişli deyildir" və *dağ-düz, ağ-boz, ağ-göy, payız –qış* kimi nisbi antonim cütlüklərin yaradılması "leksik semantikada *paradiqmatik qarşılaşdırmaları* ucdantutma antonimliyə, yəni əks mənalılığa çəkib gətirmək" [2, 97] hesab edilir.

İngilis mənbələrində əsasən antonim fellərdə müşahidə olunan *konversiv* antonimlərdən də bəhs edilir. Antonimliyin bu növü *ascend-discend, ask-answer*, *buy-sell,open-close* tipli antonim fellərlə yanaşı *wife-husband, parent-child, doctor-patient və s.* biri-digərini qarşılıqlı şərtləndirməklə vasitəsiləyaranan ismi antonim cütlüklərə də şamil edilir**.** Bu antonimlərdə tərəflərdən biri "əks, geriyə doğru istiqamətlənmiş" münasibət ilə digərini şərtləndirir, yəni əgər A→ B-yə satırsa, B→A-dan alır, A→B-nin əridirsə, B →A-nın arvadıdır və s. Bu cür antonim cütlüklərdəki ziddiyyət C.Layonz təfərindən *konverslik (converseness-əkslik)* termini ilə ifadə edilmişdir [7].

F.R.Palmer və C.Liç bu antonimlərin məzmunundakı ziddiyyətin sırf nisbi xüsusiyyətlərini nəzərdə tutaraq onlar arasındakı münasibəti *əlaqəli ziddiyyət (relational opposition*) adlandırmağı üstün tuturlar [9, 55]; [8, 110].

Dilçilər bu antonim növündən danışarkən diqqəti antonim cütlüyün yaradan sözlərdən hansısa birinin digər antonim növlərində iştirak edə bilməsi faktına yönəldirlər. Məsələn, *parent-child* (valideyn-uşaq) antonim cütlüyündə iki söz bir-birini qarşılıqlı şərtləndirməklə vektorial münasibətdə çıxış edirlər. Belə ki, child sözü burada "oğlan və ya qız övlad" mənasında işlədilir. Həmin *uşaq* sözü *adult-child* (*yetkin(yaşlı)-uşaq*) opozisiyasında isə dərəcələnən antonimdir, çünki "yaşı az olan, yetkinlik yaşına çatmayan" mənasında işlədilmişdir.

Başqa bir mənbədə isə konversiv antonimlərin kontekst daxilində bir-birini əvəzləyə bilmə xüsusiyyəti barədə qeyd edilir: "Konversivlik güzgü-surət əlaqəsi və ya funksiyasıdır, *give-receive, ancestor-descendant, parent-child* və s. bu kimi antonim cütlüklərdə rast gəlinir. Bu antonimlər məlumun məchula çevrilməsi ilə müşahidə edilən hallarda biri-birini əvəzləyə bilirlər. Müvafiq morfoloji və sintaktik dəyişiklik və düzgün sözönü seçimi təmin edildikdə konversiv antonimin dəyişdirilməsi cümlənin mənasını dəyişmir, məs: He *gave* her flowers. She *received* flowers from him.= She was given flowers by him " [12, 64].

Kontrar və *komplementar* antonimlərdən fərqli olaraq *konversiv* antonimlərdən Azərbaycan dilçilərindən A.Q.Ələkbərov bəhs etmişdir. Fel kontekstində antonimliyi araşdırmış dilçi sadə fellərdən ibarət olan antonimləri iki qrupa ayırır:

a) feli konversivlər – iki hərəkətin orta fəzası eyniyyət təşkil edir, istiqamətləndirilmiş hərəkətin başlanğıc və son fəzaları qarşılaşdırılır. Konversivlər iki cür olur: 1) *obyektiv konversivlər* danışanın mövqeyindən asılı olmur; məs: *girmək-çıxmaq, enmək-qalxmaq, oturmaq-durmaq, açılmaq-tutulmaq, atılmaq-düşmək, açmaq-örtmək (bağlamaq), atmaq-tutmaq* və s.; 2) *subyektiv konversivlər*də isə hərəkətin istiqaməti danışan şəxsə görə müəyyənləşir. Müasir Azərbaycan dilində cəmi bir neçə cüt subyektiv konversiv vardır: *getmək-gəlmək, aparmaq-gətirmək, almaq-satmaq, udmaq-uduzmaq;*

b) sözün tam mənasında feli antonimlər (sırf antonimlər) – feli hal, yaxud vəziyyətin qarşılaşdırılması hər iki felin bütöv məzmunu üzrə özünü göstərir: *yaşamaq-ölmək, küsmək-barışmaq, ağlamaq-gülmək, üşümək-isinmək, itirmək-tapmaq, yanmaq-sönmək* və s. [2,99-100].

Antonimlərin leksik mənadakı zidiyyətin növü əsasında fərqləndirilən sonuncu növü isə qeyd edildiyi kimi *vektor* antonimlərdir. Bu antonimlər müxtəlif istiqamətli hərəkət, xüsusiyyət, keyfiyyət və s. bildirən sözləri əhatə edir, məs: up-down, to rise-to fall, to button-to unbutton, to praise-to scold və s. [12, 64].

ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Cəfərov S.Ə. Müasir Azərbaycan dili. II hissə, Leksika. Bakı: Şərq-Qərb, 2007, 191s.
2. Ələkbərov A.Q. Fellərin antonimliyi. //Müasir Azərbaycan dilinin semasiologiyası. Oçerklər // Bakı, "Elm", 1985, səh. 94-101
3. Xəlilov B. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı: Nurlan, 2008, 442 s.

İngilis dilində:

4. Cruse D.A. Lexical Semantics, Cambrigde: Cambridge University Press, 1986, 310 p.
5. Jacson H. Words and their meaning.London: Longman, 1988.
6. Jhones S. A Corpus-based perspective. London &New York, 2004, 193 p.
7. Layonz J. Semantics. 2 vols., Cambrigde: Cambridge University Press, 1977, 371 p.
8. Leech G.N. Semantics. Harmondsworths: Penguin Books, 1974, 386 p.
9. Palmer, F. R. Semantics, Moscow, "Vysšaja škola", 1982, 109 p.
10. Kempson R.U. Semantic theory. Cambrigde: Cambridge University Press, 1977.

Rus dilində:

11. Бабич Г.Н. Lexicology: A Current Guide (Лексикология английского языка)
Москва, «Наука», 2010, 200 с.
12. Волкова А.А.EnglishLexicology: TheoryandPractice. Владивосток :Издательский дом Дальневост. федерал.ун-та, 2012, 235 с.
13. Зыкова И.В. Практический курс английской лексикологии. М. Издательский центр «Академия», 2008, 288с.
14. Муругова Е.В. Лексикология современного английского языка. Ростов н/д: 2009, 92 с.

GASIMOVA MIRVARI

ANALYSIS OF ANTONYMS FROM THE POINT OF DEGREES OF SEMANTIC POLARITY

SUMMARY

Antonyms are investigated from the point of degrees of semantic polarity. The current approaches to the problem in the english language is researched in comparison with Azerbaijani language. Four major types of antonyms distinguished in the english language, i.e. contrary, complementary, conversive, vectorial and two types, i.e. relative and whole (complete) in Azerbaijani are investigated on the basis of *degrees of semantic polarity*. Each type is analysed basing on proper theoretical information given by specialists.

КАСЫМОВА МИРВАРИ

АНАЛИЗ АНТОНИМОВ С ТОЧКИ ЗРЕНИЯ СТЕПЕНИ СЕМАНТИЧЕСКОГО ПРОТИВОРЕЧИЯ

РЕЗЮМЕ

В статье исследуется антонимичные слова с точки зрения *степени семантического противоречия*. Постановка отмечаемого вопроса в английском языке исследуется в сопоставлении с Азербайджанским языком. На основе степени семантического противоречия рассматривается четыре основных вида антонимов (контрарные, комплементарные, конверсивные и векториальные) в английском и два (частичные, полные) в Азербайджанском языках.

Rəyçi: prof. İlham Tahirov

AYTƏN ƏHMƏDOVA
83-aytan@mail.ru

AZƏRBAYCAN DİLİNDƏ QOŞMALARIN SİNTAKTİK MÖVQEYİ

Açar sözlər: *qoşma, sintaksis, cümlə üzvü, sintaktik vəzifə*
Key words: *preposition, syntax, member of the sentence, syntactic task*
Ключевые слова: *предлог, синтаксис, предложение, синтаксическая функция*

Qoşma köməkçi nitq hissəsi olduğu üçün köməkçi nitq hissələrinə aid olan xüsusiyyətlər həm də qoşmaya aiddir. Daha dəqiq desək, qoşma ayrılıqda leksik mənaya malik deyil, leksik-qrammatik sualı yoxdur, söz yaradıcılığında iştirak etmir, müstəqil işlədilə bilmir və sintaktik vəzifə daşımır. Buna baxmayaraq, qoşma sayılan məsələlərin hər birində istisnalarla müşayiət olunur. Belə ki, əsas nitq hissələri ilə köməkçi nitq hissələri arasında keçid xarakterli olduğundan qoşmalarda qeyd edilən xüsusiyyətlərlə yanaşı, əsas nitq hissələri üçün səciyyəvi olan bəzi cəhətləri də görmək mümkündür. Qoşmalar əlaqələndiyi sözə müəyyən məna çaları verir, hətta məzmunu dəyişə bilir, bəzi qoşmalar düzəltmə və mürəkkəb sözlərin tərkibində bir komponent kimi çıxış edir (*aidiyyət, özünəməxsusluq və s.*), bəzi hallarda qrammatik şəkilçilərlə işlənə bilir, nəhayət, qoşulduğu sözlə birlikdə müəyyən cümlə üzvünü formalaşdırır. Deməli, qoşma özündə həm potensial leksik-semantik mənanı qoruyur, həm də qrammatik özəlliyə malikdir.

Qoşmanı digər köməkçi nitq hissələrindənfərqləndirən xüsusiyyətlərdən biri onların ismin bu və ya digər halında olan sözlə birləşərək, müəyyən sintaktik vəzifəni yerinə yetirməsidir. Qoşmanın semantik-qrammatik xüsusiyyətləri onun sintaktik mövqedə müvafiq funksiyasının formalaşmasında da mühüm rol oynayır. Qoşmanın bu xüsusiyyəti haqqında ya qoşmaya dair ədəbiyyatlarda, ya da cümlə üzvlərinin sintaktik vəzifəsindən, xüsusən də cümlə üzlərinin ifadə vasitələrindən bəhs edərkən danışılır. Qeyd olunan əsərlərdə qoşmanın birləşdiyi sözlə birlikdə, bir qayda olaraq, vasitəli tamamlıq və müxtəlif zərfliklər vəzifəsini yerinə yetirdiyi göstərilir. Lakin müxtəlif qrammatik şəkilçilərlə işlənə bilmə qabiliyyəti qoşmalı ifadələrin də qrammatik mövqeyində polifunksionallığı təmin edir, yəni bu ifadələr bütün cümlə üzvü funksiyalarında çıxış edir.

Yeri gəlmişkən bir məsələyə toxunmaq lazım gəlir. Bir sıra əsərlərdə belə bir fikrə rast gəlmək olur ki, "qoşmalar ayrıldığı sözdən genetik əlaqəsini kəsməyib. Ona görə də qoşmalar eyni formada müstəqil cümlə üzvü rolunda çıxış edə bilir**(1: 16).**

Demək lazımdır ki, zərfliyin növləri semantik-qrammatik əsasda formalaşır, yəni bu zaman sözün semantikası əsas olur. Bu baxımdan zərflik vəzifəsini meydana çıxmasında müvafiq potensial semantikaya malik olan qoşmanın da rolu əvəzsizdir. Mübtəda, xəbər, tamamlıq və təyinin funksiyalarının isə iştirak edən qoşmanın leksik-qrammatik səciyyəsi ilə heç bir əlaqəsi yoxdur; bu zaman qoşmalı ifadənin əlaqələndiyi cümlə üzvü ilə struktur-qrammatik əlaqələnməsi və cümlədəki mövqeyi əsas olur.

Onu da demək lazımdır ki, qrammatikaya dair heç bir əsərdə qoşmalı sözün mübtəda funksiyasında çıxış etməsindən bəhs olunmur. Bunun əsas səbəbi mübtədaya verilən tərif və izahdır. Belə ki, iltisaqi dillərdə, o cümlədən türk dillərində mübtədanın bir forması var—adlıq hal (2: 23). Düzdür, mübtəda bəzi qrammatik şəkilçilərlə, məsələn cəmlik, mənsubiyyət şəkilçiləri ilə işlənə bilir, lakin bunlar həmin sözün adlıq hal formasına təsir etmir; cəmlik şəkilçisi sözün müstəqil qrammatik formasını yaradır, mənsubiyyət şəkilçisi isə əvvəlki yiyəlik hallı sözlə əlaqəni quraraq, ikinci və üçüncü

növ təyini söz birləşməsini formalaşdırır. Bu birləşmələr isə bütünlükdə nominativ səciyyə daşıyır. Həmin nominativ formada da cümlənin mübtədası ola bilir.

Qoşma qrammatik kateqoriyaya daxil olub, sözlər arasında əlaqənin yaranmasına xidmət edir. Bu cəhətdən qoşma hal funksiyasını yerinə yetirir. Məhz bu baxımdan qoşma nominativ formadan kənar hesab olunur, elə ona görə də onların iştirak etdiyi söz və ifadələr sözdəyişdirici morfemlər kimi konkret sintaktik vəzifəni formalaşdırır. Lakin qoşmalı sözlərin bəzi tipləri var ki, substantivləşə bilir və bu zaman onlar müxtəlif funksiyaların, o cümlədən mübtəda və xəbər funksiyalarını yerinə yetirir.

Mübtəda və xəbər cümlənin qrammatik əsası olub, semantik əsasla yox, yalnız struktur-funksional əsasla müəyyənləşir. İ.İ. Meşaninov göstərir ki, əksər dillərdə cümlə üzvləri, o cümlədən baş üzvlər xüsusi morfoloji əlamət qazanır ki, bu da sintaktik funksiyanı yaradır...Belə ki, cümlə üzvlərinin idarəsi və birləşməsi bütün dillərə aiddir, amma müxtəlif qrammatik üsullarla verilir (3:8). Deməli, hər bir cümlə üzvü qrammatik cəhətdən formalaşmış olur, qrammatik formalar sintaktik səviyyədə müxtəlif əsaslarda müvafiq cümlə üzvlərinin meydana çıxmasına şərait yaradır. Bu isə o deməkdir ki, istənilən dil vahidi—səs, söz, cümlə substantiv vəziyyətdə nominativ formada cümlənin mübtədası, şəxs-xəbərlik şəkilçisi ilə xəbər ola bilər.

Burada nəzərə almaq lazımdır ki, mübtəda cümlədə yalnız özünəməxsus qrammatik formada təzahür etməklə kifayətlənmir, habelə məzmun cəhəti ilə diqqəti çəkir. Məzmun cəhətdən mübtəda baş üzv olub, bu və ya digər şəkildə xəbərdəki məzmunun predmetini bildirir (4:18). Müxtəlif məzmunlu söz və ifadələr substantivləşəndə məhz bu keyfiyyəti qazanmış olur. Qoşmalı söz də mənsubiyyət şəkilçisi ilə işləndikdə müxtəlif qrammatik formalarda başqa cümlə üzvləri kimi, mübtəda ola bilir. Bununla yanaşı, digər sözlər və söz birləşmələri kimi, qoşmalı ifadələr də xəbərlik şəkilçisi ilə işlənərək, xəbər vəzifəsi daşıyır. Məsələn: *Kosaoğlu başa düşürdü ki,* ***onun kimisi*** *heç vaxt dediyindən dönməz*(İ.Şıxlı); *Eşitmişəm, bu təklif də* ***sənə aiddir***(V.Sultanlı).

Bu nümunələrin birincisində budaq cümlənin mübtədası qoşmalı ismi birləşmə ilə, ikincisində isə xəbəri qoşmalı sözlə ifadə olunmuşdur. Göründüyü kimi, hər iki halda qoşmanın semantik çalar ifadə etməsi cümlə üzvünü fərqləndirməkdə rol oynamır. Demək lazımdır ki, bütün qoşmalı birləşmələr substantivləşə bilmir. Bir qayda olaraq, bənzətmə və fərqləndirmə qoşmaları substantivləşib mübtəda funksiyasında çıxış edə bilir. Predikativliyin ifadə forma və imkanları geniş olduğu kimi, ifadə vasitələri də zəngin və rəngarəngdir, ona görə də qoşmalı ifadələrin xəbər funksiyasında işlənə bilmə imkanı daha artıqdır. Bu baxımdan, demək olar ki, bütün qoşmalar birləşdiyi sözün daxilində xəbərlik şəkilçisi qəbul edib, xəbər ola bilir. Məsələn: 1) birgəlik qoşması: *Mənim davam* ***aqronomladır****, sizinlə işim yoxdur*(İ.Şıxlı); 2) istiqamət qoşması: *Bütün dediklərin****sədrə qarşıdır****, özün isə onun planı ilə işləyirsən*(Ş.Rza); 3) məsafə qoşması: *Çətinliyimiz yeni əkilmiş* ***sahəyə qədərdir***(Ə.Vəliyev); 4) zaman qoşması: *Taxıl yığımı rəhbərliklə* ***görüşdən sonradır*** (S.Rəhimov); 5) səbəb-məqsəd qoşması: *Məğlubiyyətinin səbəbi* ***məsuliyyətsizliyinəgörədir***; 6) bənzətmə qoşması: *Bu sahələr də* ***bayaqkı kimidir****, məhsul verən deyil* (Ə.Vəliyev) və s.

Bu hal qoşmalı sözün təyin funksiyasında da özünü göstərir. Əslində təyin isimlə ifadə olunmuş hər hansı cümlə üzvünə aid olub, əlamət keyfiyyəti bildirir. Məlumdur ki, dilimizdə bənzətmə, müqayisə bildirən qoşmalar da vardır: *kimi, qədər, tək.* Bu qoşmaların birləşdiyi sözlər məhz təyinlik xüsusiyyətinə malikdir. Bu qoşmalarla işlənən söz və ifadələr, əsasən, feillə əlaqələnib, tərz məzmunu yaradır. Lakin bəzən bu tip ifadələr isimlə də əlaqələnib, təyin funksiyasında çıxış edə bilir. Məsələn: *Valeh* ***qızıl***

***kimi** oğlandır, özü də qızı çox sevir(*İ.Əfəndiyev*);**Əbədi bir eşq yaşamaq kimi** dəli bir istək keçir könlümdən; **İstədiyiniz qədər** insan çağıra bilərsiniz (Ş.Rza) və s.*

Həm təyinin, həm də tərzi-hərəkət zərfliyinin müəyyənləşməsi struktur-qrammatik, habelə məzmun tərəflə bağlıdır. Birinci halda onlar bir-birindən fərqlənir, yəni təyin isimlə ifadə olunmuş hər hansı bir üzvə, tərzi-hərəkət zərfliyi isə feili xəbərlə əlaqələnir. Bu cümlə üzvlərinin müəyyənləşməsinin semantik əsası ondadır ki, hər ikisi əlamət bildirir. Burada da struktur-qrammatik müəyyənləşmə əsasdır, çünki əlamət bildirən söz və ifadələr təkcə təyin və zərflik yox, istənilən cümlə üzvü ola bilir.

Tamamlıq da semantika əsasında yox, struktur-qrammatik mövqeyinə görə müəyyənləşir. Tamamlıq, əsasən, obyekt bildirir, adlıq və yiyəlik hallardan başqa, digər hallarda və qoşmalarla formalaşır. Bu zaman nə sözün leksik-semantik mənası, nə də qoşmanın yaratdığı məna çaları tamamlığın müəyyənləşdiricikriteriyası ola bilmir. Bu hal bir də onda özünü göstərir ki, bir sıra qoşma növləri vasitəli tamamlığın formalaşmasında iştirak edir. Birgəlik, səbəb-məqsəd və fərqləndirmə qoşmaları vasitəli tamamlığı yaradır. Onu da demək lazımdır ki, bu qoşmaların hamısı və ya hər məqamda tamamlıq funksiyasını formalaşdırmır. Bu hal qoşmanın hansı məna çalarını yaratması ilə bağlıdır.

Fərqləndirici qoşmalara aid edilən "*başqa, ayri, savayı, özgə, qeyri"* sözlərinin birləşdiyi sözlərə verdiyi çalar əslində hal məzmununda qrammatik səciyyə daşıyır, daha doğrusu, hərəkətlə və ya digər məzmunlu xəbərlərlə zərflik səviyyəsində əlaqəyə girmir, burada obyekt münasibəti daha üstündür. Ona görə də bu vəziyyətdə həmin ifadələr vasitəli tamamlıq kimi qəbul edilir.

Bu qoşmalarla formalaşan ifadələr cümlədə xüsusiləşmiş tamamlıq olur**.** Qeyd edək ki, xüsusiləşmə yalnız intonasiya ilə və qoşmaların köməyi ilə yaranır. Qoşmalar müxtəlif tipli söz və birləşmələrə qoşularaq, bir qayda olaraq, xüsusiləşmiş tamamlıq və ya xüsusiləşmiş zərfliyi formalaşdırır.

Məlum olduğu kimi, xüsusiləşmiş üzv digər cümlə üzvlərindən xüsusi intonasiya ilə ayrıldığından onlar özünəməxsus suala da malik deyil. Məsələn: *Yolun kənarındakı ulğunlu**torpaqdan başqa**, bütün sahələr əkinə yararlı idi(*Ə.Vəliyev).

Göstərilən qoşmalar müxtəlif tiplərdə məna variantları yaradır. 1. Xüsusiləşmiş tamamlıq bir əşyanın başqası ilə eyni səviyyəli, yaxud eynicinsli olduğunu bildirir. Məsələn: *Alməmməd kişidən və Gülgəz xaladan başqa, onların uşaqları da burada idi* (S.Vəliyev). 2. Xüsusiləşmiş tamamlıq bütövün bir hissəsini bildirir. Bu zaman xəbərdə verilmiş fikir xüsusiləşmiş tamamlığa aid olmur. Məsələn: *Taxıl zəmisindən başqa, hər yer suyun içində idi*(S.Rəhimov). 3. Bəzən xüsusiləşmiş tamamlıq, əksinə, cümlə üçün müsbət fikri özündə ehtiva edir. Məsələn: *Anasından başqa, heç kim onu qarşılamağa çıxmamışdı*(B.Bayramov). Göründüyü kimi, ikinci halda xəbər təsdiqdə, üçüncü halda isə inkarda olur.

Digər qoşmalar isə xüsusiləşmiş tamamlıq yaratmır, bu sözlər cümlənin xəbəri ilə birbaşa əlaqəyə girib, vasitəli tamamlıqlar formalaşdırır. "*Haqqında, barəsində*" qoşmaları birmənalı şəkildə vasitəli tamamlıq yaradır. Məsələn: ***Atası haqqında** ilk məlumatı birinci sinfə gedərkən dayısından öyrəndi*(İ.Əfəndiyev).

Qeyd edək ki, qoşma birləşdiyi sözə müəyyən məna çaları aşılayaraq, onda sintaktik səviyyədə fərqli məzmun yarada bilir. Bu zaman həmin sözlər sintaktik funksiyasını dəyişə bildiyi kimi, dəyişməyə də bilir. Sintaktik funksiyanın dəyişməməsi təsadüfi xarakter daşıyır; belə ki, bəzi məqamlarda qoşmanın potensial məzmunu aid olduğu sözün məzmunu ilə uyğun olduğda sintaktik funksiya dəyişmir. Məsələn: *Səhərə hamımız şəhərə çatarıq.* Bu cümlədə "*səhərə*" sözü zaman zərfliyi funksiyasındadır. Həmin sözü məsafə-zaman məzmunlu qoşma ilə işlətdikdə belə alınır: *Səhərə kimi*

hamımız şəhərə çatarıq. Buradakı "*səhərə kimi*" ifadəsi də zaman zərfliyi vəzifəsindədir. Deməli, qoşmanın əlavə edilməsi sözün sintaktik vəzifəsində dəyişiklik yaratmadı.

Bu fakt onun təsdiqi deyil ki, qoşma birləşdiyi sözün sintaktik vəzifəsini dəyişmir. Əslində qoşma istənilən sözə birləşə bilməz; bu zaman onları əlaqələndirən semantik yaxınlıq olmalıdır. Bu yaxınlıq həm onların fərdi semantik çəkisi ilə, həm də müvafiq semantik qrup ilə əlaqədar ola bilər. Yuxarıda verdiyimiz nümunədə müvafiq semantik qrup, yəni ümumi hüdud anlayışı "*səhər*" sözü ilə "*kimi*" qoşmasının əlaqəsini, birləşməsini reallaşdırmışdır. "*Səhər*" sözü özlüyündə hüdud anlayışına malik deyil, lakin yönlük hal şəkilçisi ilə işlənməsi bu sözdə hüdud məzmununun meydana çıxmasını şərtləndirmişdir.

Bu qoşmanın hüdud anlayışı onun başqa sözlə əlaqəsində də meydana çıxır. "*Şəhərə dolanbac yollarla gedəcəyik*" cümləsində "*şəhərə"* sözü yer zərfliyi funksiyasındadır. Bu sözdə hüdud anlayışı olmasa da, yönlük hal burada da hüdud anlayışını formalaşdırır, lakin əvvəlki cümlədə zamana görə, burada isə məkana görə hüdud vardır: *Şəhərə kimi dolanbac yollarla gedəcəyik*". Bu fakt zaman və məkanın materiyanın atributu olmaq etibarilə bir-birinə yaxın semantik mühitə malik olduğlarını göstərir. Ikinci cümlədəki hüdud anlayışı müvafiq məzmunu, deməli həm də uyğun cümlə üzvünü yaratmadı. Belə ki, "*Şəhərə*" sözü yer zərfliyi idisə, *"şəhərə kimi*" ifadəsi yer yox, kəmiyyət zərfliyi funksiyasını yerinə yetirir; bunu verilən sualdan da aydın görmək olur: *nə qədər?* Bu fakt da "*qədər*" qoşmasının hüdud anlayışı ilə bağlıdır.

Cümlə üzvünün formalaşması üçün yalnız leksik mənalı söz yox, həm də ona birləşmiş qoşma rol oynayır. Elə həmin qoşmanın birləşdiyi sözlərdə yaratdığı hüdud anlayışı daha çox qoşma ilə bağlıdır; *kimi, qədər, -tək* qoşmaları məsafə, hüdud anlayışına malikdir. Ona görə də bu qoşmaların birləşdiyi sözlər daha çox müvafiq anlayışları ifadə edir.

Onu da demək lazımdır ki, qoşmanın birləşdiyi sözün hansı cümlə üzvü olması yalnız bu iki komponentlə bağlı deyil; cümlə komponentlərinin qarşılıqlı semantik-qrammatik əlaqəsinin də burada az rolu yoxdur. Daha dəqiq desək, cümlə üzvünün müəyyənləşməsi yalnız müvafiq komponentin ayrıca semantik tərəfi ilə əlaqədar deyil. İki misala müraciət edək: 1. *Səhərə kimi işləri bitirərik;* 2. *Səhərə kimi çalışmışıq*. Hər iki cümlədə eyni qoşmalı söz işlədilmişdir, lakin onların cümlədəki sintaktik vəzifəsi eyni deyil; belə ki, birinci cümlədə "*səhərə kimi*" ifadəsi görülən işin zamanını bildirir və *nə zaman?* sualına cavab verir. İkinci cümlədə isə eyni ifadə (*səhərə kimi*) miqdar zərfliyi funksiyasını yerinə yetirərək, *nə qədər?* sualına cavab verir.

Əslində "*səhərə kimi*" ifadəsi zaman və hüdud anlayışlarını özündə ifadə edir; bu anlayışlardan birincisi zaman zərfliyinin, digəri isə kəmiyyət zərfliyinin formalaşmasında rol oynayır, lakin bunlardan hansının reallaşması bilavasitə mətn çərçivəsində, daha doğrusu, cümlədə birbaşa əlaqəyə girdiyi əsas sözlə bağlıdır.

Bir məsələni də qeyd edək ki, dilçilikdə qoşmanın, əsasən, məkan və zaman məzmunu bildirdiyi göstərilir, hətta bəzi dilçilər dildə məkanın ifadə vasitəsindən bəhs edərkən məkani-qrammatik hallarla yanaşı, qoşmalardan xüsusilə bəhs edirlər (5: 234-258; 6:8-18 ; 111: 23 və b.).

Qoşmalı sözlərin cümlədə daşıdığı sintaktik vəzifə qoşmanın ifadə etdiyi məna çaları ilə bilavasitə bağlıdır. Belə ki, cümlə üzvü qrammatik kateqoriya olaraq sözlərin qarşılıqlı əlaqəsində formalaşdığı kimi, bu zaman sözün və ya birləşmənin özünün leksik-semantik xüsusiyyətlərinin də burada rolu böyükdür, çünki ikinci dərəcəli üzvlərin, xüsusən də zərfliklərin müəyyənləşməsi qrammatik mövqedən daha çox onların leksik-semantik tərəfi ilə bağlıdır. Bunu zərfliklərin adları da göstərir.

ƏDƏBİYYAT

1. О.К Ямашкина. Функциональная значимость послеложных конструкций в мокшанском языке. АКД, Саранск, 2005.
2. Сайфуллаев А.Р. Семантико-грамматические особенности членов предложения в современном узбекском языке. «Фан», Таюкент, 1984, 128 с.
3. Мещанинов И.И. Членыпредложения и частиречи. Ленинград, 1978.
4. Р.Г.СибагатовОсновныепризнакипредложения. Уфа, 1980, 84 с.
5. Шилова В.В. Пространственныепослелоги в лесномдиалектененецкогоязыка// ЯзыкикоренныхнародовСибири. Вып. 8, 2002, 234-258
6. Рамазанова Р.М. Послелоги в аварскомязыке в ихсопоставлении с английскимипространственнымипредлогами в непространственномзначении. АКД, 2009,
7. Рашидова А.Г. Выражениепространственныхотнощений в лакском, английском и русскомязыках. АКД, Махачкала, 2013, 23 с.

AHMADOVA AYTAN

THE POSITION OF THE AZERBAIJANI LANGUAGE ATTACHMENTS SYNTACTIC

SUMMARY

Despite being part of speech in attachments preposition certain shade of meaning to the word andserved syntactical points, and even the contents of the attachments bilir. Some change the composition of compound words of correction and the potential of a component which acts as a lexical-semantic meaning. Grammatical properties as well as the attachments combined with the indirect object and a variety of words to pair in language. Duty adjectives are some types of words that you know, and this time they various functions, including the functions of subject and the task of processing the suffix pair phrases news. Basic parts of speech by joining them to carry the analogy, distance from the border, when it develops a hint of direction and serves as a member of a different sentence.

АХМЕДОВА АЙТАН

ПОЗИЦИЯ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА ВЛОЖЕНИЯ СИНТАКСИЧЕСКИМИ

РЕЗЮМЕ

Несмотря на то, предлоги являются частью речи, но иногда они имеют синтаксические функции. Даже содержимое может изменить состав сложных слов коррекции и потенциал компонента, который действует как лексико-семантическое значение грамматические свойства, а также вложения в сочетании с непрямым объектом и различными словами в паре.Есть некоторые типы слов, которые вы знаете, и на этот раз они различные функции, в том числе функции субъекта и задача обработки пару суффикс фразы. Основные части речи путем присоединения их нести аналогию, расстояние от границы, когда она развивается намек направлении и служит в качестве члена другово предложения.

Rəyçi: f.e.d.prof. Sənubər Abdullayeva

GÜNEL ƏLİYEVA
Sumqayıt şəhər 28 nömrəli tam orta məktəb
quneleliyeva1985@gmail.com

"KİTABİ-DƏDƏ QORQUD" DASTANLARININ DİLİNDƏ İŞLƏNƏN FARS MƏNŞƏLİ SÖZLƏRİN QURULUŞCA NÖVLƏRİ

Açar sözlər: *"Kitabi-Dədə Qorqud", dastan, morfologiya, fars mənşəli sözlər, sadə, düzəltmə və mürəkkəb sözlər.*
Ключевые слова: *«Китаби-Деде Коркуд», эпос, морфология, заимствованные, персидские слова, простые, производные и сложные слова*
Keywords: *Kitabi-Dede-Gorgud, epos, morphology, Persian originate words, simple, derivative and compound words.*

"Kitabi-Dədə Qorqud" – Azərbaycan ədəbi dilinin ilk təşəkkül dövründə yaranmış ən görkəmli abidədir. Qeyd etmək lazımdır ki, həmin abidə ilk təşəkkül dövrü Azərbaycan ədəbi dilinin təkcə imkanlarını nümayiş etdirmir, həm də təşəkkül prosesinin tarixi "məntiqini" faktlaşdırır. "Kitabi-Dədə Qorqud" un dilində oğuz xüsusiyyətləri qabarıq nəzərə çarpır. Bunu belə izah etmək münasibdir ki, həmin dövrdə (X-XI əsrlər) səlcuqların fəthi ilə əlaqədar oğuz-səlcuqların siyasi mövqeyinin üstünlüyü nəticəsində onların dili ədəbi normanın müəyyənləşməsində əsas götürülmüşdür.

"Kitabi-Dədə Qorqud" – mənşəyi etibarı ilə qədim türk epos təfəkkürünün məhsuludur, bununla belə, formalaşması IX-XI əsrlərə (və daha əvvəllərə) aiddir. XVI əsrdə son dəfə yazıya alınmışdır. Son nüsxənin şifahi olaraq ozonlardan, yaxud XI əsrə aid əlyazmasından köçürülməsi mübahisəlidir, lakin fakt faktlığında qalır ki, "Kitabi-Dədə Qorqud"un dili ən geci X-XII əsrlər Azərbaycan ədəbi dilidir və şifahi formadan yazılı formaya keçid dövrünün məhsuludur.

Tədqiqatçılar "Kitab"ın dilindəki alınma sözləri sonrakı dövrlərə, yəni abidənin ilk dəfə yazıya köçürüldüyü yaxud üzünün köçürüldüyü dövrə aid edirlər-görünür, həmin sözlərin müəyyən hissəsi Azərbaycan dilində məhz şifahi şəkilə, eyni zamanda, tələbat üzündən keçmişdir. Əgər belə olmasa idi, "Kitabi-Dədə Qorqud"un alınma leksikası sonrakı dövrlərdə Azərbaycan ədəbi dilinin yazılı abidələrində və müasir Azərbaycan dilində böyük işlənmə tezliyinə malik olmazdı. Ümumiyyətlə, "Kitab"ın dilindəki alınmaların mütləq əksəriyyəti təşəkkül dövründə Azərbaycan ədəbi dilinin qəbul etdiyi (və Azərbaycan ədəbi dilinin keyfiyyətcə təşkil olunmasında iştirak etmiş) vahidlərdir.

"Kitab"da işlənən sözlərin sayı barədə müxtəlif fikirlər var. Onlardan yalnız ikisinə diqqət yetirək: 2721 söz işlənib (təkrar olunanlar istisna olunmaqla). Bu sözlərin 559-u ərəb və fars mənşəlidir, 3000-ə yaxın söz işlənib. Onlardan 573-ü alınmadır (353-ü ərəb, 205-i fars mənşəlidir, ərəb və fars mənşəli hesab edilən 15 sözün tərkibində isə türk mənşəli morfoloji elementlər müşahidə olunur). Tədqiqatlar zamanı məlum olmuşdur ki, IX-XV əsrlərdə əsərə ərəb, fars, monqol dillərindən xeyli sayda alınmalar daxil olmuşdur.Dastanda işlənən ərəb və fars mənşəli alınmalar, əsasən, dövrün tələbinə uyğun olaraq müharibələr və hərbi istilalar, döyüş məfhumları, eyni zamanda, İslam dini ilə əlaqədar olaraq dini sözlərlə ifadə olunur. məs: comərd, namərd, cəng, casus,

həbs, ləşgər, şahbaz, düşmən, minarə, günah, din,namaz, dua, qiyamət, behişt, əcəl, amin, təkəbbür, Allah, Quran, şəhid, Rəsul Əleyhüssalam və s. Ə.Dəmirçizadənin qeydinə görə əsərdə 350 ərəb mənşəli, 136 fars mənşəli söz var. Belə güman olunur ki, bu alınmalar dastanı şifahi şəkildə yayanlar, dastanın ifaçıları tərəfindən artırılmışdır.

"Kitab"ın leksikasına daxil olan 773 sözün müasir Azərbaycan ədəbi dilində eynilə (ad, ağ, alqış, baş, bir, dil, dilək..), 213 sözün isə fonetik dəyişmələrlə (bəg-bəy,qılıc-qılınc, binmək-minmək, yigirmi-iyirmi, əgin-əyin) işlənməsi müəyyənləşdirilib. "Kitab" da işlənib müasir ədəbi dilimiz baxımından arxaik hesab olunan 200-ə qədər söz şivələrimizdə, xüsusən də qərb şivələrində eynilə və müəyyəın fonetik dəyişmələrlə mühafizə olunmaqdadır.

Bir dildən başqa dilə söz keçəndə yalnız fonetik cəhətdən deyil, morfoloji cəhətdən də müəyyən dəyişikliyə uğrayır. Orijinal dildə hər hansı bir quruluşa malik olan sözlər digər bir dil tərəfindən mənimsənilərkən bəzən eyni ilə olduğu kimi, bəzən isə quruluşuna görə növünü dəyişir. Bu baxımdan xalqımızın ədəbi dil abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanlarındakı fars sözlərinin morfoloji xüsusiyyətləri diqqəti cəlb edir. Onu da qeyd edək ki, fars dili morfologiyası baxımından təhlil zamanı sözlərin fars dilindəki tələffüzü verilir.

a)Fars dilində düzəltmə, lakin Azərbaycan dilində isə sadə söz kimi təhlil olunan sözlər:

Barqah (şah sarayı, şah çadırı)- "bar" (icazə) sözü və yer məfhumu bildirən "qah" şəkilçisindən ibarət düzəltmə söz; **bəxşeş** -"bəxşindən" (bağışlamaq) feilinin kökü "bəxş" və "şin-e məsdəri" adlanan "eş" şəkilçisindən ibarət düzəltmə söz; **didar** (görüş) –"didən" (görmək) feilinin əsası olan "dil" sözü və "ar" şəkilçisindən ibarət düzəltmə söz; **dərhal** (o saat)-farsca yerlik hal məfhumunu ifadə edən "dər" ön qoşması və ərəb mənşəli "hal" (vəziyyət, zaman) sözündən ibarət düzəltmə söz; **məgər**-inkarlıq əlaməti "nə"-nin klassik forması olan "mə" hissəciyi və "əgər" sözündən ibarət düzəltmə söz; **mordar**-"mordən" (ölmək) feilinin əsası "mord" və "ar" sözdüzəldici şəkilçisindən ibarət düzəltmə söz; **pərçin** (çəpərləmə, qoruma)- pərçidən (çəpər çəkmək, pərçimləmək) feilinin kökü olan "pərç" sözü və "in" şəkilçisindən ibarət düzəltmə söz; **pənce**-"pənc" (beş) sözü və "e" şəkilçisindən ibarət düzəltmə söz; **pəhləvan**-"pəhlu" (güc, cəsarət və s.) sözü və "van" şəkilçisindən ibarət düzəltmə söz; **rəvan** (gedən, axan və s.), "rəftən"(getmək) feilinin kökü olan "rəv" sözü və "an" şəkilçisindən ibarət düzəltmə söz; **sərvan** (başçı, hazırda kapitan)-"sər" (baş) sözü və "van" şəkilçisindən ibarət düzəltmə söz; **çənqal** –"cəng" (çaynaq) sözü və "al" şəkilçisindən ibarət düzəltmə söz və s.

Yuxarıdakı misalların morfoloji təhlilindən görünür ki, fars dilində quruluşuna görə düzəltmə olan bu sözlər **(bərgah, bəxşiş, didar, dərhal, məgər, murdar, pərçin, pəncə, pəhləvan, rəvan, sərvan, çəngəl və s.)** Azərbaycan dilində sadə söz kimi qəbul olunmuşdur. Qeyd etmək lazımdır ki, bu sözlərin bəzisi dilimizə keçərkən Azərbaycan dilinin daxili qanunlarına məruz qalaraq, saitləri və hətta samitləri də əvəzlənərək fonetik simasını dəyişən sözlərdir.

b)Fars dilində mürəkkəb, lakin Azərbaycan dilində sadə olan sözlər:

Abdəst (dəstamaz)- "ab" (su) və "dəst" (əl) sözlərindən ibarət mürəkkəb söz; **bərabər** (qarşı, bərabər)- "bər" (sinə) sözünün təkrarı və onların arasında işlənən "a" şəkilçisindən ibarət mürəkkəb söz; **pərvaz** (uçma, hərfən-qanad açma)-"pər" (qanad) və "b" samitinin "v" samitinə çevrilməsi nəticəsində yaranmış "vaz" ("baz"-açıq, açma) sözlərindən ibarət mürəkkəb söz; **sərxoş** –"sər" (baş) və "xoş" sözlərindən ibarət

mürəkkəb söz; sərhəd-"sər" və ərəb mənşəli "həd" (sərhəd) sözlərindən ibarət mürəkkəb söz; **sərhəng** (başçı, hazırda-polkovnik)- "sər və həng" (qoşun, polk) sözlərindən ibarət mürəkkəb söz; sipare (quranın otuz cüzvündən hər biri)-"si" (otuz) və "pare" sözlərindən ibarət mürəkkəb söz; **tirkeş** (ox qabı) –"tir" (ox) və "keşidən" (çəkmək) feilinin kökü olan "keş" sözlərindən ibarət mürəkkəb söz; **çartağ** (əslində "cəhartağ)- "çəhar" (dörd) və türk dillərindəki "tağ" sözlərindən ibarət mürəkkəb söz və s.

Misallardan göründüyü kimi, fars dilində mürəkkəb söz kimi təhlil olunan sözlər **(abdəst, bərabər, pərvaz, sərxoş, sərhəd, sərhəng, siparə, tirkeş, çartağ və s.)** Azərbaycan dilində sadə söz kimi qəbul olunur.

c)Fars dilində mürəkkəb, lakin Azərbaycan dilində düzəltmə olan sözlər;

Aşpəz (aşbaz)- türk mənşəli "aş" və farsca "poxtən" (bişirmək) feilinin kökü olan "pəz" sözlərindən ibarət mürəkkəb söz; **botxane** (bütpərəstlərin ibadətgahı) –"bot" və "xane" (ev) sözlərindən ibarət mürəkkəb söz; **meyxanə** (şərab içilən yer)-"mey" (şərab, çaxır) və "xane" sözlərindən ibarət mürəkkəb söz; **xedmetkar** (xidmətçi)-ərəb mənşəli "xedmet" və farsca "kar (iş) sözlərindən ibarət mürəkkəb söz; **həramzadə** (qanunsuz doğulmuş)-ərəb mənşəli "həram"2 və farsca "zadə" (doğulmuş uşağı) feili bağlamasından ("zadən"-doğmaq, doğulmaq feilindən) ibarət mürəkkəb söz; **şəhbaz, şahbaz** (ağ və böyük şahin quşu; güclü dimdik və çaynağı olub başqa quşları ovlayan yırtıcı şahin növü)- "şah" və "baz" sözlərindən ibarət mürəkkəb söz və s.

Fars dilində mürəkkəb olan bu sözlərin **(aşpəz, bütxana, meyxana, xidmətkar, haramzadə, şahbaz və s.)** tərkibində işlənən və bir vaxt Azərbaycan dilində müstəqil mənaya malik olmuş "pəz" (indi "baz" formasında keçmişdir), "xana", "kar", "zadə" sözləri indi müasir Azərbaycan dilində şəkilçiləşməyə doğru inkişafdadır. Buna görə də biz bu sözləri Azərbaycan dilində düzəltmə söz kimi qəbul edirik. "Şahbaz"dakı "baz" (şahin) sözünə gəldikdə isə bu söz artıq Azərbaycan dilində işlənmədiyindən "şahbaz" sözünü də bu qrupdakı düzəltmə sözlərə daxil edirik.

Bundan başqa dastanın dilində elə sözlər də vardır ki, həm fars və həm də Azərbaycan dilində eyni quruluşa malikdirlər:

d)Fars dilində olduğu kimi Azərbaycan dilində də sadə söz kimi təhlil olunan sözlər:

Avaz, azad, badam, dad, dam, dərviş, divar, zəncir, leş, ləşkər, məst, nər, pir, xub, cəng, cigər, şəkər, şivən, şirin və s.

e)Həm fars və həm də Azərbaycan dilində düzəltmə olan sözlər:

Bizəval (daimi, yox olmayan)- fars dilində mənfi, inkarlıq, yaxud bir şeyin olmadığını ifadə edən "bi" hissəciyi və ərəb mənşəli "zəval" (tələf olma) sözündən ibarət düzəltmə söz; **bitəvəqqof (dayanmadan)-** "bi" hissəciyi və ərəb mənşəli "təvəqqof" (dayanma) sözüdən ibarət düzəltmə söz;

Bitəkəllof (təklif etmədən, qəfil)- "bi" hissəciyi və ərəb mənşəli "təkəllof" (çabalama, rəsmiyyətçilik) sözündən ibarət düzəltmə söz; **bixəbər** –"bi" hissəciyi və ərəb mənşəli "xəbər" sözündən ibarət düzəltmə söz; **nakəs** (şəxsiyyətsizlik, alçaq)-fars dilində mənfilik və inkarlıq bildirən "na" hissəciyi və "kəs" sözündən ibarət düzəltmə söz; **naqah** (birdən, qəfildən) –"na" hissəciyi və "qah" (vaxt) sözündən ibarət düzəltmə söz; **namərd** (rəzil, alçaq, nakişi)-"na" hissəciyi və "mərd" (kişi) sözündən ibarət düzəltmə söz.

Fars dilində düzəltmə olan bu sözlər Azərbaycan dilində də quruluşuna görə düzəltmə söz kimi təhlil olunur.

ə)Həm fars və həm də Azərbaycan dilində mürəkkəb olan:

Banuçiçək- "banu" (xanım, keçmişdə əyan və zadəgan sözlər: ailəsinə mənsub olan qadınlara verilən titul) və türk mənşəli "çiçək" sözlərindən ibarət mürəkkəb söz; **dərgah-e həğğ** (haqq evi, qəbir)- "dərgah" (burada ev; bax dərgah) sözü, izafət əlaməti olan "e" səsi və ərəb mənşəli "həğğ" sözündən ibarət mürəkkəb söz; **zir-o zəbər** (alt-üst)-iki antonim "zir" (alt), zəbər (üst) sözlərindən və bu sözlərin arasında "o" kimi oxunan ərəb mənşəli "və" bağlayıcısından ibarət mürəkkəb söz; **pare-pare** (iki bərabər)- eyni sözün iki dəfə təkrarlanmasından ibarət mürəkkəb söz; **sərçeşmə** (əsas mənbə, bulaq)- "sər" (baş) və "çeşmə" (bulaq, mənbə) sözlərindən ibarət mürəkkəb söz; **hərze-mərze** (boş-boş, axmaq-axmaq)-sözün birinci hecasındakı samitin başqa samitlə əvəzlənməsi nəticəsində düzələn yeni sözün əsil sözə qovuşmasından əmələ gələn mürəkkəb söz; **şəbçıraq** (gecə çırağı)- "şəb" (gecə) və türk mənşəli "çıraq" sözlərindən ibarət mürəkkəb söz; **Şir-e-mərdan** (kişilər və cəsurlar aslanı; Əlinin epiteti) –"şir" (aslan) "mərdan" (kişilər) və izafət əlaməti olan "e" səsindən ibarət mürəkkəb söz və s.

Bu təhlildən göründüyü kimi komponentləri fars və türk, fars və ərəb, yaxud hər iki komponenti fars mənşəli olan bu sözlər **(Banuçiçək, dərgah-i, zir-ü zəbər, para-para, sərçeşmə, hərzə-mərzə, şəbçıraq, Şir-i mərdan və s.)** quruluşuna görə həm fars, həm də Azərbaycan dilində mürəkkəbdir.

Dastanda komponentlərindən biri fars, digəri türk mənşəli olan bir sıra sözlər **(pərli, nəmləmək və s.)** belə birləşmələr tərkibində fars dilində heç bir leksik mənaya malik olmadığından onların fars dilindəki quruluşundan danışmağa ehtiyac yoxdur. Buna görə də biz onları yalnız Azərbaycan dili baxımından təhlil edirik.

Pərli- "pər" (qanad, lələk) və türk mənşəli "li" sözdüzəldici şəkilçisindən ibarət düzəltmə söz. Həmişə "altı pərli gürz" (altı qanadlı və ya altı dilli gürz, peşvər) ifadəsi tərkibində işlənmişdir. Onu da qeyd edək ki, "altı pərli gürz" ifadəsi fars dilindəki "peşvər" sözündən kalka üsulu ilə olunmuş tərcümədir. Digər ana dilli dastanlarda həmin söz "peşvər" formasında işlənmişdir;

Nəmləmək- (islatmaq, yaşlamaq)- "Nəm" (yaş, rütubətli) sözü və türk dillərində düzəltmə feil əmələ gətirən "lə" şəkilçisindən ibarət düzəltmə söz və s.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, eyni tələffüzə malik olan, yaxud Azərbaycan dilinin fonetik qanunlarına tabe olaraq öz fonetik simasını dəyişən fars sözləri eyni, yaxud müxtəlif morfoloji quruluşa malik olmalarına baxmayaraq, digər Azərbaycan sözləri kimi, eyni dərəcə anlaşıldığından, demək olar ki, əsl Azərbaycan sözlərindən seçilmir.

ƏDƏBİYYAT

1. Budaqov L.Z. Сравительный словарь турецко-татарских нареций. СПб, 1869.
2. Əlizadə H. Hatəmi. Fars dili. Bakı, 1961.
3. Пейсиков Л.С. Очерки по словообразованию персидского языка. М, 1973.
4. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı, 1963.
5. M.Ergin. Dede Korkut kitabı. Ankara, 1958.

АЛИЕВА ГЮНЕЛ НИЗАМИ ГЫЗЫ

СТРУКТУРНЫЕ ВИДЫ ЗАИМСТВОВАННЫХ ПЕРСИДСКИХ СЛОВ В ЯЗЫКЕ "КИТАБИ-ДЕДЕ КОРКУД"

РЕЗЮМЕ

В статье рассматривается разнообразие морфологического анализа заимствованных слов в "Китаби-Деде Коркуд". "Китаби-Деде Коркуд" незаменимый источник для изучения Азербайджанского языка в историческом плане. По данным исследований в языке эпоса примерно около 3000 слов. Из них приблизительно 560 слов являются заимствованными с арабского и персидского языков. В статье рассмотрены только заимствованные персидские слова. Насть слова разбирается так, как в персидском языке: простые слова-как простые (avaz, azad, divar и. т. д), производные слова-как производные (nakəs, namərd, nagah и. т. д), сложные слова-как сложные (sərçeşmə, zəbər, para-para и. т. д). Другая часть имеет иной сравнительный разбор, т. е. производные (bargah,bəxşiş, didar и. т. д) и сложные (bərabər, pərvaz, sərhəng и. т. д) персидские слова принимаются как простые, или же, сложные персидские слова (bütxana, xidmətkar, haramzadə и. т. д) как производные в азербайджанском языке. Кроме того, в эпосе имеются персидские слова, которые, принимая суффиксы тюркского происхождения, образуют производные слова (nəmləmək, pərli и. т. д) в азербайджанском языке, но не имеют лексического значения в персидском языке.

ALIYEVA GUNEL NIZAMI KIZI

THE STRUCTURE AND TYPES OF PERSIAN ORIGINATE WORDS USEDIN THE LANGUAGE OF "KITABI-DEDE GORGUD" EPOS.

SUMMARY

Morphological analysis of Persian originate words used in the language of KitabiDedeGorgud epos have been looked through in the article. Kitabi-Dede-Gorgud is irreplaceable source in learning of the Azerbaijan language in the historical direction. According to exploration there are nearly 3000 words in epos language. Approximately 560 words of them were borrowed from the Arabian and Persian language. Only Persian originate words are involved to exploration. Some of the words in Persian are simple (avaz, azad, divaretc), derivatives (naxəş, namərd, nagah, etc), and compound (sərçeşməziruzəbər, para-paraetc). Other words have been analyzed comparatively - derivatives (bargah, bexsis, didaretc) and compound (bərabər, pərvaz, sərhəngetc). Persian words regard simple and derivative in the Azerbaijan language. Besides this, there are some Persian words including Turk originate suffixes and create derivative words in the Azerbaijan language and there is no any lexis meaning in the Persian language.

Rəyçi Emilli Böyükxanım
Filologiya üzrə fəlsəfə doktoru

ƏLVAN CƏFƏROV
Azərbaycan Dövlət Pedaqoji Universiteti
elvancafarov78@mail.ru

AĞDAM RAYONU DİALEKTLƏRİNDƏ SƏS ARTIMI VƏ SƏS DÜŞÜMÜ HADİSƏSİ

Ключевые слова: *правила добавления звука, правила сакрашения звука, Агдамский район.*
Key words: *The sound growth of the event, sound fall event, of Agdam region, phonetic events.*

Ağdam rayonu Qarabağın ən strateji əhəmiyyətə malikolan ərazilərindən biridir. Buna görə də döyüşlər zamanı müharibə zamanı ermənilər Ağdamı xüsusi amansızlıqla işğal etdi. 1993-cu ilin may ayının 11-dən etibarən qızışan bu hücum əməliyyatları həmin il iyul ayının 23-də Ağdamın süqutu ilə başa catır. Bundan sonra 1994-cü il mayın 12-dək davam edən hərbi təcavüz nəticəsində ermənilər Ağdam rayonunun 846,7 kvadrat km-i, yəni ümumi ərazisinin 77,4 %-ni işğal etməyə nail olur. İşğal edilmiş Ağdam şəhəri və 87 kənd oxşarı olmayan bir vəhşiliklə darmadağın edilərək yerlə yeksan olunur. Ağdamın müdafiəsi üzrə döyüşlərdə 5 min nəfərdən çox azərbaycanlı həlak olur, minlərlə insan fiziki şikəstlik qazanır, rayonun 126 min nəfərdən çox əhalisi öz doğma ev-eşiyindən qovularaq məcburi köçkün halına çevrilir. Hal-hazırda Ağdam sakinləri Azərbaycanın bir çox ərazilərinə səpələnmiş və məcburi köçkün vəziyyətində yaşayırlar. Bu araşdırmada müxtəlif ərazilərdə köçkün kimi yaşayan Ağdam sakinlərinin bir çoxu danışdırılmış və sakinlərin dilində olan dialektoloji materiallar toplanmışdır. Toplanmış dialektoloji materiallar içərisində fonetik hadisələri tədqiqata cəlb etməyə çalışacayıq.

Ağdam rayonu şivələrində özünü qoruyub saxlayan səs artımı və səs düşümü hadisələrini nümunələrə əsasən söyləmək olar. Ağdam rayonuın bir çox kəndlərinin, Ətyeməzli, Əliağalı, Baş Qərvənd, Kəngərli, Göytəpə, Eyvazxanbəyli, Əhmədavar, Çullu və sairə kəndlərinin sakinlərinin dilində bunların əsas nümunələrini görmək olar. Səs artımı və səs düşümü hadisəsini aşağıdakı kimi qruplaşdırmaq olar.

1. Səs artımı və səs düşümü hadisəsi.

1.1. Səs artımı hadisəsi, Sait və samit artımı.

1.1.1. Sait artımı hadisəsi.

1.1.1.1. Sözün əvvəlində sait artımı.

Onu da qeyd edək ki, söz əvvəlində saitlərin artımı əsasən alınma sözlərə aid olub, iki vəziyyətdə özünü göstərir: 1) söz əvvəlində sr, sk, sp, şk, ş səslərindən əvvəl; 2) söz əvvəlinde r və bəzən də l səslərindən əvvəl. [2.64]

Rəhmətlik > irəhmətdiy. Məsələn: Surətin qoşunn içində sağı da olan oğlannnar varıdı kin ollar heşzadı fikirrəşmirdilər, ollar ölkənin pütöylüyün millətin sağlamlığını, yaxşılığını fikirrəşirdilər. Heylə oğlannar da varıdı. Elmra məllimə, irəhmətdiy dərs deirdi, savaddı qadınıydı. [Ağayev Şikar Balay oğlu. 60 yaş. Baş Qərvənd]

Spalkomun > isbalkomun. O vax isbalkomudu da: hələ, maliyə şöbəsində. Biz orda olanda hələ o kanar kətdərdən, yuxarı kətdərdən rayona qaçırdılar gəlirdilər

isbalkomun həyətində orda pütün o yarallar, uşaxları ölənnər, ermənnər başdarna nə hadsə gətirif hamsın bizə danışırdılar [Cavadova Fəridə, 69 yaş. Ağdam şəhəri]

Spitakda >İspitakta. Apardı sənət məytəbinin qabağında dokquzun da nöyüt töhdü, oddadı, deyirdi görün, balalarmızı qaz durpasında yandırıflar, uşaxlarmızı durpıya salıf, ağzını sıvarkalıyıf ojağın içinə atmışdılar ermənnər İspitakta. (Əbdüləzimova Xalidə İdris qızı, Kəngərli kəndi. 64 yaş.)

1.1.1.2. Söz ortasında sait artımı.

Söz ortasında sait artımı alınma sözlərdə özünü göstərir.

Qrat > qırat. Orda xəstəxanada bir palatada elə bil ki, yaşadıx, ora da nə qədər qırat tüşdü neçə dənə saldatdarımız hamsı qıçınnan qolunnan yaralı. (Vəliyeva Sədaqət, Əliağalı kəndi, 54 yaş)

Krantımız > kıratımız. Gəldi qaşqınnıxda öldü, dəmimiz variydı dəzgahımız varıdı, üş dənə kıratımız varıdı qapmızda, cənnəte cənnət. (Həsənova Məhluqə Baxış qızı. 76 yaş. Ağdam şəhəri)

Droj > *duroj*. (1.) Təndir çörəyni bişrəndə elə bil xəmir düşmürdü də malata deyillər, o vax malateynən yoğrurdular də *duroj* yoxuydu o vaxtı, balata götrürdülər belə kündəni, balata saxlıyerdilər. (Ağayeva Solmaz. 65 yaş. Baş Qərvənd kəndi)

Problem > *pıroblem.* Çünkü mə:m böyüy qardaşımın anadangəlmə əlində *pıroblem* varıydı, (Məmmədov Rüstəm Dilavər oğlu. 57 yaş. Əhmədavar kəndi)

Pradukt > *pıradux.* Sora həftədə bir vedrə yumurta, yeməh, ərzax, *pıradux,* güjümüz nəyə çatırdı, onnan aparırdı verirdi Ağdamda olan Xojaldan gələnnərə.

Neft > *nöyüt*. Apardı sənət məytəbinin qabağında dokquzun da *nöyüt* töhdü, oddadı. (Əbdüləzimova Xalidə İdris qızı.Kəngərli kəndi. 64 yaş)

Knişkasın > *qınışkasın.* Ağdamda döyüşmüşəm bu veteran *qınışkasın* vererdilər istəmədim dedim onsuz da hər bir oğlun borcudu da dö:şməy. (Əbdüləzimov Bəbir İdris oğlu. 61 yaş. Göytəpə kəndi)

1.1.1.3. Söz sonunda sait artımı.

Xəmir > *xəmrə*. Gələndəfə çörəy bişrənə qədər onu da təzə xəmrə qatırdılar onnan ajıdırdılar də:. (Ağayeva Solmaz, 65 yaş, Baş Qərvənd kəndi)

Bekar > *bekara.* Ama onu, qoysan ki quymax pişirəsən onu duruhal yox, xeylax qoyrsan dəmə elə bil, ağzın örtürsən *bekara* sürüşüy qoyursan altı qazmağ tutur, bu da olur quymax. (Cavadova Fəridə, 69 yaş. Ağdam şəhəri)

1.1.2. Samit artımı hadisəsi.

1.1.2.1. Söz əvvəlində samit artımı.

Heylə > *elə*, hamma > *amma*. Dedikin yoxe qorxmax nədi, gördüm *hamma* qəhər boğur bını, nəysə aldım əlinnən bağladım. (Əsgərova Emelya. 68 yaş. Ağdam şəhəri)

1.1.2.2. Söz ortasında samit artımı.

Qəşəng > *qəşşəh*. Dünyada nə, badamnan belə, pusdədən belə əhmişdi, çox pinikar adamıydı, çoxeçox calaxeliyirdi, pinikar yanı yaxşı, əlinnən nə deirsən gəlirdi, hər şeyi bilən, *qəşşəh* belə otaxlarımız varıdı. (Həsənova Məhluqə Baxış qızı. 76 yaş. Ağdam şəhəri)

Biabır > *biyabır*, beüzm > *beyüzm*. Yanı, səni de:r *biyabır* eliyərəmdə: *beyüzm* eliyərəm. Bir nö: təhqir. (Əbduləzimova Şahnaz. 58 yaş. Kəngərli kəndi)

1.1.2.3. Söz sonunda samit artımı.

bəlkə > *bəlkəm*. Ermənnər o vaxdı sumqayıtdılara zulum vermişdilər, əysəryətinin sifətində, yanağında, döşündə, *bəlkəm* 500 dənə siqaret keçimişdilər. (Əbdüləzimov Bəbir İdris oğlu. 61 yaş. Göytəpə kəndi)

ta: > *tadim.* (1.) Məllim işdəmişəm. Orda neçə ildiki orda işdəmişəm, min dokquzüzz əlli yeddinci ildən *tadim* bu qaşqınnığa qədər. (Həsənova Məhluqə Baxış qızı. 76 yaş. Ağdam şəhəri)

Xeyli > *xeylax*. Ama onu, qoysan ki quymax pişirəsən onu duruhal yox, *xeylax* qoyrsan dəmə elə bil, ağzın örtürsən bekara sürüşüy qoyursan altı qazmağ tutur, bu da olur quymax. (Cavadova Fəridə, 69 yaş. Ağdam şəhəri)

ki > *kın*, deyə > *deyin*. (1.) Görsən töoğun əağına bi şey bağlıyıflar de:llər badışdı, itməsin, qarışıx düşməsin *deyin,* bağlanırdı *kın* itməsin. (Əbduləzimova Şahnaz. 58 yaş. Kəngərli kəndi)

1.2. Səs düşümü hadisəsi, Sait və samit düşümü.

1.2.1. Sait düşümü hadisəsi.

1.2.1.1. Sözün əvvəlində sait düşümü.

Uşaqlar > *şaxlar*. Dağın kəlləsinnən ermənnər bizə bir gün ağladı kin, şaxlardan birinn də başınnan vırdılar. İkinci hakqesaf da Sırxavətdə olufdu, yanmda *şaxlar* düşüf minya, üçünün-dördünün kıçası yox olufdu. (Qədirov Elman Əkbər oğlu. 57 yaş. Çullu kəndi)

1.2.1.2. Sözün ortasında sait düşümü. Onu da qeyd edim ki, Ağdam rayonunun dialekt və şivələrində söz ortasında səs düşümü hadisəsinə çox rast gəlmək olar. Bəzən bu qarışıq da olur, söz daxilində iki, bəzən də üç səs (sait və samit) birdən düşür.

Sənin > *sənn*, canına > *canna.*

Nərgizdər ay nərgizdər
Topa bitər nərgizdər
Heyf *sənn* o cavan *canna* ay mənim əzizim
Torpax örtər yer gizdər

(Həsənova Məhluqə Baxış qızı. 76 yaş. Ağdam şəhəri)

Qoyurduq > *qoyrdux*, əyilib > *əylif.*Birdə varıydı ki, yerdən olan təndirə çörəy yapmax üçün dep dediyimiz şey varıydı yayılmış kündəni qoyrdux onun üstünə belə uzun tutacağı da varıydı, əylif təndirə yapırdıx çörəyi. (Ağayeva Solmaz. 65 yaş. Baş Qərvənd kəndi)

Əlili > *əlli*. Zapalı çıxardanda partdıyıf bu üş barmağın apardı o gəldi oldu Qarabağ *əlli,* (Əbdüləzimov Bəbir İdris oğlu. 61 yaş. Göytəpə kəndi)

1.2.1.3. Sözün sonunda sait düşümü. Yığdığımız dialektoloji yığmalarda söz sonunda sait düşümünə rast gəlinmədi.

1.2.2. Samit düşümü hadisəsi.

1.2.2.1. Söz əvvəlində samit düşümü.

Yuxarı > *uxarı.* Biz orda olanda hələ o kanar *uxarı* kətdərdən rayona qaçırdılar, gəlirdilər. (Cavadova Fəridə. 69 yaş. Ağdam şəhəri)

1.2.2.2. Söz ortasında samit düşümü.

Sonra > *so:ra*. *Sora* həftədə bir vedrə yumurta, yeməh, ərzax, pıradux, güjümüz nəyə çatırdı, onnan aparırdı verirdi Ağdamda olan Xojaldan gələnnərə. (Əsgərova Emelya, 68 yaş, Ağdam şəhəri)

Kənd > *kət*. Həyət yerində, *kət* yerində olmuş adamam. (Hümmətov Nizami, 62 yaş. Əliağalı kəndi)

1.2.2.3. Söz sonunda samit düşümü.

Bir > *bi.* Dedim özbaşınalığ eliyirəm, büyünnən mə:m pazisyama sən gəlmə, *bi* dənə pazisyanı əvvəldən axra. (Əbdüləzimov Bəbir İdris oğlu. 61 yaş. Göytəpə kəndi)

1.2.3. Söz ortasında və sonunda sait və samitlərin birgə düşümü.

1.2.3.1. Söz ortasında sait və samitlərin birgə düşümü.

deyirlər > *de:llər*, ayağına > *əağına*, toyuğun > *töoğun*. Görsən töoğun *əağına* bi şey bağlıyıflar *de:llər* badışdı, itməsin, qarışıx düşməsin *deyin b*ağlanırdı kın itməsin. (Əbduləzimova Şahnaz. 58 yaş. Kəngərli kəndi)

Soyuq > *söox*. Xaşıl isə, ya isti suya unu yavaş-yavaş töküf oxleynən fırradırsan, ama biz *söox* suynan, elə bil, *söox* suya unu yavaş yavaş çalırıx, açırıx. (Cavadova Fəridə. Ağdam şəhəri. 69 yaş)

Dəqiqə > *dəyqə.* Həyət yerində, kət yerində olmuş adamam. Ma: bura sərf eləmir açığı, əsəf xəsdəsiyəm, bax bı *dəyqə* təzə çıxmışam xəsdəxanadan. (Hümmətov Nizami, 62 yaş. Əliağalı kəndi)

Təsərrüfata > *təsərfata*. Bizdə çayın başınnan *təsərfata* su ayrılıf gəlirdi. (Hümmətov Nizami, 62 yaş. Əliağalı kəndi)

Deyirəm > *de:rəm*. Bıllara mən *de:rəm* bax evimiz belə oluf, belə oluf, hamsın *de:rəm*. Bılları unutmasınnar, hamsın örgədirih, bıllara. (Cavadova Fəridə, 69 yaş. Ağdam şəhəri)

Döyüşmək > *dö:şməy*. Ağdamda *dö:şmüşəm* bu veteran qınışkasın vererdilər istəmədim dedim onsuz da hər bir oğlun borcudu da *dö:şməy.* (Əbdüləzimov Bəbir İdris oğlu. 61 yaş. Göytəpə kəndi)

Mənim üçün > *mə:mçün*, sə:rətən > *sə:rətən*. Şəxsən *mə:mçün* çox çətindi, gəzdiyim o bulaxlar, o sular, o cığırrar gejə gəlir tüşür beynimə, inanırsız, *sə:rətən* yatammıram. (Hümmətov Nizami, 62 yaş. Əliağalı kəndi)

Mənim > *Mə:m*, mamamoğlu > *ma:moğlu*. *Mə:m* özümün *ma:moğlu* öldü orda Xojalda öldü. 25 yaşında, xəbər verdilər kin xojalları qırıllar, duruf o da gedif onnarı xilas eləməyə. (Əsgərova Emelya, 68 yaş, Ağdam şəhəri)

1.2.3.2. Söz sonunda sait və samitlərin birgə düşümü.

Mənə > *ma:*. Həyət yerində, kət yerində olmuş adamam. *Ma:* bura sərf eləmir açığı, əsəf xəsdəsiyəm, bax bı dəyqə təzə çıxmışam xəsdəxanadan.

Xışma ilə > *xışmeynan.* (1.) Gəldih qapnı aşdıx, girdih evə, həyətə girdiy, töoxcücədə okqədərdikin, ta: belə *xışmeynan.* (Əsgərova Emelya, 68 yaş, Ağdam şəhəri)

Mənə > *ma:*, otur > *otu*. Bir telvizoru götdük kin orda uşaxlar baxar, sora imkan olmadı, gördüh atıllar, gəldih qapıdan çıxdıx, *ma:* dedi sən *otu* maşna mən gəlləm. (Əsgərova Emelya, 68 yaş, Ağdam şəhəri)

Bütün bunlardan belə bir nəticəyə gəlmək olar ki, Ağdam rayonudan zorla köçürülmüş xalqımızın çox gözəl, yumşaq, ürəyəyatımlı ləhçə və şivələri vardır və fonetik hadisələr bunları daha da gözəlləşdirir. Biz yuxarıda bunların şahidi olduq.

ƏDƏBİYYAT

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, "Şərq-Qərb", 2007, 568 səh.
2. Məmmədağa Şirəliyev. Azərbaycan dialektologiyasımn əsasları. Bakı, "Şərq-Qərb", 2008, 416 səh.

ПРАВИЛА ДОБАВЛЕНИЯ ЗВУКОВ И САКРАШЕНИЯ ЗВУКОВ В АГДАМСКОМ ДИАЛЕКТЕ

РЕЗЮМЕ

В данной статье к сопоставительному исследованию привлечены диалекты и говоры опрошенных жителей Агдама, живущих во многих регионах. Во время опроса были определены некоторые диалектные слова. Фонетические действия, содержащиеся в диалектах и говорах жителей Агдама, были определены на основе примеров и подвергнуты сравнительному анализу.

THE EVENT OF SOUND INCREASING AND SOUND FALLING IN THE DIALECTS OF AGHDAM REGION

SUMMARY

Agdam residents living in some regions had been interregated and their dialects and accents had been. İnvestigated comparatively. İn this dialectological research. During the interrogation of the residents many dialectical words had been defined In the dialects and accents of Agdam residents some phonetic events had been defined with samples and nalyzed comparative

Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir.

Qrant **№ *EİF/MQM-3-Shusha-2014-7(22)-05/03/5***

Rəyçi: prof. Nizami Xudiyev

AYSEL MƏMMƏDLİ
Azərbaycan Dillər Universiteti
ayselaliyeva837@yahoo.fr

KONSTATİV VƏ PERFORMATİV CÜMLƏLƏR

Açar sözlər: *cümlə, propozisiya, performativ, konstativ, lokutiv, illokutiv, məna, danışıq aktı, nitq.*
Ket words: *sentence, proposition, performative, constative, locutive, illocutive, meaning, speech act, speech.*
Ключевые слова: *предложение, пропозиция, перформативный, констативный, локутивный, иллокутивный, значение, речевой акт, речь.*

Cümlənin propozisiyası danışıq aktında müəyyənləşir. Əslində elə cümlələr var ki, onlar heç təsdiqdə işlənmir. Onlar sadəcə olaraq xəbər verir. Məsələn, ***Söz verirəm ki, gələcəyəm – Je te promets que je viendrai***.

Bu cür cümlələri son dövrlərdə performativ cümlələr adlandırırlar. Danışıq aktında müəyyənləşən digər cümlə növü də konstativ cümlələr adlanır. Məsələn, ***Əhmədin uşaqları hamısı dəcəldir – Les enfants d'Ahmad sont müchants***.

Araşdırmalar göstərir ki, konstativlik və performativliyə maraq XX əsrin 50- 60-ci illərindən başlamışdır. Bu sahədə son dövrlərdə həm xarici, həm də yerli dilçilər artıq tədqiqatlara başlamışlar. İngilis dilçiliyində konstativlik C.Ostin, D.Serl, D.Liç, K.Bax, rus dilçiliyində N.D.Arutyunova, İ.B.Şatunovskiy, Q.Q.Poşepsova və s. kimi dilçilərin əsərlərində tədqiq olunmuşdur. Azərbaycan dilçiliyində konstativ və performativ cümlələrin ilk tədqiqat obyektinə F.Y.Veysəllinin əsərlərində rast gəlinir. F.Y.Veysəlli yazır: "Cümlə elə bir təşkil olunmuş strukturdur ki, onda hər bir parçanın öz rolu və başqa parçalara bağlanmasında xüsusi üsulu vardır. O halı cümlənin danışıq aktı nəzəriyyəsində də müşahidə etmək mümkündür. Odur ki, konstativ və performativ cümlələrin tədqiqi zəruridir". (1, s.226; 288)

Cümləni tədqiq edərkən məlum olur ki, danışıq aktında konstativ cümlələrə qarşı performativ cümlələr qoyulur. Bu da o anlama gəlir ki, cümlənin mənasını yalnız onu işlətdikdə açmaq olar. Bu cür yanaşmanın üstünlüyü ondadır ki, o, dil fəlsəfəsinin bir çox problemlərini insanların hərəkəti və danışıq aktı müstəvisində həll etməyə çalışır (1, s.288).

Danışanın işlətdiyi dil ifadəsi kimi söyləmin, cümlənin mənası və referensiyası onların real gerçəkliklə əlaqəsindən asılıdır. Danışan özü və həmsöhbəti üçün anlaşıqlı olan vasitələrdən istifadə edərək abstrakt qaydalar əsasında onları danışıq aktına daxil edir. Cümlə danışıq aktında işlənir, lakin referensiya və propozisiyası düz olmayanda qəbul edilmir. Belə bir nümunə verək:

"İranın kralı keçəldir." (Le Roi d'Iran est chauve) Bu nümunədə referens kraldır, amma o, əslində mövcud deyildir. Buradan da belə məlum olur ki, danışıq aktında işlənən cümlə adı çəkilən propozisiya ilə eyniləşdirilə bilməz.

Yuxarıda da xatırlatdığım kimi konstativ tərkibli cümlələr əsasən C.Ostin tərəfindən işlənib hazırlanmışdır. O, cümlə mənasının şərhini vermək üçün danışıq aktı nəzəriyyəsini işləyib hazırlamışdır. C.Ostin söyləmləri performativ (təsdiq, təsvir və s.) və konstativ (vəd vermək, razılığa gəlmək, xəbərdar etmək və s.) olmaq üzrə iki yerə bölürdü. Məsələn, performativ söyləmlər:

Üzr istəyirəm - Excusez-moi (Je vous prie de m'excuser).
Xoş gəlmişsiniz - Soyez la bienvenue. (Bienvenue)

Mən bunu sizə məsləhət görürüəm –Je vous le recommand/conseille və s.
Bu cür cümlələr nə doğru, nə yalan olur. Onlar üçün müvafiq məqam və şərtlər olmalıdır.

"Mən hərəkata bu adı verə bilərəmmi?"

" Buna mənim hüquqi əsasım yoxdur."

"Üzr istəməli olmasam da söz xatirinə deyirəm."

"Qonaqların gəlməsi ürəyimcə olmasa da "Xoş gəlmişsiniz" deməyə məcburam" və s. Beləliklə, performativ cümlələrin işlənməsilə bağlı üç tip uğursuzluğu fərqləndirmək olar: legitimlik, düzgün istifadə olunmaması və şəraitin pozulması.

Performativlərin ifadəsi üçün ya söyləmdəki feili 1-ci şəxsin təkində indiki zaman xəbər şəklində başlayır (***söz verirəm ki - je t'assure que/je te promets que...*** yazıda məchul növdən də istifadə olunur), ya da söyləm bununla başlayır.

Xəbər keçmiş zamanda olanda sadəcə təsvir edir, ancaq hərəkatın həyata keçməsi üçün heç bir zəmanət vermir. ***"Pəncərəni ört" (Fermes la fenêtre)*** tipli cümlələr də təsdiq xarakterli deyil. ***"Salam"(Bonjour)*** sözü də heç nə təsdiq etmir, bu sadəcə hörmətin əlamətidir. ***"Mən orada olacağam"(Je serai la)*** kimi cümlələrdən məlum olur ki, mənim orada olmağım fərziyyədir və ya niyyətim haqqında mövqeyimdir. Bir məsələyə də aydınlıq gətirmək olar ki, performativ tərkibli cümlələrin düzgün qrammatik strukturu vardır. Bu tərkibli cümlələrdə işlədilən feillərdən asanlıqla müəyyən etmək olar ki, danışanın niyyətilə bağlı bütün semantik çalarlıqları müəyyənləşdirmək olar.

Faktın təsdiqi olan konstativlər də mənasız ola bilər, hətta qrammatik cəhətdən düzgün olmaz. Burada 3 hal mümkündür:

1.Əhmədin uşaqları hamısı keçəldir; Əhmədin uşaqları keçəl deyildir

Les enfants d'Ahmad sont chauves. Les enfants d'Ahmad ne sont pas chauves.

Halbuki Əhmədin heç uşağı yoxdur – Tandis qu'Ahmad n'a pas d'enfants;

2.Kimsə deyir ki, it həyətdə uzanıb (Ola bilsin ki, o kimsə heç belə düşünmür.)
Quelqu'un a dit que le chien dort dans le jardin. (Peut-кtre celui-ci ne pense pas comme за.)

3.Mehmanxana sahibi deyir: qonaqların hamısı türklərdir. Sonra isə əlavə edir: Qonaqlardan bəzisi türk deyil.

Le directeur d'hфtel dit: tous les invitŭs sont des turcs. Puis il ajoute: certains ne sont pas des turcs.

Gördüyümüz kimi, ziddiyyət göz qabağındadır. Bu misalları izah etmək üçün presuppozisiya, implikasiya və nəticə anlayışlarını açmaq lazımdır.

"Birinci halda Əhmədin uşaqları keçəldir" ***(Les enfents d'Ahmed sont chauves)*** cümləsinin presuppozisiyası ***"Əhmədin uşaqları vardır"(Ahmed a des enfents)*** fikiridir. ***"Uşaqların olması" (L'existance des enfens)*** cümlənin referensiyası olur.

C.Ostin qeyd edir ki, uğursuzluq konstativ söyləmlərə heç də performativlərdən az xas deyildir (1,s. 289).

Mənim və ya başqasının səlahiyyəti yoxsa, necə deyə bilərik ki, ***/Mən əmr edirəm...// (Je vous commande)***

Deməli, performativi konstativdən fərqləndirən dil vasitəsi yoxdur, ünsiyyətdəki uğursuzluq həm təsdiqləmədə (konstativdə), həm də performativdə (nə doğru, nə də səhvdə) mümkündür. Konstativ təsdiqləmə olan danışıq aktının reallaşmasıdır. Bəzən onlar arasında sərhəd qoymaq çətindir. ***/Mən səni xəbərdar edirəm ki...// (Je t'averti que), /Mən təsdiqləyirəm ki...// (J'affirme que),*** kimi cümlələr bir-birindən az fərqlənir və ya heç fərqlənmir. Amma performativlər uğurlu da ola bilər. Yəni onlarda həqiqətə

rast gəlmək olur. Məsələn, həkim söhbətdə ***/Mən sizə məsləhət görürəm// (Je vous conseille que)*** deyirsə, fikrin yalan və ya gerçəkliyi deyil, sadəcə olaraq məsləhət performativlə ifadə olunur. Ola bilər ki, həkim haqlıdır, amma nəticəsi aydın deyil. Təbii ki, qiymətləndirməni yoxlamaq mümkü deyil.

Dil fəlsəfəsinin inkişafında böyük rolu olan alimlərdən hesab edilən C.Ostin də əşyalar və adlar məsələsində marağı olan fiqurlardan hesab edilir. Onun "How To Do Things with Words" (Şeylər sözlərə necə çevrilir?) (Comment faire des Choses avec les Mots?) adlı məşhur əsəri də tam bu məsələnin araşdırılmasına həsr edilir.

C.Ostinin xüsusi talantı onda müşahidə olunur ki, o, gündəlik istifadə olunan sözlərin və söz ailələrinin daxilində olan fərqlilikləri incəliklə müşahidə edə bilmişdir. Məşhur essesində zərflərin qarşılaşdırma keyfiyyətlərini araşdıran müəllif onları:

1.***"involuntorily" – qərəzliklə - involontairement;***

2.***"inadvertently" – ehtiyatsızlıqla – par mégarde;***

3.***"by accsident" – təsadüfən – accidentellement;***

4.***"by mistake" – səhvən – par erreur*** növlərə ayırır. Ostinin "performativ nitq" adlandırdığı "bağ - müxtəlifliyi" cümlələri (garden – variety statements) hadisələri və vəziyyətləri təsvir etməkdən daha çox onların ayrıca keyfiyyətləri olması anlamına gəlir. Onlar hərəkətləri idarə edirlər. Məsələn, performativ feil olan ***"apologize" (üzr üstəmək) (s'excuser) "I apologize for being late" (Gecikdiyim üçün üzr istəyirəm) (Excusez mon retard)*** cümləsində istifadə etməklə danışan "üzr istəmək" hərəkətini yerinə yetirir.

Bu yolla performativ feillərin məna keyfiyyətləri "möhkəmləndirmək", yaxud "xatırlatmaq" feillərindən kəskin surətdə fərqlənir. O bununla bağlı yazır:

"Sənin uzunqulağın var, mənim də. Onlar eyni tarlada otlayırlar. Gün gəlir mənimki mənim xoşuma gəlmir. Mən onu güllə ilə vurmaq istəyirəm və atəş açıram; heyvan yıxılır. Mən qurbanı yoxlayıram və qəfildən dəhşətə gəlirəm ki, bu mənim deyil, sənin uzunqulağındır. Mən təəssüflə sizin qapıya gəlirəm və deyirəm nə?" Mən deyirəm, Mən çox təəssüf edirəm və s. Mən sizin uzunqulağı səhvən (by accident) vurdum; yaxud da "by mistake" və hadisəni ona yenidən izah edirəm və izah vaxtı "by accident", yoxsa "by mistake" işlətməliyəm" (2, s.25).

C. Ostinin tədqiqatının əsasını sadə dil ifadələrində məna nüanslarının təhlili təşkil edirdi. Məsələn, aşağıda ingilis dilində yazdığımız üç ifadənin hər biri eyni anlamda işlədilir, amma fərqli nitq hissələrindən təşkil olunur:

It looks blue – (bu mavi görünür) - Il a l'air bleu;

It looks like blue – (bu mavi görünür) - Il a l'air bleu;

It appears blue – (bu mavi görünür) - Il a l'air bleu və s.

C. Ostinin "How to Do Things with Words" (Sözlərlə əşyaları necə əlaqələndirmək) əsərində öz tədqiqatını performativlər üzərində qurur. O, diqqəti performativlərə yönəltməyə başlayır, məsələn, ***/I apologize for being late// (Excusez mon retard),*** yaxud ***/I name this ship the Queen Elizabeth// (Je nomme ce navire La Reine Elisabeth)".*** Performativlər cümlələrin konversional qrammatikasını sərgiləyirlər. Bu cümlələrdə istənilən idiosinkratik formal marker çatışmır. ***/I take the bus on Friday; I opened the can with a screwdriver// (Je prends le bus les vendredi; J'ai ouvert la boîte avec nu tournevis)*** kimi cümlələrdə performativlər doğru, yaxud yanlış kimi qurula bilməz. Daha vacibi, onların tələffüzü (münasib şərtlər altında) təsvirdən daha çox hərəkəti ifa edir. Ostin qeyd edir ki, onun təqdim etdiyi performativ nitq müəyyən formal keyfiyyətlərə malikdirlər – birinci şəxs təkdə olan mübtəda indiki indikativ məlum növdə olan feil - amma bu keyfiyyətlər sinifi müəyyən etmir: ***/Passengers are warned to cross the track by the bridge only// (Sərnişinlərə yolu ancaq körpüdən***

keçmək xəbərdar olundu) – Les passagers sont tenus au courant de traverser la route seulement par le pont cümləsi performativdir, amma ***/I drink beer// cümləsi deyil (Mən çaxır içirəm.) Je bois du vin***.

C.Ostin performativlərin digər xüsusiyyətlərini də araşdırmışdır. O, müəyyən edilmiş prosedur və praktikaların xarakterik olaraq birləşməsi faktını müdafiə edir: ***"marry a couple" – cütlüyü evləndirmək (marier un couple), "nominate a candidate" - irəli sürülmüş namizəd (dŭsigner un candidat/prŭsenter un candidat)***, amma o, həm də etiraf edirdi ki, digər performativlər ***"promise" - söz vermək (promettre), "warn" - xəbərdar etmək (prŭvenir, avertir), "order" -əmr etmək (commander)*** ənənəvi olaraq sərhədlənmişlər (2,s.38).

Hər performativ öz işini hazırlalamaqla müxtəlif səbəblərlə uğurlu olamyan performativləri təhlil edir. Məsələn, ***"promise" (söz vermək – promettre)*** sözünün performativ tələffüzü əgər şərtlər onun legitimliyinin istifadəsini azaldırsa, o halda yanlış açıla bilər. Məsələn, əgər danışanın ***"promise" (söz vermək – promettre)*** sözünü tələffüz etməyə gücü çatmırsa, yaxud ***"promise" (söz vermək – promettre)*** sözünün reallaşması baş verərsə, amma terminin mənasında "sui-istifadə" yaranarsa (məsələn, danışan söz verilmiş hərəkəti daşıdığı mənanı yerinə yetirə bilmirsə və s.).

C.Ostin performativlərin təhlilini kontekstləşdirərkən "danışıq aktlarının" üzvlənməsini və qruplaşmasını təklif edir. Həmin aktlar insan unsiyyətində 3 nitq aspektini irəli sürür. Birirncisi, sözlərin tələffüzü aktı xüsusi məna və istinad keyfiyyətləri ilə əlaqədardır. Bu əlaqəni Ostin "lokutiv akt" adlandırır. Lokutiv aktların mənaları vardır. İkincisi, "illokutiv aktlar" dır ki, danışan lokutiv aktları işlətməklə onlara nail olur. Belə ki, danışan nitqin lokutiv aktının xəbərdarlığını illokutiv akt vasitəsilə yerinə yetirir. ***/I warn you that X// (Je te previens que/Je t'averti que...)*** Ostin qeyd edir ki, illokutiv akt-ların mənadan daha çox gücü vardır. Üçüncüsü, "perlokutiv aktlar" adlanır. Onlar dinləyicidə illokutiv aktların gücünə nail olur. Belə ki, xəbərdar olunan dinləyici nəticədən çəkinmək üçün öz hərəkətlərini dəyişdirir. Bu mənada, Ostinə görə perlokutiv aktlar illokutiv aktların təsirləridir.

Ostin bu taksonomiyadan istifadə etməyə çalışmaqla lokutiv mənaları uzaqdan tənzimləyir. Və perlokutivlər illokutiv güclə danışığa təsir göstərir. Bu hərəkətlər performativ feillərlə həyata keçirilir. O, illokutiv gücə görə müəyyən olunmuş performativlərin 5 sinfini müəyyən etmişdir.

1. ***Verdictives (verdiktivlər)***, məsələn, ***diagnose-diaqnoz təyin etmək; convict – ittiham etmək – condamner;***
2. ***Exercitives (eksezkitivlər)***, məsələn, ***appoint – müəyyən etmək – désigner, nommer;***
3. ***Commisives (komisivlər)***, məsələn, ***vow – and içmək – prêter serment, jurer; oppose – qarşı çıxmaq – s'opposer à;***
4. ***Behabitives (behabitivlər)***, məsələn, ***apologize – üzr istəmək – s'excuser; lənətləmək – maudire;***
5. ***Expositives (ekspozitivlər)***, məsələn, ***report – məruzə etmək – rapporter; argue – mübahisə etmək – se disputer***.

Ostin perfotmativlərin hüdudlarının olmasını iddia edir. Məsələn, eyni nitq performativ, yaxud konstativ ola bilər. Odur ki, faktiki olaraq istənilən danışıq aktı performativ kimi yaradıla bilər və illokutiv güc performativlərinin ikskuluziv yükü deyildir. (Belə ki, ***"Sən etməlisən X" (Tu dois faire)*** cümləsindəki sıralanmada ***"etmək" (faire)*** performativ deyil). Səsin xüsusi tonu, yaxud çiyin çəkmək illokutiv gücün çəkisisni daşıya bilər (2,s.40).

REFERENCES

1. Veysəlli F.Y. Dilçiliyin əsasları. Bakı, Mütərcim, 2013.
2. Austin J.L. How to Do Things with Words. Harvard University Press, Cambridge, M.A. 1926 b.
3. Азадова Н.А. Сопостовительное исследование перформативного глагола (на материале лезгинского, английском и русского языков). дисс. канд. филол. наук. Махачкала 2007, 37.

АЙСЕЛЬ МАММЕДЛИ

КОНСТАТИВНЫЕ И ПЕРФОРМАТИВНЫЕ ПРЕДЛОЖЕНИИ

РЕЗЮМЕ

В статье исследуется констативные и перформативные предложения. В истории языкознания иследование такого типа предложений началось в начале 50-60 годов XX века. Констативные и перформативные предложения были исследованы русскими, зарубежными и Азербайджанскими языковедами. В речевом акте, констативные предложения противопоставляются к перформативным предложениям. Это означает что, значение предложения можно понять тогда, когда предложение используется. Констативное подтверждение является реализация речевого акта. В перформативных предложениях существует слияние процедур и практики. В перформативных предложениях имеются пределы. Одна речь может быть как перформативной так и констативной.

В исследовании описывается 3 вида перформативных предложений: локутивные акты, иллокутивные акты и перлокутивные акты.

AYSEL MAMMEDLI

CONSTATIVE AND PERFORMATIVE SENTENCES

SUMMARY

In the article constative and performative sentences are investigated. In the linguistic history such types of sentences began to be studied since the 50-60th of the XX century. Constative and performative sentences were investigated by speech act performative sentences are opposed to the constative sentences. This means that the listener can understand the meaning of the sentences only after using it. The meaning of the utterance, sentence and reference as the language expression of the speaker depends on the link with the real truth. Constative affirmation which is a speech act lies in the realisation. In the performative sentences unification of procedure and practice in the performative sentences takes place.

In the research work three types of performative sentences are reflected: locutive, illocutive, perlocutive acts.

Rəyçi: filol.e.d., prof. F.Y. Veysəlli

b/l. İLAHƏ HƏSƏNOVA
ADNSU. Azərbaycan dili kafedrası
pease.endless@mail.ru

"KİTABİ-DƏDƏ QORQUD" DASTANLARININ DİL XÜSUSİYYƏTLƏRİ

Ключевые слова: Турки, распоряжения, эпос, книга, героизм, хан, ашук…
Key words: Turkish, disposition, epic, books, heroic, inns, poet…

Ənənəyə görə, "Kitabi Dədə Qorqud"da dastanların müəllifliyi Dədə Qorquda aid edilir. XIV əsr tarixçilərindən Aybək əd-Dəvadari və Fəzlullah Rəşidəddin Dədə Qorqudun Məhəmməd peyğəmbər zamanında yaşadığını və türklər tərəfin dən elçi sifətilə onun yanına göndərildiyini yazmışlar. Dastanın müqəddiməsində də Dədə Qorqudun Məhəmməd peyğəmbər zamanında yaşadığı qeyd edilir.

Elmə XIX əsrdən məlum olan "Kitabi-Dədə Qorqud"un hələlik iki əlyazma nüsxəsi (Drezden və Vatikan) məlumdur. Drezden nüsxəsi üzərində sonradan "Kitabi-Dədə Qorqud əla lisani taifeyi-oğuzan" ("Oğuz tayfaları dilində Dədəm Qorqud kitabı") yazılmışdır və yeni bir nüxsəsi (surəti) əsası 1556-cı ildə qoyulmuş Drezdendəki Kral Kitabxanasından alınıb 1972-ci ilin avqustunda Bakıya gətirilib Azərbaycan Elmlər Akademiyasına verilib və Əlyazmalar İnstitutunda daha təfsilatlı tədqiq olunmuşdur. Bu nüsxə müqəddimə və 12 boydan, Vatikan nüsxəsi isə eyni müqəddimə və 6 boydan ibarətdir. Görünür ki, hər 2 nüsxə daha qədim naməlum bir nüsxədən köçürülmüşdür. Azərbaycan EA Əlyazmalar İnstitutunda "Dədə Qorqud"un dünyada üçüncü əlyazma nüsxəsi hazırlanmışdır.

2015-ci ildə ölkəmizin hər yerində Dastanın elm aləminə məlum olmasının 200 illiyi qeyd olunur. Abidə haqqında ilk dəfə 2015-ci ildə alman alimi F.Dits məlumat vermiş və "Təpəgöz" boyunu alman dilinə tərcüməsi ilə dərc etdirmişdir. T.Nöldeke əsəri Drezden nüsxəsi əsasında çapa hazırlamaq istəmişdir. V.V.Bartold 1894-1904-cü illərdə əsərin 4 boyunu rus dilinə çevirərək çap etdirmişdir. O, 1922-ci ildə dastanın tam tərcüməsini başa çatdırmışdır; həmin tərcümə 1950-ci ildə Bakıda (H.Araslı və M.Təhmasibin redaktəsi ilə), 1962-ci ildə isə Moskvada nəşr olunmuşdur.

Dastanların əsas süjeti on iki boyda əks olunmuşdur: "Dirsə xan oğlu Buğacın boyu", "Salur Qazanın evinin yağmalandığı boy", "Bayburanın oğlu Bamsı Beyrək boyu", "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy", "Duxa Qoca oğlu Dəli Domrulun boyu", "Qanlı Qoca oğlu Qanturalı boyu", "Qazılıq Qoca oğlu Yeynəyin boyu", "Basat Təpəgözü öldürdüyü boy", "Bəkil oğlu Əmranın boyu", "Uşun Qoca oğlu Səgrəyin boyu", "Salur Qazan dustaq olub oğlu Uruz çıxardığı boy", "İç Oğuza Dış Oğuz asi olub Beyrək öldüyü boy".

"Kitabi-Dədə Qorqud" boylarında Dədə Qorqud şücaət göstərən igidlərə ad qoyur, çətin zamanlarda xalqın köməyinə gəlir, müdrik məsləhətləri ilə onlara yol göstərir. Dədə Qorqud adı, eyni zamanda, qopuzla əlaqədardır.

Qəhrəmanlıq ruhu abidənin əsas qayəsini təşkil edir. "Kitabi-Dədə Qorqud" yarandığı dövrün adət-ənənələri, köçəri həyat tərzi və s. haqqında tarixi-etnoqrofik məlumatla zəngindir. "Kitabi-Dədə Qorqud" qadına yüksək münasibəti ilə seçilir.

Eposun qəhrəmanlıq ruhu qadın obrazlarının davranışlarında da aydın görünür. Dastanda ana obrazı xüsusilə diqqəti cəlb edir. O, vətən rəmzi kimi ümumiləşdirilir, ana haqqı Tanrı haqqı kimi qiymətləndirilir. Azərbaycan xalq bədii təfəkkürünün abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanlarının poetik dili bədii təsvir vasitələri ilə zəngindir. Onlarda xalq dilinin incəliklərindən, atalar sözü, məsəl və idiomatik ifadələrindən bol-bol, məharətlə istifadə olunmuşdur. "Kitabi-Dədə Qorqud" Azərbaycan türkcəsinin tarixini öyrənmək baxımından zəngin mənbədir.

Dastanın dilini tədqiq edən bir çox alimlər, eyni zamanda Davudoğlu "Dədə Qorqud" dastanın dilinin Azərbaycan türkcəsinə daha yaxın olduğunu demişdir.

Biz də "Dastanın dilini izlədikcə, araşdırdıqca, onun Azərbaycan türkcəsinə daha yaxın olduğunu görürük. "Dədə Qorqud"u oxumadan ədəbiyyatçı, dilçi olmaq olmaz. "Dədə Qorqud" biz türklərin mədəni mirasımızın bir-birinə necə bağlı olduğunun göstəricisidir".

Bu ölməz abidəyə İraqda da böyük maraq vardır. Əsər ərəb dilinə tərcümə edilərək "Hekayət Dədə Qorqut" adı altında çap edilmişdir (Bağdad, 2007, 264 s.). Kitaba ön sözü ədəbiyyatımızın böyük dostu Dr. Əbdüllətif Bəndəroğlu yazmışdır. Əsəri ərəb dilinə İraqda və Türkiyədə tərcüməçi, tədqiqatçı, eləcə də yazıçı kimi tanınan Cəlal Polad tərcümə etmiş, ona maraqlı və çox geniş giriş məqaləsi yazmış, indiyə qədər aparılmış tədqiqatlardan və "Kitabi-Dədə Qorqud"un dünya şöhrətindən söz açmışdır. "Kitabi-Dədə Qorqud" İraq türkmanları arasında geniş yayılan, sevilən və tədqiqata cəlb edilən əsərdir. Bu da əsassız deyildir.

Əsrlərlə başqa xalqlar əhatəsində qalan, məhz buna görə də qədim leksik və fonetik göstəricilərini daha çox saxlayan İraq türkmanlarının ləhcəsi "Kitabi-Dədə Qorqud"un dil xüsusiyyətlərini tamamilə əks etdirir. "Kitabi-Dədə Qorqud"da yer alan onlarca sözün indinin özündə belə Kərkük dolaylarında işlək olması, daha doğrusu, həmin sözlərin yalnız həmin mənada işlənməsi tutarlı dəlil-sübutdur. Məsələn: kəpənək (yapınçı), xerxız//xırxız (oğru), əkmək (çörək), ənsə (arxa), qlağuz//qlavuz (bələdçi), qısraq (at, madyan), yayan (piyada), nəsnə (əşya, alət), səmiz (kök), sığır (buğa, çöngə), mavlamaq (huşunu itirmək), qanara (çarmıx), borı çalmaq (şeypur çalmaq), davul dögmək (təbil çalmaq), ismarlamaq (tapşırmaq), yarın (sabah), ög (ön), xoyrad (qaba, kobud, nadan), yağmalamaq (talamaq), qavat (alçaq, əskik adam), oda (otaq), imdi (indi), baş üzərinə! (baş üstə!), qaum-qardaş (qohum-qardaş), kəlisa (kilsə), eyi (gözəl), kəndi (özü), dam (tələ), yoğurd (qatıq) və s.

Maraqlıdır ki, Dəli Domrul bu gün də Kərkük dolaylarında "dəlli dobur" formasında, "dəli-dolu" mənasında işlənir.

Təsadüfi deyildir ki, "Koroğlu", "Arzu Qənbər" və başqa dastanlarımıza dərin təsir göstərən, qədim ədəbiyyatımızın başlanğıc mənbəyi olan bu təkrarsız əsəri azərbaycanlı tədqiqatçılar Azərbaycan şifahi və yazılı ədəbiyyatının babası, kərküklü tədqiqatçılar isə İraq türkmanlarının "Ana kitabı" adlandırırlar.

Biz bu məqalədə "Kitabi-Dədə Qorqud"da bəzi dil məsələlərinə münasibət bildirməyi qarşımıza məqsəd qoymuşuq.Dastanda işlənmiş,İraq-türkman ləhcəsində və ədəbi dilimizdə eyni olan çoxsaylı: pəncərə, dirək, un, çuval, leş, çomaq, sapan, öpmək, rast gəlmək, muştuluq, küsmək, kəklik, yumruq, yalaq, beşik və s.-dən söz açmağa istəmirik. Doğmalığı təmin edən başqa məqamlara diqqət yetirək.

Azərbaycanlı alim, professor Əkrəm Cəfər Azərbaycan dilini başqa türk dillərindən fərqləndirən xüsusiyyətlərdən danışarkən göstərir ki, "banlamaq" sözü Azərbaycan

dilindən başqa heç bir türk dilində işlənmir. Qeyd edək ki, bu söz "bannamaq // baynamaq" formasında İraq türkman ləhcəsində və bir az başqa mənada işlənsə də, "Kitabi-Dədə Qorqud"da da yer alır.

"Kitabi-Dədə Qorqud"da və İraq-türkman ləhcəsində elə sözlər vardır ki, onlara ancaq bu və ya digər dialekt və şivələrimizdə rast gəlirik: məs.: baba (ata), budamaq (vurmaq), varmaq (getmək), quçən (küçük), darılmaq (əsəbiləşmək), ənsə (arxa, dal), yazı (çöl, səhra) və s. belə sözlərdəndir.

"Kitabi-Dədə Qorqud"da və ədəbi dilimizdə yer alan elə sözlər də var ki, İraq türkman ləhcəsində təsadüf edilmir. Məsələn: alqış (dua), qarğış (bəddua), gögçək, daz, mahmızlamaq, hürmək, hürkütmək, tavla (töylə), qaravaş, ulamaq (qurd kimi və s.), gənəşmək, yaxşı//yəxşi, arıq, ayğır, böyürmək, məğmun, çapar (çaparaq xəbər aparan atlı), qaynata, qaynana və s.

Dünya alimlərinin qənaəti budur ki, "Dədə Qorqud" dastanları Azərbaycan dilində yazılmış və azərbaycanlılara aid bir abidədir. Bu, təkcə onunla izah olunmur ki, "Kitabi-Dədə Qorqud"da yer alan əksər toponimlər Azərbaycanla bağlıdır: Əlincə qalası, Dəmir qapı Dərbənd, Qazlıq tağı (Qafqaz dağları), Gəncə, Bərdə, Göyçə gölü, Dondar, Qaradərə (Qarabağda yer adı) və s.

Söhbət ondan gedir ki, bu təkrarsız əsər Azərbaycan dilindədir. Dilin fonetik və leksik göstəricilərinə əsasən Azərbaycan dilinin Cənub və Şərq qrupu dialekt və şivələrinin xüsusiyyətləri ilə səsləşdiyinə görə "Kitabi-Dədə Qorqud" tədqiqatçılarından V.Bartold, F.Köprülü, A.Dilaçar, M.Ergin onun azərbaycanlılara, V.Bartoldun təbirincə desək, Qafqaz türkmanlarına məxsus olduğunu, O.Gökyay, M.Ergin, Y.Yakubovski, H.Araslı, M.Təhmasib, Ə.Dəmirçizadə, Ş.Cəmşidov, X.Koroğlu və başqaları isə əsərin Drezden nüsxəsinin, ümumiyyətlə, Azərbaycanda qələmə alındığını təsdiq edirlər.

Maraqlıdır ki, tədqiqatlarda Azərbaycan ədəbi dili tarixindən danışarkən XV-XVI əsr ədəbi dilimizdə Cənubi Azərbaycan və Bağdad (Kərkük) şivə xüsusiyyətlərinin üstünlük təşkil etdiyi göstərilmiş, İraq-türkman ləhcəsi Azərbaycan dilinin Cənub qrupu dialekt və şivələri sırasına daxil edilmişdir.

Bununla yanaşı, görkəmli dilçilərdən P.M.Melioranski, M.Ş.Şirəliyev, N.A.Baskakov, A.M.Şerbak, H.Mirzəzadə, E.N.Nəcib, Ə.Ə.Orucov, Y.Z.Şirvani təxminən XIII əsrin axırlarında, XIV əsrin əvvəllərində yazılmış "İbn Mühənna lüğəti"ndən danışarkən, əsər qədim Azərbaycan dilində olduğuna görə onun ya müasir İraq ərazisində, ya da Azərbaycanda yazıldığını qeyd edirlər. Həmin lüğətdə ağıl (mal-qara üçün yer), ağırlamaq (hörmət etmək, əzizləmək), arşınlamaq, baldız, bacanaq, baxışmaq, bərk, beşik, belbağı, boşamaq, buyurmaq, davar, iraq, ismarlamaq, qanalıcı, qardaş, kərki, kirşan, quduq (qoduq), laçın, mərcimək, pusmaq, süngü və s. kimi indi də Azərbaycan ədəbi dilində və İraq-türkman ləhcəsində müşahidə edilən onlarca sözə rast gəlirik.

Türk epik təfəkkürünün ən nadir incilərindən olan "Kitab"ın nəsri də nəzm kimi səslənir. "Abidənin dilində bədiilik elə yüksəkdir ki, elə bil üslubi nəzarətdən kənarda heç bir söz, heç bir cümlə yoxdur. Sanki hər sözün, hər səsin üslubi məqsədi var". Şübhəsiz ki, "Kitab"ın poetik xüsusiyyətlərindən bəhs edərkən ilkin olaraq sait və samit təkrarının – assonans və alliterasiyanın yaratdığı ahəngdarlıqdan bəhs etmək lazım gəlir.

K.Vəliyev dastanda alliterasiyadan bəhs edərkən yazmışdır ki, kitabda q samitinin alliterasiyasına çox rast gəlinir. Qara dərə ağzında qadır verən, qara buğra dərisindən, beşiyinin yapuğu olan, acığı tutanda qara daşı kül eləyən qara bığın yeddi yerdə

ənsəsində düyən Qazan bəyin qardaşı Qaragünə çapar yetdi. Qarşı yatan qara dağlar, Qarıyıbdır, otu bitməz. Qanlı-qanlı irmaqlar Quruyubdur, suyu gəlməz. Göründüyü kimi, bu misralarda alliterasiya paralel komponentləri bir-birinə bağlamaqda böyük rol oynayır.

K.Vəliyev "Kitab"da assonansın az olmasını da qeyd etmişdir: "Dədə Qorqud"dakı paralelizm nümunələrində az da olsa assonansa da rast gəlirik. Məs.: Av avlar, quş quşlar oldu". N.Xudiyev isə incə saitlərin assonansının az olmasını qeyd edir: "Kitabi-Dədə Qorqud"un dili üçün qalın saitlərin assonansı xarakterikdir. İncə saitlərin assonansına isə az-az hallarda təsadüf olunur:

"Dədə Qorqud"dastanı üzrə XIX əsrdən başlayan çoxşaxəli tədqiqlər bu gün də davam etməkdədir. Araşdırmalarda türkün mənəviyyatını əks etdirən, onun ən dəyərli atributu olan antroponimlər də diqqət mərkəzində olmuşdur.

Dastan dili şifahi ədəbi dil nümunəsi sayılır. Lakin "Kitabi-Dədə Qorqud"dan danışarkən bir qədər başqa cür düşünmək lazım gəlir. Madam ki boylar sonuncu dəfə XV-XVI əsrlərdə köçürülüb, üzü köçürülərkən XI əsr nüsxəsi əsas götürülüb, həm də güman olunur ki, XI əsr nüsxəsi də hökmən başqa - daha qədim bir nüsxəyə əsaslanıb və müxtəlif dövrlərdə yazıya alınarkən dastanın sintaksisi ciddi zədə almayıb, onda "Kitabi-Dədə Qorqud"u bir sıra başqa folklor nümunələri kimi hərfi mənada şifahi ədəbiyyat və şifahi ədəbi dil nümunəsi saymaq doğru olmaz.

"Dədə Qorqud"un dili onunla bir dövrdə yarana biləcək ən kamil yazılı ədəbiyyat nümunəsinin dilindən daha kamil yazılı ədəbiyyat dilidir.

70-ci illərdən başlayaraq KDQ Azərbaycan mənəvi düşüncəsinə hakim kəsilmiş, təkcə ədəbiyyatşünasların deyil, filosofların, tarixçilərin, dilçilərin, tədqiqatçıların diqqətini özünə cəlb etmişdir. Azərbaycan mənəviyyatının və tarixinin monumental abidəsi olmaqla KDQ hazırda daha böyük aktuallıq və əhəmiyyət kəsb edir.

1990 ildə Azərbaycan SSR Nazirlər Soveti "Kitabi-Dədə Qorqud" Ensiklopediyasının nəşri haqqında qərar qəbul etdi. 1997 ilin aprelin 20-də isə Azərbaycan Respublikası Prezidentinin "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi haqqında" Fərmanı verildi. Fərmanda KDQ-nin 1300 illiyinin beynəlxalq səviyyədə qeyd olunması üçün BMT-nin YUNESKO təşkilatına müraciət və tədbirlər planı nəzərdə tutulmuşdur. Bununla əlaqədar, 1999 ildən KDQ mövzularında çox sayda elmi, elmi-kütləvi kitab nəşr edilmişdir.

Bu "Kitab" bugünkü dünya mədəniyyətinə "Kültiqin" və "Bilqə kağan" dastan- dilogiyaları ilə yanaşı, yazılı şəkildə çatan türk eposudur. "Dədə Qorqud kitabı" gövdəsində müxtəlif meyvə calaqları yetirən nəhəng ağaca bənzəyir – mükəmməl sinkretik tarix sənədidir- salnamədir və bədii əsərdir, şifahi yaradıcılıq nümunəsidir və yazılı ədəbiyyatdır.

Dədə Qorqud haqqında ilk məlumatları verən tarixçilər bu dastanın hər aşıq tərəfindən ifa edilə bilmədiyini söyləyirlər: "Bu masalları oğuzlar içində ağıllı, elmli kimsələr əzbərlər və qopuzlarını çalaraq söylərlər". Deməli, Dədə Qorqud dastanının da xüsusi ifaçıları – qorqudçular olmuşlar. Və görünür, bir zamanlar onların nəsli kəsildiyi üçün dastanın xalq arasında söylənməsi zəifləmişdir.

Təbii ki, bu tip şeiri əzbərləməyin öz çətinlikləri var. Demək, bu quruluş da şeirlə yazılmış dastanı əzbərləyən, əvvəlindən axırına qədər bir sözü də dəyişmədən, unutmadan söyləyən, tarixçinin dediyi kimi, xüsusi "ağıllı, elmli kimsələr", fövqəladə yaddaşlı ozanlar olmuşlar. Həmin ozanlar qorqudçu adlanırmışlar və bir zaman onların nəsli kəsilib. Bu səbəbə görə də bizim olan

dastanın el içində şifahi ifası dayanmış və bu nadir sənət abidəsini itirməmək üçün müdrik ulu babalarımız onu sonuncu qorqudçu ozanın dilindən yazıya almışlar.

Qadın- ana "Kitabi- Dədə Qorqud" dastanının boylarında qürurla, məhəbbətlə təsvir olunur. "Salur Qazanın evinin yağmalandığı boy"da Şöklü məlik tərəfindən əsir götürülmüş Boyu uzun Burla xatun ailə namusunu, qadınlıq şərəfini qorumaq üçün ən ağır işgəncələrə məruz qalır. Dastanda yazılır: *Bir yanda Şöklü Məlik keyfi kök, kafirlərlə yeyib- içib oturmuşdu. Dedi:- Bəylər, bilirsinizmi, Qazana necə heyif vurmaq lazımdır? Boyu uzun Burla xatunu gətirdək, badə paylasın.*

Boyu uzun Burla xatun bunu eşitdi,ürəyinə-canına od düşdü. Qırx incə belli qəzən içinə girb, öyüd- nəsihət verdi, ddedi:

-Qazan bəyin xatunu hansınızdır?-deyə hansınıza sorsalar, qırx yerdən səs verərsiniz.

Şöklü Məliyin adamı gəldi:"Qazan xanın xatunu hansınızdır? - deyə soruşdu.Qırx yerdən səs gəldi, hansıdır, bilmədilər. Kafirə xəbər verdilər.

Bu parçada Oğuz igidləri kimi, onların qadınlarının da namuslu, qeyrətli, sədaqətli olmaları diqqətə çatdırılır.

Dastanda qadın-ANA ilə bağlı ən təsirli səhnələrdən biri Qazan xanın evinin yağmalanması boyunda Qazanın anasını əsir aparan düşmənlərdən anasını tələb etməsi səhnəsidir. Qazan xan Şöklü Məliyə deyir: *-Ey Şöklü Məlik! Xəzinəmi, var-dövlətimi gətirmisən, sənin olsun. Atlarımı gətirmisən miniyin olsun. Qatar-qatar dəvələrimi gətirmisən sənin yükünü daşısın. Oğlum Uruzu gətirmisən sənin qulun olsun. Qırx incə belli qızla Burla xatunu gətirmisən, sənə əsir olsun. Qoca anamı gətirmisən. Anamı ver, savaşmadan, vuruşmadan qayıdıb gedəyim.*

Verilmiş parça –poetik nümunə hər şeydən əvvəl Oğuz cəmiyyətində, Oğuz ailəsində qadının yüksək şərəfini və analıq ülviyyətini əks etdirməklə, xalqımızın uzun əsrlərdən keçib gələn böyük əxlaqi simasını əks etdirir. Bu, ən böyük istəkdir- insanlığın alicənablıq xasiyyətnaməsidir. Elə buna görə də "Dədə Qorqud kitabı"nda bütün boylarda oğuzlar qadını müqəddəs hesab edir, analıq şərəfi Tanrı sevgisi ilə bərabər tutulur. Bu səbəbdən də Oğuzlarda "Ana haqqı tanrı haqqı" kimi şərəfli olan və bu gün də öz dəyərini qoruyub saxlayan ata sözü yaradılmışdır.

Oğuzlarda qadın müqəddəs analıq şərəfinin daşıyıcısıdır.Yəni Dirsə xanın xatunu Ana xatun övlad hamisi, Qazan xanın xatunu Burla xatun isə analıq ismətinin, ailə qeyrətinin daşıyıcısıdır.

Qadın- ana "Kitabi- Dədə Qorqud" dastanının boylarında qürurla, məhəbbətlə təsvir olunur. "Salur Qazanın evinin yağmalandığı boy"da Şöklü məlik tərəfindən əsir götürülmüş Boyu uzun Burla xatun ailə namusunu, qadınlıq şərəfini qorumaq üçün ən ağır işgəncələrə məruz qalır. Dastanda yazılır: *Bir yanda Şöklü Məlik keyfi kök, kafirlərlə yeyib- içib oturmuşdu. Dedi:-*

-Bəylər, bilirsinizmi, Qazana necə heyif vurmaq lazımdır? Boyu uzun Burla xatunu gətirdək, badə paylasın.

Boyu uzun Burla xatun bunu eşitdi,ürəyinə-canına od düşdü. Qırx incə belli qəzən içinə girb, öyüd- nəsihət verdi, ddedi:

-Qazan bəyin xatunu hansınızdır?-deyə hansınıza sorsalar, qırx yerdən səs verərsiniz.

Şöklü Məliyin adamı gəldi:"Qazan xanın xatunu hansınızdır? - deyə soruşdu.Qırx yerdən səs gəldi, hansıdır, bilmədilər. Kafirə xəbər verdilər.

Bu parçada Oğuz igidləri kimi, onların qadınlarının da namuslu, qeyrətli, sədaqətli olmaları diqqətə çatdırılır.

Dastanda qadın-ANA ilə bağlı ən təsirli səhnələrdən biri Qazan xanın evinin yağmalanması boyunda Qazanın anasını əsir aparan düşmənlərdən anasını tələb etməsi səhnəsidir. Qazan xan Şöklü Məliyə deyir: -*Ey Şöklü Məlik! Xəzinəmi, var-dövlətimi gətirmisən, sənin olsun. Atlarımı gətirmisən miniyin olsun. Qatar-qatar dəvələrimi gətirmisən sənin yükünü daşısın. Oğlum Uruzu gətirmisən sənin qulun olsun. Qırx incə belli qızla Burla xatunu gətirmisən, sənə əsir olsun. Qoca anamı gətirmisən. Anamı ver, savaşmadan, vuruşmadan qayıdıb gedəyim.*

Verilmiş parça – poetik nümunə hər şeydən əvvəl Oğuz cəmiyyətində, Oğuz ailəsində qadının yüksək şərəfini və analıq ülviyyətini əks etdirməklə, xalqımızın uzun əsrlərdən keçib gələn böyük əxlaqi simasını əks etdirir. Bu, ən böyük istəkdir-insanlığın alicənablıq xasiyyətnaməsidir. Elə buna görə də "Dədə Qorqud kitabı"nda bütün boylarda oğuzlar qadını müqəddəs hesab edir, analıq şərəfi Tanrı sevgisi ilə bərabər tutulur. Bu səbəbdən də Oğuzlarda "Ana haqqı tanrı haqqı" kimi şərəfli olan və bu gün də öz dəyərini qoruyub saxlayan ata sözü yaradılmışdır.

Oğuzlarda qadın müqəddəs analıq şərəfinin daşıyıcısıdır.Yəni Dirsə xanın xatunu Ana xatun övlad hamisi, Qazan xanın xatunu Burla xatun isə analıq ismətinin, ailə qeyrətinin daşıyıcısıdır.

"O da ana türkcəmiz kimi qədim və müasirdir, mükəmməl və yetkindir, gözəl və şairanədir. Dilimiz qədər heç nəyi sevmirik, ona görə "Dədə Qorqud kitabı"nı da bütün həmcinslərindən-dastanlarımızdan və başqa bədii sənət abidələrimizdən çöx sevirik" (11,86).

ƏDƏBİYYAT

1. Təhmasib M. Azərbaycan xalqının qəhrəmanlıq eposu (Ön söz), B., 1941; Azərbaycan xalq dastanları (orta əsrlər). B., 1972.
2. Arif M. Azərbaycan xalqının ədəbiyyatı. B., 1958.
3. Vəliyev K. Dastan poetikası. B., 1984. Sözün sehri. B., 1986; yenə onun, Elin yaddaşı, dilin yaddaşı. B., 1987.
4. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. B.,1992.
5. Cəfərov N. "Kitabi-Dədə Qorqud"da islama keçidin poetikası, B., 1999.
6. Tanrıverdiyev Ə. «Kitabi-Dədə Qorqud»da şəxs adları, Bakı, 1999.
7. Tanrıverdi Ə. XVI əsr qırçaq (poloves) dilinin qrammatikası, Bakı, 2000.
8. Tanrıverdi Ə. «Kitabi-Dədə Qorqud» və qərb ləhcəsi, Bakı, 2002.
9. T.Hacıyev. Azərbaycan ədəbi dili tarixi. Bakı, 1976, s.80.
10. K.Vəliyev. Dastan poetikası. Bakı, 1984, s.80.
11. T.Hacıyev. "Dədə Qorqud" kitabı Oguz tarixinin yazılı dərsliyi kimi, yaxud dastanımızın həcmi haqqında. "Dədə Qorqud" toplusu. 2001, s. 9-24

ЯЗЫКОВЫЕ ОСОБЕННОСТИ ЭПОСА "КНИГА- ДЕДЕ КОРКУТ"

РЕЗЮМЕ

В статье говорится о древнем писменном памятнике тюркских народов «Книга Деде Коркут», проводится сравнения с другими писменными памятниками. Предстовляется древняя турецкая культура, их природа, занятия тюркских народов и так далее. Выражается мнения к мыслям исследователей эпоса.

И так же говорится о ценностях совместного письменного памятника тюркских народов «Книга Деде Коркуда». В эросе особенно отмечается отношение к женщинам, о воспитательной роли книги и т.д. Мнения основаны на образцах, взятых из этого ценного эпоса. В наше время, это бесценная книга играет важную роль в воспитании молодого поколения. Эпос имеет большой воспитательный роль в процессе образование молодого поколения.

"BOOK OF DEDE KORKUT," THE EPIC LANGUAGE FEATURES

SUMMARY

In the article the ancient monument "The Book of Dede Korkut" are provided with the comparisons made. Ancient Turkish culture, nature, occupations and so on is about. Saga opinions about the researchers said.

Turkish people are believed to be the oldest public monument in the article "The Book of Dede Korkut" of the values, especially on the issues of women in the epic and other aspects of the educational importance of the speakers. Samples taken from the story told are based on opinions. In modern times, this epic role in bringing young people, education is the role of the educational process.

Rəyçi: Hüseynova Həcər
filologiya üzrə elmlər doktoru

b/m. **NÜBAR QASIMOVA**
Azərbaycan Dillər Universiteti
e-mail: ulviyay@yahoo.fr

FRANSIZ DİLİNDƏ OBYEKT VƏ KONTAKTSIZ SÖZÖNÜLƏRİNİN İŞLƏNMƏ ŞƏRTLƏRİ HAQQINDA

Açar sözlər: *vasitəçi tamamlıqlar, sözönülər, fellər, feli sifətlər, isimlər*
Ключевые слова: *предлоги, глаголы, отглагольные причастия, существительные*
Key words: *directs objects, prepositions, verbs, participls, nouns*

Dilin mühüm sahələrindən olan sözönülər fransız dilində də xüsusi rol oynayır və bir neçə növə bölünür. Onlardan biri də obyekt sözönülərdir. Obyekt sözönüləri obyektlərin müxtəlif növlərinə işarəyə xidmət edirlər:

1) Fiziki və ya psixi təsir obyektinə;
2) düşünmə fəaliyyəti obyektinə;
3) nitq obyektinə.

Bu növlərin hər birinə işarə edildikdə, müvafiq sözönü toplumu istifadə olunur:

Təsir obyekti ifadə edən vasitəçi tamamlıq **à, après, contre, dans, de** və **sur** sözönülərilə daxil edilir. Müxtəlif sözönülərlə tamamlıq aşağıdakı fellərlə işlənə bilər.

1) **Frapper** və **jeter** kimi fellər sözönülərin köməyilə:
- *.... on jeta des pierres à la voiture de m. Polignac.*
- *.... des enfants jetèrent des pierres contre l'auto.*
- *Ils criaient, jetaient des pierres dans les glaces.*
- Des inconnus jetaient sur les trolleybus des bouteilles d'essence enflammée.

2) S'acharner, aboyer, crier, gueuler felləri ilə **à, après, contre** və **sur** sözönülərinin köməyilə :
- *Ils s'acharnaient à ses tâches quotidiennes ...*
- *Asthme, catarre, bronchite s'acharnaient après lui .*
... Qui avait-elle fait pour que la providence s'acharnât ainsi contre elle ?
- *.... Une malchance bizarre semblait s'acharner sur eux.*

3) Travailler feli ilə **à, sur** sözönülərinin köməyilə və ya sözönüsüz :
Je vais travailler à mon roman ce n'était pas sur un roman que je travaillais.
- *Je travaille mon roman.*

4) **goidre** (allier, marier, mêler) kimi fellərlə **à** və ya **avec** sözönülərinin köməyilə :
- *J'ai marié ta soeur à un avocat.*
- *Il voulait marier son fils avec sa nièce.*

5) **Abriter** (défendre, garantir, garder, gurer, préserver, protéger) kimi fellərlə **contre** və ya **de** sözönülərinin köməyilə:
Ses lapins n'ont jamais protégé contre la pluie.
Un parapluie fiché en terre la protège de la pluie.

O hallarda ki, təsir obyekti ifadə edən tamamlıq yalnız bir sözönü ilə daxil edilə bilər, bəzi fel və sözönülər **à** ilə, difərləri **de** ilə, üçüncülər isə **sur** ilə daxil edilə bilər :

1) « **À** » sözönüsü ilə s'attaquer, attenter, nuire, toucher kimi fellər, apporter des

changements, faire du bien, mettre le feu kimi birləşmələr və attemite, empêchement, insulte kimi isimlər daxil edilir :

Là je m'attaquais à un problème plus rude.

– L'air faisait du bien à l'evadé modèle.

– Cette insulte à la réligion et deux moeurs allai être lavée à grande eau.

2) İkinci obyekt ifadə edən bəzi fellər tamamlıq qarşısında **de** tələb edir (décompter déduire , être). Digər fellər **sur** sözönüsünü tələb edir.

3) « **Sur** » sözönüsü ilə tamamlıq daxil edilir. a) agir, influer kimi fellərlə; exercer une pression, faire pression kimi feli birləşmələrlə, action, influence kimi isimlərlə; essayer, étonner, vérifier kimi fellərlə, assouvir sa rage (sur qn), passer sa colère (sur qn) kimi feli birləşmələrlə.

Ce mot fit impression sur le Conseiller.

İls vont ... essayer sur leurs adversaires les recettes de leurs calculs.

... les domestiques se déchargeaient sur elle de mille petites besognes.

Semantik və maddi cəhətdən fellərə uyğun gələn əksər isimlərin obyekt tamamlığı de ilə daxil edilir. Müqayisə edək: assasiner N; - assasinant de N ; -transformert N ; - transformation de N ; occuper N ; occupation de N və s.

Bu qəbildən olan isimlərə aşağıdakıları aid etmək olar : atteinte, défi, empêchement , insulte, menace, obstacle.

- à sözönüsü ilə daxil edilirlər: crime, revanche, vengeance contre və ya sur sözönülərilə daxil edilirlər: attaque isminin obyekt tamamlığı à, contre, de və sur sözönülərilə daxil edilir :

... ces chromes sont aussi une offense au peuple.

– C'est un crime, et non seulement sur la personne d'un homme plein de mérites, mais contre nos droits les plus sacrés.

– Jamais encore, il n'avait subi ... une sirude attaque à sa puissance. ....

– Paul monte à l'attaque du Louvre. ... - les gendarmes, croyant à une attaque sur le voreux galopaient.

Avec və contre sözönülərilə daxil edilən obyekt tamamlıqlarının bir xüsusiyyətini qeyd etmək lazımdır ki, onlar təkcə özləri təsirə məruz qalmır, həmçinin özlərindən sonra obyekti təsirə məruz qoyurlar:

Nous venons de nous battre avec les Allemands.

– Dans le fallacieux combat entre, l'ordre et la justice Michel-Charles s'est déjà rangé du côté de l'ordre.

Proses kimi düşüncə obyekti ifadə edən tamamlıq müxtəlif üsulla qurulur. Bu, onun felə və ya ismə aid olmasından asılıdır. Düşüncəni ifadə edən fellə (méditer, penser, réfléchir, rêver, songer) obyekt tamamlıq à, nadir hallarda sur istisna méditer felidir ki, bu fel heç vaxt à sözönüsü ilə işlənmir və ya sözönüsüz daxil edilir:

– A quoi pensait-elle en soupirant ?

– Il pensait sur elle, sur lui. – la dame .... parlait d'amour et pensait mariage.

Düşüncə ifadə edən isimlə (idée, méditation, pensée, réflaxion, rêverie, songerie) obyekt yamamlıq sur, nadir hallarda à propos de sözönüsilə daxil edilir:

– Au retour, sa méditation sur Française devint plus sombre.

– Toutes ces réflexions à propos d'un autre le ramenaient en vérité à lui-même.

– De nouveau, la pensée de la guerre civile occupa intégralement sa consience.

Xəbərdar olma,bilmə, və s. mənalar fellərlə(s'apercevoir, se douter, être au

courant, se rendre compte, savoir), isimlərlə (compétence, connaissance, consience, entendement, érudition, expérience, idée, intelligence, notion, science) və sifətlərlə (averti, avisé, colé, consient, convaincu, familier, terré, ignorant, instruit) ifadə olunur. Bunların obyekt tamamlığı çox vaxt de, sur, nadir hallarda pour, quant à, relativement à, en ce qui concerne, en ce qui touche sözönü və birləşmələrlə daxil edilir:

Tu sais tout de moi. – Tu sais tout sur moi. – Ce type sait, dit-il, pour moi, et toi ... il faut d'abord que vous avouez tout ce que vous savez relativement aux relations de votre femme avec Mme de Chevreux. Fonsèque affichait ... une compétence hautaine et nébuleuse des questions sexuelles.

– les clochemerlins, quant aux tournures classiques, manquaient de compétence.

– ... Ce sont là des questions sur lesquelles je n'ai pas une compétence véritable.

İntellektual dəyərləndirmə, qiymətləndirmə obyektini ifadə edən tamamlıq isim, fel və ya sifətdən asılı ola bilər. İsmə aid olan tamamlığın qarşısında sözönülərin işlənmə seçimi ismin mənasından asılıdır. Neytral məna ifadə edən isimlə (avis, conseption, idée, jugement, opinion, point de vue, vu) tamamlıq de, sur və ya az hallarda à l'endroit de, au sujet de, quant à, relativement à sözönülərilə daxil edilir:

J'avais de terribles idées de cette maison. – Il a des idées terribles sur le bien et le mal. – On se fait bien des idées fausses, au sujet de la vocation. – Il lui demanda, s'il avait une idée quant à l'avenir.

Conjecture, hypothèse, préjugé, illusion, désillusion, kimi isimlərlə tamamlıq sur ilə daxil edilir:

C'est ainsi que je m'abaissai jusqu'à avoir des préjugés sur les situations sociales. Et ne te fais pas trop d'illusions sur ma science.Crainte, inquiétude, souci kimi isimlərlə tamamlıq à l'égard de , à l'endroit de, au sujet de, concernant, pour, quant à, relativement à, sur sözönülərilə daxil edilir :

... il en conçut de nouvelles inquiétudes à l'égard de son portefeuille. – Je n'étais donc pas sans inquiétude à l'endroit de mon patron. – Vous n'avez jamais eu d'inquiétude au sujet de votre fils ? -... il n'avait aucune inquiétude pour ses morceaux. ...- elle parlait de ses craintes quant à leur avenir. – Toutes les craintes de madame de Bargeton relativement à Lucien furent augmentées. – N'ayez point à l'inquiétude sur votre souper.

İntellektual qiymətləndirmə mənasında işlənən fel və sifətlərə gəldikdə isə, onlarda sözönülərin işlənməsi hər birinə görə fərqlidir. Müqayisə edək: juger, préjuger de, se tromper, du sujet de, sur ; hésiter, quant à, sur ; s'inquiéter de, pour, sur, craindre pour ; se soucier de, inquiet à l'endroit de, au sujet de, de, pour quant à, sur, sur le compte de ; insouciant, soucieux de və s.

Maraq obyekti və diqqət ifadə edən tamamlığın qarşısında sözönülərin işlənməsi bəzilərində sərbəst, bəzilərində isə qeyri-sərbəst şəkildə olur. Məsələn, sərbəst şəkildə curiosité, indifférence kimi isimlərlə, curieux, indifférent kimi sifətlərlə olur. Onlar à l'égard de, à l'endroit de, envers, quant à, vis-a-vis de sözönülərilə daxil edilir: "j'avoue une certaine curiosité à l'égard de cette expérience ..."

Morvézeu se crut autorisé à piquer sans pudeur la curiosité populaire à l'endroit des sours-muets routiers - ... qui sait même si elle n'eprouvait pas un peu de curiosité envers ce nouvel avenir? - ... la curiosité que d'abord j'avais pu avoir quant aux o-ccupations de mes hôtes était compétement retombée. Et pourtant, sa curiosité est grande vis-à-vis de la France.

Kontaktsız sözönülər obyektlə oriyentin arasında kontakt olmadığına, obyektlə oriyentin arasında olan müəyyən məsafəyə işarə edən sözönülər:

A – Dinamik kontaktsız sözönülər:

1. Obyektin hərəkərsiz oriyentilə məkan əlaqələrini müəyyən edən sözönülər; çıxış nöqtəsinə işarə edən sözönülər:

a) à partir de, de, depuis, en provenance de, retour de ;

b) à bas de, au bas de, en bas de

c) de chez, de dedans, de drrière, de dessous, de dessus, de devant, d'entre, de parmi, de sous, de sur.

2) aralıq məkanı ifadə edən sözönülər:

à travers, au travers de, par.

3) obyektin oriyentə doğru, onq nə yaxınlaşıb, nə də uzaqlaşmadan hərəkətinə işarə edən sözönülər:

par-dessus, par-dessous, au long de, le long de.

4) hərəkətin son nöqtəsinə və ya hərəkətin istiqamətinə işarə edən sözönülər:

a) erkən mərhələdə:

à destination de, en partance pour, pour.

b) orta mərhələdə:

dans la direction de, de vers du côté de, en direction de, sur, vers, côté.

c) son mərhələdə:

à, jusqu'à (jusque).

5. Qarşıya doğru meylli oriyentirlərə işarə edən sözönülər:

à la rencontre de ; au-devant de.

6. Ortasınca hərəkət edən obyektli oriyentirlərə işarə edən sözönülər:

à la suite de, derrière, en, arrière de, en queue de.

7. Önündə hərəkət edən obyektli orientirlərə işarə edən sözönülər:

à la tête de, devant, en avant de.

8. Obyektlərlə orientinin eyni zamanda hərəkətdə olduğunu işarə edən sözönülər:

au fil de, à contre, courant de, au rebours de.

B. – Dinamik – statik sözönülər.

1. Obyektlərin vəziyyətini yalnız mənfi əlamətə görə xarakterizə edən sözönülər:

à l'extérieur de, au dehors de, en dehors de, hors (de), par-dehors.

2. Obyektlərin vəziyyətini təkcə mənfi əlamətə görə deyil, həmçinin hər hansı bir müsbət əlmətə görə xarakterizə edən sözönülər:

1) obyektlə oriyentir arasında olan məsafə vəziyyətini xarakterizə edən sözönülər:

a) à, à côté de, à portée de, à proximité de, au bord de, au côté de, auprès de, aux abords de, aux alentours de, aux côtés de, aux environs de, du côté de, en bordure de, par-devers, près (de), proche (de).

b) à l'écart de, à part de, en retrait de, loin de.

c) plus bas, plus loin.

2) obyektin vəziyyətinin oriyentirə tərəf şaquli istiqamətdə olduğunu xarakterizə edən sözönülər.

a) au dessus-de, sur

b) au dessous-de, dessous, en contrebas de, en dessous de, par dessous, sous

c) à fleur de, à (au) niveau de, à (au) ras de, rez de, rez.

d) au pied de

e) en amont de – en avel de

3) obyektin oriyentirə tərəf vəziyyətinin üfiqi istiqamətdə olduğunu xarakterizə edən sözönülər:

a) *à l'opposé de, à l'apposite de, au large de, devant, en avant de, en face de, en regard de, vis-à-vis de.*

b) *la face de, au regard de, devant, en présence de, par-devant.*

4) obyektlərin oriyentrin arxa tərəfinə nisbətdə olan vəziyyətini xarakterizə edən sözönülər:

derrière, en arrière, par derrière.

5) obyektlərin oriyentrin yan tərəfinə nisbətdə olan vəziyyətini xarakterizə edən sözönülər:

à (la) droite de, sur la droite de, -à (la) gauche de, sur la gauche de.

6) obyektlərin oriyentrin bütün tərəflərinə nisbətdə olan vəziyyətini xarakterizə edən sözönülər:

alentour de, autour de.

7) obyektin vəziyyətini dəqiqləşdirən sözönülər:

face à – dos à

8) iki orientirə nisbətdə obyektin vəziyyətini xarakterizə edən sözönülər:

au delà de, par-dela, au – deça de, en deçà de, après, avant.

"Dərinlikdəki vəziyyət-səthdəki vəziyyət" ziddiyyəti daha çox dans və sur sözönülərilə ifadə edilir:

Je verrai demain ce que cet homme a dans son sac – Soubeyrac mangea le pâté ... assis sur son sac.

Dans – sur ziddiyyəti təkcə obyektin vəziyyətindəki real fərqi yox, həmçinin danışanın obyektiv şəkildə uydurduğu fərqi əks etdirə bilər: si je vois un bateau sur la mer, je le sens qui me tire comme une corde ...

Təhlilini verdiyimiz sözönü növlərindən nəticəyə gəlmək olar ki, bütün dillərdə olduğu kimi fransız dilində dili zənginləşdirib mənalandıran sözönülər dilin ayrılmaz sahəsidir.

ƏDƏBİYYAT

1. Предлоги французского языка и их употребление. М.2008.

2. Lexis : Larousse de la langue française. P.1997.

3. Штейнберг Н.М. Возникновения новых предлогов во французском языке. Л. 1972.

NUBAR QASIMOVA

FEATURES OF PREPOSITIONS WITH THE OBJECT AND VALUE OF THE NON-CONTACT AREAS OF THE FRENCH LANGUAGE

SUMMARY

The French language which belongs to analytical languages the prepositions are the one of the main areas for learning language. They are different for the functions. According to their using ties the prepositions are divided into some groups: time, place, space, price, value, mediation, measure, object. Using of prepositions which have main

functions in sentence structure is connected with the gender and functions in sentence structure is connected with the gender and quantity of noun. This area is investigated by linguists. The prepositions are difficult topics, so the place of using prepositions are sometimes debatable. That's why it is important to apply to prepositions.

НУБАР ГАСИМОВА

ФУНКЦИОНАЛЬНЫЕ ОСОБЕННОСТИ ПРЕДЛОГОВ СО ЗНАЧЕНИЕМ ОБЪЕКТА И БЕСКОНТАКТНОГО НАПРАВЛЕНИЯ ВО ФРАНЦУЗСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В статье «Функциональные особенности предлогов со значением объекта и бесконтактного направления во французском языке» рассматривается вопрос об изучении роли предлогов в группах аналитических языков, в том числе во французском. Разные по выполняемым функциям предлоги употребляются по грамматическим связам, которые делятся на следующие виды: предлоги места, времени, пространство, стоимости и оценочности, посредственности, объекта и др. Предлоги также играют особую роль в построении предложении и выражают род, число в имён существительных. Языковеды ведут необходимые исследования по противоположным мнениям о месте употребления предлогов, о которым же автор этой статьи излагает свою точку зрения.

Rəyçi: ADU-nun Fransız dili kafedrasının professoru, fil.e.d. K.O.Dadaşov

DÜRDANƏ ƏLİYEVA
Bakı Slavyan Universiteti
durdana_a@mail.ru

ONOMASTİK VAHİD KONSEPTİ

(Oğuz qrupu türk dillərinin atalar sözləri əsasında)

Açar sözlər: *konsept, onomastik vahid, antroponim, toponim, etnonim, mətn.*
Ключевые слова: *концепт, ономастическая единица, антропонимы, топонимы, этнонимы, текст.*
Keywords: *concept, onomastic unit anthroponomy, place names, ethnonyms, text.*

Oğuz qrupu türk dillərinə aid atalar sözlərinin əsas xüsusuiyyəti onların müstəqil mətn kimi istifadə edilməsidir. Mətni müəyyənləşdirmək üçün isə onun tərkibində aşağıdakı elementləri axtarmaq lazımdır: 1) mətni təşkil edən formal elentlərin müəyyənləşdirilməsi; 2) mətnin məzmununu təşkil edən linqvistik kateqoriyalarının müəyyənləşdirilməsi; 3) sonuncuların birincilər vasitəsilə ötürülməsi. Bu gün dilçilikdə mətni təşkil edən formal vasitələrə - söz sırasını, elementin daxil edilməsi, elementin qeyd edilməsi, hissələr, leksik təkrarlar, tematik inkişaf, söyləmin üzvlənməsi; məzmun vahidlərinə - əlaqə, vahidlik (özünəməxsusluq), məzmun inkişafı, söyləmin üzvlənməsi; məzmunlu vahidlər – yadasalma, təmiz bağlılıq, vahidlik, parçalanma, vacibliyin qradasiyası, söyləmin hissələrinin məna tarazlığı, qeyri-müəyyənlik kimi elementləri daxil edilir.

Adi qrammatikada olduğu kimi, burada da bu və ya digər kommunikativ fenomenin ifadəliliyi/ ifadəsizliyi fərqlənir ki, buna əsasən söyləmin yüksək emosionallığını və qeyri-emosionallığını müəyyənləşdirmək mümkündür. Türkdilli xalqların atalar sözlərində mətn vasitələri çox geniş şəkildə ifadə olunur. Məsələn: "Hər oxuyan Molla Pənah olmaz" – atalar sözündə mətni ifadə edən vasitələr bunlardır – 1. Qeyri-müəyyənlik : - "Hər"; 2. Bölünmə: - "oxuyan"; 3. Vaciblik qradasiyası – "Molla Pənah"; 4. Məna tarazlığı – "olmaz".

Belə məna sırası bəzən leksik təkrar və məzmun inkişafı kimi formal vasitələrlə də müşahidə edilir. Məsələn: "Əlinin papağını Vəliyə qoyur, Vəlinin papağını Əliyə qoyur" atalar sözündə elementin xüsusilə qeyd edilməsi, leksik təkrar, elementin köçürülməsi, tematik proqressivlik kimi formal vasitələr təqdim edilmişdir.

Türk atalar sözlərini mətnin linqvistikası baxımından təhlil etsək, bütün mətnlərdə olduğu kimi buradada açar elementlərə malik olan temanın vacib olduğunu görərik. Bütün mətnlərdə olduğu kimi burada da bağlayıcı vasitələr mövcuddur.

Bütün atalar sözləri mətn daxilində çox böyük ülsubi imkanlara malikdir. Maraqlıdır ki, bütün paremik ifadələr mətn daxilində araşdırılmış və onların mətn və ümumilikdə dil daxilindəki funksiyaları geniş şəkildə öyrənilsə də, atalar sözlərinin mətn daxilindəki funksiyaları yalnız son dövrlərdən öyrənilməyə başlanmışdır. Türkdilli mətnlərdə atalar sözlərinin yerinə yetirdikləri funksiyalar isə hələ də öz araşdırıcılarını gözləyir. Biz tədqiqatımızın məqsədinə uyğun olaraq yalnız onomastik vahidli atalar sözlərinin publisistik və bədii mətnlər daxilindəki funksiyalarına münasibət bildirəcik. Bu iki mətn nümunələrinə müraciət etməyimizin səbəbi isə onların ictimai xarakterdə olması və böyük kütlə üçün nəzərdə tutulmasıdır. Öncədən qeyd edək ki, bu mətnlərdə

atalar sözlərindən istifadə etməzdən əvvəl "atalarımız demişlər"; "atalarımızın dediyi kimi"; ata-babalarımızın dediyi ki" və s. ara söz birləşmələrindən istifadə edilir ki, onlar da giriş və ya xəbərdarlıq funksiyasını yerinə yetirirlər. Bu zaman bəzən danışanın öz fikri də atalar sözünə əlavə edilə bilər.

Publisistik üslubda bəzən atalar sözləri məqalə başlıqları kimi istifadə edilirlər. Bu zaman publisist ona lazım olan frazanı mətnə sala bilir. Məsələn: tərkibində "Şeytan" mifonimi olan bir atalar sözü internet portallarından birində (www.bianet.org) məqalə başlığı kimi istifadə edilən zaman "Acele restorasyona şeytan karışır" formasında istifadə edilmişdir. Bu atalar sözünün əsli isə – "Acele işe şeytan karışır" (Tələsik işə şeytan qarışar – türk atalar sözü) formasındadır. Qeyd edək ki, sadə atalar sözləri, yəni tərkibində onomastik vahid olmayan atalar sözləri mətn adlandırmada daha aktivdirlər.

Atalar sözləri mətnin əvvəlində və sonunda da işlənə bilər ki, bu da mətndə ifadə olunan fikirləri bir-birinə bağlayır. Mətn sonunda işlənən atalar sözləri çox hallarda elə həmin mətnin də başlığı rolunda çıxış edirlər. Məsələn; "Milliyət"(09 may 2007) qəzetinin jurnalisti H.Camal Türkiyədə Prezident seçkiləri haqqında məqaləsini "Acele işe şeytan karışır" atalar sözü ilə adlandırmış və elə həmin atalar sözü ilə də məqaləni bitirir ki, bununla da mətndə möhkəm bağlılıq yaradılmış olur.

Atalar sözlərinin mətn daxilində geniş yayılmış istifadə forması – onların dəyişiklik edilmədən ya müstəqil şəkildə, ya da hansısa bir cümlənin tərkib hissəsi kimi işlədilməsidir. Bütün mədəniyyət formalarında olduğu kimi türk xalqlarında da xalq arasında çox tanınan və istifadə edilən paremiyalar mövcuddur. Belə paremiyalar daha çox dəyişikliyə uğrayır və bununla da yeni atalar sözlərinin yaranmasına səbəb olurlar.

Maraqlı cəhətlərdən biri, atalar sözlərinin tərkibindəki ifadələrin və ya birləşmələrin mətnin müxtəlif yerlərində təkrarlanmasıdır. Belə halda paremiya mətnyaradıcı funksiya daşımış olur.

Digər bir istifadə məqamı isə atalar sözünün mətn daxilində tam deyil, yarımcıq formada, ayrı-ayrı hissələrlə iştirak etməsidir. Bu zaman daha çox xalq arasında tanınan, dillər əzbəri olan atalar sözlərinin hissələrindən istifadə edilir. Bəzən müəlliflər belə hallarda daha çox bir yox, bir neçə atalar sözü üçün ortaq olan birləşmələrə müraciət edirlər ki, bu da mətnə bir neçə atalar sözünün xəyali şəkildə daxil olmasına səbəb olur. İstər klassik poeziyada, istərsə də, müasir poeziyada atalar sözlərinə müraciət olunması daha populyardır.

Bütün bu deyilənləri nəzərə alsaq, atalar sözlərinin mətn daxilində yerinə yetirdiyi funksiyaları aşağıdakı kimi qruplaşdırmaq olar: delimitasiya funksiyası, mətnin hissələri arasında əlaqə yaratma funksiyası, təsdiq funksiyası, inkar funksiyası, fərqləndirmək və ya nəyi isə diqqətə çatdırmaq funksiyası.

Koqnitiv linqvistikanın əsas vahidi dildə leksem kimi qəbul edilən konseptdir. Bir – biri ilə bəzi oxşarlıqlara malik olan leksem və konsept, həm də fərqli cəhətlərə malikdirlər. Belə ki, konsept özündə komponentləri (konseptual əlamətləri) və semaları (semantik əlamətləri) birləşdirən qatlara, leksem isə semantik əlamətləri birləşdirən semalara malikdir. Ona görə də, polisemantikaya malik söz müxtəlif qatlara malik konsept kimi qəbul edilir. Deməli, konsept - linqvomədəni xüsusiyyətləri özündə əks etdirən bu və ya digər formada müəyyən etnomədəniyyət daşıyıcılarını xarakterizə edən semantik formalaşmadır.

Koqnitiv dilçilikdə konseptin ümummilli, qrup və fərdi formaları mövcuddur. Bizim tədqiqat obyektimiz olan atalar sözlərinin əsasını isə xalq konsepti təşkil edir ki, o da koqnitiv planda çox az tədqiq olunmuşdur. Qrup konsepti digərlərindən ciddi şəkildə fərqlənir. Belə ki, atalar sözlərinin mətnini hissələrlə nəzərdən keçirdikdə bu hissələrin hansısa bir qeyri – müəyyən ölçülərinin eynicinsli bir vahid halında birləşdiyini görərik. Məhz bu əlamət onları təfəkkür konseptlərindən fərqləndirir. Bununla yanaşı bədii konsept psixoloji mürəkkəbliyi ilə də fərqlənir. Ümummilli və qrup konseptlərində hiss, arzu kimi psixoloji formalar və ümumiyyətlə irrasional nə isə ifadə olunmur. "Bədii konsept isə hər ikisinin kompleksidir. Psixoloji kateqoriyaların hamısı onun üçün doğmadır. Digər bir fərqli cəhət isə təfəkkür konsepti həmişə hansısa bir ümuminin ideal və ya real əşyaviliyinə aid olur və onun sərhədlərindən kənarda yerləşən hansısa bir mənanı ifadə edir. İlk baxışda bədii dərketmədə vəziyyət başqadır. Sənətkarın yaratdığı onun sərhədlərindən kənarda mövcud olana işarə etmir. Bu yazıçının ən axırıncı məqsədidir. Amma bununla həmişə razılaşmaq olmaz" (3,3-15).

Onomastik vahid konseptinin nüvəsini adlandırma təşkil edir və onun təhlili zamanı 2 üsuldan istifadə edilə bilər: diaxronik və sinxronik. Adın diaxronik təhlili konseptin kökündə qorunan incə mənanı üzə çıxarmağa kömək edir. Konseptin nüvəsində ilk gözə çarpan - onun konkret bir vahidin (canlı və ya cansız varlığın) adını ifadə etməsidir. Bu konseptual məna həmişə onun daxilində yatır. Bununla yanaşı, konseptin nüvəsində koqnitiv qatlar qorunur. Bu qatların aşkarlanmasında qurulan mətnin və xalqın dünyagörüşünün böyük rolu vardır.

Onomastik konseptin ilkin formalaşma məskəni kollektiv və fərdi təfəkkürdür; məhz o - təfəkkürdə insanın onimlərdə ifadə olunmuş və semantik modellərdə tipikləşdirilmiş real obyektlərin ümumi və xüsusi təsəvvürlərini inikas etdirir. Onun özünəməxsusluğu xüsusi əhəmiyyətə malik olan mənəvi dəyərlərin insan təfəkküründə inikası (milli özünəməxsusluq, mənəviyyat, tarixi yaddaş, mentalitet) və onomastik vahidlərdə ifadə edilmiş spesifik xüsusiyyətlərin köməkliyi ilə meydana çıxır.

Onomastik konsept – insanın ensiklopedik və dil biliklərinin onların (xüsusi adların) semantikasını müəyyənləşdirən, müəyyən biliklər çərçivəsində birmənalı şəkildə dərk olunmasını təmin edən, dayanaqlı və mühafizəkar struktura malik dil vahididir. Belə ki, onomastik konsept konkret ünsiyyət üçün aktual olan düşünülmüş, verballaşmış onomastik vasitələrə söykənir. Bu isə onların istifadəsini ümumiləşdirir və hamıya tanıdır. Yalnız bir qisim onomastik konseptlər fərdi təfəkkürə aid olduqları üçün mənaları dayanaqsızdır.

Təbii ki, bədii nitqdə xüsusi adların əsas funksiyası onların semantikası ilə bağlıdır, bədii mənası isə mədəni – tarixi məlumatı aktuallaşdırır və müxtəlif assosiasiyaların kompleksi apelyativlərə nisbətən daha mürəkkəbdir, o insanların təfəkküründə müxtəlif təsəvvürlər yaradır və insan cəmiyyətində xüsusi yer tutaraq, onların milli mədəniyyət, milli xarakter, milli davranış, mənəvi dəyərlər və mentaliteti ilə xarakterizə olunur və bu səbəbdən də xüsusi adlar semantik cəhətdən çətin təhlil olunurlar.

Təhlillərdən gördüyümüz kimi atalar sözlərində onomastik vahidlərin arxasında müxtəlif konseptlər gizlənir ki, məhz həmin onomastik vahidlər vasitəsilə bizə lazım olan konsept formalaşdırılaraq adresata ötürülür. Maraqlıdır ki, bu mexanizm elə qurulmuşdur ki, onomastik vahid arxasında gizlənən və ya onun vasitəsilə formalaşan bütün konseptlər deyil, yalnız mətnə və məqsədə uyğun olan və ya məlumatı verənə

lazım olan konseptlər ötürülür, qalanları isə ümumi obyektdən silinir. Bu prosesin baş verməsi üçün bir neçə koqnitiv mexanizm (əlaqələndirmə, qurulma, inkişaf) işə düşür. Əlaqələndirmə vasitəsilə real hadisə ilə onomastik vahidin ötürə biləcəyi konseptlərdən lazım olanı arasında əlaqə yaradırılır. Bu əlaqə adın gizlətdiyi digər konseptləri tamamilə gizlədir. "Qurulma" koqnitiv mexanizmi lazım olan konseptin çatmayan əlamətlərini bərpa etməyə kömək edir. "İnkişaf" koqnitiv mexanizmi isə təqdim edilən konseptin adresatın yaddaşında məzmun və məna baxımından daha da genişlənməsinə və möhkəmlənməsinə kömək edir. Oğuz qrupu türk dillərinin atalar sözlərindəki onomastik sahəsinin koqnitiv-konseptual-üslubi təhlili onomastik vahidlərin özlərində müxtəlif konseptual-üslubi mənaları daşıyan nüvə olduğunu söyləməyə imkan verir. Hər bir onomastik vahid növündən asılı olaraq özündə fərqli konseptləri birləşdirir ki, bu koqnitiv-konseptlərə tarix, ədəbiyyat, siyasət, din daxildir. İfadə olunan koqnitiv-konseptləri atalar sözlərindəki müxtəlif onomastik vahidlər vasitəsilə aktivləşir ki, onların əsasında da onomastik vahidin nüvə quruluşu formalaşır:

Antroponimin koqnitiv nüvəsini təşkil edən koqnitiv –kotekstlər: din, tarix, elm, mədəniyyət və iqtisadiyyatdır.

Mədəniyyət koqnitiv kontekstini aktivləşdirən antroponimlər: Molla Pənah Vaqif, Molla Nəsrəddin, Xoca Nəsrəddin, Keçəl, Kosa, Aldar Kosa, Koroğlu və s. ("Hər oxuyan Molla Pənah olmaz"; "Koroğlunu tutmağa bir keçəl Həmzə gərək"; "Kosa getmişdi saqqal gətirməyə, bığını da üstəlik qoydu"; "Kosa kəndə girməmiş illisini başladı"; "Keçəlin adın qoyarlar Zülfəli"(Azərb); "Pinti Hamit cimri"(türk); "Toý eden Mämmedoraz, ady Ýowşan baýa gider"(türkmən)) Gördüyümüz kimi bu vahidlər çox müxtəlifdir. Onların arasında tanınmış şair və ya yazıçı, nağıl və dastan qəhrəmanları və b. görmək mümkündür.

Elmi koqnitiv kontekstdə biz Quranda da adı keçən elmli bir adam kimi tanınan Loğman və Əflatun adı ilə qarşılaşırıq: "Çarəsiz dərdə Loğman da acizdir"; "Hikməti Loğman ağzından" (Azərb);"Lukmanyň alaç etmedigini Ezraýylyň dergähinden agtar" (türkmən); "Ĥikmeti Loḳmān'dan śor!"; "Lokman Hekim gelse çare bulunmaz"; "Lokman Hekim ye dediği „güzel yiyecek" (türk); "Magtymguly türkmeniň Eflatunydyr"(türkmən).

Tarix koqnitiv konteksti isə Nadir şah, Çar Nikolay, Şah Abbas, Ərtoğrul, Marko Paşa, Dəli Mustafa, Sultan Süleyman, Hacı Emmin, Malkoçoğlu, Mahtumqulu - antroponimləri vasitəsilə aktivləşir ("Nadiri taxtda görüb, Nikolayı qundaqda"; "Saqqalda feyz olsaydı, keçiyə Kəraməddin ağa deyərdilər"; "Şah Abbasa yaradı, keçəl Abbasa yaramadı?!" (Azərb.); "Çal çoban, çal. Seninde Ertuğrul gimi oğlun mu öldi, Sıvas gimi galan mı gitti?"; "Derdini Marko Paşaya anlat"; "Felek Deli Mustafa`ya yar olmadı"; "Dünya Sultan Süleyman`a bile kalmamış."; "Hak söze Hacı Emmin de bir şey demez"; "İp ucu vermez Malkoçoğludur"(türk); „Magtymguly türkmeniň Eflatunydyr"(türkmən)). Adları sadalananlar tarixdə böyük siyasətçi, tarixi şəxsiyyət, hakim kimi tanınan şəxslərdir.

Dini koqnitiv konteksti isə Nuh, Əli, Xıdır Nəbi, Xıdır İlyas, İsa, Məhəmməd, Musa antroponimləri vasitəsilə aktivləşir ("Arvad tufanı başlayanda, Nuhun tufanı yaddan çıxar; Əl tutmaq Əlidən qalıb"; "Nə dərin suya gir, nə Xıdır Nəbini çağır"; "Nə dərin suya gir, nə Xıdır İlyası çağır" (Azərb.); "İsa`yı küstürdü Muhammet`i memnun edemedi"; "Hem İsa`yı hem de Musa`yı memnun edir"; "Her Firavun`un bir Musa`sı

olur“(türk)). Bu türklərin və ya onların qonşularının dini inancları ilə bağlı olan şəxslərdir.

Xıdır İlyas və Xıdır Nəbi mifoloji obrazları oğuz türkləri arasında geniş yayılan və olduqca maraq doğuran antroponimlərdəndir. Qeydə alınan mətnlərdə Xıdır İlyas başında xəz papaq, əynində kürk olan mifoloji varlıqdır. Bəzi mətnlərdə isə onun cırcındır içində, dilənçi görkəmində gəzdiyi bildirilir. Onun barmaqlarının arası qaz ayaqları kimi pərdə ilə örtülmüşdür. Xalq arasında yayılmış təsəvvürlərə görə, o, ancaq yaxşı adamların gözünə görünür, pis adamlar isə onu görmək imkanından məhrumdurlar. Xıdır İlyası görən şəxs onu tanıyıb nə istəsə, arzusuna çatar.

İkinci mifik obras isə Xıdır Nəbidir. Xalq bütün rəvayət və nağıllarında onu peyğəmbər kimi təqdim edir. O, alçaqboylu, dolu bədənli, əyninə köhnə xalat və ya sırıqlı geyinən qoca kişidir. Köhnə heybəsi də həmişə çiynində olur, dara düşən adamların dadına çatır, vəzifəsini qurtardıqdan sonra tez də yoxa çıxır. Türklər arasında yayılmış inama görə, Xıdır Nəbi su ziyarətidir. Suya girən adam onu çağırsa, sudan salamat keçər. Yuxarıdakı deyim də bununla bağlı yaranmışdır.

Toponimlərin nüvəsini təşkil edən koqnitiv kontekstlər antropnimin koqnitiv kontekstini eynilə təkrarlayır, lakin toponimlərdə yer, ərazi məzmununun olması bu kontestlərin də məzmununa təsir edir.

Toponimin koqnitiv nüvəsi təşkil edən koqnitiv–kotekstlər: din, tarix, mədəniyyət və iqtisadiyyatdır.

Din koqnetiv-konteksti Məkkə, Həcc, Mədinə kimi toponimlər vasitəsilə aktivləşir (“Altmış yaşında qoca, indi yollanır Həccə”; “Bəhs ilə Həcə gedən yorular yolda qalar”; “Bəylə Haca gedən çöllərdə sərgərdan qalır”; “Dəvə Məkkəyə getməklə hacı olmaz”). Bu toponimlər müsəlmanların ziyarətgah yerləri kimi atalar sözlərində məhz din və bu anlayışla bağlı olan mülahizələrin koqnetiv-kontekstinin ifadəsinə xidmət edirlər.

Toponimlərdə biz ədəbiyyat koqnetiv-konteksti ilə yalnız bir dəfə qarşılaşırıq. Buraya təbii ki, nağıl və dastanlarımızdan gələn və real həyatda coğrafi qeydiyyatdan keçməyən Qaf oronimi daxildir: “Külün içində oturub, xəyalında Qaf dağındadır” (türkmən).

Tarix koqnitiv-konteksti oğuz qrupu tür dilli atalar sözlərində çox zəngindir. Burada biz tarixin müxtəlif dönəmləri ilə bağlı olan toponimlərlə qarşılaşa bilirik: “Şamaxı batan kimi batıb” (Şamaxı zəlzələsinə işarədir).

Toponimlərdə biz antroponimlər vasitəsilə ifadə oluna bilməyən koqnitiv-kontekslə qarşılaşırıq ki, bu da iqtisadiyyatdır. Bu kontekstdə əsasən ərazinin regional xüsusiyyətləri əsas götürülür: “Zirəyə getdin çörək götür, Zirədən çıxdın ayaq götür”; “Zirəni Kirmana, soğanı Hövsana aparmazlar” (Azərb.); “Konya’nın tozu, Sille’nin kızı, Koçhisar’ın tuzu”; “Konya sudan, Adana yılandan, Kayseri yalandan”; “Amasya’nın var dağı, Biri olmazsa biri dahı”; “Edirne’nin Tunca’sı, Bursa’nın kaplıcası”; “Karaman’ın koyunu, sonra çıkar oyunu”; “Gideceğin Antep, yiyeceğin pekmez”(türk);

Etnonimlərin koqnitiv nüvəsini təşkil edən koqnitiv –kotekstlər: tarix, mədəniyyət və iqtisadiyyatdır.

Tarix koqnitiv-konteksti oğuz qrupu tür dilli atalar sözlərində çox zəngindir. Burada biz etnonimlər vasitəsilə tarixin müxtəlif dönəmlərinin təsviri ilə qarşılaşa bilirik: “Tat ata mindi, Tanrısın tanımadı”(Azərb.); “Osmanlı`nın ayağı üzengide

gerek"; "Osmanlï bastuğï yerde ot bitmez"; "Osmanlı ekmeği yiyip düşmana dua olmaz"; "Osmanlı tavşanı araba ile yakalar/avlar"(türk)

Etnonimlərdə biz antroponimlər vasitəsilə ifadə oluna bilməyən koqnitiv-kontekslə qarşılaşırıq ki, bu da iqtisadiyyatdır. Bu kontekstdə əsasən tayfanın yaşadıqları regional xüsusiyyətlər əsas götürülür: "Bakılı cüt danışar, şəkili – qaş-gözlə, dərbəndli – kəllə ilə"; "Ağsuluya dedilər: Gəl görüşək. Dedi: Gəl su içək"; "Dodurlu hara, Bodurlu hara"; "Dodurlunun dediyini Bodurlu deyə bilməz"(Azərb.); "Ermeni'de irfan, Yahudi'de pehlivan bulunmaz"; "Ermeni'den dönme, sonradan görme"; "Ermeni'den dönme, sonradan görme."; "Türk gibi başlamalı, İngiliz gibi bitirmeli"; "Tatar dedim, ama şaşırma, tatar böreği demedim" (türk); "Türkmen oňmaz gününe şükür eder"; "Türkmeni dürtmeseň duýmaz"; "Türkmen saçagy deý halal bolsun"(türkmən))

Gördüyümüz kimi folklorda xüsusi isimlərin fəaliyyəti çox hallarda identikdir. Eyni zamanda bir çox əlamətlər spesifikdir, yəni xəlqidir. Oğuz qrupu türk dilli xalqların folkloru, yəni – Türkiyə, Azərbaycan, Qazax, Türkmən folklorunda xüsusi isimlərin fəaliyyəti üçün yazılı bədii mətnlərdən fərqli bir mühit yaranır ki, bu mühit hələ də elmi şəkildə tam təsvir olunmamışdır. Bədii əsər müəyyən bir zaman kəsiyində mövcuddur, bununla bərabər statikliyi, bütövlüyü və eynixassəliyi xarakterizə olunur. Bu gün adlarda baş verən dəyişikliyin əsası folklordan gəlir. Hər bir xalq sənəti müəyyən zaman kəsiyinə malikdir, beləki, bir folklor nümunəsinin fərqli zamanlarda və fərqli mühitlərdə müxtəlif variantları mövcuddur. Folklorda adların variantlılığı xalq poeziyası dilinin əsas üslubi xüsusiyyətlərindən biridir. Bundan əlavə, eyni üsullarla folklorda nəinki variantlar yaranır, həmçinin folklor mətninin bütün mərhələlərində apelyativ leksikanın məna dəyişməsi və ya təhrif edilməsi ilə yeni adlar da formalaşır. Bizim fikrimizcə, heç bir yazılı mənbə folklor kimi adlar üzərində, onların dəyişməsi və yeniləşməsi üzərində belə müşahidələr aparmağa imkan vermir. Folklor adlarındakı dəyişiklik nitq prosesinə məxsus xüsusi vasitələr və qanunlar əsasında baş verir ki, bununla da şifahi ənənələrlə bağlanır. Folklor onomastikasını yazılı ədəbiyyat onomastikasından ciddi şəkildə fərqləndirən əlamət onların tək onomastika üçün deyil, həm də digər linqvistik elmlər üçün tətbiqi əhəmiyyətə malik olmalarıdır. Sözsüz ki, folklorda adın dəyişməsi zaman üzrə yayılmışdır və bu tədricən baş verir, çünki şifahi xalq ədəbiyyatının əsas əlamətlərindən biri onun ənənəviliyidir. Ənənəvi mətnin dərkolunmuş dəyişikliyi bütün söz müəllifləri üçün xarakterik deyil. Folklor mətninin az dəyişikliyə uğraması, formulalığı, "bərkliyi" folklor ənənələrinin qırılmazlığını təmin edir, onu arxaik leksikanın, həmçinin onomastik qatın sandığına çevirir. Xüsusilə də, bu poetik mətnlərə aiddir ki, bunlarda şer sətrində konkret heca miqdarının olması adı xüsusi bir formaya salır. Bunun barəsində aşıq şerlərində toponimlərin istifadəsindən danışan zaman H.Mirzəyev çox maraqlı təhlillər aparmışdır. Beləliklə də, təkcə qədim yazılı mənbələr deyil, həm də şifahi xalq bədii ənənələri də zaman içərisində qədim onomastik vahidləri keçirərək bu günümüzə gətirib çıxarırlar. Dürüst və arxaik folklor onomastikası dilçiliyin müxtəlif sahələri üçün maraqlı faktlar verir. Folklor adları müxtəlif dialekt və arxaik faktları özündə qoruyub saxlaya bilir. Folklor antroponimika və toponimikasının tədqiqata cəlb edilməsi folklorşünaslığın da bir çox problemlərinin - folklor mətnində əks olunan ərazinin topoqrafiyası, onun yerləşdiyi yeri və yaranma zamanını müəyyənləşdirməyə, mətndə adı keçən tarixi şəxsiyyətin yaşadığı dövrə və bu dövrün tarixi mənzərəsinə əsasən həmin folklor nümunəsinin yaranma tarixini

müəyyənləşdirməyə və s. kömək edir. Folklordakı adlar – milli tarix, etnoqrafiya, coğrafiya haqqında qiymətli mənbədir: folklorda qorunub saxlanmış türk xalqlarının yerləşdiyi ərazilər haqqında geniş məlumat verməklə yanaşı, türk xalqlarının öz qonşuları ilə saxladığı əlaqələr haqqında da maraqlı faktları özündə əks etdirir; bəzən bir nağılda qəhrəmanın keçdiyi yol real ticarət yollarını əks etdirmiş olur. Bütün bu faktlar isə folklor mətnlərinin tədqiqata cəlb olunmasının vacibliyini tələb edir.

Türkdilli folklor nümunələrindən məhz atalar sözləri türk folklorunun kiçik həcmli formaları kimi digər folklor nümunələri ilə həm miqdarına, həm keyfiyyətinə, həm də xarakterik xüsusiyyətlərinə görə müqayisə edilməz dərəcədə zəngindir və bu səbəbdən də türk folklorunun nüvəsini təşkil edir. Belə əhəmiyyətli olmasını təmin edən əlamətlərdən biri də onların digər janrlara nisbətən həm arxaik, həm də müasir olmasıdır.

Oğuz qrupu türk dillərinə aid atalar sözlərinin müqayisəli təhlili onların süjet və quruluş müxtəlifliyini göstərir. Bir çox onomastik tədqiqatlarda quruluşca oxşar formaların təhlilinə üstünlük verilir. Çünki belə mətnlərdə xüsusi isimlərn quruluş və məzmun dəyişikliklərini izləmək daha asandır (daha dəqiq desək, xüsusi isimlərin variantlılığı folklor nümunələrinin variantlığı hesabına yaranmış olur).

Türk xalqlarının atalar sözləri və məsəllərinin əsas xüsusiyyətlərindən biri onun tək bir müstəqil əsər deyil, bütöv bir kompleks təşkil edən folklor nümunəsinin bir hissəsi olmasıdır. Belə bir kompleksdə obrazlar bir atalar sözündən digərinə keçirlər. Bunun da nəticəsində atalar sözləri və məsəllərin ümumi bir leksik mənzərəsi yaranmış olur ki, buraya xüsusi isimlər də daxil olur. Atalar sözləri və məsəllərin xüsusi isimləri özünəməxsus xüsusiyyətə malikdirlər. Buradakı onomastik leksika tarix, mədəniyyət, qədim prototürk əlaqələri haqqında maraqlı faktları özlərində yaşadırlar.

Türk dilli xalqların atalar sözləri və məsəllərin tərkibindəki onomastik vahidlər, bizim fikrimizcə özünəməxsus xüsusiyyətləri ilə fərqlənirlər. Dilçilikdə adların ənənəvi şəkildə relyativ əlamətlərindən biri onların fərdi şəkildə müəyyənləşdirilməsidir, halbuki, ümumişlək adlar bir əlamət əsasında birləşən bütöv bir qrupa verilir. Digər tərəfdən ümumişlək adlar konnotativliyə malikdirlər. Atalar sözlərinin tərkibində işlənərkən xüsusi isimlər istənilən sözlər kimi, öz kateqorial xüsusiyyətlərini itirirlər və yeni funksional-semantik əlamətlər qazanırlar. Bununla da xüsusi isimlər öz fərdi işarəviliyini və dəqiq denotativ aidliyini itirərək aid olduğu dil sahiblərinin etnomədəni qnunauyğunluqları əsasında etnik göstərici hesab edilən anlayışın simvoluna cevrilir. Bunu adın frazeoloji dəyişməsi də adlandırmaq olar.

Türk atalar sözləri və məsəllərinin əsas xüsusiyyətlərindən biri onun tək bir müstəqil əsər deyil, bütöv bir kompleks təşkil edən folklor nümunəsinin bir hissəsi olmasıdır. Belə bir kompleksdə obrazlar bir atalar sözündən digərinə keçirlər. Bunun da nəticəsində atalar sözləri və məsəllərin ümumi bir leksik mənzərəsi yaranmış olur ki, buraya onomastik vahidlər də daxil olur. Atalar sözləri və məsəllərin onomastikası özünəməxsus xüsusiyyətə malikdirlər. Buradakı onomastik leksika tarix, mədəniyyət, qədim prototürk əlaqələri haqqında maraqlı faktları özlərində yaşadırlar.

ƏDƏBİYYAT

1. Bəydilli (Məmmədov) C. Atalar sözü. Bakı, Öndər nəşriyyatı, 2004, 264 s.
2. Zeynallı H. Azərbaycan atalar sözü. Bakı: Elm və təhsil, 2012, 174 s.
3. Аскольдов С. А. Концепт и слова – Ученые записки \ серия языка и литературы\БСУ–Баку: 2009, №-1,с.3-15
4. Лихачев Д.С. Концептосфера русского языка // Изв. АН СССР Сер. Лит. И яз.- 1993.- №1.- с.3-9; – 26
5. Ömer A. A. Atasözleri ve deyimler sözlüğü 1. İnkilap Kitabevi, İstnbul, 2007, 486 s.
6. Berkeliyev K. Nakıllar ve Atalar Sözi. Asgabat: Ilım Naşriyatı, 1961
7. Çarrıyew M. Türkmən xalk nakılları. Aşgabat: Miras, 2005,
8. İzbulak V. Atalar Sözü. İstanbul: Devlet Basımevi, 1936
9. ekitap.kulturturizm.gov.tr/.../11648,atasozlerive...

Д.Т.АЛИЕВА

КОНЦЕПТ ОНОМАСТИЧЕСКИХ ЕДИНИЦ (НА ОСНОВЕ ПОСЛОВИЦ ТЮРКСКИХ ЯЗКОВ ОГУЗСКОЙ ГРУППЫ)

РЕЗЮМЕ

Статья посвящена изучению ономастических концептов пословиц и поговорок тюркских народов. Здесь в первый раз в азербайджанской языкознание ономастическая единица рассматривается как концепт, анализируется ядро антропонимов, топонимов и этнонимов азербайджанских, тюркских, туркменских и гагаузских пословиц, и они рассматривается как текст. Когнитивный – концептуальный -стилистический анализ ономастического пространства пословиц и поговорок тюркских языков группы Огуз, даёт нам возможность сказать что, ономастическая единица это ядро содержавшее в себе разных концептуальных - стилистических значения.

D.T.ALIYEVA

CONCEPT ONOMASTIC UNITS (BASED ON PROVERBS OF THE TURKIC LANGUAGES OF OGHUZ GROUP)

SUMMARY

The article is devoted to the study of onomastic concepts proverbs of the Turkic peoples. Here for the first time in Azerbaijan linguistics of names unit is considered as a concept, is analyzed anthroponyms core, place names and ethnonyms of Azerbaijani, Turkish, Turkmen and Gagauz proverbs, and they are considered as text. The cognitive - conceptual analysis of onomastic space -stilistichesky proverbs Oguz Turkic language groups gives us the opportunity to say that this is the core unit of names containing a different concept - stylistic values.

Rəyçi: prof. İkram Ziyad oğlu Qasımov

XƏYALƏ MUSTAFAYEVA
BDU-nun Ərəb filologiyası kafedrası
xayala1974@gmail.com

ƏRƏB ƏDƏBİ DİLİNDƏ RƏNG VƏ FİZİKİ NÖQSAN BİLDİRƏN SİFƏTLƏRİN SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Açar sözlər: *sifətlər, rəng, bədən qüsuru, əlamət, model.*
Ключевые слова: *прилагательные, цвет, физические недостатки, признак, модель.*
Key words: *adjectives, colour, physical defects, sign, model.*

Ərəb dilində sifətlər də isimlərin əmələ gəldiyi modellərdən düzəldiyi üçün praktiki olaraq onların ayrıca morfoloji seçilmə üsulları yoxdur. Sifətin ayrıca bir nitq hissəsi kimi hesab edilməsinə əsas verən məqamlar mövcud deyil. Buna görə də sifətlərin isimlərdən seçilməsi əsasən kontekstdə mümkün olur. Lakin çoxsaylı düzəltmə sifət modelləri məlumdur ki, onların da içərisində məhz sırf sifət modelinə aid olan bir qrup haqqında danışa bilərik. Həmin qrupa daxil olan isimlər substantiv məna daşıya bilər, lakin bu qrupun sözdüzəltmə göstəricilərinin semantik bazası, görünür ki, adyektivdir. Bu qrupa daxil olan sifətlər "Rəng və fiziki nöqsan bildirən sifətlər" adlanır. Rəng və fiziki nöqsan bildirən sifətlər rəng (məsələn: أَحْمَرُ - *qırmızı*), fiziki qüsur (məsələn: أَحْدَبُ - *qozbel*) və sadəcə olaraq məlum bir zahiri əlamət (məsələn: أَفْرَاءُ - *tüklü*) bildirir. Bu sifətlər üçün hazırki vaxta qədər münasib bir termin seçilməmişdir. Onu da qeyd etmək lazımdır ki, həmin sifətləri rəng və fiziki nöqsan (və ya Yuşmanovun sözləri ilə desək, rəng və qüsur) (13, 255) bildirən sifətlər adlandırmaq da tam uğurlu sayıla bilməz. Alman dilçisi H.Wehr "Farben und korperliche Gebrechen" – "rəng və bədən qüsurluğu" variantından istifadə edir, daha sonra isə ikinci mənanı dəqiqləşdirərək "bədən xüsusiyyətləri" şəklində qeyd edir (27, 570). V.Fişer isə onları "rəng və forma" və ya "rəng və bədən forması" xüsusiyyətləri bildirən sifətlər kimi qruplaşdırır (22,66). Yeri gəlmişkən, burada qeyd edilməlidir ki, məsələn, "lal" sözünün zahiri əlamət bildirməsi mübahisəli görünür. Məhz buna görə də, zənnimizcə, həmin sifətləri "rəng və fiziki əlamət" bildirən sifətlər kimi adlandırmaq daha məqsədəuyğun olardı (23, 408).

Q.Ş. Şərbətovun qeyd etdiyinə görə müasir ərəb dilində bu cür sifətlər "çox nadir hallarda insanın müsbət keyfiyyət və vəziyyətlərini (məsələn, ailə ilə bağlı münasibətləri) bildirmək üçün istifadə olunur". Müəllif bu münasibətlə أَهْيَفُ – *qədd-qamətli*, *boy-buxunlu*; أَعْزَبُ – *subay* sözlərini misal gətirir (12, 300). Lakin klassik ərəb mətnlərinə müraciət etdiyimiz zaman bu mövzu ilə bağlı oradakı misalların kəmiyyəti bizə belə bir qənaətə gəlməyə əsas verir ki, bu kimi hallar həmin dövr üçün heç də nadir və təsadüfü hesab oluna bilməz. Həmin mətnlərdə müsbət fiziki əlamətləri bildirən kifayət qədər sifətlərə rast gəlmək mümkündür (7, 58; 21, 5-6).

Bu sifətlərin ən səciyyəvi xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, bu qrup sifətlər təkcə ümumi semantikaya malik olmaqla yanaşı, digər isimlərdən (ad qruplu sözlərdən) fərqli olan ümumi sözdüzəltmə xüsusiyyətlərini ehtiva edir. Bu sifətlərin xüsusi göstəricilərə malik olması onların ümumiləşdirilərək ərəb dilindəki digər adlardan fərqləndirilməsini təmin edən ən mühüm kriteriyasıdır.

Bu qrupa daxil olan sifətlər aşağıdakı forma üzrə düzəlir:

احمر – أَفْعَلُ *qırmızı* (k.c.)
حمراء – فعلاء *qırmızı* (q.c.)
حمر – فعل *qırmızılar* (hər iki cins üçün)

Misallardan da göründüyü kimi, digər sifət qruplarından fərqli olaraq bu qrupa daxil olan sifətlərin müzəkkər və müənnəsdə (kişi və qadın cinsində) cəm formaları bir-birindən fərqlənmir, eyni forma üzrə təzahür edir.

Bu qrupa daxil olan sifətlərin təsniyə formaları digər sifətlərə aid olan qaydalar üzrə əmələ gəlir – qeyd olunmuş formanın sonuna adlıq halda ـَانِ , yiyəlik və təsirlik hallarda isə ـَيْنِ şəkilçisinin əlavə edilməsi ilə düzəlir. Məsələn:

A. أَسْوَدانِ – أَسْوَدُ
Y. أَسْوَدَيْنِ – أَسْوَدَ
T. أَسْوَدَيْنِ – أَسْوَدَ

Bu sifətlərin təsniyə formasının qadın cinsinə gəldikdə isə, sifətin sonundakı həmzə samiti iki uzun saitin (formaya aid və təsniyəyə aid uzun saitlərin) arasına düşdüyündən و samitinə çevrilir. Məsələn:

A. سَوْداوانِ – سَوْداءُ
Y. سَوْداوَيْنِ – سَوْداءَ
T. سَوْداوَيْنِ – سَوْداءَ

Qeyd etmək lazımdır ki, bu sifətlərin müzəkkər formasının təkdə olan variantı elativ (və ya superlativin müzəkkərinin tək) forması ilə eynilik təşkil edir: أَكْبَرُ – أَفْعَلُ *daha böyük*.

Bundan əlavə, bəzən də elə məqamlar üzə çıxır ki, orada eyni kökdən əmələ gəlmiş eyni bir forma qeyd etdiyimiz sifət mənası ilə yanaşı, eyni zamanda müqayisə dərəcəsini də bildirmək imkanına malikdir, məsələn: أَحْسَبُ – *1. Albinos. 2. Sarı (qara ilə ağ qarışıq) dəvə. 3. Daha hörmətli, daha möhtərəm. 4. Digərini kifayət qədər əvəz edə bilən. 5. Cüzam xəstəliyinə tutulmuş adam (kişi).* Lakin ərəb dilində bu cür misalların sayı barmaqla sayıla biləcək qədər məhduddur.

Digər tərəfdən, أَفْعَلُ modeli fiziki əlamət bildirməklə yanaşı, həmin fiziki əlamətin başqa model vasitəsilə əmələ gəldiyi hallarda intensiv dərəcə (elativ / super-elativ) də bildirir. V.Fişerin qeyd etdiyinə görə, bu zaman digər model vasitəsilə əmələ gəlmiş sifət ümumiyyətlə əlamət bildirdiyi halda, أَفْعَلُ modeli vasitəsilə əmələ gəlmiş sifət məhz həmin əlamətin xarakterizə olunan, fərqlənən xüsusiyyətini bildirir. Məsələn: أَرْوَعُ – *qorxu, heyrət yaratmaqda xüsusi şəkildə fərqlənən adam (qorxuducu, heyrətləndirici əxlaq* və ya *zahiri görkəmə malik olan adam)* və رائِعٌ sözündən olan – *xüsusi dərəcədə qorxulu, heyrətləndirici* (21, 65). Fişerin fikrinə görə bu misallardan belə nəticəyə gəlmək mümkündür ki, أَفْعَلُ vəznindəki fiziki əlamət bildirən sifətlər "adyektivləşdirilmiş" elativdir.

Bəzən də أَفْعَلُ modelində olan sifətlərin başqa şəkildəki formasına da rast gəlmək mümkündür, məsələn: *kök*, qalın – أَضْخَمُ və أَضْخَمُّ (bədii, poetik variant).

V.Fişer, bundan əlavə فُعْلانٌ formasını da adı çəkilmiş model üçün standart sayıla bilən modellər arasında qeyd edir. Lakin əsas formadan müəyyən qədər fərqlənən və müəyyən qədər fərqli mənaya gətirib çıxaran bu kimi formalardan az istifadə olunmaqdadır. Bir çox hallarda da həmin sifətlərin əksəriyyətinin eyni zamanda həm kanonik, həm də pereferik cəm formaları mövcud olur: məsələn, "qotur": k.c. أَجْرَبُ,

cəm. جُرْبٌ, جَرْبى, أَجارِبُ. V.Fişer qeyd edir ki, qeyd olunan sifətin أَجْرَبُ iki qadın cinsi forması vardır: standart hesab olunan جَرْباءُ forması ilə yanaşı, həm də فَعْلانُ formasındakı sifətin müənnəs modeli əsasında əmələ gəlmiş جَرْبى forması da mövcuddur (21, 210). Lakin onu da qeyd etməliyik ki, bir çox lüğətlərdə qeyd olunmuş müənnəs formasının ikincisi qeyd olunmur. Kazimirskinin lüğətində hətta eyni formanın müxtəlif modellərinin semantik bölgüsü üçün nümunə də tapmaq mümkündür. أَحْمَرُ – *qırmızı sifəti* üçün iki cəm forması verilir: أَحامِرُ (superlativ modeli üzrə) və حُمْرٌ (standart). Bunlardan birincisindən nəyin isə təbiətən qırmızı olduğunu göstərmək üçün istifadə olunduğu halda, ikincisindən isə söhbətin hər hansı bir predmetin qızarması və ya qırmızı rəngə boyanmasını ifadə etmək üçün istifadə olunur. Bununla belə, bu, hazırki mərhələdə formaların bu cür bölgüsü üçün əldə etdiyimiz yeganə misaldır.

Qeyd etmək lazımdır ki, bir çox hallarda da أَفْعَلُ modelli bənzər semantikaya malik müxtəlif sifətlər vardır ki, onlar müəyyən dərəcədə kök cəhətdən bir-birinə bənzəyir və bir və ya iki ümumi radikala malik olur. Məsələn: أَرْقَطُ , أَرْقَشُ , أَبْقَعُ – *ləkəli* və s. (21, 69). Ümumiyyətlə ərəb dilində radikallarla müxtəlif köklərin bir-biri ilə uyğun gəldiyi bu kimi sinonimliyə tez-tez rast gəlmək mümkündür (belə vəziyyətlərdə sifətlərdə adətən iki kök samiti eyni olur və ya artikulyasiya cəhətdən bir-birinə yaxın olan samitlər iştirak edir). Bir çox tədqiqatlarda bu kimi sözlər iki hərfli özək adlandırılır (14, 42; 5, 49).

Tədqiqata cəlb etdiyimiz həmin sifətlər insanlara (məsələn, ərəb poeziyasında sevgi predmetlərinin gözəlliyini təsvir etmək üçün: أَبْيَضُ – *ağ, qəşəng, gözəl (qız)*, أَهْيَفُ – *qəd-qamətli, qəşəng* (11, 23-24), heyvanlara, insana və təbiət tərəfindən yaradılmış əşyalara aid edilə bilər. Sonunculara təkcə rəng deyil, həm də fiziki xüsusiyyət bildirən sifətlər daxildir. Maraqlı cəhət ondan ibarətdir ki, bu sifətlərdən bəziləri ərəb poeziyasına aid işlənən terminə çevrilmişdir (məsələn, أَثْلَمُ – *kələ-kötür, aralı*: ərəb əruz elminə aid فَعُلٌ formasını bildirmək üçün işlədilir) (10, 310).

V.Fişerin qeyd etdiyinə görə, qeyd olunan fiziki əlamət bildirən sifətlər birinci növbədə bədənin uyğun üzvünü xarakterizə edir, daha sonra isə həmin xüsusiyyəti bildirən şəxsi ifadə edir, məsələn: أَطْوَلُ – *üzün (boğaz)* və *uzunboğaz adam (ceyran boğazlı adam)*; أَزْرَقُ – *mavi (göz) və mavi gözlü adam* (21, 56).

N.N. Purtseladzenin əsərinə gəldikdə isə, müəllif orada ərəb klassik poeziyasına aid nümunələrdən müxtəlif şəxslərə, heyvanlara və əşyalara aid edilən epitetlərdən ibarət ətraflı siyahını təqdim edir (8, 44-52). Əsərdə istifadə olunmuş misallar ərəb islamaqədərki ədəbiyyat nümunələri olan "Müəlləqat"lardan götürülmüşdür. Həmin epitetlər arasında nəzərdən keçirtdiyimiz sifətlərə də rast gəlinməkdədir.

Bu cür yanaşma təkcə islamaqədərki "cahiliyyə" dövrü üçün deyil, eyni zamanda bütün orta əsr poeziyası üçün də xarakterik hesab oluna bilər. Belə ki, VIII-IX əsrlərin ən məşhur şairlərindən hesab olunan Əbu Nuvasın yaradıcılığında "çaxır" məfhumunun ifadəsi üçün bu epitetlərdən istifadə olunurdu: "qırmızı" (حَمْراءُ), "sarı" (صَفْراءُ), "qızılı" (صَهْباءُ), "ağ" (بَيْضاءُ), "göy" (زَرْقاءُ) (8, 250-251). Maraqlı cəhət ondadır ki, burada təkcə rənglə deyil, həm də cansızlara – təbiət hadisələrinə və ya artefaktlara aid fiziki əlamətlərlə bağlı epitetlər mövcuddur.

Həmin əsərdə eyni epitetin müxtəlif predmetləri, heyvanları və şəxsləri əvəz etməsi ilə bağlı halları göstərən nümunələr də mövcuddur (8, 54-56). Bununla bağlı olaraq misal kimi أَبْيَضُ – بَيْضاءُ modeli əsasında düzələn sözlərə nəzər salaq: əslində *ağ*

mənasını verən həmin formalı sifət aşağıdakı mənaları da ehtiva edir: *qılınc, (təmiz) adam, (əsl-nəcabətli) qadın, ceyran, döyüş, zireh, qısa yunlu (hamar), at, palma, nizə*.

Müəllifin fikrinə görə bu epitetlərin əksəriyyəti daha çox "gözəlləşdirmə" xüsusiyyəti daşıyır və yüksək konnotasiyaya malikdir (8, 52). Yuxarıda qeyd etdiyimiz misallarda da bunun şahidi olmaq mümkündür.

Biz daha aydın fiziki əlamət bildirən "əyri" və ya "dombagöz" kimi sifətlərlə "hündür" və ya "kök" mənalar ifadə edən sifətləri tam şəkildə eyni bir qrupda birləşdirməyin heç də asan olmadığını etiraf etməliyik. "Böyük", "uzun", "nazik" kimi sifətlər həm bizim nəzərdən keçirdiyimiz model üzrə düzəlir, həm də digər semantikaya məxsus isimlərin əmələ gəldiyi digər modellər əsasında meydana çıxır (5, 79). Ola bilsin ki, أَفْعَلُ qrupuna daxil olan və bu qrupa daxil olmayan sifətlər arasındakı fərq ondan ibarətdir ki, birinci halda sifətlər, əsasən canlı varlıqlara aid olur, ikinci halda isə onlar hər şeyə aid olan əlamətləri bildirir. Onu da qeyd etmək lazımdır ki, birincisi, ərəb dilində bir qayda olaraq heyvanlara aid isimlər insanlara aid isimlərlə morfoloji cəhətdən eynilik təşkil etmir. Məsələn, cəmdə olan və insan bildirən isimlə uzlaşan sifət ya xüsusi cəm formasında (sınıq cəmdə) olur (حُكَامٌ كِبَارٌ – *böyük hakimlər*), ya da (feili sifətlərdə olduğu kimi) düzgün cəm şəkilçisi qəbul edir (حُكَامٌ عارِفونَ – *bilən hakimlər*), digər varlıqları (insandan başqa) bildirən isimlərlə uzlaşdıqda isə onlar təkdə, müənnəsdə olur (كِلابٌ كَبيرةٌ – *böyük itlər*).

İkincisi, xatırlayaq ki, bizim nəzərdən keçirtdiyimiz sifətlər arasında da məhz cansızlara aid olan mənalar mövcuddur. Onu da qeyd etmək lazımdır ki, rəng və fiziki əlamət bildirən sifətlərin cəm forması فُعْلٌ hər iki cinsə aid canlı və cansız isimlərin cəmini bildirmək üçün işlədilir, məsələn:

رِجالٌ بيضٌ – *ağ kişilər*

كِلابٌ بيضٌ – *ağ itlər*

أَسْيافٌ بيضٌ – *ağ qılınclar*

Bütün bunlarla yanaşı, أَفْعَلُ, فَعْلاءُ və فُعْلٌ modelində olan sifətlər rəng və fiziki əlamətlə bağlı olmayan başqa mənalar da ifadə edə bilər. Bu hal semantikanın özünəməxsus inkişafının nəticəsi ola bilər, məsələn, أَبْقَعُ *ləkəli, cüzam ləkələri ilə örtülmüş; (quyudan su çəkərkən) üstünə su çilənmiş adam* . Lakin bu, bir çox hallarda yeganə məna ola bilər, məsələn, أَحْمَقُ *axmaq*.

Bunları nəzərə alsaq, deyə bilərik ki, görünür ki, ərəb dili daşıyıcılarının rəng və fiziki qüsur, nöqsan ifadə etmək üçün nəsə elə bir ümumi məna komponenti olmalıdır ki, onun əsasında bu cür sifətlər bir modeldə əmələ gələ bilsin (20, 192). Fişerin fikirlərinə söykənməyimizə müəyyən əsasların mövcudluğuna baxmayaraq (yeri gəlmişkən, qeyd olunmalıdır ki, onun fikirləri A.Vejbitskinin – isim sifətdən fərqli olaraq yaxşı hiss olunan mahiyyəti bildirir (highli visibli, noticeable) (29, 356)) – görünür ki, konkret olaraq ərəb dili ilə bağlı məqamlarda hər şey tərsinədir (lakin bunu da yaddan çıxarmamalıyıq ki, həmin modelin sifətlərini diqqətlə nəzərdən keçirən Fişer elə əvvəlcədən rəng bildirən sifətləri bütün digərlərindən ayırır). Zənnimizcə, K.Brokelmann daha uyğun məna təklif edir: rəng və fiziki əlamət bildirən sifətlər daha çox fərqlənən və ya seçilən xüsusiyyəti bildirir (19, 40).

Ərəb dili leksikoqrafiyasında insanların və ətraf mühitin fiziki xüsusiyyətlərinə həsr olunmuş əsərlərə rast gəlmək mümkündür. "Bədəvilər onu əhatə edən flora və faunanın müxtəlif vəziyyətlərini və bir haldan digərinə keçməsi ilə bağlı dəyişiklikləri əsrlər boyu müşahidə etmişdir. Onlar həmin məqamların bütün nüansalarını qeyd etmək

üçün ərəb dilinin bütün ifadə imkanlarını və yaradıcılıq gücünü səfərbər etmişdir. Bu əsərlər içərisində təkcə dəvə məfhumunun ifadəsi üçün bütöv bir kitabın (kiçik həcmli olsa da) ortaya qoyulması və orada həmin anlayışın insanın gözləri qarşısında canlandırılması məqsədilə inanılmaz dərəcədə sifətlərdən istifadə edilməsi insanı heyrətləndirir. Bu hal o qədər dərinləşir ki, bəzən də lətifəvari xüsusiyyət alır. Bu vəziyyəti digər məfhumların əlamətlərinin ifadəsində də hiss etmək mümkündür. Ətraf aləmin o qədər də zəngin olmadığı bir ərazidə həmin "kasıblığı" ortadan qaldırmağa çalışan müəlliflər bir çox hallarda sözün gücünə üstünlük verməyə can atırdılar. Buna görə də sonrakı dövrlərdə ərəb leksikoqrafiyası ilə bağlı geniş həcmli əsərlərin yazılması hərəkatı inkişaf etməyə başladı. Onu da qeyd edək ki, təkcə həmin əsərlərin adlarının sadalanması xeyli vaxt aparır" (9, 24-25). Müəllif həmin tədqiqat işində insanın, atın və digər heyvanların fiziki xüsusiyyətlərinə həsr edilmiş müxtəlif leksikoqrafik əsərlərin adlarını qeyd edir. Təbii ki, bu kimi əsərlərdə bizim tədqiqata cəlb etdiyimiz çoxlu sayda sifətlərə də rast gəlmək mümkündür. Lakin, həmin əsərdə də isimlərin ətraf aləmi bildirməsi və onların xüsusiyyətlərinin ifadə edilməsi ilə bağlı bölgüləri və onların əmələ gəlmə üsulları dəqiq şəkildə işlənməmişdir. Onu da qeyd etmək lazımdır ki, V.S. Rıbalkinin adı çəkilən həmin əsərində bizim tədqiqata cəlb etdiyimiz sifətlərə həsr olunmuş xüsusi bir leksikoqrafik kitab haqqında məlumat yoxdur. Bundan əlavə, ümumiyyətlə ərəb dilində ayrılıqda bu mövzuya həsr edilmiş konkret bir əsərlə rastlaşmaq mümkün olmadı. Buradan belə bir qənaətə gəlmək mümkündür ki, ərəb linqvistik ənənəsi bu cür sifətlərin eyni zamanda semantikasını və formasını nəzərə alaraq onları ayrı qrup və ya yarımqruplara bölməkdən vaz keçmişdir.

Ərəb dilində ismi söz yaradıcılığının xüsusiyyətlərinə diqqət yetirdikdə uyğun modellər üzrə düzələn isimlər də diqqəti cəlb edir. B.M. Qrandenin qeyd etdiyinə görə , أَفْعَلُ modeli üzrə nəzərdən keçirtdiyimiz sifətlərdən, elativ formasından və təkdə müzəkkərdə olan super elativdən başqa, abstrakt mənalı isimlər də, məsələn, أَزْمَلٌ – *vızıltı* (A. de Biberşteyn Kazimirskinin lüğətində bu forma üçün "azseçilən, aydın olmayan səs, qarışıq səs" mənası verilmişdir) əmələ gəlir (5, 93; 21, 204-205). Qrandenin bu model əsasında əmələ gələn konkret isimlərdən gətirdiyi misallara, məsələn, أَرْنَبٌ – *dovşan* , أَرْمَلٌ – *dul kişi ; yaşayış şəraiti olmayan adam* və s. gəldikdə isə, onların əvvəlində gələn həmzə samitinin sözün kök (əsas) hərflərindən olmaması barədə dəqiq fikir söyləmək mümkün deyil (23, 408; 18, 222). Həmin model üzrə düzəlməsi ehtimal edilən isimlər içərisində أَربَعٌ – *dörd* sayının olması da maraqlıdır. Həmin forma əsasında əmələ gəlməsi güman edilən bir çox isimlər də vardır ki, Fişerin və Barsın yuxarıda adları çəkilən əsərlərində onlara rast gəlmək mümkündür.

U. Z. Kariyev bildirir ki, أَفْعَلُ modeli eyni zamanda məsdər, abstrakt isim və konkret isim modeli kimi də çıxış edə bilir.

Bundan əlavə, sınıq cəm formasının bəzi modelləri də həmin modelin əvvəlində mövcud olan həmzə samiti ilə başlayır və ümumiyyətlə qeyd etdiyimiz formaya bənzəyir. Məsələn: أَبْحُرٌ *dənizlər*, أَرْجُلٌ *ayaqlar*, أَقْفُلٌ *kilidlər*, أَمْطارٌ *yağışlar* və s. (5, 279-280). Ərəb dilində bu kimi misalların çoxluğuna və onların forma baxımından rəng və fiziki əlamət bildirən sifətlərə bənzəməsinə baxmayaraq, bizim məqsədimiz heç də onları həmin sifətlərlə eyniləşdirməkdən ibarət deyildir.

Rəng və fiziki əlamət bildirən sifətlərin müənnəsini (qadın cinsini) ifadə edən formanın sonundakı اَءُ sonluğuna gəldikdə isə, ərəb dilində canlılara aid müəyyən isimlərin cəm formasının sonunda da həmin sonluğa rast gəlmək mümkündür, məs.,

عُلَماءُ *alimlər*, أَقْرِباءُ *qohumlar* və s. (14, 42; 5, 239-240). فَعْلاءُ modelli yer mənasında olan bəzi isimləri أَفْعَلُ – müzəkkər forması ilə müəyyən variantları vardır, məsələn: أَبْطَحُ(بَطْحاءُ) *vadidə çayın qumlu geniş sahəsi* (21, 210). Bəzən də ـانُ sonluğu ilə bitən sifətlərdən ـاءُ sonluğu vasitəsilə müənnəs variantı olan sifətlərə də rast gəlinir, məsələn: جَذْلانُ – جَذْلاءُ *şən* (30, 185). Göründüyü kimi, burada həm də müənnəsdə (qadın cinsində) *a* ilə bağlı kontaminasiya nümunəsi vardır. V.Fişerin bildirdiyinə görə sifətlər üçün bu cür kontaminasiya çox təsadüfi halda baş verir; əksinə substantiv mənalar içərisində qoşa فَعْلاءُ/فَعْلى forması üzrə misallara daha çox rast gəlinir, məsələn: هَيْجاءُ هَيْجى/هَيْجا *döyüş vaxtı əmələ gələn qarışıqlıq*, صَحْراءُ/صَحْرى *açıq sahə, səhra* . Məsələdən ətraflı bəhs edən V.Fişer digər sami dillərində də bu cür [-ə: /-ə:'u] kontaminasiyanın mövcudluğunu bildirir. Məşhur rus şərqşünası A.Q. Belova da bu məsələyə münasibətini bildirərək qeyd edir ki, [-ə:'u] variantı [-ə:] variantından daha sonrakı dövrə məxsusdur, belə ki, həmin variant əvvəlkindən fərqli olaraq hal əlaməti qəbul edə bilir (4, 123). M.Qodfrua-Demombin və R.Blaçher qeyd edirlər ki, صَحْراءُ *səhra* sözü əslində أَصْحَرُ *sarı* sifətinin müənnəs formasından əmələ gəlmişdir və əvvəllər أَرْضٌ *yer* isminin sifəti mənasında çıxış edərək "sarı yer" mənasını bildirmiş, sonradan isə ayrılıqda işlənməyə başlamışdır (25, 113).

Sözügedən sifətlərin cəm forması olan فُعْلٌ modeli üzrə xeyli sayda isimlər əmələ gəlir: başlanğıc isimləri və ya sadə isimlər (B.M. Qrande həmin isimləri "konkret isimlər" adlandırır), məsələn: أُذْنٌ *qulaq* , رُمْحٌ *nizə* , كوبٌ *qədəh* , hərəkət isimləri (məsdərlər) və abstrakt isimlər, məsələn: ثُقْل *ağırlıq* , قُبْح *pislik, yaramazlıq* , رُهْب *qorxaqlıq ,* kəsr ifadə etmək, məsələn: ثُلْث *üçdə bir* , رُبْع *dörddə bir* , خُمْس *beşdə bir* (24, 297), sifətlər (az-az hallarda), məsələn: صُلْب *möhkəm* , حُلْو *şirin* , مُرّ *acı* və s. Bəzi hallarda da فُعْلٌ forması ilə فُعُلٌ forması arasında bir növbələşmə nəzərə çarpır, məsələn: أُذْنٌ və ya أُذُنٌ *qulaq* (5, 79-80). C.Ç. Foks onu da bildirir ki, qeyd olunmuş model فَعَل , فَعْل , فِعْل modelləri ilə duplet (qoşa) çıxış edir, məsələn: بَخَل , بَخْل , بُخْل *simiclik* , وَلَد , وَلْد , وُلْد , وِلْد *övlad* , سِفْل , سُفْل *aşağı hissə* (24, 294).

Bu mövzunu təhlil edərkən ümumilikdə ərəb dilində çox mühüm hesab olunan ikihallılıq probleminə nəzər salmağın lazım olduğu hiss olunur. Ərəb dilində əksəriyyət təşkil edən təkdə üç hal əlaməti qəbul edən (üçhallı) isimlərdən fərqli olaraq bir neçə qrup isimlər də vardır ki, onlar təkdə, lakin qeyri-müəyyənlikdə iki hal əlaməti qəbul edir. Bundan əlavə, həmin isimlər qeyri-müəyyənlikdə əksər ərəb isimləri üçün standart olan və hal fleksiyasından sonra əlavə edilən qeyri-müəyyənlik əlaməti ـٌ (tənvin) qəbul etmir. Digər vəziyyətlərdə isə, yəni müəyyənlikdə (müəyyənlik artikli qəbul etdikdə) və tərkibi vəziyyətdə sözügedən isimlər hər üç hal əlaməti sonluğunu qəbul edir. Rəng və fiziki əlamət ifadə edən sifətlər (müzəkkər və müənnəsdə) və müqayisə və üstünlük dərəcəsi bildirən sifət formaları da ikihallı isimlər qrupuna məxsusdur. Bu qrupa həmçinin فَعائِلُ formasında olan sınıq cəm modeli (məsələn, فَوارِسُ *süvarilər* , جَزائِرُ *adalar*), digər sınıq cəm formaları (məsələn, مَعارِفُ *bilgilər*), فُعَلُ formasında olan cəm modelləri (məsələn, كُبَرُ *ən böyüklər*), فُعَلاءُ formasında olan cəm modelləri (məsələn, وُزَراءُ nazirlər), أَفْعِلاءُ vəznində olan modellər (məsələn, أَصْدِقاءُ dostlar) və s. ad qruplu sözlər daxildir.

Ərəb dilində ikihallı hallanmanı daha sonrakı dövrlərə aid edən K.Brokelmanla polemikaya girən N.V. Yuşmanov, əksinə bu hallanma növünü ərəb dilində daha qədim hesab edir. Yuşmanov daha sonra qeyd edir ki, ikihallılıq dildə müəyyənliyin xüsusi göstəricisi kimi müəyyənlik artiklinin olmadığı bir dövrdəki dil qalıqlarından hesab

olunur və həmin dövrdə ikihallı isimlər ya mənaca (alınma xüsusi isimlər, feil formalarından düzələn xüsusi isimlər və s.), ya da formaca (qəbilə göstəriciləri daşıyan isimlər, həmçinin qadın cinsində rəng və fiziki əlamət bildirən isimlər) isimlər qrupunu birləşdirirdi (13, 259-263).

Bununla belə, N.V. Yuşmanovun 1941-ci ildə sami dillərində qeyri-müəyyənliklə bağlı dərc olunmuş məlum məqaləsindən sonra həmin dillərdə qeyri-müəyyənliyin göstəricisi və əlamətləri ilə bağlı görüşlər xeyli dəyişdi: artıq qeyd olunur ki, *nun*-laşdırma (tənvin) (digər sami dilərində isə mimləşdirmə) əvvəllər, əksinə müəyyənlik vəziyyətinə uyğun olmuşdur, sonralar isə digər müəyyənlik əlamətləri vasitəsilə sıxışdırılaraq aradan çıxarılmışdır (13, 267). Onu da qeyd etmək lazımdır ki, Qərb şərqşünaslıq məktəbinin nümayəndələrindən olan H.Vehr və C.Kuriloviç də Yuşmanovun sözügedən məqaləsindəki bəzi məqamlara şübhəli yanaşsalar da, ümumilikdə onun fikirlərini dəstəkləyirlər (28, 60; 26, 157-160).

V.Fişer də أَفْعَلُ modelini analiz edərək bildirir ki, bu modelin yaranması daha sonrakı dövrlərlə bağlı olmuşdur. O özünün arqumentlərində, əsasən Karl Brokelmanna istinad etməyə çalışır (21, 16).

Lakin qeyd etmək lazımdır ki, bizim zənnimizcə N.V. Yuşmanovun ikihallılığın da müənnəs və cəm formaların yaranmasında suppletivlik kimi ərəb dilində daha qədim olması fikri daha doğrudur.

Ərəb dilində bənzər semantik mənalı və digər şəkildə əmələ gələn sifətlərə də rast gəlinir. Məsələn: بُرْتُقالِيٌّ *narıncı* ([burtuqa:lun] − *portağal* sözündən yuxarıda qeyd olunmuş nisbi sifət şəkilçisi [-iyyun] vasitəsilə əmələ gəlmişdir), أَذونُ *palaz qulaq* ([’uẕnun] – *qulaq* sözündən əmələ gəlmişdir), فاهِمٌ *kömür kimi qara* ([fəhmun] − *kömür* sözündən əmələ gəlmişdir) və s. (5, 91-93).

Burada bənzər mənalı çox nadir sözdüzəltmə qruplarına nəzər salmaq yerinə düşər: حَوَرْوَرةٌ *ağbəniz qadın* (müzəkkərdə isə حَوَرْوَرٌ sözü *nə isə, bir şey* mənasını verir: müqayisə üçün bildirək ki, حَوَرِيٌّ *sifəti ağ* mənasında işlənir), شَجَوْجاءٌ (qadın cinsində شَجَوْجى) *çox arıq* və *uzun, uzun ayaqlı* (bununla yanaşı, bu modeldə olan isimlər arasında başqa mənalara da rast gəlmək mümkündür, məsələn: عَصَبْصَبٌ *çox isti* , رَنَوْناةٌ *dairəvi qədəh* , صُرْصورٌ *əzəmətli dəvə* , قُرْقورٌ *uzun gəmi* və s.) (5, 90-91).

Burada üçüncü radikalın (kök samitinin) reduplikasiyası ilə yaranan digər modelləri də müqayisə etmək olar. Məsələn: خُرْجوج *böyük, güclü və sürətli dəvə* (5, 89).

Uyğun semantikalı çox nadir modelləri də ayrıca qeyd etməliyik ki, onların içərisində ikinci və ya üçüncü samitin geminasiyası ilə yaranan müxtəlif modellər mövcuddur, məsələn: خِنَّابٌ *yekəburunlu* , دِنَّابٌ *karlik* (həmçinin onların uzunluqsuz variantları خِنَّبٌ *uzun, dəli* , دِنَّبٌ *qısa, kiçik*), دِفَقٌّ *sürətli addımlarla gedən at* , هِجَفٌّ *kök* və *ləng* , رِفَلٌّ *uzun quyruqlu* , ذِفِرٌّ *möhkəm dəvə; güclü iyi olan* (24, 562).

Bundan əlavə, əvvəlində [y] olan xüsusi bir model də mövcuddur, məsələn: يَحْمومٌ *qara*, *tünd* (müqayisə et: حُمَمٌ *kömür*) , يَرْخُمٌ *ağ-qara mərmərlərlə bəzədilmiş* , يَرْمُلٌ *qum rəngli* , يَنْكُبٌ *istiqaməti dəyişmiş* , يَرْقُدٌ *çox yatan* , يَرْمُقٌ *donmuş, axmaq baxış sahibi* , يَمْخُرٌ *uzun boğaz* . Həmin modellərlə bəzi heyvan və bitki adları da düzəlir, məsələn: يَنْبُتٌ *qabıqlı bitki* , يَرْبوعٌ *ərəbdovşanı* (21, 191-192).

Rəng bildirən modellərdən [-iyyun] şəkilçisi vasitəsilə düzələn daha iki formaya nəzər sala bilərik. Məsələn: سُخَمٌ – سُخَمِيٌّ *tünd rəngli* , صُهَبٌ – صُهَبِيٌّ, أَصْهَبُ – أَصْهَبِيٌّ *sarışın* . V.Fişerin qeyd etdiyinə görə, أَفْعَلِيٌّ modelli sifətlər, əsasən heyvanlara aid əlamətləri bildirir (21, 385). Bununla yanaşı, فُعَلُ (أَفْعَلُ sifət modelinin cəm forması)

formasından həmin suffiks vasitəsilə yaranıb, yuxarıdakı iki model vasitəsilə düzələn sifətlərə mənaca yaxın olan az sayda sifətlər də mövcuddur. Məsələn: كُدَرٌ – كُدَرِيٌّ *tutqun* (21, 415). Bu فُعَلِيٌّ formalı sifətlər də daha çox heyvanlara aid xüsusiyyətləri bildirir. Bir çox hallarda da göstərilən həmin üç modeldə olan sifətlər aid olduqları heyvanların adını əvəz edərək substantiv mövqedə dayanırlar.

H.Flyayş ərəb dilində إِفْعَوْلٌ modelində olub həmin sözügedən mənaları ifadə edən sifətlərin olduğunu da bildirir, məsələn: إِدْرَوْنٌ *çirk* (23, 417).

Qeyd etmək lazımdır ki, rəng və fiziki əlamət ifadə etmək üçün yuxarıda nəzərdən keçirilmiş müxtəlif modellər أَفْعَلُ , فَعْلاءُ və فُعْلٌ modeli ilə müqayisədə periferik (qeyri-əsas) yer tutur. Məhz bu göstərilən modellər vasitəsilə bütün əsas rəng və bir çox rəng çalarları və həmçinin zahiri və fiziki əlamət ifadə edən çox böyük sayda sifətlər əmələ gəlir. Yuxarıda qeyd olunmuş həmin nadir modellər nə qədər işlək olsalar da, öz xüsusiyyət və işlənmə tezliyinə görə əsas modeldən (أَفْعَلُ) çox geridə qalmaqdadır. Bundan başqa, bu əsas model başlanğıc (baza) modeli olmaqla yanaşı, həm də müənnəsi və cəmi ifadə etmək üçün ayrıca formaya malikdir.

Burada adektivə aid olan daha bir modeli diqqətlə nəzərdən keçirək. Söhbət müzəkkərdə فَعْلانُ (məsələn, سَكْرانُ *sərxoş kişi*), müənnəsdə isə فَعْلى (məsələn, سَكْرى *sərxoş qadın*) olan sözlərdən gedir. Bu qrupa daxil olan sözlər də tədqiqatın obyektlərindən olan rəng və fiziki əlamət bildirən sifətlər kimi həm müzəkkər, həm də müənnəsdə və eləcə də hər iki cinsin cəmi üçün ayrıca formaya malikdir. Bundan əlavə, sözügedən sözlər də ikihallılar qrupuna mənsubdur. Həmin modelin müzəkkərdə [-ə:nun], müənnəsdə isə [-ə:tun] ilə bitən (məsələn, نَدْمانٌ – نَدْماناتٌ *təəssüf edən*) həmçinin üçhallı variantı da vardır. B.M. Qrandenin dediyinə görə dialektdən ədəbi dilə keçmiş bu modeldə olan yeni sifətlər də üçhallıdır: زَعْلانٌ *acıqlı, narazı* , غُرْقانٌ *batan* (5, 95). Lakin biz فَعْلانُ modelində olan sözlərin formalarına diqqətlə baxsaq, onların müzəkkər formalarının (hətta eyni köklülərdə də) müxtəlif olduğunu görə bilərik. Bu sözlərin cəm formalarının da müxtəlif qeyri-müntəzəm variantları vardır. Məsələn, yuxarıda qeyd olunmuş سَكْرانُ *sərxoş* sözünün سَكْرى və سَكْرَنَةٌ formasında iki müənnəs şəkli və سَكارَ və سُكارَ formasında iki müzəkkər şəkli mövcuddur.

Beləliklə də, biz görə bilirik ki, bu qrupa daxil olan sözlər rəng və fiziki əlamət bildirən sifətlərdən fərqli olaraq müzəkkər və müənnəs cinslərinin əlamətlərinin və cəmlik göstəricilərinin bölgüsünü ciddi bir sistem kimi qoruya bilməmişdir. Artıq yuxarıda gördüyümüz kimi onların bəzilərində mütəmadi olmayan formalara aid misallar da nəzərə çarpır. Lakin qeyd olunmalıdır ki, buna çox nadir hallarda rast gəlmək mümkündür. Mühüm cəhətlərdən biri də ondan ibarətdir ki, rəng və fiziki əlamət bildirən sifətlərin müənnəs formaları dilin daha sonrakı dövrlərinə aid standart göstəricilərdən olan ةَ [-ətun] vasitəsilə düzəlmir.

ƏDƏBİYYAT

1. Əhmədova R. Müasir ərəb dilində sifətlərin bəzi xüsusiyyətləri. “Elmi əsərlər” (şərqşünaslıq elmləri seriyası) N:2, Bakı,1975, s.58
2. Əhmədova R. Müasir ərəb dilində sifətlərin dərəcələnməsi. “Elmi əsərlər” (şərqşünaslıq elmləri seriyası) N:1, Bakı,1979, s.32
3. Məmmədəliyev V.M., Ərəb dilçiliyi, Bakı, Maarif, 1985.

4. Белова А.Г. Очерки по истории арабского языка. М., 1999, стр.12
5. Гранде В.М. Курс арабской грамматики в сравнительно-историческом освещении, М., 1998. S49
6. Кариев У.З. Словообразование имён существительных и прилагательных в современном арабском литературном языке, М., 1966, таблица
7. Полосин В.В. Словарь поэтов племени *абс* VI-VIII вв., М., 1995, стр.58
8. Пурцеладзе Н.Н. Очерк по исторической поэтике (символ-формула в арабской поэзии), Тбилиси, 1990, с.44-52
9. Рыбалкин В.С. Арабская лексикографическая традиция, Киев, 1990, с.24-2
10. Фролов Д.В. Классический арабский стих, М., 1991, с. 310
11. Фролова О.В. Поэтическая лексика арабской лирики, Л., 1984, с.23-24
12. Шарбатов Г.Ш. Арабский литературный язык, современные арабские диалекты и региональные обиходно-разговорные языки. Языки Азии и Африки. Т. IV, к. I. Семитские языки. М., 1991, с.300
13. Юшманов Н.В., Грамматика арабского языка, М., 1998, s.255
14. Юшманов Н.В. Грамматика литературного арабского языка, М., 1985.s42

1. عباس حسن، النحو الوافي، القاهرة، 1964.
2. علي الجارم و مصطفى أمين. النحو الواضح. القاهرة. جـ 1.
3. كتاب النحو الوافي، في قواعد اللغة العربية، القاهرة، 3 ج، 1965.

1. Barth, J., Die Nominalbildung in den semitischen Sprachen. Hildesheim, 1967, p.22
2. Brockelmann. C. Arabische Grammatik, Leipzig ,1953. p.40
3. Fischer W. Classical Arabic // The Semitic Languages, ed. R. Hetzon. London – New York, 1997, p.192
4. Fischer W/ Farb- und Formenbezeichnung in der Sprache ger altarabische Dichtung. Wiesbaden, 1965, p.65
5. Fischer W. Grammatik der klassischen Arabisch. Wiesbaden. 1972, p.66
6. Fleisch H. Traite de philologie arabe I. Beyrouth. 1961. p.408
7. Fox J. T. Noun patterns in the Semitic languages. Cambridge, Massachusetts, 1996, p.297
8. Gaudefroy-Demombynes M.et Blachere R. Grammaire de l'Arabe Classique. Paris, 1952, p. 113
9. Kurylowicz J. L'apophonie en semitique. Krakow, 1961, p.157-160
10. Wehr H. Der arabische Elativ Akademie der Wissenschaften und der Literatur (Mainz). Geistes- und sozialwissenschaftliche Klasse. Abhandlungen. Mainz – Stuttgart, 1952/1953, p.570
11. Wehr H. Der arabische Elativ, Stuttgart, 1953, p.60
12. Wierzbicka A. What's in a Noun? Studies in Language. 1986. p. 356
13. Wright W.A. Grammar of the Arabic Language. Beirut, 1974, p.185

ХАЯЛА МУСТАФАЕВА

ПРИЛАГАТЕЛЬНЫЕ, ОБОЗНАЧАЮЩИЕ ЦВЕТ И ФИЗИЧЕСКИЕ НЕДОСТАТКИ В ЛИТЕРАТУРНОМ АРАБСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В статье речь идёт о прилагательных, обозначающих цвета и физические недостатки, в литературном арабском языке. Такие прилагательные с морфологической точки зрения отличаются от всех других прилагательных. Они используются для обозначения цвета, физических недостатков, каких-либо внешних признаков, особенностей строения человеческого тела, а иногда даже и положительных качеств и состояний. Отмечается, что характерная особенность этих прилагательных заключается в том, что они, обладая общей семантикой, имеют также общие словообразовательные особенности, отличающиеся от других существительных (имён). Указывается, что в мужском и женском роде формы множественного числа прилагательных, обозначающих цвета и физические недостатки, не отличаются друг от друга и проявляются в одинаковой форме. Примечательно, что эти модели прилагательных наряду с обозначением физического признака, при выражении этого же признака посредством других моделей, усиливают его интенсивность. Таким образом, прилагательное, образованное посредством другой модели, в целом обозначает признак, прилагательное же, образованное посредством модели أَفْعَلُ , означает именно отличительную особенность данного признака.

KHAYALA MUSTAFAYEVA

MEANING COLORS AND PHYSICAL DEFECTS IN THE LITERARY ARABIC LANGUAGE

SUMMARY

The article deals with the adjectives meaning colors and physical defects in the literary Arabic language. Such adjectives differ from the other ones from the morphological standpoint. They are used for designation of colours, physical defects and some outward features, peculiarities of a human body, sometimes even positive qualities and states. It is emphasized that characteristic feature of these adjectives is the following one: having common semantics they also have common word-formative peculiarities that differ from the other nouns. It is also pointed out that in masculine and feminine genders the plural of the adjectives meaning colours and physical defects don't differ from one another and manifest themselves in the same form. It is a notable fact that these models of adjectives meaning a physical sign intensify it when this sign is expressed by the other models. Thus the adjective formed from the other model in the whole means a sign, and the adjective formed by the model أَفْعَلُ mean exactly the distinctive feature of this sign.

Rəyçi: **Akademik V.M. Məmmədəliyev**

GÜLŞƏN CÜMŞÜDOVA
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

BASIC LANGUAGE SKILLS

Açar sözlər: *dil, bacarıq, dinləmə, danışıq, yazı, oxu, ünsiyyət, şifahi, yazılı*
Key words: *language, skill, listening, speaking, writing, reading, communication, orally, written*
Ключевые слова: *язык, умение, прослушивание, разговор, писание, чтение, коммуникация, устно, письменно*

The teaching of English as a foreign language is now one of the most important subjects in most European primary schools. The implementation of English has brought along the need to establish clear objectives that are different to the ones traditionally assigned to secondary schools. While in secondary schools we still find, in many cases, a teaching based in the formal aspects of the language, i.e. grammar; primary school teachers have had to adopt a different approach as the age of the children make the teaching of formal aspects not advisable. As a result of this point of view, the different Educational Departments have decided to establish, as the main purpose of the EFL teaching, the development of the four skills: listening, speaking, reading and writing. However, the implementation of this approach has not been trouble-free as many teachers insist on asking their children to understand every single word they listen to or read, or expect their pupils to write or speak without making the mistakes normally found in the process of acquiring any language.

The main purpose of this article is to provide some guidelines that we hope can be useful to teachers of English as a foreign language at schools.

- Listening
- Speaking
- Reading
- Writing

The four basic skills are related to each other by two parameters:

- the mode of communication: oral or written
- the direction of communication: receiving or producing the message

We may represent the relationships among the skills in the following chart:

	Oral	**Written**
Receptive	Listening	Reading
Productive	Speaking	Writing

The following modules will briefly describe some characteristics of each basic skill:

- Listening comprehension skill
- Speaking skill
- Reading skill
- Writing skill

Listening comprehension is the receptive skill in the oral mode. When we speak of listening what we really mean is listening and understanding what we hear.

In our first language, we have all the skills and background knowledge we need to understand what we hear, so we probably aren't even aware of how complex a process it

is. Here we will briefly describe some of what is involved in learning to understand what we hear in a second language.

There are two kinds of listening situations in which we find ourselves:

- interactive, and
- non-interactive

Interactive listening situations include face-to-face conversations and telephone calls, in which we are alternately listening and speaking, and in which we have a chance to ask for clarification, repetition, or slower speech from our conversation partner. Some non-interactive listening situations are listening to the radio, TV, films, lectures, or sermons. In such situations we usually don't have the opportunity to ask for clarification, slower speech or repetition.

Richards (1983, cited in Omaggio,1986, p. 126) proposes that the following are the micro-skills involved in understanding what someone says to us. The listener has to:

- retain chunks of language in short-term memory
- discriminate among the distinctive sounds in the new language
- recognize stress and rhythm patterns, tone patterns, intonational contours.
- recognize reduced forms of words
- distinguish word boundaries
- recognize typical word-order patterns
- recognize vocabulary
- detect key words, such as those identifying topics and ideas
- guess meaning from context
- recognize grammatical word classes
- recognize basic syntactic patterns
- recognize cohesive devices
- detect sentence constituents, such as subject, verb, object, prepositions, and the like

Speaking is the productive skill in the oral mode. It, like the other skills, is more complicated than it seems at first and involves more than just pronouncing words.

There are three kinds of speaking situations in which we find ourselves:

- interactive,
- partially interactive, and
- non-interactive

Interactive speaking situations include face-to-face conversations and telephone calls, in which we are alternately listening and speaking, and in which we have a chance to ask for clarification, repetition, or slower speech from our conversation partner. Some speaking situations are partially interactive, such as when giving a speech to a live audience, where the convention is that the audience does not interrupt the speech. The speaker nevertheless can see the audience and judge from the expressions on their faces and body language whether or not he or she is being understood.

Some few speaking situations may be totally non-interactive, such as when recording a speech for a radio broadcast.

Here are some of the micro-skills involved in speaking. The speaker has to:

- pronounce the distinctive sounds of a language clearly enough so that people can distinguish them. This includes making tonal distinctions.
- use stress and rhythmic patterns, and intonation patterns of the language clearly enough so that people can understand what is said.

- use the correct forms of words. This may mean, for example, changes in the tense, case, or gender.
- put words together in correct word order.
- use vocabulary appropriately.
- use the register or language variety that is appropriate to the situation and the relationship to the conversation partner.
- make clear to the listener the main sentence constituents, such as subject, verb, object, by whatever means the language uses.
- make the main ideas stand out from supporting ideas or information.
- make the discourse hang together so that people can follow what you are saying.

Developing your speaking skills will involve gaining fluency in spoken interactions with others, as well as practicing your pronunciation. Use your new language skills as often as you can to speak to people – other students from your language class, native speakers you might meet around town, or language partners in online exchanges. To practice pronunciation try reading aloud or repeating after a recorded text, trying to reproduce the pronunciation and intonation of the original. Make a recording of yourself and listen back to try to identify your own strengths and weaknesses as a speaker.

Reading is the receptive skill in the written mode. It can develop independently of listening and speaking skills, but often develops along with them, especially in societies with a highly-developed literary tradition. Reading can help build vocabulary that helps listening comprehension at the later stages, particularly.

Here are some of the micro-skills involved in reading. The reader has to:

- decipher the script. In an alphabetic system or a syllabary, this means establishing a relationship between sounds and symbols. In a pictograph system, it means associating the meaning of the words with written symbols.
- recognize vocabulary.
- pick out key words, such as those identifying topics and main ideas.
- figure out the meaning of the words, including unfamiliar vocabulary, from the (written) context.
- recognize grammatical word classes: noun, adjective, etc.
- detect sentence constituents, such as subject, verb, object, prepositions, etc.
- recognize basic syntactic patterns.
- reconstruct and infer situations, goals and participants.
- use both knowledge of the world and lexical and grammatical cohesive devices to make the foregoing inferences, predict outcomes, and infer links and connections among the parts of the text.
1. *Булавин Н.* Соотносительная характеристика новообразований в британском английском языке и его американском варианте(лексика и словообразование) в связи с теорией «американского языка».
2. М., Автореферат диссертации на соискание ученой степени канд. филол. наук, 1956.
3. *Ганшина К.А.* Анализ иностранного текста как условие его понимания. В сб.: «Вопросы теории и методики учебного перевода». М., Изд-во Акад. пед. наук РСФСР, 1950.
4. *Литвиенко А. С.* Понимание при переводе. В сб.: «Вопросы о теории и методики учебного перевода». М., Изд-во Акад. пед. наук РСФСР, 1950.
5. *Рецкер Я.И.* О закономерных соответствиях при переводе на родной язык. В сб.: «Вопросы теории и методики учебного перевода» М., Изд-во Акад. наук РСФСР, 1950.
6. *Соболев Л. Н.* О точности перевода. В сб.: «Вопросы теории и методики учебного перевода» М.,
7. Изд-во Акад. пед. наук РСФСР, 1950.

TEXNİKİ MƏQALƏLƏRİN BASLIQLARIN TƏRCÜMƏSİ

XÜLASƏ

İngilis-Amerikan texniki məqalələrin başlıqlarında tərcümə zamanı müəyyən çətinliklər meydana gəlir. İngilis-Amerikan texniki məqalələrin əsas xüsusiyyətləri bunlardan ibarətdir: xüsusi üslub, oxucuya təqdim olunan aydın forma və liksik və qramatik vasitələrin ifadəsi.

Bir qayda olaraq başlıqlarda qısa ifadə formalarından istifadə olunur. Modal fellər, fellər, artikllar, söz birləşmələri buraxıla bilər. Başlıqlarda abreviaturalardan geniş istifadə olunur. Buna baxmayaraq, elmi-texniki məqalələrin başlıqları məqalənin əsas məzmunu barədə təsəvvür yarada bilir.

THE TRANSLATION OF HEADINGS OF TECHNICAL ARTICLES

SUMMARY

Headings of English – American technical articles are conceived by familiar difficulties for translation.

Basic characteristics of English – American technical articles are: special style, vivid form that they present to the reader and expression of lexical and grammatical means.

As a rule the concise form of statement is used for headings. Modal verbs, predicates, articles, conjunctions can be missed. Abriviation is widely used in headings. Nonetheless the headings of scientific -technical articles hint about basic content of article.

Rəyçi: dosent Mamedova R.

XOŞQƏDƏM HÜSEYNZADƏ
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
"Xarici dillər" kafedrasının müəllimi

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN NİTQ MƏDƏNİYYƏTİNİN İNKİŞAFINDA YERİ VƏ ROLU

Açar sözlər: *dil anlayışı, natiqlik sənəti, ictimai-siyasi proses, dilçilik məsələləri, dilçilik nəzəriyyəsi, funksional üslublar*
Ключевые слова: *понятие языка, ораторское искусство, общественно-политический процесс, языковые проблемы, теория языкознания, функциональные стили*
Key words: *the concept of language, oratory, social prose's, linguistic issues, linguistic theory, functional styles.*

İnsanlar arasında ünsiyyət vasitəsi olan dil anlayışının ortaya çıxmasından bəri natiqlik insan cəmiyyətində özünəməxsus rola malik yer tutmuş və çox sürətlə inkişaf etməyə başlamışdır. Odur ki, çox-çox qədimdən natiqlik, dinindən və irqindən asılı olmayaraq bütün xalqların həyatında mühüm rol oynayır. O cümlədən siyasi hakimiyyətlərin qazanılmasında və əldə saxlanılmasında liderlərin natiqliyi böyük gücə malik olmuşdur və bu funksiyasını saxlamaqdadır. Hətta siyasi hakimiyyətlərin taleyi fiziki güc hesabına həll olunduğu dövrlərdə də natiqlik öz təsir imkanlarını saxlamışdır. İnsan cəmiyyətinin çoxşaxəli inkişafı isə natiqliyi mühüm bir mədəniyyət elementinə çevirmişdir. Alimlər hesab edirlər ki, natiqlik insanlarda iki halda mövcuddur: fitri natiqlik və elmlə qazanılan natiqlik. Birmənalı olaraq özünü təsdiq edir ki, fitri natiqlik daha güclü təsirə malik olur. O, həm də özündə bir sıra müsbət elementləri ehtiva edir.

Azərbaycanda aydınlaşma dövrünün meydana çıxması və onun inkişaf istiqamətləri barədə tədqiqatlar göstərir ki, xalqımız tarixin bütün dövrlərində natiqlərə böyük dəyər vermiş, onlar cəmiyyətin nüfuzlu şəxsləri hesab olunmuşlar. XX əsrin əvvəllərində çar Rusiyasında baş verən ictimai-siyasi proseslərin əsasında Azərbaycan Xalq Cümhuriyyətinin təsis olunması və sonrakı dövrdə sovet Azərbaycanının dayanıqlıq gətirməsində natiqlik mədəniyyəti tarixi rol oynamışdır. Təəssüf ki, hakimiyyət qurulandan sonrakı uzun zaman kəsiyində Azərbaycanda natiqlik mədəniyyətinin inkişafı kommunist ideologiyası çərçivəsində olduğu üçün çoxşaxəli istiqamət qazana bilməmişdir. Lakin 1969-cu ildə ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə Azərbaycanda həyatın bütün sahələri üzrə islahatların bünövrəsi qoyulduğu kimi humanitar sahəyə də yeni nəfəs gətirildi. Xüsusilə qeyd etmək lazımdır ki, Heydər Əliyev böyük uzaqgörənliklə kommunist ideologiyasının formalaşdırdığı dövlət idarəçiliyindəki standart nitq çərçivəsinə aid tilsimləri sındırdı. O dövrdə təkcə azərbaycanlılar yox, bütün sovet xalqları Heydər Əliyevin timsalında dövlət məmurunun rəvan və səlis nitqi əsasında ölkədəki problemlər burulğanından doğan məsələləri və eşitməkdən aldıqları zövqü ciddi bir fəallıqla təmsil olunduqları iş auditoriyalarına daşımağa başladılar. Bəli, uzun illər xalqlar həbsxanası kimi dünyada tanınan sovet dövləti vətəndaşı üçün problemlərə aid tənqidi fikir eşitmək öz-özlüyündə insanların zehninə zövq verirdi.

...Yenilik hər bir cəmiyyətin bütün sahələr üzrə arzuladığı bir formadır. Sovet xalqları da Heydər Əliyevin son dərəcə rəvan nitqi ilə kommunist hakimiyyətinin idarə etməsindəki, məsələ və problemlərə baxışındakı yeniliklərin şahidi oldu. Mövzu ətrafında fikir və mülahizələrimizi daha dəqiq hədəflər üzərində məqsədi ilə Ulu

Öndərimizin yüksək natiqliyinin əhatə etdiyi siyasi dövrləri ayrı-ayrı təhlil etmək niyyətindəyik. Bu dövrlər aşağıdakı mərhələləri əhatə etmişdir:

- 1969-1985-ci illər;
- 1985-ci ildən başlayaraq iki il;
- 1990-1993-cü illər;
- 1993-2003-cü illər.

1969-cu ildə birinci dəfə siyasi hakimiyyətə gələn Heydər Əliyev geniş ictimaiyyət qarşısında ilk çıxışlarından birini Bakı Dövlət Universitetində (BDU) etmişdir. Təbii ki, yarandığı dövrdən bəri ölkədə gedən ictimai-siyasi proseslərin ən fəal obyekti sayılan BDU-nun professor- müəllim və tələbə heyəti qarşısında çıxış etmək böyük tarixi məsuliyyət tələb edirdi. Ən azı ona görə ki, təxminən 1960-cı illərdən başlayaraq Azərbaycanda davam edən hakimiyyət çəkişmələri bütün sahələr üzrə ölkənin keçmiş ittifaq miqyasında geriləməsinə səbəb olmuşdur. Bu hal xalqla hakimiyyət arasında müəyyən bir sədd yaratmış, aşağıdan yuxarıya doğru inamsızlıq formalaşdırmışdır. Lakin Heydər Əliyev BDU-nun kollektivi qarşısında dərin məzmunlu nitqi ilə hakimiyyətlə xalq arasındakı mövcud səddin götürülməsi istiqamətində müdrik bir addımını atdı. Azərbaycan ziyalısı ilə hakimiyyət arasında son dərəcə səmimi bir münasibət müstəvisi ortaya çıxdı. Burada təbii ki, Heydər Əliyevin məhz Azərbaycan dilində söylədiyi səlis və rəvan nitqi ön təsirini göstərdi. Həmin nitqdən bir hissəyə diqqət yetirək: *"...Azərbaycan xalqının parlaq və orijinal mədəniyyətinin ən yaxşı ənənələri Azərbaycan Dövlət Universitetində inkişaf etdirilmişdir. Məşhur filosof Ə. Bəhmənyarın və mütəfəkkir şair Nizaminin, riyaziyyatçı astronom Nəsirəddin Tusinin və dahi lirik şair Füzulinin, orta əsrlərin böyük alimi F.Rəşidəddinin və üsyankar şair İmadəddin Nəsiminin, tarixçi Abbasqulu ağa Bakıxanovun, və realist yazıçı Mirzə Fətəli Axundovun, görkəmli satiriklərdən Mirzə Ələkbər Sabirin, Cəlil Məmmədquluzadənin və bir çox başqalarının adları bu mədəniyyətin çoxəsrlik tarixinin bəzəyidir" /1. Şahtaxtı S. , s. 197/.*

Aqillər deyib ki, "xalqın, millətin nəyini əlindən alırsansa al, o yaşayacaqdır. Dilini əlindən alsan, o, milli varlığını itirər, millət kimi yox olar." Bu, tarixin ortaya qoyduğu bir həqiqətdir. Dil millətin mənəviyyat bayrağı, milli mənlik və qururudur. Dil yoxdursa, xalq da yoxdur.

Heydər Əliyevin nitqindən yuxarıda göstərdiyimiz nümunə əsasında deyə bilərik ki, Ulu Öndərimizin nitqi BDU-nun kollektivinə dövlət başçısı kimi yox, ilk növbədə tarix və ədəbiyyat elmlərinə mükəmməl sahib olan bir natiq kimi nüfuz edə bilmişdir. Zəngin söz ehtiyatı, dərin məzmunlu məntiqi mühakimələrlə dolu ifadələr və bir-birini tamamlayan səlis cümlələr Heydər Əliyevin nitq mədəniyyətini həmişə cəlbedici etmişdir. Ulu Öndərimizin nitqini sevdirən digər mühüm amil isə auditoriyada təmsil olunanların zehni maraqlarını dəqiq müəyyənləşdirməsi ilə bağlı olmuşdur. Heydər Əliyevin dövlət və hökumət tədbirlərindəki, mədəniyyət mərasimlərindəki, eləcə də geniş ictimaiyyət arasındakı nitqlərini təhlil edərkən birmənalı olaraq qənaətə gəlmək olur ki, heç bir halda fərqli auditoriyalarda Heydər Əliyevin çıxışları bir-birini təkrar etməmişdir. Bu isə ilk növbədə cəmiyyətin ayrı-ayrı təbəqələrinə nüfuz etməyin yollarını bilməyin, istehsalatın bütün istiqamətlərinin, o cümlədən kənd təsərrüfatı və sənaye işçilərinin, elm, təhsil və mədəniyyət adamlarının maraqları ilə dərindən tanış olmağın təzahürü olmuşdur. 1969-1985-ci illərdə Heydər Əliyev çıxışlarını bir qayda olaraq ictimai-siyasi mühitə uyğun olaraq səlis formada Azərbaycan və rus dillərində qurmuşdur. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sovet İttifaqı Kommunist Partiyası Mənkəzi Komitəsinin Siyasi Bürosunun üzvü vəzifələrinə irəli çəkilməsi ilə əlaqədar olaraq 1985-ci ildən başlayaraq iki il ərzində Heydər Əliyevin çıxışları yalnız

rus dilində tarixə yazılmışdır. Hələ Sovetlər dövründə ulu öndərin Azərbaycan dövlət dilinin Azərbaycan dili oması uğrunda apardığı mübarizənin şahidi oluruq: "1977-78-ci illərdə biz yeni konstitusiyanı qəbul edərkən bu məsələ, şübhəsiz ki, əsas məsələlərdən biri idi. Biz yeni konstitusiyada Azərbaycanın dövlət dilinin Azərbaycan dili olması haqqında maddə hazırladıq. Ancaq bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirlər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur. Mən o vaxt Sovetlər İttifaqının rəhbərləri ilə danışdırm və sübut etməyə çalışdım ki, bizim dövlət dili Azərbaycan dili olduğunu öz konstitusiyamışda yazmalıyıq və yazacağıq" [IV c., s. 427-428] . 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş ittifaq rəhbərliyinin ədalətsiz qərarı əsasında sovet qoşunlarının Bakıda və Azərbaycanın digər bölgələrində ağır cinayətlər törətməsi dünya ictimaiyyətinin diqqətini regionda cərəyan edən ictimai-siyasi və hərbi proseslərə yönəltdi. Tarixi həqiqətdir ki, 1987-ci ilin payızından 1990-cı ilin yanvarınadək Azərbaycana qarşı haqsızlıq dünya ictimaiyyətinə yox, heç SSRİ məkanında da olduğu kimi təqdim olunmurdu. Azərbaycanın düçar olduğu informasiya blokadası Heydər Əliyevin səlis nitqi ilə darmadağın edildi.

Heydər Əliyevin 2 fevral 1996-cı il tarixdə Müstəqil Azərbaycan Respublikası gənclərinin Respublika sarayında keçirilən birinci forumundakı çıxışı ana dilini bilməməyin hansı fəsadlara, ağırlaşmalara, müsibətlərə, fəlakətlərə səbəb ola biləcəyini başa düşməyənlərə cavabdır:"Öz dilini bilməyən, öz dilini sevməyən adam öz tarixini yaxşı bilə bilməz. Xatirimdədir, 70-ci illərdə mən bir neçə dəfə çox narahatçılıqla göstərişlər verdim ki, rusdilli məktəblərdə Azərbaycan ədəbiyyatına çox yer verilsin. Azərbaycan ədəbiyyatını, ana dilini bilməyən gənc Nizamini oxuya bilməz, Füzulini oxuya bilməz, Nəsimini oxuya bilməz, Vaqifi oxuya bilməz, Sabiri oxuya bilməz, Cəlil Məmmədquluzadəni oxuya bilməz və digərlərini oxuya bilməz. Əgər onları oxuya bilməsə, o , tariximizi bilməyəcək; onları oxuya bilməsə, bizim mədəniyyətimizi bilməyəcək, mədəni köklərimizi bilməyəcək, milli-mədəni ənənələrimizi bilməyəcək. Onları bilməsə, o, vətənpərvər olmayacaq, onda milli vətənpərvərlik duyğuları, hissiyyatı olmayacaqdır" [V c. s. 320] .

Ümummilli lider Heydər Əliyev ana dili məsələsinə çox böyük diqqətlə, soyuqqanlılıqla, hissiyyata qapılmadan yanaşır. Onun bu mövzudakı çoxsaylı fikirlərindən birini xatırlayaq: "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, bu həm də azərbaycançılıq məsələsidir". Azərbaycan dilinin səlis, dəqiq öyrənilməsinin yolu Azərbaycan ədəbiyyatını bilməkdən keçir. H.Əiyev əmindir ki, ədəbiyyatını, dilini bilməyən adam yüksək mədəni səviyyəyə əsla çata bilməyəcəkdir.

Hamımıza məlumdur ki, 2004-cü ildə ölkə Prezidenti cənab İlham Əliyev "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", 2007-ci ildə isə "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında" sərəncamlar imzaladı. Bu sərəncamlar ölkə rəhbərinin ana dilinə qayğısının və sevgisinin nümunəsi, öz vətəndaşlarını daha savadlı, daha məlumatlı görmək arzusu idi. Bu sərəncamlar ölkə rəhbərinin, xalqın özünə qayğısında, xüsusilə gənc nəslin, böyüməkdə olan uşaqlarımızın milli dəyərlərimizə, milli mənəviyyatımıza daha sürətlə və uğurla sahib çıxmasında göstərdiyi yardım idi. Cənab Prezidentin həmin sərəncamları ilə illər boyu hər birimizin evlərimizin bəzəyi olan kitablar yenidən çap olunmağa başladı. Çap olundu ki, bizdən sonrakılar da

oxusunlar. Çap olundu ki, dillərini - səlis Azərbaycan dilini unutmasınlar, əksinə daha dərindən öyrənsinlər. Yəqin ki, həmin kitabların içərisində yer alan ölməz Mirzə Cəlilin "Anamın kitabı"nı oxuyanlar da olacaq. Və mən əminəm ki, əsərdə ana dillərindən başqa bütün dillərdə danışan, bircə Azərbaycan dilini özlərinə yaraşdırmayan üç qardaşın bacısı Gülbaharın, nəhayət, öz qardaşlarının nadanlığı qarşısında dözməyərək onların bütün xarici kitablarını yandırdıqdan sonra söylədiyi son monoloqunu diqqətlə oxuyacaqlar: "...Qaldı bircə kitab. Bu da anamın kitabı". Bu kitabda vaxtilə ataları öz əliylə yazıb: "Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansalar, yenə əvvəl-axır anaları Zəhranın ətrafında gərək dolanalar, çünki ay və ulduz şəmsi zərrələri olan kimi, bunlar da analarının ay və ulduzlarıdırlar. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə! Onun vicdanı və insafı ona ömür boyu əziyyət edəcək, nə qədər canında nəfəs var, peşman olacaq".

ƏDƏBİYYAT

1. Şahtaxtı S. "Xaç əməliyyatı", Bakı, Nurlan, 2003, 199 s.
2. Nağdəli Zamanov "Dilimizin dərin qatlarını zənginləşdirən ulu öndər"// "Səs" qəzeti, 2012-ci il
3. Heydər Əliyev. "Müstəqilliyimiz əbədidir". I cild, Bakı , "Azərnəşr", 1997, 608 səh.
4. Heydər Əliyev. "Müstəqilliyimiz əbədidir". IV cild, Bakı , "Azərnəşr", 1997, 528 səh.
5. Heydər Əliyev. "Müstəqilliyimiz əbədidir". V cild, Bakı , "Azərnəşr", 1998, 500 səh.
6. Adil Babayev. Azərbaycan dili və nitq mədəniyyəti. Bakı, 2011, 621 səh.
7. Abdullayev N., Məmmədov Z. "Nitq mədəniyyətinin əsasları". Bakı, 2010, 325
8. N.Cəfərov. Heydər Əliyev - liderlik fenomeni. Bakı, 2006, s. 41
9. J.Əliyeva. Heydər Əliyev və ana dilimiz. http://jurnal.meclis.gov.az/news

РЕЗЮМЕ

В статье говорится об Азербайджанском языке, о его месте и значении в нашей сегодняшней жизни, об отношении и оценке общенационального лидера Гейдара Алиева к процессу развития нашего языка. Тут приводятся примеры его указов и распоряжений, рассказывается о его внимании к процессам, происходящим в языке, ставится на первый план его отношение к красоте и беглости родного языка.

XOSHQEDEM HUSEYNZADE

SUMMARY

The article deals with the Azerbaijani language, its place and meaning in our today's life, the attitude and evaluation of our national leader Heydar Aliyev to the development of our language. Examples of his decrees and orders, his attention to the development in the language have been given in this article. H. Aliyev's attitude to the beauty and fluency of the native language key point of the article.

Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dos. R.V. Məmmədova

Агаверди Халилов

МЕЖРЕЛИГИОЗНЫЕ ОТНОШЕНИЯ В ОГУЗСКОМ ОБЩЕСТВЕ СРЕДНИХ ВЕКОВ: ТЕНГРИАНСТВО И ИСЛАМ (НА МАТЕРИАЛЕ ОГУЗСКИХ ПИСЬМЕННЫХ ПАМЯТНИКОВ)

Açar sözlər: *Oğuz, orta əsrlər, tanrıçılıq, islam, din, cəmiyyət.*
Key words: *Oghuz, Middle Ages, Tengri, Islam, religion, society.*
Ключевые слова: *огузы,средневековье, тенгрианство, ислам, религия, общество.*

В религиозных и мифологических системах древних тюрков тенгрианство носило монотеистический характер. По наблюдениям над материалами огузских письменных памятников средних веков видно, что идея Тенгри (Бога) у древних тюрков не сильно отличается от мусульманского Аллаха (Бога).

Заслуживает особого внимания информация, содержащаяся в начальной фразе монументального памятника – о создателя эпоса Дэдэ Коркуда: «Ко временам святого Пророка (да будет ему слава) явился из края Баят муж, которого звали отец Коркуд и который был совершенным знатоком Огуза. Стало быть, Дэдэ Коркут жил несколько раньше пророка Мухаммеда показывает, что песенные сказы Дэдэ Коркуда восходит к доисламской эпохе и культуре. «Книга Коркут» рассказывает в поэтической форме о легендарном прошлом огузского народа. Она представляет эпический цикл и состоит из вступления и двенадцати рассказов или песен. "Китаби деде Коркут" ("Книга моего деда Коркута") относится к X-XI вв., появляется итогом длительного развития устной народной поэзии. По своему идейно-тематическому и художественному богатству, по языковым особенностям этот замечательный эпос выходит далеко за рамки культуры исламской эпохи.

На памятниках «Огузнаме», Коркут-Ата (отец Коркуд), был сыном Кара Ходжа, который был родом из Баятских. Родился в промежутке 4-ого и 6-ого веков, пользовался уважением среди тюрков огузов, занимал должность наставника и советника у повелителей огузов того времени, об этом повествуют эпосы, дошедшие до наших дней. У Деде Коркута был сын Ургеч Деде. В тюркском народе рассказы Деде Коркута передавались из уст в уста, из поколения в поколение. В 11-ом веке, во времена правления Сельджуков рассказы были собраны в книге под названием «Деде Коркут Китабы» (Книга Деда Коркуда). А.Ю.Якубовский пишет, что в «Китаби-Деде Коркут» огузе-мусульмане, ведушее борьбу с «гяурами» (язычниками) (11).

На наш взглядь Коркуд не личное имя, а религиозная должность. Слово Коркут означает буквально «хранитель счастья», или же широком смысле хранитель добра, защитник народа. Мы наблюдали выражения «этот Коркуд» или же «тот Коркуд» в «Огуз-наме», которые дают предполагать, что Коркуд

является религиозной должностью, скорее всего Тенгрианство. Порой Коркуда заменяет, например, Иркыл Ходжа в «Огуз-наме».

На памятниках средних веков видны особенности переходного периода огузов от тенгрианства к исламу и их искренняя приверженность к этой религии. Турки-огузы в «Книге Деде Коркуда» считали Тенгри всемогущей силой и верили, что все совершается по его воле и молились Ему. Огузы верили, что пока «Аллах» не скажешь, дела не пойдут, «Пока не даст всемогущий Тенгри, человек не станет богатым». В «Книге Деде Коркуда» к Аллаху обращаются как «Господь Бог», «Всемогущий» (Кадир), «Каххар», «Истинно Всемогущий», «Творец Бог может», «Бог-Творец», «Всевышний», «Созидатель», «Царь царей», «Дорогой», «Единый», «Великий», «Щедрый» и т.п. Большинство имен Бога в священной книге ислама Коране употребляются в огузских памятниках, в том числе в «Книге Деде Коркуда».Это наблюдается в обращениях огузов к Аллаху.

«Yucalardan yucasan,
Kimse bilmez necesen, eziz Tanrı?!
Anadan togmadın sen, atadan olmadın.
Kimse rizgin yemedin.
Kimseye güc etmedin.
Kamu yerde ehadsen, Allahu-Samedsen!» (2,D 209-210).

Сура «Ихлас» «Очищение» (веры)

Во имя Аллаха милостивого, милосердного!

1.(1). Скажи: «Он-Аллах-един,
2.(2). Аллах, вечный,
3.(3). Не родил и не был рожден,
4.(4). И не был Ему равным ни один!»

Сура Ал-ихлас (знаки присущие только к Аллаху).

Кул хуваллаху ехад(1) Аллахус самед (2) Лем йелид ве лем йулед(3) Ве лем йекул леху куфувен ехад(4).

А дальше уже продолжается молитва из Тенгрианства и из хадисов.

«Ademe sen tac urdun,
Şeytana lanet kıldın.
Bir suçdan ötüri dergahdan sürdün.
Nemrud göge ok atdı,
Karnı yarık balığı karşu tutdun» (2,D 209-210).

В этой части текста говорится о легенде об изгнании Адама из рая. А дальше уже идет описание представления о Тенгри.

«Ululuğına heddin, senin boyun-geddin yok!
Ya cismle ceddin yok!
Urduğun ulatmayan ulu Tanrı!
Götürdügin göge yetüren görklü Tanrı!
Qagduğın kahr eden kahhar Tanrı!
Birligüne sığındım, çelabım, kadir Tanrı!
Meded senden!
Qara donlu kafere at deperem, işümi sen onar!» (2,D 209-210)

В величестве нет тебе равного!

Физически нет тебе равного, созидатель.

Кого бьешь, того не уничтожаешь.

Кого берешь, того поднимаешь до небес, о добрый Тенгри!

Кого уничтожишь, того уничтожишь, о гневный Тенгри!

Укрывался к твоему Единству, всемогущий Тенгри!

От тебя помощь!

К одетому в черное неверующему верхом поеду, дай удачи исправить дело!

"Китаб-и-дедем Коркут" так или иначе связан с исламом. В рассматриваемых нами концовках сказаний их не столь много, но они достаточно регулярны. Можно перечислить основные: Kaadir ("всемогущий"), fani dunya ("тленный мир"), ahir dunya ("потусторонний мир"), dua ("молитва"), kabul olmak ("принятие, согласие, принимать, признавать"), Kur'an ("Коран"), ecel ("смерть, кончина"), vakit ("время"). Все они входят в устойчивые словосочетания, некоторые из них почерпнуты непосредственно из Корана (5). Так, противопоставление земной жизни, т.е. тленного, бренного, преходящего мира, и той жизни, находящее выражение в словосочетаниях fani dunya (т.е. тленный мир, человеческая жизнь) или hayat-at-dunya (т.е. земная жизнь) и ("жизнь последняя", вечность), очень распространено в Коране (например, 6:32, 7:51, 29:64, 31:6, 47:36, 55:26) (1). В прорицаниях Коркута, как мы уже заметили, понятие «dunya» встречается неоднократно в обоих значениях(5).

В некоторых прорицаниях Коркута присутствуют явно мусульманские по своему происхождению образы и метафоры. Такова, например, метафора жизни как каравана: «Дед мой Коркут сложил песнь, сказал слово; эту былину он сложил, он составил. Так он сказал: они пришли в этот мир и прошли; так караван останавливается и снимается; их похитила смерть, скрыла земля; за кем остался тленный мир?». Таким образом, объекты, упомянутые в прорицаниях Коркута, отсылают нас к традиционной тюркской картине устройства мира и социума. В то же время в целом по благопожеланиям реконструируется эсхатологическая модель древней тюркской мифологической системы.

Что же касается формул мусульманского содержания, часть из них также может быть объединена в группы формул на основе ритмической организации, которая прослеживается, например, в следующих строках прорицаний:

Kanı dedugum beg erenler;

Dunya benum deyenler?

Ecel aldı, yer gizledi.

Fani dunya kime kaldı.

Gelilmlu, gidimlu dunya

Son ucu öluülü dünya.

«Где те воины-беки, кого я прославил, кто говорил: (Весь) мир - мой? Их похитила смерть, скрыла земля; за кем остался тленный мир? Земная жизнь, ты приходишь и уходишь; последний твой конец - смерть, земная жизнь!». По мнению исследователей (5;6;7;8;9;10;11;12), источники этих образов различны, но большинство восходит к письменной книжной литературе - хадисам, моралистической литературе (10,89). Эта же метафора «жизни как каравана» встречается и у Абу-л-Гази в "Родословной туркмен": "Подлинно, этот мир похож на караван-сарай, (а) чада адамовы похожи на караван: одни кочуют, другие

останавливаются на стоянку" (10,45). Жизнь и поступки человека трактуются как преходящее, тленное, тогда как неизменной представляется вера во всемогущего Бога. Как видно, понятие Бога (Тенгри, Аллаха) у огузов проявляется в идеальном образе, который упоминается в следующих определениях:

а) мистически-духовные определения;

б) универсальные определения (3;6).

Большинство божеских определений у огузов сходятся с религиозными книгами, в том числе с Кораном и с хадисами. Универсальные определения вытекают из народного мышления. Основная часть религиозных определений, относящихся к Аллаху-Тенгри, бытовали в народных суевериях, существовали в устной традиции и после определенного времени отражались в огузских письменных памятниках. Таким образом, формирование общего этнокультурного центра тюрков-огузов приводит к образованию единственной религозно-мифологической системы, как продукта общего тюркского мышления.

В VII-VIII-х веках распространялись новые религиозные течения, религии и секты по всей Азии. На Западе ислам, на востоке буддизм, на севере несторианское христианство и манихеизм – такой была религиозная картина Азии того периода. Постепенно ислам занимает определенное место в религиозно-мифологической системе древних тюрков, которая к этому времени была в основном тенгрианской, и оба они формируют новую богословскую систему. Синтез этих религий проявляется в религиозных терминах, обычаях, обрядах. Итак, можно предположить, что в огузском обществе средних веков достаточно длинный период существовали параллельно разные религии. Поликонфессиональность огузского общества обусловливается тем, что оно было открытым по своему характеру для других цивилизаций.

Памятники представляют Тенгрианство и Ислам вместе, как единую идею. Это отражает религиозную действительность огузского общества средних веков, общественную реальность средневекового общества огузов и их религии. Вследствие того, что огузы приняли ислам и пытались адаптировать его к старой религии, обе религии выступают как неотъемлемой части модели мира, и в отношениях между ними проблем не наблюдается. Огузы относятся отрицательно к неверующим (атеистам). В письменных памятниках огузы кажутся терпимыми к носителям других религиозных верований. Огузское общество не раз страдало от неверующих, подвергалось агрессии и ограблениям. Только в таком случае огузы защищали себя и нейтрализовали неверующих для того, чтобы защитить себя от угроз с их стороны. В основном же огузское общество средних веков было склонно к прогрессивным традициям с точки зрения религиозной терпимости.

ПРИМЕЧАНИЕ

1. Коран. Пер. и коммент. И.Ю.Крачковского. Изд. 2-е. М.: Главная редакция восточной литературы издательства "Наука", 1986.
2. Китаби-Деде Коркуд. Баку, 1988.
3. Kitabi-Dede Qorqud ensiklopediyası. B., “Yeni neşrler evi”. 2000, II cild.
4. Энциклопедия ислама. II в. , Стамбул, 1989.
5. Абдулла В. Поэтика «Книги Деде Коркута» . Б., 1999 года.

6. Джафаров Н. "Книга Деде Коркут " Поэтика перехода в ислам. Б., 1999.
7. Бартольд В.В. Книга моего деда Коркута. Огузский героический эпос. Пер. и коммент. В.В.Бартольда. М.-Л.: 1962 (Сер. Литературные памятники).
8. Бартольд В.В. История турецко-монгольских народов. // Сочинения. Т. V. Работы по истории и филологии тюркских и монгольских народов. М.: Главная редакция восточной литературы издательства "Наука", 1968.
9. Жирмунский В.М. Тюркский героический эпос. Л.: Наука, 1974.
10. Кор-оглы Х. Огузский героический эпос. М.: ГРВЛ изд-ва "Наука", 1976.
11. Якубовский А.Я. 1999. Китаби Коркуд и его значение для изучения туркменского обшества в эпоху раннего средневековья //Книга моего Деде Коркута. Огузский героический эпос. Б., 1999.

AĞAVERDİ XƏLİL

ORTA ƏSRLƏR OĞUZ CƏMIYYƏTINDƏ DINLƏRARASI ƏLAQƏ:TANRIÇILIQ VƏ ISLAM (OĞUZ YAZILI ABIDƏLƏRI ƏSASINDA)

XÜLASƏ

Orta əsrlər oğuz yazılı abidələri oğuz tarixinin, mədəniyyətinin və inanc sistemlərinin zəngin mənbəyidir. Buradan islam öncəsi və islam dövrlərinə aid oğuz inancları haqqında geniş təsəvvür əldə etmək mümkündür. "Oğuznamə" silsiləsinə daxil olan yazılı qaynaqlar, həm tanrıçılıq dini, həm də daha qədim dpvrlərin inanclarını özündə əks etdirir. İslam dininin mətnlərin yazıya alındığı dövrdə yarandığı müşahidə edilir. Hər iki din bərabər inanclar kimi müşahidə olunur. Ümumiyyətlə, oğuz abidələrində qədim xalq inancları, monoteist xarakterli tanrıçılıq və islam dinləri öz əksini tapmışdır.

AGAVERDI KHALIL

THE RELATIONS BETWEEN RELIGIONS IN OGHUZ SOCIETY IN THE MIDDLE AGES:TENGRISM AND ISLAM (ON THE BASE OF OGHUZ WRITTEN MONUMENTS)

SUMMERY

Oghuz written monuments belonging to the Middle Ages are the rich information source of the history, culture and belief system of Oghuz. One can get the much information about the beliefs of Oghuz before Islam and during the period of Islam. In Oghuz written monuments known as “Oghuzname” the ancient religion of Oghuz society Tengrism organizes the parallelism with the Islam which represents the religious views of the period making the monuments to the note. Both of them are observed as an identical right religious view. In general, in Oghuz monuments the ancient folk beliefs of Oghuz society (due to Islam the erroneous beliefs) monotheistic.

İSMAYIL AĞAYEV
Filologiya üzrə fəlsəfə doktoru
Sumqayıt Dövlət Universiteti
qara_ahmedov_66@mail.ru

H.CAVİDİN "XƏYYAM" FACİƏSİNDƏ ŞƏXSİYYƏT VƏ ZAMAN MÜNASİBƏTLƏRİ

Açar sözlər: *romantik ədəbiyyat, tarixi faciə, fərd və cəmiyyət, şəxsiyyət, insan amili, insan ləyaqəti, mənəvi azadlıq, əxlaqi prinsiplər, bəşəri dəyərlər*
Key words: *romantic literature, tragical history, individuals and society, personality, the human factors, human dignity, spiritual freedom, moral principles, human values*
Ключевые слова: *романтический литература, историческая трагедия, личность и общество, личность, человеческий фактор, человеческое достоинства, духовная свобода, нравственные принципы, общечеловеческие ценности*

Azərbaycan romantik ədəbiyyatının tanınmış nümayəndəsi, yaradıcılığı ilə ədəbi-bədii fikrimizdə yeni mərhələ açan dramaturq Hüseyn Cavid həm lirik əsərlərində, həm də tarixi dram və faciələrində mürəkkəb ictimai-siyasi məsələlərə toxunmuş, yaşadığı mühitin sosial və mənəvi-əxlaqi prinsiplərini, fərd və cəmiyyət münasibətlərini müxtəlif istiqamətlərdən şərhə, analitik təhlilə çalışmışdır. Dramaturqun yaradıcılığı çoxəsrlik Azərbaycan ədəbiyyatının tərkib hissəsi olmaqla bərabər, əsərlərinin daxili mahiyyətini təşkil edən bəşəri dəyərlər və ideya-mövzusu baxımından ümumşərq kontekstində dərk edilir. Böyük mütəfəkkirin əsərlərindəki fəlsəfi fikirlər, insan və zaman münasibətlərinin təhlili, hansı mövzudan və hansı dövrdən yazmasından asılı olmayaraq, insan amilini hər şeydən üstün tutması, yaradıcılığında insan azadlığının və ləyaqətinin qorunması kimi məsələlərə sürəkli müraciəti H.Cavidin nəinki həmvətənlərinin taleyini düşündüyünü, həm də daha geniş miqyasda insan ömrü və həyatının mahiyyəti, məzmunu, insan taleyi barədə fikir axtarışlarında olduğundan xəbər verir.

H.Cavid 1935-ci ildə-mürəkkəb ictimai- siyasi dövrdə, Azərbaycan xalqının ağır siyasi təzyiqlər altında yaşadığı bir vaxtda Şərqin filosof- şairi, yaşadığı dövrün qanunlarına tabe olmayan, ictimai mühitin məhdud fikir dairəsinə sığmayan mütəfəkkir Ömər Xəyyama müraciət etmişdir. Orta əsr Şərq elmi-fəlsəfi fikrinin tanınmış nümayəndələrindən biri olan Xəyyamın düşüncə və zəka dünyasını, yaşadığı ictimai mühitə qarşı olan etirazlarını, barışmaz münasibətini "Xəyyam" faciəsində özünəməxsus şəkildə inikasa çalışmışdır. Mütəfəkkir şair, filosof kimi tanınan Xəyyamı Cavid orijinal məzmunda işləyərək, tarixi şəxsiyyətin amal və düşüncələrini veməklə bərabər, yaşadığı dövrü, müasiri olduğu ictimai mühitin psixologiyasını, şəxsiyyət və cəmiyyət qarşıdurmasını, bu təzadı doğuran amilləri bədii təfəkkürlə, poetik düşüncə və obrazların köməyi ilə izaha çalışmışdır. Tarixi Xəyyamla zaman arasındakı ziddiyyəti, filosof-şairlə mühit arasındakı təzadı əks etdirməklə dramaturq yaşadığı dövr və mühitin ziddiyyətlərini, şair Xəyyamın simasında müasiri olduğu fikir adamları ilə zaman arasındakı konflikti vermişdir.

Cavidşünaslıqda bu faciə obyektiv təhlil olunmuş, ədibin bu faciədə "qeyri-humanist cəmiyyətdə mənəvi təmizliyin və ağlın faciəsini əks etdirməsi", "dövrün ən mühüm ictimai-əxlaqi problemləri əsas qəhrəmanın taleyinin təsviri vasitəsilə" (1.185) əyaniləşdirməsi göstərilmişdir. "Xəyyam" faciəsi "H.Cavid sənətinin fəlsəfi fikir istiqamətini, ideya-məfkurə axtarışlarını bütünlüklə ümumiləşdirən" (2.205), toxunduğu

ictimai problemlə bağlı dramaturqun öz dövrünün kəskin ziddiyyətlərini və amorf cəmiyyəti romantik düşüncə ilə təhlil edən, bədii-fəlsəfi konsepsiya ilə yoğrulmuş, daim müasir olan əsər kimi dəyərləndirilmişdir.

Tarixi Xəyyam H.Cavidi "mənən sərbəst şəxsiyyət, hər hansı doqmadan azad fikir və ilham sahibi kimi cəlb etmişdi", bu da "Cavidi təkləyən total konformist ehkama bədii üsyan və fəlsəfi etiraz demək" idi (3.295). "Xəyyam" faciəsində əsas dramatik konflikt mütəfəkkir, filosof-şairlə zaman arasındadır. Burada Cavid sərbəst şairanə düşündüklərini Xəyyamın dili ilə vermiş, kəskin despotizmə əsaslanan ictimai-siyasi mühitə, onun mənəvi-əxlaqi dünyasına qarşı özünün etirazını bildirmişdir. Məhz bu cəhətinə görə faciə Cavid yaradıcılığının ən yüksək zirvəsi sayılır.

XX əsrin 30-cu illərində Azərbaycanı bürüyən kəskin ictimai-sosial ziddiyyətlər, despotik idarə üsulları, ictimai həyatın sinfi-ideoloji təfəkkürlə izahı, insan ləyaqətinin alçaldılması, fikir sahibi olan insanların faciəvi yaşantıları dramaturqun yaradıcılığından kənarda qalmamışdır. Amoral cəmiyyətə, despotik sistemə qarşı etirazını bildirmək üçün Cavid əsas qəhrəmanı tarixi şəxsiyyət olsa da, yaşadığı dövrün ictimai-siyasi problemləri ilə bağlı olan "Xəyyam" faciəsini yazmışdır. İctimai mühitin sosial qanunlarına, zamanın amansızlığına qarşı etiraz və hiddətini bildirmək üçün mövzunu ustalıqla seçmiş, mühitin tragizmini, onu yaradan amilləri filosof-şairlə zaman arasındakı konfliktdə araşdırmışdır. H.Cavidin fikincə, həqiqi sənətkar hər növ doqmatizmdən uzaq, azad fikir və düşüncə sahibi olan şəxsiyyətdir. Məhz belə şəxsiyyətlə zaman arasındakı ayrılığı, qarşıdurmanı öyrənməklə ictimai mühitdə olan mənəvi-əxlaqi prinsipləri, cəmiyyət daxilindəki sosial ziddiyyətləri müəyyənləşdirmək mümkündür. Faciənin əsas qəhrəmanı, hadisə və proseslərin mərkəzində dayanan Xəyyam mühitlə özü arasındakı ayrılığı hiss edir, doqmatik düşüncə və təfəkkürdən uzaq olduğundan "ruhunu sıxmış bu diyar". Bu təzadı aradan qaldırmaq mümkün deyil, gerilik, cəhalət zamanı elə tutmuşdur ki, o, "Başqa bir ölkəyə varsın, nə çıxar?!" (4 .27)

Tarixi Xəyyamda H.Cavid poetik "mən"inin ifadəsinə çalışaraq, Xəyyamı əzən, onun fikir və fəaliyyəti üçün zindana çevrilən mühiti göstərməklə dramaturq onu tənhalaşdıran, bəşəri dəyərlərdən uzaq ictimai-siyasi mühiti əks etdirmişdir. Dramaturq sənətkarla zaman arasındakı təzadı bütün mahiyyəti ilə anlamış və onun dramatizminin tam ifadəsinə çalışmışdır. Faciədə ağır təsir bağışlayan kiçik səhnə ilə böyük məna ifadə edərək, cəmiyyətin mənəvi dünyasını bütünlüklə göstərən məqamlar vardır. Şair Xəyyam yaşamaq üçün ən dəyərli nemətlərini-kitablarını satır, yüksək zəkanın, dərin idrakın məhsulu olan bu kitablar "Yeyəcək əkmək için" bazara çıxarılmışdır. Buna isə heç kəs diqqət ayırmır, hamı etinasız qalır. Xəyyamın acınacaqlı vəziyyəti, fikir xəzinəsi olan kitablar heç kəsə maraqlı deyil. Mühitdə nə səfillik anlaşılır, nə də yüksək fikir, zəka qiymtələndirilir, "daşa dönmüşlərə" heç nə təsir etmir. Bu müdhiş mənzərə faciəvi taleli, özü ilə cəmiyyət arasında heç bir vəhdət tapa bilməyən XX əsrin filosof-şairi Məhəmməd Hadinin kədər və əzab dolu həyatını, ömür yolunu xatırladır. Cavidin müasir olduğu dövrün mənəvi-əxlaqi dünyasına, ali varlıq olan insanı itaətkar bir qula çevirən sosial mühitə qarşı etirazları Xəyyamın dili ilə ifadə olunur:

...Gənc ömrümü atəşli tikənlər gəmirirkən
Həp varlığa üsyan edərəm mən.
Üsyan! Ölü adət və təriqətlərə üsyan!
Yaldızlı həqiqətlərə üsyan! (4 .30)

İnsan idrakını məhdudlaşdıran, onun təkamülünə mane olan "ölü adət və təriqətlər", mövcud mühitdə hakim olan "Yaldızlı həqiqətlər" şair tərəfindən rədd edilir. O, insan idrakının nəhayətsizliyinə, insan qəlbinin ülviliyinə inanır. Xəyyamın fikir dünyası doqmatik, ehkam xarakterli baxışlara, amorf məntiqə əsaslanan düşüncəyə

qarşıdır. Yalana bürünmüş həqiqətlər, idraka mane olan adət və təriqətlər dünyasında insan özünü ali varlıq kimi dərk etməkdən çox uzaqdır. Belə amorf cəmiyyətdə mənəvi-əxlaqi təkamül, tərəqqi üçün imkanlar məhduddur, insan idrakı isə belə maneələri aşmaqla özünü, cəmiyyəti, həyatı dərk etmək istəyir. Məhz insan idrakının yüksəlişini, təntənəsini görmək istəyi, humanist dəyərlər əsasında qurulan cəmiyyət haqqında şairanə arzularla amansız gerçəklik arasındakı konflikt Xəyyamın tragizmini yaradan amillərdən ən başlıcasıdır. Bu vəziyyətlərdə Xəyyam intibah dövrünün qəhrəmanlarını xatırladır. Yüksək insani dəyərlərə malik, saf mənəvi-əxlaqi keyfiyyətlərin daşıyıcısı olmaqla bərabər, bu dəyərləri cəmiyyətdə yaymağa çalışan və hər zaman mühitlə, zamanla əkcliyini dərk edən Xəyyamın faciəsi intibah qəhrəmanlarının faciələri ilə eynidir. Yüksək ağlı, idraki və əxlaqi zənginliyi ilə mühitdən üstün olan Xəyyam disharmonik cəmiyyəti anlayır, onu dərk edir, lakin bu cəmiyyəti dəyişdirmək, yeniləşdirmək gücündə deyil. Xəyyamda olan yüksək idrak zamanın bağlarının qırıldığını anlayır, amma bu dərketmə cəmiyyəti yeniləşdirmək üçün kifayət deyil. H.Cavid ədaləti, ictimai azadlığı "Peyğəmbər"də yazdığı kimi yüksək idrak və gücün vəhdəti ilə yaratmağı düşünürdü. Xəyyamda poetik idraki yüsəklik var, amma güc-qılınc yoxdur. Dramaturqun fikrincə, ictimai-sosial ziddiyyətlərin kəskin olduğu mühiti harmonik vəziyyətə gətirmək üçün yüksək idraka istinad edən güc, qüvvət lazımdır.

Xəyyam obrazı vasitəsi ilə H.Cavid yaşadığı dövrün həqiqi simasını, ictimai-sosial ziddiyyətlərini təsvirlə bərabər, müasirlərinin ədalət və həqiqət axtarışlarını verməyə çalışmışdır. İctimai mühitn dramatizmi, hadisələrin daxili məzmun və mahiyyətinin doqmatik fikirlərlə izahı insanlar üçün ağır, faciəvi həyat yaratmışdır. Qeyri-məntiqi fikirlərlə cəmiyyətin, hadisələrin izahı fikir və zəka sahibləri üçün daha ağır idi, onlar bu qeyri-dialektik mühiti dərk etsələr də, ona qarşı mübarizə aparmaqda çətinlik çəkirdilər. Amansız şərait buna imkan vermirdi, fiziki və mənəvi məhv təhlükəsi daim onlarə izləyirdi. Fikir və düşüncənin böhranı, qarışıqlığı nəticəsində həqiqətlə ehkam bir-birindən fərqləndirilmirdi:

...Mənə yan baxsa əgər anlamayan,
Sanma eylər ruhum buna üsyan
Anlayanlar belə yan gözlə süzər,
O baxışlar məni üzdükcə üzər. (4 .41)

Bu anlamazlıq bir tərəfdən mühitin cəhaləti ilə əlaqədardırsa, digər tərəfdən hakim dairələrin dərk edənləri, anlayanları təqib və məhv etməsi ilə bağlı idi. Göründüyü kimi, "Yaldızlı həqiqətlərin" hakim olduğu cəmiyyətdə insana və onun idrakına hörmət yoxdur. Əsil müasirlik budur ki, Cavid ağır repressiyanın dəhşət və faciələrini duymuş, amoral cəmiyyətin inkişaf istiqamətini hiss etmiş, zamanın bu ağır yaşantılarına öz münasibətini bildirmişdir. Ağır faciələrlə dolu siyasi prinsip və məqsədlər qarşısında, amansız siyasi gilyotin önündə hamı susurdu. Ən ağır faciə fikir sahiblərinin, mühiti dərk edənlərin susması idi, bu isə belə ağır, faciəvi siyasətə bəraət kimi səslənir, despotizm qarşısında susmaq ona bəraət vermək, kömək etməkdir. Dərk etdiyinə susmaq real yaşantılara, mənəvi-idraki təkamülə maneələr yaradan amoral cəmiyyətin daxili mahiyyətini anlayan insan zəkası üçün faciəvi idi. Xəyyamın ideya üsyanı, daxili narahatlığı Cavidin, onunla həmfikir olan zəka sahiblərinin narahatlığı, həqiqət axtarışları ilə eynidir. Üsyançı Yusifin ittihamlı çıxışları yalnız onun fikirləri deyil, bilavasitə əsarətdə yaşayan xalqların hakim təbəqəyə yönəlmiş ittihamları idi. Bütün bir xalq kölə yerinə qoyulur, yurd əsarət altında əzab çəkir, elin sərvəti isə amnsızlıqla talanırdı. Belə istismarçılıq siyasətində hakim təbəqəyə köməkçilər isə xalqın düşmənə dost olan, idrakı sönük oğulları idi. Belə əsarət və istismarçılıq siyasəti mahiyyətcə bütün imperiyalar dövründə eyni olmuşdur.

"Təzad elçisi" Xəyyam düşüncə və idrakını mövcud təriqətlər, adətlər dairəsində müəyyənləşdirməkdən uzaqdır. Poetik idrak və ilhama malik olan Xəyyam daim axtarışdadır, onun üçün "birdəfəlik həqiqət" yoxdur. Onda olan şübhəçilik fəlsəfəsi idraki təkamül, gerçəklik və insanları dərk etmək, "qaranlıqda işıq" aramaq üçün ən zəruri yoldur. Xəyyamın baxışlarına görə, şübhəçiliklə, hər ehkam və fikrin əsirinə çevrilməməklə, doqmatik düşüncədən uzaqlaşmaqla gerçəkliyi dərk etmək, cəmiyyəti yeniləşdirmək olar. Xaotik cəmiyyəti dərk etmək, insan varlığının daxili mahiyyətini anlamaq və idraki təkamül üçün skeptisizm fəlsəfəsi az rol oynamır. İdrak mövcud gerçəkliklə razılaşmır, cəmiyyət və onun qanunlarının məhdudluğunu dərk edir, irəliləyiş, təkamül üçün skeptisizmlə birləşir. Belə olan halda cəmiyyətdə həqiqəti aramaq, ona nail olmaq mümkündür. Xəyyamın "təzad elçisi" kimi inam və şübhəni daşıması onu romantik bədii düşüncənin Faust problematikasının qəhrəmanları sırasına aid edir. "Xəyyam" faciəsi yalnız Xəyyamın həyatı, fikir və düşüncələri ilə bağlı deyildir. Bu faciə "eyni zamanda həyatın mənası, xalqın taleyi, xilqətin sirri, bəşəriyyətin dərdi haqqında dərin fəlsəfi düşüncələrlə, dramatik lövhələrlə zəngindir" (5.176).

Xəyyamın inam və şübhəçilik fəlsəfəsi poetik xəyal olmayıb, mövcud cəmiyyətdən, onun inkişaf qanunlarından doğan fikir və düşüncə təlimidir. Cəmiyyətin mənəvi-əxlaqi sferasından yüksəkdə duran Xəyyama "İnsan nə qədər saçma həqiqət" təsiri bağışlayır, "həp təbiət, həp bəşəriyyət cəllad!" görünür. İnsanları bağları qırılmış zaman və bəşəri dəyərlərdən uzaq olan cəmiyyət üçün nicat yolları axtarmağa vadar edir. Filosof-dramaturq Cavid də Xəyyamın yaşantılarını, mühitin mənəvi-əxlaqi dramatizmini təsvir etməklə müasiri olduğu disharmonik cəmiyyətin daxili ehtiyaclarını, yeniləşmə, təkamül yollarını aramağa cəhd göstərmişdir.

"Xəyyam"dakı dramatizm əsərin yazıldığı dövrün mürəkkəbliyi, ictimai psixiologiyanın son dərəcə gərginləşməsi ilə bağlı idi. Ayrı-ayrı şəxslər-yüksək fikir və zəka sahibləri ilə bərabər, bütün cəmiyyət dramatizmlə yoğrulmuş həyat keçirirdi. Yeni qurulan siyasi hakimiyyət ideoloji prinsiplərinə uyğun olmayan hər şeyi məhv edir, sinfi-ideoloji prinsipləri hakim mövqeyə keçirirdi. Sinfi-maksimalist düşüncə tərzi bu sistemin ictimai-əxlaqi, siyasi görüşlərinin əsasını təşkil edirdi. Cavid Şərq tarixini təsvir etməklə bərabər, mürəkkəb ziddiyyətlər içərisində olan dövrünü, yaşadığı ictimai mühiti, bu mühitdəki siyasi və əxlaqi prinsipləri anlatmağa çalışır. Ziddiyyətli gerçəklik filosof-şairin poetik təfəkküründən keçib xəyal dünyası ilə qarşılaşdırılır. Konflikt Xəyyamın yüksək fikir və amal dünyası ilə məhdud gerçəkliyin qarşılaşmasından yaranır. Xəyyamın tragizmi ictimai mühitin qanunları və mənəvi aləmi ilə qarşılaşmaqla sona çatmır, insan varlığı, onun mürəkkəb və təzadlı xüsusiyyətləri, hətta təbiətin özündə olan qeyri-ahəngdar cəhətlər bu faciəviliyi daha da kəskinləşdirir. İnsan varlığı, həyatla ölüm arasındakı məhdud zaman ayrılığı Xəyyam düşüncə və baxışlarında xüsusi mənalandırılır, "sirri-həyat" filosof-şairi daim düşündürür. Bilik və fəlsəfi dərk dairəsndə Xəyyam mütləq hakimi də tərəddüdlə qarşılayır, "Qoca xaliq də qaranlıq"-deyərək, ona şübhələrlə yanaşır.

"Xəyyam" faciəsi H.Cavidin zaman, ictimai mühit və ictimai psixologiya ilə bağlı fəlsəfi görüşlərinin ifadəsində böyük rol oynamışdır. Cavid poeziyası təkamül poeziyası olduğuna görə onun yaradıcılığında "birdəfəlik tapılmış" həqiqətlərin və doqmatik fikirlərin hakim mövqeyinə təsadüf edilmir. Cavidin poetik təfəkkürü müxtəlif fikirlər sisteminin vəhdət və mübaizəsində ifadə olunan həqiqətlərin axtarışındadir. "Xəyyam" faciəsi H.Cavidin ehkam dolu cəmyyətə, amorf sistemə, insan varlığını və mənəvi dəyərləri sinfi baxışlarla izah edən siyasi quruluşa qarşı üsyan və hiddətidir.

A.Gertsen XIX əsrdə yazırdı ki, ictimai azadlıqdan məhrum olan xalqın ədəbiyyatı həmin xalqın vicdanının, ictimai-sosial şəraitə və siyasi sistemə qarşı etirazının səsləndiyi yeganə tribunadır. Doğrudan da, məhz bu yüksək tribunadan-ədəbiyyatdan istifadə etməklə xalqı azadlıq uğrunda mübarizəyə, mühitin amoral qanunlarına qarşı etiraz və çıxışlara səsləmək mümkündür. H.Cavid zamanın daxili tələbini duyaraq, ehkam dolu cəmiyyətin hansı əsaslar üzərində qurulduğunu göstərmiş, Şərqin böyük mütəfəkkiri Xəyyamın fikir və baxışlarını, şairin yaşadığı mühitin qanunlarına, siyasi-əxlaqi prinsiplərinə qarşı barışmaz münasibətini təsvir etməklə müasiri olduğu humanist fikir və zəka sahiblərinin mövcud mühitə, ictimai-sosial şəraitə qarşı etirazlarını vermişdir.

ƏDƏBİYYAT

1. Əfəndiyev T. Hüseyn Cavidin ideyalar aləmi. Bakı, 1985.
2. Əlioğlu M. Hüseyn Cavidin romantizmi. Bakı, 1975.
3. Qarayev Y. Meyar şəxsiyyətdir. Bakı, 1988.
4.H.Cavid. Əsərləri. V cild. Bakı, 2005.
5.Məmmədov M. Acı fəryadlar, şirin arzular.Bakı, 1983

AGAYEV İSMAIL AYDIN

THE PERSONALITY AND TIME RELATIONS IN THE H. JAVID'S TRAGEDY "KHAYYAM"

SUMMARY

The aesthetic features, romantic thoughts with the help of the given identity are investigated in the article.Philosopher-poet Khayyam's thoughts about life, human and time are explained here as needs of the contemporary period he lived. Khayyam's revolt idea, domestic concern is the same with Javid's and like – minded intellects' concern and truth. H.Javid understood the tragical content of the environment he lived and he expressed his opinion to the experiences of time with this tragedy. Here also given that playwright tried to analyze not only east history, but also the period of complicated contradictions, current social environment, political and moral prinsiples.

АГАЕВ ИСМАИЛ АЙДЫН ОГЛЫ

ОТНОШЕНИЯ ЛИЧНОСТИ И ВРЕМЕНИ В ТРАГЕДИИ Г. ДЖАВИДА «ХАЙЯМ»

РЕЗЮМЕ

В этой статье исследуются художественные и эстетические аспекты и отношения личности и времени которые выдан с помощью романтическими идеями в трагедии «Хайям». Мысли о жизни философ-поет Хайяма, о людях и о времени объясняется с точки зрения периода он жил. Восстание идея внутренные беспокойство Хайяма и его единомышленников то же самое с беспокойствием и истиной Джавида и его современники. Г. Джавид воспринимал трагическое содержание окружающей среды и с этой трагедией выражал свое мнение на орыт времени. Драматург тут описывает историю востоко, кроме того видно что, он попытался проанализировать социальную сферу и период в сложный противоречия, политические и моральные принципы окружающей среды в которым жил

Rəyçi: Cümənov Dəyanət
filologiya üzrə fəlsəfə doktoru

МАХИРА КУЛИЕВА
Институт Литературы имени Низами НАНА,
Доктор филологических наук, профессор
Mahirahamid@mail.ru

КЛАССИЧЕСКАЯ ЛИТЕРАТУРА НА СТЫКЕ СОВРЕМЕННОСТИ

Ключевые слова: божественная любовь, мирская любовь, вознесение, Аналхакк, погрешность, рухуллах

В средние века выбранный многими поэтами национальный и духовный путь самовыражения опирается на понятие *eşq* (эшг-любовь), в широком понимании слова считающегося высшим и крайним пределом любви.

Эшг – это божественный свет, дается не учением, а Всевышним. Эшг представляет собой духовный ураган, порожденный душой во внутреннем мире. Что касается смысла слова «эшг»: первая буква - эйн – научное познание Хакк-Истины (Всевышнего), вторая буква - шин – любовь и притязание к Истине (Всевышнему), третья буква - гаф – близость с Истиной (Всевышним) (1, 72)

Мирская (человеческая) любовь – эшг представляет собой милость Всевышнего сыну человеческому, расцениваемая в классической литературе как «беспредельная любовь», «величие государя любви», «бескрайнее здание», «плод любви, подаренный Всевышним».

По мере подхода к современности в творчестве поэтов и писателей мирская любовь получает все большее распространение. Поскольку божественная любовь со временем впиталась в душу разумных и зрелых людей, сделала их путниками в караване, ведущем к истине, справедливости, уважению, чести и достоинству.

Однако воспевание мирской любви вовсе не свободно от присущих классической традиции характерных особенностей.

В воспевании современной любви возлюбленная-возлюбленный и их партнеры, изображаются символическими образами – мотылька и свечи, цветка и соловья.

В творчестве Алиаги Вахида воспевание мирской любви проявляется в двух формах:

1. Воспевание любви используемыми в творчестве Физули и в классической литературе терминами (возлюбленная и возлюбленный, мотылек и свеча, цветок и соловей и пр.)

2. Оценка и раскрытие любви с использованием выражений и терминов Корана (рай, ад, тленный, суетный и др.).

Рассмотрим творчество великого поэта-газельхана XX века Алиага Вахида:

Bu eşq aləmini eşqə düşməyən bilməz,
Bilərmi, yanmasa şəmin şərəfini pərvanə? (3, 62)
Мир любви не поймет не бывший в нем,
Может ли знать достоинства свечи не сгоравший в нем мотылек?

В написанном на основе поэтического искусства истифхам (*istifhəm – поэтический троп в классической восточной литературе, построенный на поэтическом вопросе)*- этом двустишии поэт спрашивает, может ли, мотылек, не сгорая во славу свечи, быть приручена любовью?

Это двустишие Алиаги Вахида написано под влиянием следующих строк Физули:

Əhli-qədrəm yanalı eşq oduna pərvanəvəş,
Sürmeyi-çeşm eyləmişlər şəmlər xakistərim (2, 237)
Я благодарствую, возгорая в огне любви подобно мотыльку.
Свечи пеплом моим красят глаза свои подобно сюрме.

Обратимся к другому образцу:

Axır ağlatdın məni, biganələr gülsün mənə,
Nizami sənətkarlara deyir ki, səmimi olun, sözə, qələmə xəyanət etməyin, ağılabatan sözlər yazın, bilin ki, "ürəkdən gələn söz ürəyə yatar", yalana əsla yaxın durmayın. Şair gecə vaxtı çalışır, səhər vaxtı oyaq olur, bu zaman diliminə "dua vaxtı", "söz və məna vaxtı" deyir. Sən uca Allaha yalvar, Ona təslim ol, qəlbini göz yaşları ilə islat ki, məna bəxş etsin. Nizami yazmağa dua ilə başlayır:

... Gecə və gündüz, axşam və səhər,
Sən yadımdasan, hər nəyi yad etsəm də,
Gecələr yuxuya getməzdən əvvəl,
Təsbehlə Sənin adını təkrar etməyə tələsirəm.
Gecə yarısı yuxudan oyanaramsa,
Səni çağırıram, göz yaşı tökürəm.
Səhər çağıdırsa, yolum Sənədir,
Gecə də, gündüz də pənahım Sənədir.
Gündüz də, gecə də Səndən kömək istəyirəm,
Məni bu işdə utandırma!
Ey hər işi qaydasına salan Allah, elə et ki, mən,
Möhtac olanlara möhtac olmayım!
... Sənin sayəndə ucalan baş,
Heç kəsin əyməsi ilə ayağa düşməz.
Sənin qəhrindən əyilən baş isə,
Heç kimin köməyi ilə ucala bilməz.
Bəli, Sənin işin bəndə yaratmaqdır,
Mənim işim də bəndəlik etməkdir.
... Əvvəl məni şükürə qovuşdur, sonra dövlətə,
Əvvəl mənə dözüm ver, sonra,
Dözə bilməyəcəyim bəlaları,
Məndən uzaqlaşdır, ey ədalətsizlikdən uzaq olan!
Əgər məni bir bəlaya mübtəla etmək istəsən,
Əvvəl mənə səbir ver, sonra bəlanı.
Hansı guşəyə düşsəm də, Sənə həmd və səna oxuyacağam,

Harada oluramsa olum, səni Allah biləcəyəm.(2,94-95)

Nizami deyir ki, varlığı Onun gözü ilə oxu, ancaq Ondan istə, Ona şərik qoşma, ibadət və itaətə layiq olan tək varlıq Odur:

... Səni arayanların açarı ona görə boşa çıxdı ki,
Səni öz ölçüləri ilə ölçmək istədilər.
Kim ki Səni Sənin gözünlə görmək istədi,
Bu boş vərəqlərin hamısını parçalayıb atar.
Səni ancaq Sənin vasitənlə axtarıb tapmaq olar,
Özü də gərək başqa qapılara baş vurmayasan.
Nəzər ancaq buraya qədər mənzilləri seçir,
Elə ki buradan ötdün, ürək qorxu ilə dolur.
Mən öz varımı, yoxumu Sənə tapşırdım,
Hesabımın artığını, əskiyini Özün bilərsən.(2,26)

Nizami zühd həyatı yaşadığını söyləyir. O, könlünü uca Allaha bağlamışdır, bir an (nəfəs) belə Ondan ayrılmaq istəmir. Deyir ki, istəsə idim, zühdün qapısını bağlayıb məclisə gedərdim, insanların sırasına qoşulardım, məclisi qızışdırardım, ancaq mənim ağacım guşədə kök atmışdır, yerindən qoparılsa, kökü quruyar (süst olar). Qırx çilədən və min xəlvətdən sonra məclisə getmək işə yaramaz, sel daşıb coşan zaman Reydən Buxaraya səfər lazım deyil. Xalqa nə qədər az görünsəm, o qədər yaxşıdır, Humay az-az göründüyü üçün humayun oldu.

Nizaminin zühd həyatı dində, elmdə, irfanda dərinləşmə, oxuma, öyrənmə, yazma həyatıdır. O, insanları cəhalət adlı düşmənin pəncəsindən xilas etmək üçün canını fəda edir, gecə-gündüz çalışır, həqiqəti tanıdır, doğru yolu göstərir.

Nizami çilə çəkdiyini söyləyir, deyir ki, insanı acılar yetişdirir, bu dünyadan mənə ancaq məlalət çatdı, xəlvət bir guşədə aram tutmuşam, evin qapısına uca səmalar kimi qıfıl vurmuşam, adam üzünə bağlıdır, bilmirəm ki, dövran necə keçir, yaxşıdan, yamandan dünyada nə keçir, "ölü bir şəxsəm, ancaq mərdanə gedirəm, bu dirilər karvanı ilə gedirəm, ancaq bu karvandan deyiləm", bir nəfəs çəkincə yüz ürək dərdi çəkirəm, uca Allahdan başqa kimsəyə möhtac olmaq istəmirəm, kaş imkanım ola idi, insanı insana möhtaclıqdan qurtara idim, xəlvətə çəkildiyim bu guşə "qan dairəsidir", nəfslə savaş meydanıdır.

Nizami xəlvətdə cihad halındadır, nəfsini məğlub etmək, qəlbini nəfsin əsarətindən qurtarmaq istəyir. Bilir ki, qəlb arınmasa, orada bakirə mənalar doğulmaz, canını (nəfsini) verməsən, mənanı ala bilməzsən, qəlbin soltanı olan uca Allah kirli qəlbə rəhmət, bərəkət və məna nazil etməz. Şair arınmaq üçün çilə çəkir, göz yaşından, üzünün sarılığından öz divarını palçıq samanla suvayır, arpa çörəyi yeyir, nəfsin müqavimətini qırdıqca ürəyi söz xəzinəsinə hamilə olur:

... Mən dünyanı oyunla başa vurmadım,
Yeməkdən, yatmaqdan savayı başqa işim də var idi.
Bir gecə də olsun, mən yatağa rahat girmədim,
Elmin yeni bir qapısını açmadan.
Qəlbim qadın deyil, bəlkə, çaxmaq daşıdır,
Məryəm tək boyludur, ancaq bakirədir.
Ər axtarmağa onun (qəlbimin) ehtiyacı varmı,
O, daşdan, dəmirdən atəş çıxarır... (2,46)

Nizami deyir ki, qəlb arınmasa, nəfs cilovlanmasa, varlığın uca Allaha təslim olmasa, bakirə mənalardan gözünü yığ, söz dəryasına tilov atma, bil ki, öncə cihad, sonra nemət ölçüsü var. Ucuz sözlərdən qaç, ömrünü israf etmə, dərin mənalar əmək istəyir, çalış, fədakar ol, axtar, yeni, gözəl söz demək mədəndən qızıl çıxarmağa bənzəyir, çox əziyyətli işdir, yetişmiş meyvən yoxdursa, onu bazara çıxarma:

... Bu gözəlin (sözün, əsərin) üstündən ipək örtüyü o vaxt götürərəm ki,
O uca xurma ağacı kimi yetişmiş olsun.
Əgər sən meyvəsi dəyməmiş bir ağaca çatsan,
Onu silkələməyə başlasan, demək, özün kalsan.
Kal əncir əzməklə yumşala bilər,
Ancaq yeyəndə ağzını qanadar.
Budaqda çiçəklər vaxtından qabaq gülməsə,
Ağac bol meyvə gətirər.
Torpağın ki sinəsi boş oldu,
Onun üstündə bina qurmaq olmaz...(2,47)

Nizami qəlbi arındırmağın yol və metodunu da göstərir:

... Öz qapımı camaatın üzünə suvamışam,
Burada öz taleyimə şad olmuşam.
Qırx gün öz noxtamı bərk tutdum,
Axı qırx gündə gönün aşılanması bitir.
Dörd balışda mən səbat görmədiyim üçün,
Bu dörd divarın içində oturdum.
Dəyirmanıma atılan hər bir arpaya,
Gövhərşünasa bir dürr qaytardım.
O söz yaradan sənətkara min afərin,
Ki, hər bir arpadan bir cövhər yaradır...(2,46)

Nizami öz dövründə və bu gün "şair saqidən, şərabdan, məclisdən çox danışır" deyərək ona kinayə edənlərə cavab verir. Deyir ki, bu məclis aşiqlərin, elm, irfan əhlinin məclisidir, mey də varlığını uca Allaha təslim edənlərin mükafatıdır, ilahi feyzdir, rəhmət yağışıdır, xeyir-bərəkətdir, mənadır. Sən aşiqləri və aşiqliyi doğru tanı, onlar uca Allah sevgisi ilə məst olmuşlar:

... Ey yollara qalib gələn Xızır, sanma ki,
Meydən mənim məqsədim meydir.
O meydir ki, mən onda dalğınlıq axtarardım,
O dalğınlıqla məclis düzəldərdim.
Mənim saqim-Allahın vədəsidir,
Səbuh-məst olmaq, mey-dalğınlıq üçündür.
Yoxsa Allaha and olsun, ömrümdə heç vaxt,
Dodağımın ucunu da şəraba bulamamışam.
Əgər mənim dodağıma cam dəyibsə,
Qoy Tanrının halalı mənə haram olsun!(2,42)

Nizami deyir ki, sevgi (eşq) uca Allahın nemətidir, cazibədir, nurdur, o, insanın qəlbini yuyar, onu mənəvi kirlərdən təmizləyər, tərbiyə edər, dəyişdirər. Sevgi gücdür, enerji qaynağıdır, o, insanın bəsirət gözünü açar, ona şəfqət, mərhəmət, səbir bəxş edər, sevdiyinə qovuşdurar. Sevginin ölçüsü itaətdir, sevən sevdiyinə itaət edər. Sevgi

hərəkətdir, fədakarlıqdır, sevən sevdiyinə hər şeyini fəda edər. Sevgi ümiddir, sevən yasa batmaz, inanar, çalışar, aktiv olar.

Nizami öz dövründə və bu gün "o, şahları tərifləmişdir" deyərək ona kinayə edənlərə cavab verir. Bir örnək verək. Şair Nüsrətəddin Əbubəkri tərifləməsinin səbəblərini açıqlayır, əslində, bir liderin özəlliklərini sayır: Güclüdür, ölkəsini qoruyur, xəzinəsi insanlara xidmət edir, qayğıkeşdir, nemətlər verir, əvəz istəmir, döyüşkəndir, cəsur sərkərdədir. İnsanları rifah içində yaşatdı, onun əməli ilə "ölkə yaşıllıq tapdı, cənnət oldu", düyünləri açdı, problemləri həll etdi, ədaləti minlərlə ölmüş könlü diriltdi, xeyir işin dalınca getdi, xeyirxah oldu, uca Allahı unutmadı, fateh idi:

... Bunlardan başqa mən səndə yenə altı xislət görürəm,
Qoy onlar aydan-aya, ildən-ilə möhkəmlənsin.
Biri odur ki, öz bəzəkli xəzinəndən,
İstənilməmiş arzuları belə verirsən.
İkincisi – sənin kərəminin (insanlığının) ölçüsü yoxdur,
Özü də haqqını biləndən əvəz istəməzsən.
Üçüncüsü – ürəyin şəfqətlə bəzənib,
Məzlumu sən dada çatdırırsan.
Dördüncüsü – sən bayrağı Sürəyyaya taxmısan,
Xurşid kimi qoşunu təkbaşına qaçırdırsan.
Beşinci odur ki, müqəssir üzr istəyərsə,
Öz kərəminlə onun günahını, əfv edərsən.
Altıncısı-əhdə, peymana sadiq qalmaqdır,
Vəfadarlığı heç vaxt unutmamaqdır.
Altı cəhət qoy sənin nurundan məhrum olmasın,
Sən bu altı xislətdən uzaq olmayasan!(2,56)

ƏDƏBİYYAT

1. Nizami Gəncəvi, "Xosrov və Şirin" (filoloji tərcümə, izahlar və qeydlər filologiya elmləri doktoru, professor Həmid Məmmədzadənindir), "Elm" nəşriyyatı, Bakı, 1981.
2. Nizami Gəncəvi, "İskəndərnamə" (filoloji tərcümə, izahlar və qeydlər filologiya elmləri doktoru, professor Qəzənfər Əliyevindir), "Elm" nəşriyyatı, Bakı, 1983, səh. 45.
3. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s)", I kitab, "Nafta-Press", Bakı, 2006;
4. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s)", II kitab, "Nafta-Press", Bakı, 2008;
5. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s)", III kitab, "Nafta-Press", Bakı, 2009;
6. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin yaradıcılığında peyğəmbərlik anlayışı və Həzrət Məhəmməd (s.a.s)", IV kitab, "Nafta-Press", Bakı, 2010;
7. *Hacı S.* "Həzrət Nizami Gəncəviyə görə, insan qəlbinin həqiqətləri", V kitab, "Nafta-Press", Bakı, 2012;
8. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" dastanındakı ilk dörd məqalənin şərhi" VI kitab, "Nafta-Press", Bakı, 2013;

9. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" dastanındakı V-IX məqalələrin şərhi" VII kitab, "Nafta-Press", Bakı, 2014;
10. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" dastanın şərhi (X-XIII məqalələr)" VIII kitab, "Nafta-Press", Bakı, 2015.
11. *Hacı S.* "Həzrət Nizami Gəncəvinin "Sirlər xəzinəsi" insanlığın ana yasasıdır", "Nurlar", Bakı, 2015.

SIRAJEDDIN HAJI

NIZAMI GANJAVI'S LITERARY PERSONALITY

SUMMARY

In the article Nizami Ganjavi's literary personality is investigated in the new values light. The author mentions that in order to learn Nizami's heritage one must definite the sources correctly. Nizami is a scientist of religion, philosopher, wise man, lover, the poet of mysticism. His aim is to form "Paradise home", it means to build the peace, love, mercy, charity, justice home. The poet says that the first term of forming the "Paradise home" is to bring up the scientific, faithful person. That is why the values are needed. At the same time the principles of mysticism education system are also investigated in the article.

СИРАДЖЕДДИН ГАДЖИ

ЛИТЕРАТУРНЫЙ ОБЛИК НИЗАМИ ГЯНДЖЕВИ

РЕЗЮМЕ

В статье изучается литературный облик Низами Гянджеви в свете новых ценностей. Автор подчеркивает необходимость правильного определения источников, связанных с поэтом для изучения наследия Низами. Низами – ученый религии, философ, мудрец, влюбленный, поэт учения. Его цель, построить на земле «дом Благодати», то есть., дом мира, любви, милосердия, доброты, справедливости. Поэт считает первым условием строения «дома Благодати», воспитание умного, ученого, благоверного человека. И по этой причине есть потребность в ценностях.

Rəyçi: Hümmətova Xuraman
filologiya üzrə fəlsəfə doktoru, dosent

PhD VAZEH ƏSKƏROV
Azərbaycan Dillər Universiteti
vazeh.asgarov@adu.edu.az

LA LITTERATURE AZERBAÏDJANAISE DE L'EMIGRATION

Açar sözlər: *ədəbiyyat, diaspora, sosiologiya, miqrasiya, mühacirət, əhalinin köçü, inteqrasiya, tarix,*
Keywords: *literature, diaspora, sociology, migration, immigration, population movement, integration, history,*
Ключевые слова: *литература, диаспора, социология, миграция, иммиграция, движение населения, интеграция, история*

Tout d'abord, nous précisons qu'il existe deux types de la publication: sur l'émigration et sur l'immigration. Toutes les deux trouvent leurs origines à la même période sauf que la première était éditée par les émigrants eux-mêmes alors que la deuxième par les auteurs étrangers.

Les changements politiques du début de XXème siècle en Russie liés à des révolutions et de guerre causèrent l'émigration de la population. Une fois le pouvoir soviétique établi dans l'ancien Empire russe, des milliers des gens quittent le pays. En créant différentes associations, les immigrés pensèrent aussi à unir leurs forces contre le bolchevisme. Cette période de l'immigration des années 1920 et 1930 est distinguée de celle de la précédente et suivante, car la plupart représentant de cette vague étaient les anciens leaders de leur pays. En Azerbaïdjan, l'intelligentsia – les fondateurs de la République Démocratique Azerbaïdjanais en se sauvant de la poursuite politique, la terreur, les supplices choisirent le départ du pays. Certains intellectuels de la répression des années 1930 et les prisonniers de la Deuxième Guerre mondiale ajoutèrent au rang des émigrants précédents. Plusieurs d'entre eux, ainsi que leurs enfants vivent aujourd'hui dans le monde entier.

La vie des émigrants azerbaïdjanais était avec pleine de difficultés. Cela s'explique non seulement avec des soucis matériels, mais aussi des commotions morales de sorte que les émigrants subissaient la pression, le harcèlement, la terreur de l'URSS par la voie diplomatique dans le pays d'accueil. Par exemple : entre 1930 et 1931 après l'échange des visites des ministres des Affaires étrangères de la Turquie et de l'URSS, il est décidé de mettre fin aux activités des organisations locales menant des propagandes contre l'un à l'autre. Déjà en 1927, *Türk ocaqları* et son organe *Türk Yurdu* ferma et le siège de la Comité du Caucase de Turquie déplaça en 1926 vers Paris. De même année, *Yeni Kafkasya* arrêta sa publication. Le plan de commencer la publication de revue *Caucase Indépendant* échoua. À cette période M. E. Rasoulzade et M. B. Memmedzade sont obligés à quitter la Turquie. En 1931, *Odlu Yurt, Bildirich, Azeri-Türk, Yeni Türkestan* furent suspendus (Tahirli, 2007). Les relations de Ahmed bey Ağaoğlu et Mustafa Kemal se dégradèrent. Un autre fait de la pression finira avec la mort de Major Dudenguinski, Fetelibeyli par un espion de NKVD Michel (Mikayil Ismaylov) (Yagublu, 2008).

Tout cela n'était pas les meilleures conditions pour la lutte contre le bolchevisme. Pourtant, rien ne pouvait pas empêcher de mener la lutte idéologique aux

émigrés jusqu'à la fin en laissant un héritage historique le plus riche. Ce n'est pas par hasard que le chercher A. Tahirli (2002) compare la qualité et la quantité de l'activité pratique et théorique de l'émigration azerbaïdjanaise avec celle de l'immigration russe et ukrainienne. Ici, nous voudrions parler de la littérature azerbaïdjanaise à l'immigration.

La littérature azerbaïdjanaise à l'immigration est née au début du XXe siècle et a passé une évolution difficile. Elle fut composée par les écrivains azerbaïdjanais se trouvant à l'émigration en raison du cataclysme de la période politico-social et surtout avec la soviétisation de l'Azerbaïdjan. Notons que jusqu'à la création de la littérature à l'immigration il exista déjà les écrivains azerbaïdjanais qui participèrent dans la publication comme M. Shahtakhtinski 1873-1875 et 1889-1902 à Paris, R. Akhoundov 1873 à Bruxelles, A. Ağaoğlu 1885-1894 à Paris. Pourtant, toutes ces personnes se trouvèrent à l'étranger pour la poursuite de leurs études.

Aujourd'hui, grâce à certains livres publiés par les auteurs depuis la deuxième indépendance, nous trouvons la richesse du patrimoine littéraire et culturel créé par les migrants Azerbaïdjanais au cours du siècle dernier. Et chaque auteur divise cette période de l'histoire différemment.

Hassan Quliyev (2004) distingue deux périodes différentes de la littérature à l'émigration: la première commençant le début du XXe siècle avec des publications de Ali bey Houseynzade, Memmed Emin Rasoulzade, Ahmed bey Ağaoğlu, Mohammed Hadi etc. et terminant avec la soviétisation et la deuxième après la chute du RDA avec l'apparition des nouveaux émigrants intellectuels comme Banine, Almas Ildrim, D. Hadjibeyli, Y.Vezirov (Tchemenzemenli), A. Toptchibachi, etc.

Aliheydar Atakichiyev présente quatre phases principales de la publication à l'immigration. L'auteur commence à distinguer la période de 1909, dès la révolution de Jeunes-Turcs jusqu'à la chute de RDA. La période de 1920-1941, dès la bolchevisation jusqu'à la Deuxième Guerre mondiale. La période de la guerre froide et la nouvelle époque de la deuxième indépendance (1945-1991) sont présentées dans différentes phases (Ibrahimli,1996).

Les journaux et revues publiés par le parti Musavat en exil

Nom	Année	Pays
Yeni Kafkasya journal	1923-1928	Turquie
Azeri Turk journal	1928-1929	Turquie
Odlu Yurdu journal	1929-1931	Turquie
Bildirish journal	1930-1931	Turquie
Azerbaycan Yurd Bilgisi journal	1932-1934	Turquie
Istiklal journal	1932 - ?	Allemagne
Kurtulush journal	1934-1938	Allemagne
Musavat bulletin	1936-?	Pologne, Turquie

Azerbaijan	1952- aujourd'hui,	Turquie

Tahirli Abid (2007) *Azərbaycan mühacirət mətbuatı (1921-1991) (La littérature azerbaïdjanaise à l'émigration),* Bakı, Çinar Çap.

Abid Tahirli a consacré quelques livres de la publication à l'immigration. Le chercheur présente beaucoup d'information sur différentes publications à l'étranger comme *Yeni Gafgaziya, Azəri Türk, Odlu Yurd, Bildiriş, Azərbaycan Yurd Bilgisi, İstiqlal, Gurtuluş, Gafgaz, Prometey, Azərbaycan* aux totales 66 publications dont la plupart éditées en France, en Allemagne et en Turquie. En même temps on trouve une centaine des noms émigrants participant dans la publication comme M. E. Rasoulzade, M. B. Memmedzadé, H. Baykara, A. Ağaoğlu, A. Housseynzade, D. Hadjibeyli, A. Toptchibachi, A. Djafaroglu, A. Dudenguinski, S. Rustembeyli (Tahirli, 2002, 2003).



Source : photo d'archives R. Aboutalibov

Nous ne pouvons pas imaginer le développement de la vie associative sans la publication. Les revues et les journaux ne diffusent pas seulement pour l'information, mais aussi pour rassembler les émigrés sous la même idéologie et propager entre eux. La première publication à l'immigration est liée au nom de M. E. Rasoulzade. Ayant assez de l'expérience dans ce domaine et comprenant la nécessité et l'importance de la publication, il commença l'édition de *Yeni Gafgazya*. Certains chercheurs azerbaïdjanais considèrent le journal *Yeni Gafgazya* (Nouveau Caucase), publié en 1923 au mois de septembre à Istanbul sous la direction de M. E. Rasoulzade et sous la rédaction de Saïd Efendi, comme le premier journal à l'émigration. D'après eux, le livre de M. B. Memmedzadé *Le Mouvement National de l'Azerbaïdjan* reste le premier publié sur l'émigration. Concernant *Yeni Gafgazya* M. B. Memmedzadé lui-même écrivit : *la publication nationale commencée par Yeni Gafgazya, qui était non seulement*

la première revue des Azerbaïdjanais, mais aussi de tous les Turcs, restera comme une carte de visite dans la résistance nationale de l'indépendance (Ibrahimli, 1996: 119). Certains autres comme Abid Tahirli (2002), qui a beaucoup étudié l'histoire de l'émigration pense que le journal *Molla Nesreddin (Hoca Nəsrəddin)* continuant sa publication en 1921 à Tabriz sous la direction de Mirze Djalil reste le premier journal de l'émigration. À la suite des pressions, l'arrêt de la publication d'une revue accompagnera avec l'ouverture d'un autre en Turquie. *Yeni Gafgazya* a été publié jusqu'au 1927 et en 1928, la revue *Azəri Türk* qui prendra sa relève. Entre 1929 et 1931, sous la rédaction en chef de M. E. Rasoulzade édite *Odlu Yurd.* Dès le 1930, l'hebdomadaire *Bildiriş* entre dans l'histoire de la publication en tant que la première revue politique. Par contre, en 1931, *Azərbaycan Yurd Bilgisi* a engagé sa publication loin de la politique et en 1934, elle a arrêté sa publication. En 1931, le départ de plusieurs des émigrants Azerbaïdjanais de la Turquie mettra une nouvelle période de la publication dite *européenne.* Le 10 décembre 1932, *İstiqlal* commence sa publication à Berlin (Ibrahimli, 1996 : 120).

Tahirli (2002, 2003, 2007) montre dans ses recherches que la publication à l'étranger sur l'émigration commença déjà par le grand idéologue, publiciste, poète, interprète et immigré lui-même, Ali bey Huseynzade (1864-1940). Étant étudiant à Istanbul, à la fin des années 1980 du XIXème siècle, il commence à publier ses premiers articles dans les journaux. L'auteur cite aussi le nom du grand turcologue Ahmed bey Ağaoğlu qui a fait ses études à Paris et a publié ses articles dans des journaux à la fin des années 1990 du XIXème siècle. À la différence de la publication, le journalisme azerbaïdjanais à l'émigration a débuté de paraître en 1884 à Paris dans la revue *al-Urwat al-Wuthqa* publiée en arabe grâce au travail commun de Djamal Eddine Afghani et Mohammed Abdahla. Djamal Eddine Afghani (1838-1897), l'homme politique et le théoricien révolutionnaire, turcologue, qui a influencé beaucoup sur la renaissance spirituelle et sur la mentalité culturelle de l'Orient.

Concernant la question de la publication à l'étranger, on peut citer les grands travaux effectués par les délégués du RDA (République Démocratique d'Azerbaïdjan). Ils sont partis à Paris pour participer aux conférences de Versailles en 1919 et ne sont jamais revenus au pays. Entre mai 1919 et avril 1920, ils ont réussi à publier 3 livres, 12 bulletins, une carte géographique de l'Azerbaïdjan, ainsi que beaucoup d'articles dans les plusieurs journaux parisiens. Le grand succès de ces délégués était, le 10 janvier 1920, la reconnaissance *de facto* de la République Démocratique d'Azerbaïdjan (Həsənli, 2008).

BIBLIOGRAPHIE

1. Axundov Rəşid bəy (2003), *Məktublar, sənədlər, tərcümələr, məqalələr (Lettres, documents, traductions, articles)*, Bakı, Nurlan.
2. Altstadt Audrey L. (1992) *The Azerbaijani Turks: Power and Identity under Russian,* Rule, Hoover Institution. Stanford University, Studies of Nationalities in the USSR Series.
3. ArzumanliI Vagif (2001), *Azerbaycan Diasporu* (*Diaspora d'Azerbadjan*), Bakou, Qartal.
4. Balçi Bayram (2008), *La place de la « diaspora » azerbaïdjanaise dans la politique de l'Azerbaïdjan postsoviétique : esquisse d'analyse*, EurOrient, 28, pp. 185-204.

5. Constant Antoine (2002) *L'Azerbaïdjan*, Karthala (Méridiens), Paris.
6. İbrahimli Xaleddin (1996), *La politique d'immigration d'Azerbaïdjan, (1918 - 1991),* Bakou, Elm.
7. Məmmədzadə Mirzə Bala (2007), *Köylü hərəkatı, Leninin milli siyasəti (Mouvement paysan, la politique nationale de Lénine),* Bakı, édition inconnue.
8. Svyataçovski Tadeuş (2000), *Rusiya və Azərbaycan : sərhədyanı bölgə keçid dövründə (Russie et Azerbaïdjan : la région frontalière au cours de la période de transition)*, Bakı, Xəzər Universitəsi
9. Tahirli Abid (2002), *Azərbaycan mühacirəti mətbuatı I hissə (La littérature azerbaïdjanaise à l'émigration Ier partie),* Bakı, QAPP-Poloqraf.
10. Tahirli Abid (2003), *Azərbaycan mühacirəti mətbuatı II hissə (La littérature azerbaïdjanaise à l'émigration IIème partie),* Bakı, Ozan.
11. Tahirli Abid (2005), *Azərbaycan mühacirət mətbuatında publisistika (1921-1991) (La publication de la littérature azerbaïdjanaise à l'émigration),* Bakı, CBS.
12. Tahirli Abid (2007), *Azərbaycan mühacirət mətbuatı (1921-1991) (La littérature azerbaïdjanaise à l'émigration),* Bakı, Çinar Çap.
13. Yaqublu Nəsiman (1999), *Azərbaycan milli istiqlal mübarizəsi və Məmməd Əmin Rəsulzadə (La lutte pour l'indépendance nationale et Memmed Emin Rasoulzade),* Bakı.
14. Yaqublu Nəsiman (2005), *Azərbaycan legionerləri (Les légionnaires d'Azerbaïdjan)*, Bakı, Cıraq.
15. Yaqublu Nəsiman (2008), *Əbdurrıhman Fətəlibəyli-Düdənginski*, Bakı, Adiloğlu.
16. Гулиев Гасан (2004), *Эмигрантская литература азербайджана*, Баку, Нурлан.

VAZEH ƏSGƏROV

AZƏRBAYCANIN MÜHACİR ƏDƏBİYYATI

XÜLASƏ

Azərbaycan mühacir ədəbiyyatı XX əsrin əvvəllərində yaranmağa başlamışdı. Buna baxmayaraq sovet dövründə bu mövzu uzun müddət əlçatmaz qalmış və yalnız 1980-ci illərin sonları tədqiqatçıları maraqlandırmağa və öyrənilməyə başlamnılmışdır. Bu məqalədə həmin dövrdən bu günə qədər mühacirətdə dərc olunmuş müxtəlif nəşrlər haqqında məlumat verilir.

ВАЗЕХ АСКЕРОВ

АЗЕРБАЙДЖАНСКАЯ ЛИТЕРАТУРА ЭМИГРАЦИИ

РЕЗЮМЕ

Азербайджанская литература эмиграции начала формироваться вначале XX века. Тем не менее, эта тема оставалась труднодоступной в советскую эпоху и лишь с конца 1980-х годов стала объектом внимания и изучения исследователей. В этой статье дается информация о выходе с этих самых пор поныне различных публикаций в эмиграции.

Rəyçi: Maigari Maigari

ЧИЧЕК ЭФЕНДИЕВА
к.ф.н., доцент Института Фольклора НАНА

«…УБУДИ ЖИРНЯ ВРЕМЕНА» И «… ДАЖЬБОГ»

Açar sözlər: *«İqor polku dastanı», 'gizli yerlər', qədim rus abidəsi, '...çətin dövrü oyandırdı', 'Dajbog'*
Key words: *"The epos about Igor regiment", "secret places", ancient Russian monument, "awaken the difficult period", "Dajbog"*

Данная статья является продолжением предыдущей статьи «Была ли Дева…» (Эфендиева, 2014, 40-49). В этом исследовании мы рассматриваем выражение «*…убуди жирня времена*» и *«…Дажьбог».*

1.Уже бо, братие, не веселая година въстала,
уже пустыни силу прикрыла.
Въстала обида въ силахъ *Даждьбожа* внука,
вступила девою на землю Трояню,
въсплескала лебедиными крылы
на синемъ море у Дону;
плещучи, упуди жирня времена.
Усобица княземъ на поганыя погыбе,
рекоста бо братъ брату:
"Се мое, а то мое же".
И начяша князи про малое
"се великое" млъвити,
а сами на себе крамолу ковати.
А погании съ всехъ странъ прихождаху съ побъдами
на землю Рускую» ;
Уже ведь, братья, невесёлое время настало,
уже пустыня войско прикрыла.
Встала обида в войсках *Дажьбожьего* внука,
вступила девой на землю Троянову,
восплескала лебедиными крылами
на синем море у Дона, плескаясь,
прогнала времена обилия.
Борьба князей с погаными прервалась,
ибо сказал брат брату:
"Это моё, и то моё же".
И стали князья про малое
"это великое" молвить
и сами на себя крамолу ковать,
а поганые со всех сторон
приходили с победами на землю Русскую» (Лихачев, 1984, 50, 170).

В данном отрывке О. Сулейменов обращает внимание на слово «*жирня*» и это выражение переводит следующим образом:

Поднялась Обида
В силах Дажбожия внука,
Девой вступила на землю Троянову;
Всплескала крылами лебедиными
На синем море у Дона купаючись, разбудила времена *жирня*.

Здесь опять встречаемся со случаем превращения сочетания «къ» в «я» («повелекъ» - «повелея»). О. Сулейменов считает, что в рукописях часто путаются «к» и «н» из-за графической схожести. Все это сводится к тому, что данное слово, по мнению О. Сулейменова, является тюркским по происхождению. «Жирикъ» - разрыв, в переносном смысле – «раздор» (казахский язык). Происхождение слова прозрачно: *жирт* «разорви», *жира* «место разрыва»; *жирикъ* «разрыв, раскол, раздор»: «обида возбудила времена раздора» (Сулейменов, 1989, 455).

В «Толковом словаре» В. Даля, в «Словаре русского языка» указано несколько значений слова *жиръ*: одно из значений в переносном смысле «богатство, достаток, избытокъ, роскошь; самонадеянность, спесь и лишние затеи» (Даль, 1978, т.1, 543; СлРЯ, 1978, вып.5, 113).

Слово *жир* также зафиксировано в «Словаре» М. Фасмера, где даются несколько вариантов этимологии данного слова: «Согласно Миклошичу *жиръ* связано с *жить* (Фасмер, 1986, т.2, 56). Заслуживает внимание точка зрения Эндзелина, согласно которой церковно-славянский *жиръ* vopŋ связано с *житеь*. Значение «корм, птица» делают связь славянских слов со словом *жить* наиболее вероятной. Сравни со словами *жировать*, *жировой*: 1. означает «жить роскошно, кутить». 2. жировой черт «домовой». Н. В. Подольская считает, что этимологическая связь основы *жир* с *жити* и основные значения *жир*, связанные с *жирный*, *жировой*, делает возможным использование этой основы как в антропонимии, так и в топонимии. В старорусском языке отмечены омонимы *жиръ* со значениями; «богатство, довольство, пастбище»; переносн. смысле «излишек, избыток», жилье, помещенье, подстройка. Топоним - Жирки, Жиричі (украинск.) (Подольская, 1983, 141-143).

Как видно, все это не подтверждает гипотезу О. Сулейменова. Кроме того большинство исследователей так переводят: «прогнала *золотые* времена», «возвратились времена *богатые*», «bolluq illərini didərgin saldı» и т.д. (Cəfərov, 1964, 21). Хотя Мусин-Пушкин иначе переводит данную фразу: «*разбудила времена тяжкие*» («Слово», 1987, 131). Однако большинство исследователей «убуди жирня времена» так переводят: «пробудила времена довольства, благополучия», а между тем после этого рисуется картина «погибели, разрухи». Чтобы погасить возникающее противоречие, делалась попытка объяснить *жирные* времена как пагубные. А после еще более уточнили данное место, а именно внесли грамматическую поправку слова: вместо *убуди* читают *упуди*, то есть она – Дева-Обида «прогнала счастливые времена».

По мнению И. Новикова, внешнее противоречие тогда якобы устраняется, но по сути дела данное место лишается всякого смысла. Не «Обида» прогнала «довольство былое»: это результат поражения Игоревых войск, и сама Обида возникла лишь как последствие наставших тяжелых времен. И потому никакого сомнения в верности употребления слова «убуди» возникать не должно («Слово о полку Игореве», 1938, 91-92). Правда, И. Новиков все же переводит: «пробудила

тоску по временам былого довольства», но в то же время он не уверен в своей правоте.

Таким образом, перевод Мусина-Пушкина и гипотеза О. Сулейменова о палеографической описке дают нам право предполагать, что здесь употреблен тюркизм *жирикъ* (казахск.) «разрыв, раскол, раздор»: «обида *разбудила времена раздора*».

2. Другим «темным местом» в «Слове о полку Игореве», по мнению О. Сулейменова, является слово *Даждь-Бог*, то есть «половцы и русские не понимали слова «Дашти». Книжники соотнесли его с именем египетского бога Даждь и увидели близость. Таким образом, жители Дашти–кипчака могли превратиться в потомков Даждь-бога. Книжники, по христианской традиции производили славян от Яфета, сына Ноева, а степные народы – от сыновей благословенного праотца - Сима и Хама. От последнего произошли, по христианской генеалогии, египтяне. По мысли книжника, если египтяне поклонялись некогда Даждь-богу, то и половцы имеют в корнях отношение к оному. Способствовать этому могло и название южнорусских степей «Дашти-кипчак» (то есть страна кипчаков)» (Сулейменов, 1989, 470). Как видно, язык «Слово» сложен и поэтому переводчики не поняв, что же хочет сказать автор произведения, по-своему переводили «темные места». Одним из таких переводчиков является Г. Джафаров. В его переводе данного отрывка слово *Дажьбожьи* отсутствует (Səfərov, 1964, 21).

Итак, правомерно ли данное предположение О. Сулейменова?

Дажьбог, Даждьбог, в восточнославянской мифологии бог, связываемый с солнцем; Идол Дажьбога стоял на холме в Киеве. Предполагается, что имя Дажьбога образовано сочетанием глагола «дать» и слова «бог». В «Слове» Дажь-божьи внуки – это русские, покровителем и родоначальником которых считался Дажьбог.

Восточнославянскому Дажьбог соответствовал, видимо, Дабог, у южных славян и Dacbog у западных славян («Мифы народов мира», 1991, т. 1, 347; Лихачев, 1967,81; Виноградова, 1967, вып. 2, 10; «Слово о полку Игореве», 1987, 333; Робинсон, 1980, 299; Рыбаков, 1991, 70).

По алтайскому поверью, Яра-чичен, в киргизских сказаниях – Джиренше – шешен (чичен, шишен - мудрец): показал смерть людям и первый установил брак: до него девицы не выходили замуж, а люди плодились как животные, и не знали смерти. По Ипатьевскому списку Несторовой летописи (то есть в «Повести временных лет») написано, что закон «женам за един муж посягати», то есть установил Сварог, отец Дажь-бога - солнца (Потанин, 1899, 733). Сварога и Дажьбога почитают за то, что они установили единобрачие («Слово о полку Игореве», 1962, 312).

И. Новиков считает, что «Дажбожий - весь русский народ. Дажбог – языческое божество у славян: доброе, дающее изобилие жизни» («Слово о полку Игореве», 1938, 89). Н. А. Баскаков считает, что «Дажьбог – древнерусский бог урожая» (Баскаков, 1985, 137).

В «Словаре» В. Даля также указано, что «Дажбогъ - один из богов славянской боговщины; богъ жатвы?» (этот знак говорит о некотором сомнении, то есть какой именно бог – Э.Ч.) («Слово о полку Игореве», 1938, 89). Этимология

данного слова дана в словаре М. Фасмера: «Дажьбог – языческий бог солнца. Это имя объясняется из древнерусского дажь «дай» и богъ «счастье, благосостояние», то есть «дающий благосостояние». Фасмер не приемлет толкование Ягича из звательной формы: дажь боже «дай бог!». Неприемлема попытка Ф. Е. Корша и Погодина выделить в первой части слова, родственное готский язык dags «день», др.- инд. dahas «пожар, жара», литовск.язык dagas «пожар» (Фасмер, 1986, 482).

В. И. Стеллецкий в комментарии «Слова» выводит слово Даждьбож из *дажь* (<dagi), литовский язык *degu* «горю», *dagas*, *daga* «жатва», итого Даждь-бож-бог плодородия» («Слово о полку Игореве», 1965, 145).

Как видно из вышеизложенного, некоторые пишут – Дажьбог, а другие – Даждьбог. Именно в эпоху южнославянского влияния XV-XVI вв. сочетание [жд] сделалось одним из наиболее ярких фонетико-лексических показателей книжного литературного языка по сравнению с «просторечием». В древнерусской письменности, в том числе и в XII в., при переписке церковных книг оно систематически вытеснялось [ж]. Замена [ж] через [жд] в известном нам тексте принадлежит писцу XV-XVI вв.

Например, «порождено, междю, прихождаху, нужда, вижду, побъждаютъ, жаждею. Даже *Дажьбог* выступает один раз в форме *Даждьбог*, между тем, как [ж] в этом названии происходит из [г] и никаких оснований для написания [жд] здесь нет (Якубинский, 1953, 324, 339).

Кроме этого, Л. П. Якубинский указывает, что в первой части слова *Дажьбог* мы имеем *дажь* < *dagu*, то есть тот же корень, что и в литовском языке *degu* «горю», *dagas*, *daga* «жатва», готский язык *dags* «день», *tag* «день», албанский язык *djeg* «зажигаю». Таким образом, в представлении Дажьбога соединялось представление о боге-солнце, о боге-огне, о боге-дне, о боге-плодородия.

Учитывая вышеуказанные толкования и этимологии слова – *Дажьбог*, мы считаем, что гипотеза О. Сулейменова малоубедительна.

ЛИТЕРАТУРЫ

на русском языке:

1. Баскаков Н. А., Тюркская лексика в «Слове о полку Игореве». Москва, «Наука», 1985.
2. Лихачев Д. С., «Слово о полку Игореве» - героический пролог русской литературы., Ленинград, 1967.
3. Лихачев Д. С., «Слово о полку Игореве»: Древнерусский текст., Москва, «Просвещение», 1984.
4. Мифы народов мира. Энциклопедия., гл.ред., Москва, «Советская Энциклопедия», т. 1, 1991.
5. Подольская Н. В., Типовые восточнославянские топо-основы. Словообразовательный анализ., Москва, 1983.
6. Потанин Г. А., «Восточные мотивы в средневековом европейском эпосе», Москва, 1989.
7. Робинсон А. Н., Литература Древней Руси в литературном процессе средневековья XI-XII вв., Москва, 1980.

8. Рыбаков Б. А., Петр Бориславич. Поиск автора «Слово о полку Игореве», Москва, «Наука», 1991.
9. «Слово о полку Игореве», /перевод Новикова И. М./, «Художественная литература», Москва, 1938.
10. «Слово о полку Игореве» - памятник XII в. Москва-Ленинград, 1962**.**
11. «Слово о полку Игореве», (под.ред. Стеллецкого В. И.), Москва, «Просвещение», 1965.
12. «Слово о полку Игореве», (сб.ст), Москва, 1987.
13. Сулейменов О., «Аз и Я» в кн. Публицистика. Поэмы. Эссе. Стихи. Проза., Алма-Ата, «Жалын», 1989.
14. Эфендиева Ч., Ещё раз о «тёмных местах» в древнерусском памятнике XII века «Слово о полку Игореве» // Межвузовский сборник научных статей «Актуальные проблемы изучения гуманитарных наук», Баку, «Бак. Слав. университет», № 2, 2012.
15. Эфендиева Ч., «Под трубами спеленуты…» // Filologiya məsələləri, №3, Bakı, «Elm və təhsil», 2013.
16. Эфендиева Ч., «Была ли Дева…» // Folklorşünaslıq məsələləri, c.12, №1, Bakı, «BDU», 2014.
17. Якубинский Л. П., История древнерусского языка, Москва, «Учпедгиз», 1953.

На азербайджанском языке:

18. «İqor polku Dastanı», //tərcümə edən Q.Cəfərov //, Bakı, 1964.
19. «İqor polku Dastanı» //tərcümə edən Q.Cəfərov //, Bakı, 1989.

СЛОВАРИ

20. Виноградова, В. Л., Словарь – справочник «Слово о полку Игореве», Москва-Ленинград, «Наука», вып.1, 1965; вып. 2, 1967; вып. 3, 1969; вып. 4, 1973; вып. 5, 1978; вып. 6, 1984.
21. Даль В. И., Толковый словарь живого великорусского языка, Москва, «Русский язык», т. 1, 1978; т. 2, 1972; т. 3-4, 1980.
22. Словарь Русского языка XI-XVII вв., (под ред. Бархударова С. Г.), Москва, «Наука», вып. 1-18, 1975- 1992.
23. Словарь Русского языка (под ред. Евгеньева А. П.), Москва, т. 1, 1981.
24. Срезневский И. И., Материалы для древнерусского языка., Москва-Ленинград, «Ин.Нац.Слов», т. 3, стб. 1389, 1912.
25. Фасмер М., Этимологический словарь русского языка., Москва, «Прогресс», т. 1, т. 2.- 1986; т. 3, т. 4 - 1987.

ÇİÇƏK ƏFƏNDİYEVA

"...ÇƏTİN DÖVRÜ OYANDIRDI" VƏ "DAJBOG"

XÜLASƏ

Bu məqalədə "İqor polku dastanı" (XII əsr) əsərində başqa iki mübahisəli yer olan «…убуди *жирня* времена» və «… *Дажьбог*» tədqiq olunur. Tədqiqatçıların əksəriyyəti bu 'gizli yeri' '...bolluq dövrünü qovdu' olaraq tərcümə etmişdilər. Lakin biz tədqiqatçıların həmin yerlə bağlı çoxlu variantlarının araşdırma nəticəsində bu

qənaətə gəldik ki, «…упуди *жирня* времена» yerini '...çətin dövrü oyandırdı'kimi tərcümə etmək lazımdır.

O. Suleymenovun *Dajbog* düzgün oxunmamış 'Daşti' sözünə aid olan variantı əsassız oldu və bunu da XII əsrin qədim rus əsərinin mətni sübut edir.

CHICHEK EFENDIYEVA

"AWAKEN THE DIFFICULT PERIOD" AND "DAJBOG"

SUMMARY

In this article two disputed matters "... awaken the difficult period" and "Dajbog" which are "secret place" except "The epos about Igor regiment" (the 12th century) are investigated. Many of investigators have translated this "secret place" as "awaken the abundant period". But in the article the author investigating many variants about that place gives her result as the translation "awaken the abundant period" is right as "awaken the difficult period" by O. Suleymenov, but the author considers that the word "Dajbog" having read incorrectly as "Dashti" by O. Suleymenov is groundless.

ŞƏBNƏM MƏMMƏDOVA
Gəncə Dövlət Universiteti
shebnemmammadova@yahoo.com

BRONTE AİLƏSİ FENOMENİ

Açar sözlər: *avtobioqrafizm, mənəvi irs, ədəbi ənənə, təhkiyyə, stereotip*
Key words: *autobiographism, spiritual heritage, literary tradition, narration, stereotype*
Ключевые слова: *автобиографизм, духовное наследие, литературная традиция, повествование, стереотип*

Mübaliğəsiz demək olar ki, Bronte bacılarının əsərləri ilə tanış olan hər bir insan onların sənətinə biganə qalmamış və yaratdıqları əsərlər zamanından asılı olmayaraq xatirələrdən silinməmişdir. Bronte bacıları ədəbiyyata yeni bir həyat, yeni bir məzmun və mündərəcə bəxş etmiş və ədəbiyyat isə öz növbəsində bu inqilabın müqabilində onalara öz töhfəsini vermiş - onlara əbədi bir həyat, bir ölməzlik gətirmişdir. Və nəticə etibarı ilə hər ikisi – Bronte bacıları da, ingilis ədəbiyyatı da ingilis mədəniyyəti və sənəti tarixinə yeni bir səhifə yazdılar - məhz mədəniyyətinə, təkcə ədəbiyyatına yox. Çünki saysız-hesabsız roman təlqinlərdən başqa Bronte ailə üzvlərinin "baş qəhrəman" obrazında çıxış etdikləri pyes və povestləri, eləcə də "Ceyn Eyr" və "İldırımlı aşırım" əsərləri kino və teatr tamaşalarının meydana gəlməsinə səbəb olmuşdur. Xourtda doğulub boya-başa çatdıqdan sonradan ingilis miqyası kəsb etdilər, sənət kəhkəşanında Qərbin yeni, parlaq ulduzları tək şəfəq çaldılar və nəhayət, həyatlarının və sənətlərinin əlçatmaz zirvə çağları onları bəşəriyyətin övladlarına çevirdi. Qeyri-adi təfəkkür, istedad və qüdrət sahibi olan Bronte ailə üzvlərinin əsərləri onların mənəvi güclərinin hansı müqavimətə sahib olmasının mənəvi təsdiqidir.

Stereotiplərin aradan qaldırılmasında azad fikrə sahib olan və düşüncə mahiyyəti etibarı ilə qavranılıb sevilən nasir və şair olan Brontelər özlərinə xas üslub və mövzu yaradıcıları idi. Çox maraqlıdır ki, sağlıqları dövründə adlarının ətrafında yaranan pərəstiş zaman keçdikcə böyüdü və daha çox marağa səbəb oldu. Çünki onlar, təkcə İngiltərə ədəbiyyatında deyil, həm də eyni zamanda dünya-insan qarşıdurmasında zəmanələrinin mühüm problemlərinin həllinə yönəltmiş, qədərincə səy göstərmişlər. Əsas mahiyyət ondan ibarətdir ki, onlar şablon deyil və zaman keçdikcə, poetik ruh etibarı ilə cəmiyyətin mühüm problemlərini özündə ehtiva edən və dəyəri, gücü daha artıq görünən fikir və söz sahibi kimi görünürlər.

Müxtəlif məslək sahibləri olan tənqidçilər məhz Bronte bacılarının romanlarının şəxsiyyətin özünü açmaq vasitəsi olduqlarını vurğulamışlar.

XIX əsrdə Bronte bacılarının əsərləri Ç.Eliot, M.Arnold, U.Batler, E.Trollop və hətta kraliça Viktoriyanın marağıına səbəb olmuşdu. Lakin ən böyük diqqət prerafaelitlər D.Q. Rossetti, C.A.Suinberin, U.Peyter tərəfindən görünməkdə idi – Emili və Şarlottanın romantik dünyabaxışı, onların heç nəyə bənzəməyən poetikalarının bədiiliyi onları cəlb edirdi.

E.Qaskelin Şarlotta Brontenin həyatı haqqında əsərindən sonra onların həyatlarına maraq daha da artmış, XX əsrdə "Bronte-land" termini meydana gəlmiş (tənqidçi U.Terner tərəfindən 1913-cü il) və əsrin ikinci yarısında "bronteşünaslıq industriyası" (C.Hyiş) yaranmışdır və bu maraq bu gün də davam etməkdədir. 1893-cü ildə "Bronte bacıları cəmiyyəti" yaranaraq Xourtda olan sadə evi ən çox ziyarət edilən orijinal muzeyə çevirmişdir və qayğı ilə saxlanan nadir eksponantları qoruyub hifz edən

əməkdaşlar buraya gələnlərə onların əlyazmaları, rəsm əsərləri və şəxsi əşyalarını nümayiş etdirib mənəvi irsi yaşatmaq kimi bir şərəfli misiyanı yerinə yetirirlər [6, 115]. Bronte bacıları fenomeni hətta XIX əsrdə məşhur adlarla zəngin olan İngiltərə üçün unikal bir hadisə idi. Brontelərin eyni dövrdə qazandıqları şöhrət son dərəcə heyrətləndirici və parlaq idi. 1847-ci ildə Şarlottanın "Ceyn Eyr", Emilinin "İldırımlı aşırım" və Anna Brontenin "Aqnes Qrey" əsərləri bacıların İngilis ədəbiyyatı tarixinə nüfuz etməsi ilə yadda qaldı [3, 98]. Heç də təsadüfi deyil ki, bu sensasiyalı fakt bir çox şayələrin yaranmasına səbəb olmuşdu. Müəllif - eyni adamdır, lakin müxtəlif ləqəblərlə çıxış edir (buna səbəb bir il öncə bacıların Karrer, Ellis və Ekton Bell ləqəbi ilə çap etdikləri şeir toplusu olmuşdur); müəllif - çox tanınmışdır, lakin öz adını gizlətmək niyyətindədir və s. Bacıların qısa həyatı sirr və əsatirlərlə, müxtəlif əfsanə və miflərlə zəngin idi və onların ömrü qızların ömründən daha uzun oldu.

Bronte bacıları on doqquzuncu əsrin ədəbi ailəsi olaraq Yorkşirin Heyvort vilayəti ilə assosiyasiya edilir. Keşiş Patrik Brontenin ailəsində altı övladından üçünün: Şarlotta, Emili və Annanın dünya şöhrətli şair və nasir olmasında atalarının böyük zəhməti olub. Kembric Universitetini bitirən Patrik Bronte "Kənd şeirləri" (1811), "Əyalət şairi" (1814) adlı iki kitabın və bir çox pamflet və məqalələrin müəllifidir. Ailə həyatı qurduqdan doqquz il sonra həyat yoldaşını itirən savadlı, səmimi və xeyirxah Patrik altı azyaşlı uşağı boya-başa çatdırmaq üçün baldızını dəvət edir. Bütün qəlbini və qüvvəsini uşaqlarının təlim-tərbiyəsinə sərf etməyə çalışan ata ilk dörd qız övladını o dövrün orta təbəqəsinə mənsub ruhanilərin uşaqları üçün nəzərdə tutulan Kovan Bric məktəbinə göndərir. Növbəti il qızlardan ikisi Mariya və Elizabet ağır xəstəlik nəticəsində evə qayıdır və bir neçə həftədən sonra bir-birinin ardınca vəfat edirlər. Şarlotta və Emili də məktəbdən ayrılaraq Heyvorta qayıdırlar. Bu itki Şarlottanın əsərlərində öz əksini tapmışdır. "Ceyn Eyr" əsərində Kovan Bric Lovud kimi təqdim olunmuş, xanım Andryuşun qəddarlığı xanım Skatçerd obrazında və Karus Vilsonun zülmkarlığı isə cənab Blokherst surətində canlandırılmışdır. Sağ qalmış Brontelərin hamısı 1825-ci ildə vərəm xəstəliyindən vəfat edən Mariya və Elizabetlə eyni aqibəti paylaşmışdır: qardaşları Bronvel 1848, Emili 1848, Anna 1849 və nəhayət Şarlotta 1855-ci ildə 38 yaşında ailə həyatı qurduqdan bir il sonra vəfat etmişdir.

Brontelər erkən yaşlarından hekayə yazmağa başlamış və təfəkkürləri inkişaf etdikcə hekayələrin məzmunu da mürəkkəbləşib genişlənmişdir. Nə tənqidçilər, nə də oxucular belə zərif və xəstə vücudlu, lakin mənəvi cəhətdən çox güclü və mətin, ən əsası isə inanılmaz dərəcədə istedadlı olan gənc qızların bu əsərlərin müəllifləri olduqlarına inana bilmirdilər. Ataları Patrik Brontenin abunə olduğu jurnal və qəzetlərdən o zaman təzə vəfat etmiş Bayron və onun əsərləri haqqında məlumat alan uşaqlar dərhal yeni üslub, güclü ehtiras və cinsi cazibəyə sahib olan qəhrəmanların qəddar və hətta məkrli hərəkətlərini nümayiş etdirən əsərlərə müraciət edirlər. Qardaşları Bronvel yazılan əsərlərə şəkillər və karikaturalar çəkirdi. Digər tərəfdən də cəmiyyətdə qəbul olunmamış, qınağa səbəb olan, qadağan olunmuş nə varsa Bayronun adı ilə eyniləşmişdi. Onlar üçün Bronvel və Şarlotta Bayronsayağı qəhrəmanlar qalereyasını uydurulmuş Verdopolis qəhrəmanlarından biri olan Zamornanın sürətinin ikimənalı və şübhəli hərəkətlər edən obrazı kimi təsvir edirlər. Eyni təsvir və dəyişikliyi Emili Brontenin "İldırımlı aşırım" romanında, xüsusilə də Hetklif obrazında və "Ceyn Eyr" əsərində isə cənab Roçesterin sürətində müşahidə etmək mümkündür [5, 95].

İngilis tədqiqatçılar Hetklifin qəlb faciəsinin köklərini Bronvel Brontenin tərcümeyi halında axtarırlar. Bronvel uzun müddət xidmət etdiyi varlı evin sahibəsi, ailəli xanıma olan məhəbbətinin qurbanı olmuşdur. Dul qaldıqdan sonra öz məşuqun aldadıb, o yenə də başqası ilə ailə həyatı qurur, çünki həyat yoldaşı yalnız o, Bronveldən

imtina edəcəyi halda öz var-dövlətini ona vəsiyyət edir. Qadın pula görə həm ona, həm də öz məhəbbətinə xəyanət edir. Lakin ətrafda olan fermer və kavalerlərin varlanmaq naminə səbəb olduqları faciəvi və dəhşətli konfliktlər müəllifin diqqətindən yayınmamış və romanın əsas mövzusuna çevrilmişdir. İstedadlı, lakin tanınmayan rəssam olan Bronvel doğma yurduna mənəvi cəhətdən sarsılmış və ruhdan düşmüş şəkildə qayıdır. O, sakit keşiş ailəsinə zorakı gecə davaları və məhv olmuş həyatından geridə qalan sərxoş giley-güzarı gətirmişdi. Bronvellə kor, lakin qəddar və tez hiddətlənən atasının arasında dəhşətli səhnələr baş verirdi. Özü də bilmədən onun qayıdışı ailəyə bədbəxtliklər gətirmiş oldu: özünü alkoqolla məhv edən Bronvel həm də vərəm xəstəsi idi, bu səbəbdən kiçik bacıları da bu xəstəliyə mübtəla olur.

Şarlotta yaramaz hərəkətlərinə görə qardaşından uzaqlaşır. O heç cür qəbul edə bilmirdi ki, belə istedadlı ailənin ümidi və qüruru olan bir insan bu qədər alçala bilər. Emili isə qardaşına son nəfəsinə kimi qulluq edib, yatağının kənarından çəkilmirdi. O artıq anlayırdı ki, həyat insanı necə də şikəst edə bilər. O bu haqda "İldırımlı aşırım" əsərində yazmışdı. Bronvelin həyatı, xarakteri Emili Bronte tərəfindən məharətlə Hetkilf obrazında canlandırılıb. Ümumiyyətlə "İldırımlı aşırım" romanında son illər ailənin yaşantıları öz əksini tapmışdır.

1848-ci ildə Bronvelin ölümündən bir neçə ay sonra Emili vəfat edir. Xəstəlik dövründə onun mənəvi gücü, mətinliyi bir daha bacılarına bəlli olur. Onlar bu xüsusiyyəti onda daha əvvəl müşahidə etmişdilər. Bir vaxt quduz it onu dişlədikdə heç kəsə bildirməyib qaynar ütü ilə yarasını yandırmışdı. Hər dəfə azacıq da olsa ümidsizliyə qapılanda böyük ləyaqət sahibi olan Emilinin tükənməz əzm və mətanəti ona qol-qanad verib, mübarizələrlə dolu sabahlara addımlamağa təlqin edib. Bacılarının dözüm və iradəsi, mayalı sözləri, mənəvi təskinlik baxışı öz işini görə bilmişdir. Bir neçə həftə ölümlə üzləşən qız sakit və şən görünməyə çalışırdı. Bacılar bu haqda təhlükə sovuşandan sonra xəbər tutur. Ümumiyyətlə bu hadisə Şarlotta tərəfindən əsas qəhrəmanı Emilini xatırladan "Şerli" romanında təsvir olunur. Bir dəfə ölümə qalib gələn Emili indi o zaman müalicəsi tibbə məlum olmayan vərəm xəstəliyindən ölürdü. O öz ölümünü dözüm və mətanətlə qarşılayırdı, həkimlərdən imtina edib, sübh tezdən durub son gününə kimi çalışırdı. "O, artıq nə amansız soyuqdan, nə də sərt küləkdən titrəməyəcək. Emili onları daha hiss etmir..." – deyə Şarlotta rəfiqəsinə 23 dekabr 1848-ci ildə onun ölümündən sonra yazırdı [4, 82]. Bunları yazarkən Şarlottanın Yorkşir tərəfdən əsən sərt qış küləklərini yoxsa Bronte bacılarını əhatə edən dünyanı nəzərdə tutması isə bizə məlum deyil.

Kiçik bacıları Annanın (1820-1849) ilk romanı "Aqnes Qrey" Emili Brontenin "İldırımlı aşırım" əsəri ilə birgə 1847-ci ildə çap olunmuş və tənqidçilər onları hər zaman müqayisə etmişlər. Aqnes Qrey adlı bir qız mülkədar evində mürəbbiyə kimi təqdim olunur. Burada bir qadın taleyinin realistçəsinə təsviri verilmişdir. Bu qəhrəmanın timsalında yazıçı ağır həyatın məşəqqətləri ilə üzləşir və onlara sinə gərib cəsarət nümayiş etdirir. Emili Brontenin xüsusiyyətlərini müəyyən dərəcədə özündə əks etdirən Aqnes hər dəfə azacıq da olsa ümidsizliyə qapılanda özünün tükənməz dözüm və iradəsi ona stimul verib və mübarizələrlə dolu sabahlara addımlamağı təlqin edib. Əgər onun birinci romanını bacılarının əsərləri ilə müqayisə etmək mümkün idisə, ikinci əsəri "Vilfel Holun kirayənişi" romanında yalnız Annaya məxsus fərdi məziyyətlər nümayiş olunur. Mürəkkəb təhkiyyə strukturu və təsiredici xarakterlər qalereyası gənc nasirin uğurları hesab olunur. Bunlardan da ən yadda qalanı qəddarlığı ilə seçilən Hantinqdondur ki, o da öz növbəsində Bronvel Bronteni xatırladan prototipdir. Əsər ikinci dəfə nəşr olunduqda Anna etiraf etmişdi ki, ətrafda əzab verən despotizm "eyniylə" həyatdan götürülüb [1, 75]. Gördüyümüz kimi hər üç bacının

əsərlərində Bronvelə oxşar bir obraz var. Şarlotta Bronte isə əsərlərin müqəddiməsində Anna haqqında yazarkən deyir: "Annanın əsərlərində kədər motivləri, onun dini görüşlərinin nəticəsidir ki, onun qısa həyatına qəmgin kölgə salır" [2, 315]. Əsər yazılan zaman qardaşının vəziyyəti pisləşir və bunu dərin iztirab çəkən ədibin təsvir etdiyi surətlərdən də görmək olur. Onun pessimizmi də buradan irəli gəlir. O göstərir ki, həyatın bayağılığından bezən qəhrəman xəyalında başqa bir aləm yaradır və həmin xəyali aləmin özünün çox miskin olduğunu göstərir. Annanın bədbin dünya görüşünün əsasında bu fikir dayanır.

Atasından aşılanan inam hissini qəlbində yaşadan və mömin bir xristian olan Anna vicdanının ziddinə getməyi təsəvvürünə də gətirə bilmir və öz əsərlərində bunu məharətlə nümayiş etdirir.

Gənc yazıçı əxlaqi təsirin gücünə və insanları tərbiyə etməyin mümkün olmasına inanır. Həyatda gördüyü çətinlik və ziddiyyətlərə yaxından bələd olan yazıçı əsərdə ağıllı, xeyirxah və düşüncəli insanların düçar olduğu müsibət və faciələri ümumiləşdirmək məqsədini güdmüşdür.

Əsərin mütləq didaktik xarakterli olmasını o hələ uşaqlıqdan bilirdi və mənəvi borc hissi onu özünün son romanında bu xüsusiyyəti təqdim etməyə sövq edir. Bu roman həqiqətən tərbiyəvi səciyyəyə malikdir. Romanda yenə qotik romanlara xas priyomlardan bol istifadə olunur. Əsərin mərkəzinə qoyulan hadisələr fəlakətli bir mahiyyət daşıyır. Tənha, yalqız qalmış qız həyatın çətinliklərinə təkcə öz qeyri-adi bacarıqları deyil, həm də əsasən öz iradəsi və temperamenti hesabına başa gəlir. Qorxu və həyəcana, vahiməyə və riqqətə gətirən təsvirlər yazıçının qotik ənənələrinə sadiqliyindən irəli gəlir. Realist ənənələrinə sadiq qalan gənc yazıçı eyni zamanda məqsədi və ruhu, bədii ifadə vasitələri ilə tamamilə orijinal və yenidir. Bronte bacılarının yaradıcılığı bugün də təlqin etməsi və ingilis ədəbi ənənəsinə xas mistifikasiya və komik təqdimatı ilə oxucuları cəlb edir.

Bronte ailəsi fenomeninin dərk edilməsini onların bədii dünyalarının estetik-üslubi quruluş prinsiplərinin və romanlarının avtobioqrafizm kimi qəbul olunması şərtləndirir.

İlk dəfə 1849-cu ildə "Ceyn Eyr" romanı İrinarx Vedenski tərəfindən tərcümə olunub. "Otecestveniye zapiski" jurnalında çap olunan zaman "Avtobioqrafiya" sözü romanın adının yanında verilirdi. Kitab bir neçə dəfə dərc olunan zaman bu söz başlıqla paralel işlənmişdir. O.M.Petersonun "Bronte ailəsi" kitabı V.Raytın 1893-cü ildə Nyu-Yorkda dərc olunan "Bronte İrlandiyada və ya uydurmadan daha qəribə faktlar" adlı çox maraqlı kitabına əsaslanaraq ərsəyə gəlmişdir.

Tənqidi-biblioqrafik elementlərlə zəngin olan və həqiqi sənədlərin əlavə olunması ilə "canlanan" epizodlar bu əsərdə quruluşun orqanik sintezdə olduğunu diqqətə çəkir. Bütün tədqiqatçıları maraqlandıran ən başlıca suallar bu cür idi: "İnsan təbiətinə xas olan müsbət və mənfi xassələr, cinayət törədə bilən cilalanmayan ehtiras, radikal görüşlər, riyakarlıq və ikiüzlülüyə olan nifrət hissi bu cavan qızlara haradan məlum idi? Onların əzəmətli təfəkkürünə və onun ifşaedici tünd boyalarla tənqidinə nə təsir etmişdi?" [6, 79]

Beləliklə, həm İngiltərədə, həm də başqa ölkələrdə olan tənqidçi - ədəbiyyatşünasları maraqlandıran başlıca sual Bronte ailəsi yaradıcılığının təbiəti, mənbələri, milli mədəniyyətə təsiri və xarici oxucular tərəfindən qəbul olunmasıdır. Məhz sadəlövh oxucunu heyrətləndirən deyil, ədəbiyyatın peşəkar bilicisi kimi Petersonu maraqlandıran o idi ki, bu üç utancaq təvazökar qız ehtirası təsvir etmək üçün bu cür zəngin və əlvan boyaları haradan əxz etmişdilər.

Əslən İrland olan Patrik Bronte öz xalqına məxsus folklordan və rəvayətlərdən bəhrələnərək uşaqlarına vahiməli, dəhşətli hekayələr danışar və onların maraqlarını artırmaq üçün öz əcdadlarının da tarixindən epizodlar daxil edərdi.

Hələ erkən yaşlarından Balaca Brontelərə öz soy-köklərinə xas olan süjet, mənzərə və xarakterlər çatdırılırdı və bu faktlar onların tərbiyəsinə həlledici təsir göstərirdi. Bu sualların bir neçəsinə biz Vilyam Raytın kitabında cavab tapırıq.

Patrik Bronte ilə uşaqlıqdan tanış olan V.Rayt yazıçı qızların babası - Quq Brontenin heyranlıqla onu dinləyənlərə nəql etdiyi hekayələrin şahidi olmuşdur. "Bronte bacılarının əsərlərini oxuyarkən məndə belə bir hiss yaranırdı ki, sanki sonra nə baş verəcəyini mən əvvəlcədən bilirdim" [6, 75]. Onu ən çox maraqlandıran fabula yox, təhkiyə və detalların açıqlanması idi. Son gününə kimi Quq Brontenin repertuarı tükənməyib və yeni maraqlı hekayələr ətraf fermalarda yaşayan cavanların gecələr onu dinləməyə gəlib, qeyri-adi və dəhşətli təhkiyə səhnələrinin təsiri altında donub susub, küçəyə çıxmaqdan çəkinib elə orada gecələməyinə səbəb olurdu. O, təkrarən nəql etdiyi hekayəni əsl sənətçi kimi eyniylə təkrar edib təfəkküründə həkk olunmuş kimi incəliklərinə qədər diqqət yetirirdi. Lakin danışdığı hekayələrin heç biri uşaqlıqda və cavanlıqda onun başına gələn bədbəxtliklər və məhrumiyyətlərlə səciyyələnən hekayə kimi maraqla qarşılanmırdı.

Bu hekayəni o, çox təntənəli üslubda - qədim xalq təhkiyə formasında öz savaddan kəm dinləyicilərinə danışırdı. Çox uşaqlı ailədə həyata göz açan Ququn xoşbəxtliyi bir gün heç vaxt eşitmədiyi bibisi və onun həyat yoldaşının onlara qonaq gəlməsi ilə sona yetir. Öz uşaqları olmadığı üçün onlar 5 yaşlı Ququ çoxlu vədlərlə aldadıb özləri ilə aparırlar.

Burada Quq təhkiyənin əvvəlinə qayıdıb öz babasının - Bronte bacılarının ulu babalarının həyat hekayəsini danışmağa başlayırdı. Boyn çayının sahilində maldarlıqla məşğul olan Ququn babası Liverpuldan gəmi ilə qayıdarkən orada qara əsgilərə bürünmüş bir körpə tapır. Gəmiçilər uşağı suya atmaq istədikdə Brontenin arvadının uşağa yazığı gəlib onu götürür. Körpənin Vallisdan olduğunu güman edib ona Velş adı verirlər. Zəif, xəstə, daim ağlayan Velş sağlam Bronte övladları ilə xasiyyətcə də müqayisə olunmayacaq dərəcədə fərqlənirdi. O, narazı, paxıl və bic olduğu üçün ailə üzvlərinin nifrətini qazanmış, daim kölgə kimi ailə başçısının arxasına düşdüyü üçün isə onun sevimlisinə çevrilmişdi.

Zaman keçdikçə Bronte varlanır və Velş onun ən sadiq köməkçisi olur. Bir gün Liverpuldan bir sürü qoyun satıb qayıdan zaman Bronte ölür və Velş nə pul, nə də sahibinin hesabı barədə məlumatı olduğunu boynuna almır. Ailə üzvləri Velşi evdən qovurlar. Brontenin övladları daim İngiltərədə yaşamış və yaxşı təhsil almışdı, lakin nə fermadan, nə də ticarətdən başları çıxmırdı və digər tərəfdən isə kapitallarından da məhrum olmuşdular. Mənfur Velşin ailə üzvləri ilə görüşüb və ailənin acınacaqlı vəziyyətini bərpa etmək niyyətini nəzərə alıb, onun təklifini qəbul edib evlərində görüşürlər. Görüşə gələn Velşin çox təmtəraqlı bahalı kostyum, ağ ipək köynək geyinməsi və yağlanmış saçlarına bəzək verməsi hamının təəccübünə səbəb olmuşdu.

Ailə toplandıqda Velş çox varlı sahibkar kimi onlara öz dərin ehtiramı olduğunu bildirdi və ən kiçik qızları olan Mariyanın onunla evlənəcəyi təqdirdə, yenədə ailənin işlərini icra edib gəlirlərini təmin etməyə razı olduğunu dilə gətirdi. Bu təklif hamını qəzəbləndirdi və hətta onun ünvanına təhqir də səsləndi. Velş isə "Mən Mariyanı ala-cam, sizi isə lazımsız zibil kimi bir gün mənim olacaq bu evdən atacam"- dedi [6, 85].

O, bir qoca qarı vasitəsilə Mariyanı aldadıb xəlvət bir çöldə onu elə vəziyyətə qoyur ki, Mariya rüsvay olmamaq üçün Velşlə ailə qurmağa razılaşır. Dəllallar vasitəsi ilə fermanı ələ keçirən Velş öz son arzusunu da həyata keçirmişdi: ailəni – ana, bacı və

qardaşları bir-birindən uzaq salmışdı. Velş fermaya, evə sahib olsa da bir gün yaşadıqları ev də, haram yolla qazanılan var-dövlət də şiddətli yanğında məhv olur.

Velş qürurunu öz maraqlarına tabe edə bilirdi və müflisləşəndə, həyat yoldaşının vasitəsi ilə İrlandiyada yaşayan və artıq varlanmış bir qardaşı ilə məktublaşmağa başlayır. O, etdiyi hər bir əmələ görə peşman olduğunu söyləyir və öz günahlarının bağışlanmasını istəyirdi. Velşin xarakterinə bələd olan Brontelər ona qardaşlarının oğlanlarından birini övladlığa götürüb, böyüdüb tərbiyələndirməyi və əcdadlarının fermalarına sahib olmasını təklif edir. Övladlığa verildikdən sonra Velşin qarşısında mütləq şəkildə uşağa təhsil vermək şərti qoyulur. Velş isə atanın heç vaxt övladı ilə görüşməyəcəyinə və ünvanını heç vaxt bildirməyəcəyinə söz verməsini tələb edir. Hətta illər sonra da bibisi uşağa öz yaşadığı evin harada olmasını söyləmir. Beləliklə, Quq bibisi və Velşlə yaşamağa məhkum olur, lakin nə təhsil almaq, nə də qayğı içində böyümək uşağa nəsib olmur. Velşin Qallager adlı nökəri belə onun köhnə, yöndəmsiz paltarına gülüb, onu ələ salır. Daim ac qalan, nimdaş paltar geyinən və qəddar münasibət görən Quq bir gün Velşə onu atası evinə qaytarmaq, ya da insan kimi geyindirib məktəbə göndərmək tələbini irəli sürür. Bir il əvvəl Velşin öz oğlu dünyaya gəlmişdi, şübhəsiz ki, heç bir vərəsəlik haqqında söz ola bilməzdi. Quq ürəyində olan ittihamları söylədikdən sonra ona necə münasibət olacağını bilib həmişəlik evi tərk edir.

Azad, sərbəst həyat ona həyatında ilk dəfə öz zəhməti ilə kifayət qədər pul qazanıb özünü xoşbəxt hiss etmək imkanı verir. Zəhmətsevərliyi, xoş xasiyyəti və əlbəttə ki, gözəl hekayəçilik qabiliyyəti ilə o, həm öz sahibinin, həm də müştərilərin sevimlisi olur. Bir müddət sonra isə ona çox mühüm və məsuliyyətli nəzarətçi vəzifəsi tapşırılır. Daimi müştərilərin biri olan Mak Klori milad bayramında Ququ evlərinə dəvət edir və bu, onun taleyində dönüş nöqtəsi olur. Mak Klorinin bacısı Eylis - əsl kelt tipli irland gözəli Ququn ürəyini fəth edir. Lakin protestant Quq və katolik Eylisin evlənməsi mümkün deyildi. Bir gün Ququn başına toplaşan on iki sərxoş katolik ondan öz dinindən imtina edib kral Vilyama lənət oxumağı tələb edirlər. O isə "Kral Vilyam mənə heç bir pislik etməyib, mən onu lənətləyə bilmərəm. Nə mənim lənətim, nə də xeyir–duam ona çatmayacaq, lakin mən sizin bu qəddar və sərsəm dininizi ixtira edən papanı məmnuniyyətlə lənətləyərəm" - deyir [5, 215]. Bu sözlər tezliklə bütün mahala Ququn qatı protestant olduğu xəbərini yayır və o, öz iş yerini itirir. Eylisla görüşmək imkanından məhrum olan Quq oxumaq və yazmağa başlayır, çünki qız ona məktublar yazırdı. Bir müddət sonra isə başqa bir oğlanla ailə qurmağa hazırlaşan Eylis toy paltarında ata minib toy mərasimi başlamamış Quqla birlikdə qaçır. Qızın bu hərəkəti yüngülxasiyyət və arsız irlandları əvvəl qəzəbləndirsə də, sonra süfrəyə əyləşib yeyib-içməyə başlayırlar, bəy isə yeni ailənin sağlığına içməyi təklif edir.

Yazıçı qızların baba və nənələrinin toyu 1776-cı ildə protestant kilsəsində baş tutmuşdu. Bu xoşbəxt evlilikdən on bir uşaq dünyaya gəlmişdi ki, onlardan böyüyü Patrik Bronte idi.

Müasir kitabı əvəz edən "hekayəçilər" savadsız İrlandiyada çox ehtiramla qarşılanırdı. Və bu hekayəçilik qabiliyyəti Quqdan əvvəlcə oğlu Patrika, sonra isə nəvələrinə keçmişdi. Bədii istedadı Patriki toxuculuqla, daha sonra isə müəllimliklə məşğul olaraq pul toplayıb iyirmi beş yaşında Kembric universitetinə gətirir. Universiteti bitirdikdən sonra ingilis pastoru (keşişi) kimi fəaliyyətə başlayır. İrland anasına görə çox təqiblərə məruz qalan Patrik, əcdadlarından miras qalmış maraqlı hekayələri və tarixi epizodlar haqqında əfsanələri öz övladlarına ötürmüşdü.

Bu hekayə və əfsanə formasında olan bədii toxumlar xoş və keyfiyyətli zəmində bol və səciyyəvi bar vermişdir. Şarlotta Brontenin dayısı ilk dəfə "Ceyn Eyr" əsərini oxuduqda "roman əvvəldən axıra kimi Brontelər ailəsidir" demişdir [5, 250]. "İldırımlı

aşırım" romanında isə biz Quq Brontenin həyatında baş vermiş hadisələrlə və taleyindən keçən personajlarla rastlaşırıq.

Bronte ailəsinin üzvləri maddi cəhətdən kasıb olsalar da, həyatda səadətin tükənməz və mötəbər mənbəyi olan və poetik fantaziyaya yol açan məhəbbətlə zəngin idilər. Ailə üzvlərinin əsərləri müəlliflərin daxili arzularının mücəssəməsi olmaqla yanaşı onların şəxsi tərcümeyi hallarının bir növ başqa şəkildə təzahürü idi. Onların yaradıcılığı ədəbiyyat tarixi faktı kimi canlı və inkişaf edən mədəni fenomendir.

ƏDƏBİYYAT

1. Бронте Ш. "Джейн Эйр". Москва: Художественная литература, 1990
2. Bloom, Howard M. "Charlotte Bronte" Volume II. London: George Prior Publishers, 1977
3. Бронте Э. "Агнесс Грей"; Незнакомка из Уайлдфелл-Холла; Романы. Под ред. Н. Будавей, С. Митюшина. Москва: Художественная литература, 1990
4. Gaskell E. "The Life of Charlotte Bronte". London: Penguin Classics, 1998
5. Петерсон О., "Семейство Бронте". Санкт-Петербург, 1895
6. Wright W. "The Brontes in Ireland". New York: Appleton, 1993

SH. V. MAMMADOVA

PHENOMENON OF THE BRONTE SISTERS

SUMMARY

The Bronte family history and the place of their creative activity in the English and world literature are being discussed in this article. The characteristic features of their creativity, typical manner of writing and distinctive elements are studied here too.

The object of research of the article consists of the impact of the spiritual heritage, free thought and poetic imagination characteristic of the Brontes on national culture and literary criticism.

The article analyzes the stylistic and aesthetic structural principles of Bronte sisters' artistic creativity. Anne Bronte's main novels are also highlighted in the article.

Ш. В. МАМЕДОВА

ФЕНОМЕН СЕСТЕР БРОНТЕ

РЕЗЮМЕ

В статье рассматривается история семые Бронте и место их творчества в английской и мировой литературе. Здесь же исследуются характерные особенности их творчества, типичная манера их письма и отличительные особенности.

Свойственная черта сестёр Бронте, такая как: моральное наследие, свободное мышление и поэтического воображения действует на национальную культуру и литературоведение данного объекта статьи.

В данной статье анализируются стилистические и эстетические принципы структурные художественного творчества сестёр Бронте. Здесь также освещаются основные романы Энн Бронте.

Rəyçi: Nailə Sadıqova
filologiya üzrə elmlər doktoru, professor

GÜNEL İSMAYILOVA
OYU
gbayramova@qu.edu.az

ŞARLOTTA BRONTENİN "CEYN EYR" ƏSƏRİNİN PSİXOLOJİ TƏHLİLİ

Açar sözlər: *Bronte, romantizm, realizm, Ceyn Eyr, ədalət*
Ключевые слова: *Бронте, романтика, реализм, Джейн Эйр, справедливость*
Key words: *Bronte, Romanticism, Realism, Jane Eyre, justice*

"Ceyn Eyr" həm sosial, həm də psixoloji cəhətdən tərbiyəvi əhəmiyyətə malik bir romandır. Viktoria dövrü İngiltərəsində fərqli təbəqələrdən olan iki şəxs arasındakı bir eşqdən bəhs edən bu roman, cəmiyyətdə yaşanan dini təzyiqi, sinif bölgüsünü və kişi üstünlüyünü həqiqi və gözəl şəkildə əks etdirir. Qadın azadlığı və hüquqlarına sahib çıxan ilk romanlardan biri olaraq qəbul edilən "Ceyn Eyr"əsəri romantizm cərəyanının ən əhəmiyyətli nümunələrindəndir. Əsər Ceyn adlı qəhrəmanın mənəvi təkamülünü ardıcıl olaraq aşkar edir və onun güclü, bütöv və məğrur xarakterinin formalaşmasından xəbər verir. Əsərin qəhrəmanı əksər hallarda müəllifin prototipi hesab olunsa da, əsərdə baş verən hadisələrin və obrazların müəlliflə birbaşa əlaqəsi yoxdur. Ceyn Eyrin həyat tarixi bədii təfəkkürün məhsuludur, lakin onun daxili həyəcanları şübhəsiz ki Şarlotta Bronteyə daha yaxındır. Əsərin qəhrəmanının özünü ifadə tərzi parlaq lirik çalara malikdir. Hərçənd ki uşaq yaşlarından kimsəsizliyin və yad çörəyinin dadını görmüş Ceyndən fərqli olaraq Bronte geniş bir ailədə, qardaş və bacılarının əhatəsində böyümüşdü, o da Ceyn kimi taleyi tərəfindən yaxınlarını itirməklə sınağa çəkilmişdi. Qardaşını və bacılarını erkən yaşda itirmiş Şarlotta Bronte ailə həyatının dadını görmədən və analıq hissini yaşamadan 39 yaşında dünyadan köçmüşdür.

Öz romanının ikinci nəşrini həsr etdiyi və eyni zamanda onun sevimli yazıçısı olan Uilyam Tekkerey Bronte haqqında demişdir: "Mən titrək və kövrək bir varlığın kiçik əllərini və iri qara gözlərini xatırlayıram. Demək olar ki, onun xarakterinin ən əsas cizgisi onun hədsiz dürüstlüyü idi. O xüsusi həssaslıqla müasirlərin təkəbbür və saxtalıqlarını ayırd edərək onları mühakimə edirdi. Onun qəlbində daim həqiqət və ədalətə böyük hörmət yaşamışdır."[2] Burada nəinki Şarlotta Bronteyə məxsus cizgilər, o cümlədən onun yaratdığı qəhrəman Ceyn Eyrin də xüsusiyyətləri izlənir. Ceyn Eyrdə də biz eyni əyilməzliyin, dürüstlüyün və ciddiliyin şahidi oluruq.

Romanın ən mühüm cəhətlərindən biri də patriarxal cəmiyyətin təsvir olunmasıdır. Ceyn kişilərin dominant olduğu belə bir cəmiyyətdə daim öz şəxsiyyətini təsdiq etmək üçün çalışır. Əsərdə əsas qəhrəmanlardan hesab olunan üç kişi, cənab Broklhörst, Roçester və Sent-Con Ceyn Eyri özlərinə tabe etməyə və onun şəxsi düşüncələrini və hisslərini ifadə etməsinin qarşısını almağa cəhd edirlər. Ceyn isə cənab Broklhörstdən uzaqlaşmağa nail olur, Sent-Conun evlilik təklifini rədd edir və yalnız nigahın tam qanuni olacağından əmin olan zaman Roçesterlə ailə qurmağa razılıq verir. Ceyn Eyr obrazı vasitəsilə Şarlotta Bronte qadınlara aid edilən və Viktoria dövrünə xas olan stereotiplərə qarşı çıxır və öz feminist fəlsəfəsini dilə gətirir. Qəhrəmanın bu sözlərini müəllifin məsləyi və romanın oxunması üçün açar hesab etmək olar: "Kişilərin keçirdiyi hissləri qadınlar da keçirirlər, qadınların da kişilərin olduğu kimi öz bacarıqlarını nümayiş etdirməyə və özfəaliyyətləri üçün bir sahə tapmağa ehtiyacı var. Ənənələrin sərt təzyiqləri altında ətalətli mühitdə yaşamağa məcbur qalmış qadınlar eynən kişilərin üzləşdiyi iztirablarla üzləşirlər."[4]

Əsərdə Bronte azad və öz qərarlarını verə bilən Ceynin timsalında Viktoria dövründə qadınların rolu və mövqeyini təsvir edir. Gənc və nisbətən aşağı sosial mövqeyə malik bir qadın kimi Ceyn müxtəlif mənəvi mübahisəli kişi xarakterləri ilə qarşılaşır. Lakin onların əksəriyyəti onun üzərində nəzarəti ələ keçirmək niyyətində olur. Buna bir misal olaraq Ceyni böyük məhəbbətlə sevən, lakin tez-tez ona əmrlər və göstərişlər verən cənab Roçesteri göstərmək olar. Bir özündən əmin və məğrur mülkədar kimi o, Ceynlə olan münasibətində də təbii olaraq sahib mövqeyini tutur. Roçester bəzən Ceyndən fikrini soruşmaq yerinə onu idarə etməyə, yönəltməyə çalışır və ona xoş olsun deyə dəbdəbəli və olduqca bahalı hədiyyələr təklif edir. Lakin Ceyn qadın müstəqilliyinin əhəmiyyətinə inanır və həyatda heç kimə borcu olmayan mövqeyini qorumağa çalışır. Hətta cənab Roçesterlə nigaha razılıq verdikdən sonra, həmin anın sehri ilə tilsimlənmiş və romantik xəyallara qapılmış olsa da, onun şəxsiyyətinin feminist elementləri yenə də özünü göstərir. Ceyn bütün qəlbi ilə sevdiyi şəxsin onu bahalı hədiyyələr yağmuruna tutmasına qarşı çıxır, çünki düşünür ki, bele getsə, o Roçesterdən daha da asılı vəziyyətə düşəcək və ona borclu olacaq. Bundan əlavə, o təkid edir ki, nigaha qədər Adelin mürəbbiyəsi olaraq işinə davam etsin. Ceynin bu qərarı həmin dövr üçün bir qədər qəribə səslənsə də, bir daha onu göstərir ki, o mümkün olduğu qədər müstəqil qalmağa çalışır.

Ceynin Roçesterə olan hissləri böyük əzablardan keçsə də, xoşbəxt sonluqla mükafatlandırılır. Əsərin sonunda mövcud reallığın arzuolunan sonluqla əvəz olunması Bronteyə romantik nümunələrə müraciət etməsi üçün təkan vermişdir. O, Ceyn və Roçester arasında olan sevgini ancaq realizmin tələblərinə sadiq qalmadan əks etdirə bilərdi.

Bronte Tekkerey ilə bir misilsiz realizm ustadı kimi fəxr edirdi və daim ona bənzəməyə çalışırdı. Əsərin qəhrəmanı Ceyn Eyrin romantik duyğularının inkişaf etdiyi mühit də İngiltərədə XIX əsrin ortlarına xas olan cəmiyyətin fərqli təbəqələrinə aid real insanlardan ibarət idi. Əsər həm romantik, həm də realist fikirləri özündə birləşdirdiyindən güclü bədii vəhdətə sahibdir. Lakin bu iki bir-birindən tamamilə fərqli olan istiqaməti anlamaq və onları ayırd etməyi bacarmaq çox vacibdir. Bronte realizmi özünəməxsus şəkildə anlayırdı və 40-cı illərin ortalarına xas olan estetik prinsiplərə əsaslanaraq əsərini yazırdı.

"Ceyn Eyr" tərbiyəvi roman qanunları əsasında yazılmış bir əsərdir. Qəhrəmanın başına gələn hadisələr bir sıra mübarizələrdən, iztirablardan və çətinliklərdən keçsə də, onun sonda əldə etdiyi xoşbəxtliyin qədrini daha yaxşı anlamasına və qiymətləndirməsinə səbəb olmuşdur.

"Ceyn Eyr"də hiss və həyəcanlar olduqca romantik şəkildə təsvir olunub kitaba xüsusi gözəllik bəxş edir, qəhrəmanın azadlıq sevər üsyankar ruhu isə əsərin ayrılmaz hissəsidir. Amma romanda ənənəvi sadəlövh romantik fikirlər də yer almışdır. Roçesterin ağlını itirmiş həyat yoldaşının əzazil surəti və qəsrdə baş verən sirli hadisələr Bronte bacılarının da qiraət etdikləri XVIII əsrə aid qotik romanları xatırladır.

Yazıçı Bronte digər epizodlarda bir sıra tipik romantik elementlərə yer ayırmışdır. Məsələn, XXXV fəsildə "Roçesterin səsi" epizodu, burada Roçesterin uzaqdan gələn və Ceyni çağıran səsi, Ceynin də o səsə tabe olması indiki dövrdə bundan yüz, hətta əlli il əvvəl qəbul olunduğu kimi deyil, tamamilə fərqli şəkildə dərk edilir. Maraqlıdır ki, tipik telepatik ötürülmə hallarını əks etdirərək hələ bu cur hadisələrin tədqiqat mövzusu olmasından yüz il əvvəl Bronte yazırdı: "Bu, hisslərin aldanması yaxud sehir deyil, sadəcə izahı mümkün olmayan təbii bir hadisədir."[4]

Beləliklə, Şarlotta Brontenin əsərlərində romantizm və realizm arasındakı xüsusi ideoloji ve estetik sərhədlərin ortaya çıxdığını söyləmək olar. Bu özəllik yazıçının obrazları yaradarkən istifadə etdiyi bədii təsvir vasitələrində öz əksini tapır.

Rəsm əsərində olduğu kimi sözlü təsvirin xüsusiyyəti də hər şeydən əvvəl müəyyən qəhrəmanın fərdiliyinə və şəxsiyyətinə olan birbaşa müraciətlə şərtlənir. Portret oxşarlığı janrın ayrılmaz tərkib hissəsidir. Bu oxşarlıq surətin canlı təbiətə uyğun yaradılmasında müşahidə olunur və yazıçı tərəfindən sözlü təsvir üçün özünəməxsus sərbəstliyə malik bədii bütövlük kimi qiymətləndirilir.

İnsan fərdiliyinin təkrarolunmazlığının və onun xarakterində, davranış və danışıq tərzində olduğu kimi tərcümeyi-halında, yaradıcılıq fəaliyyətində və onun mənəvi dünyasını əks etdirən şəxsi həyatının müxtəlif çalarlarında da müşahidə olunan düşüncələrinin məhz bütöv təsvirində ədəbi portret janrının mahiyyəti ortaya qoyulur.

Şarlotta Bronte özünün ədəbi portret ustası olduğunu göstərmişdir. Onun məharəti yaratdığı obrazların zahiri xarakterik cizgilərinin təsvirində xüsusi qayğı ilə seçilmiş söz və ifadələrlə fərqlənirdi, lakin ən əsası o idi ki, Bronte həm də qəhrəmanın daxili dünyasını oxucuya çatdırmağa xüsusilə diqqət yetirirdi. Obrazların xarakterini müəyyən edərkən o, bu və ya digər şəxsiyyətlərin olduqca anlamlı ifadəsi üçün müxtəlif yazı üsullarına və təsvir vasitələrinə müraciət edirdi. Bəzi hallarda Bronte bilərəkdən şişirtmələrə yol verir, bəzən isə ciddi həyat normalarına əməl edirdi.

Oxucu xəsis Brokhlörstün portreti ilə tanış olur. O hündür və arıqdır. Onun paltosu axıracan düymələnib. Onun obrazı daha aydın şəkildə müəllifin heç bir şərhi olmadan bir dialoq vasitəsilə verilir. Broklhörstun təhsil sisteminə olan baxışını anadangəlmə buruq saçları olan qızın saçını dibindən qırxmağı əmr etdiyi epizodda açıq müşahidə etmək mümkündür. Burada müəllif heç bir şərh bildirmədən sadəcə tərbiyəçinin verilən əmrə olan münasibətini göstərən bir cümlə ilə kifayətlənir: "Miss Templ dəsmalını ağzına apardı, sanki bununla özündən asılı olmadan üzündə yaranan təbəssümü yığışdırdı."[1.85]

Bronte xüsusi diqqətlə gənc keşiş Riversin zahiri görünüşünü təsvir edir – burada o, keşişin daxili və xarici aləmi arasında ziddiyyətlər olduğunu da vurğulayır, belə ki, Rivers zahirən gözəl olsa da, daxilən soyuq və duyğusuzdur, o sırf öz vəzifəsini yerinə yetirmək naminə xidmət etdiyi insanları belə sevmir. O, qədim heykəltəraşlığın soyuq mərmərini xatırladır. Ceyn Eyrin bu cümləsində Riversin görünüşü daha aydın təsvir olunmuşdur: "Mən inamsız tərzdə onun dediklərinə sualla cavab verdim və onun ahəngdarlığıyla gözəl, amansız ciddiliyilə qorxunc üz cizgilərinə, düşüncəli, lakin soyuq alnına, parıltılı, dərin, nüfuzedici, amma zəriflikdən əsər-əlamət olmayan gözlərinə, hündür, təsirli vücuduna baxdım və bir anlığa özümü onun arvadı yerində təsəvvür etdim."[1.540] Beləliklə Riversin psixoloji portreti onun zahiri görünüşünün təsviri ilə mükəmməl şəkildə cızılır və bizim qarşımızda başqasının hisslərini duya bilməyən tipik puritan dünyagörüşünün nümayəndəsi dayanır. Sent-Con Riversin xarakterinin yaradılmasını realist Brontenin ən böyük uğurlarından hesab etmək olar.

Bu həmin Brontedir ki, yaradıcılığına diqqətlə nəzər saldıqda itaətsizlik və üsyankarlıq olduqca parlaq şəkildə müşahidə olunur. "... Kim ki sənlə yaxşı rəftar edir, sən də ona qarşı yaxşı olursan. Məncə belə də olmalıdır. Əgər insanlar yalnız qəddar və haqsız olanlara tabe olsaydılar, onda qəddar adamlar hər şeyi öz istədikləri kimi edərdilər: onlar heç nədən qoxmaz və bunun nəticəsində hər şey gün-gündən pisləşərdi. Bizi səbəbsiz yerə döyəndə, biz zərbəyə zərbə ilə cavab verməliyik, buna qəti əminəm, özü də cavab zərbəsi elə güclü olmalıdır ki, sənə bir daha əl uzatmağa heç kimin cürəti çatmasın",[1.77] - ona qarşı edilən bütün haqsızlıqları bağışlamalı olduğunu deyən mərhəmətli və mülayim rəfiqəsi Helen Berns ilə söhbətində on yaşlı Ceyn

deyirdi. Məhz onun xarakterinin itiliyinin real təsviri oxucularında qəhrəmana qarşı rəğbət oyatmışdır. Çünki sağ yanağa zərbə dəyəndə sol yanağı da irəli vermək prinsipi ilə yaşayan kasıb və kimsəsiz insanların ədalətsizlik qarşısında aciz olduqları bir dövrdə hələ uşaq ikən bu fikirləri səsləndirmək böyük mərdlik tələb edirdi. Təsadüfi deyildir ki, ədəbiyyatda Helen Berns kimi gənc obrazlar erkən yaşda dünyasını dəyişirlər, bununla müəlliflər oxuculara çatdırmaq istəyirlər ki, belə mərhəmətli balalar bizim ədalətsiz və mərhəmətsiz dünyamızda yaşamaq üçün çox təmiz və safdırlar, buna görə də tab gətirə bilmirlər. Ceyn isə həyatına davam edir və artıq yetkinlik dövrünü tamamladıqda İncildən öyrəndiklərini daha aydın dərk etmiş, sakitləşmiş, bütün inciklikərini bağışlamağı öyrənmişdir. Buna baxmayaraq on səkkiz yaşlı Ceynin iti dili və müşahidə qabiliyyəti onu tərk etmir, əksinə onun obrazını daha da cəlbedici və maraqlı edir.

Artıq qeyd olunduğu kimi, roman birinci şəxs tərəfindən nəql edilir. Bu ənənə, qəhrəmanın psixologiyası artıq yazıçıların diqqətini çəkməyə başladığı vaxtdan, XVIII əsrdən mövcud idi. Bəhs etdiyimiz romanda da bu cür ifadə vasitəsi, eləcə də digər bədii metodlar, obrazların psixologiyalarını fərdi şəkildə, o cümlədən dərindən təhlil etməyə imkan yaradır və beləliklə biz əsərin qəhrəmanının daxili dünyasını daha asan kəşf edə bilirik. Ceynin ətrafındakı insanlara və baş verən hadisələrə olan münasibəti, düşüncələri, əldə etdiyi təcrübələr, keçirdiyi hiss və həyəcanlar daxili monoloq şəklində verilmişdir. Onu da qeyd etmək lazımdır ki, bu tip monoloqda adətən yazıçının özünə məxsus olan fikirləri öz əksini tapır, belə ki, yazıçı düşündüklərini əsərin qəhrəmanının dili ilə oxucuya çatdırır.

"Ceyn Eyr" əsərində qəhrəmanın daxili səsini əsas ifadə vasitələrindən biri hesab etmək olar. Bu monoloq mürəkkəb bədii cümlələrdən təşkil olunduğu üçün olduqca emosional səslənir. Bir başqa xüsusiyyət də qəhrəmanın iki səsin söhbəti formasında qələmə alınmış düşüncələrində müşahidə olunur. Məsələn, yazıçı Ceynin Roçesterlə baş tutmayan nigaha görə keçirdiyi həyəcanı, məyusluğu ətraflı təsvir edir. Onun tərəddüdü və bu uğursuzluqdan sonra həyatını necə davam etdirəcəyi barədə acı düşüncələri ağlının və duyğularının dialoqunda öz əksini tapır.

Əsərdə mənəvi narahatlığın böyük hissəsi kəffarə və bağışlanma ilə əlaqədardır. Cənab Roçester keçmiş səhvlərinə və günahlarına görə əzab çəkir. O tez-tez qəbahətli həyat tərzi sürdüyünü özü də etiraf edir və Ceynə qarşı heç də təqdirəlayiq sayılmayan hərəkətlər edir. Hətta cənab Roçester bəzi oxucular tərəfindən sırf Ceyndə qısqanclıq hissi baş qaldırsın deyə Blanş İnqrem ilə münasibət yaratdığına görə günahlandırılır. Həmçinin evli ola-ola Ceyn ilə nigah bağlamaq istəyinin dini və mülki orqanlar tərəfindən yaxşı qarşılanmayacağını bilsə də, o fikrindən dönmür və nigah üçün bütün hazırlıqları görməkdə davam edir, üstəlik evli olduğunu Ceyndən gizlətməyə çalışır. Bunlar əlbəttə Roçesterin günahlarından sadəcə bir neçəsidir. Lakin bu o demək deyil ki, o heç bir rəğbətə layiq deyil. Axı o bağışlanmaq üçün artıq bir sıra cəhdlər etmişdi. Məsələn, o özünün Adelin atası olduğuna heç cür inanmamağına və bunu qəbul etməməyinə baxmayaraq, həmin qızı gətirib evində saxlayır və onun təhsil və tərbiyə almasına xüsusi diqqət yetirir. Həmçinin ağlını itirmiş həyat yoldaşına nifrət etsə də, ona baxması üçün xidmətçi təyin edir. Roçester ilk nigahı barədə həm öz ailəsi, həm də həyat yoldaşının ailəsi tərəfindən aldandığını, baş verən bədbəxtliklərdə günahsız olduğunu vurğulasa da, ölənə qədər arvadını tərk etmir və onu evində saxlayır. Onun məhz bu hərəkətləri bəlkə də günahlarından təmizlənməsinə səbəb olmuşdur.

Bu iki bir-birinə zidd olan anlayışları böyük ustalıqla tərənnüm etmiş Bronte həmçinin evlilikdə də haqsızlığa dözümü olmadığını oxucuya qəhrəmanın dili ilə çatdırır. Belə ki, Diana qardaşı Sent-Con Riversin Ceynə etdiyi evlilik təklifi barədə ona suallar verən zaman Ceyn cavabların birində deyir: "O mənə bildirdi ki, mən zəhmət

üçün yaranmışam, məhəbbət üçün yox. Bu, əlbəttə, həqiqətdir. Onda belə çıxır ki, əgər mən məhəbbət üçün yaranmamışamsa, deməli, nikah üçün yaranmamışam. Di, məgər ömrünü sənə yalnız əlverişli vasitə kimi baxan adamla bağlamaqdan dəhşətli şey ola bilərmi?"[1.551] Əsərin yazıldığı dövrü nəzərə alsaq, bunları dilə gətirməyi bacarmaq olduqca cəsarətli bir addım hesab olunur. Cənab Roçester kimi imtiyazlı bir sahibin öz evində işləyən mürəbbiyəyə aşiq olması, kasıb və kimsəsiz olduğunu bilməsinə baxmayaraq onunla evlənmək fikrindən dönməməsi bir daha onu sübut edir ki, ağlın, nəcibliyin, alicənablığın və mərdliyin təbəqə ilə, dövr ilə əlaqəsi yoxdur, bunlar tamamilə fərdi keyfiyyətlərdir.

ƏDƏBİYYAT

1. Ceyn Eyr, Şarlotta Bronte, Bakı, Qanun nəşriyyatı, "Əli və Nino" nəşriyyatı, 2013
2. In the Footsteps of the Brontës, Ellis H. Chadwick, New York, Cambridge University Press, 2011
3. Jane Eyre, Charlotte Brontë, Oxford University Press, 1996
4. http://mirznanii.com/info/analiz-dzheyn-eyr-sh-bronte
5. http://skemman.is/en/item/view/1946/2289
6. https://www.goodreads.com/search?utf8=%E2%9C%93&query=jane+eyre
7. http://www.sparknotes.com/lit/janeeyre/canalysis.html
8.

GUNEL ISMAYILOVA

PSYCHOLOGICAL ANALYSIS OF THE NOVEL "JANE EYRE" WRITTEN BY CHARLOTTE BRONTË

SUMMARY

The article is devoted to the psychological analysis of the novel Jane Eyre written by Charlotte Brontë. For the description of the characters several methods of comparison and contrast are used. The inner world of some roles are the same as their outer portrait, while for some of them this is unacceptable.

The author of the article tried to analyse the novel taking into consideration both romantic and realistic elements of literature.

ГЮНЕЛЬ ИСМАЙЛОВА

ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ "ДЖЕЙН ЭЙР" НАПИСАННОЙ ШАРЛОТТЫ БРОНТЕ

РЕЗЮМЕ

Статья посвящена психологическому анализу романа Джейн Эйр написанной Шарлотты Бронте. Для описания персонажей используются несколько методов сравнения и контраста. Внутренний мир некоторых ролей такие же, как их наружной портрет, в то время как для некоторых из них это неприемлемо.

Автор статьи попытался проанализировать роман, принимая во внимание как романтические, так и реалистические элементы литературы.

Rəyçi: dos. N.S. Vəliyeva

N.S.MƏSUMZADƏ
Azərbaycan Müəllimlər İnstitutu
muslim-mamedov1@mail.ru

İMADƏDDİN NƏSİMİ YARADICILIĞINDA İNSANA MÜNASİBƏTİN BƏDİİ ƏKSİ

Açar sözlər: *insan, humanizm, şeir, şair, əsər, hürufilik, mübarizə, əqidə, klassik, irs, ədəbiyyat, şəxsiyyət*
Ключевые слова: *человек, гуманизм, поэзия, поэт, произведение, хуруфизм, борьба, вера, классический, наследие , литература, личность*
Keywords: *man, humanism, poetry, poet, work, hurufi, struggle, faith, classic, heritage, literature, personality*

Qloballaşan dünyada insanın şəxsiyyət kimi formalaşmasında, kamilləşməsində, mənəvi aləminin zənginləşməsində, dünyagörüşünün genişlənməsində klassik irsdə öz əksini tapmış ümumbəşəri ideya və konsepsiyalar mühüm əhəmiyyət kəsb edir. Müasir mərhələdə elmi-texniki tərəqqinin sürətli inkişafı insan şəxsiyyətinin formalaşmasında bütün imkanlardan, o cümlədən klassik söz sənəti incilərindən istifadəni zəruri edir. Bu baxımdan son dövrlərdə *dünya ictimai və bədii fikrində insan şəxsiyyətinə, insan mənəviyyatına marağın artması* heç də təsadüfi deyildir.

Məlumdur ki, Şərq bədii-fəlsəfi fikrində müxtəlif insan konsepsiyaları öz əksini tapmış, insanın kamilləşməsi problemi dərindən araşdırılmışdır. Bu baxımdan Nizami, Nəsimi , Füzuli, Tusi kimi görkəmli mütəfəkkirlərin yaradıcılığındakı humanizm, insan şəxsiyyətinə yeni yanaşmalar diqqəti cəlb edir.

Nəsimi Azərbaycan dilində şerin ilk gözəl nümunələrini yaradan, öz mütərəqqi fikirlərini yüksək bədii dillə ifadə etməyi bacaran qüdrətli sənətkarlardan biri olmuşdur. Onun ana dilindən başqa ərəb və fars dillərində də yaratmış olduğu divanlar şairin adının öz vətənindən çox-çox uzaqlarda, bütün Yaxın Şərqdə şöhrətlənməsinə səbəb olmuşdur.

Azərbaycan ədəbiyyatında ana dilində ictimai, fəlsəfi şeirin ilk qüdrətli nümayəndəsi İmadəddin Nəsimidir. Dövrün ziddiyyətlərinə böyük həssaslıqla cavab verən şair zəngin poeziyası ilə hər cür zülmü, ədalətsizliyi, qeyri-insaniliyi rədd etmiş, həqiqəti, insanlığı, insanın mənəvi gözəlliyini müdafiəyə qalxmış, qəlbinin hərarəti ilə insanı ucaltmış və tərənnüm etmişdir. Onun poeziyasında dünyaya, insana, onun fikir və əməllərinə yeni bir münasibət ifadə olunmuşdur.

Ulu Öndər *Heydər Əliyev anadilli poeziyamızın görkəmli nümayəndəsi, dünya mədəniyyətinə böyük töhfələr vermiş İmadəddin Nəsiminin irsinə yüksək qiymət verərək demişdir: "Uzun əsrlərin tarixi böyük Nizaminin (XII əsr) ölməz əsərlərini, Xaqaninin (XII əsr) məhəbbət və iztirab dolu poemalarını, Nəsiminin (XIV əsr) dərin fəlsəfi poeziyasını, Füzulinin (XVI əsr) insanpərvərlik ruhu ilə aşılanmış müdrik misralarını, Vidadinin və Vaqifin (XVIII əsr) xalq yaradıcılığı çeşməsindən qidalanan zərif lirikasını, görkəmli alim və mütəfəkkir Bəhmənyar əl-Azərbaycaninin (XI əsr) , Nəsrəddin Tusinin (XII əsr) əsərlərini hifz edib bizim günlərə çatdrmışdır." (30, 48)*

H.Araslı, M.Quluzadə, M.Cəfər, R.Azadə, N.Araslı, Ə.Səfərli, X.Yusifli, T.Kərimli, Y.Babayev və başqa alimlərin Nəsiminin kamil insan konsepsiyasına həsr olunmuş tədqiqatları bu böyük sənətkarın zəngin və çoxcəhətli irsinin müasir dövrümüz üçün əhəmiyyətinin müəyyənləşdirilməsi baxımından çox əhəmiyyətlidir.

Tədqiqatlar göstərir ki, İ.Nəsimi zəmanəsinin dərin bilikli şəxsiyyətlərindən

olmuş, hikmət, məntiq, əruz, qafiyə, tarix, nücum, fiqh, təbiətşünaslıq elmlərini öyrənmiş, elmi və fəlsəfi irsi mükəmməl mənimsəmişdir. Bütün bunlar onun bədii-fəlsəfi yaradıcılığında öz əksini tapmışdır.

Məlumdur ki, Nəsimi yaradıcılığında hürufi görüşlər mühüm yer tutur. Məlumdur ki, h*ürufilik hərflərlə bağlıdır, hüruf hərflərin cəmi deməkdir. Bu təriqət hərflərin müqəddəsliyinə əsaslanan və dünyanın sirlərini ərəb əlifbasının rəmzləri ilə izah edir. Hürufilərə görə həyatın bütün sirləri Qurandakı hərflərdə, bu hərflər də insan üzündədir.* Hürufilər bütün tələqiblərə, cəzalara baxmayaraq, yaşadıqları cəmiyyətin istismarçı təbiətinə qarşı çıxır, hakim təbəqənin insana münasibətdə ədalətsizliklərini, haqsızlıqlarını kəskin tənqid edirdilər.

Nəsimi yaradıcılığında humanizm və kamil insan problemi vəhdət təşkil edir. Böyük sənətkar insanı dünyanın əşrəfi, yaranmışların ən şərəflisi hesab edir, insanın böyüklüyündən, insan zəkasının qüdrətindən söz açırdı. İnsan təbiətindəki mənfi cəhətlərdən ürək ağrısı ilə bəhs edən şair onu düz yola dəvət edir, ağıl, zəka, düşüncə yoluna dəvət edirdi.

“ Nəsiminin ilahi və dünyəvi məzmunda yazdığı şeirlərində insan problemi əsas məsələdir. Böyük şair insanıən gözəllik və səadətini , onun könül sərbəstliyi və mənəvi azadlığını, əqli-mənəvi yetkinliyini hər şeydən üstün tutur, insanı həyatın maddi və mənəvi gözəlliklərindən layiqincə kam almağa çağırır.

Ona görə də insanın həyat sevincinə qarşı çıxan nə varsa, hamısını pisləyir, tənqid və ifşa edir, onları div, şeytan adlandırır.orta əsrlər həyatına və ictimai mühitə etiraz edən Nəsimi nadanlığı, cahilliyi ən böyük bəla sayır, şeirlərində yaşadığı dünyanən bədii mənzərəsini yaradır. Şair öz zəmanəsində sözübütöv. Doğrucul və vəfalı bir insan axtarıb tapa bilmir, Sanki bu aləmn saxtakarlıq, yalan və hiylə üzərində qurulmuşdur, onun heç bir sədəfində saf bir inci yoxdur, heç bir insanın ürəyi fitnə və hiyləgərlikdən uzaq deyildir.

Başqa bitr şeirində Nəsimi sədaqətli bir dost, sirdaş tapa bilməməsindən şikayətlənir, Bu dünyanı tikanlı bir bağa bənzədir və bu gülsüz yerdə gülzar axtarmağın boş, mənasəız bir iş olduğunu bildirir, Tikanlı dünya gül deyil, tikan bitirir, özü vəfasız, dəyanətsiz olduğundan vəfalı, etibarlı yar –yoldaş yetirmir.” (11, 335)

Nəsimi kamil insanın sözübütövlüyünü, sözü ilə əməlinin düz gəlməsini zəruri sayırdı. O, öz şəxsiyyəti, nümunəsi ilə müridlərinə nümunə göstərir, öz mübarizliyini əməlləri ilə sübut edirdi. Rəvayətə görə Hələb şəhərində Nəsiminin müridlərindən olan bir gənc hürufi şairin farsca yazılmış şeirini ucadan söyləyirmiş:

Həqbin nəzəri bayəd, ta ruye-məra binəd,

Çeşmi ke bovəd xodbin, key ruye-xoda binəd?

(Haqqı görən bir göz lazımdır ki, mənim üzümü görsün, o göz ki, ancaq özünü görür, xudbindir, Allahın üzünü haradan görər?) duyuq düşən ruhanilər gənci həbsə atdırırlar. Şeirin kimin olduğunu soruşanda, Nəsimini ələ vermək istəməyən gənc özünün yazdığını söyləyir. Ruhanilərin fitvası ilə onu dar ağacından asılmağa məhkum edirlər. Hadisədən xəbər tutan Nəsimi özünü cəza meydanına yetirib, şeirin müəllifi olduğunu bildirir. Ruhanilər onun hürufi mürşidi olduğunu öyrənib, diri-diri soyulmasına fitva verirlər.

Dərisi soyularkən qan itirən şairin saraldığını görən ruhanilər istehza ilə soruşurlar: - Sən ki həqsən, bəs niyə rəngin sarıdır?

Nəsimi: Mən əbədiyyət üfüqlərində doğan eşq günəşiyəm. Günəş batanda saralar, - deyə cavab verir.”

Şair öz dəyanətini, mübarizliyini, əqidəsi yolunda dönməzliyini əks etdirən məşhur “Ağrımaz” qəzəlində iki insanı qarşılaşdıraraq yazırdı:

Zahidin bir barmağın kəssən, dönüb haqdan qaçar,
Gör bu gerçək aşiqi sərpa soyarlar, ağrımaz.

Beytdən göründüyü kimi, şairin insana münasibəti fərqlidir. Barmağı kəsiləndə haqdan qaçan zahid əslində şər xislətlidir. Dediyi sözlə əməli düz gəlməyən yalançı, saxtakar zahid cahil insanı təmsil edir. Nəsimi fəlsəfi şeirlərində belə insanları müxtəlif əbalara bürünsələr də, nadan hesab edir. Çünki tamah, nəfs ucbatından mənəviyyatını itirmiş bu insanlar hər cür saxtakarlığa, cinayətə əl atmağa hazırdır.

Əsərin lirik qəhrəmanı şair özüdür. Lirik qəhrəman gerçək aşiqdir. O, əqidə mücahididir. Ölsə də,başdan ayağa dərisi soyulsa da, fərarilik etməz, haqq yolundan imtina etməz. Şairin fikrincə, gerçək aşiq ləyaqətli insandır, öz ağlı, düşüncəsi, yüksək mənəvi keyfiyyətləri ilə seçilir.

Şair bu əsərdə insan iradəsinin əzəmətindən, əqidə mücahidini ölümün gözünə dik baxmasından qürurla söz açır. Lirik qəhrəmanın mətanəti, dözümü, ağır işgəncələrə dözmək , düşmən qabağında əyilməmək əzmi şeirin hər misrasında öz əksini tapır.

Canə sən candan nə kim gəlsə, ciyərlər ağrımaz,
Həqq bilir, bir zərrə neştərdən damarlar ağrımaz.

Şair inamla bəyan edir ki, ölüm qorxusu onun qəlbinə hakim ola bilməyəcək, insana olan məhəbbəti ona dözüm, güc verəcəkdir.

Şaha, mehrindənmidir, ya aşinalıqdan mıdır,
Cismimi sər ta qədəm min gəz yararlar, ağrımaz.

Şair bu çətin məqamda da dediyindən dönmür, zahidin nahaq fitvasını bütün həyatı boyu mübarizə apardığı haqsızlığın, ədalətsizliyin bariz nümunəsi hesab edir. Zahidin puç əfsanəsi, adəti üzrə söylədiyi yalanı şairin sanki ömür boyu dediklərinin həqiqət olduğunu bir daha sübut edir.

Fitvasından zahidin nahəq məni gər soyalar,
Qəm deyil səndən- şəxa, görcək damarlar ağrımaz.
Zahidin əfsanəsindən soydular nahaq məni,
Həqq bilir səndən, şəxa, sahib nəzərlər ağrımaz.

Şair haqqı, haqq sözü insanlara çatdırmaq, izhar etmək üçün apardığı mübarizənin uğursuzluğundan sarsılmadığını söyləməklə arif insanların öz yoluna davam etdiyini bir daha təsdiqləmiş olur.

Şişəmi çün daşə çaldım, Həqqi izhar eylədim,
Çeşm-i əhval ağrıdan arif bəşərlər ağrımaz.

Sənətkarın insan qəssablarını murdar adlandırması onun cəhlətə, nadanlığa, dünya malına uyub zülm, ədalətsizlik yolunu tutanlara ittiham kimi səslənir.

Soyun, ey murdar sallaxlar, Nəsiminin tənin,
Bunca namərdi görün, bir ər qıyarlar; ağrımaz

İmadəddin Nəsiminin ən dəyərli əsərlərindən olan, onun kamil insan konsepsiyasının mahiyyətini yüksək sənətkarlıqla əks etdirən, əruzun rəcəz bəhrində yazılmış "Sığmazam" qəzəlidir. Bu məşhur əsərdə hürufilik təriqətinin əsas müddəaları öz bədii əlksini parlaq şəkildə tapmışdır:

Məndə sığar iki cahan, mən bu cahana sığmazam,
Gövhəri-laməkan mənəm, kövnü-məkanə sığmazam.
Ərşlə fərşü kafü nun məndə bulundu cümlə çün,
Kəs sözünüvü əbsəm ol, şərhü bəyanə sığmazam.

Şaitrin fəlsəfi-panteist düşüncələrinin ifadəsi olan qəzəldə kamil insanın obrazı yaradılıb, onun mənəvi ucalığı tərənnüm edilib. Şair sanki şər xislətli, cahil insanlara müraciətlə deyir ki, siz bu fani dünyaya, onun saxta həzlərinə uymusunuz. Mən isə iki cahana, yəni maddi və mənəvi aləmə sığmazam. Şair özünü "gövhəri-laməkan"

adlandırmaqla Allah-təalaya aid edilən xislətlərin insanda təcəlla etdiyini söyləyir, cahil insanı ayıltmaq istəyir.

Qəzəlin əruz vəzninin rəcəz bəhrində yazılması təsadüfi deyildir. Məlumdur ki, rəcəz sözünün mənası döyüş zamanı meydan oxumaq, hərbə-zorba gəlmək deməkdir. Şair əsərin ideya-məzmununa uyğun bu bəhri seçməklə düşmən qarşısında sarsılmaz iradəsini, əqidə, iradə möhkəmliyini, qürurunu, əyilməzliyini göstərmək istəmişdir.

Şair iki cahana sığmayan insanın əzəmətini, böyüklüyünü, ləyaqətini iftixar hissi ilə bəyan edir. Bu, əlbəttə, insana günahkar bəndə kimi yanaşan fanatiklərin, riyakar din xadimlərinin mövqeyini sarsıdır, şairin düşmənlərini artırırdı.

Zəmanəsində insana münasibətə, insan şəxsiyyətinin alçaldılmasına, istismara, yalana etiraz edən şair yaşadığı cəmiyyətdə əhdinə vəfalı, doğru danışan, haqqı bilən, gerçək insan tapa bilmədiyini ürək ağrısı ilə söyləyir:

Qanı bir əhdü peymanı bütün yar?!
Qanı bir qövlü gerçək, doğru dildar?!
Qanı həqqi bilən bir gerçək ər kim,
Ola doğru anın dilində göflar?!

Nəsiminin fikrincə, Allah insanı xoşbəxt olmaq üçün yaratmışdır, bu xoşbəxtlik, yalan, bəd əməllər üzərində qurula bilməz. Div, şeytan təbiətli insanlar başqalarına zülm edir, şər əməlləri ilə fəlakətlər törədirlər. O, üzünü bu dünyaya uyanlara, Haqqı unudanlara, "divi-rəcimlərə" (lənətlənmiş, nifrətə layiq divlərə) tutub deyirdi:

Var-dövlətdən nəyin varsa, səxavətlə xərclə müdam,
Sərvət yığmaq, dövlət yığmaq sonsuzlara olmuş şəkər,
Cahan mülkü karvansara, insanlarsa bir qonaqdır,
Ölüm isə darvazadan asılmış bir əyri çənbər.

Humanist şair şər xislətli insanın da haqq yoluna qayıdacağına ümidini itirmir, həyatın mənasınıən sərvətdə, dünya malında olmadığına, xeyirxahlığın, dünyanı dərk etməyin, həyatın mənasınıə, gözəlliyini dərk etməyin zəruriliyinə inandırmağa çalışırdı.

Yoxdur vəfası dünyanın, aldanma anın alına,
Rəngindən oldu münfəil hər kim boyandı alına.
Əsli dənidir dünyanın, zatında yoxdur bir əlif
Tərkibinə gəl bax anın, şol yavü nunü dalına.
Arısı yalandır, saqın dadlısına aldanma kim.
Acıdır anın şəkkəri, ağı qatılmış balına.

Fani cahanın sevgisi damu odudur yandırır,
Qaç ol qarıdan, ey könül, aldanam zülfü xalına.

Vəfasız dünyaya uymaq, balına zəhər qatılmış, şəkəri acı olan zəmanənin hiylə-sinə, yalanına aldanmaq insanı cılızlaşdırır, onu sevgisiz, dostsuz həyat, mənəvi təklik, tənhalıq, nəticə etibarilə peşimançılıq gözləyir.

Nəsimi insanı özünü, dünyanı, təbiəti dərk etməyə çağırır. Şairi insanın bu dünyaya gəlməsinin mənası, dünyanın yaradılığı, kainatın, təbiətin sirləri düşündürür, kamilliyi zəkada, düşüncədə, bu sualların cavabının axtarılmasında görürdü.

Nəsiminin fikrincə, kamil olmaq, Haqqa qovuşmaq üçün insan öz nəfsinə qalib gəlməli, nəfsini haram şeylərlə məşğul etməməlidir.Bir növ cahillikdən uzaqlaşıb tədricən kamilliyin zirvəsinə doğru yaxınlaşmalıdır. İnsan onu Allahdan uzaqlaşdırıb şeytanın vəsvəsəsinə uyduran hər cür vasitələrdən çəkinməli, öz saflığını qorumalıdır:

Məgər həqdən ziyan gördün ki,batil qövlə yapışdın,
Çevirdin üzünü həqdən, saqın kim, həq degil batil.

Akademik T.Kərimli və S.Şıxıyeva yazır ki, Nəsimi humanizmində insana məhəbbət ucdantutma deyil; burada seçim var: Nəsiminin sevdiyi və hörmət bəslədiyi insan -kamil insandır, insanlıq adına layiq olan fizioloji varlıqdır:

Mərhəba, insani –kamil, canımın cananəsi,
Aləmin cismi sədəfdir, sənmisən dürdanəsi?

Bu cür ali mərtəbəyə çatmış kamil insan şairin gözündə Tanrının yer üzərindəki bir nümayəndəsi kimi cilvələnir və böyük mütəfəkkir fəxrlə deyir ki, onu yalnız qorxduqlarına görə, Tanrıya şərik çıxarmamaq üçün Haqq (Allah) adlandırmırlar. Şairin aşağıdakı beyti məhz Tanrı məzhəri olan kamil insana ünvanlanmışdır:

Səni bu hüsnü camal ilə, bu lütf ilə görən
Qorxdular Haqq deməyə, döndülər insan dedilər.

Nəsimi yaradıcılığında dünya, cəmiyyətdəki qanunlar insanın saflığını pozur. İnsanın nəfsi onu dünyaya uymağa sövq edir. Tamahınıln quluna çevrilən insan bütün ümidlərini, arzularını dünyəvi hisslərlə maddi aləmə bağlayır və həqiqət yolundan azrır.

Məhz buna görə də Nəsiminin giley, qınaq və tənqid hədəfi dünyadan onun insanlarına və ictimai həyata doğru yönəlir.

Dərdü qəm ilə yandı könül, yar bulunmaz,
Çox darü diyar istədi, dəyyar bulunmaz .

Nəsimi humanizminin çağdaş dünyamız üçün önəmli olan cəhətlərindən biri də onun mücərrəd xarakter daşmaması, konkret insan münasibətlərini. Real insan gözəlliklərini əks etdirməsidir.Bu cür miniatür poetik örnəklərdə konkret bir situasiyada təsirlənmiş və köksünü qabardan emosiyaları "isti-isti" qələmə almış bir sənətkarın könül çırpıntıları aydınca duyulmaqdadır. (1,232-233)

Kamil insan Nəsiminin fəlsəfi şeirlərinin lirik qəhrəmanıdır. Kamil şəxsiyyət dərin idrak sahibidir, öz düşüncəsi ilə özünü və ilahi həqiqətləri dərk edir, hərflərin elmini bilir, şeytan adlanan nəfsin əsarətinə düşmür, div xislətindən uzaq olur, hürufi görüşlərini dərk və qəbul edir, insanı və haqqı sevən həqiqət yolçusudur. Sənətkarın filosof düşüncəli lirik qəhrəmanı kamillik yolunun əsas stimulu kimi eşq camını nuş etməyi məsləhət bilir.

Nəfsini hər kimsə kim, tanıdı ol həqqi bilir,
Arifi-rəbb oldu ol kim, tanrı buldu səbat.

Kamilliyı gedən yol asan deyil, bu yolu gedən insan çətinliklərə qatlaşmalı, sınaqlardan üzüağ çıxmaq üçün mətanətliu olmalıdır. Nəsimi insana böyük qiymət verir və insanı alçaldan, insanın iradə və azadlığını buxovlayan hər cür amilə etiraz edir. İnsan ən qiymətli bir sərvətdir. Hər şey onun yer üzündəki səadətinə və azadlığına xidmət etməlidir.

Dünyanın sevgisi ağır yük imiş, məndən eşit,
Nəfsini yük etmə ana, ey səbükbar, istəmə!
Nəfsi xəbisə uymaq nadanların işidir,
İşin nədir, gör axır, fikr eylə, olma nadan.

Şair dönə-dönə oxucusunu nəfsdən, tamahdan, xəbislikdən ikrah etməyə, nadan olmamağa səsləyir. Onu öz nəfsinin hara aparacağını dərk etməyə çağırır.

Göründüyü kimi, *Nəsimi kamil insan haqqında qənaətlərini hürufi baxışları ilə əlaqələndirmiş, insan obrazlarını yaradarkəm yaşayıb-fəaliyyət göstərdiyi mühitin reallıqlarına münasibət bildirmiş, mütərəqqi fəlsəfi baxışları əsas götürmüş və və bununla fəxr edərək öz müasirlərinə və özündən sonra sənətə gələcək insanlara örmək göstərmişdir.* O, *humanizm məsələsində öz dövrünü və özündən sonrakı dövrün baxışlarını xeyli qabaqlamış, kamil insan, insana humanist münasibətlə bağlı bu gün də öz əhəmiyyətini itirməyən, aktuallığını qoruyub saxlayan müdrik fikirlər söyləmişdir.*

Nəsimi bu gün də bəşəriyyəti düşündürən problemlərə fəlsəfi və bədii müstəvidə münasibət bildirmiş, humanist baxışları ilə bəşəriyyətin böyük ustadları sırasında öz şərəfli yerini həmişəlik tutmuşdur.

ƏDƏBİYYAT

1. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. 3-cü cild.
2. Araslı H. İmadəddin Nəsimi. Bakı: Azərnəşr, 1972. 76 səh.
3. Araslı H. XVII-XVIII əsrlər Azərbaycan ədəbiyyatı tarixi. Bakı: 1956.
4. Babayev Y. Təriqət ədəbiyyatı:sufizm, hürufizm. Bakı: Nurlan, 2007, 128 s.
5. Bayat F. Türk təkkə (təsəvvüf) ədəbiyyatı. Bakı: Elm və təhsil, 2011. 440 s.
6. Heydər Əliyev ədəbiyyat və incəsənət haqqında.Bakı: Günəş, 2004.
7. Qəmbərova Q. Nəsimi şeirində sözün hikmətləri. Bakı, Elm və Təhsil, 2009.
8. Quliyeva M. Klassik Şərq poetikası. Bakı, Yazıçı, 1991.
9. Nəsimi İ. Seçilmiş əsərləri. 2 cilddə. I c. Bakı:Lider nəşriyyat, 2004. 336 s.
10. Nəsimi İ. Seçilmiş əsərləri. 2 cilddə. II c. Bakı: Lider nəşriyyat, 2004. 376 s.
11. Səfərli Ə., Yusifov X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 1982, 388 s.

Н.С.Масумзаде

ХУДОЖЕСТВЕННОЕ ОТРАЖЕНИЕ ОТНОШЕНИЯ К ЧЕЛОВЕКУ В ТВОРЧЕСТВЕ И.НАСИМИ

РЕЗЮМЕ

В статье анализируется особенности художественного отражения отношения к человеку в творчестве великого Азербайджанского поета И.Насими. Отмечается, что в своих философских стихах поэт воспевает величие человека, силу его разума и веры в справедливость. Насими противопоставляет личности совершенного человека к жадным, двуличным людям, творящим зло.

N.S.MASUMZADE

ARTISTIC REFLECTION OF THE RELATIONSHIP TO THE PERSON IN THE WORK I.NASIMI

SUMMERY

The article analyzes the features of artistic reflection to man in the work of the great Azerbaijani poet I.Nasimi. It is noted that in his philosophical poems poet extols the greatness of man, the power of his mind and faith in justice. Nasimi contrasts the perfect person to person greedy, duplicitous people who do evil.

Rəyçi: Bilal Hətəmli
Pedaqogika üzrə fəlsəfə doktoru, dosent

İLAHƏ XANTƏMİROVA
AMEA Milli Azərbaycan Tarixi Muzeyinin
ilahakhantamirova@gmail.com

MİRZƏ BALA MƏHƏMMƏDZADƏNİN "QADINLARA HÜRRİYYƏT" MƏQALƏSİNDƏ QADIN AZADLIĞI PROBLEMİ

Açar sözlər: *M.B.Məhəmmədzadə, mühacirət, Azərbaycan, hürriyyət, qadın, təhsil*
Key words: *M.B. Mahammadzada, emigration, Azerbaijan, liberty, woman, education*
Ключевые слова: *Мирза Бала Мамедзаде, эмиграция, Азербайджан, свобода, женщина, образование*

Azərbaycan mühacirət mətbuatının nümayəndəsi, yazıçı, publisist, tarixçi, istiqlal hərəkatının fəallarından olan Mirzə Bala Məhəmmədzadənin həyatı və yaradıcılığı haqqında müəyyən sayda araşdırmalara rast gəlmək mümkündür. Lakin, bu araşdırmalar əsasən onun həyatı və səthi şəkildə yaradıcılığının öyrənilməsi ilə məhdudlaşır. M.B. Məhəmmədzadənin yaradıcılığı Azərbaycan tarixinin çox mürəkkəb və həlledici bir dövrünə təsadüf edərək müstəqillik uğrunda mübarizə, iki illik istiqlal və vəfatına qədər davam edən mühacirət həyatını əhatə etmişdir. Bu qədər zəngin tarixi proseslərin baş verdiyi bir dövrdə yaşamış müəllif həmin hadisələrdən kənarda qalmayaraq dövri mətbuat orqanlarında siyasi-ictimai analizlər apararaq öz mövqeyini sərgiləmişdir. O, yaradıcılığında yalnız bunlarla kifayətlənməmiş, Azərbaycan tarixinin müxtəlif dövrlərinə aid təhlillər aparmış, bizim üçün hələ də əhəmiyyətini itirməyən mühüm mövzulara toxunmuşdur. Bütün bunları nəzərə alaraq, tam əminliklə deyə bilərik ki, üzərindən təxminən bir əsrlik dövr keçməsinə baxmayaraq onun yaradıcılığı, toxunduğu problemlər dövrümüzdə də öz aktuallığını saxlamaqdadır.

Mirzə Bala Məhəmmədzadənin yaradıcılığına qısa nəzər saldıqda həqiqətən də zəngin, araşdırılması önəmli olan bir irsə malik olduğunu görürük. Qeyd edildiyi kimi M.B.Məmmədzadə həm Bakıda, həm də mühacirətdə yaşadığı müddətdə müxtəlif sayda qəzet və jurnallarla əməkdaşlıq etmiş, Azərbaycan tarixi üçün əhəmiyyətli olan qiymətli əsərlər yazmışdır. Çox erkən yaşlarından yaradıcılığa başlayan müəllifin ilk əsəri 1912-ci ildə çap olunmuş "Nəf elm və elmin sonu"dur. O, 1915-ci ildən "Açıq söz" qəzetində "Açıq sütunlar" bölməsində məqalələr yazmağa başlayır. Sonrakı illərdə "Bəsirət" qəzetində baş redaktorluq etmiş, 1918-1920-ci illərdə nəşr olunan "Azərbaycan" və gizli fəaliyyət göstərən "İstiqlal" qəzetlərində yazılarla çıxış etmişdir. 1918-ci ildə Tiflisdə "İki inqilab arasında" adlı kitabçası, 1922-ci ildə Bakıda "Azərbaycan türk mətbuatı", 1927-ci ildə İstanbulda "İran və Ermənilər", 1938-ci ildə Berlində "Milli Azərbaycan hərəkatı" və nəhayət 1951-ci ildə "Azərbaycan tarixində türk Albaniyası" adlı əsərləri çap olunmuşdur (8,50). Mühacirətdə yaşadığı zaman yalnız əsərlər yazmaqla kifayətlənməmiş, əvvəlki vaxtlarda olduğu kimi müxtəlif qəzet və məcmuələrdə öz yazılarını çap etdirmişdir. Onun xaricdə əməkdaşlıq etdiyi mətbu orqanlarına "Azərbaycan" "Yeni Qafkasya", "Odlu Yurt", "Azəri Türk", "Bildiriş" və s. kimi mühacir qəzet və jurnalları daxil idi. O dövrün gerçəkliklərini öyrənmək baxımından həmin qəzet və jurnallar xüsusi əhəmiyyət kəsb edir.

Mizrə Bala Məhəmmədzadə əsərlərində çoxçeşidli mövzulara toxunmuşdur. Onun yaradıcılığına nəzər saldıqda siyasi məsələlərdən tutmuş, sosial, iqtisadi problemlərə qədər müxtəlif mövzularda işlədiyinin şahidi oluruq. Onun üçün önəmli olan

mövzulardan biri də azadlıq məsələsi idi. Azadlıq anlayışı onun üçün yalnız Azərbaycanın hürriyyəti ilə məhdudlaşmırdı. Bura insan azadlığı, kəndli hüquqları, o cümlədən, qadın azadlığı daxil idi. Digər məsələlər kimi qadınların hürriyyəti məsələsi də uzun zaman əsas problemlərdən biri olaraq qalmış, onun həll edilməsi üçün xalqın müxtəlif nümayəndələri tərəfindən cəhdlər olunmuşdur. Mirzə Bala Məhəmmədzadə üçün də bu məsələ xüsusi önəm daşımış və mövzuya xüsusi həssaslıqla yanaşmışdır. O, bir çox araşdırmalarında bu problemi təhlil edərək onun həll olunmasının əhəmiyyətindən, keçdiyi proseslərdən və çətinliklərdən başlamış həlli prosesinə qədər olan məsələlərə pillə-pillə toxunmuşdur. Bu mövzu müxtəlif müəlliflər tərəfindən araşdırılsa da, məsələni Mirzəbala Məhəmmədzadənin mövqeyindən araşdırmaq işin elmi yeniliyi hesab oluna bilər.

Məqalə M.B. Məhəmmədzadənin bir araşdırması əsasında işlənib. Təəssüf ki, hələlik əlimizdə onun bu mövzuda yazdığı yalnız bir məqaləsi var. Bu 1954-cü ilin mart ayında Ankarada Azərbaycan mühacirləri tərəfindən yaradılmış "Azərbaycan Kültür Dərnəyi"nin mətbu orqanı olan "Azərbaycan" jurnalında nəşr olunan "Qadınlara hürriyət" adlı məqalədir. Məqalə 1950-ci illərdə yazılsa da buradakı hadisələr XIX əsrin sonu və XX əsrin əvvəllərinə təsadüf edir. Bu o dövr idi ki, cəmiyyətdə qadının heç bir hüququ və söz demək haqqı yox idi. Hər yerdə cəhalət, qadın savadsızlığı hakim idi. Lakin, bunun cəmiyyət üçün necə böyük fəlakət olduğunu dərk edən və buna görə mübarizə aparan ziyalılar formalaşmaqdaydı. Onlar, qadınların cəmiyyətdə həqiqətən də yüksək bir mövqeyə malik olduğunun danılmaz bir fakt olduğunu qeyd edir, bu problemin həlli üçün müxtəlif yollarla, o cümlədən, mətbuat orqanları vasitəsi ilə təbliğat apararaq insanların gözlərini açmağa çalışırdılar. Maraqlıdır ki, o dövrün mətbuat orqanlarında ən geniş yayılmış bir şüar var idi: "Bir münəvvər ana yüz məktəb müəlliminə bərabərdir" (3, 3).

Qadın hüququ məsələsi müsavatçıların da gündəmində əsas məsələlərdən olmuşdur. Müsavat partiyasının bir üzvü olaraq Mirzə Bala Məhəmmədzadə "Qadınlara hürriyyət" adlı məqaləsində qeyd edirdi: "Milli Azərbaycan Xalq Partiyası "Müsavat"ın təmsil etdiyi demokratik cəbhə qadınların seçib seçilmək haqlarına malik olmalarını, milli məfkurənin gərçəkləşməsi üçün əsas şərtlərdən biri, bəlkə də ən başda gələni olaraq qəbul etməkdə idi. Məmləkətin idarəsini ələ almaq və milli dövlət əməlini reallaşdırmaq üçün seçimlərin qazanılması lazım gəldiyinə tərəddüdsüz olaraq iman edən demokratik cəbhə, qadınları əsir bir millətin seçimləri qazanmayacağını və məmləkət müqəddəratının qeyri-türk azlıqlarının əlinə keçəcəyini irəli sürürdü" fikirləri ilə ifadə edirdi(3, 2). Bütün bu fikirlər, cəhdlər istiqlalımızın elan edilməsi ilə özünün kuliminasiya nöqtəsinə çatmış oldu. 1918-ci il may ayının 28-i ilk dəfə Azərbaycan adlı bir dövlətin yaranması ilə yanaşı yalnız Azərbaycan tarixində deyil, bütün türk-müsəlman dünyasında ilk dəfə qadınların hüquqları rəsmiləşdirildi və onlar cəmiyyətin hüquqlu vətəndaşı kimi qəbul olundu. Müəllif də bu məsələni önə çəkərək qeyd edilən məqaləsini İstiqlal bəyannaməsinin dördüncü maddəsinə istinad edərək başlayır: "Azərbaycan İstiqlal Bəyannaməsinin milli və vətəni haqlardan bəhs edən dördüncü maddəsi, millət, məzhəb, sinif, məslək fərqləri ilə birlikdə, cinsiyyət fərqlərini də aradan qaldıraraq, kişilərə və qadınlara bərabər hüquqlar tanımaqdadır. Mədəni, hüquqi və siyasi mənası ilə Azəri qadınını tam hürriyyətə və insan haqlarına qovuşduran bu qərarın türk və müsəlman aləmində çox böyük bir inqilab həmləsi olduğuna şübhə yoxdur. Yeni doğan demokratik bir cümhuriyyətin gələcək konstitusiyasına təməl olacaq İstiqlal Bəyannaməsinin digər maddələri kimi, bu maddə də, tarixi bir təkamül

seyrinin məntiqli nəticəsi idi. Qadınlarla kişilərə mədəni haqlarda bərabərlik prinsipini tanıyan bəyannaməni elan edən Azərbaycan Milli Şurası qadınların da iştirak etdiyi ümumi və sərbəst bir seçim ilə təşəkkül etmişdi. O seçim günlərin xatırlayanlar və yaxud o dövrün mətbuatını incələyəcək olan bu günün və sabahın nəsilləri azəri qadınının istiqlal hərəkatındakı müsbət və mühüm rolunu qiymətləndirəcəkdir" (3, 2). Mirzə Bala Məhəmmədzadənin "Milli Azərbaycan Hərəkatı" adlı əsərində isə bu fikirlərə rast gəlirik: "Azəri Türk qadınları Milli Şura seçimlərində kişilər qədər qabiliyyət göstərmişdir. Onlar demokratik seçkilərdə kişilərlə bərabər iştirak etməklə məmləkətin müqəddəratında böyük rol oynamışlar. Milli Müsavat Xalq Partiyası qadın haqq və hüququnu mühüm bir prinsip hesab edərək öz proqramına daxil etmişdir. Hətta bu partiyanın üzvləri sırasında kişilərlə bərabər qadınlar da mövcuddur (4, 15).

Mirzə Bala Məhəmmədzadənin qeyd edilən məqaləsində Azərbaycan Cümhuriyyətinin elan edilməsinə qədər qadınların əsasən iki məsələnin həlli uğrunda mübarizə apardığını qeyd edir. Birinci, qadınların müasir məktəblərdə təhsil alması, ikinci isə onların çarşablardan xilas olması məsələsi idi. Qeyd edilən ikinci məsələ tərəqqipərvər aydınların fədakarcasına mübarizəsi nəticəsində ziyalılar ordusu qələbə qazandıqca tədrici təkamül seyri göstərirdi. Bu təkamül seyrinə paralel olaraq, əsasən qadınların hürriyyəti və kişilərlə bərabər haqlara malik olmaları məsələsi də meydana çıxır, bu mübarizəni ələ alan dərnəklər və birliklər qurulurdu (3, 3).

Birinciyə gəldikdə isə bu həqiqətən də çox mühüm problemlərdən biri olaraq qalırdı. Məlumdur ki, XIX əsrin sonlarında Bakıda bir sıra qadın məktəbləri fəaliyyət göstərirdi ki, burada, əsasən, qeyri–azərbaycanlı qızlar təhsil alırdılar. Azərbaycanlı qızlar üçün təhsil müəssisəsinin açılması isə hələ də həyata keçirilməmiş qalırdı. Baxmayaraq ki, bu çox həyati bir məsələ və cəmiyyətin, xalqın inkişafının özəyi hesab olunurdu. Əgər bir millətin qadını təhsilsizdirsə, o millətdən işıqlı gələcək gözləmək sadəcə avamlıqdır. Bu fikri bir sıra mütəfəkkirlərimizin yazılarında da müşahidə etmiş oluruq. Bu münasibətlə Məhəmməd ağa Şahtaxtinski yazırdı: "Qadın təhsili.... elementar ümumtəhsil bilikləri verər və islam dünyasını əsaslı sosial xəstəlikdən xilas edər, çünki qadınlar qapalı həyat sürürlər. Bu həyatda fiziki və əqli sağlamlıq üçün zəruri olan hərəkətlərin, sərbəstliyin olmamağı onları ərköyün və aciz, arıq, qanı aşağı, cansız edir. Özlərinin bu çatışmazlıqlarını, əlbəttə ki, analar irsən nəinki qızlarına, hətta oğlanlarına da keçirirlər" (2,7). M.B.Məmmədzadə də məqaləsində o dövrün mətbu orqanı olan "Dəbistan" jurnalından sitat gətirir: "Mədəniyyətli və tərbiyəli anaların əllərində bəslənmiş uşaqların gələcəkdə millət xadimi və camaata xeyir və fayda verən bir şəxs olacaqlarına əsla şəkk və şübhə etməməlidir", ardınca isə mətbuatın əməyinin boşa getmədiyini qeyd edirdi: "Ailənin təməl daşını təşkil edən ananın qucağını "ilk məktəb" olaraq anan və milli mövcudiyyətin özü kimi qəbul edilən o qucağın mədəniyyət və ziyalı ocağı halına gəlməsinə çalışan mətbuatın əməyi boşa getməmişdi" (3, 4) .

Həqiqətən də, uzun illər ərzində kölə kimi, yalnız məişət işləri ilə başını qatan Azərbaycan qadınının həyatını dəyişmək vaxtı yetişmişdi. Nə yetişdirmişdi onu? Cəmiyyətdə baş verən hadisələr Azərbaycanın da istiqlaliyyətini vacib edirdi, uzun müddət Rusiya tabeçiliyində olan xalqlar artıq bu istibdaddan cana doyaraq öz azadlıqları uğrunda mübarizə zamanının yetişdiyini dərk edirdilər. Lakin bu sahədə də problemlərimiz qalmaqda idi. Ən böyük məsələ təhsilli insanlarımızın, ziyalılarımızın say azlığı idi. Bir sözlə desək sayı çox, ziyalısı az olan xalqımızın yeni işıqlı simalara ehtiyacı var idi. Təhsilsizlikdən, savadsızlıqdan bu azadlıq hərəkatını yönəldəcək insanların sayı az idi. Odur ki, daha çox düşünən beyinə ehtiyacımız var idi. Bu yol isə

ilk məktəb olan ana qucağından keçirdi. Qadın nə qədər təhsilli olardısa cəmiyyətə təqdim etdiyi şəxslər, vətəndaşlar da o qədər açıq beyinli, savadlı olacaqdı. Deməli, məsələnin həlli qadınlarda idi. Bizim maarfipərvər ziyalılarımız bunu dərk edib artıq müsəlman qızlar üçün təhsil müəssisəsinin açılması zərurətini anlayırdılar. Qadınların oxumaları zərurətini meydana qoyan səbəb yenə milli mövcudiyyət məfkurəsi idi. Qadınlar ya azad və kişilərlə bərabər olacaq və bu sayədə öz ana torpağında öz müqəddəratını əlinə alacaqdı və ya qadınları insanlıqdan və hürriyyətdən məhrum edərək bütün mültezimi əcnəbilərin, hətta bizdən dəfələrlə az olan qonşularımızın ixtiyarına buraxacaqdı (4, 16).

Qeyd edilən məqaləsində qız məktəbinin açılmasına qədər fəaliyyətdən bəhs edən M.B.Məhəmmədzadə Azərbaycan mütəfəkkirlərinin bu mövzu ilə bağlı fəaliyyətlərini xüsusi qeyd etmişdir. Problemə yanaşmanı Mirzə Fətəli Axundzadənin əsərləri ilə başlayan publisist onun bu məsələyə ilk önəm verən biri olduğunu vurğulamışdır. O, Axundzadənin əsərlərindəki qadın obrazlarının müxtəlif çeşidləri, hətta, bəzən kişilərdən daha cəsur olduğunu qeyd etmişdir. Bundan sonra maarifçilik hərəkatında xüsusi xidməti olan Həsən bəy Zərdabi haqqında fikirlərini ifadə edərək "Mirzə Fətəlidən sonra davayı ələ alan Məlikzadə Həsən bəy, o günki şərtlər daxilində, Azəri qadınını "Həyat yoldaşının qulu" kimi qəbul edir və millətin bütün fərdləri ilə birlikdə onların da hürriyyət işığından nəsib alması təmənnasını gizləmirdi" deyə bildirirdi. Həmçinin o, Həsən bəyin yalnız, türkcə ilk qəzeti və ilk teatrı quran bir sənətkar olmadığını, bunları maarifi yaymaq uğrunda bir vasitə qəbul edən Həsən bəyin əsas davasının ana dilində müasir məktəb olduğunu qeyd edirdi (3, 3). Böyük İsmayıl Qaspiralı "Tərcüman"ın 3 mart 1896-cı il tarixli 9-cu sayında bu məsələ ilə bağlı yazırdı: "Həsən bəy Rusiyada ilk olaraq "Əkinçi adında milli qəzet təsis etmişdi. Bu cəhətdən ustaddır. Bu dəfə Bakıda müsəlman qızlarına məxsus məktəbi fənniyə təsisi üçün müraciət edir. Həsən bəyəfəndi həqiqət, insanlıq nümunəsi bir zatdır. Gənc zamanını mətbuata, yaşlılığını maarifə və bütün ömrünü istifadeyi-milliyəyə vermişdir"(3, 3). Məlumdur ki, məktəb açılması üçün çar hökumətindən icazə ala bilmədiyindən fikrini həyata keçirə bilmədi. Lakin bu ideya sonradan inkişaf etdirilərək reallaşdırıldı. Bu işi öz təhsilsiz olmasına baxmayaraq elmə, maarifə xüsusi önəm verən, bu sahədə xüsusi xidmətləri olan Hacı Zeynalabdin Tağıyev etdi. O, çox böyük çətinliklərdən sonra nəhayət ki, 1901-c ildə türk-müsəlman dünyasında ilk qızlar məktəbinin açılmasına nail oldu. Bu dövr etibarilə böyük bir hadisə idi. Bütün maneələrə baxmayaraq bu iş gerşəkləşdi. O dövr mətbuatında da bu hadisə yüksək qiymətləndirilərək alqışlanırdı. "Tərcüman" qəzetinin 1896-cı il, 14-cü sayında bildirilirdi: "Müsəlman qızlarının təhsil və tərbiyəsinə məxsus böyük məktəbi-fənniyə və ədəbiyyə təsisinə qərar verilib, hamiyət və efkari maarifpərəstisi ilə məşhur tacir və fabrikatör Hacı Zeynalabdin cənablarının təşviqi ilə Bakıda zadəgan və muteberani–islamin 150 000 rubla cemettikleri hüsusi bir teleqrafdan anlaşıldı. Yaşayınız bakılılar. Tereqqi yolundasınız... " (3, 3).

Bu ənənə sonralar da, Azərbaycan Cümhuriyyətinin elan edilməsindən sonra da davam etdi. Qeyd edildiyi kimi, qadınlara ilk dəfə seçim hüququ verən AXC hökuməti qadınların təhsil məsələsinə də xüsusi önəm verirdi. Yeni məktəblər açılır, digər tərəfdən yeni qurulmuş kişilər və qızlar universitetləri vasitəsi ilə müəllimələr hazırlanırdı. Maarif nəşriyyatı işində qadınların tərbiyəsi də kişilərlə bərabər tutulurdu. Mövcud rus gimnaziya liseylərindən biri tamamilə milliləşdirilmiş, bir çox qız ibtidai məktəbləri açılmış, hamısı da qızlarla dolmuşdu (6, 43).

Lakin, məlumdur ki, bu uğurlar birdən-birə əldə olunmamışdı və əgər belə demək mümkündürsə, hazır şəkildə qadınlara verilməmişdi. Hələ əsrin əvvəllərindən ziyalı qadınlar bacardıqları qədər mübarizə aparırdılar. Onlar müəyyən təşkilatlar, birliklər yaradır, qadınların haqları, onların təhsil məsələsinə toxunurdular. Qeyd etmək lazımdır ki, bu qadınların da əksəriyyəti dövrünün işıqlı simalarının xanımları idilər. 1908-ci ilin fevral ayında Qadınlar İttifaqının proqramı hazırlanır. Qadınlar İttifaqına Cəvahir xanım Rəfibəyova, Rəxşəndə bəyim Xasməmmədova, Sənubər xanım Ziyadxanova, Şükufə xanım Pişnamazzadə, Xədicə xanım Rəfiyeva, Şirin bəyim Xoyski, Dilşad xanım Xasməmmədova, Şəfiqə xanım Qaspıralı, Hənifə xanım Məlikzadə, Həmidə xanım Cavanşir kimi xanımlar daxil idi. Nəsib bəy Yusifbəylinin həyat yoldaşı olan Şəfiqə xanım hələ Krımda yaşadığı müddətdə "Aləmi nisvan" adlı məcmuənin redaktoru idi. Hansı ki, bu məcmuə çar Rusiyasında ilk türkcə qadın jurnalı idi (5, 20). Burada da qadınların təhsilsizliyi, təhsilli qadınların isə türkcəni bilməmələri kimi problemlərə toxunulurdu. "Aləmi nisvan" da çap olunan "Kafkasiyada müslime hanımlar" adlı məqalədə Qafqaz müsluman qadınlarının cəhalət dənizində boğulduqları, elm, maarifə həvəslərinin olmadığını, bu problemin öhdəsindən savadlı qadınların gəlməli olduğu qeyd edilirdi. Daha sonra bunun da digər bir problem olduğu, yəni, savadlı qadınların da türkcə, müsəlmanca bilmədikləri, bilmək istəmədikləri məsələsinə toxunulurdu (5, 21).

Bütün bu problemlərin içində qadın savadsızlığına qarşı çalışan həqiqi vətənpərvər ziyalı qadınların olduğunun bariz nümunəsi kimi Həsən bəy Zərdabinin həyat yoldaşı Hənifə xanım Məlikzadənin fəaliyyətini göstərə bilərik. Hənifə xanım Məlikzadə ilk müsəlman qız məktəbinin direktoru olmaqla öz adını Azərbaycan təhsil tarixinə yazdırmışdır. M.B. Məhəmmədzadə də məmləkətə və millətə yüzlərcə münəvvər ana yetişdirən bu irfan ocağının başında Həsən bəyin rəfiqəsi durduğunu qeyd edirdi (3, 3). Hənifə xanım eyni zamanda, 1909-18-ci illərdə Bakı şəhəri birinci qadın "rus-müsəlman" məktəbində, Azərbaycan Xalq Cümhuriyyəti dövründə birinci qadın türk məktəbində də müdir vəzifəsində çalışmışdır (1, 186).

Məqalənin sonunda M.B. Məhəmmədzadə Əhməd Cavadın yazdığı "İnandım ki, cənnət sənin ayağının altındadır" fikrini əsas götürərək, Azərbaycanın münəvvər qadınlarının hələ birinci dünya savaşı illərindən qadın hərəkatının idarəsini əllərinə aldığını qeyd edirdi. Belə ki, artıq onların xeyriyyə cəmiyyətləri, ədəbi toplantı yerləri, birlikləri, ədəbiyyat, mətbuat, sənət və bilik sahələrində təmsilçiləri vardı. Birinci Dünya Savaşı illərində ruslar tərəfindən işğala uğrayan Şərqi Anadolunun Qars, Ərdahan, Ərzurum, Trabzon bölgələrində qətliama məruz qalan türk qardaşlarının yardımına gedən Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti yetim evlərində, tikiş yurdlarında, sağlıq müəssisələrində, məktəb idarələrində hətta cəbhəyə qədər gedən heyətlərdə azəri qızlarını fəal bir mövqe tutduqlarının şahidi oluruq. 1917-ci il inqilabından sonra isə qadınlar siyasi partiyalarda fəaliyyət göstərməyə başladı. Qadınların mədəni haqlara, kişilərlə bərabər olaraq milli və vətəni haqlara malik olub olmayacaqları münaqişə edilən bu dövrdə, Azəri qadınları böyük bir imtahan keçirdi (4, 4).

Maraqlıdır ki, Hacı Zeynalabdin Tağıyev tərəfindən inşa edilən bina yalnız müsəlman qızlar üçün ilk təhsil yeri olmaqla funskiyasını başa vurmadı. Sonrakı illərdə bir çox məqsədlər üçün istifadə olunan bina Azərbaycanın digər bir tarixi hadisəsinə öz adını yazdı. Belə ki, 1918-ci il dekabrın 7-də Azərbaycan tarixində ilk dəfə olaraq parlamentimiz o binada fəaliyyətə başlayır. M.B Məhəmmədzadənin qeyd etdiyi kimi: "arxasını "İçəri şəhər" deyilən qədim Bakının tarixi sularına dayamış milli memari

tərzdə inşa edilmiş bu binada yerləşən milli hakimiyyəti təmsil edən müəssisənin kalem amiri bir qadın olduğu kimi, parlament komissiyalarında çalışanların çoxu münəvvər azəri qızları idi" (3, 4). Bu, həm də onu göstərir ki, ziyalılarımzın apardığı uzunmüddətli maarifçilik, qadın haqlarının yüksəldilməsi mübarizəsi öz nəticələrini verməyə başlayır. Növbəti illərdə Azərbaycan qadını ictimai həyatın demək olar ki, bütün həyatına – təhsil, mədəniyyət, elm, hərbi, həmçinin dövlət idarəciliyi sahələrində fəaliyyət göstərməklə ölkəmizin, millətimizin inkişafında öz müqəddəs rolunu oynamış və bunu davam etdirməkdədir.

ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. II cild. Bakı, 2005.
2. Cabbarov F. H. Z. A. Tağıyevin qız məktəbinin tarixindən. Bakı, 2011.
3. Fərhadov Ə. "Aləmi-nisvan"da doğan bir şəfəq"//Nəsib bəy Yusifbəyli – milli istiqlal və dövlətçilik mücahidi. Bakı, 2013.
4. Mirzə Bala. Kadınlara hürriyet / Azərbaycan, Yıl 3, sayı 12(34), Ankara, 1954, mart.
5. Mehmetzade M. Milli Azerbaycan hareketi. Ankara, 1991.
6. Rəsulzadə M. Ə. Əsrimizin Səyavuşu. Bakı, 1991.
7. Veliyev A. Azerbaycan Siyasi Düşüncü Tarihi ve Mirza Bala Mehmetzade. İstanbul, 2006.
8. Yaqublu N. Azərbaycan mühacirət irsi. Bakı, 2011.

ILAHA KHANTAMIROVA

LIBERTY FOR WOMEN

SUMMARY

The life and activity of Mirza Bala Mahammadzada, the representative of emigration period have significance for learning Azerbaijan history. Nowdays, his works written in various subjects can be accepted as a valuable source. The article has been written on the basis of scientific research named "Liberty for women", some issues as the freedom, education, struggle of women were noted in this article. Also, modern period scientific literature were used in this article.

ХАНТАМИРОВА ИЛАХА

СВОБОДА ЖЕНЩИНАМ

РЕЗЮМЕ

Изучение жизни и творчества известного мыслителья и журналиста Азербайджана периода эмиграции Мирза Бала Мамедзаде представляет собой большую ценность в изучении истории страны. Его труды, написанные на различные темы, считаются достаточно ценными источниками. Статья, написанная на основе труда М.Б Мамедзаде "Свобода женщинам", затрагивает такие темы как свобода женщин, образование, их борьбу. В написании статьи также использована современная литература.

Rəyçi: Nəsiman Yaqublu
Tarix üzrə elmlər doktoru

S.R.SƏMƏDOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
senuber_samedova@mail.ru

MÜSTƏQİLLİK İLLƏRİ ROMAN JANRINDA TARİXİ ŞƏXSİYYƏTLƏRİN BƏDİİ TƏSVİRİ

Açar sözlər: *Hüseynbala Mirələmov, Elçin Hüseynbəyli, Şah Abbas, Nadir Şah, tarixi roman*
Ключевые слова: *Гусейнбала Миралемов, Эльчин Гусейнбайли, Надир Шах, исторический роман*
Key words: *Huseynbala Miralamov, Elchin Husseinbayli Shah Abbas, Nadir shah, historical*

Tarixi hadisələrə, şəxsiyyətlərə, onların həyat və fəaliyyətlərinə müraciət edərkən hər bi ryazıçı qarşısına müəyyən məqsəd qoyur. Bir qism yazıçılar bu mövzuya müraciət etməklə, tarixin müəyyən qaranlıq səhifələrini açmaq, tarixi hadisələrin iştirakçısı olmuş görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətlərində öyrənilməmiş faktları üzə çıxarmaq məqsədi güdürlər. Digər bir qism yazıçılar isə, xalqın etnoqrafik yaddaşını bərpa etmək, özünə qaytarmaq məqsədi ilə bu janra önəm verirlər. İlk dəfə bu janra müraciət romantik yazıçıların yaradıcılıqlarında təsadüf edilir. Sonralar isə tarixi janrda yazan yazıçıların sayı artmışdır. Hərbir yazıçının özünün bu mövzuya yanaşma tərzi vardır. Fikrimizcə, əsəri yazmazdan əvvəl yazıçılar mənbələrlə tanış olmalı, hadisə və şəxsiyyətlə bağlı tarixdə araşdırmalar aparmalı, yetərincə tarixi faktları nəzərdən keçirməlidirlər. Belə əsərlər yazılarkən bəzi romanlarda sənədlilik bəzilərində isə bədiilik üstünlük təşkil edir. Filologiya elmlər doktoru , professor Vilayət Quliyev yazır: "Bizə belə gəlir ki, bədii əsərdə tarixi tematikanı müəyyənləşdirən əsas amil sənədlilikdir. Süjet xəttinin əsasında konkret tarixi hadisələr və real tarixi şəxsiyyətlər dayanan, təsvir və təhlillərdə artıq elm tərəfindən təsbit edilmiş fakt və məlumatlara istinad edən roman və povestlər tarixi əsər anlayışının tələblərinə daha çox cavab verir. Aydın məsələdir ki, biz sənədliliyi tarixi janrın başlıca tələbi kimi irəli sürərkən yazıçının tarixi vəsiqələrin ehtirassız qeydiyyatçısı, tarixi mənbələrin səlahiyyətsiz təsvirçisi simasında görmürük. Sadəcə olaraq romanın , yaxud povestin ümumi konfiqurasiyasını, karkasını sənədlər, real tarixi faktlar təşkil etməlidir, bütün qalan "tamamlama" işlərində yazıçı tam sərbəstdir və yaradıcılıq fataziyasını istənilən istiqamətdə inkişaf elətdirə bilər." [1,s.164-165] . Göründüyü kimi professor Vilayət Quliyev belə qənaətə gəlmişdir ki, roman yazan hər bir müəlif hansı dövrü təsvir edirsə etsin, sərbəst olmalıdır. Onun fikrincə əsərdə tarixilik yalnız əsərin zahiri əlamətini daşımalıdır. Lakin burada sərbəstlik deyərkən tarixin təhrif olunması nəzərdə tutulmur. Yazıçı, əsərin oxunaqlı olması yalnız üçün quru sənədlər arxasınca qaçmamalı, bədii təxəyyülün gücünüdə işə salmalıdır. Filologiya elmlər doktoru, professor Yavuz Axundov "Tarixi roman və müasirlik" adlı kitabında tarixilik və müasirlik məsələsindən söz açaraq yazır: "Tarixi dövrün düzgün verilməsi üçün tarixi sənədlərdən, faktlardan istifadə etmək zəruridir . Lakin bununla bərabər, yazıçı uydurmasının, yazıçı təxəyyülünün əhəmiyyətini inkar mütləq səhv nəticələrə aparar, sənətkarı tarixi hadisələrin təsvirçisinə çevirə bilər... Yazıçı keçmişi daha dolğun, hərtərəfli təsvir

etmək, tarixi koloriti və ruhu düzgün vermək üçün müəyyən hadisələr, epizodlar düşünür, tarixdən bizə məlum olmayan insan surətləri tapır ki, buna bədii uydurma deyilir. Başqa ədəbi janrlar kimi tarixi roman da bədii uydurmasız keçinə bilməz. Uydurma təkcə həqiqəti açmır, həm də onu dərinləşdirib tamamlayır. Bədii uydurma başqa bədii vasitələrlə yanaşı, tarixi həqiqəti bütün mürəkkəbliyi, konkretliyi, dəqiqliyi ilə verməyə kömək edir" [2,s.17] Həqiqətəndə tarixilik dedikdə yalnız tarixi hadisələrdən ibarət bir əsər düşünülməməlidir. Çünki, bədii təxəyülsüz hər hansı əsər lazımi faydanı vermir. Peşəkar yazıçılar bədii təxəyyüllə tarixi həqiqətləri vəhdət halında verməyi bacarır. Bir sıra əsərlərdə tarix təhrif olunduğu üçün həmin dövr və şəxsiyyətlər haqqında yalnış rəylər formalaşır. Yavuz Axundovun fikrincə: "Müasir tarixi romanda daha çox xalqın keçmişinin əlamətdar hadisələri, dönüm dövrləri, xalqın taleyində mühüm rol oynamış görkəmli şəxsiyyətlərin fəaliyyəti təsvir olunur. Yazıçı çalışmalıdır ki, tarixi romanda qələmə aldığı dövrün ruhu saxlanılsın, tarixi inkişafın qanunauyğunluqları gözlənilsin, mahiyyəti təhrif olunmasın... Tarixi romanın əsas keyfiyyətləindən biri də müasirlikdir. Burada vacib bir cəhəti xüsusilə qeyd etməyə ehtiyac var. Keçmişə müasir dövrün tələbi ilə yanaşmaq prinsipi ilə onun "müasirləşdimək" cəhdi bir-birinə əks anlayışlardır. Tarixi şəxsiyyət yazıçının müasir görüşlərinin ruporuna çevrilməlidir." [3,s.17]

Çağdaş roman janrınıın inkişafında Hüseynbala Mirələmovunda xidmətləri danılmazdır. Akademik Bəkir Nəbiyevin ön söz yazdığı "Sonuncu fateh" trilogiyası yazıçının qələmə aldığı ilk irihəcmli tarixi romanıdır. Akademikin ön sözündən sonra bu əsər üzərində yenidən 2il işləyən yazıçının "Sonuncu fateh" romanı Nadir şah Əfşarın keşməkeşli ömür yoluna, hərbi – siyasi fəaliyyətinə, vahid dövlət yaratmaq uğrunda mübarizələrdə keçən ömrünün bədii əksinə həsr olunub. Romanda Nadir Şah vətəninin birliyi yolunda mübarizə aparan, xalqın böyük məhəbbətini qazanan bir hökmdar kimi səciyyələndirilmişdir. Roman haqqında yazıçı - jurnalist Nurəddin Ədiloğlunun belə bir fikri maraq doğurur: "Əgər maraqlı epizodlarla zəngin bu tarixi romanın motivləri əsasında Azərbaycan kinemotoqrafçıları teleserial çəksələr, öz möhtəşəm məzmunu ilə dünyanın bir çox ölkəsində maraqla izlənən "Möhtəşəm yüz il" tele-eposundan geri qalmaz!" [4] N.Ədiloğlu fikrini davam etdirərək yazır: "Fitri hökmüdarlıq qabiliyyətinə malik olan Nadir şah kimi tarixi şəxsiyyətlərin həyatı həmişə bir neçə parlaq və həlledici məqamlarla diqqəti cəlb edir. Bu həyatın, zamanın əzəli və əbədi bir qanundur. Nadir şahın da taleyinə yazılan, onun hərbi yürüşlərində, şöhrət və qüdrət pillələrində bir neçə belə həlledici məqam var ki, müəllif məhz həmin o parlaq məqamlırı - ilk baxışdan adi görünən, əslində isə tarixi şəxsiyyətin həyatında və taleyində önəmli rol oynayan böyük anları romanda əks etdirə bilib. Çünki tarixçilərin dili ilə desək, qəhrəmanın təkcə adi çobanlıqdan böyük şahlıq taxtına qalxması dahiyanə nailiyyət idi. H. Mirələmovun yaratdığı Nadir şah obrazı Qoca Şərqin tarixində öz qılıncıyla möhtəşəm imperiya quran vətənpərvər bir şəxsiyyətin (əsərin məziunundan belə aydın olur ki, hətta Nadir şahın özünün də ömrünün qürub çağında xatırladığı), məhz həmin tariixi hadisələrin – böyük anların fövqündə gözlərimizin qabağında bütün əzəməti ilə dayanır." [4]

Əsərdə göstərilir ki, Nadir şah hələ kiçik yaşlarından idarəetmə qabiliyyətinə malik olmuşdur. Gəncliyində əsir həyatı ilə qarşılaşması, zamanın amansızlıqları onun təbiətinin formalaşmasına, mətin və mübariz bir şəxsiyyət kimi yetişməsinə təkan vermişdir. Onun iti ağlı, dərin zəkası başına gələn hadisələr, qarşılaşdığı çətinliklər,

dövrün mühüm hadisələri onun xarakterinin formalaşmasına təsir göstərmişdir. Əsərdə xronoloji ardıcıllığı gözləyən yazıçı tarixdə olduğu kimi əsərdə də Nadir şah Əfşar 1732-ci ilin avqustunda II Təhmasib şahı devirərək onun azyaşlı oğlu III Abbası şah elan etməklə real hakimiyyəti ələ keçmişdir. O, 1733-cü ildə Bağdad yaxınlığında osmanlıları məğlub etmiş, 1735-ci ilin martında Gəncə yaxınlığındakı düşərgədə Rusiya səfiri Sergey Qolitsınla müqavilə imzalamışdı. Bu müqaviləyə əsasən Bakı və Dərbənddən rus qoşunları çıxarılmışdı. Nadir şah mərkəzləşdirmə siyasəti yeritmiş, Əfqanıstana, Şimali Hindistana və s. yerlərə yürüşlər etmiş (1737-39), Dehlini tutmuş (1739), fəth etdiyi ərazilər hesabına böyük dövlət yaratmışdı. O, Şirvan, Qarabağ, Çuxur-Səd və Təbriz bəylərbəyiklərini ləğv edərək ilk dəfə olaraq Azərbaycan adı altında vahid inzibati bölgü yaratmışdı.

Öz oğluna ədalətli, səxavətli olmağı öyüd verən Nadir şah onun israfçılıq etdiyinivə xüsusi qvardiya yaratdığını bildikdə deyir: "Bu xalq əzəldən iki saray tanınmağa adət etməyib. Biz də buna əməl etməliyik. Tac başa yaraşıq versə də, ağıl vermir. Başın tacı ağıldır. Belə görürəm ki, sən bu cah-calala, bu hökümətə, taxt-taca layiq deyilsən.." [5,s.567]

Müəllif əsərdə Nadir şahı həmişə ideal şəxsiyyət kimi təsvir etmir, onun mənəvi-əxlaqi keyfiyyətləri, ləyaqəti, mənəvi zənginliyi ilə yanaşı, onun bəzi nöqsanlarınıda açıq şəkildə göstərir.

Hüseynbala Mirələmovun "Sonuncu fateh" romanı da bu mənəvi tələbatdan doğan qiymətli əsərlərdən biridir.Müəllifin belə tarixi mövzuya müraciət etməsi müasir dövr üçün çox aktualdır. Bu gün erməni işğalçılarının tapdağı altında qalan torpaqlarımızı azad etmək üçün güclü vətənpərvəlik tərbiyəsinə ehtiyac duyulur. Qarabağ mövzusunda bir-birindən təsirli əsərlər yaradan Hüseynbala Mirələmov öz ənənəsinə sadiq qalaraq "Sonuncu fateh" romanı ilə xalqımızın qürur qaynağı olan qəhrəmanlıq səlnaməmizi önə çəkərək Nadir şah kimi oğullar yetirən türk-müsəlman millətinin övladalarını vətənpərvərliyə səsləyir.

Yuxarıda qeyd etdiyimiz kimi tarixi janra müraciət etmənin səbəblərindən biri təhrif olunmuş tarixə aydınlıq gətirməkdir. Bu üslub istedadlı nasir Elçin Hüseynbəylinin yaradıcılığında bu hiss olunmaqdadır. Vaqif Yusifli yazıçı haqqında yazır: "Roman get-gedə öz klassik ölçülərindən uzaqlaşmağa başlayır, janr hüdudlarını genişləndirir (elə Azərbaycan romanında qismən də olsa, bunu müşahidə etmək mümkündür), romanlarda psixologizm aparıcı istiqamətə çevrilir, simvollara, metaforik düşüncə tərzinə meyil artır və s. Əvvəllər birmənalı şəkildə romanda bir üslubun hakim mövqe tutduğunu iddia etmək mümkün idisə, indi bəzi romanlar müxtəlif üslubi istiqamətləri özündə birləşdirir. Bunu səkkiz ildə yeddi roman yazmış Elçin Hüseynbəylinin yaradıcılığında da izləyə bilərik." [6]

Elçin Hüseynbəylinin "Şah Abbas"romanı bəzi tarixi hadisələrə aydınlıq gətirən romanlar siyahısına aiddir. ""Şah Abbas" romanı doğrudan da tarixi xronikadır və bizim bu tipli tarixi romanlar içərisində növbəti bir cəhddir ki, tarixi mənbələr və qaynaqlara istinad edib daha bir şəxsiyyətin ömür yolunu gözlərimiz qarşısında canlandırır. Burada ənənədən gələn bədii priyom və üsullarla qarşılaşsaq da, Elçin Hüseynbəylinin özünəməxsus bədii təsvir ustalığı, obrazları məhz canlı, koloritli boyalarla, həm də bütün mürəkkəbliyi ilə əks etdirmək məharəti diqqətdən yayınmır". [6]

Roman-xronika üslubunda yazılan Şah Abbas romanı Səfəvilər dövlətinin üçüncü ən görkəmli hökmdarı I Şah Abbasın həyat və fəaliyyətindən bəhs edir. Bildiyimiz kimi

Şah Abbasa qarşı fikirlər o qədərdə müsbət olmamışdır. İlk növbədə ona görə ki, o qəddar bir hökmdar idi. Taixdən bizə məlumdur ki, Şah Abbas bir sıra fars əyanlarını hakim vəzifələrinə təyin etməklə Səfəvi dövlətini farslaşdırmışdı. Yeqzar Cəfərli qeyd edir ki, "Tarixə nəzər salsaq görərik ki, bu proses hələ kor Məhəmməd Xudabəndənin dövründə başlanmışdı. Onun fars qızı olan arvadı Məhdi Ülya şahın acizliyindən istifadə edib hətta dövlətdə şahdan sonra ikinci vəzifə sayılan vəkil vəzifəsinə yüksəlmişdi. Şah Abbas hakimiyyətə gələnə qədər bu qadın bir neçə yüksək dövlət vəzifəsini artıq farslaşdırmışdı. Bir yandan şah nəinki yüksək dövlət vəzifələrini, hətta şəxsi mühafizəsini belə qızılbaşlara etibar edə bilmir, bu işdə xristian gənclərdən ibarət qulamlardan istifadə edirdi." [7]

Tarixi faktlardan məharətlə istifadə edilərək, arxiv sənədləri əsasında yazılan bu roman 47 fəsildən ibarətdir. Fəsillərin hər birində hökmdarın həyat və fəaliyyətinin ayrı-ayrı dövrlərindən bəhs olunur. Romanın əvvəlində müəllif tərəfindən yazılmış belə bir yazıya rast gəlirik : "...Siz elə bilirdiniz ki, Azərbaycan xalqı arasında "cənnətməkan" kimi yadda qalmış, onun nağıllarını, dastanlarını bəzəmiş Şah Abbas fars qafalıymış? Haradan biləydiniz ki, orta əsrlərin "qızıl dövründə" cahanın yarısına sahib olan Şah Abbası bir Səfəvi məmləkətinin şərəfi, bir də hökmranlıq düşündürürdü. Haradan biləydiniz ki, həmin vaxt bir qızılbaş məmləkəti, bir şiə məzhəbi, bir sufi təqirəti, bir də müqəddəs Ərdəbil şəhəri vardı. Haradan biləydiniz ki, qızılbaşlar "müridin əlində qılınc, altında at, qarşısında düşmən olmalıdır" anlamı ilə yaşayırdılar. Ona görə də mirzəliyi özlərinə yaraşdırmır, onu qara iş sayır, yazı-pozunu farslara, gürcülərə, ermənilərə, çərkəzlərə buyururdular.

Bunları bilmirdiniz, heç məndə bilmirdim. Çünki tariximizi başqa millətlər yazıb, sovetlərin şinelindən çıxan öz tarixçilərimizin çoxu da o yalanları təkrar eləyib. Yalnız müstəqillik dövründə sular durulmağa başlayıb.

Siziçaşdırıblar, eymənimbiçarəhəmvətənlərim!

Böyük bir sərkərdənizi, böyük Azərbaycan Səfəvi dövlətini farslaşdırıblar. Mən indi əsl həqiqəti deməkdən, böyük bir sərkərdənizi, cənnətməkan hökmdarınızı özümüzə qaytarmaqdan qürur duyuram" [8,s.7-8).

Bu sətirlərlə tanış olan oxucu inanır ki, indiyə qədər Şah Abbas şəxsiyyəti haqqında bir sıra ciddi təhriflər olunmuş, və bu təhriflər romanda, olduğu kimi təqdim olunmuşdur.

Müəllif romanda Şah Abbasın portret cizgilərini dəqiqliklə təsvir edir. Şah Abbas gənc olsa da, başa düşürdü ki, ölkəni idarə etmək üçün ilk növbədə mükəmməl təhsil almaq lazımdır.O, hətta səfərlərə gedəndə də özü ilə çoxlu kitab aparardı. Digər tərəfdən gənc vəliəhd şəxsi şücaəti ilə seçilirdi. Ox atmaq, qılınc oynatmaq onun gündəlik məşğuliyyəti idi. Şah olmamışdan əvvəl iştirak etdiyi müxtəlif döyüşlərdə şəxsi şücaəti ilə fərqlənmiş, qoşun içərisində böyük nüfuz qazanmışdı.

Şah Abbas ona xəyanət edən, həddini aşan, xalqa zülm edən vəzifə sahiblərini yeri gələndə ən ağır cəzaya məhkum edirdi. Onun kəsdirdiyi başların sayı minlərlədir. Lakin Şah Abbas haqqındakı rəvayətlərin heç birində onun kiməsə haqsız cəza verməsi haqqında söhbət getmir. Çünki xalq onu ədalətli hökmdar kimi tanıyır. Yazıçı diqqəti ona yönəldir ki, Şah Abbas bir hökmdar kimi xalqa işləməyi, çörək qazanmağı öyrətdi. Torpağa bağlılıq, Vətəni sevmək, onun uğrunda vuruşmaq və yeri gələrsə ölməyi şərəf bilmək Şah Abbasın fəaliyyətinin başlıca keyfiyyətləridir. Onun haqqında

yaranmış rəvayətlər, əfsanələr, nağıllar şahın şəxsiyyətinə olan məhəbbətin əsas göstəricisidir. Şah Abbas oxucuların qəlbində məhz bu keyfiyyətlərilə yaşayır.

Xalq şairi Zəlimxan Yaqubun roman haqqında söylədiyi fikirlər əsərin bu gün üçün olduqca aktual olduğunu sübuta yetirir: "Mənim düşüncəmə görə bu əsər bizə və bizdən sonra gələnlərə belə deyir: Tarixini yaxşı öyrən, şəxsiyyətlərini dürüst tanı, keçmişinə sahib ol, öz qılıncınla özünü kəsmə, dilinə, dininə, əqidənə, etiqadına sadiqlik hissini itirmə, milliliklə millətçiliyi qarışdırma, gələcəyini düzgün qurmaq üçün tarixin acı həqiqətlərindən, böyük dərslərindən ibrət al. Özün ol, özgələşmə. "Mən kimdən" demə, "kim məndən" de. Gücü kökünə ver ki, budaqların tufanlara yem olmasın." .[9,s.6]

ƏDƏBİYYAT

1. Quliyev.V. Nəsrimiz və tariximiz. "Azərbaycan" jurnalı, 1984 ,№4.
2. Axundov Yavuz. Tarixi roman və müasirlik, Bakı "Elm" nəşriyyatı, 1975, 40 səh.
3. Yavuz Axundlu, Azərbaycan Tarixi Romanı: Mərhələlər problemlər(1930-200) Bakı "Adiloğlu", 2005 ,550 səh. 19.
4. http://www.qafqazinfo.az/gundem-12/sonuncu-fateh-23768
5. Hüseynbala Mirələmov.Sonucu Fateh. Bakı, Nurlan, 2012
6. anl.az/down/meqale/adalet/2011/dekabr/220298.htm
7. www.olaylar.az/news/culture/78980
8. Elçin Hüseynbəyli. Şah Abbas. Bakı-2008. "Adiloğlu".
9. www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_may2009/79599.htm

С.Р.САМАДОВА

ОПИСАНИЕ ИСТОРИЧЕСКИХ ДЕЯТЕЛЕЙ,ЛИТЕРАТУРНЫЙ ЖАНР ГОДЫ НЕЗАВИСИМОСТИ

РЕЗЮМЕ

В статье Надир Шах Афшар тяжелая жизнь среди граждан и военно - политической деятельности, а скорее создание единого государства искусства посвятил свою жизнь борьбе за ' Последний завоевателя', Эльчин Гусейнбейли отражающие жизнь и деятельность шаха Аббаса, 'Шах Аббас' романы говорят.Оба романа анализируются отделно

S.R.SAMADOVA

A DESCRIPTION OF HISTORICAL FIGURES, LITERARY GENRE OF THE NOVEL THE YEARS OF INDEPENDENCE

SUMMARY

The article are mentioned Huseynbala Miralamovs "Last Fateh" romance which demonstrates Nadir Shah Afshars hard timeline, military-political acts, his lifetime struggles on aim to create uniqe government and Elchin Husseinbayli"s "Shah Abbas" romance which demonstrates ShahAbbas"s lifetime and actions. Both novels are analyzed separately.

Rəyçi: Razim Məmmədov,
filologiya elmləri üzrə fəlsəfə doktoru

A.R.ƏLİYEVA
Azərbaycan Pedaqoji Universiteti
aynur.eliyeva.1992@gmail.con

YUSİF BALASAQUNLUNUN "QUTADĞU-BİLİG" POEMASI BİR SİYASƏTNAMƏ KİMİ

Açar sözlər: *"Qutadğu-bilig", siyasət, siyasətnamə, dövlət fəlsəfəsi*
Ключеые слова: *"Кутадгу-билик", политика, siyasetname, состояние философии*
Key words: *"Kutadgu-bilig", politics, politicbooks, state philosophy*

Yusif Xas Hacibin yazdığı "Qutadğu-bilig" XI əsrdən günümüzə qədər İslam türk ədəbiyyatının ilk nümunələrindən biridir. Bu qiymətli əsər yalnız türk ədəbiyyatı tarixi baxımından deyil, eyni zamanda türk mədəniyyət tarixi və türk dövlət fəlsəfəsi baxımından da araşdırılması vacib olan bir qaynaqdır. İndiyə qədər "Qutadğu-bilig" üzərində ədəbi, dini, siyasi və fəlsəfi yöndən dəyərli araşdırmalar aparılmışdır.

"Qutadğu-bilig" poemasının əvvəlinə sonradan əlavə olunan mənzur və mənsur mətinlərdən də anlaşılacağı üzrə bir dövlət və siyasət kitabıdır. Yusif Xas Hacib bu əsərdə çeşidli mövzu və məsələlər haqqında fəlsəfi və sosiologik fikir və düşüncələri irəli sürüb, öyüd-nəsihətlər verməkdir. Bundan başqa, cəmiyyəti yaradan müxtəlif sinif və zümrələrin dəyərini, onlara qarşı hökmdar tərəfindən izlənməsi gərəkən davranış və tutumları bildirir. Belə olmaqla bərabər, "Qutadğu-bilig"in köhnə vaxtlarda Şərqdə oxşarlarına sıx rastlanan formadan, dövrün idarəçilərinə və dövlət adamlarına asan tövsiyyələr vermək və ədalətli bir idarəçilik yaratmalarını istəmək məqsədilə əxlaqi nəsihətlər verən, dövlət içindəki sosial qruplaşmaları göz önünə gətirən, tarixin tanınmış siyasətnamələrindən fərqli və özünəməxsus bir forması vardır.

İslam dünyasında "Qutadğu-bilig"dən əvvəl və ya sonra yazılan bir çox siyasətnamənin qaynaqlarına baxdığımızda əcnəbi mədəniyyətlərin təsirini görürük. Abbasilərin hakimiyyətə gəlişindən etibarən farsca, hindcə və yunanca kitabların tərcümə edildiyini və bu yolla iran, hind və yunan fəlsəfə, tibb, riyaziyyat, astronomiya və qrammatika kimi elmi fənnlərlə bərabər, dövlət və siyasət ənənəsinə aid bilik və təcrübələrin də İslam dünyasına daxil edildiyini bilirik.

Çox türkoloqların siyasətnamə kimi qəbul etdikləri "Qutadğu-bilig" özündən əvvəl və sonra yazılmış siyasətnamələrin ümumi özəlliklərini də özündə ehtiva edir. "Qutadğu-bilig" tarixi müddət içərisində ilk onu oxuyandan, əsəri araşdırıb ön hissəsinə mənsur və ya mənzum girişlər yazan katiblərə qədər, hətta günümüzdə əsər üzərində araşdırma aparanların əksəriyyətinin ortaq qənaəti əsərin bir siyasətnamə olduğu həqiqətidir. Keçmişdə kitaba çinlilərin "Ədəbül-mülük", "Hökmdarlığın ədəbi", Maçin hökmdarlarının "Ayinül-məmləkt" ("Məmləkətin aynasi"), Zinatül-üməra "İdarəçilərin bəzəyi", "Hökmdarlara nəsihətlər" kimi adlar vermələri əsərin bir siyasətnamə olaraq anlaşıldığını göstərməkdədir. Beləliklə, günümüzdə də tədqiqatçıların böyük əksəriyyəti bu əsərin bir siyasətnamə olduğunu və digər siyasətnamələr ilə ortaq cəhətlərinin olduğu qənaətinə gəlmişlər. Məsələn, Yusif Xas Hacibin "Qutadğu-bilig"i,"Nizamül-mülk"ün "Siyasətnamə"sini qarşılaşdıran bir tədqiqatçı, iki əsərdə təəccübləniləcək dərəcədə oxşarlıqlar olduğunu bildirmişdir.

Bəs siyasətnamə nədir? Siyasətnamələrin ümumi xüsusiyyətləri nələrdir? İslam ədəbiyyatında dövrün idarəçilərinə və dövlət adamlarına asan tövsiyyələr vermək və ədalətli bir idarəçilik yaratmaqlarını istəmək məqsədilə yazılan siyasi və əxlaqi tərkibli əsərlərə siyasətnamə deyilir. Bu tip əsərlər bilinən özəlliklərinə görə qruplaşdırıldıqda, fərqli tərzlərlə rastlaşmaq mümkündür. Bunlardan birincisi Fərabinin "Əl-Mədinətül fadıla"sı ilə "Füsulul-mədəni" adlı əsərlərdə olduğu kimi siyasət və dövlət idarəsini fəlsəfi baxımdan ələ alan əsərlərdir. İkincisi, siyasət və dövlət idarəçiliyi mövzularını nəzəri olaraq bilib, mövzu üzərində İslam düşüncələrinin nə ola biləcəyini araşdırmağa yönələn əsərlərdir ki, bunlar Məverdinin "Əl-Ahkəmus-sultaniyyə"si, İbn Təymiyyənin "Siyəsətüş-şeriyyə"si kimi cəmiyyət hüququnu qoruyan kitablardır. Üçüncü dövrün sultan, vəzir və dövlət adamlarına siyasət sənəti haqqında yol göstərən, idarəçilikdə özbaşınalıqları aradan qaldırmaq üçün siyasi və əxlaqi nəsihətlər verən əsərlərdir. Bu ənənənin ilk nümunələrini biz hind və iran mədəniyyətindəki pəndnamə və siyasətnamə kim əsərlərdə görürük. Nizamül-mülkün "Siyasətnamə"si, Keykavusun "Qabusnamə"si və Qazzalinin "Nəsihətül-mülük" kimi əsərləri buna misal ola bilər. Bu cür əsərlərin yazılmasında əsas məqsəd siyasi məsələlərdə ideal olan, əmredilənlərlə, tədbiq olunanlar arasında elmli bir yol tapmaqdır. Sıx rastlanılan bu cür örnəkləri hər nə qədər İran əsəbiyyatı olsa da, mövzular İslama tam olaraq uyğunlaşdırılmışdır. Dördüncü olaraq, Osmanlı dövlətinin zəifləmə və geriləmə vaxtlarında ümumilikdə padşahın və ya vəzirlərin istəklərinə uyğun qələmə alınan İslahatnamələri və ya Layihələri göstərə bilərik.

"Qutadğu-bilig" sultan, vəzir və dövlət adamlarına siyasət mövzusunda yol göstərən, idarəetmədə özbaşınalıqları yox etmək üçün siyasi və əxlaqi nəsihətlər verən əsərlər ilə siyasət və dövlət idarəsini, fəlsəfi və idealist baxımdan ələ alan əsərlər qrupuna daxil edə bilərik.

Siyasətnamələr əsas mövzu olaraq, dövlət idarəçiliyini ələ alan əsərlər olduğundan xüsusilə də idarəçilikdə hakimiyyəti əldə saxlayan hökmdarlar üçün yazılmışdır. Siyasətnamələrdə hökmdarda olması vacib bilinən xüsusiyyətlər və səltənətin əsasları göstərilir. "Qutadğu-bilig"in əsasını hökmdar və onun ətrafında toplaşan şəxslərlə dövləti idarəsi, yəni ideal dövlətin, ideal hökmdarın, dövlət başçısının necə olması mövzusunda söhbətlərdən ibarətdir. Əsərdə danışdırılan dörd xarakterdən biri olan Gündoğdu (bəy) hökmdar obrazını təmsil edir və əsərin əvvəlindən sonuna qədər başda vəzir olmaqla digər vacib dövlət adamları ilə əxlaq, siyasət və dövlət problemlərini mübahisə etməkdədir. Bu yöndən baxıldığında "Qutadğu-bilig" ilə digər siyasətnamələr arasında paralellik olduğunu deyə bilərik.

Siyasətnamələrin təsir aldığı klassik qaynaqlar arasında hind, iran, yunan və çin mədəniyyətlərinə aid bilgi və təcrübələr yer almaqdadır. Bəzi siyasətnamə yazarları bu mədəniyyətlərdən iqtibas etdiklərini şəxsən bildirmişlər. Yəni, siyasətnamələr, İslam mədəniyyətinin erkən vaxtlarda əlaqədə olduğu əcnəbi mədəniyyətlərin bilik və təcrübələrindən yararlanmışlar və bu mədəniyyətləri qaynaq olaraq qeyd etmişlər. "Qutadğu-bilig" adı keçən bu mədəniyyətlərdən hər hansı birini göstərmir. Ancaq əsər üzərində tədqiqat işi aparanlar onda başda İslam mədəniyyəti olmaqla, hind, yunan, iran, çin təsirləri olduğu qənaətinə gəlirlər. Qismən də olsa "Qutadğu-bilig" poemasında xarici təsirlər də mövcuddur. Ancaq İslam və onun daxilində inkişaf edən İran mədəniyyətinin xaricindəki digər mədəniyyətlərin təsirini ortaya çıxarmaq çox asan görünməkdədir.

Ümumi olaraq, siyasətnamələr mövzuları qəribə hala gətirmək üçün hekayələr, sözü gözəlləşdirmək və mənanı qüvvətləndirmək üçün tanınmış şairlərdən misralar nəql etmişdir. Tarixdə öz sözünü demiş hökmdar, həkim, filosof və ya şair kimi önəmli şəxsiyyətlərin söz-söhbətlərindən nümunələr göstərirlər. Məsələn, Qərb dünyasından Makedoniyalı İsgəndər həyatından və siyasi işlərindən, məşhur təbiblər Galen, Hippokrat və antik dövr yunan filosofları Sokrat, Platon, Aristotelin hikmətli sözlərindən məsəllər gətirirlər. Bunlarla bərabər, hind həkimlərindən, çin filosoflarından və ya krallarından hikmətli sözlər söyləyirlər. Bəzilərində İran krallarının davranışları, saray və idarə həyatları model olaraq götürülmüşdür. Bununla bağlı, "Qutadğu-bilig"də yalnız İran kralları Ənuşirəvan, Dahhak, Fridunun adları ilə Qərb dünyasına aid Böyük İsgəndərin adı verilmişdir. Bu arada digər bəzi siyasətnamələrdə də zikr edildiyi kimi türklərin əfsanəvi atası sayılan iranlıların Əfrasiyab dedikləri Alp Ər Tonqanın da adı "Qutadğu-bilig"də keçir.

Siyasətnamələr, mövzuları sağlam təməl üzərində ucaltmaq düşüncəsi ilə mövzuya uyğun ayə və hədisləri seçirlər. Daha sonra səhabə və alimlərin, filosofların, həkimlərin hikmətli sözlərindən nümunələr gətirirlər. "Qutadğu-bilig"də ayə və hədislər mətin olaraq zikr edilmirlər, lakin bəzi mənzum beytlərin mənalarının Quran ayələrindən və ya Hz. Peyğəmbərin sözlərindən ilhamlanmış olduğu tədqiqatçılar tərəfindən üzə çıxarılmışdır. "Qutadğu-bilig"də yalnız bir yerdə "Dinlə, Tanrıdan insanlara xəbər gətirən nəbi nə deyər" ifadəsi ilə açıqca Hz. Peyğəmbərin bir sözü nəql edilir. Bu misaldan başqa Qurandan ayə və hədislərin əlavəsi açıq şəkildə bildirilməmişdir.Ancaq məfhum olaraq bəzi beytlərin Qurandan və hədislərdən ilham alınaraq yazıldığı söylənilə bilər.

Siyasətnamələr də bütün klassik İslami əsərlərdə olduğu kimi Allahı həmd, Peyğəmbərə salam-salavatdan sonra təqdim ediləcək hökmdara tərif edilir. "Qutadğu-bilig" tamamən bu klassik ənənəyə uyğundur. Əsərin əvvəlində yer alan və sonradan əlavə edildiyi təxmin edilən müqəddimədən sonra "Tanrı Azze və Cəllənin mədhini söylər", "Peyğəmbər Əleyhi-səlamın mədhini söylər", "Dörd səhabənin mədhini söylər", "Parlaq bahar mövsümünü və Buğra xanın mədhini söylər" başlığı altında giriş edilmişdir. Bu baxımdan da "Qutadğu-bilig" poeması ilə ümumi siyasətnamələrlə ortaq bənzərlik və paralellik mövcuddur.

Ümumiyyətlə, siyasətnamələr dövlət idarəetməsini ələ alan öyrədici, nəsihətedici və yol göstərici olan əsərlərdir. Hökmdarlara, bəylərə və digər idarəçilərə klassik Şərq tərzində bəzi təklif və önərilərdə bulunmuşdur. Əsas xarakter baxımından əxlaqi əsərlər sırasına daxildir. Hökmdarlar, vəzirlər və dövlət adamlarına nəsihətlər verdiyi üçün isə nəsihətnamədir. "Qutadğu-bilig"də özəlliklə "Bəyliyə layiq bəy necə olmalıdır" bölümündə nəsihətlər söyləyir, ancaq bu nəsihətverici üslub digər bölümlərdə də davam etdirilir. Bundan sonra vəzir necə olmalıdır bölümündə vəzir olan şəxsin necəliyi qeyd olunur. Bəyin yəni hökmdarın hansı əxlaqi məziyyətlərə sahib olmasını, vəzirdə olması gərəkən məziyyətlərin nələr olduğunu açıqca izah edir. Bəyliyin doğuşdan Allahın vergisi olduğunu, buna görə də müqəddəs sayıldığını, bəylərin ağıllı, bilikli, özü-sözü bir olan pəndnamə həssaslığını göstərir. Vəzir də ziyalı bir ailədən, təqva sahibi, dürüst, ağıllı, həya sahibi, yaxşı görünüşlü və vəfakar olmalıdır.

"Qutadğu-bilig"də siyasətlə yanaşı dövlət fəlsəfəsi və siyasi anlayış da ortaya qoyulur. Məsələn, siyasətnamələrdə ədalət anlayışı İran dövlət ənənəsinin təsirilə anılmaqdadır. Günahkarın cəzasını vermək ədalətdir, lakin onu əfv etmək fəzilətdir. Bu

baxımdan əfvedivi olmaq daha fəzilətli və üstündür. "Qutadğu-bilig" poemasında, yəni türk dövlət ənənəsində ədalət, hökmdarın bağışlama missiyası deyil, qanunun doğru və tərəfsiz şəkildə aparılmasıdır. Dolayısı ilə hüququn üstünlük prinsipi əsas götürülmüşdür. Əsərin özünəməxsus tərəflərindən biri digər siyasətnamələrdən fərqli bir dövlət fəlsəfəsi və siyasi anlayış ortaya qoymasıdır.

Siyasətnamələrin ümumi özəlliyi əxlaqi xarakterdə olduğundan və əxlaqın qaynağı da din olduğundan,dini temalar sanballıdır. Allahın sifətləri, inanc əsasları və axirət həyatı, cənnətə həvəsləndirmə, cəhənnəmdən uzaqlaşdırma kimi mövzular yer alır. Dünya həyatının keçiciliyi, axirətin əbədi olduğu inancı, o biri dünyaya hazırlıq məsələlər öz əksini tapır. "Qutadğu-bilig"də Allahın adları və sifətləri o dövrdə olduğu kimi elə Yusif Xas Hacibin dövründə də eyni şəkildə istifadə olunmaqdadır. Hökmdar ilə ağlı təmsil edən Öydülmüş və aqibəti təmsil edən Odqurmuş arasında keçən mükalimələrdə Öydülmüş yəni ağıl, Odqurmuşu yəni aqibəti hökmdara xidmət mənasında yola gətirməyə çalışmışlar.

Siyasətnamələr, dövləti idarədə hökmdara köməkçi olan vəzir və digər dövlət adamlarının vəzifələri haqqında məsləhətlər verilir. "Qutadğu-bilig" Öydülmüş "Bəylərə vəzir olacaq insan necə olmalıdır" bölümündə vəzirin vacibliyi, vəzirdə lazım olması gərəkən əxlaqi məziyyətlərdən söz açır. Daha sonra hacib komandir, qapıçı, elçi, katib və xəzinədar kimi dövlət adamlarında olması vacib olan əxlaqi məziyyətləri göstərir ki, bütün siyasətnamələr dövlətin rifahı və gələcəyi üçün bu mövzulara önəm verirlər.

Siyasətnamələrdə dövlət xəzinəsinin qorunması, vergi toplama, əsgəri mövzular daha çox əhəmiyyət kəsb edir. Eyni zamanda cəmiyyətdəki çeşidli sənət sahibləri mövzusunda da bir çox məsləhətlər verilir. Məsələn, "Qutadğu-bilig"də 58-ci babda elm adamlarına, təbiblərə, yuxu yozanlara, münəccimlərə, şairlərə, cadugarlara, baytarlara, ustalara və kasıblara necə davranmaq lazım olduğu əks olunmuşdur.

"Qutadğu-bilig"in ən özünəməxsus tərəfi, dövrünün idarəetmə anlayışını göstərən bir kitab olmasıdır. Keçmiş dövrdə türklərdə hakimiyyət anlayışı hökmdarda Tanrı vergisi olan bəzi vəzifələrin varlığını qəbul edən bir anlayışdır. Buna görə idarəetmə hüququ hökmdara Tanrı tərəfindən ilahi bir lütf olaraq bağışlanmışdır. Bu anlayış daha sonra İslam xəlifəsini və ya ona tabe hökmdarları "Allahin yer üzündəki kölgəsi" olaraq bilinən anlayışla birləşərək siyasətnamələrin ana xətdindən birini təşkil edir. Bu türk anlayışının zamanımıza qədər inkişafında yeganə qaynaq "Qutadğu-bilig" poemasıdır.

Siyasətnamələr yaxşı idarəçiliyin olması, dövlətin ayaqda durması üçün olmazsa olmaz prinsiplərini dörd ana başlıq altında birləşdirmişdir. Bunlar ədalət, məşvərət, ləyaqət və öz peşəsində ustalıqdır. Bu prinsiplərlə əlaqəli "Qutadğu-bilig" poemasında onlarca beytə rast gəlmək mümkündür. "Qutadğu-bilig"də məsləhət bilinən dövlət modelinin ən bariz nümunəsi bunlardır.

Son olaraq onu qeyd edə bilərik ki, siyasətnamələrin əsas məqsədi dünyanın hər yerində ədalətli bir idarəçilik, qayda-qanun yaratmaq və əsas olaraq dünya, axirət xoşbəxtliyinə nail olmaqdır. Həmçinin, "Qutadğu-bilig"də də başlıca amal dünya və axirət səadətinə qovuşmaq üçün siyasi əxlaqa uyğun ədalətli dövlət idarəçiliyi yaratmaqdır.

ƏDƏBİYYAT

1. Balasaqunlu Y. “Qutadğu-bilig” (çevirən Vəliyev K. Əsgər R.) Bakı, 1994
2. Balasaqunlu Y. ”Qutadğu-bilig” (çevirən X.R.Ulutürk) Bakı, 1998
3. Əsgər R. “Qutadğu-bilig” Bakı, Elm nəşriyyatı, 2003
4. Xəlilov P. Türk xalqlarının və şərqi slavyanların ədəbiyyatı Bakı, 1994
5. Azərbaycan ədəbiyyat tarixi. Altı cilddə, II cild Bakı, 2007
6. Quliyev E. “Türk xalqları ədəbiyyatı” Bakı, 2009
7. F.R.Zeynalov Türkologiyanın əsasları Bakı, Maarif, 1981
8. R.R.Arat “Kutadğu-bilig” I Metin. Ankara, 1979
9. Sait Başer “Kutadğu-bilig”de Kut ve Töre. Ankara,1990
10. H.H.Adiloğlu “Siyasətnamələrin klassik qaynaqları” Osmanqazi Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi C5

А.Р.АЛИЕВА

ПОЭМА "КУТАДГУ-БИЛИГ" ЮСУФА БАЛАСАГУНА ЙАВЛЙАЕТСЙА КАК SIYASETNAME

РЕЗЮМЕ

Кутадгу-Билиг ", произведение периода одиннадцатого века Karahans является продуктом общего турецко-исламской культуры, окружающей среды, первый стих Siyasetname. В дополнение к тому первым продуктом этой ценной работы турецкой и исламской литературы, не только в истории турецкой литературы, но и турецкого социологии, турецкой культуры, истории и философии турецкого государства, которое является важным ресурсом в плане расследования были изъяты. "Кутадгу-Билиг" многие из нас тысячу лет турецкого истории, географии, климате, религии, культуры, несмотря на изменения, основные черты концепции вверх и вниз, и государство продолжает демонстрировать всем остальным обществом.

R.A.ALIYEVA

AS A POLITICSBOOKS POEM “KUTADGU-BILIG” BY YUSIF BALASAQUNLU

SUMMARY

“Kutadgu-Bilig”, which is the co-production of Turk-Islam milieu in the eleventh century Karahanid period, is the poetical book of government. That precious work, as well as beingthe first production of Turkish-Islamic literature, must been exemined not only from the aspect of Turkish Literature History but also Turkish sociology, Turkish cultural history and Turkish government philosophy. “Kutadgu-bilig” shows us that a more or less remaining society and state understanding lives although many changes on geography, climate, religion, culture and civilization during the thousand of year Turkish history.

Rəyçi: dos. N.Ə.Abdullazadə

GÜLNAR HÜSEYNOVA
Gəncə Dövlət Universiteti
gulnar.huseinova@gmail.com

YAZIÇI-TƏRCÜMƏÇİ CAHANBAXŞ VƏ XX ƏSR GƏNCƏ ƏDƏBİ MÜHİTİ

Açar sözlər: *Azərbaycan, Gahanbaxış, Gəncə, yazıçı, ədəbiyyat*
Ключевые слова: *Азербайджан; Джаханбахш; Гянджа; писатель; литература*
Key words: *Azerbaijan; Jahanbakhish; Ganja; writer; literature*

Ta qədimdən ədəbiyyat və mədəniyyət mərkəzi kimi tanınmış, Nizami kimi dühaların sənət beşiyi olmuş, əsrlərdən bəri şəninə nəğmələr, şeirlər qoşulan ulu Gəncə torpağı, Azərbaycan ədəbiyyatına uzun əsrlərdən bu günədək neçə-neçə söz, qələm adamları bəxş etmişdir. Onların fəaliyyəti, yaradıcılığı ədəbiyyatımızda özünəməxsus rəngi ilə seçiliən Gəncə ədəbi mühitinin formalaşmasına zəmin yaratmışdır. Maraqlıdır ki, Gəncə ədəbi-mühitinin tarixi təkamül yolunda 1960-2000-ci illər ayrıca bir mərhələ kimi öz ədəbi xarakteri, özünə xas keyfiyyətləri ilə seçilir. Bu dönəmdə öz məhsuldar ədəbi fəaliyyəti ilə seçilən yazarlardan biri də Cahanbaxş Cavadzadədir. Onun çoxşaxəli ədəbi irsi daha çox tərcümə sahəsindəki uğurlu nəticələri ilə diqqəti çəkir. Doğrudur, bir nasir kimi də ədəbiyyat aləmində bir sıra maraqlı hekayələr, oçerklər, ədəbi-publisist məqalələr qələmə almışdır. Lakin nasirliklə müqayisədə onun tərcüməçi kimi yaradıcılığı daha parlaqdır. Milli ədəbiyyatımızın müstəqil bir sahəsi olan bədii tərcümə irsində öz bacarığını hərtərəfli şəkildə nümayiş etdirən Cahanbaxş Cavadzadə Azərbaycan ədəbi dilinin böyük zənginliyini öz istedad imkanları ilə birləşdirərək unudulmaz xidmətlər ortaya qoymuşdur.

Cahanbaxş Salman oğlu Cavadzadə 1902-ci ildə mart ayının 21-də Gəncə şəhərində anadan olmuşdur. Orta təhsilini Gəncədə alan yazıçı, daha sonra Moskvada Lenin Dövlət Pedoqoji İnstitutunun dil-ədəbiyyat fakültəsini bitirmişdir (1933). Bir müddət İstanbulda, Ənzəli və Rəşt şəhərlərində yaşamışdır. Əsas fəaliyyəti isə Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Gəncə ilə bağlıdır.

Cahanbaxş ədəbi fəaliyyətə gənc yaşlarında ikən hələ 1928-ci ilin may ayında işıq üzü görmüş "Qızıl Gəncə" məqaləsi ilə başlamışdır. Onun yaradıcılığına nəzər salsaq, fəaliyyət istiqamətlərinin müxtəlifliyi baxımından rəngarəngliyində şahidi olarıq. Cahanbaxş nəsr, tənqid, resenziya, dram, tərcümə kimi çeşidli yaradıcılıq sahələrində məhsuldar ədəbi nümunələr yaratmışdır.

Əsasən nəsr tərcüməsi kimi tanınan Cahanbaxş Cavadzadə tərcümələrinin uğurlu alınmasının əsas səbəbi onun bu çətin yaradıcılıq sahəsinin bütün incəliklərinə və ən xırda nüanslarına dərindən yiyələnməsi ilə bağlıdır.

Bəllidir ki,ədəbiyyat aləmində tərcümə sənəti həddindən artıq məsuliyyətli və peşəkarlıq tələb edən yaradıcılıq sahəsidir. Bu sahəyə baş vuran sənətkar öz doğma dili ilə yanaşı, tərcümə etdiyi əsərin dilinə də mükəmməl yiyələnməli, orijinala adekvatlığın ən incə cizgilərin belə, fərqinə varmalıdır. Bu mənada Cahanbaxşın tərcümələrinin uğurlu alınmasına onun bir neçə dil bilməsi təbii ki, rəvac vermişdir. Belə ki, yazıçı rus, fars, türk, ərəb dillərini mükəmməl bilmiş, alman dilini isə yaxşı başa düşmüşdür.

Cahanbaxşın yaradıcılığı ilə tanış olduqda onun tərcümə etdiyi bədii əsərlərin öhdəsindən məharətlə gəldiyini görə bilirik. Bunu Cahanbaxş imzası ilə işıq üzü görən, otuzdan çox tərcümə əsərlərində aydın görmək mümkündür. Kifayət qədər çoxsaylı tərcümələr etmiş Cahanbaxşın görkəmli rus yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı Mixail Aleksandroviç Şoloxovun qələmə aldığı "Sakit Don"u bu gün də

Azərbaycan sənəti tarixinin ən uğurlu nümunələri sırasında yer alır. Bu tərcümədə Cahanbaxşın yaradıcı əməyi, istedadı bütün təfsilatı ilə üzə çıxır. Daha dəqiq desək, "böyük rus yazıçısının 1964-1967-ci illərdə Bakıda nəşr olunan səkkizcildlik əsərlərinin ilk altıcildliyini "gəncəli şoloxovçu" doğma dilimizə çevirib" [1, s. 379].

Cahanbaxş Cavadzadəyə məhz bu tərcüməyə görə, M.Şoloxov məktub yazmış, hətta onların arasında səmimi münasibətlər də yaranmışdır. Məktublarının birində M.Şoloxov Cahanbaxşın tərcüməsinin orijinaldan daha yaxşı alındığını vurğulayaraq onu bu münasibətlə təbrik də etmişdir. [2, s.6].

Yazıçının M.Şoloxovun yaradıcılığından etdiyi tərcümə tək bu əsərlə məhdudlaşmır. "Oyanmış torpaq" kimi ikicildlik əsərdə bu tərcümələr sırasında xüsusi yer almışdır. Onun tərcüməsində böyük ustalıq nümayiş etdirmiş Cahanbaxşın bu işini vaxtilə xalq yazıçısı İsmayıl Şıxlıda təqdir etmişdir. [2, s.6].

M. Şoloxovun "Sakit Don" romanın ilk nəşri Cahanbaxş tərəfindən Gəncədə tərcümə edilərək 1933-cü ildə Bakıda, Azərnəşrdə çap olunmuşdur. Daha sonra 1936-cı ildə 2-ci kitab, 1949-cü ildə 3-cü kitab, 1950-ci ildə 4-cü kitab Azərnəşrdə çap edilərək oxuculara təqdim olunmuşdur. 1962-ci ilin martında isə "Sakit Don" romanın 4 kitabını yeni akademik nəşrə hazırlanmasına dair tərcüməçi Cahanbaxş müqavilə imzalamış, bu romanın 8 cilddən ibarət külliyat şəklində nəşrindən 6 kitabı məhz ona həvalə edilmişdir. 1964-1965 – ci illərdə Azərnəşr tərəfindən yeni nəşrlər artıq çap olunmuşdur.

Cahanbaxşın tərcümə yaradıcılığının zirvəsi hesab olunan M.Şoloxovun tarixi hadisələrlə zəngin olan "Sakit Don" roman – epopeyası, Birinci dünya müharibəsi, rusların həyatında siyasi cəhətdən mühüm əhəmiyyət kəsb edən Fevral çevrilişi, Oktyabr inqilabı, Vətəndaş müharibəsi kimi bir neçə hadisələri özündə birləşdirən bir əsərdir. Yazılıdığı dili qədər süjeti də mürəkkəb olan bu əsərin tərcüməsinin orijinal alınması isə tərcüməçinin bir başa peşəkarlığından irəli gəlir. Əsərin bütün hissələrində istər nəsr, istərsədə nəzm hissəsində, Don çayı sahilində yaşayan kazakların öz doğma elinə, torpağına sevgisindən irəli gələn nəğmələri, Azərbaycan oxucusuna doğma dildə sevdirmək tərcüməçi Cahanbaxşın yüksək yaradıcı qabiliyyətindən qaynaqlanır.

Bizim şanlı torpağımız ağac xışla şumlanmamış,
Bu torpaq at dırnağıyla şumlanıbdır qarış-qarış.
Bu torpağa toxum deyil, kazak başı səpilmişdir,
Bizim sakit Donumuzu dul qadınlar bəzəmişdir**.** [3, s.7].

Bu nəğməyə nəzər salanda onun hər misrasında kifayət qədər Azərbaycan ədəbi dilinin normalarına eləcə də obrazlılığı və xəlqi koloritə cavab verdiyinin şahidi oluruq. İlk növbədə öz doğma dilinə mükəmməl yiyələnməsi sayəsində tərcüməçinin rolu sanki əsəri ikinci dəfə yaratmaqdan ibarət olmuşdur.

" İlk olaraq 50-60 il bundan əvvəl dilimizə çevrilmiş və bir neçə dəfə nəşr edilmiş tərcümə sənətkarlıq baxımından hələ də yüksək meyyarlara cavab verir. Roman-epopeyanın vaxtilə professional tərcüməçi C.Cahanbaxş tərəfindən ustalıqla dilimizə çevrilməsi sözün əsl mənasında bu gün də onu Azərbaycan ədəbiyyatı və tərcüməşünaslığının maraq dairəsində saxlayır" [3, s.4].

Bütün bunların öhdəsindən bacarıqla gələn Cahanbaxşın bu fəaliyyətində, Gəncə mühitində yaşamaq amilinin rolu heç də az olmamışdır. Bu şəhərdə yaşayıb yaradan sənətkar Gəncənin şirin dil xüsusiyyətlərinə, xəlqi-etnoqrafik koloritinə mükəmməl şəkildə yiyələnmişdir. Bu keyfiyyət onun özünün qələmə aldığı əsərlərdə olduğu kimi tərcümələrindən də aydın sezilir. Cahanbaxş tərcümə etdiyi əsərlərə sənətkarlıqla bərabər içərisində yaşadığı Gəncə mühiti ilə bağlı xəlqi-etnoqrafik

keyfiyyətləri də qatmışdır. Tərcümələrində ədəbi dil ilə yanaşı, Gəncə sakinlərinin danışıq - dil xüsusiyyətləridə yetərincə yer almışdır.

" Bir az sonra qıpqırmızı qızarmış, şalı çiyninə sürüşmüş Marva qeybət qırır, tində bir araya toplaşmış qadınlara deyirdi:

- Ay qadanızı alım, bir desəniz görək, bu kişi onun nəyinə bənd olub?" [3,s.16].

Canlı danışıq dilinin bütün zənginliklərinin ifadə olunduğu bu tərcümə parçasında istər təsvir üsullarının, istər nəzm hissələrinin, istərsə də obrazların zahiri görkəmini təsvir edərkən portret cizgiləri diqqətlə gözdən keçirildikdə, Cahanbaxşın tərcümə yaradıcılığının sənətkarlıq keyfiyyətləri bütün incəlikləri ilə üzə çıxır. Xalq dilindən qaynaqlana milli koloritə uyğun söz və ifadələrdən yeri gəldikcə istifadə olunması tərcüməni oxucuya daha da doğmalaşdırır.

- "A quda, bu almanlar bizi xirtdəkləməzlər ki? Xatakar millətdirlər, Allah onların tifağını dağıtsın!" [5, s.8].

Rus dilindən Azərbaycan dilinə tərcümə böyük diqqət tələb edir. Aydın məsələdir ki, tərcümə rus dilində cümlədəki sıralanma ilə getmir. Ona görə də belə mürəkkəb əsərlərdə cümlələrin məntiqi mənasının da oxucuya çatdırılması böyük diqqət tələb edir. Bu isə tərcümə edən sənətkarın təcrübə peşəkarlığı ilə birbaşa bağlıdır. Cahanbaxş Cavadzadənin isə bunun öhdəsindən məharətlə gəldiyini deyə bilərik.

- "Bir saatdan sonra o, gizlincə bağdan çıxdı, duyduğu ağrılardan ürəyi sıxıla sıxıla gəncliyini keçirdiyi bu yerlərə - kimsəsiz qalmış həyətin hər tərəfinə, yanğından sonra mərəklərin kösövə dönmüş pərdilərinə, uçub üst- üstə tökülmüş soba və bünövrə xarabalarına bir də son dəfə baxdı və yol ilə sakitcə getməyə başladı" [6, s.36].

Rus və Avropa ədəbiyyatının kifayət qədər sanballı əsərlərini tərcümə edən Cahanbaxş bu nümunələrlə yaradıcılığına bir növ bəzək qatmışdır. Belə ki, onun rus dilindən çevirdiyi əsərlərin – roman, povest və hekayələrin sayı otuzdan artıqdır. Bu tərcümələrə 4 cildlik "Sakit Don" romanı, "Oyanmış torpaq", A.S.Puşkinin "Seçilmiş əsərləri", "Stansiya naziri", "Qoryuxino kəndinin əhvalatları", "Roslavlev", "Tənqid, tarix, avtobioqrafiya", N.Qoqolun "Seçilmiş məqalə və məktubları", "Köhnə dünya mülkədarları", M.Qorkinin "Seçilmiş əsərləri", "Üç dost" romanı, "Kain və Artyom", "Kirilka", "Şeytan haqqında", "Yenə şeytan haqqında" hekayələri, Mopassanın "Boyunbağı", Qladkovun "Uşaqlıq haqqında povest"i, D.Bednının "Baron Vrangelin manifesti", alman dilindən "Hannesin ölümü", "Əski qvardiya", H. Leberextin "Koordidə işıq" romanı kimi qiymətli nümunələr daxildir.

Tərcümələrində Azərbaycan ədəbi dilini sistemli şəkildə hərtərəfli canlandıran sənətkarın əsərlərində bədiilik, xitablar, təsvir və ifadə vasitələri böyük ustalıqla qələmə alınmışdır. Buna "Sakit Don" romanın tərcüməsində bir daha şahid ola bilərik.

- "Bıy sənə qurban olum, bala! Səni lənətə gələsən! Bu nə iş idi, sən başımıza gətirdin, hə? Bəs sən harada idin?" [4, s.63].

Cahanbaxşın ədəbi aləmdə ən önəmli xidmətlərindən biri də, məşhur çex jurnalisti Yurius Fuçikin "Faşist zindanından səslər" adlı dəyərli əsərini uğurla dilimizə çevirməsidir [1, s. 379]. İlk dəfə 1947-ci ildə " İnqilab və mədəniyyət" jurnalının 10-cu buraxılışında çap olunan bu əsər, 1948-ci ildə "Uşaqgəncnəşr" tərəfindən kitabça şəklində nəşr olunmuşdur.

Cahanbaxş yaradıcılığında tərcümələrlə yanaşı, hekayə, novella, povest kimi ədəbi janrlar da mühüm yer tutur.Yazıçının "Mübariz", "Yaxşı güzəran", "Əsrin dili", "Oğlunamı yoxsa...", "Ədib", "Yusif və Züleyxa", "Həyat", "Qonşular", "Ayılıblar", "Xurcun", "Marusya", "İlk hücum", "İntiqam", "Telli", "Papaq", "Bayram şirnisi", "Güləndam və Bayram", "Şirin həyat və acı qənd", "Bəlkə elə deyil...", "Patriotlar", "Babaxan", "Dostumun hekayəsi", "Həyat vəsiqəsi", "Gəncə-Yelizavetpol-Kirovabad"

kimi hekayələri, "Etibar" povesti, "Gəncəlilər" romanı, "Aşıq Möhsün" novellası, "Ukrayna borşu", "Ümid" birpərdəli pyesləri, "Yeddi qardaş və bir bacı" librettosu oxucular tərəfindən maraqla qarşılanmışdır. Onun 1960-cı ildə "Quru qobuda", "Can ağrısı", "Üç qızıl müqəvva", 1965-ci ildə isə "İdmanın xeyri" kimi hekayələri ayrı-ayrı dövrü nəşrlərdə dərc olunmuşdur.

Vətənpərvər qələm sahibi, xalqına, kökünə son dərəcə bağlı olan yazıçı üçün qədim Gəncə həmişə əziz, doğma olmuşdur. Məlumdur ki, sovet dövründə Rusiyanın irtica siyasəti bu şəhərdən də yan keçməmişdir. Rusiya imperiyası tərəfindən Gəncədə Cavad xanın qəbri dağıdılanda Cahanbaxş hər vəchlə bu şovinist hərəkətə qarşı çıxaraq qəti şəkildə etirazını bildirmişdir. [2, s. 6].

Cahanbaxş yaradıcılığı onu izləyən oxuculara mətbuat səhifələrindən daha yaxşı tanışdır. Hətta o bir müddət Gəncə şəhər qəzetində şöbə müdiri vəzifəsində çalışmışdır. Onun 1960-cı ildə yazdığı "Quru Qobuda" hekayəsi "Pioner" jurnalında, "Can oğrusu" hekayəsi "Azərbaycan" jurnalında, "Üç qızıl müqəvva" hekayəsi isə "Göyərçin" jurnalında dərc olunmuşdur. Yazıçının 1965-ci ildə "İdmanın xeyri", 1970-ci ildə isə "İki qoca" hekayələri "Ədəbiyyat və incəsənət" qəzetində, 1971-ci ildə isə "Sənətkarın taleyi" əsəri "Pioner" jurnalında işıq üzü görmüşdür.

Ümumilikdə Cahanbaxşın yaradıcılığında yer alan əsərlər "Ədəbiyyat cəbhəsində", "İnqilab və mədəniyyət", "Azərbaycan qadını", "Vətən uğrunda" kimi sanballı jurnallarda, "Qızıl Gəncə", "İlk addımlar", "20 bahar" adlı almanaxlarda, "Kommunist", "Ədəbiyyat" kimi nüfuzlu qəzetlərdə mütəmadi şəkildə dərc olunmuşdur.

Cahanbaxşın yaradıcılığı ilə tanış olanda onun ədəbiyyat aləmindəki özünəməxsus dəsti- xəttini açıq şəkildə görmək olur. Bu sadə, vətəninə, doğma elinə son dərəcə bağlı olan insanın istər nəsr, istər dramaturgiya, istərsədə tərcümə sahəsində yaratdığı məhsullar Azərbaycan ədəbiyyatına, xalq təfəkkürünə xidmət etmişdir. Gənc yaşlarından yaradıcılığa başlayan Cahanbaxşın Azərnəşrdə tərcüməçi işləməsi, Gəncə şəhər qəzetində çalışması onun qələmini, yaradıcılığını daha da püxtələşdirmişdir. Onun qələmindən çıxan tərcümələrin milli tərcümə sənətimizin inkişafına verdiyi töhfələr böyükdür. Beləki, 1960-1972-ci illərdəki yaradıcılığı Gəncə ədəbi mühitinə öz təsirini göstərməyə bilməzdi. Özündən sonrakı nəsil üçün tərcümələri, hekayələri, povestləri ilə ədəbi irs qoyub gedən yazıçı Cahanbaxş Gəncə ədəbi mühitinin seçilən nümayəndələrindən biridir. Azərbaycan ədəbiyyatında özünə layiqli yer tutan, ömrünün sonuna qədər Gəncədə yaşayan yazıçı Cahanbaxş Cavadzadə 1972-ci ildə fevralın 6-da dünyasını dəyişmiş və elə bu şəhərdə də dəfn olunmuşdur.

Cahanbaxş öz məhsuldar və çoxşaxəli ədəbi fəaliyyətində bir sıra sahələri məharətlə birləşdirmiş, bütün yaradıcılığı dövründə qələmə aldığı hekayələri, tərcümələri, komediyaları ilə xx əsr Gəncə ədəbi mühitinin inkişafında mühüm rol oynamışdır.

ƏDƏBİYYAT

1. Ə.İsayev. Gəncə və gəncəlilər. Bakı, 2002
2. S.Cavadzadə. "Yazıçı ömrü: Cahanbaxş". "Gəncəbasar" qəz., 21 oktyabr-4 noyabr 2012-ci il, № 15-16
3. M.A. Şoloxov "Sakit Don" Birinci kitab Bakı, 2006
4. M.A. ,Şoloxov "Sakit Don" İkinci kitab Bakı, 2006
5. M.A.Şoloxov "Sakit Don" Üçüncü kitab Bakı, 2006
6. M.A.Şoloxov "Sakit Don" Dördüncü kitab bakı, 2006

7. SSRİ Yazıçılar İttifaqı “ SSRİ yazıçılar ittifaqı üzvünün fərdi uçot kartoçkası” Gəncə, 1966

ГЮЛЬНАР ГУСЕЙНОВА

ПИСАТЕЛЬ- ПЕРЕВОДЧИК ДЖАХАНБАХШ И ГЯНДЖИНСКАЯ СРЕДА XX ВЕКА

РЕЗЮМЕ

Ознакомившись с творчеством Джаханбахшина, можно увидеть литературный мир, принадлежащий только ему. Это простой человек, сильно привязанный родине, родной земле, его труды, созданные в области перевода азербайджанской литературы, посвятивший себя народу. Начавший свое творчество с юных лет, Джаханбахшин работает переводчиком в Азербайджанской типографии , затем работа в городской газете « Гянджа, которая послужила процветанию его творчества.

Национальные переводы, переведенные пером писателя, дало большое развитие и награды нашему народу. И так, 1960-1972 годы, охватывающие его творческие годы не могли неповлиять на развитие литературного творчества в Гяндже.

Джаханбахш является один из избранных представителей литературы, оставивший после себя , для сегодняшнего поколения: переводы, повести, процведения. Джаханбахш в своем развлетвленном литературном творчестве с большим умением обьединил несколько областей: все прощведения, переводы, комедии, принадлежащие его перу.

И в xx веке его творчество сыграло большую роль в развитии литературного творчества в Гяндже.

GULNAR HUSEYNOVA

A WRITER AND TRANSLATOR JAHANBAKHISH AND XX CENTURY GANJA LITERARY ENVIRONMENT

SUMMARY

While getting acquainted with Jahanbakhish’s literary activity, his peculiar way of writing in literary world is obviously observed. The art works written by this extremely modest, patriotic and honest man in the fields of prose, drama as well as translation have served Azerbaijan literature and national thinking. Jahanbakhish who began literary creativity in his youth worked as a translator in Azernashr and led his activity in the city newspaper of Ganja which in its turn matured his writing and literary activity even more. The translations made by him contributed greatly to the evolution of our national art of translation. So that his creative activity in the years of 1960-1972 couldn’t have had an impact on Ganja literary environment. Jahanbakhish is one of the notable representatives of Ganja litetary environment who left a literary heritage with his translations for the next generation. Jahanbakhish masterly combined several fields in his productive and varied literary creativity and played an important role in the development of xx century Ganja litetary environment with his stories, translations and comedies written throughout his life.

Rəyçi: Məhərrəm Qasımlı
filologiya elmləri dortoru, professor

СЕВИНДЖ РЗАЕВА
Бакинский славянский университет
Email: sevinc_rzayeva@yahoo.de

РЕЦЕПТИВНО-ЭСТЕТИЧЕСКИЙ ХУДОЖЕСТВЕННЫЙ ХАРАКТЕР ЛИТЕРАТУРНОГО ПРОИЗВЕДЕНИЯ

Ключевые слова: *горизонт ожидания, дистанция, произведение, читательская публика.*
Açar sözlər: *gözləmə mənzərəsi, məsafə, əsər, oxucu kütləsi.*
Key words: *horizon of expectation, distance, work, audience of readers.*

Реконструируемый горизонт ожидания произведения позволяет определить художественный характер по способу и степени его воздействия на предполагаемую публику. Расстояние между данным горизонтом ожидания и появлением нового произведения, чье восприятие путем отрицания близкого или осознанного выраженного опыта может привести к «смене горизонта», можно определить как эстетическую дистанцию. Исторически она объективируется в спектре реакций публики и суждений критики (спонтанного успеха, непризнания или шока; признаваемая лишь единицами, медленного или запоздалого понимания).

Критерия для определения эстетической ценности литературного произведения, это то, какими способами литературное произведение в конкретный исторический момент своего появления оправдывает, превосходит или опровергает ожидания своей публики. Дистанция между горизонтом ожидания и произведением, между тем, что уже знакомо по предшествующему опыту и восприятием нового произведения требуемого «изменения горизонта» [3, 64], определяет рецептивно-эстетический художественный характер литературного произведения: по мере того как эта дистанция сокращается, произведение уже не предлагает воспринимающему сознанию горизонт еще неизвестного опыта, произведение приближается к области кулинарного и развлекательного и массового искусства. Последнее позволяет, таким образом, рецептивно-эстетически охарактеризовать, что оно (произведение) не требуют изменение горизонта, оно реализует ожидания, продиктованные преобладающим направлением вкуса, удовлетворять потребность, а воспроизведение рутинных определений прекрасного, подтверждает привычные чувства, санкционирует желаемые представления, давая возможность читателю насладиться необычными переживаниями как «сенсацией», оно поднимает моральные проблемы, но только чтобы разрушить их в поучительном смысле, как заранее предрешенные вопросы. Эстетическая дистанция, возникающая при появлении произведения носит художественный характер у его публики, которая впервые знакомится с ним. Естественно, первичное знакомство не может дать исчерпывающие представления о художественных достоинствах и недостатках произведения. А иногда оно дает искаженное представление, и лишь со временем раскрывается более или менее объективное содержание произведения и переживаемая в начале, как радость или удивление от нового способа видения, может исчезнуть в дальнейшем у читателей. Это связано с тем, что энергия изначального негатива произведения, постепенно

разряжается в нечто банальное, войдя со временем в привычные ожидания, она становится частью горизонта следующего эстетического опыта. Под такое изменение горизонта попадает особенно классичность так называемых шедевров [10, 306]; под такое изменение горизонта попадает она (классичность), разумеется, ставшая красивой формой, кажущаяся бесспорно «вечным смыслом» ставит их, с точки зрения рецептивной эстетики в опасную близость к «массово-развлекательному» искусству, так что требуется особое усилие, чтобы прочесть их вопреки устоявшим пониманиям и переживаниям и тем самым ощутить их художественный характер.

Отношение литературы и публики не в том, что каждое произведение имеет свою специфическую в историческом и социологическом планах публику, что каждый писатель зависит от среды, от круга представлений и идеологии своей публики и, что литературный успех отмечает книгу, «что ожидает группа, книга, группа которой раскрывает ее собственный образ». Это объективистское обоснование литературного успеха с совпадением замысла произведения и ожиданий социальной группы ставит социологию литературы в затруднительное положение, когда необходимо объяснить позднее или длительное воздействие. Поэтому Р. Эскарпи предполагает «иллюзии долговечности» писателя «коллективную основу во времени или пространстве», что в случае с Мольером приводит его к удивительным прогнозам: «Мольер все еще молод для француза XX века, потому что мир его все еще живет с нами, так как нас связывает с ним единый культурный, мировоззренческий и языковой круг” [5, 116]. Но круг сужается и Мольер постареет и умрет, но он умрет, когда умрет все то, что объединяет наш тип культуры с мольеровской Францией. Как будто Мольер отразил лишь «нравы своего времени» и сохраняет успех только благодаря этому предписанному замыслу! Там, где не существует совпадения между произведением и социальной группой, как например, при восприятии произведения в чужой языковой среде, Эскарпи призывает на помощь миф: «Мифы, изобретенные потомками взамен действительности, ставшей для них чужой» [5, 111]. Как будто все восприятия произведения являются лишь «искажающим эхом», когда публика социально конкретна, лишь последствие замещающих ее «субъективных мифов» и каждое восприятие не предполагает для себя в произведении в качестве своей априорной посылки границы и возможность для дальнейшего понимания! Социология литературы рассматривает свой предмет недостаточно диалектично, трактуя круг писателя, произведения и публики так односторонне. Детерминация обратима: существуют произведения, у которых в момент их появления еще не было собственной публики, которые полностью разрушали существовавшие привычные горизонты ожиданий, и таким образом их публика формировалась постепенно [1, 11]. Когда значимость нового горизонта ожидания становится общей, власть изменившейся эстетической нормы может проявиться и в том, что публика начинает воспринимать успешные произведения как устаревшие и лишает их своей благосклонности. При взгляде на смены горизонта, анализ литературного воздействия достигает в истории литературы уровня читателя и превращает статистические изъяны в бестселлер исторического исследования.

Можно назвать пример литературной сенсации 1857 года. Наравне с известной «Госпожой Бовари» Флобера появился, забытый ныне, роман, его друга Фейдо «Фанни». Хотя роман Флобера вызвал судебный процесс из-за оскорбления общественной нравственности, «Госпожа Бовари» оставалась в тени романа Фейдо: «Фанни» добилась успеха, которого Париж не переживал со времен «Атала» Шатобриана, этот роман издавался 13 раз в течение одного года. Тематика обоих романов отвечала ожиданиям публики, которая по анализу Бодлера, отрекалась от любого романтики и презирала в страстях как великое, так и наивное [6]: у них был сюжет супружеской измены в провинциальной среде. Оба автора понимали это, удовлетворив ожидание публики детальными описаниями эротических сцен. Они использовали их для того, чтобы превратить избитую тему любовного треугольника в сенсационное переживание, в котором они, перевернув ожидаемое соотношение трех классических ролей, придали новое значение затасканной теме ревности: «Фейдо заставляет молодого любовника, оказавшегося почти у цели своих желаний, приревновать возлюбленную к ее супругу и потерпеть крах в этой мучительной ситуации; Флоберт дает супружеским изменам жены провинциального врача неожиданную развязку, которую Бодлер интерпретирует как сублимированную форму дендизма, что приобретает смешная фигура обманутого Шарля Бовари. В официальной критике того времени были голоса, осуждавшие «Фанни» и «Госпожу Бовари», как продукт новой школы реализма, которую они обвиняли в отречении от всех идеалов, на которых основывался социальный порядок второй империи [7, 196-213]. Обрисованный здесь горизонт ожидания публики 1857 года, что после смерти Бальзака больше не ждала от романов ничего великого [7, 201], объясняет различный успех обоих романов только в случае, если включить в разбор воздействие их повествовательной формы. Формальная новизна Флобера, его «принцип безличного повествования», на который напал Барбе де Оревилье, написав, что отлитая из английской стали говорящая машина, работала бы так же, как господин Флобер [7, 96-116], не могли не шокировать ту самую публику, которой было предложено волнующее содержание Фанни, в доступной мере. У Фейдо тоже можно было найти воплощение модных идеалов и изображение подавленных желаний светского общества [7, 209-210] и беспрепятственно наслаждаться двусмысленным зрелищем, в котором Фанни (не подозревая, что ее любовник смотрит из балкона) соблазняет своего супруга, возможное моральное негодование публики было уже снято реакцией несчастного свидетеля. После того как «Госпожа Бовари» поначалу, понятая и признанная поворотным пунктом в истории романа, завоевала мировой успех, образованная публика чтением романа санкционировала новый канон ожиданий, который в полной мере выявил слабости Фейдо: его цветистый стиль, модные эффекты, лирико-исповедальные клише стали невыносимыми и Фанни осталась бестселлером вчерашнего дня.

«Реконструкция горизонта ожидания, в котором произведение в прошлом совершалось или воспринималось, дает возможность, задавать вопросы, на которые отвечает текст, и тем самым решить, как читатель воспринял и понял произведение. Этот подход исправляет в основном неизвестные нормы классического или модернизирующего понимания искусства и избавляет от жалоб на общий дух эпохи. Он позволяет увидеть герменевтическое различие

между первичным и последующим пониманием произведения, дает осознать обе позиции истории восприятия и сравнивать их ставит мнимую естественность, что поэтичность и врожденная художественность присутствует в литературном тексте вне времени и что ее объективный, раз и навсегда данный смысл постоянно и непосредственно доступен интерпретатору».

Рецептивно-исторический метод (11, 84) для понимания литературно-художественной продукции прошлых эпох, просто незаменим. Там где автор произведения неизвестен, его намерения не удостоверены, его отношение к источникам и образам раскрыто лишь косвенно, филологический вопрос, «собственно» следует понимать текст, т.е «исходя из его намерения и времени», скорее можно ответить, если выделить его из глубинного плана произведения, знание которого автор эксплицитно и имплицитно предполагает у современной публики. Как свидетельствует пролог «Романа о Ренаре», его автор средневековых произведений Ренар считает, что его слушатели знают о романе так же подробно, как об истории Трои и Тристане - героических эпосах и поэтому они с нетерпением ждали «неслыханной войны двух баронов - Ренара и Изенгрина», которая затмила бы всё известное. Произведения и жанры, на которых опирается автор, проявляются потом с иронией на протяжении всего повествования. Кардинальное изменение горизонта объясняет стремительный успех произведения также за пределами Франции, которое завоевало известность и приобрело новое движение, впервые противопоставленное всей господствующей до его появления героической и придворной поэзии [9, 214].

Филологическое исследование долго не замечало изначально сатирического замысла средневекового Рейнеке Фукса, а так же и иронически-назидательную аналогию между звериным существованием и человеческой натурой, так как она со времен Якоба Грима оставалась в плену в романтических представлениях о чистой поэзии природы и наивной сказки о животных. Таким образом, можно назвать еще один пример модернизирующей нормы – французское исследование эпоса со времен Бедье и справедливо упрекнуть его в том, что оно, само того не замечая использовало критерии поэтики Буало, обсуждая о литературе, которые оценивали по многим классическим нормам простоты, гармонии, как с точки зрения составляющей его частей, так и в целом. [9, 1-16]. Критико- филологический метод не гарантирует во всех случаях полную объективность, что интерпретатор неосознанно возводит свое эстетическое предпонимание в норму и модернизирует смысл прошлого текста. Кто верит, что «вневременное бытие» смысла поэзии непосредственно должно раскрыться интерпретатору, благодаря лишь погружению в текст, как бы вне пространства, вне истории, минуя все «ошибки» его предшественников и историю восприятия, «скрывает то историческое воздействие потока, в котором находится само исторической сознание». Он отрицает «существование непроизвольных и фундаментальных предпосылок, направляющих его собственное понимание», и может стимулировать объективность, «которая, по сути, означает законность поставленных вопросов» [8, 284-285].

Критика Ханса Георга Гадамера об историческом объективизме описана в книге «Истина и метод». В нем философ пытается обосновать принцип истории воздействия, которая, в прямом смысле слова, стремится обнаружить действительность истории, [8, 283] применяя логику вопроса к историческому наследию и

ответ на этот вопрос. Следуя тезису Коллингвуда, что «текст можно понять тогда, когда понят вопрос, на который он и есть ответ», [8, 352] Гадамер установил, что реконструированный вопрос, не может сохранить свое изначальное значение, так как этот исторический горизонт теперь уже включен в горизонт нашей современности: «понимание - это всегда процесс слияния таких мнимо самодостаточных горизонтов» [8, 289]. Исторический вопрос не может существовать для себя, он должен перейти в вопрос, «что является для нас передачей. Так могут решаться вопросы, в которых Р. Уэллек описывает апорию литературного суждения: должна ли филология оценивать литературное произведение в перспективе прошлого, с позиции современности или по «приговору веков»? [12, 20-22]. Фактические масштабы прошлого могут быть настолько маленькими, что их применение обеднило бы произведение, которое между тем имеет в истории своего воздействия богатейший смысловой потенциал. Эстетическое суждение настоящего времени, предпочитает канон, создаваемый и обоснованный рядом произведений, которые соответствуют современному вкусу, а все прочие произведения оценивает необъективно, только потому, что их функция уже перестала быть очевидной. В данном случае на лицо историческая несправедливость. История воздействия, как бы поучительна она не была, «будучи авторитетом подвержена тем же претензиям, что и авторитет современников поэта» [12, 20]. Вывод Уэллека: невозможно уйти от нашего собственного суждения, но следует сделать его по возможности объективным, делать то, что делает каждый ученый, а именно «изолировать предмет» [12, 20], но это не решение апории, а рецидив объективизма. «Приговор веков», вынесенный литературному произведению, - это больше чем аккумулированное суждение читателей, критиков, зрителей или даже профессоров, [12, 20], а процесс постепенного разворачивания смыслового потенциала произведения, актуализированного в исторических восприятиях, который открывается интерпретирующему тогда, когда оно контролированным образом осуществляет «слияние горизонтов» при встрече с наследием.

Расхождение рецептивно-эстетического обоснования истории литературы с принципом истории воздействия у Гадамера начинается там, где он возводит понятие классического в прототип любого исторического опосредования прошлого и настоящего. Его определение: «всё, что называется классическим, уже не требует преодоления исторической дистанции, так как оно само осуществляет это преодоление посредника» [8, 274], выпадает из отношения вопрос-ответ, конститутивного для всего исторического наследия, для классического текста уже не надо искать вопрос, на который он дает ответ, если он классический, то «говорит нечто любому настоящему так, как если бы сказанное предназначалось именно ему» [8, 274]. Но не является ли такое понятие «классического», которое «само себя обозначает и само себя истолковывает» [8, 274], лишь описанием результата того, которого можно назвать «второй сменой горизонта»: за бесспорной самодостаточностью смысла так называемого «шедевра», возникающей только в ретроспективном горизонте классической традиции, не скрывается ли его изначальная негативность, и не вынуждает ли она нас снова отыскать «правильный горизонт», который противоречит благообразной обывательской классичности? Воспринимающее сознание, и в

случае классического произведения, не освобождено от необходимости сознавать «напряженное взаимоотношение текста и современности» [8, 290]. Заимствованное у Гегеля понятие классического, истолковавшего само себя, переворачивает историческое соотношение вопроса и ответа [8, 351-360] и противоречит самому принципу истории воздействия, согласно которому понимание это «не только репродуктивное, но и продуктивное действие [8, 280].

Это противоречие, очевидно, служит тому, что Гадамер следует классическому понятию искусства, непригодному для общего обоснования рецептивной эстетики за пределами эпохи своего возникновения – эпохи гуманизма. В его основе, как показал Гадамер в своем онтологическом объяснении опыта искусства, понятие «мимесиса» как «узнавание», «то, что собственно можно узнать или пережить из произведения, на чем можно сосредоточиться, это, скорее всего, его истинность, то есть вероятность того, что в нем можно узнать нечто или самого себя». [8, 109]. Мы можем считать подобное понимание искусства значимым для гуманистического периода искусства, но не для предшествовавшего ему средневековья, и тем более, не для последующей эпохи модернизма, в которой эстетика мимесиса, как лежащая в ее основе субстанциальная метафизика («познание сущности») потеряли свой обязательный характер. Познавательное значение искусства в смене эпох не утратилось [8, 110], из чего следует, что оно вовсе не связано с классической функцией узнавания. Художественное произведение может быть посредником в познавательном процессе и не описываться при этом в платоновской схеме, когда указывает пути будущего опыта, предлагать воображаемые модели видения и поведения, содержать ответ на новые вопросы [4, 84]. Тот, кто стремится связать искусство прошлого и современности понятием «классического», лишают историю воздействия литературы этого потенциального значения и продуктивной функции в процессе восприятия. Если классическое, по Гадамеру, само должно постоянно преодолевать историческую дистанцию, то это приводит к гипостазированной традиции, иначе говоря, мешает увидеть, что классическое искусство в свое время не было классическим, а наоборот, открывало новые способы видения, предопределяло новый опыт, видимость того, что в произведении искусства выговаривается вечная истина и возникает только в историческом отдалении, при узнавании уже известного.

Воздействие даже великих литературных произведений прошлого не может быть отождествлено ни с самоопределяющимся событием, ни с самопроизвольной эманацией: традиция искусства придает отношениям прошлого и настоящего диалогичность, поэтому произведения прошлого обретают язык и отвечают нам только тогда, когда современный наблюдатель находит вопрос, вырывающий произведение из изоляции. Там, где, как в труде Гадамера «Истина и метод», понимание, аналогично «событию бытия» у Хайдеггера, трактуется как «включение в событие наследия» в котором прошлое и настоящее сообщают друг другу [4, 275], там «продуктивный момент понимания» неизбежно оказывается исключенным. [4, 280]. Эта продуктивная функция прогрессирующего понимания, которая непременно включает критику традиции и забвения и должна лечь в основу рецептивно-эстетического проекта истории литературы. Историчность литературы будет рассмотрена в нем в трех аспектах: в диахронии, во взаимосвязи восприятия литературных произведений, в синхронии, как в системе референций

современной литературы, так и в смене самих этих систем и наконец, в соотношении имманентного литературного процесса и общего процесса истории.

ЛИТЕРАТУРА

1. Auerbach E., Gesammelte Aufsätze zur romanischen Philologie, Bern/München, 1967
2. Blumenberg H. „*Einschließen - Historisieren – Aufgreifen*“ Ein Arbeitsgespräch in Poetik und Hermeneutik III, Konstanz, 2008
3. Buck G. Lernen und Erfahrung, Stuttgart, 1967
4. Erlichs V., Russischen Fornealismus“, München 1964
5. Escarpit R. Das Buch und der Leser: Entwurf einer Literatursoziologe, Köln/Opladen 1961
6. Flaubert G. Madame Bovary, Paris 1951
7. Flaubert G. „*Education Sentimentale*“ in Heidelberger Jahrbücher 2, 1958
8. Gadamer H.G. Wahrheit und Methode, Tübingen, 1960
9. Jauß H. R. Untersuchungen zur mittelalterlichen Tierdichtung, Tübingen, Bd. IV A und D, 1959
10. Tomasevskij B. „Theorie de la litterature. Textes des formalistes russes reunis, presentes et traduits par T. Todorov, Paris, 1965, S.306
11. Vodicka F. „*Struktura vivoje*“ in Zur Problematik der Rezeption von Nerudas Werk, Prag, 1969
12. Wellek R. “*The Literary Theory and Aesthetics of the Prague School”* in Zeitschrift “Slovo a slovesnost” Prag, 1969

S.T.RZAYEVA

BƏDİİ ƏSƏRLƏRİN RESEPTİV-ESTETİK BƏDİİ XARAKTERİ

XÜLASƏ

Məqalədə Hans Robert Yaussun reseptiv estetika nəzəriyyəsinin ədəbi ənənənin ingişafinda və təşkilində əsas prinsip kimi götürülməsinə münasibət bildirilir. Bədii əsərlərin dinamikasının ədəbi-bədii ənənənələrin yarnmasındakı rolu bədii mətnlə onun resipienti arasında kommunikativ qarşılıqlı əlaqənin olması ilə səciyyələndirilir. Eyni zamanda estetik məsafə anlayişina aydınlıq gətirilir və onun oxucu kütləsi uçün oynadığı rola münasibət də bildirilir.

S.T.RZAYEVA

THE RESEPTIVE-AESTHETIC LITERARY CHARACTER OF THE WORKS OF ART

SUMMARY

The article deals with the reseptiv aesthetic theory by Hans Robert Yauss and its role in development of literary tradition and its constitute. The author tries to throw a light on the dynamics of literary works in the formation of literary and works of arts, and mutual relations of the recipient and the literary work. The notion of aethetic distance is also touched uopn in this article.

Rəyçi: prof. M.Q.Qocayev

YÜCEL KARAUZ
Azarbaycan2013@gmail.com

MÜHARİBƏ ƏSİRLƏRİ İLƏ ƏLAQƏDAR 1918-Cİ İLDƏ EDİLƏN RAZILAŞMALAR

Açar sözlər: *brest sülhü,, Əsir Dəyişmə Sazişi, zaqafqaziya hökuməti*
Ключевые словы: *брестский мир, соглашение обмен пленными , правительство закавказского*
Keywords: *the treaty of brest-litovsk, prısoner exchange agreement, the government of the caucasus*

Osmanlı dövləti, donamasının 29 Oktyabr 1914-cü ildə Rus liman şəhərlərini bombalaması və arxasından Rusiyanın 2 noyabr 1914-cü ildə Osmanlı Dövlətinə rəsmi olaraq müharibə elan etməsiylə özünü həqiqətən 1-ci dünya müharibəsinin içində tapmışdır.

Osmanlı dövləti Ruslar ilə Qafqaz, Galiçya və Rumıniya cəbhələrində qarşılaşmış, bu döyüşlərdə böyük torpaq itkiləri yaşamışdır.

Savaş 15 dekabr 1917-ci ildə həqiqətən sona çatmışdır. Bu keçən 3 ildən çox müddətdə Rusların da itkin və əsirləri olmaqla birlikdə Türk ordusu çox sayda itkin və əsir vermişdir.

Döyüşün sona çatmasından etibarən Osmanlı hökuməti Rusiyadakı Türk əsirlərinin vəziyyəti və bunların Anadoluya getirilmeleriyle əlaqədar ilk əlaqədar müxtəlif işlər içində olmuşlardır. Əsirlərin mübadiləsi ilə təşəbbüs 1918-ci il martın 3-də Brest-Litovskda imzalanmıştır.bu imzalanan Brest-Litovsk Atəşkəs andlaşmasından yer almışdır.

Taraflar , bu atəşkəs andlaşmasından Petrograd'da bir "Karma Komissiya" un toplanması qərarına gəlmişlər.

Osmanlı hökuməti, bir Türk heyətini 12 Yanvar 1918-ci ildə Petrograd'a göndərmiş, danışıqlarda təmin edici nəticə alına, bir neçə yüz malul Türk döyüş əsiri və vətəndaşın yurda dönüşü qərarına varılabilmiştir.

Brest sülh müqaviləsi; 1918-ci il martın 3-də Brest-Litovskda imzalanmış, martın 15-də 4-cü Ümumrusiya fövqəladə sovetlər qurultayı, Almaniya reyxstaqının razılıq verməsindən (22 mart) sonra, martın 26-da Almaniya imperatoru II Vilhelm tərəfindən təsdiq olunmuşdur. Brest sülh müqaviləsi aşağıdakı sənədlərdən ibarətdir: Rusiyanın Almaniya, Avstriya-Macarıstan, Bolqarıstan və Osmanlı dövləti ilə sülh müqavilələri; ayrı-ayrı malların tarifləri və gömrük rüsumları barədə müqaviləyə əlavə olaraq imzalanmış yekun protokolları; sülh müqaviləsinə əlavə olaraq Rusiya-Almaniya müqaviləsi; Rusiya-Avstriya-Macarıstan əlavə müqaviləsi; Rusiya-Bolqarıstan əlavə müqaviləsi; Rusiya-Türkiyə əlavə müqaviləsi. 14 maddədən ibarət əsas müqavilənin 4-cü maddəsi Qafqaza aid idi. Dördlər ittifaqı ilə Rusiya arasındakı müqaviləyə görə, Litva, Kurlandiya, Latviya, Estoniya və Belorusiyanın bir hissəsi Rusiyadan alınır, Ukrayna və Finlandiya müstəqil dövlət olur, sovet qoşunları bu ərazilərdən çıxarılır, Qars, Batum, Ərdəhan Türkiyəyə verilirdi.

Rusiya öz ordusunu tərxis etməli idi. 1918 il fevralın 16-da Bakı Sovetinin sülh məsələsinin müzakirəsinə həsr edilmiş iclası oldu. Menşevik, eser və daşnakların bəyanatı rədd edildi, bolşeviklərin təklif etdiyi qətnamə qəbul olundu. Qətnamədə RSFSR Xalq Komissarları Sovetinin sülh danışıqlarında mövqeyi bəyənildi.

Zaqafqaziya seymi Brest sülh müqaviləsinin Ərdəhan, Qars və Batumun Türkiyəyə verilməsi şərtini qəbul etmədi və Petroqrada – Xalq Komissarları Soveti adına teleqram göndərərək, Brest sülhünü tanımadığını bildirdi. Seym öz etirazını bununla əsaslandırdı ki, "Zaqafqaziya heç vaxt bolşeviklərin və Xalq Komissarları Sovetinin hakimiyyətini qəbul etməmişdir". Zaqafqaziya seymi Brest-Litovsk sülhü ilə bağlı etirazlarını dünyanın bir sıra əsas siyasi mərkəzlərinə bildirdi: "Zaqafqaziya hökuməti Zaqafqaziya və onun sərhədləri haqqında ondan xəbərsiz və özünün iştirakı olmadan imzalanmış hər hansı müqaviləni özü üçün qüvvədən düşmüş hesab edir".

Türkiyə Brest sülhünün qərarlarına əsaslanaraq, Qars, Batum və Ərdəhanı dərhal boşaltması haqqında Zaqafqaziya seyminə ultimatum verdi. Brest müqaviləsinə görə, Rusiya nəinki Qars,Ərdəhan və Batumun Türkiyəyə keçdiyini təsdiq edirdi, həm də Rusiya ilə Türkiyə arasında imzalanmış əlavə müqaviləyə görə, rus qoşunlarının müharibə zamanı tutduğu türk torpaqlarında və Rusiya hüdudlarında yaradılmış ermənidaşnak silahlı dəstələrini tamamilə tərksilah edib buraxmağı öhdəsinə götürürdü.

Əlavə müqavilənin 11-ci maddəsi Rusiya vətəndaşları olan müsəlmanlara, əmlaklarını da aparmaq şərti ilə, Türkiyəyə azad mühacirət etmək hüququ verirdi.

Hələ 1918 ilin yanvarında Türkiyə Zaqafqaziya Komissarlığı ilə sülh danışıqlarına başlamağa təşəbbüs etmişdi. Türkiyə özünün dövlət maraqları səbəbindən təkcə Zaqafqaziya Komissarlığını tanımaqla kifayətlənmir, həmçinin onu Brest-Litovsk danışıqlarına cəlb etməklə, Dördlər ittifaqı və Rusiya tərəfindən də tanınmasına nail olmaq istəyirdi. Türkiyənin ciddi təkidinə və yardım göstərmək barədə vədinə baxmayaraq, Zaqafqaziya hökuməti Brest-Litovsk danışıqlarında iştirakdan, müstəqilliyinin elan olunmasından imtina etdi.

Zaqafqaziya hökuməti 1918 il 23 yanvar tarixli teleqramında Brest sülhündə iştirakdan imtina etməklə yanaşı, özünün Rusiyanın tərkib hissəsi olduğunu da bildirdi.

Brest sülhü

3 Mart 1918 tarihinde Rusya ile Alman İmparatorluğu,Avusturya-Macaristan İmparatorluğu, Osmanlı Devleti ve Bulgaristan Krallığı arasında imzalanmış, İttifak Devletleri'nin yenilmesi üzerine geçersiz kalmış bir barış antlaşmasıdır. Osmanlı Devleti'nin toprak kazandığı en son antlaşmadır.

Brest-Litovsk antlaşmasında esirlerin mübadelesiyle ilgili maddeler yer almıştır.

Trabzon Konferansı öncesi hazırlıklar ; Türk tarafı Zaqafqaziya hökuməti ile müzakerelerin yapılacak olmasından dolayı, konuyla ilgili olarak hazırlıklar yapmış ve türk heyeti için bir talimatname hazırlamıştır. ‘’ Zaqafqaziya hökuməti müzakeratı sulhiye icrasına memur heyet-i murahhasa-i osmanyiye’ye verilecek talimatname ‘’ adını taşıyan belge ile görüşmeler esnansında uygulanacak esaslar belirtilmiştir.

Bu talimatnamenin 6’ncı maddesine göre’’ ***Malül veya askeri hizmette bulunmaya elverişli olmayan harp esirleri vatanlarına iade olunacak, diğer esirlerle askeri ve inzibati tedbirler ile nedeniyle tevkif edilmiş bütün şahıslar, iki tarafca tayin edilecek ‘’hususi komiserler vasıtasıyla mübadele edilecektir. Bunların nakil masrafları esir eden devlete ait olacak, sivil esirler derhal serbest bırakılarak,***

bunların son ikametgahlarına kadar olan masrafları esir veya tevkif eden devlet tarafından ödenecektir.''

Trabzon Konfransı (14 Mart -14 Nisan 1918); Türkiyə nümayəndə heyəti Cənubi Qafqaz nümayəndəliyinin Trabzon konfransında (1918) Brest-Litovsk müqaviləsinin Qafqaza aid maddələrinə etirazını rədd etdi. Nümayəndə heyətinin fikrincə, Zaqafqaziya hökuməti ya Rusiyanın tərkib hissəsi kimi onun imzaladığı müqavilə ilə razılaşmalı, ya da Rusiyadan ayrılıb, müstəqilliyini elan etməli idi.

Batum Konferansı ve Antlaşmaları, 11 Mayıs – 4 Haziran 1918 tarihleri arasında Batum'da yapılan konferans toplanmış ve sonucunda 4 Haziran 1918'de Osmanlı İmparatorluğu ile Kasım 1917'deki Bolşevik ihtilalinden sonra Kafkasya'da kurulan devletlerle, yani Ermenistan Demokratik Cumhuriyeti, Gürcistan Cumhuriyeti ve Azerbaycan Milli Şurası arasında anlaşmalar imzalanmıştır.

Üç Kafkas devleti, Osmanlı Devleti ile görüşmelere *Maverâ-yı Kafkasya* adı altında birlikte katılmış ancak konferans sırasındaki gelişmeler sonucunda ayrı ayrı antlaşmalar imzalanmıştır. Ayrıca 11 Mayıs 1918 tarihinde şimali Kafkasya Rusya'dan ayrılarak bağımsız cumhuriyet olmuştur. Batum görüşmelerine temsilci göndermişlerdir.

Əsir Dəyişmə Sazişi (15 May 1918) ; 15 May 1918 'də hər iki tərəf hərbi nümayəndələri Vehip Paşa və General Odişelidze arasında əsir mübadiləsi razılaşması imzalanmışdır. Bu anlaşmaya görə;

1. Əsirlər Batumdakı danışıqların vəziyyətinə asılı olmayaraq ən qısa müddətdə değiştirilecektir.Türk əsirlərini gətirən ilk qatar 4-7 gün içərisində Batuma gələcək və 4 həftə içərisində sona çatacaq.

2. Osmanlı ordusu maveray-ı kafkasyaya aid bütün əsirləri, Mavera Qafqaz bütün hərbi əsirləri təslim edecektir.maverayı Qafqaz heyəti hələ tam idarəsini ssğlayamadığı bakü və havalisi kimi yerlərdəki bütün əsirləri azad etməyi öhdələrinə etmektedir.osmanlılar isə bütün rus əsirləri bütün Qafqaz və rus əsirləri geri edəcək.

3. Tərəflər elerlindeki Əsir miqdarlarını 3 gün içərisində bildireceklerdir.esirler qarşılıqlı olaraq gələn vasitələrlə göndəriləcək şəkildə azad ediləcək.

4. Bu razılaşmadan əvvəlki əsir edilən bütün əsirlər təslim ediləcək.

5. Osmanlı bütün Qafqaz əsirlərinin istəyən ölkəsinə dönəcək istəməyən isə Osmanlı tarfaında kalabilecektir.kafkaslarda KALAMA istəyən əsirlər isə bulunuklarda kalabilecektir.Fakat qarşı tərəfə fərarilik etmiş əsirlər mütləq təslim ediləcək.

6. Batum əsir dəyişməsi üçün kullanılacaktır.Esirlerin dəyişməsi üçün bir komissiya qurulacaq.

7. Əsirlərin təsliminə Batuma qədər xərcləri Mavera Qafqaz tərəfindən, Osmanlı imperatorluğu isə Tiflis e qədər xərcləri qarşılayacaq.

8. Əsirlər dezinfeksiya edildikdən sonra təslim ediləcək.

9. Əsirlərin şəxsiyyətləri olacaq olmayanlar keçiriləcək siyahılara görə yaradılan komissiya tərəfindən təsdiqlənərək devredilecektir.

10. Vəfat edən əsirlər ilə əlaqədar sənədlər qarşı tərəfə veriləcəkdir.

11. Nəql qatarlarında kifayət qədər səhiyyə heyəti olacaq.

12. Osmanlı müttəfiqləri istədikləri təqdirdə bu anlaşmaya katılabileceklerdir.

13. Razılaşmanın imzalanma ardınca tətbiq edilir.

14. Batum danışıqları bir razılaşma ilə nəticələnməsə belə bu razılaşma etibarlı olacaq.

Batum danışıqları nəticəsində razılaşmalar imzalanmıştır.Anlaşmalar Azərbaycan və Şimali Qafqaz Hökuməti ilə dostluq müqaviləsi şəklində, Gürcüstan və Ermənistan ilə isə Barış və Dostluk Sazişi şəklində, imzalanmışdır.

Azərbaycan ilə; dostluq müqaviləsi, iki əlavə razılaşma və müvəqqəti əlavə razılaşma imzalanmışdır. Razılaşma Türkiyə adına Xəlil bəy və Vehip Paşa Azərbaycan adına isə Mehmet Emin Resulzade ilə Mehmet Həsən Hacinsksi imzalamıştır.Esirler ilə əlaqədar xüsuslar 04 İyun tarixində imzalanan Müvəqqəti Əlavə Razılaşmanın ilə düzenlenmiştir.Buna görə 15 may tarixində imzalanan Əsir Dəyişmə Razılaşmasına istinad edilmişdir.

Gürcüstan ilə; Barış və Dostluk razılaşması, birinci əlavə, ikinci əlavə, 3-cü əlavə müvəqqəti əlavə razılaşma edilmişdir. Əsir dəyişməsinə aid xüsuslar Müvəqqəti Əlavə Razılaşmanın içərisində 5-ci maddədə təşkil və 15 May tarixində OSMANLI İMPARATORLUĞU VE Zaqafqaziya hökuməti arasında imzalanan Əsir Dəyişmə Razılaşmasına istinad edilmişdir.

Ermənistan ilə; sülh və dostluq müqaviləsi, əlavə razılaşma, birinci əlavə, ikinci əlavə üçüncü əlavə müvəqqəti əlavə razılaşmalar imzalanmışdır. Əsir dəyişməsinə aid xüsuslar Vehip Paşa və general Odişelidze arasında 04 İYUN tarixində imzalanmışdır. Müvəqqəti əlavə anlaşmaya görə 15 may tarixində OSMANLI İMPARATORLUĞU VE Zaqafqaziya hökuməti arasında imzalanan Əsir Dəyişmə Razılaşmasına istinad edilmişdir.

Şimali Qafqaz hökuməti ilə; 08 iyun 1918 tarixində dostluq razılaşması ilə müvəqqəti əlavə andlaşma imzalanmışdır. Əsir dəyişməsi ilə əlaqədar bir xüsus yoxdur.

ƏDƏBİYYAT

1. Qasımov M., Birinci dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti, 3 hissədə, h.2 (1917-ci il noyabr – 1918-ci il noyabr), B,, 2001.
2. Həsənov C, Azərbaycan beynəlxalq münasibətlər sistemində (1918—1920-ci illər), B., 1993;
3. Azərbaycan tarixi, 7 cilddə, c. 5, B., 2001;
4. Cemalettin Taşkıran. 1 nci Dünya Savaşı'nda Türk Esirleri.2011, s. 6, s. 310.
5. Akdes Nimet Kurat.Türkiye ve Rusya XVIII.Yüzyıl sonundan Kurtuluş Savaşına Kadar Türk Rus İlşkileri.2011,s. 339. s. 464. s. 467.
6. Enis Şahin.Trabzon ve Batum Konferansları ve Antlaşmaları (1917-1918). 2002, s. 186. s. 305. s. 446. s. 733.

РЕЗЮМЕ

В зависимости от окончания войны регулируется вопросы, касающиеся заключенных с соглашения в 1918. Во-первых, процесс продолжается в начале конференции Трабзон Брест-Литовского договора, продолжил в mütekib Батуми конференции. В Батуми по обмену пленными договора с Османской империей в правительстве Кавказе подпись. Это соглашение, прежде всего, в Батуми

конференции в конце этого заключенного договора был подписан по согласованию с государством в качестве отдельного приложения. Несмотря на эти сделаны по обмену пленными договор не может быть достигнуто за счет различных разработок, очень здорово.

SUMMARY

Depending on the end of the war is regulated matters relating to prisoners with the agreement in 1918. Firstly, the process has continued in the beginning of Trabzon conference Brest-Litovsk treaty, continued in Batumi conference. In Batumi prisoner exchange treaty with the Ottoman Empire in the Caucasus Government has signature. This agreement primarily for Batumi Conference at the end of this prisoner treaty was signed in agreement with the state as a separate attachment. Despite these made prisoner exchange treaty could not be achieved due to various developments as very healthy.

Rəyçi: Nəsiman Yaqublu
Tarix elmləri namizədi,
Bakı Dövlət Universitetinin dosenti

ANAR ABUZƏRLİ
"Naxçıvan" Universiteti
anar_abuzerov@mail.ru

PROF. YAVUZ AXUNDLUNUN YARADICILIĞINDA ƏDƏBİ-TƏNQİDİ MƏSƏLƏLƏR

Açar sözlər: *Ədəbi tənqid, Naxçıvan ədəbi mühiti, ədəbiyyatşünaslıq*
Key words: *literary critisism, literary environment of Nakhchivan, literature study.*
Ключевые слова: *литературная критика, литературная среда Нахчывана, литературоведение.*

Tanınmış ədəbiyyatşünas, akademik İsa Həbibbəyli "Ədəbiyyatşünaslıq elminin Naxçıvan məktəbi" məqaləsində yazır: " Son yüzillikdə qədim elm və sənət mərkəzlərindən olan Naxçıvan Muxtar Respublikası da Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafına mühüm töhfələr vermişdir...Artıq XX əsrin otuzuncu illərindən etibarən, daha doğrusu, repressiya dalğaları ötüb keçdikdən sonra... ölkəmizdə paytaxtdan kənarlarda da ümumən ədəbiyyat, o cümlədən ədəbiyyatşünaslıq da yenidən cücərməyə başlamışdır" **(9,s.523).** Görkəmli alim fikrini davam etdirərkən vurğulayır: "Müşahidələr göstərir ki, muxtar respublikada ədəbiyyatşünaslıq elminin ədəbiyyat tarixi, ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqid, ədəbi əlaqələr və folklorşünaslıq sahələrində ardıcıl olaraq inkişaf prosesləri davam edir" **(9,s.525).**

Naxçıvan filoloji mühitində uzunmüddətli tarixə malik olan ədəbiyyatşünaslıq sahələrindən biri ədəbi tənqiddir. Təqdim olunan məqalədə biz Naxçıvanda ədəbi tənqidin 1950-60-cı illərdəki və sonrakı illərdə də ən fəal nümayəndlərindən olan Yavuz Axundovun (Axundlu) yaradıcılıq xüsusiyyətlərindən danışacağıq.

İlk ədəbi-tənqidi məqaləsi 1952-ci ildə mətbuatda işıq üzü görən Y.Axundov illərdən bəridir ki, tükənməz enerji ilə yazıb-yaradır, çoxsaylı kitabların və elmi məqalələrin müəllifidir. Xüsusən ustad ədibimiz M.S.Ordubadinin yaradıcılığı, Azərbaycan tarixi romanının zəngin və çoxşaxəli inkişaf yolu məhz professor Y.Axundlu tərəfindən fundamental şəkildə araşdırılmışdır. Filologiya üzrə elmlər doktoru, professor, Prezident təqaüdçüsü Yavuz Axundlu hazırda da elmi-ədəbi fəaliyyətini davam etdirir.

Y.Axundov 1950-60-cı illərdə mətbuatda Azərbaycan, rus, Ukrayna, qazax və s. xalqların ədəbiyyatının bir sıra görkəmli klassikləri haqqında məqalələr dərc etdirmişdir. Onun bir çox məqaləsi isə bilavasitə həmin dövrün ədəbi prosesinin müxtəlif aspektlərini işıqlandırır. Tənqidçinin məqalə və resenziyalarının bir çoxu 1950-60-cı illər Naxçıvan ədəbi mühitinə həsr olunmuşdur. "Naxçıvan baharı" adlı almanaxa (1961) həsr etdiyi eyniadlı resenziyada həmin toplunun ədəbi əhatəsi müfəssəl şəkildə dəyərləndirilmişdir **(1).** 1965-ci ilin iyun ayında Bakıda Naxçıvan Muxtar Respublikası ədəbiyyat və incəsənət həftəsi keçirilmişdir. Həmin vaxt naxçıvanlı müəlliflər muxtar respublikadakı yazarların sənət axtarışlarının müxtəlif aspektləri ilə bağlı bir sıra ədəbi-tənqidi məqalələr də dərc etdirmişdilər ki, bu cəhətdən Y.Axundovun fəaliyyəti ilk növbədə diqqəti çəkir. O, 1965-ci ilin iyun ayında "Bakı" qəzetində "Ədəbi qüvvələr (Naxçıvan yazıçıları haqqında)" **(2),** "Şərq qapısı"nda "Naxçıvan yazıçılarının yaradıcılığı haqqında bəzi qeydlər" **(3),** "Ədəbiyyat və incəsənət" qəzetinin

səhifələrində isə "Bizim günlərin tərənnümü (Naxçıvan yazıçılarının yaradıcılığı haqqında)" adlı **(4)** məqalələrlə çıxış etmişdir. Həmin məqalələrdə Naxçıvan ədəbi mühitinin müxtəlif nəsillərə mənsub nümayəndələrindən M.Nəsirli, H.İbrahimov, H.Razi, Ə.Yusifli, K.Ağayeva və digərlərinin yaradıcılığına nəzər salınmış, onların səciyyəvi əsərlərinin başlıca ideya-bədii məziyyətləri önə çəkilmişdi. O da təqdirəlayiq haldır ki, Y.Axundov ədəbi həyatın ən müxtəlif asdpektlərinə diqqət yetirmiş, poeziya, nəsr və dramturgiyanın inkişafı barədə elmi ümumiləşdirmələr aparmışdır. Bununla yanaşı, ayrı-ayrı istedadlı sənətkarların yaradıcılığı barədə müvafiq dəyərləndirmələr də diqqəti çəkir. Məsələn, tənqidçi "Bakı" qəzetində çıxmış "Ədəbi qüvvələr (Naxçıvan yazıçıları haqqında)" adlı məqaləsində tanınmış şair Hüseyn Razinin lirikasında tarixilik və müasirlik, vətənpərvərlik, təbiət gözəlliklərinin tərənnümü barədə yazırdı: "Bu şeirlərdə oxucu zamanın min bir tufanına vüqarla sinə gərən əzəmətli memarlıq abidələrinin pozulmaz rəngini görür, Ordubad bağlarının xoş ətrini duyur, "Qızlar bulağı"nın misilsiz gözəlliyinə heyran olur" **(2).** "Ədəbiyyat və incəsənət" qəzetindəki məqaləsində isə alim naxçıvanlı müəlliflərin müasir həyatdan bəhs edən bədii əsərlərinə daha çox diqqət yetirmişdir.

Yavuz Axundovun 1969-cu ildə "Azərbaycan gəncləri" qəzetində dərc etdirdiyi "İstedadlı nasir" məqaləsində **(6)** tanınmış yazıçı Hüseyn İbrahimovun Azərbaycan ədəbi mühitində diqqəti çəkən yaradıcılığına nəzər salınmışdır. Əvvəlcə onun hekayələri mövzuca qruplaşdırılaraq müfəssəl şəkildə dəyərləndirilmişdir. Yazıçının müxtəlif vaxtlarda yazdığı "Baharın hekayəsi", "Göyərçinin məhəbbəti", ""Ürək səhv edəndə", "Qumralın məktubları" kimi məişət mövzulu heklayələrindən danışarkən Y.Axundov vurğulayır ki, "saf məhəbbət, yüksək mənəvi keyfiyyətlər bu hekayələrdə qabarıq şəkildə qələmə alınan əsas məsələlərdəndir". Yazıçının "Qəhrəman Qüdrətov", "Müdirin məzuniyyəti", "Eyvazovun salamı", "Xəcalət" və s. hekayələri "yalançı, yaltaq, riyakar adamların tənqid olunduğu" satirik nümunələr kimi qiymətləndirilmişdir. Ədəbiyyatşünas Y.Axundov həmin məqalədə H.İbrahimovun yaradıcılığında yeni mövzulara müraciətin getdikcə qabarıqlaşdığını də yaxşı hal saymış, ədibin "Şərq ölkələrində genişlənən milli azadlıq hərəkatı, beynəlxalq imperializmə qarşı mübarizə" məsələlərindən bəhs edən "Qanlı dəftər", "Çətin yollarda", hind qızı Kəmalənin iztirablı həyatını təsirli bədii boyalarla canlandıran "Kəmalə", Danimarka səfərindən sonra yazdığı "Madam Heruta" hekayələrini də müfəssəl şəkildə nəzərdən keçirmişdir. H.İbrahimovun müasir mövzulu "Sabahın sorağında", Naxçıvanda 1918-19-cu illərdə baş verən hadisələri canlandran "Günəş doğan yerdə" romanlarına da tənqidçi diqqət yetirmişdir. "Sabahın sorağında" romanında müasirlərimizi düşündürən sosial-mənəvi problemlərin ustalıqla bədii təcəssümünə diqqət çəkən Y.Axundov yazıçının sənətkarlıq cəhətdən inkişaf etdiyini,qələminin püxtələşdiyini bildirmiş, işıqlı idealın təntənəsini, mənfi qütbü təmsil edən qüvvələrin yaramaz əməllərinin ifşasını məharətlə bədii müstəviyə gətirdiyini vurğulamışdır. Tənqidçinin gəldiyi yekun qənaət də maraq doğurur: "H.İbrahimov həyata yaxşı bələd olan, qələmə aldığı mövzunu yaxşı bilən yazıçıdır. Onun rəvan**,** səlis bədii dili, rəngarəng ifadə və təsvir vasitələri, gözəl nəql etmək tərzi vardır".

Ədəbiyyatşünas Y. Axundovun həmin məqalədə yazıçı H.İbrahimovun "Sabahın sorağında" romanını yüksək qiymətləndirməsi, nasirin yaradıcılığında yeni hadisə sayması təsadüfi deyildi. Belə ki, həmin roman 1964-cü ildə "Azərbaycan" jurnalında, iki il sonra isə kitab halında çap edilmiş, ədəbi ictimaiyyətin böyük marağına səbəb

olmuşdu. Məşhur ədəbiyyatşünas alim Məmməd Arif Dadaşzadə "Qəhrəmanın sorağında" adlı məqaləsində romana yüksək qiymət verərək yazmışdı: "Müəllifin müsbət qəhrəman uğrundakı axtarışları, mənəvi-intellektual keyfiyyətlərə malik surət yaratmaq təşəbbüsləri qiymətləndirilməlidir. Yazıçının səmimiyyətlə təsvir etdiyi təmiz vicdanlı qəhrəmanları oxucuya çatdıra bilməsi bizi inandırır ki, o, gələcəkdə də bu yolda daha müvəffəqiyyətli addımlar ata biləcəkdir" **(bax:9, s.443).**

Ədəbiyyatşünas Təhsin Mütəllimov isə 1964-cü ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc etdirdiyi eyniadlı məqalədə H.İbrahimovun "Sabahın sorağında" romanındakı psixologizmə xüsusi əhəmiyyət verərək yazırdı: "Yazıçını mənəvi-əxlaqi problemlər daha çox məşğul etdiyi üçün bədii obrazların psixoloji aləminin, daxili səciyyəsinin təsvir və təhlilinə daha geniş yer verilmişdir....Süjet xəttindəki hər bir hadisə əslində müsbət qəhrəmanların daxili səciyyəsinin, hamıya nümunə ola biləcək yüksək əxlaqi sifətlərinin açılmasına, daha canlı, daha qabarıq ifadəsinə kömək edir. "Sabahın sorağında" romanını kolxoz həyatından bəhs edən bir sıra əsərlərimizin "ənənəvi" süjetindən fərqləndirən əsas cəhət də məhz bu psixoloji problemin ön planda təsviridir" **(10).** Şair-publisist Cavad Cavadlı və pedaqoq Məhyəddin Əbdülov da bu romana yüksək qiymət vermiş, onu "son vaxtlarda müasir mövzuda yazılmış yaxşı əsərlərdən biri kimi" təhlil etmişlər **(8).** Bir sıra digər tənqidçi və ədəbiyyatşünaslar da romanı uğurlu nümunə kimi dəyərləndirmişlər. Y.Axundovun haqqında söz açdığımız qənaətləri də onlarla həmahəng səsləşir.

Yavuz Axundov şair-dramaturq Müzəffər Nəsirlinin "Laləli dağlar" adlı kitabına (1965) həsr etdiyi eyniadlı resenziyada **(5)** müəllifin müharibə mövzusunda yazdığı "Qafqaz oğulları" poemasında Azərbaycan və gürcü xalqları arasındakı dostluğun tərənnümünün bədii boyalarla verildiyini müsbət qiymətləndirmişdir. Azərbaycanlı döyüşçü Kamalın fədakarlığının bədii təcəssümü tənqidçini razı salmışdır. Buhenvaldın əfsanəvi qəhrəmanı, həmyerlimiz Əkbər Ağayevə həsr olunmuş "Əkbər haqqında ballada" poemasını da dəyərləndirən ədəbiyyatşünas yazırdı ki, əsər çox maraqlıdır, bir sıra yaddaqalan hadisələr var. Poemanın dili axıcı və rəvandır. Bununla belə, tənqidçi şairə iradlarını da bildirərək nəzərə çatdırırdı ki, M.Nəsirli Əkbərin igidliyini, ümumən obrazını daha ətraflı və mükəmməl təsvir edə bilərdi. Tarixi sənədlərdə, xatirələrdə bu barədə bir sıra materiallar var. Amma müəllif Əkbərin dolğun surətini yaratmağa çalışmamışdır.

1960-cı illərdə Yavuz Axundov ədəbiyyatşünaslıq və teatr məsələlərinə aid ədəbi-tənqidi məqalələr də yazmışdır. Onun "Şərq qapısı" qəzetinin 18 aprel 1965-ci il tarixli 91-ci sayında dərc olunmuş "Görkəmli alim, gözəl insan" məqaləsi tanınmış alim Əziz Şərifin 70 illiyi ilə əlaqədar qələmə alınmışdır. Məqalədə Ə.Şərifin ömür yolunun və elmi fəaliyyətinin əsas məqamlarına nəzər salınmışdır. Y.Axundov 1960-cı illərdə Naxçıvan teatrında tamaşaya qoyulmuş bir sıra əsərlərin səhnə təcəssümçü barədə də resenziyalar yazmışdır ki, bunlar da o illərin tənqidinin maraqlı nümunələrindəndir. "Şərq qapısı" qəzetinin 27 iyun 1963-cü il tarixli 150-ci sayında verilmiş "Kəndçi qızı" resenziyası tanınmış ədib Mirzə İbrahimovun eyniadlı pyesinin Naxçıvan teatrında səhnə təcəssümündən bəhs edir. Əsərin ideya-bədii mündəricəsi, tamaşadakı aktyor oyunu və s. barədə Y.Axundov müfəssəl fikirlər söyləmişdir. "İlan yuvasında fırtına" resenziyası isə naxçıvanlı şair-dramaturq Əliheydər Qənbərin eyniadlı pyesinin tamaşası ilə əlaqədar yazılmışdır ("Şərq qapısı", 30 yanvar 1966, № 25). Tanınmış yazıçı Hüseyn İbrahimovun "İtirilən sağlıq" pyesinin Naxçıvan

səhnəsində oynanılması da tənqidçinin diqqətini çəkmiş və o, Bakı mətbuatında dolğun bir resenziya dərc etdirərək əsərin səhnə təcəssümünün əsas aspektlərini dəyərləndirmişdir **(7).**

Ümumiyyətlə, ədəbiyyatşünas Yavuz Axundovun 1950-60-cı illərdəki fəaliyyəti Naxçıvanda ədəbi tənqidin inkişafında xüsusi çəkiyə malikdir.

ƏDƏBİYYAT

1.Axundov Y. "Naxçıvanın baharı". "Şərq qapısı" qəzeti, 1961, 25 oktyabr, № 253
2. Axundov Y. Ədəbi qüvvələr (Naxçıvan yazıçıları haqqında). "Bakı" qəzeti, 1965, 12 iyun, № 137
3. Axundov Y. Naxçıvan yazıçılarının yaradıcılığı haqqında bəzi qeydlər. "Şərq qapısı" qəzeti, 1965, 17 iyun, № 141
4.Axundov Y. Bizim günlərin tərənnümü (Naxçıvan yazıçılarının yaradıcılığı haqqında). "Ədəbiyyat və incəsənət" qəzeti, 1965, 19 iyun, № 25
5.Axundov Y. "Laləli dağlar" . Şərq qapısı" qəzeti, 1965, 24 sentyabr
6.Axundov Y. İstedadlı nasir. "Azərbaycan gəncləri" qəzeti, 1969, 22 may, № 58
7.Axundov Y. "İtirilən sağlıq". "Ədəbiyyat və incəsənət" qəzeti, 1969, 27 iyul, №30
8. Cavadlı C., Əbdülov M. "Sabahın sorağında" romanı haqqında. "Azərbaycan müəllimi" qəzeti, 1964, 3 dekabr
9. Həbibbəyli İ .Ə. Nuhçıxandan - Naxçıvana. Bakı: Elm və təhsil, 2015, 846 s.
10. Mütəllimov T. "Sabahın sorağında". "Ədəbiyyat və incəsənət" qəzeti, 1964, 12 dekabr

LITERARY REALISTIC ISSUSES IN THE CREATIVE ACTIVITY OF YAVUZ AKHUNDLU

The article deals with features of creative activity of Yavuz Akhundlu, one of the most active representatives of literary critisism of 1950-60`s nad after then. The features of Yavuz Akhundlu`s creative activity were investigated and literary-critical works were analyzed. The article was based on press materials of 1950-60`s and on certain works on literature study.

ЯВУЗА АХУНДЛУ

ЛИТЕРАТУРНО-КРИТИЧЕСКИЕ ВОПРОСЫ В ТВОРЧЕСТВЕ ПРОФЕССОРА

В статье повествуется об особеннотях творчества одного из самых активных представителий литературной критики 1950-1960-ых годов и в последующих годах – Явуза Ахундлу. Были исследованы особенности творчества Явуза Ахундлу и проанализированы его литературно-критические работы. Статья была обоснована на материалах издательства 1950-60-х годов и на определенные работы по литературоведению.

Rəyçi: f.ü.f.d. Nurlana Sabir qızı Əliyeva

SAMİRƏ MƏMMƏDOVA
AMEA Nizami adına Ədəbiyyat İnstitutu
samiramammadova23@gmail.com

ŞAH İSMAYIL XƏTAİ QƏRB ŞƏRQŞÜNASLARININ TƏDQİQİNDƏ

Açar sözlər: *Azərbaycan ədəbiyyatı, Qərb şərqşünaslari, Səfəvi dövləti*
Ключевые слова: *Литература Азербайджана, Западные востокаведы, Сефевидское государство*
Key words: *Azerbaijani Literature, Western Orientalists, Safavid Empire*

Minillik şərəfli bir tarixi yol keçmiş klassik Azərbaycan poeziyası bu dövrlər ərzində dünya korifeyləri ilə bir sırada duran, əsərləri ilə dünya ədəbiyyatı xəzinəsini zənginləşdirən Q.Təbrizi, N.Gəncəvi, X.Şirvani, F.Şirvani, sonrakı dövrlərdə Q.Bürhanəddin, İ.Nəsimi, Füzuli, Şah İsmayıl Xətai və digər kamil təfəkkürlü şairlər yetirmişdir.

Ta qədimdən klassik Şərq öz zəngin milli dəyərləri və ideal gözəlliyi ilə Avropanı fəth etmiş, Qərb səyyahları, alimləri, filosofları, yazarları, bu illərdən yaranmış olan siyasi və mədəni ənənələr marağı ilə Şərqə üz tutmuş, bu sirli və füsünkarlığı ilə hər kəsi cəlb edən diyarı daha yaxından tanımağa, öyrənməyə cəhd etmişlər. Təbii ki, bu təmas Qərb və Şərq dünyası arasında mədəni və ədəbi əlaqələrin yaranması və inkişafı üçün sintez yaratmış, sonrakı mərhələdə sərhədləri aşaraq dünyaya yayılmışdır. Klassik Azərbaycan poeziyasının qərb ölkələrinə yol açması, əcnəbi ölkələrdə bu əsərlərin tədqiq edilməsi, tərcümə edilərək yayılması klassik Şərq poeziyasına böyük marağın olduğunu göstərir. Qərb şərqşünaslığında haqqında çox bəhs edilən görkəmli şairlərdən biri Səvəfi dövlətinin banisi, Şah İsmayıl Xətai (1487-1524) olmuşdur. Xətainin ömür yolu, bir hökmdar kimi fəaliyyəti və ədəbi yaradıcılığı ilə bağlı daha çox məlumatı qərb şərqşünaslarından C.Malkolm,E.Braun,R.Seyveri, M.K.Robert, R.Nikolson və görkəmli şərqşünas V.Minorskinin tədqiqatlarından alırıq. Bu tədqiqat əsərlərində Şah İsmayılın yaradıcılıq xüsusiyyətləri hərtərəfli işıqlandırılır, şairin müxtəlif mövzularda, xüsusən dini mövzularda yazdığı qəzəllər təhlil edilir.Onun ingilisdilli qaynaqlarda öyrənilməsindən Azərbaycan ədəbiyyatşünaslığında H.Araslı,Ə.Məmmədov,O.Əfəndiyev,R.Azadə,S.Məmmədova,İ.Arzumanova, Ş.Xəlilli, L.Əliyeva, L.Musəvi,M.Məmmədova və digər araşdırıcılar bəhs etmiş, qərb şərqşünaslarının fikirləri təhlil edilərək dəyərləndirilmişdir.

Azərbaycan ədəbiyyatı tarixində Xətai yaradiciliginin orijinal dəsti xətti və üslubu ilə üc dildə yazmaq qabilliyətinə malik oldugunu, tanınmış alim R.Azadə xüsusi qeyd etmisdir: "bədii estetik fikir tariximizin əsas inkisaf meylləri,bir sira dini, fəlsəfi, ədəbi problemlər klassik sairlərimizin,xususilə Səfəvi dövrü ədəbiyyatının nümayəndələrinin yaradiciliginda daha dolğun əks olunmuşdur"[1, s.133]

Şah İsmayılın Azərbaycan dilinin rəsmi dövlət dili səviyyəsinə qalxmasında əvəzsiz rolu olmuşdur .Qərb şərqşünaslarının tədqiq etdiyi qaynaqlarda Şah İsmayıl əsasən qüdrətli hökmdar, Səfəvi dövlətinin «məğlubedilməz» sərkərdəsi kimi xarakterizə olunur. Xətai irsinin ingilisdilli qaynaqlarda öyrənilməsindən görkəmli tədqiqatçılarımızdan R.Qaibova və S.Məmmədovanın dissertasiyalarında bəhs edilmişdir. S.Məmmədova yazirdi:"İngilis şərqşünasları Xətai irsinin öyrənilməsinə bir

çox əsərlər həsr etmişlər. R.Qaibovanın dissertasiyasında bu əsərlər təhlil edilir və çatışmayan cəhətlər göstərilir. R.Qaibova daha çox E.Braun və V.Minorskinin Xətai ilə bağlı fikirlərini təhlil etmiş, lakin təəssüflər olsun ki, alim bu məsələ ilə bağlı daha geniş araşdırmalar aparmamışdır"[2,s.12].Tanınmış tədqiqatçı Ş.Xəlillinin dediyi kimi «Azərbaycan səfəvilər dövrü ədəbiyyatı ingilis şərqşünaslığının, eləcə də ədəbiyyatının daha çox müraciət etdiyi aktual bir mövzu kimi ədəbiyyatşünaslığımızda ayrıca tədqiqat obyektinə çevrilməmişdir. Müxtəlif dövrlərdə bu mövzu haqqında ingilis mənbələrində gedən hər hansı məlumat, yaxud monoqrafik nəşrlər Azərbaycan Səfəvilər hakimiyyətinin beynəlxalq arenada, habelə İngiltərə ictimai, siyasi, mədəni həyatında güclü rezonası və təsiri ilə əlaqədar olmuşdur".[1,s.133]"

Təəsüf ki, Xətainin tarixi xidmətlərindən,ədəbi fəaliyyətindən bəhs edən Qərb müəllifləri, şairin ədəbi irsini düzgün qiymətləndirilməsində bəzi yanlışlıqlara yol vermişdilər.Bəzən Xətaini fars ədəbiyyatının nümayəndəsi, bəzən də onun yazdığı şerləri osmanlı dilinin bir dialekti kimi qəbul edərək,bunların daha çox dini səciyyə daşıdığından bəhs etmişlər.Onu da qeyd etmək lazımdır ki, şairin fars ədəbiyyatına aid olması fikri alman alimi Hammer Purqştaldan gəlmişdir. Onun Xətai ilə bağlı dediyi elmi səhv, sonralar şairin ədəbi irsini araşdıran bir çox qərb yazarları tərəfindən təkrar edilmişdir. Bu barədə Azərbaycanın klassik və çağdaş şairlərinin və nasirlərinin qərb tədqiqatında öyrənilməsindən danışan prof. N.Axundov əsərində «başlıca olaraq şairlərimizin, yazıçılarımızın və ədəbiyyatşünaslarımızın xaricdə əks-sədasına, yayılma coğrafiyasına nəzər salan» və görkəmli şərqşünas Hammer Purqştalın (1774-1856) çoxcildli əsərlərinin böyük bir hissəsinin Şərq xalqlarının ədəbiyyat tarixinə həsr etdiyini, bu əsərlərdə Azərbaycan klassiklərindən N. Gəncəvi, X. Şirvani və digər şairlərlə yanaşı Şah İsmayıl Xətai haqqında da zəngin mülahizələr söyləndiyini xatırladır. Tədqiqatçı-alim N.Axundov Hammerin əsərlərinin yalnız Qərbi Avropada deyil, Rusiyada da Şərq xalqlarının, o cümlədən Azərbaycan xalqının ədəbiyyatına dərin maraq doğurduğunu da qeyd edir [3, s.32-34].İngilis alimi Çarlz Rionun da kataloqlarında Xətai divanı haqqında maraqlı məlumatlara rast gəlinir. O, Britaniya Muzeyi üçün tərtib etdiyi Türk əlyazmaları kataloqunda hökmdar-şair Xətainin şeirlərindən bəhs edərkən, onun şeirlərinin bir qismini məhəbbət, bir qismini isə dini mövzularda yazılmış şeirlər hesab edir.Şərqşünas «dini şeirləri Əli və başqa imamların mədhindən və çağırışlarından ibarətdir» deyə səhv nəticəyə gəlir.

Qərb tədqiqatçılarının Xətai irsinin öyrənilməsində müstəsna rolunun olduğunu qeyd edən alim Ə.Məmmədov şərqşünaslar arasında V.Minorskinin xidmətlərini ayrıca qeyd edir. Onu da qeyd edək ki, tədqiqatçının əsərində «Şah İsmayıl Xətainin həyatı, siyasi fəaliyyəti, Azərbaycan ədəbiyyatının inkişafında rolu, eyni zamanda Xətainin bir şair kimi yetişdiyi ədəbi mühit, onun ədəbi irsinin öyrənilməsi tarixi, bədii yaradıcılığı, Xətai yaradıcılığının dil-üslub xüsusiyyətləri, şairin ədəbi təsiri hərtərəfli işıqlandırılır»[4,s. 33]. Ə.Məmmədov uzun illərdən bəri Yaxın Şərq xalqları ədəbiyyatının tədqiqi ilə məşğul olan V.Minorskinin əməyini dəyərləndirsə də, onun da digər qərb şərqşünasları kimi səhv olaraq Xətaini Azərbaycan mədəniyyəti və ədəbiyyatından təcrid edilmiş bir şəkildə təhlil etdiyini söyləyir, lakin Minorskinin "The Poetry of Shah Ismail I"(Şah İsmayılın poeziyası) əsəri ilə qərbi Avropa şərqşünasları içərisində daha mühüm addım atmış olduğunu vurğulayır[5,s.54].

Xətainin ingilisdilli qaynaqlarda öyrənilməsi ilə bağlı geniş məlumatı M.Məmmədovanın tədqiqatından alırıq.O, Xətai poeziyasının Qərbi Avropada

öyrənilməsindən danışarkən zəngin qaynaqlar əsasında şairin həyatı,yaradıcılığı ilə bağlı yazılan əsərlərə müraciət etmiş, müqayisələr aparmış, Xətai ədəbi irsini özündə əks edən bu əsərləri yeri gəldikcə dəyərləndirmişdir.Xronoloji üsulla Şah İsmayıl Xətainin Qərbdə öyrənilməsini izləyən araşdırıcı, şairlə bağlı elmi yazıları, məqalə və monoqrafiyaları təhlil etmiş, qərb şərqşünaslarının əsərlərini hərtərəfli araşdırmışdır. M.Məmmədova da bu əsərlər içərisində seçilən ən dəyərli tədqiqatın Minorskinin Xətai haqqında yazdığı iri həcmli elmi monoqrafiyası olduğunu söyləyir.Xətai ədəbi irsinin Avropada öyrənilməsində böyük əhəmiyət kəsb edən bu əsər 1942-ci ildə Londonda çap olunmuşdur. M.Məmmədova Minorskinin Xətai haqqında özünə qədər yazan Avropa tədqiqatçılarından xeyli irəliyə gedərək şairin həyat və yaradıcılığını dərindən öyrənməsini, Xətainin ana dilindəki on doqquz şeirini ərəb əlifbasındakı orijinal mətnləri ilə birlikdə ingiliscəyə sətri , filoloji tərcüməsini verdiyini qeyd edir. O, qeyd edir ki,V.Minorski Xətai poeziyasının ingilis dilinə ilk tərcüməçisi sayılır.M.Məmmədova tədqiqatında ilk dəfə olaraq Azərbaycan klassik şairlərinin şeirlərini ingilis dilinə tərcümə edən tanınmış mütərcim Q .Evans və V.Minorski tərəfindən Şah İsmayıl Xətainin ingilis dilinə tərcümə edilmiş poetik inciləri üzərində müqayisələr aparmış, fərqli və oxşar cəhətlərini göstərmişdir.[6]

Xətai haqqnıda Qərb oxucularına məlumat verən daha bir alim,ingilis şərqşünası E.Q.Braun olmuşdur. Onun 1924-cü ildə çap edilən "A History of Persian literature in Modern times" əsərində Səfəvi dövlətinin yaranması, bu dövrlərdə baş verən tarixi hadisələr geniş əksini tapsa da,fars poeziyasından, onun o çağlarda geniş yayılmasından, əsasən poeziyanın fars dilində böyük vüsət tapdığını söyləsə də, türkdilli poeziyadan, Xətainin bu dildə yazılan bədii yaradıcılığından təəssüf ki,bəhs edilməmişdir.E.Braun da bir çox qərb şərqşünasları kimi Xətainin hökmranlığından,siyasətindən bəhs etmişdir. O,Şah İsmayılla bağlı geniş məlumat verməyə cəhd edərək onun sələf və xələflərini öyrənmək üçün ilkin qaynaqlara müraciət edir.E.Braunun bu əsərinin «Şah İsmayıl» bölməsində Kembric Universitetinin kitabxanasında saxlanılan əlyazma nüsxəsinə əsas mənbə kimi dönə-dönə müraciət edilir.Alim bu qaynaqlarda, xüsusilə Səfəvilərlə bağlı məsələlərin öyrənilməsində və təsvirində olan yanlışlıqları göstərir və Avropa şərqşünaslarının, alim və səyyahlarının da axtarışlarını və yazılarını gözündən qaçırmamağa çalışır.[7,s.195-196].E.Braun Şah İsmayıl Xətaiyə geniş yer ayırsa da, «Xətai» təxəllüslü türk dilində şeirlər yazan, «Divan», «Nəsihətnamə», «Dəhnamə» adlı şeirlər toplusu və kitabların müəllifi olan Şah İsmayıl Xətainin yaradıcılığı tədqiqatdan kənarda qalmışdır.

Şah İsmayıl Xətai ədəbi irsi bütün dövrlərdə dünya şərqşünaslarının diqqətini çəkmiş, bu böyük şəxsiyyətlə bağlı mütamadi olaraq əsərlər yazılır, məqalələr dərc edilir.Bu barədə mərhum alim İ.Həsənlinin «Səfəvilər dövrü Kanada aliminin tədqiqatında»yazısı maraq doğurur.Tədqiqatçı R.Seyverinin bütünlükdə İran, Azərbaycan və eləcə də bir sıra Şərq ölkələrinin tarixini öyrənmək baxımından vacib saydığı, on bölmədən ibarət olan iri həcmli əsərində Səfəvilər sülaləsinin hakimiyyətə gəlməsindən, bu sülalənin tam süqutuna qədərki dövrünün(1501-1736)əhatə olunduğunu qeyd edir. O, yazır ki, bir sıra dünya tarixçiləri və şərqşünasları Səfəvilər sülaləsini mənşə etibarilə İrana aid edir və Şah İsmayılın mənşəcə fars olduğunu iddia edirlər. Bu fikrə münasibətini bildirən alim artıq mütərəqqi Avropa və Şərq alimləri, xüsusilə Azərbaycan şərqşünas və tarixçilərinin Şah İsmayılın mənşəcə azərbaycanlı olmasını sübut etdiklərini bir daha xatırladır. Bu məsələdə R.Seyverinin mövqeyinin

obyektiv olduğunu, onun Şah İsmayılın nəslən türkdilli tayfaları ilə qan qohumluğu barədə söylədiyi mülahizələrin doğru və inandırıcı olduğunu nəzərə çatdırır. [8,s.181].Şərqşünas R.Seyveri Şərqin ən böyük miniatür rəssamı, Kəmaləddin Behzadın (1455-1535) Şah İsmayıl tərəfindən Təbrizə gətirilməsini xüsusi qeyd edir: «Şah İsmayıl Behzadı Təbrizə gətirir.O isə Təbriz miniatür məktəbinin əsasını qoyur. Akademik H.Araslı Xətainin sarayında təsviri incəsənətin son dərəcədə yüksəldiyini qeyd edərək yazırdı ki, «Şərqin Rafaeli adlanan Kəmaləddin Behzad bu rəssamlara başçılıq edir. «Dünya rəssamlıq tarixində «Təbriz məktəbi» adlanan rəssamlıq məktəbi Xətainin səyi nəticəsində yaradılmış olur» [9, s.295].

R.Seyveri Şah İsmayılın oğlu Şah Təhmasibin hakimiyyəti dövründə (1524-1578) Azərbaycanda və İranda nəqqaşlıq, xəttatlıq və rəssamlığın daha yüksək inkişaf mərhələsinə çatdığını və şahın özünün bu sənətin sirlərini öyrənməsini qeyd edir. O, əsərində «Xalçaçılıq» bölməsinə də maraq doğurur.Şərqşünas yazır ki, Səfəvi hökmdarları xalça sənətinə dərin maraq göstərmiş, onun inkişafına lazımı şərait yaratmışlar. Şah İsmayıl, Şah Təhmasib və Şah Abbas dövründə Təbrizdə, Ərdəbildə toxunan bir çox məşhur xalçalar hal-hazırda tanınmış Avropa muzeylərini bəzəyir»[10,s.183]. Ədəbiyyatşünas alim İ.Həsənli haqlı olaraq Kanada aliminin «XVI-XVIII əsrlərdə Şərqin bir sıra görkəmli ədəbiyyat xadimlərinin yaradıcılığının kölgədə qalması,həmin dövrdə elmin və incəsəntin ayrı-ayrı sahələrindəki nailiyyətlərinin üstündən keçilməsi ilə bağlı söylədiyi fikirlərlə razılaşmır.Bununla yanaşı İ.Həsənli R.Seyvərinin Səfəvilər dövründə elmin bir çox mühüm sahələrini əhatə edən əsərini dəyərləndirir, bu əsərin Səfəvilər dövrü haqqında bütün Qərb dünyasında təsəvvür yarada biləcək bir əsər olduğunu nəzərə çarpdırır, tarixçilərin, ədəbiyatşünasların,sənətşünasların, etnoqrafların bu əsərə müraciət etməsini tövsiyə edir.

ƏDƏBİYYAT

1. Xəlilli Şahin. Klassik poeziya və ədəbi əlaqələr-Azərbaycan-ingilis ədəbi əlaqələri .Azərbaycan Milli Ensiklopediyası. Nəşriyyat poliqrafiya birliyi. Bakı,2003,163 s.
2. Мамедова С.А. “Из истории изучения азербайджанской поэзии в западно-европейском востоковедении”. Автореферат.Дис. на соис.ученой степени канд.филол.наук.,Баку,1972,35 стр.
3. Axundov N.“Azərbaycan sovet ədəbiyyatı xaricdə”.Baki Yazıçı ,1987,205 s
4. FeyzullayevaV.“Xətai ədəbi irsinin tədqiqi tarixindən”Şah İsmayıl Xətai (Məqalələr toplusu)Bakı ;Elm,1988, 237s.
   Məmmədov.Ə.”Şah ismayıl Xətai”,Bakı.Azərbaycan Uşaq və Gənclər ədəbiyyatı nəşriyyatı.1961,159 s.
5. Məmmədova M. Şah İsmayıl Xətai ingilisdilli qaynaqlarda. Fil.elm. nam. dis. Avtoref. Bakı, 2003, 32 s.
6. Musəvi L. “Şah İsmayil Xətai Eduard Braunun yaradıcılığında “Şah İsmayıl Xətai (Məqalələr toplusu) Bakı : Elm, 1988, 237 s.
7. Roger Savory.”İran under the Safavids” .Cambridge University Press,1982,279 p.
8. Arasli H, Şah İsmayil Xətai .tarixi və problemləri.(Seçilmiş əsərlər) Bakı : Gənclik, 1998,731s.
9. Həsənli İ.Səfəvilər dövrü Kanada aliminin tədqiqatında.Şah İsmayil Xətai (Məqalələr toplusu) Baki :Elm, 1988, 237 s.

RESEARCHING THE WORKS OF SHAH ISMAIL KHATAI BY WESTERN ORIENTALISTS

SUMMARY

The article reveals some facts from the works of both Eastern and Azerbaijani orientalists regarding to the creativity of a poet and ruler. He produced a large volume of lyric poetry in Azerbaijani, and also a number of didactic and philosophical works. He is investigated the works of well-known orientalists like E. Browne, V.Minorsky, R.Savory and others, and at the same time their thoughts about poet.

ИЗУЧЕНИЕ ТВОРЧЕСТВА ШАХ ИСМАИЛ ХАТАИ ЗАПАДНЫМИ ВОСТОКОВЕДАМИ

РЕЗЮМЕ

В статье исследуется период правления шаха Исмаил Хатаи(1487-1524),а именно труды западных и азербайджанских востоковедов. Указанные авторы в первую очередь подчеркивали его политические способности, талант полководца и конечно же, художественную эстетику творчества поэта.

Rəyçi : S.Zeynalova
ADU Üslubiyyat kafedrasının müdiri,fil.elm.dok.

ŞƏBNƏM SALAYEVA
LDU
kanan.salaev@gmail.com

BƏXTİYAR VAHABZADƏNİN POEMALARINDA İNSANIN MƏNƏVİ ALƏMİNİN TƏDQİQİNƏ MARAQ

Açar sözlər: *poema, insan psixologiyası, vicdan, mənəviyyat, əxlaq.*
Ключевые слова: *поэма, психология человека, духовный мир, поведение, совесть.*
Key word: *poem, human psychology, conscience, spirit, morality.*

Yaratdığı dəyərli əsərlərlə ədəbiyyatımızı daha da zənginləşdirən nəhəng şair Bəxtiyar Vahabzadə yaradıcılığının mühüm bir qismini müxtəlif mövzularda yazılan poemalar təşkil edir. İnsanın daxili dünyası, mənəvi - əxlaqi aləmi, onun gerçəklərlə üzləşməsi və kamilləşməsi bu poemaların əsas mövzularındadır. Şair poemalarında qəhrəmanlarının mənəvi təkamül prosesini çox dolğun və aydın təsvir edir. Məlum olduğu kimi dünyada gedən qloballaşma prosesinin şəxsiyyətin və cəmiyyətin inkişafına müsbət məziyyətləri ilə yanaşı, mənfi təsirləri də vardır. Belə bir şəraitdə milli mentalitetin, mənəvi-əxlaqi dəyərlərin qorunub saxlanılması və gənc nəslin bu ruhda tərbiyə edilməsində B.Vahabzadə yaradıcılığı əvəzsizdir. Bəxtiyar Vahabzadənin poemalarında ailə, cəmiyyət və şəxsiyyətlə bağlı məqamlara daha çox toxunulur. Yaşar Qarayev və Ş.Salmanov "Poeziyanın kamilliyi" kitabında yazır: "Mübaliğəsiz demək olar ki, Bəxtiyarın qüvvətli qələmindən bir sıra elə poemalar meydana çıxmışdır ki, bunlar təkcə şairin yaradlcılığı dairəsində deyil, müasir Azərbaycan poeziyası miqyasında görkəmli ədəbi hadisələr kimi qarşılanmışdır. Şairin belə poemaları arasında biz "Sadə adamlar"(1954), "İztirabın sonu"(1956), "Şəbi-hicran"(1958),"Etiraf"(1961), "Yollar oğullar"(1963), "Həyat-ölüm"(1965), "Muğam"(1974), "Atılmışlar"(1968) əsərlərini ayrıca qeyd edə və fərqləndirə bilərik. Həmin poemalar üçün həyati hadisələrdən təşkil olunan sujet, onun dramatik- psixoloji planda inkişafı, insanın mənəvi axtarışlar vəziyyətində təsviri daha çox xarakterikdir."(5,99-100s).

Şairin "Atılmışlar", "Həyat və ölüm","Ləyaqət" poemalarında bu problemlər bariz şəkildə öz əksini tapmışdır. İnsanın psixoloji vəziyyəti, mənəvi aləmi, onun özü ilə mübarizəsi, keçirdiyi sarsıntılar, iztirablar bu poemaların aparıcı mövzularındandır. Yuxarıda qeyd olunan poemaların əsasını xeyir və şərin, insanın ləyaqəti və onun çirkin ehtiraslarının, pislik və yaxşılığın mübarizəsi təşkil edir. Bu baxımdan şairin "Atılmışlar" poeması diqqəti daha çox cəlb edir. Poemada bütün zamanlar üçün aktual olan problemlərdən biri öz əksini tapmışdır. Əsər bizə valideyn -övlad münasibətlərindəki zidiyyətləri və əxlaq problemlərini açmaq üçün kifayət qədər material verir. Poemanın "Körpə" başlıqlı birinci fəslində uşağından imtina etmiş ananın düşüncələri diqqəti cəlb edir. Burada biz kənddən şəhərə təhsil almağa gələn iyirmi yaşlı gənc qızın sevgilisi tərəfindən aldadılaraq tərk edildiyinin şahidi oluruq. Ana olduqdan sonra isə qadının qayğıları daha da artır. Qarşılaşacağı çətinliklər gənc ananı qorxudur. Valideynləri və cəmiyyətin bunu heç də xoş qarşılamayacağı onu övladını tərk etməyə sövq edir.Başqalarının onun haqqında nə deyəcəyi, onun haqqında nə düşünəcəyi ananı narahat edir.Beləcə o, öz vicdanını unudaraq körpəsini naməlum bir evin həyətində qoyaraq qaçır. Etdiyi səhvdən nəticə çıxarmaq əvəzinə növbəti günaha imza atır. O günaha ki, ömrü boyu onun ağırlığını çinində daşıyacaqdı.

Qaçır,
amma bilmir o, nəyə qaçır.
Ləkədən qaçarkən ləkəyə qaçır.
İnsan bir ömürdə ikidir, iki
Atlb körpəsini elə bildi ki,
Adının üstündən ləkəni atdı,
Özünə başqa bir tale yaratdı.
Təmizə çıxartdı o öz adını.(2.218)

Ana körpəsini tərk etməyə çalışarkən özüylə mübarizə aparır, gah özünü günahlandırır, gah da haqlı çıxarmağa çalışır.İnsan psixoligiyasına dərindən bələd olan şair gənc ananın ruhi narahatlıqlarını olduqca dolğun və təsirli təsvir edir.Nəhayət, özgələrin gözündə günahsız görünmək üçün ana körpəsini atır, lakin sonra etdiyi əməlinin peşmanlığını çəkir. Poemanın birinci fəsli körpəsini atmış ananın daxili həyəcanlarının, gərgin psixoloji vəziyyətinin təsvirindən ibarətdir. O, ömrünün sonunadək ümidlə yaşayır ki nə vaxtsa körpəsini görəcək. Yanında olarkən dəyərini bilmədiyi körpəsininin qiymətini itirdikdən sonra anlayır. Digər əsərlərində olduğu kimi bu poemanın da sonunda qəhrəman tutduğu əməldən peşman olur.Burada qəhrəmanın özünəqayıdışı, özünüdərketməsi baş verir. Poemanın son fəslində ana hər gün itirdiyi körpəsini tapmaq üçün uşaq evinə gedir. Uşaq orada olsa da ana onu tapa, tanıya bilmir, çünki onu yeddi il öncə körpə ikən atmışdı.

Ümidlə, inamla yaşayır ana,
Günləri, ayları ötüşür belə.
Küçədə, bayırda uşaq gördümü?
Baxır diqqət ilə, baxır zənn ilə.
Axtarır özünün cizgilərini
O gah bu uşaqda, gah o uşaqda.
Kimsəyə açmayır ancaq sirrini,
Gözləri axtarıb hey aramaqda. (2. 223)

Poemanın ikinci - "Qoca" fəslində isə onu əzab- əziyyətlə böyüdən oğulun anasına qarşı getdikcə laqeyidləşdiyinin şahidi oluruq. Ancaq poemanın birinci fəslindən fərqli olaraq buradakı ana obrazı qayğıkeş və qəlbi övlad məhəbbəti ilə döyünən bir qadındır. Gənc yaşlarından dul qalmış ana böyük oğlunu müharibədə itirmişdir.Onun yeganə ümid yeri kiçik oğludur. Lakin kiçik oğul evləndikdən sonra anasına qarşı laqeyd davranır. Bu ananı kövrək qəlbini çox incidir. Poemanın ən təsirli hissələrindən biri oğlanın ad günü mərasimidir. Hamı şənlənib, onun şərəfinə gözəl sözlər deyir, hətta onu dünyaya gətirən ananı da alqışlayırlar:

-Bu gözəl ölkəyə səni bəxş edən
Anaya afərin, anaya əhsən!
Dilxor oldusa da sağlıqdan yana,
Gəlin susdu...
Bu yerdə o dinə bilməz.
Şəninə təriflər söylənən ana
Qapı dalındadır,
bilmədi bir kəs. (2.231)

Ancaq ana bu məclisdə iştirak etmir, çünki gəlini belə istəmişdi. Oğul isə hətta tarını sinəsinə sıxıb doğma anasını anlamadan, duymadan "Ana" mahnısını həvəslə çalır...Bu ifa gəlini kövrəldir, yəqin ki o da öz anasını anır. Amma anlamır ki qapının o biri tərəfində dayanıb onlara qulaq asıb kövrələn qadın da anadır. Ana isə oğlunun xətrinə hər şeyə dözür, təki yeganə oğlu darıxmasın, təki oğlu üçün hər şey yaxşı olsun.

Hər şeyə dözərəm, təki tək balam,
Qəlbi qırıq balam, o kövrək balam,
Fikir eyləməsin, heç darıxmasın.(2.232)

Nəhayət, ana ona olan soyuq munasibətdən bezib boğçasını götürüb Qocalar evinə köçür.

Atdı anasını ikinci oğul
Anası bir kəlmə dedi -çox sağ ol,
Boğdu içindəki üsyan səsini.
Dedi: neyləməli, beləymiş qədər.
Yığdı boğçasını, düyünçəsini,
Qocalar evinə köçdü bir səhər(2.233)

Burada yazıçı başqa psixoloji məqama toxunaraq övlad - valideyn məsələsinə qabarıq münasibət bildirir. Göründüyü kimi şair burada insanın daxili aləmini, onun yaşantılarını, düşə biləcəyi çətin vəziyyətləri və bu zaman insanın davranışını,onun psixologiyasını çox dolğun şəkildə təsvir etmişdir. Hüseyn Xəlilov "Bəxtiyar Vahabzadənin yaradıcılığında mənəviyyat məsələləri" adlı məqaləsində yazır:" Bütün zamanlar üçün aktual olan problemlərdən biri bu poemada öz əksini tapır. Psixoloji məqamlar ilə zəngin olan əsər övlad - valideyn münasibətlərindəki zidiyyətləri və əxlaq problemlərini açmaq üçün geniş məlumat verir və bu mövzuda yazılmış əsərlərə öncüllük edir.Əsər həcm etibarilə ilə bir o qədər geniş olmasa da, daxilində bu gün də cəmiyyətimiz üçün ciddi problem və qüsurlar olan hadisələrə yer vermişdir."(3.434). Ümümiyyətlə, şairin poemalarında qaldırılan məsələlər bütün dövrlər üçün aktual olan məsələlərdir.

Poemanın üçüncü fəsli "Qocalar evi" adlanır. Burada Qocalar evi təsvir olunur. Bu fəsildə çilingərin, rəqqasın və ananın dilindən onların həyat hekayələri verilir. Lakin onlardan bəziləri öz həyat hekəyalərini danışarkən onu təhrif edirlər. Buradakıların hamını bir şey birləşdirir -onlar doğmaları tərəfindən atılmış insanlardır. "Atllmışlar" bunu özlərinə etiraf etsələr də, başqalarına etiraf etməyə çəkinirlər. Qəlbinin dərinliyində gizlətdikləri həqiqət isə onları incidir.Çilingər oğluna yük olmamaqdan ötrü ailəsini tərk etdiyini deyir, yaşlı qadın da övladının onu atmasını danır, sonsuz olduğunu deyir.Sanki onların heç biri bununla razılaşmaq, barışmaq və inanmaq istəmir. Ana qocalardan biri ilə söhbətində sonsuz olduğunu deyərək, həqiqəti danır .Çünki o da başqaları kimi bu rəftarı özünə layiq bilmir. Kədər onu boğsa da özünü zorla saxlayır.

Sonsuzam! Meyvəsiz bir kökəm, soyam,
Əsilimin, nəslimin sonuncusuyam.
Ana yalan dedi, qəlbindəkilər
Dilinə gəlmədi.
Yox, gələ bilməz. (2. 243)

Bu fəslin ən təsirli hissəsi çilingərin rəqqasla söhbətindən sonra gizlicə yatağında ağlaması epizodudur. Başqalarının qarşısında etiraf etməyə çəkindiyi həqiqət onu incidir, qəlbini göynədir. Çilingər onun qəlbinə toxunduğu üçün üzr istədikdən sonra onlar daha səmimi söhbət etməyə başlayırlar:

Düzünü söylədim mən sənə ancaq
Qardaş, aldatmayaq bir -birimizi,
Düzünü deyək ki, atıblar bizi.
Gerçəyi gizlədib, düzü danmayaq,
Övladlar utansın, biz utanmayaq.(2,242)

Şair "Həyat və ölüm" poemasının " Eşq-sətəlcəm" fəslində cəmiyyətin amansız qanunları qarşısında ayrılmaqdansa ölümü üstün tutan iki gənci təsvir edir. Lakin oğlan

intihar etdikdən sonra qız tərəddüd edir, ölüm ona dəhşətli görünür və məhəbbətsiz yaşamağı ölümdən üstün tutur. Hətta sonra sevmədiyi birinə ərə də gedir. Bütün bunlardan sonra anlayır ki, əslində bu illər ərzində o heç də yaşamayıb. Digər poemalarında olduğu kimi qəhrəman sonda gec də olsa səhvini anlayır. Həmişəki kmi şair qəhrəmanlarını ağır sınaqlardan keçirir və onların mənəvi cəhətdən yüksəlişdə təsvir edir.

O, ölümdən qorxaraq,
Həyatını, eşqini
Çox ucuz satmış, demə.
Yalnız indi bildi ki,
Məhəbbətsiz yaşamaq
Ölümdür insan üçün
O ölübmüş,
ölümdən
Həyata qayıdan gün.(1.197)

Poemanın "Şərəfsiz ölüm" fəslində Fikrətin vəzifəsindən sui - istifadə edərək bundan yalnız mənafeyi üçün faydalanması ilə qarşılaşırıq. Poemanın əvvəlində o da adi bir insandır. Onun da başqaları kimi arzuları var. Ancaq vəzifəsi və imkanları artıqdca pula, mal-dövlətə tamahı daha da artır. Getdikcə mənəviyyatı ölür, cılızlaşır. Ləyaqətini itirmiş bu obraz öz mənfi ehtiraslarının əsirinə çevrilir. Pul onun üçün hər şeydən irəlidir. Bunu biz onu mühasib Kərəmlə söhbətində də aydın görürük:

Pul ki, var Kərəm,
Mollanı məsciddən didərgin salar,
Pulun bir himinə göylər alçalar.(1.203)

Ləyaqətini pula satmış Fikrət insanlığını da tamam unutmuşdur. Xəstə halda yataqda can verən Kərimin halına acımır təcili yardıma belə zəng vurmur ki, o Fikrətin sirri ilə birgə ölsün. Və beləcə Kərmin də ölümünə səbəb olmuş olur. Bu zaman biz onun daxili aləmini bütün çılpaqlığı ilə görmüş oluruq. Ləyaqətini, vicdanını itirmiş Fikrət sanki şərin təcəssümünə çevrilmişdir. Lakin Kərəmin gündəliynin tapılması ilə Fikrət ifşa olunur. Y.Qarayev və Ş.Salmanov "Poeziyanın kamilliyi" kitabında yazır : " Bu hadisədən sonra poemanın bütün sujeti Fikrətin ölüm kamerasında keçirdiyi həyəcanların təsviri formasında inkişaf edir, ideya və psixoloji cəhətdən dərinləşir. Ömrünün sonuna yaxın Fikrət tədricən özünü, cinayətlərini təsviri formasında inkişaf edir, ideya və psixoloji cəhətdən dərinləşir. Ömrünün sonuna yaxın Fikrət tədricən özünü, cinayətlərini, yanlış həyat yolunu dərk edir, vaxtı ilə harın həyat içərisində imkan tapıb düşünə bilmədiyi, mənasına dalmadığı böyük bəşəri həqiqətləri özünə aydınlaşdırır."(3.109). Kamerda qaldığı müddətdə sanki Fikrət özü-özünü mühakimə edir. Onun üçün çıxarılan ölüm hökmünün haqlı olaraq çıxarılıdığına inanır.

Ax, ey hakim, ey hakim,
Yoxmudur heç vicdanın-
İnsan da qol çəkərmiə
Ölümünə insanın?..
Necə? Bəs sən?Bəs özün
Bir qatil deyilmisən,
Fikrət, axı özün de?
Özgəsindən umduğun
O insaf, o mərhəmət
Varmı sənin özündə? (1.216)

Nazim İbrahimov "Bəxtiyar Vahabzadə" kitabında yazır : "Həyat - ölüm poeması ictimai- əxlaqi konfliktin sosial siqləti və daha dərindən həll edilməsi, şairin çıxardığı mənəvi - fəlsəfi nəticələr baxımından ayrıca qeyd edilməyə layiqdir. Poemada gəncliyində xalqının qəhrəman keçmişini, görkəmli şəxsiyyətlərinin mübarizə yolunu öyrənmək üçün tarixçi olmaq arzusu ilə yaşayan, lakin həyata laqeyd münasibətin təsiri altında mənəvi iflasa uğrayan, nəhayət ölüm kamerasına düşən Fikrətin bir insan kimi faciəsinin kökləri, sosial-psixoloji səbəbləri açıqlanır. Şair həyatla ölüm arasındakı qısa vaxt möhlətində ömür tarixini gözləri önündən keçirən qəhrəmanın özünü bir insan kimi dərketmə, yenidən doğulma anını mənəvi zirvə kimi mənalandırır. Maraqlıdır ki, poema elə ilk dəfə məhz "Zirvə" adı ilə dərc olunmuşdur."(4. 16).

Beləliklə, biz əsərin sonunda baş qəhrəmanın öz günahını anlamasının, özünü mühakimə etməsinin və bununla da mənəvi cəhətdən təmizlənməsinin şahidi oluruq. Sonda Fikrətdə dəyişmə baş verir, özünü dərk edir, onda daxili oyanma baş verir. Poemanın belə bir sonluqla bitməsi onun ideya konsepsiyası ilə əlaqədardır

Şairin "Ləyaqət" poemasın nəzər salaq. On üç yaşlı Saşa mağazada olarkən anasının xəstəxanada olması xəbərini eşidir bu zaman həddən artıq məyus olan uşaq anasının yanına getməyə tələsdiyindən ərzağın pulunu səhv ödəyir. Lakin uşağı oğurluqda günahlandırırlar. Nə qədər etsə də ətrafdakıları inandıra bilmir. Hamı ona şübhəylə yanaşır:

Şübhə! Hər sözə şübhə-
Qulağa, gözə şübhə,
Fikrə, kamala şübhə,
Arzuya, kama şübhə,
Eşqə, diləyə şübhə,
Şübhə, hər şeyə şübhə-
Beynimizdə sözalan
Dilimizdə söz olan
Xəyalı da, fikri də necə axtalamışdır,
Şübhə oğru gözüylə bu dünyaya baxışdır. (1. 328)

Baş verənlər və ətrafdakıların ona olan inamsızlığı Saşanı intihara sürükləyir. Hələ mənəviyyatca saf olan Saşanın kövrək qəlbi buna dözmür. İnsanların ona inamsızlığı, oğru adlandırıb ona nəsihət etmələri uşaqın qəlbini çox incidir. Evə qayıtdıqda baş verənləri fikirləşdikcə ürəyi sıxılır. Sanki hər tərəfdən üstünə hücüm çəkən insanlar onu oğurluqda ittiham edirdilər. Bütün bunlara dözə bilməyən uşaq özünü asır. Çünki ləyaqəti imkan vermir ki eləmədiyi bir işə görə onu mühakimə edib alçaltsınlar. Bununla o, sanki onu haqsız yerə mühakimə edənlərin yatmış vicdanını oyatmağa çalışırdı. Şair göstərir ki, ləyaqətinin tapdanması Saşa üçün ölümdən betərmiş.

Sən bir uşaqdakı şəxsiyyətə bax!
Şəxsiyyət insanı böyüdər ancaq.
Ölümlə dünyaya dedi sözünü
Təmizlik önündə o həm özünü,
Həm də ətrafını tamam unutdu.
Günahsız ölümü o, uca tutdu
Ləkəylə qol - boyun yaşamasından,
Bu yerdə adından böyükdür insan. (1.338)

Poemanın " İstintaq" bölməsi daha maraqlıdır. Burada şair satıcının daxili aləmini açıb onun mənəvi cəhətdən necə kasad olduğunu göstərir. Onu uşağın ölümü ilə bağlı istintaq edirlər. Öz mənfəttini güdən satıcı isə uşağın ölümünə zərrə qədər də acımır, bu

işin ona töhmət verilməsinə səbəb olmasına, kəsilən mükafatlarına ağlayır. Beləcə şair göstərmək istəyir ki əslində Saşa onlardan çox- çox yüksəkdə durur.

Poemanın epiloq hissəsində şair üzünü insanlara tutub onları düzlüyə, doğruluğa,bir - birinə laqeyd olmamağa səsləyir.

Qorxaq başqasına biganəlikdən,
Qorxaq, əməl qala quru söz təki,
Qorxmayaq, dünyanın puç olmasından,
Qorxaq adamların öz içindəki,
Mənəvi dünyanın dağılmasından. (1.346).

Bəxtiyar Vahabzadə "Atılmışlar", "Həyat və ölüm", "Ləyaqət" poemalarında insanın daxili aləminə enərək onun psixoloji yaşantılarını, daxili həyəcanlarını, mənfi ehtiraslarını, mənəvi cəhətdən təkamülünü oxucunun düşüncələrinə təsir edəcək bir ustalıqla təsvir etmişdir.

ШЕБНЕМ САЛАЙЕВА

ИНТРЕС К ИССЛЕДОВАНИЮ ДУХОВНОГО МИРА ЧЕЛОВЕКА В ПОЭМАХ БАХТИЯРА ВАХАБЗАДЕ

РЕЗЮМЕ

В этой статье тронуты вопросы о психологическом состаянии человека, о его внутреннем мире и обогощение духовного мира в поэмах одного из виднейших личностей Азербайджанской литературы Бахтияра Вахабзаде. Отмечанные свойство обсуждаются вокруг поэм "Отверженные", "Достоинство" и "Жизн-смерть".

SHEBNEM SALAYEVA

THE ANALYSIS HUMAN SPIRUTAL WORLD IN BAKHTIYAR VAHABZADE' S POEMS

SUMMARY

The article touches upin the psychological state of human beings their spirutal world and maturity in the poemsof Bakhtiyar Vahabzade, one of the gigantic figures in Azerbaijani literature. The above mentioned characteristic are analyzed in Bakhtiyar Vahabzade's poems such as " The Abandoned", "Life- Death" and ""Dignity"

ƏDƏBİYYAT

1. B. Vahabzadə. Fəryad. Bakı. Azərbaycan. 1985
2. B.Vahabzadə. Seçilmiş əsərləri. II cild. Bakı. Öndər. 2004
3. I Beynəlxalq Bəxtiyar Vahabzadə Simpoziumu materialları. Hüseyn Xəlilov. Bakı, 2012.
4. N. İbrahimov. Bəxtiyar Vahabzadə. Bakı. 1985
5. Y. Qarayev, Ş. Salmanov. Poeziyanın kamilliyi. Bakı. Yazıçı. 1985.

Rəyçi : Mirhüseyn Abbas
filologiya üzrə fəlsəfə doktoru, dosent

ÜMİT PEKTAŞ
Qafqaz Universiteti
umitpektasster@gmail.com

XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ TÜRKİYƏ UŞAQ MƏTBUATININ YARANMASINDA "ÇOCUQ DÜNYASI" JURNALININ ROLU

Açar sözlər: *Çocuk dünyası jurnalı, Türk uşaq mətbuatı, uşaq jurnalları, XX əsrin əvvəlləri uşaq ədəbiyyatı, Türk uşaq ədəbiyyatı*
Key words: *The journal of "Cocuq dunyası", Turkish children's press, journals for children, children's literature in the beginning of XX century, Turkish Children's Literature*
Ключевые слова*: журнал "Cocuq dünyası", турецкая детская пресса, детские журналы, детская литература в начале XX века, детская турецкая литература*

Türkiyə uşaq ədəbiyyatının təşəkkülündə XX əsrin əvvəlləri böyük əhəmiyyət kəsb edir. Bu dövrdə müxtəlif mətbuat orqanları və bu orqanlarda fəaliyyət göstərən yazıçıların uşaq ədəbiyyatının əsasını qoymaqda əvəzsiz xidmətləri olmuşdur. Bu dövrdə ən mühüm və uzun müddət ərzində dərc olunan mətbu orqanlarının önündə Türkiyədə "Cocuq dünyası" jurnalı dayanmışdır. Əsərləri bu jurnallarda çap olunan yazıçılar dövrün uşaq ədəbiyyatına xidmət etməklə yanaşı, günümüzə qədər gəlib çıxmış uşaq ədəbiyyatının ən qiymətli nümunələrini yaratmışlar. Çünki onlar gələcək nəsillərin maariflənməsində xüsusi rol oynamışlardır. Dövrün qabaqcıl yazıçıları ilə yanaşı, nisbətən az tanınan yazıçılar, müəllimlər, hətta tələbələr belə bu sahəyə öz töhfələrini vermişlərdir.

Biz bu məqalədə "Cocuq dünyası" jurnalının XX əsrin əvvəllərində türk uşaq mətbuatının yaranmasındakı rolunu ortaya qoyduq. Qarşı qoyulan məqsəddən aslı olaraq öncə jurnalın şəkil xüsusiyyətlərinə nəzər saldıq. Ikinci hissədə isə jurnalın türk uşaq ədəbiyyatının inkişafındakı rolundan bəhs etdik.

1.XX əsrin əvvəllərində Türkiyə uşaq mətbuatı və "Çocuq dünyası" jurnalının şəkil xüsusiyyətləri.

1908-ci ildə Türkiyədə 2-ci Məşrutiyyətin elanından, xüsusilə 1913-cü ildən sonra meydana çıxan azadlıq ideyaları mətbuat orqanlarında bir canlanma yaratmışdır. Bu eyni zamanda uşaq ədəbiyyatına da öz təsirini göstərirdi. Bu dövrdən etibarən, xüsusilə 1913-1914 cü illər arasında bir çox uşaq jurnalları nəşr olunmuşdur. Onların sırasında "Müsəvvər kiçik Osmanlı"(1909), "Məktəblilərə dost" (1910), "Cocuq dünyası"(1913), "Ciddi Qaragöz"(1913), "Cocuq evi" (1913), "Məktəbli" (1913), "Tələbə dəftəri" (1913), "Cocuq duyğusu"(1913), "Cocuq aləmi" (1913), "Qaranquş" (1914), "Cocuq dostu"(1914), "Balaca" (1914) (114, 216). Göründüyü kimi "Cocuq dünyası" jurnalı da bu dövrdə nəşrə başlayan jurnallardandır.

Qeyd edək ki, Balkan müharibələrindən sonra milli hisslər daha çox ön planda keçirdi və "Cocuq dünyası" jurnalında bu hisslər özünü daha qabarıq şəkildə təzahür edirdi. Bu dövrdə baş vermiş siyasi hadisələr və sosial vəziyyət "Cocuq dünyası" jurnalında da öz əksini tapırdı. Jurnal dövrün tələbləri ilə səsləşən milliyyətçilik ruhunda nəşr olunurdu. Burada başlıca məqsəd uşaqlarda milli hissləri və milli şüuru formalaşdırmaq idi.

"Cocuq dünyası" jurnalı 14 mart 1329 (27 mart 1913) cu ildə fəaliyyətə başlamışdır. Jurnalın baş redaktoru Tevfik Nurettin idi. Jurnalın üz qabığında "Cocuq dünyası" adı qeyd olunmuşdur. Başlığın altında "Uşaqların dünyagörüşünün artırılmasına xidmət edir.Həftədə bir dəfə çıxır" sözləri vardır. Bu, onu göstərir ki, həqiqətən də jurnalın uşaqların dünyagörüşünün artırılmasında xidməti böyük olmuşdur. Osmanlı dövründə nəşr olunan digər uşaq jurnalları kimi "Çocuq dünyası" jurnalı da həftənin dördüncü günləri satışa çıxarılırdı. "Ümumiyyətlə uşaq jurnalları həftədə bir dəfə nəşr olunurdu. Jurnallar həftə sonuna bir gün qalmış ya dördüncü gün, ya da beşinci gün satışa çıxarılırdı. Onların bu günlərdə satışa çıxarılmasının əsas səbəbi uşaqların dərslərinə mane olmamağla bağlı idi" (10, 13). Jurnalın adının sol tərəfində ünvan yerinə "Müraciət yeri Bab-ali küçəsi, 77 nömrəli türk evi kitabxanasında "Cocuq dünyası" redaktorluğu yazılmışdır". Bu da "Türk ocağı" dərnəyi ilə jurnal arasında sıx əlaqələrin mövcudluğundan xəbər verirdi. Bu yazının altında "illiyi Osmanlı dövləti üçün 15 quruş, Rusiya üçün 2 rubl, başqa yerlər üçün isə 5 frank" yazılmışdır. Bu ifadələr jurnalın Osmanlı sərhədlərindən kənarda da satıldığını bildirirdi. Jurnalın bir neçə nüsxəsi Azərbaycan Respublikasının paytaxtı Bakıda AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır.

"Cocuq dünyası" jurnalının 94 sayı nəşri olmuşdur. 79-cu nəşri 1913-1914-cü illərdə çıxmışdır. 79-cu nəşr 22 Təşrin-i əvvəl dördüncü gün 1330 (1914)-cu ildə çıxmışdır. Bu buraxılışda jurnalın fasilə verəcəyi haqqında heç bir məlumatla rastlaşmırıq. Jurnal müntəzəm şəkildə nəşr olunsa da, 79-cu ilə 80-ci buraxılışları arasında 4 il fasilə olmuşdur.

Belə ki, Jurnal 9 may 1334 (1918) tarixində "80-1" say nömrəsilə yenidən nəşrə başlamışdır. Bu müddət ərzində nəşrə fasilə verilməsinin səbəbi buraxılışın əvvəlində aşağıdakı kimi göstərilmişdir, " Möhtərəm məsləkdaşım Tevfik Nurəddin bəyin muqəddəs vətənə xidməti ilə əlaqədar olaraq bir muddət fəaliyyətini dayandıran "Çocuq dünyası" bu gün öz balaca dostlarına yenidən qovuşdu. İnşallah böyuk qardaşı "tələbə dəftəri" ilə birlikdə müntəzəm olaraq balaca dostları ilə göruşəcək. (8, 1)

1918-ci ildən etibarən "80-1" say nömrəsi ilə fəaliyyətə başlayan jurnalın 15 buraxılışı nəşr olunur. Bu müddət ərzində jurnalın baş redaktorluğunu və sonra da sahibliyini müəllim Ahmet Halil bəy həyata keçirmişdir. Jurnalın səksəndən doxsan dördə qədərki buraxılışlardan bəziləri (84, 85, 86, 87, 88, 89, 90, 91) bizə gəlib çatmamışdır. Türkiyə Kitabxanalarında kolleksiyalar tam yoxdur. 94-cü buraxılışın sərlövhəsindən sonra sol tərəfdə "Cocuq dünyası bu nüsxədən sonra bir müddət çıxmayacaqdır" qeydi vardır (9, 1).

Jurnalın ikinci buraxılışında bəzi dəyişikliklər nəzərə çarpmaqdadır. Məsələn, sonuncu 79-cu buraxılışda"uşaqların dünyagörüşünün artırılmasına xidmət edən,həftədə bir dəfə çıxan milli məcmuədir" sözlərinin əvəzinə "Uşaqlara xidmət edir, iki həftədən bir dördüncü günlər çıxır" qeydi diqqəti cəlb edir. Bununla belə 79-cu buraxılışdan sonra uşaqların dünyagörüşünün artırılmasına xidmət edən milli məcmuə olma ifadəsi isə qeyd olunmur. Aparılan tədqiqatlar onu göstərir ki, 80-ci buraxılışdan sonrakı nəşrlərdə milli hissləri ifadə edən yazıların olduğunu görmək mümkündür. Buna Birinci Dünya müharibəsində Osmanlının məğlub olması və xarici qüvvələrin siyasi təzyiqləri səbəb olmuşdur. Jurnalın nəşr olundugu ilk illərdə çap olunan mövzular ilə Birinci Dünya muharibəsindən sonrakı mövzular arasında xeyli fərqlər nəzərə çarpmaqdadır.

"Cocuq dünyası" jurnalı Cümhuriyyət elanından sonra yenidən nəşr olunmağa başlayır. (1926). Cümhuriyyətdən əvvəlki nəşrlər (1913-1918) 1-cidən 94-cü buraxılışa qədər tam görünsə də, bu buraxılışları iki mərhələdə araşdırmaq daha doğru olardı: I. 1913-1914-cü illər. Bu illərdə nəşr olunan jurnallarda Balkan müharibəsinin təsiri və milliyyətçilik fikirləri daha çox öz əksini tapırdı. 1912- ci ildə baş verən Balkan müharibəsinin sonunda Osmanlı dövləti qısa zaman kəsiyində Rumelidəki torpaqlarını itirmişdi. Əsrlərlə bir yaşayan xalqların qəflətən üsyan etmələri əhalidə ruh düşkünlüyünə səbəb olmuşdur. Balkan torpaqlarından İstanbula gələn köçkünlərin vəziyyəti, mətbuat orqanlarının bu hadisələri gündəmə gətirməsi və s. insanlar arasında daha geniş təşvişə səbəb olmuşdu. Xalq intiqam hissi ilə yaşayırdı (12, 489).

Yaşananlar xalqda türk milliyyətçiliyi hisslərinin oyanmasına səbəb olurdu. Bu özünü xüsusilə İttihad və Tərəqqi firqəsi tərəfdarları vasitəsilə ümumilə ədəbiyyatda, Xüsusilə uşaq ədəbiyyatında daha çox bürüzə verirdi. Jurnalın nəşrinin birinci mərhələsində milliyyətçiliyə daha çox yer ayrılırdı. Onun xüsusilə 1913-1914-cü illərdə çıxan buraxılışlarında milli nümunələrə daha çox diqqət yetirilirdi. Jurnalın birinci buraxılışında bildiriş hissəsində olan ifadələr "Çocuq dünyası" yazıçılarının dünya ədəbiyyatı ilə yanaşı, milli ünsürlərə də yer verəcəkləri məramı ortaya qoyulur. Onsuz da bu qrupun daxil olduğu ədəbi axın olan "Milli ədəbiyyat"cərəyanı dövründə türk mədəniyyətinə meylilik özünü daha yaxşı nümayiş etdirirdi.

Jurnalın nəşrinin ikinci mərhələsi 1918-ci ildə başlayır. Bu mərhələdən əvvəl jurnala 4 il fasilə verilmiş, jurnalın baş redaktoru da dəyişilmişdir. Jurnalın birinci mərhələsinə nisbətən bu mərhələdə həm siyası vəziyyət, həm də yazılan mövzular dəyişmişdir. Bu dövrdə milliyyətçilik fikirlərinə daha az yer verilmişdir. Bunu jurnalın ön səhifəsində yazılan fikirlər də təsdiqləyir: "Uşaqlara xidmət edir, iki həftədən bir dördüncü günlər çıxır". İlk 79 buraxılışındakı uşaqların dünyagörüşünün artırılmasına xidmət edən "milli məcmuə" ifadəsi 80-1 say nömrəsindən sonra göstərilmir. Səksəninci nəşrdən sonra çıxan buraxılışlarda milli hissləri ifadə edən fikirlərə daha az rast gəlinir.

Jurnal əvvəlcə 8 səhifədən ibarət olmuşdur. "Qədər mətbəəsi"ndə çap olunmağa başlayan bu jurnalın baş redaktoru Tevfik Nurettin olmuşdur. Jurnalın yeddinci nəşrindən sonra səhifələrin sayı bir qədər artırılmışdır.Jurnala ön və arxa səhifə əlavə olunmuş, bu səhifələrdə müxtəlif elanlar, keçən nüsxədəki tapmacaların cavabı və düz cavabı bilənlərin siyahısı göstərilmişdir. Uşaqlara 8-ci buraxılışda anket doldurmaq məqsədilə verilən forma ilə yanaşı,tapmacaların cavablarını yazmaq üçün xüsusi bölmə də ayrılmışdır.

Jurnal bir qayda olaraq həftədə bir dəfə çıxmışdır. Amma 17-ci buraxılışın sonunda müəyyən bir mövzu ilə əlaqədar olaraq aparılan sorğunun nəticəsi verilmişdir. Sorğuda cəmi 1195 nəfər iştirak etmiş, bunlardan 589-u jurnalın həftədə iki dəfə, 374-ü həftədə bir dəfə çıxmasını istəmiş, 232-si isə rəy bildirməmişdir. Buradan jurnalın satış tirajı haqqında da məlumat əldə etmək olur. Jurnal rəhbərliyi bu vəziyyəti belə izah etmişdir: "Ekseriyyət həftədə iki dəfə çıxarmaq isteyənlərdən ibarətdir. Yaxında yalnız İstanbula və tətil zamanlarına məxsus olmaq üzərə həftənin birinci günləri də nəşr edəcəyik" (2, 9).

21-ci nömrənin arxa səhifəsində "Bu bazar ertəsindən etibarən cocuq dünyası həftədə iki dəfə çıxacaqdır. Bazar ertəsi nəşr olunan nüsxələr 16 səhifədən ibarət olmaqla bərabər, həm də ayrı şəkil və həcmdə olacaqdır" (3, 8). 8 Avqust 1329(1913)-

cu ildə nəşr olunan 22 –ci buraxılışında "həftə içi "cocuq dünyası" nı yay aylarına məxsus olaraq bazar ertəsi günlərində daha bir nüsxə çıxarmağa başladıq. Bu nüsxənin üslubu tamamilə fərqlidir. Dördüncü günləri çıxan nüsxə ilə oxşarlığı yoxdur. Müvəqqəti olduğu üçün abunəliyi yoxdur" (4, 8).

34-cü nömrənin 7-ci səhifəsində jurnalın 8 səhifədən 16 səhifəyə qədər artırılacağı bildirilir. 37-ci nömrədən etibarən jurnal 16 səhifədən ibarət olaraq nəşr edilir. Həcm artırılıdıqdan sonra burada təqdim olunmuş hekayələrin sayı və həcmi də artır.Jurnalın bəzi nömrələrinin əvvəlində mündəricat hissəsi də verilmişdir. 37-ci nömrədən etibarən ön səhifədə jurnalın içindəki yazıların adını və yazıçıları bildirən indeks də mövcuddur. 50-ci nömrədə jurnalın bir yaşının olduğu barədə məlumat da verilmişdir.

51-ci nömrədən 76-cı nömrəyə qədər nüsxələrdəki səhifələrin sayı bir kitab kimi ardıcıl sıralanmışdır. Əldə olan nüsxələr bu jurnalın toplu şəkildə cildlənmiş olduğunu göstərir. Bu nömrədən başlayaraq əlavə ön səhifə və arxa səhifələr yoxdur. 51-ci nömrədən sonra jurnalın səhifələri bəzən iki sütuna ayrılmır. Bundan əvvəl hər səhifə iki sütun şəklində idi. Tək səhifə şəklində yazılan hissələr daha böyük hərflərlə çap olunmuşdur. Jurnalın 80-1- ci nömrəsi 4 il fasilədən sonra nəşr olunmağa başlamış və Baş redaktoru Ahmed Halid müəllim olmuşdur. "Ay ulduz " mətbəəsində nəşr olunur. Bu dövrdə nəşr olunan jurnallar ardıcıl sıralanmış halda cildlənmiş kitab kimi nəşr olunmuşdur.

83-cü nömrədən sonra jurnalın satış qiyməti artırılır. Qiymət 10 (para) dan 100 (para) ə qədər qalxır. Buna səbəb həmin dövrdə iqtisadi böhranla əlaqədar kağız çatışmazlığı olmuşdur.

94-15-ci nömrənin əvvəlində jurnalın bir müddət nəşr olunmayacağı bildirilmiş, orada "Cocuq dünyası" bu nüsxədən etibarən bir müddət çıxmayacaqdır" (9, 225) qeydi vardır.

2."Cocuq dünyası" jurnalının Türk uşaq ədəbiyyatındakı rolu.

"Cocuq dünyası" jurnalının uşaq ədəbiyyatındakı rolunu, uşaq təhsili və uşaq ədəbiyyatı ilə bağlı fikirlərini dərindən dərk etmək üçün jurnalın birinci nömrəsinin əvvəlindəki "Cocuq dünyasının düşüncələri" başlığı altındakı yazını oxuyub bu istiqamətdə araşdırma aparmağa ehtiyac vardır. Beləliklə, biz "Cocuq dünyasının düşüncələri" ndə ana və atalara müraciətlə oxuyuruq:

"Bizim ölkəmizdə uşaqların həyatı və onların dünyası haqqında maarifləndirilməyə daha çox ehtiyac duyulsa da, təəssüf ki, indiyə qədər bu məsələyə olduqca laqeyd yanaşılmışdır. Millətlər arasında bu qədər geri qalmağımızın səbəbini fikirləşsək, yəqin, birinci səbəb kimi uşaqların düşüncələrinin tərbiyələndirilməsində diqqətsizliyimiz yadımıza düşəcək.

Gənclərimizin dövrün tələblərinə uygun fikrə malik olmamalarının , onların tərəqqi yolunda geniş addım ata bilməmələrinin səbəbini özümüzdə görürük.

Gəncliyin təməli uşaq aləmidir. Günlərini boş və faydasız keçirmələrinə göz yumduğumuz gənclər əgər dövrün tələblərinə uyğun yetişməmişlərsə, bu onların günahı yox, onları bu vəziyyətə gətirənlərin günahıdır.

Bizim ailələrdə uşaqların tərbiyəsinə çox yer verilirsə də, onların kitab oxumalarına fikir verilməmişdir. Halbuki uşaq tərbiyəsi ədəbiyyat məcmuələrindən, mühüm fənn kitablarından,siyasət dərslərindən daha önəmlidir. Bu olmadıqda onlar daim bir boşluq içində olacaqlar.

Tolstoy ömrünün böyük bir hissəsini uşaqlar üçün sadə, amma son dərəcə gözəl hekayələr yazmaqla keçirib və hətta öz kəndində açdığı məktəbdə ömrünün axırına qədər kəndli uşaqlarının tərbiyəsilə məşğul olmuşdur. Bizdə isə hələ övladlarımızın əlinə verməyə layiqli kitablar belə yoxdur,uşaq ədəbiyyatı dərin bir boşluq içindədir. Biz bu boşluğu doldurmaq, uşaqlarımızda oxumaq və düşünə bilmək vərdişlərini inkişaf etdirmək, onları ölkə üçün faydalı şəxsiyyət kimi yetişdirmək üçün "Cocuq dünyası" jurnalını çıxarırıq.

Yaxın bir neçə il ərzində bizdə bu istiqamətdə xeyli təşəbbüs irəli sürüldü.Məsələn əvvəlki dövrdə "Uşaqlara məxsus qəzet"və sonra da "Dost", "Şebab " kimi iki məktəbli qəzeti çıxdı.Amma fəaliyyəti uzun çəkmədi. Biz bunu uşaq psixologiyası,uşaqların ruhuna və ehtiyaclarına cavab verməyərək onların başa düşə bilmədikləri ağır mövzuların yazılması ilə izah edirik Avropada uşaqları bünövrədən mütaliəyə alışdırmaq, düşüncələrini inkişaf etdirmək üçün müxtəlif əfsanələrdən (təmsil),nağıllardan (rəvayət) istifadə olunur. Orada uşaq ədəbiyyatı bu sadalananlarla zəngindir. İfadəli oxumağı yenicə öyrənən uşağın qarşısına çətin və darıxdırıcı yazıları qoyub onda mutaliəyə qarşı soyuqluq yaratmaqdansa, özünə yaxın olan hekayələrlə onda sevgi və istək oyandırmaq daha düzgün olardı.

Biz çocuq dünyası üçün bu əsası qoruyuruq. Fransız,alman,ingilis və rus uşaq ədəbiyyatına dair əsərlərdən istifadə etməklə yanaşı, milli nağıllarımızdan faydalanmağa çalışmalıyıq" (1, 1-2).

"Cocuq dünyası" hərdən bir əlavələr və xüsusi risalələri nəşr edərək ölkəmizdə uşaq ədəbiyyatı boşluğunu mümkün qədər tez doldurmağa çalışacaqdır (1, 1-2). "Cocuq dünyası" jurnalı Osmanlıda uşaq ədəbiyyatını çatışmazlığının qarşısını almaq və uşaq ədəbiyyatına kömək etmək istəyini 29-cu nömrənin birinci səhifəsində bu yazıyla bildirir, "... ("Cocuq dünyası") bütün bunlar ölkəmizdə milli uşaq ədəbiyyatı yaratmaq məqsədini müntəzəm şəkildə inkişaf etdirdi." (6, 1).

"Cocuq dünyası" jurnalı əvvəlki jurnalların buraxdığı səhvləri təkrarlamayaraq uşaqlar üçün maraqlı olan ədəbi növlərə də yer verəcəyini qeyd etmişdi.Jurnalı çıxaranlar uşaqlara necə müraciət etmək lazım oldugunu da düşünmüsdülər. Jurnalı nəşr edənlər qeyddə bildirdikləri kimi onun içərisində bir çox hekayə,nağıl və təmsillərdən istifadə etmişdilər. Jurnalda digər millətlərin uşaq ədəbiyyatı nümunələri də çap olunurdu.Ancaq milli ədəbiyyata əsaslanan bu jurnallarda, yazıçıların qeyd etdikləri kimi, milli nağıl və hekayələrin üstünlük təşkil etdiyini görürük. Jurnalın məzmununa baxdıqda onun hər bir nömrəsində hekayə, şeir, nağıl, tərcümə əsərləri, tapmacalar, tapmacaların doğru cavablayanların siyahısı, kitab təqdimatlarını da aydın görə bilərik. Bununla belə jurnalda müəyyən faktorlar daim yer alsa da, hər nömrənin məzmununda seçilən ədəbi növlərdə dəyişikliklər gözə dəyməkdədir.

Jurnalda dünya uşaq ədəbiyyatı nümunələrinə olduqça böyük yer verilmişdir. Demək olar ki, jurnalda hər hansı bir xalqın və ölkənin ədəbiyyatından (ingilis,fransız, alman, rus, hind, yapon və s.) edilən tərcümə nümunələri təqdim olunmuşdur. Bəzi uşaq ədəbiyyatı nümunələri bir çox nömrələrdə silsilə şəklində dərc olunmuşdur. Onların sırasında "Qulliverin səyahəti", "Vilyam Tel" və s. qeyd etmək olar.

"Milli nağıl" başlıqları altında türk və islam tarixinə aid çox saylı nağıllara, demək olar ki,hər nömrədə yer verilmişdir.

Eyni zamanda hər nəşrdə hekayələrə də çox yer verilmişdir. Xüsusilə 1914-cü ilin axırına qədər nəşr olunan birinci nüsxədə hekayələrdə milli duyğular daha gəniş şəkildə ortaya qoyulmuşdur.

Jurnalda heyvanlar haqqında nağıllar daha çoxluq təşkil edir. Lakin onlar heç də vahid bir başlıq birbaşlıq altında verilməmişdir. Jurnalda bəzən "heyvanlar haqqında nağıllar"başlığı altında hekayələr də mövcuddur. Bununla belə heyvanlar haqqında nağıllar eyni başlıq altında verilməmişdir. Hekayə və nağılların əksəriyyətində şəkillərə də yer ayrılmışdır.

Jurnalda daha çox şeir növündən istifadəyə yer verilmişdir. Burada "Milli duyğular" və "Çalışmağın əhəmiyyəti" kimi mövzulara daha böyük üstünlük təşkil etmişdir. Jurnalda eyni zamanda şeir əzbərləmə müsabiqələrinin keçirildiyi də diqqət çəkməkdədir.

Jurnalın hər nəşrində tapmacaların təqdim olunduğunu qeyd etmək lazımdır. Tapmacaların cavabları jurnalın sonrakı nömrələrində verilmişdir. Arxa səhifədə tapmacaları düz tapanların adları və oxuduqları məktəb haqqında məlumat dərc olunmuşdur. Həmçinin jurnaldakı elanlardan görünür ki, tapmacaların düzgün cavablarını tapanlara bəzi hədiyyələr də verilirmişdir. Fikrimizcə, tapmacalara və krossvordlara bu qədər çox yer verilməsinin səbəbi uşaqların intellekt səviyyəsini inkişaf etdirmək və onları oxumağa təşviq etmək kimi dəyərləndirilməlidir.

Jurnalın bəzi nömrələrində "Şəkilli hekayələr" başlığı altında sadəcə bir neçə şəkildən ibarət yazısız məzəli hekayələrə də rast gəlmək mümkündür.

Bundan başqa jurnal təşkil etdiyi müxtəlif müsabiqələrlə oxucuları daha çox fəallaşdırmağa çalışmışdır. "Şəkil müsabiqəsi, dil yarışı, nağıl müsabiqəsi, şeir söyləmək müsabiqəsi, hekayə tamamlama müsabiqəsi" və s. kimi müsabiqələr məhz bu qəbildəndir.

Bütün bunların vasitəsilə jurnal müəllifləri özləri ilə oxucu arasında əlaqə yaratmağa səy göstərmişlər. Jurnalın arxa səhifəsində müsabiqəyə qoşulub uğur qazananların siyahısı dərc olunmuşdur. İştirakçıların sayının çoxluğunu məhz buradan bilmək mümkündür. Jurnalı çıxaranlar o dövrə məxsus demokratik iştirakçı üsulundan istifadə edərək oxucularının jurnala olan marağını öyrənmək istəmişdilər. Abunəçilərin jurnalda görmək istədiklərini müəyyənləşdirmək üçün ayrıca olaraq "Bir müsabiqə" (7, 287) adlı sərlövhə ayrılmışdır. Aparılan bu işlər jurnalın oxucu ilə sıx əlaqədə olduğunu təsdiqləyir. Jurnalın arxa səhifəsində bir neçə jurnalın və ya kitabın reklamına da yer verilir. Nəşr olunmuş bəzi hekayə və nağılların ayrıca bir kitab halında çap edilərək satıldığı da müşahidə olunmaqdadır. Məsələn, 28-ci nömrənin arxa səhifəsində (əlavəsində) "Cocuq dünyası nəşriyyatı" başlığı altında nəşr olunmuş kitabların adı və qiymətləri təqdim olunmuşdur. "Sehrli xalça", "Tülkü qardaşın başına gələnlər", "Tülkü qardaşın mühakiməsi", "Qulliverin səyahəti" bunların hər biri 20 (para) dəyərindədir. Jurnalda həm də oxuyuruq: "Məcmuəmizdə nəşr olunan və kiçik dostlarımız tərəfindən sevilərək oxunan bu hekayələrin tirajı azaldığından onu hələ də əldə etməyənlərə almağa tələsmələrini məsləhət görürük" (5, 9).

Bəzi nömrələrdə (№ 30 və 32) "Ailə əyləncələrindən" başlığı altında müxtəlif oyunlar verilmişdir. Bu, uşaqların öz ailələriylə səmərəli vaxt keçirmələri üçün nəzərdə tutulmuşdur.

Jurnalda Türk tarixindəki bəzi mühüm günlər və onların əhəmiyyəti ilə bağlı bilgilərdə uşaqlara ötürülmüşdür. Onların sırasında 10 iyul Məşrutiyyət bayramı,

Osman bəyə digər türk bəylərinin beyət tarixi (№ 41), peyğəmbərimiz Hz. Məhəmmədin doğum gecəsi (№ 46), Qaspıralı İsmayılın ölümü (№ 13) ilə bağlı günləri göstərmək mümkündür.

Jurnalda uşaqların üçün ictimai xarakterli mövzular da çap olunmuşdur. Məsələn, donanmaya kömək etmək üçün yardım kampaniyası həyata keçirmək məqsədi ilə bunun üçün fövqəladə nüsxə çıxarılmışdır. Jurnalda məktublar üçün də ayrıca yer ayrılmışdır. Burada bəzən dövlət rəhbərlərinə yazılmış məktublara, bəzən də jurnalın özünə göndərilən məktublara rast gəlinir. Məsələn 46-cı nömrənin 4-cü səhifəsində maarif nazirinə yazılmış bir məktub təqdim olunmuşdur. Bu məktubda Qalatasaray məktəbi Sultanisi şagirdlərinin beşinci gündən etibarən tətilə çıxmaq istədikləri göstərilmişdir. Dövrün Bələdiyyə rəisinə də yazılmış məktub da vardır. Jurnalın 51-ci nömrəsinin birinci səhifəsində Ispartalı Haqqı bəyin "Cocuq dünyası" na maraq oyatmaq üçün yazdığı məktub yerləşdirilmişdir. Məktub janrından jurnalın istifadə etməsi dil-üslub baxımından da uşaqlarda böyük maraq oyadacağı hiss olunur. Ərəb, fars tərkibi və söz birləşmələrindən daha az istifadə olunub yazıların asan başa düşülməsinə də diqqət yetirilmişdir.

"Cocuq dünyası" jurnalında dövrün qabaqcıl yazıçıları ilə yanaşı, nisbətən az tanınan şair və yazıçıların, müəllimlərin və tələbələrin də yazılarına yer verilmişdir. Elə buna görə də "Çocuq dünyası" nın olduqca güclü bir yazıçı tərkibi olmuşdur. Ziya Göyalp, Aka Gündüz, Ədhəm Nejad, Mehmet Emin (Yurdakul), Əli Ulvi (Elöve), İsmayıl Haqqı (Baltacıoğlu), Hüseyn Ragıp (Baydur) kimi məşhur yazıçılar bu jurnala öz töhfələrini vermişdilər (11, 107).

Nəticə

"Cocuq dünyası" jurnalını şəkil baxımdan təhlil etsək, jurnalın başlığında hər hansı bir rəsm və ya şəkil görmürük. Burada öz müəlliflərin fikir dünyaları, baxışları başlığın altında qeyd olunan bir yazı ilə bildirilir. Jurnal ölçü və yazı şirifti baxımından uşaqların rahat oxumasına uyğun xüsusiyyətlərə malikdir. "Cocuq dünyası" jurnalında səhifə sayı daim eyni şəkildə qalmamışdır, jurnalda getdikcə artan bir hacim vardır. "Cocuq dünyası" daha çox milli duyğulara, vətən sevgisinə, millətçiliyə yer verdiyi halda, hər hansı quru bir ideya ilə kifayətlənməmiş, uşaqları əyləndirməklə onları müəyyən bir düşüncəyə sövq etməyə çalışmışdır. Jurnalda istifadə edilən janrlar uşaqların xoşlarına gələcək hekayə, nağıl, əfsanə, şeir kimi nümunələrdən seçilmişdir. Uşaqların əylənməsi və fərdi inkişafı üçün bioqrafiyalara, maarifləndirici məlumatların olduğu elmi yazılara, sağlamlıqla bağlı yazılara, heyvan sevgisini inkişaf etdirəcək təmsillərə, tapmacalara, riyaziyyatla bağlı tapmacalara da xeyli yer verilmişdir. Burada dövrün imkanlarından istifadə edilərək müxtəlif şəkillərin təqdim edilməsinə çalışılmışdır. "Cocuq dünyası" jurnalı dil baxımından da uşaqların səviyyəsinə uyğun olan sözlərdən, lüğət bazasından istifadə etmişdir. Xarici mənşəli mənası məlum olmayan sözlərə o qədər də gəniş yer verilməmişdir. Cümlələr yadda qalan, aydın, səlisdir. Burada uzun, bər-bəzəkli cümlələrə, demək olar ki, yer verilməmişdir.

ƏDƏBİYYAT

1.Çocuk Dünyası, İstanbul: Kader matbaası, № 1, 1913, 8 s.
2.Çocuk Dünyası, İstanbul: Kader matbaası, № 17, 1913, 8 s.
3.Çocuk Dünyası, İstanbul: Kader matbaası, № 21, 1913, 8 s.
4.Çocuk Dünyası, İstanbul: Kader matbaası, № 22, 1913, 8 s.

5.Çocuk Dünyası, İstanbul: Kader matbaası, № 28, 1913, 8 s.
6.Çocuk Dünyası, İstanbul: Kader matbaası, № 29, 1913, 8 s.
7.Çocuk Dünyası, İstanbul: Kader matbaası, № 68, 1913, 385 s.
8.Çocuk Dünyası. İstanbul: Kader Matbaası, № 80-1, 1919, 239 s.
9.Çocuk Dünyası, İstanbul: Kader matbaası, № 94-15, 1919, 239 s.
10.Kasap A. Evvel Zaman İçinde Çocuk Dergileri: 1869-1928 yılları arasında yayınlanan osmanlıca çocuk dergileri. İstanbul: sultanbeyli Belediyesi, 2011, 22 s.
11.Okay C. Eski Harfli Çocuk Dergileri. İstanbul: Kitabevi, 1999, 240 s. 114
12.Osmanlı Ansiklopedisi: 12 cilddə, II c., Ankara: Yeni Türkiye Yayınları,1999, 9244 s.

UMIT PEKTASH

THE ROLE OF "COCUQ DUNYASI" ("CHILDREN'S WORLD") JOURNAL IN THE FORMATION OF TURKISH CHILDREN PRESS IN THE BEGINNING OF XX CENTURY

ABSTRACT

The journal of "Cocuq dunyası" was very important in Turkey in the beginning of XX century because of the fact that it had a long history and published the works of eminent writers of the period. The journal was improved from view of different aspects including images and content and it held very important place in Tirkish children's literature. The author investigates tales of the animals printed in this magazine. But they were never printed under one heading. Stories on other subject were published in the magazine sometimes under heading of "the tale of animals". In fairy tales and stories it is possible to meet also illustrations. The magazine from time to time held competitions. These and other questions were widely studied in article on extensive material.

УМИТ ПЕКТАШ

В НАЧАЛЕ XX ВЕКА РОЛЬ ЖУРНАЛА "COCUQ DÜNYASI", В СОЗДАНИИ ДЕТСКОЙ ПРЕССЫ ТУРЦИИ

РЕЗЮМЕ

В начале XX века в Турции долгосрочный выпуск журнала "Cocuq dünyası", а также печатание в этом журнале произведений продвинутых писателей того времени занимают особое положение. С того дня, как журнал начал выпускаться, он занял бесспорную важность как с точки зрения картин, так и содержания в развитой и детской литературе Турции. Автор исследует сказки о животных, напечатанных в этом журнале. Но они никогда не печатались под одним заголовком. В журнале иногда под заголовком «сказки о животных» печатались рассказы по другой тематике. В сказках и рассказах можно повстречать и иллюстрации. Журнал временами проводил конкурсы. Эти и другие вопросы были широко изученные в статье на обширном материале.

Rəyçi: Afaq Ramazanova
filologiya üzrə fəlsəfə doktoru, dosent

AYTAC ABBASOVA
AMEA Folklor İnstitutu
folklorgirl@mail.ru

KƏLBƏCƏR REGİONUNA MƏXSUS NAĞIL VARİANTLARI

Açar sözlər: *folklor, nağıl, variant, süjet, Kəlbəcər, Şah Abbas, Şıx Səyyad*
Key words: *folclore, tale, version, tale line, Kelbedjar, Shah Abbas, Shikh Sayyad*
Ключевые слова: *фольклор, сказки, вариант, участок, Кельбаджар, Шах Аббас, Шых Саят*

Dünyanın bütün xalqlarında folklorun ən populyar janrı kimi özünü göstərən nağıllara Azərbaycanın müxtəlif bölgələrində ayrı-ayrı variantlarda rast gəlmək çətin deyil. Nağıllar xalqın milli-mənəvi varlığını, mifoloji dünyagörüşünü, etik baxışlarını son dərəcə mükəmməl şəkildə əks etdirən bir janrdır. Hələ uzun illər bundan qabaq Y.V.Çəmənzəminli yazmışdır: "Nağıl xalq ədəbiyyatına məxsusdur. Xalqın ruhunun, etiqadlarının məhsuludur. Bütün şüarlarımız xalqa doğru olduğu üçün nağılın əhəmiyyəti bir qat daha artır. Belə olan surətdə nağıllarımızı toplamaq və nəşr etmək ən birinci mədəni məsələlərimizdən olmalıdır" (5, 280).

Kəlbəcər regionuna məxsus folklor nümunələri içərisində nağılların da özünəməxsus yeri vardır. Mövzu baxımından nağılların hər növünə aid nümunələrə burada rast gəlmək çətin deyil, amma məişət nağılları daha çox üstünlük qazanmışdır. Regiondan toplanmış "Zərgərin nağılı" (14, 109), "Məhbubə xanım" (14, 182), "Padşah və ağıllı qızı" (1, 102), "Qaşıqçının nağılı" (1, 100), "Yeddi qardaş ilan" (14, 8) adlı nağıllar isə fərqli mövzulardadır. Folklor antologiyalarında "Haqq var, divan yoxdur", "Xain ata" (1, 105) nağılının variantlarına rast gəldik. Bu nağıllar çox az dəyişikliklərlə eyni süjet xəttinə malikdir. "Qaşıqçının nağılı" adlı nağılda isə "qismətdən qaçmaq olmaz" (830*, 15, 209) süjet xətti aparıcıdır ki, burada varlı bir kişi özünə qismət olmayacaq qızılı qaşıqçıya qismət etməmək üçün əlindən gələni edir. Buna baxmayaraq, qızıl dönüb-dolaşıb yenə də qaşıqçıya qismət olur.

"Qarabağ: Folklor da bir tarixdir" adlı toplunun Kəlbəcərə aid cildində bölgədən toplanmış nağıllar içərisində "Şıx Səyad" (14, 133) adlı yeni nağıl obrazı və yeni süjet xəttinə malik nağılla rastlaşdıq. İ.Rüstəmzadə yazır ki, "Şıx Səyad, Şıx Sədi, Şıx Sədin kimi müxtəlif şəkillərdə işlənən bu personajla bağlı üç süjet qeydə alınmışdır. Həmin süjetlərdən biri və ən geniş yayılanı Şıx Səyadın qadınların əməlindən kitab yazmasıdır" (14, 5). Nağılın məzmununda Şıx Səyad qadınların əməlindən bəhs edən "qırx qəlfə-qatır yükü" kitabı yazır, lakin o axırıncı getdiyi qadının oyununa tuş gəlir və kitabları orada yandırır (14, 133). Şıx Səyad digər bir süjetdə isə elə bir qızla evlənmək istəyir ki, "o qız bu dünyanın işini bilməsin. Onun üçün qızı anasının bətnində behliyir" (14, 133). Şıx Səyad qızı bu dünyadan və dünyanın işlərindən gizli saxlamasına baxmayaraq, qız bir qarı vasitəsilə Şıx Səyada xəyanət edir. Bir sözlə, Şıx Səyad qadınların əməlindən baş açа bilmir. Nağıl personaji və nağılın süjet xətti Kəlbəcər bölgəsinə məxsus olub ayrı-ayrı bölgə folklorunda mövcud olmamışdır.

Kəlbəcər sakinlərindən toplanmış digər bir nağıl isə "Zərgərin nağılı"dır (14, 109). Nağıl iki variantda (söyləyici və söyləyicinin qızından) toplanmışdır. Eyni məzmun və süjet xəttinə malik olmasına baxmayaraq, birinci mətni orjinal hesab etmək olar. İkinci mətn isə ixtisarlar və hadisələrin yerinin dəyişilməsi ilə bir az təhrif olunmuşdur. Nağılın əsas məzmunu istedadlı, eyni zamanda ağıllı bir zərgərin padşahın və vəzirin sifarişi ilə qızıldan qoç fiquru düzəltməsi və verilən qızıldan bir azını özünə

götürüb gizlətməsi ilə başlayır. Zərgərin vəzirin qoç fiqurunu padşahın qoç fiqurundan fərqli düzəltməsi nağılda ziddiyyətlərin başlamasına səbəb olur. Belə ki, vəzir bir qarı vasitəsilə zərgərin arvadından öyrənir ki, zərgər ona verilən qızıldan gizlədibdir. Vəzir bunun üstünü açıb, zərgəri cəzalandırır. Zərgər bu cəzadan xilas olub oradan uzaqlaşır. Vəzir maraqlı bir üsulla yenidən zərgəri tapıb saraya gətirir. Zərgər olub-bitəni padşaha danışır və əfv edilib vəzirin yerinə keçir (14, 109-129).

Nağılda zərgərin "qızıl dəqiqliyi" iki yerdə-birinci zərgərin hündür bir damın başında arvadından kömək istəməsində və padşahın əhaliyə verdiyi "quzunu eyni çəkidə saxlamaq" tapşırığında özünü göstərmişdir. Nağılda zərgər qədər vəzir də ağıllıdır. Lakin vəzir bu ağlından yaxşı işlər görmək üçün deyil, qısqanclıq və şöhrətpərəstlik uğrunda şər işlər üçün istifadə edir. O, zərgərin qızıl gizlətdiyini anlayıb, qarı və zərgərin arvadı vasitəsilə öyrənir və onun tutdurur. Sonra zərgəri tapmaq üçün ağıllı bir tədbir görür. Buna baxmayaraq, nağılın sonunda haqq yerini tapır, zərgər layiq olduğu yerə gəlir.

Kəlbəcərdən toplanmış nağılların süjet göstəricilərinə gəldikdə isə bir neçə nağılı çıxmaq şərti ilə digər nağıllar süjet katoloqunda yer almışdır. "Adam Şeytan" (14, 136) 821**=AT 1353 (15, 207), "Comərd Qəssab" (14, 148) 750K* (124, 188), 834C** (15, 211), "Qəşəmşəm" (14, 151) 300 (15, 110), "Səxavət yaxşıdı, yoxsa ibadət" (14, 154) 750B* (15, 185), "Musa Allahı qonaq çağırır" (14, 157) 751A=AT 751A* (15, 189), "Suynan yanan çıraq" (14, 172) 753*B (15, 189), "Allaha pənah" (14, 171) 776**A (15, 198), "Yazıya pozu yoxdur" (14, 176; 14, 244) 930 (15, 263), "Dad əlindən" (1, 95) 1863* (15, 336), "Xain ata" (1, 105) 706C (15, 179), "Haqq var, divan yoxdu" 960A* (15, 274) və s. nağıllar Azərbaycan nağıllarının süjet katoloqunda (15) oxşar süjet xəttinə malik olmuşdur.

Bölgəyə məxsus nağıllar içərisində Şah Abbas və vəzir Allahverdi xanla bağlı nağıllar isə silsilə təşkil edir. Ümumiyyətlə, nağıllarda şah, bəy, xan, hökmdar obrazlarına tez-tez rast gəlirik. Bu tip nağıllar adları çəkilən obrazların həyat və fəaliyyəti haqqında məlumat verməklə yanaşı, xalqın onlara qarşı münasibətini də əks etdirir. Folklorşünas P.Əfəndiyev yazırdı ki, "tarixi hadisələrlə bağlı yaranan nağıllarda Dara, İsgəndər, Ənuşirəvan, ən çox isə Şah Abbasın adları çəkilir" (6, 183).

Onu da qeyd edək ki, Şah Abbas və onun vəzir Allahverdi xan tarixi şəxsiyyətlər olmuşlar. I Şah Abbas Səfəvilər dövlətinin Şah İsmayıl Xətaidən sonra ən nüfuzlu başçısı olmuşdur. Onun dövründə mərkəzi hakimiyyətin möhkəmləndirilməsi, ərazi bütövlüyünün bərpası, mədəniyyətin və xalqın yaşayış səviyyəsinin yaxşılaşdırması işləri sürətlə həyata keçirilmişdir. XIX əsrin görkəmli tarixçisi, şairi və ictimai xadimi Abbasqulu ağa Bakıxanov Azərbaycan tarixinə həsr etdiyi "Gülüstani-İrəm" əsərində Şah Abbasın hakimiyyəti dövrünü belə qiymətləndirmişdir: "Müdrik dövlət idarəçiliyi və quruculuq işləri ilə şöhrət qazanan Şah Abbas elə mülki və hərbi qayda-qanunlar qoyub gedib ki, fars şahları indi də ondan istifadə edirlər. Hətta hökmdarların ləyaqətinə ciddi yanaşan Avropa tarixçiləri də bir elm və sənət hamisi olaraq, Şah Abbası "Böyük" sözü ilə xatırlayırlar. Bu böyük insanın adını ədalət və müdriklik rəmzi sayılan Asiya xalqlarında isə o, az qala bütləşdirilir" (4). Şah Abbasın xalq arasında populyarlığının yüksək olması nəticəsində o, Azərbaycan nağıl və dastanlarının daimi qəhrəmanına çevrilmişdir.

Şah Abbasla adı yanaşı çəkilən vəziri Allahverdi xan da tarixi şəxsiyyətdir və Şah Abbasın əvvəlcə zərgərbaşı, sonradan isə vəziri olmuşdur. Şah Abbas nə qədər ədalətli idisə, onun vəziri də bir o qədər ağıllı və mərhəmətli idi. Şah Abbas kimi Allahverdi xan da Azərbaycan nağıllarının əsas qəhrəmanlarından biri olmuşdur. F.Bayat yazır ki, "Hər bir xalqın nağılı onun çoxəsirlik tarixi, məişət tərzi, dünyagörüşü,

adət-ənənələri, yaşamları, mübarizə və mücadilələri, istək və arzularını yanıtması baxımından millidir" (9, 115). Şah Abbas və vəzir Allahverdi xanla bağlı nağıllarda da F.Bayatın qeyd etdiyi xüsusiyyətlər öz əksini tapmışdır.

Ayrı-ayrı bölgələrə məxsus folklor antologiyalarında və beş cildlik nağıllar kitabında Şah Abbasla bağlı nağıllara kifayət qədər rast gəlmək mümükündür. Ağdaş folklorunda "Şah Abbasın sınağı", "Şah Abbas və bənna", "Şah Abbas və üç dilənçi", "Şah oğlu və naxırçı qızı" , Gəncəbasar folklorunda "Şah Abbasla oğlan", "Şah Abbasla qız", "Padşahla vəzirin səyahəti", "Yazıya pozu yoxdu" , İrəvan Cuxuru folklorunda "Şah Abbasla qoca" , Qazax folklorunda "Şah oğlu Şah Abbas haqqında" , Şirvan folklorunda "Allah yazanı pozmaq olmaz" , "Qarabağ: folklor da bir tarixdir" toplularında "Şah Abbas və oğrular", "Şah Abbasla üç bacı", "Şah Abbasla pinəçi", "Şah Abbasla bostançı", "Şah Abbasla soyğunçular", "Şah Abbasla dərvişlər", "Şah Abbasnan məleykə", "Bostançı və Şah Abbas", "Şah Abbasın sənəti" və s. adlı nağıllardan da göründüyü kimi, Şah Abbasla bağlı nağıllar olduqca çoxdur. Eyni zamanda, bu nağılların hər birinin özünəməxsus variantları da mövcuddur. Bu da bütün folklor nümunələrində olduğu kimi təbii bir prosesdir ki, nağıl bəzən bir neçə süjet xətti üzrə inkişaf edib hər hansı bir yeni əlavələrlə zənginləşərək yeni bir nağıl əmələ gətirir.

Yuxarıda qeyd etdiyimiz nağılların bir çoxu bu qayda ilə yaranan nağıllardır. Kəlbəcər sakinlərindən topladığımız nağılların içərisində Şah Abbas haqqında nağıllar daha çox idi. Demək olar ki, bütün söyləyicilər bu barədə nağıl söyləmişlər. Bunlardan "Şah Abbas və vəzir Allahverdi xan haqqında", "Şah Abbas və üç bacı", "Şah Abbas və çoban", "Şah Abbas və Əzrayıl", "Şah Abbas və qarı", "Şah Abbasın vəzir Allahverdi xana tapşırığı" və s. adlı nağılları toplamışıq.

Nağılın baş qəhrəmanı olan Şah Abbas bütün nağıllarda müsbət obraz kimi verilmişdir. O, çox ağıllı, tədbirli, xalqının qeydinə qalan, qayğısını çəkən, lazım gəldikdə xalqa kömək edən, onları arzularına çatdıran bir hökmdar kimi göstərilmişdir. M.Kazımoğlunun qeyd etdiyi kimi, "hökmdar obrazının xüsusi yer tutması təəccüb doğurmamalıdır. Nəzərə alınmalıdır ki, qədim dünyagörüşə görə, hökmdar cəmiyyətdə məhsuldarlıq, ümumiyyətlə həyat rəmzidir. Həyat rəmzi sayılan hökmdarın müqəddəsləşdirilməsi, onun şərdən-yamandan qorunması və ona güc-qüvvət arzulanması isə tamamilə təbii bir haldır" (11, 91). Yuxarıda adlarını çəkdiyimiz nağıllara diqqət yetirsək bunu aydın şəkildə görə bilərik. Xalqın ən sadə nümayəndələri ilə ünsiyyətdə olmasından bəhs edən bu nağıllarda şahla yanaşı bostançı, naxırçı, çoban, qarı, pinəçi, dilənçi, dərviş və s. obrazlar da vardır. Hər bir nağılda Şah Abbasın müsbət, xeyirxah, ədalətli olması göstərilmişdir. Ş.Əliyeva qeyd edir ki, "mifik görüşlərdə hökmdara xüsusi bir qüvvə, özü də Allah tərəfindən göndərilən qüvvə, xüsusi səlahiyyət sahibi kimi qiymət verilməyinin nəticəsi idi ki, hökmdar hətta folklorda da fövqəltəbii şəxsiyyət kimi təsvir edilirdi və insanlar arasında yüksək hörmət və ehtirama malik idi" (8, 89). Maraqlı bir məqam da ondan ibarətdir ki, Şah Abbas çox az nağılda tək olur, həmişə onun yanında çox sevdiyi, ağıllı vəziri Allahverdi xan da görünür. Nağıllarda Allahverdi xan da Şah Abbas qədər ağıllı, ədalətli bir obrazdır ki, hətta yeri gəldikcə o, Şah Abbasa məsləhətlər də verir.

Bəzən nağıl sistemində padşah və şahların ictimai həyatda və cəmiyyətdə oynadığı tarixi funksiyalar təhrif edilmiş, doğru-dürüst verilməmişdir. E.Hüseynbəyli "Şah Abbas" adlı roman-xronikasında müxtəlif rəvayət və əfsanə, nağıl və konkret sənədli materiallara söykənib Şah Abbasın olduqca müsbət hökmdar olmasını bədii şəkildə səciyyələndirilmişdir (10). Folklorşünas M.H.Təhmasibin bir mülahizəsində Şah Abbas haqqında fikri əsasən nağıllarda mənfi obraz kimi göstərilməsi şəklində qeyd olunur: "İran şahı Şah Abbas (1585-1628) Şərq aləmində ərəblərdəki Harunəl-Rəşid

kimi "ədalətli", "vicdanlı", dərviş libası geyərək məmləkəti gəzən, hər yerdə təsadüf etdiyi haqsızlıq və ədalətsizliyin kökünü qazıyan bir sima olaraq şöhrət qazanmışdır. Azərbaycan nağıllarında isə haman bu "Şah Abbas cənnətməkan" tamamilə bunun əksinə, yəni doğru olaraq təsvir edilir" (16, 122). Müəllif bunu məşhur "Üç bacı" (3, 164) nağılında Şah Abbas obrazının ifşa edilməsində göstərmişdir.

"Qarabağ: folklor da bir tarixdir" adlı folklor toplusunda Füzulidən olan bir sakinin dilindən toplanmış "Şah Abbasla üç bacı" adlı nağıl bizim Kəlbəcər sakinindən topladığımız "Şah Abbas və üç bacı" adlı mətn ilə eynilik təşkil etməsinə baxmayaraq, fərqliliklər də olduqca çoxdur. Nağıl hər iki variantda eyni cür başlayır, lakin üç bacının söylədikləri arzu-istəklər və onların başına gələn əhvalatlar fərqli olur. "Şah Abbasla üç bacı" nağılının Füzuli variantında bacıları dinləyən Şah Abbas üçüncü bacını öldürmək istəyir, lakin ağsaqqalların məsləhəti ilə onu aparıb meşədə azdırırlar. "Şah Abbasla üç bacı" nağılının Kəlbəcər variantında isə Şah Abbas üçüncü bacı ilə evlənir. Lakin qızın paxıllığını çəkən digər arvadlar onu şahın gözündən salıb saraydan qovdururlar və dünyaya yenicə gətirdiyi körpəni çaya atırlar. Nağılın sonunda hər iki qız öz arzusuna çatır və Şah Abbas etdiyi hərəkətdən peşman olur, həqiqəti öyrənib günahkarları cəzalandırır. Hər iki nağıl bir-biri ilə variant təşkil edir. Bu variantı yaradan isə nağıl söyləyən söyləyicidir ki, o nağılın süjet xəttinə əlavələr edərək dəyişiklik yaradır. Nağıl variantlarında regional xüsusiyyət də özünü göstərir. Belə ki, birinci nağılda şah qəddar, ədalətsiz kimi göstərilirsə, sonda iştirakçısı olan qız var-dövlətlə şaha sahib olur. İkinci nağılda isə şah hiyləgər, paxıl insanlara inanması nəticəsində qızı saraydan qovur və qızın dünyaya gətirdiyi oğlanın igidliyi, cəsarəti, qoçaqlığı sayəsində bütün həqiqətlər aşkar edilir və onlar yenidən şahın yanına qayıdırlar. Buna əsaslanaraq qeyd edə bilərik ki, söyləyici nağıl qəhrəmanını var-dövlətlə deyil, igidlik, mərdliklə qalib gəlməsi arzusunu ifadə etməyə çalışmışdır. Eyni zamanda, Şah Abbasa olan münasibət qəddarlıq, ədalətsizlik çərçivəsindən çıxaraq daha çox sadəlövhlük, tələsik qərar verməklə peşmançılıq hissi kimi göstərilmişdir. Hətta nağıl danışan söyləyicilərin bəzisi Şah Abbası Xıdır İlyasa bərabər tuturlar, "Xıdır kimi dadına çatır, Xıdır peyğəmbər kimi adam idi" ifadələrini yeri gəldikcə işlədirdi.

Ş.Albalıyev yazır ki, "Məişət nağıllarında hökmdar və şah obrazlarının bütün bu kimi təzadlı və ziddiyyətli cəhətlərinə baxmayaraq, peşəkar nağılçılıqda xalqın ədalətli hökmdar axtarışları geniş və intəhasızdır. Nağıllara ciddi müşahidəçi gözü il diqqət yetirdikdə məlum olur ki, rəiyyət həmişə öz hökmdarını sevib, onun ədalətinə inanıb, bu etimad doğrulmayanda məyus olub, onu ədalətə dəvət edib, tərbiyələndirməyə çalışıb, hətta bir çox hallarda buna nail ola bilmişdir " (2, 83).

Şah Abbasla bağlı topladığımız nağıllardan "Şah Abbas və çoban", "Şah Abbas və Əzrayıl" adlı mətnlər folklor antologiyalarında qeydə alınmış nağıllar içərisində bir neçə variantda rast gəlinən nağıllardandır.

Onu da qeyd edək ki, Şah Abbas xalqın yanına həmişə şah libasında yox, sadə adam-dilənçi, kəndçi, daha çox da dərviş libasında gedirdi. Ünsiyyət qurduğu insanlar da onu şah kimi yox, elə sadə adam kimi qarşılayırdı.

"Şah Abbas və qarı" nağılı da olduqca maraqlıdır. Yenə dərviş libası geyinib səyahətə çıxan şah bir qarının evində qonaq olur. "Bir gün Şah Abbas vəzir Allahverdi xanla səyahətə çıxır. Onlar gəlib bir dağın başından kəndə baxırlar. Şah görür ki, bir evdən çox zəyif bir işıx gəlir. Vəzirə deyir ki, gəl o evə gedəh. Vəzir Allahverdi xan deyir ki, şah sağ olsun, bu qədər yaxşı evlər dururkən niyə o evə gedəh? Şah da qayıdıf deyir, yox gərəh mən o evə gedəm görəm ki, kasıflar nətər yaşıyır, gün-güzaranı nətər keçir".

Bu nağılda da Şah Abbasın mərhəmətli, qayğıkeş olması, eyni zamanda ehtiyacı olanlara kömək etməsi özünün göstərmişdir. Qarı ilə söhbəti, qarının dediklərini bir-bir yerinə yetirməsi və qarı vasitəsilə xalqının necə yaşamasını öyrənib bir tədbir görməsi nağılda öz əksini tapmışdır.

Şah Abbas və vəzir Allahverdi xanla bağlı danşılan digər nağıllarda da bəzən şah vəziri sınağa çəkir, bəzən də vəzir öz ağıllı məsləhətləri ilə şahı tənbeh edir.

Bəxt, tale axtarılması motivi də Şah Abbasla bağlı nağıllarda özünə yer tapmışdır. Sakinlərdən topladığımız "Yazıya pozu yoxdu", "Allah yazanı pozmaq olmaz" adlı nağıllar digər eyni adlı nağıllarla, demək olar ki, mövzu və süjet xətti baxımından eynidir.

M.H.Təhmasib yazır ki, "Nağıl yalnız ilk baxışda insanı real həyatdan ayıraraq fantastikaya aparır kimi görünür. Əslində isə hər bir nağılda, bütün başqa ədəbi əsərlərdə olduğu kimi, bu adət və təbiətdən kənar fantastika arxasında həqiqi real həyat qaynayır" (16, 118). Nağılın xalq tərəfindən sevilməsi və geniş yayılması onda haqsızlıqların, ədalətsizliklərin dolayı yolla da olsa, deyilməsinə keçmişdə də, indidə də böyük imkanlar yaratmasıdır. "Nağıl keçmişin və hazırdakı ictimai toqquşmaların kəskin ifadəsidir" (16, 119).

Azərbaycan şifahi xalq ədəbiyyatında da "Göyçək Fatma" nağılının özünəməxsus yeri vardır. "Fatmanın inəyi", "Yetim Fatma", "Göyçək Fatma" adları ilə geniş yayılan bu nağılın əsas süjet xətti dəyişilməz olaraq qalır, lakin onların müxtəlif variantlarının oxşar və fərqli cəhətləri də ortaya çıxarır. Kəlbəcər rayonunun Comərd kənd sakini Həşimova Səmayə Ədil qızının söylədiyi "Göyçək Fatma" nağılı şifahi xalq ədəbiyyatında bir neçə variantda verilmişdir. Azərbaycan folkloru antologiyasının XII cildində (Zəngəzur folkloru) qeyd edilmiş "Göyçək Fatma", "Fatmanın nağılı" adlı nümunələr ayrı-ayrı bölgələrdən toplanmışdır. "Göyçək Fatma" Cəbrayıl rayon sakinlərindən, "Fatmanın nağılı" isə Qubadlı rayon sakinlərindən toplanmışdır. Digər bir rayon- Kəlbəcər rayon sakinlərindən topladığımız "Göyçək Fatma" adlı nağılı da buraya əlavə edə bilərik. Hər üç nağılı F.Köçərlinin "Balalara hədiyyə" kitabındakı "Göyçək Fatma" nağılı ilə müqayisə etsək, onlar arasında oxşar və fərqli cəhətləri aydın şəkildə görmək olar. Adlarını qeyd etdiyimiz nağılların hər birində ögey ana obrazı, onun iki qızının olması, qızların birinin gözəl, digərinin çirkin olması, ögey qızına-Fatmaya əzab-əziyyət verməsi, ona sehrli heyvanların-inək, xoruz kömək etməsi və sonda xoşbəxt olması bütün variantlarda oxşarlıq təşkil edir.

Qubadlı rayon sakinlərindən toplanmış "Fatmanın nağılı" adlı nümunədə isə hadisələr F.Köçərlinin nəşr etdirdiyi "Göyçək Fatma" nağılında olduğu kimi davam edir, lakin sonluğu digər nağıllardan tamamilə fərqlənir. Yuxarıda qeyd etdiyimiz nağılların hamısında nağılın qəhrəmanı olan yetim qız sonda padşahın oğlu ilə evlənir. Bu nağılda isə Fatma çobanla evlənir. Fatmanı görüb vurulan, ögey anasının əlindən qurtaran çoban olur.

Kəlbəcər rayon sakinlərindən toplanmış "Göyçək Fatma" nağılı isə demək olar ki, F.Köçərlinin "Balalara hədiyyə" kitabındakı "Göyçək Fatma" nağılı ilə eynilik təşkil edir. Digər variantlara nisbətən bu variant arasında oxşarlıq daha çoxdur. Demək olar ki, bütün hadisələr eynidir. Yalnız başqa bir söyləyicinin nəql etdiyi variantda qara inək əvəzinə qızıl inək söylənmişdir. Bunun səbəb isə nağılda inəyin rolunun əhəmiyyətli olmasıdır.

R.Əliyev qeyd edir ki, "Nağıl strukturunun əsasında mifoloji mətnlər durur. Mifoloji mətnlər özləri də miflərdən təşkil olunur. Bu miflər də növbənöv olduğundan, müxtəlif növləri əhatə etdiyindən nağıllarda da müəyyən təsnifata malik olur. Nağıl süjetlərinin əsasında duran mifoloji mətnlər irihəcmli də ola bilir, kiçik məzmun da

daşıya bilir. Bu cəhətdən nağıllardakı mifoloji mətnləri strukturca iki yerə ayırmaq mümkündür: sadə quruluşlu mətnlər, mürəkkəb quruluşlu mətnlər" (7, 46). "Göyçək Fatma" nağılı da miflərin işlənməsinə görə mürəkkəb quruluşlu mətnlərə daxil edilir. Burada qara inək, xoruz, qarı, sehrli bulaqlar və s. mürəkkəb miflər silsiləsini yaradır.

Ümumilikdə, nağılın Azərbaycan variantlarında rast gəldiyimiz "yel baba" ifadəsi və onun nağıldakı rolu da diqqəti çəkir. Dünyanın yaranmasında iştirak edən dörd ünsürün sonuncusu havadır. Azərbaycan xalqının Novruz mərasimlərindən biri də Yel çərşənbəsi adı ilə qeyd olunur. Ramazan Qafarlı göstərmişdir ki, "yel Azərbaycan mifik təfəkküründə yol göstərən, bələdçi rolunu yerinə yetirir. Yel baba (əksər hallarda əldən-ayaqdan düşmüş qarı sifətində peyda olur) qalın meşələrdə azıb mənzilini tapmaqda çətinlik çəkən xeyirxah insanların qarşısına çıxır, onlara bir yumaq verir və yumağı yerə atıb, diyirlətməyi tələb edir. Yel babanın üfürməsi ilə yumaq açılır və azmışları mənzil başına çatdırır".

Azərbaycan nağıllarının əsasını təşkil edən süjetlər, nağıl üçün işlədilən ənənəvi obrazlar sisteminə Kəlbəcər regionuna məxsus folklor nümunələrində də rast gəlmək mümkündür. Xalq yaradıcılığı məhsulu olan nağılların dili ümumxalq dili olub, xəlqiliyi ilə seçilir. M.Kazımoğlu yazır ki, "Müasir insanın nağıla inanıb-inanmaması heç də janrın poetikasına əsaslı təsir göstərə, məsələnin əsl mahiyyətini dəyişə bilməyib. Məsələnin mahiyyəti ondan ibarətdir ki, nağıllarda uydurma və həqiqəti nağıl yaradıcısı (xalq) özü müəyyənləşdirir". Bu xüsusiyyət Kəlbəcər folklorunun digər epik janrlarının, xüsusilə nağılların da əsasını təşkil edir. Nağıllarda həddən artıq uzunçuluq, sözçülük, artıq ifadələr və sözlər yoxdur. Poetiklik, bədiilik, canlılıq, səlistlik, aydınlıq və şuxluq nağılların dilinin əsas xüsusiyyətlərindəndir. Xalq dilinin bütün incəlikləri və gözəllikləri nağıllarda öz əksini tapmışdır.

ƏDƏBİYYAT

1. Abbasova A. Kəlbəcər folkloru (Kəlbəcərli sakinlərdən toplanmış nümunələr). Bakı, Azərbaycan Gənclər Fondu tərəfindən nəşr olunub, 2014, 178 s.
2. Albalıyev Ş. Azərbaycan məişət nağıllarında şah obrazı. Bakı, Təknur, 2008, 152 s.
3. Azərbaycan folkloru külliyyatı. I cild. Nağıllar (I kitab). Bakı, Səda, 2006, 400 s.
4. Azərbaycan Tarixi. I cild. (ən qədim zamanlardan XX əsrədək). Bakı, Azərnəşr, 1994, 680 s.
5. Çəmənzəminli Y.V. Əsərləri. Üç cilddə. III cild. Bakı, Avrasiya press, 2005, 440 s.
6. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı, Bakı, Maarif, 1981, 400 s.
7. Əliyev R. Azərbaycan nağıllarında mifoloji mətnlər. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. XIV kitab, Bakı, Səda, 2006, s. 46-67
8. Əliyeva Ş. Hökmdar və onunla bağlı mifik görüşlər. "Dədə Qorqud". Elmi-ədəbi toplu, IV. Bakı, Nurlan, 2012, s.87-97
9. Füzuli Bayat, Folklor dərsləri. Bakı, Elm və təhsil, 2012, 424 s.
10. Hüseynbəyli E. Şah Abbas. Roman-xronika. Bakı, Adiloğlu, 2008, 368 s.
11. Kazımoğlu M. Xalq gülüşünün poetikası. Bakı, Elm, 2006, 264 s.
12. Köçərli F. Balalara hədiyyə. Bakı, Gənclik, 1987, 104 s.
13. Qarabağ: Folklor da bir tarixdir. I c. / Toplayıb tərtib edənlər: İ.Rüstəmzadə, Z.Fərhadov. Bakı, Elm və təhsil, 2012, 464 s.
14. Qarabağ: Folklor da bir tarixdir. VIII c. / Toplayıb tərtib edən: İ.Rüstəmzadə. Bakı, Zərdabi LTD, 2014, 440 s.
15. Rüstəmzadə İ. Azərbaycan nağıllarının süjet göstəricisi. Bakı, Elm və təhsil, 2013, 368 s.
16. Təhmasib M.H. Seçilmiş əsərləri. 2 cilddə, I cild. Bakı, Mütərcim, 2010, 488 s.

AYTAC ABBASOVA

TALE VERSIONS OWNED BY KALBAJAR REGION

SUMMARY

It is an ordinary case to hear different versions of the same tales in different regions of Azerbaijan. This article dealt with about the tales collected from the people of Kalbajar region, and the versions and the role they are playing in the narrative stories system of Azerbaijan verbal literature.One of the characteristic features of thisregion stories is that, in most of them the narrative character of "Shah Abbas and Vizier Allahverdi khan" is prevailing,and also having a new narrative persona and new tale line like "Shah Sayyad".

АЙТАЖ АББАСОВА

СКАЗКИ ВАРИАНТЫ, ХАРАКТЕРНЫЕ ДЛЯ КЯЛЬБЯДЖАРСКОГО РЕГИОНА

РЕЗЮМЕ

В различных регионах Азербайджана не трудно найти различные варианты сказок. В статье повествуется о сказках, собранных из уст жителей Кяльбяджарского региона, и об их месте в системе сказок в устной народной литературе, об их вариантах. Своеобразной особенностью же сказок является преобладание сказочного сюжета, связанного с «Шахом Аббасом и везиремАллахверди ханом» и обладание таким новым сказочным персонажем, как «ШихСайяд» и наличие сказки, обладающей новой сюжетной линией.

Rəyçi: Əməkdar elm xadimi, fil.e.d., prof. Kamran Əliyev

GÜLNAR OSMANOVA
AMEA Folklor İnstitutu
gulnar.osmanova05@gmail.com

YARADILIŞLA BAĞLI KULTLAR VƏ MÜASİR NƏSR

Açar sözlər: *folklor, yazılı ədəbiyyat, inanc, kult, yaradılış, mifoloji düşüncə*
Key words: *folklore, written literature, belief, cult, creation, mythological thought*
Ключевые слова: *фольклор, письменная литература, вера, культ, зарождение, мифологическое мышление.*

Hər bir folklor materialının yaranmasında bədii xalq təxəyyülünün məhsulu olan mifik dünyagörüş böyük rol oynayır. Mifoloji düşüncədə qavranılan anlayışlar, inamlar dövri xarakter daşıyır. Bu düşüncə tipində hər şey – kultlar, inanclar və s. zamana tabedir. Təbiətlə bağlı olan bu kultlar, inamlar mifopoetik formada təbii obyektlərin üzərinə köçürülür. Mifoloji düşüncənin obyekti dağ, daş, çay, su, ağac və s. bilavasitə təbiətin özüdür. Odur ki, xalqın ibtidai təfəkkür və təsəvvürlərindən yaranan bir çox inamlar əsrlər boyu nəsildən-nəslə keçərək yaşamış, öz varlığını bu günə kimi qoruyub saxlamışdır. Oda, suya, ağaca, bitkiyə tapınan ulularımızın bəzi inamları hələ də yaşamaqdadır. Əski Azərbaycan, Altay və başqa türkdilli xalqların mifoloji inamında su, dağ, ağac, od-işıq kultu geniş yayılmışdır.

Azərbaycan folklorunda da ağacla bağlı motivlər, xüsusən alma ağacı ilə bağlı nümunələr çoxdur. Burada alma ağacı qədim həyat ağacına bənzəyir. Nağıl və dastanlarımızda alma ağacı həyat bəxş edən qüvvə kimi çıxış edir. Azərbaycan folkloru antologiyalarında müxtəlif ağaclarla bağlı inanclara rast gəlinir. Məsələn, IV kitab olan "Şəki folkloru"nda aşağıdakı inanclar verilmişdir: "Qoz ağacı ümidsizlikdir. Nar, alma, armud dilək ağaclarıdır. Onları becərən xeyir tapar. Nar həm də sağalmaz dərdin dərmanıdır. Çinar uzaqgörənlikdir. İlğım, söyüd sonsuz sayılır. Heyva bədnəzər, göz ağacıdır" (2, 91-92). Ağacın kölgəsində yatmaq pis əlamət sayılır. O adamı cin vura bilər (2, 78). Gecə qoz və əncir ağacının altında yatmazlar (2, 80). Körpə heyva ağacını göy vaxtı kəsməzlər. Deyərlər ki, qarğışa düşərsən (3, 35). Şər vaxtı ağac altına getmək olmaz. Deyərlər ki, adama sədəmə toxunar (1, 55).

Xalqımızın çoxəsrlik mənəvi mədəniyyətinin tərkib hissələrindən biri olan folklorumuzda ağacla bağlı çoxlu atalar sözləri və məsəllər də var. Məsələn, ağacın barı ona yük olmaz. Yeni ağacın barı az olur, kölgəsi çox (5,114); Bar gətirən ağaca balta çalmazlar (5, 186); Ağac səmtinə yıxılar (4, 219); El söyən ağac quruyar (4, 310).

Yenicə yeriməyə, dil açmağa başlayan uşaqların paltarlarının çiyninə dağdağan ağacından bir parça tikilir, yaxud biləyinə iplə bağlanır ki, bu da uşağı pis gözdən qoruyurdu. Dağdağan olmasa, bunu heyva ağacı əvəz edirdi. İnsanlar inanırdılar ki, heyva ağacı insan bədəninə daxil olan müxtəlif ruhları bədəndən çıxarıb qovur və insan əvvəlki halına qayıdır, sağlamlığına qovuşur (4, 20).

Bütün bunlar göstərir ki, insanlar müqəddəs saydıqları, tapındıqları ağacların kiçik bir hissəsini üstlərində gəzdirməklə bəd ruhları uzaq salacaqlarına inanmışlar.

Belə ki, dağdağan əski türklərin tapındığı, sitayiş etdiyi müqəddəs ağaclardan olmuşdur. Azərbaycanda qələmə alınmış yaradılış əsatirinə görə yer üzərində bitən ilk yeddi ağacdan biri məhz dağdağandır. El arasında bu ağacla bağlı yaşanan inamlar da dağdağana bəslənilən münasibəti əks etdirir.

Fil.ü.f.d., dos. Afaq Xürrəmqızı yazır ki: "Orta Asiyada bütün qoruyucu həmayillərə verilən ümumi adlardan biri "dağdağ"dır. Ehtimal ki, bu ad dağdağanın təhrif edilmiş formasıdır" (12, 17).

Ağacla bağlı inamlara müasir nəsr nümunələrində də rast gəlinir. Məsələn, Sabir Əhmədovun "Yasamal gölündə qayıqlar üzürdü" əsərində müəllif Cəmilənin dilindən deyir: Anam axır çərşənbəyə inanırdı. Deyirdi ki, bayramdan qabaq axırıncı çərşənbədə gecə, gecənin hansı vədəsindəsə bütün ağaclar başlarını endirib üç dəfə yerə vururlar. Haman anda kim bunu görsə, ağaclar üçüncü dəfə yerə səcdə qılanda nə arzu etsə, mütləq istəyinə çatacaq" (9, 10).

Qeyd edək ki, ağacla bağlı motivlər daha çox Azərbaycan şifahi xalq ədəbiyyatının min illik yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanında mövcuddur. Eposda ağac kultuna əcdad mifi səviyyəsində yanaşıldığı görünməkdədir. Qədim türklərin mifoloji dünyagörüşündə ağac ilkin həyati başlanğıc hesab edilir və ona xüsusi ehtiram ifadə edilərək sakral münasibət bəslənilirdi. "Basatın Təpəgözü öldürməsi" adlanan səkkizinci boyda Basat Oğuz elinə qənim kəsilən Təpəgözə öz əsil-kökünü xatırladaraq belə deyir:

" Atam adın sorar olsan-Qaba ağac!
Anam adın deyərsən Qoğan aslan!
Mənim adım sorarsan-Aruz oğlu Basatdır" (13, 116).

Bununla da oğuz igidi olan Basat öz nəsil şəcərəsinin bir ucunun Qağan aslana, digər ucunun isə Qaba ağaca söykəndiyini bildirir. Türkiyəli araşdırıcı Mətin Ərqun qeyd edir ki, əski türk etiqadına görə xaqanlar və bəylər bu dünyaya Tanrı tərəfindən ağac yolu ilə göndərilmişlər. Bu sözləriylə Basat da özünün mübarək üzlü müqəddəs ağac yolu ilə Cənnətdən, dolayı olaraq Tanrıdan gəldiyini deyir (11, 10). Eposun ikinci boyu olan "Salur Qazanın evinin yağmalanması"nda düşmənə əsir düşən Uruzun asılacağı ağacla danışması oğuz türkləri arasında ağacın canlı, diri bir varlıq kimi təsəvvür edilməsi düşüncəsinin mövcudluğundan xəbər verir. Qoyun məni bu ağacla söyləşim – dedi, çağırıb ağaca söyləmiş, görəlim Xanım, nə söyləmiş:

- Ağac, ağac dersəm sana ərlənmə, ağac!
Məkkə ilə Mədinənin qapısı ağac.
Musayi-kəlimin əsası ağac!
Böyük-böyük suların körpüsü ağac!
Qara-qara dənizlərin gəmisi ağac!
Məni sana asarlar, götürməgil, ağac!
Götürəcək olursan yigidligim səni dutsun, ağac! (13, 39)

Buradan göründüyü kimi, oğuzlar ağaca olan ilkin inamı unutmamış, onun deyiləni başa düşən olmasını zənn etmişlər.

Əski Azərbaycan, Altay və başqa türkdilli xalqların etnik-mədəni ənənəsinə görə ağac kultu ata və ana başlanğıc kimi dəyər qazanmışdır. Ağac türk tanrıçılıq sistemində Göy-Tanrının rəmzlərindən biridir və o, bir sıra etnoqonik miflərdə ilk ana kimi xatırlanır. Prof. F.Bayat qeyd edir ki, türk mifoloji sistemində göl ortasında ağac yerin simvolu kimi çıxış edir. Oğuzun ikinci arvadını göl ortasındakı ağacın içindən tapması bir daha təsdiq edir ki, ikinci qız mifoloji yer ananın qızıdır (6, 148). Ona görə də türklər tarixən müxtəlif ağaclara ("Bay terek", "Temir kavak" və ya "Həyat (Dünya) ağacı" deyilən mübarək üzlü övliya ağacı) tapınmış, onlara sevgi və ehtiramla yanaşmışlar. Türk ənənəsində müqəddəs ağacın kiçik bir budağını belə kəsməyə heç kim cəsarət göstərməz. Azərbaycanlıların inamına görə türbə, məzar başında olan

ağaclar müqəddəs bilindiyindən qətiyyən yandırılmazdı. Ümumiyyətlə, ağac kəsmək ənənəvi təsəvvürlərə görə günah sayılmışdır. Türk mifoloji sözlüyündə deyildiyi kimi, Azərbaycan dekorativ-tətbiqi sənəti nümunələrindən hər hansı birinin kompozisiyasında da ağac artım, həyatın başlanğıcı ideyasının rəmzi kimi mərkəzi yer tutmuşdur (7, 19). Ağacla bağlı inamlar Azərbaycanda da çox geniş yayılmışdır. Barlı-bəhrəli olsun və ya bir neçə il bar verməyən ağacı məhsul gətirsin deyə türk xalqlarında, o cümlədən azərbaycanlılarda ağac qorxutmaq və başqa adlarla bilinən adətlər vardır. Bu adət Mövlüd Süleymanlının "Armud ağacının nağılı" hekayəsində belə verilmişdir: Mahmud kişinin həyətindəki armud ağacı çiçəkləmədiyi üçün o, ağacı qorxutmaq fikrinə düşür və inanır ki, bununla ağac tumurcuqlayacaq. Elə olur. Buradan da göründüyü kimi, ağaca bir canlı obraz kimi yanaşılır və əsərin sonunda onun çiçəkləməsi şərəfinə şadlıq məclisi də təşkil olunur.

Yuxuda çiçəkləyən ağac görməyin dünyaya uşaq gələcəyi şəklində, yıxılan ağac görməyin isə ölümün əlaməti kimi yozulması da ağacla bağlı əski etiqadlardandır. Ağac pirlərin olması, niyyət edilərək onlardan parça asılması da bu etiqadlar sırasındadır Qədir gecələrində isə mifik inama görə, sular dayanar, ağaclar isə səcdəyə gələr... bundan başqa Novruz mərasimlərinin bir çoxu, səməni göyərtmək və s. dirilik, məhsuldarlıq, əmin-amanlıq ideyalarının rəmzi olan həyat ağacı ilə bağlıdır. Türk etnik-mədəni ənənəsində hər bir ağacın bir canlı varlıq olduğuna etiqad edilmişdir. Odur ki, çinar, söyüd, alma, nar, qoz və s. ilə bağlı simvolların dünya (həyat) ağacının əsrləri keçib gələn rəmzi pöhrələri olması fikri yaranmışdır. Ağac (söyüd, qarağac, palıd, küknar, pişpişə) kultu, bitki simvolu türk mədəniyyətinin mühüm anlayışıdır. Ağac, bitki aləmiylə ruhsal vəhdət, insanın, nəslin, soyun, icmanın nəbatatla bağlılığı türklər qədər heç bir xalqda izlənmir. Ağac simvolu türk əsatir və folklorunun, etnoqrafiyasının, xalq sənətinin özəyini təşkil edir. Bu obraz Azərbaycan incəsənətində, təsviri sənətdə və xalçaçılıqda da ən kamil ifadəsini tapmışdır. Azərbaycan xalçaçılığında işlədilən ən yetkin və parlaq nəbati naxışlardan olan "buta" dünyanın ahəngdarlığını və estetikliyini, həyati başlanğıcın təbiiliyini və əbədiliyini, kainatın vəhdətini, dirilik, artım ideyalarını təcəssüm edir.

Xalq arasında geniş yayılmış inancların bir qismi türklərin tapındığı ilkin təbiət varlıqlarından biri olan dağa pərəstişlə bağlıdır. Bu inamlardan biri ilə müasir Azərbaycan nəsrinin görkəmli nümayəndəsi Elçinin "Mahmud və Məryəm" romanında qarşılaşırıq. Əsərdə dağ əyəsi Dağlı arvad adlanır. Qeyd edək ki, dağ ruhunun qadın olması ilə bağlı inamlar bir çox türk xalqlarının folklorunda və mifologiyasında mövcuddur. Dağa pərəstiş mifoloji düşüncədə onun kosmoqoniya, yəni yaradılış ilə bağlı obrazını yaratmışdır. Dağın kosmoqonik görüşlərə daxil olması onun əcdad kimi təsəvvür olunduğunu göstərir. İnamlara görə dağ yaradıcı başlanğıcdır. "Oğuz Kağan" dastanında bunun şahidi oluruq. Belə ki, Oğuzun oğlanlarından birinin adı Dağ xandır ki, o da Oğuz etnosunun yaranmasında birbaşa kosmoqonik başlanğıc kimi iştirak edir. Prof. C.Bəydilinin dediyi kimi, "mifopoetik dünya modelində dağ dünyanın öz obrazıdır. Kosmik nizamın bütün parametrlərini özündə əks etdirən dağ dünyanın tam mərkəzində ucalan sakral güc qaynağıydı və ulu başlanğıc, kök, soyun əsası, ana yurdun rəmzi kimi qavranırdı. Bu mənada dağlara tapınma türk kosmoqonik görüşlər sistemində də əhəmiyyətli yer tutmuşdur" (7, 87). Azərbaycan türk folklorunda "Alvız" deyilən dağ ana obrazı var. Bu dağ əyəsidir.

Görünür, xalqımızın folkloruna, onun mifoloji təfəkkürünə yaxından bələd olan Elçin bu obrazı əsərdə verməklə onu daha zənginləşdirmişdir. Əsərdə oxuyuruq:

"Mahmud bu sözləri deyə-deyə atın başını döndərib çapdı. Çaldıran düzündən uzaqlaşdı, amma elə bil Dağlı Arvad dağlardan enib Çaldıran düzünə gəlmişdi – Mahmudun sözləri qarğa-quzğunun səsi ilə bir müddət əks-səda verdi" (8, 324). Əfsanəyə görə əks-sədanı verən də məhz dağlarda yaşayan gözəgörünməz qadındır.

"Dədə Qorqud kitabı"ndan da bəllidir ki, oğuzlar dağlara hiss və duyğuları olan bir varlıq kimi yanaşır, onlarla danışır, dağlara dua edir, and içir və salam verirdilər. Məsələn, "Dirsə xan oğlu Buğac boyu"nda Buğacın anası oğlunu yaralı görəndə sanki Qazılıq dağını günahkar bilərək ona qarğış edir.

Aqar sənin suların, Qazılıq dağı
Aqar kibi, aqmaz olsun!
Bitər sənin otların, Qazılıq dağı,
Bitər ikən, bitməz olsun!
Qaçaq sənin keyiklərin, Qazılıq dağı,
Qaçaq ikən qaçmaz olsun, daşa dönsün! (13, 42-43)

Xalq arasında geniş yayılmış inamların bir qismi də su ilə bağlıdır.Türk mifologiyasında su əbədi başlanğıc olan xaosu bildirməklə yanaşı, özündə yaradıcı başlanğıcı birləşdirən bir mifologemdir. Su o biri dünyanın, əcdadlar səltənətinin stixiyasıdır. Su ayrıca kult olmaqdan əvvəl insan törənişinin müqəddəs ünsürüdür. O, öz ətrafında silsilə etiqadlar və mərasimlər sistemini yaratmışdır. Su hətta ilin axır çərşənbələri sistemində ayrıca, həm də ilk bayram törəninin başlanğıcıdır. Çərşənbələrin birinin – özü də birincisinin su kultu ilə bağlılığı təsadüfi deyildir. Bu çərşənbə əslində bütün yaz mərasiminin onunla bağlı olma ehtimalını doğurur. Həmin mülahizə bir sıra türk qaynaqlarında Xızırla əlaqələndirilir, onun yaşıllıq, bərəkətgətirmə funksiyaları ilə çuğlaşma mərasimindən xəbər verir.

Azərbaycan folklorunda su ilə bağlı bir çox inanclar mövcuddur. Məsələn, "İnsan sudan keçəndə salam verməlidi. Yoxsa su əyəsi, adama zəfər toxuyar (1, 46). Uşağı qırxdan çıxartmaqdan ötrü oturdurlar qara parçanın üstünə. Başına qırx üskük su tökürlər (1, 53). Evdən səfərə çıxan adamın arxasınca su atmaq – salamatlıq əlamətidir (3, 37). Kasanın içinə sü töküb iynə atarlar. İynə suyun ortasında dayanarsa, niyyət yerinə yetirmiş, yox dayanmırsa, yerinə yetməzmiş (4, 16). Süfrəyə su dağılması aydınlıqdır (4, 82). Su dolu qabla qabağına çıxsalar, işin avand olar (4, 82). Yazda birinci dəfə sel gələndə selin qabağından kim su doldurub içsə, hər dərdi sağalar, deyərlər (1, 54).

Suyun müqəddəsliyi, hətta onunla təmas qura bilmək inamı geniş yayılmışdır. Sudan dilək diləmə, pay alma ilə bağlı müxtəlif rəvayətlər mövcuddur. Nağıllarda suyun insanla danışması, suyun yatması, çərşənbə gecəsində xüsusi möcüzəyə malik olması və s. inamı vardır. Xalq arasında olan inama görə, çərşənbə gecəsi sular dayanır: «Bir arvad çərşənbə gecəsi səhərə çox qalmış səhəngi götürüb çaya su dalınca gedir. Səhəngi nə qədər basır, səhəng suya batmır. Sən demə su yatıbmış. Arvad qayıdıb evə gəlir. Sonra bir də gedir. Görür ki, su şırha-şırla axır. Səhəngi doldurub qayıdır».

Xalq arasında su ilə icra edilən qorxuluq salma ritualı da mövcud olmuşdur. Deyilənə görə, əgər bir adam, yaxud uşaq qorxursa, onun qorxuluğunu salmaq üçün harda qorxubsa, həmin yerdə başına bir çərqad və yaxud salafan salıb qırxlayırlar. Qırxlayarkən bu sözü yeddi dəfə deyirlər:

Bir, iki, üç, dörd, beş, altı, yeddi.
Qada-bala bizdən getdi, -
deyib, suyun bir azını başından aşağı tökürlər (5, 23).

Bundan başqa biz su ilə icra edilən bir vəsf-halın həm Azərbaycan folkloru antologiyasının IX kitabında, həm də eynilə İ.Şıxlının "Dəli Kür" əsərində verildiyinin şahidi oluruq: "Axır çərşənbə gecəsində kasaya bir az su töküb içərisinə bir ucuna pambıq dolanmış iki iynə salırlar. Əgər iynələr yaxınlaşsa, ürəyində niyyət tutan adam tezliklə öz sevgilisinə qovuşacaqdır- deyərlər".

Folklora, xalqımızın əsrlərin süzgəcindən süzülüb gələn yaradıcılığına, adət-ənənələrinə dərindəndən bələd olan İ.Şıxlı romanda suya salınmış iynə ilə bəxt sınamaq mərasimini belə vermişdir: "Pakizənin xalası iri bir siniyə plov çəkdi. Taxtın üstünə qoydu. Qızlar sininin ətrafında hərləmə bardaş qurub oturdular. Heç beş dəqiqə keçmədi ki, sini boşaldı. Süfrəni yığışdırdılar. Qızlardan biri gülə-gülə iri bir badyanı su ilə doldurub ortalığa qoydu.

- Gəlin iynəlik salaq.

Onlar iki iynə götürdülər. Uclarına pambıq doladılar. Sonra Pakizənin xalasına üz tutdular.

- Ay xala, sən de, bu iynə kimin olsun?

Arvad qızlara xeyli baxdı. Gözünü yaşı on altını ötmüş Fatmaya zillədi:

- Qoy onun olsun, hamınızdan böyükdür, - dedi. - Oğlanı da özünüz bilərsiniz.

Qızlar iynələri suya saldılar. Pakizə də onlara qoşuldu" (16, 190).

Mifoloji ənənələrdə insanı bir varlıq kimi digər canlılar aləmindən ayıran başlıca bir əlamət də oddur. Mif mətnlərində odun mədəni qəhrəman tərəfindən oğurlanaraq insanlara verilməsi motivi geniş yer alır. Türk etnik-mədəni ənənəsində od bir övliya bərabərində sayılan qüvvətdir. Od qalanan yer müqəddəs bilinmişdir. Altay miflərinə görə ilk odu böyük Ülgen-Bay Ülgen yandırıbmış. Ocağı da elə o qalayıb insanlara veribmiş. Türklərdə isə odun Od ananın göy yerdən ayrıldığı zaman yaranmış olduğuna inanılmışdır. Türkiyəli alim Bahəddin Ögəlin dediyi kimi, "belə məlum olur ki, türklər od mədəniyyətini çox qədim dövrlərdə tanımışlar. Sibirdəki qonşuları isə bu nöqtədə türklərdən geri qalmışlar. Odu tanıyan və onu insanlıq üçün faydalı bir istiqamətə yönəldən Orta Asiyanın mədəni türk qövmləri bu bölgələrə yayıldıqca mədəniyyətlərini də özləri ilə aparmışdılar" (14, 68).

Mifoloji materiallardan da məlum olduğu kimi, odun, ocağın bir sahibi, qoruyucu ruhu, yəni əyəsi var. Odur ki, odla bağlı inanclar bu günümüzə kimi qorunub saxlanmışdır. Azərbaycanın müxtəlif regionlarında bu tipli inanclarla tez-tez rastlaşırıq: Ocağa tüpürmək, üstünə su tökmək, ya da ayaqlayıb söndürmək olmaz. Yoxsa ocaq sahibinin acığına gələr, bundan da insana zərər dəyər (5, 15). Ocağı su ilə söndürməzlər, ocaqda məleykə var (2, 81). Evdən öz çırağını qonşuya vermək, pis əlamətdir (3, 38). Ocaqdan gecə vaxtı isti kül tullamazlar, guya cin, şeytanların ayağı yanar, sənə xətər toxunar (4, 18).

Məsələn, "Ağ dəvə" romanında belə bir ifadə var: "Od ki, gecə his elədi, bu o demək idi ki, gecə evə şeytan gələcək" (8, 110). Yaxud başqa bir nümunədə yazıçı Ələkbərin dilindən belə bir inanc verir: "Mən həyətimizdəki krantdan təzə su götürməkçün çaynikin dibindəki qaynar suyu yerə tökəndə, anam qışqırırdı: " – Tökmə, tökmə isti suyu yerə! Tökülər cinin üstünə yandırar, xataya düşərik!.." (8, 72).

Ümumiyyətlə, Azərbaycan folklorunda Günəş və Ayla bağlı xeyli əfsanələr də var ki, bu nümunələr Günəşə tapınmanın qədim tarixi köklərə malik olduğunu göstərir. Bir çox xalqlarda olduğu kimi Azərbaycanlılarda da Günəş Tanrısı – şüa, zoomorfik onqon və insan kimi təsəvvür edilmişdir. Günəşin mifləşdirilməsi, Günəş tanrısına inam şübhəsiz ki, onun təbiətin məhsuldar qüvvəsinin başlanğıcı olması ilə bağlıdır. Bu,

günəşli günlərin insanların həyatında mühüm yer tutduğunu göstərir. Doğrudan da, Gün işığı olmadan bioloji varlıqların yaşaması və artması mümkün deyildir. Günəşin mifologiyada hansı obrazda çıxış etməsindən asılı olmayaraq o, müəyyən dərəcədə o biri dünyanı işıqlandırmışdır. Türk xalqlarının miflərindən məlumdur ki, günəş onlarda artımın, yaradılışın başlanğıcı sayılır və bu səbəbdən günəş və onun yerdəki əlaməti olan od da müqəddəs sayılmış, onunla əlaqədar mifik inamlar yaranmışdır.

Bunun nəticəsidir ki, müasir çağda da "Od haqqı", "İşıq haqqı", "Ocaq haqqı", "Günəşə and olsun", "O ocağa kor baxım ki" və s. tipli inanc və andlarımız öz aktuallığını, əhəmiyyətini itirməmişdir. Bunun ən bariz nümunəsi isə Od çərşənbəsi rituallarında, mərasim və oyunlarımızda özünü qabarıq büruzə verir.

Məsələn, "Dəli Kür" romanında belə bir səhnə var:"Yaxındakı həyətlərdən birində tonqal yandırdılar. Onun dalınca bütün qonşular tonqallara od vurdular. Kənd şəfəqlərə qərq oldu. Cavanlar lopaları yandırıb damların üstünə sancdılar. Oğlanlar neçə gündən bəri hazırladıqları fişəngləri mazuta buladılar. Üstünə bir az neft çiləmdilər, od vurdular. Fişənglər alovlandı" (16, 188). Buradan göründüyü kimi, Novruz bayramında şam yandırmaq, tonqal qalamaq və fişəng atmaq xalqımızın qədim etiqadları ilə bağlı adətlərdən biridir. Yaradılışla bağlı dörd ünsürdən biri olan od müqəddəs sayılmışdır. Ona görə ki, bahara doğru günəş yavaş-yavaş torpağı qızdırır, isindirir, onu yaratmaq üçün hazırlayır. Odur ki, axşam vaxtı qaranlıq düşəndə bütün el-obada tonqallar qalanır. Tonqalların üstündən hər kəs ənənəyə uyğun olaraq üç dəfə hoppanmaqla köhnə ilin azar-bezarının elə köhnə ildə də qalmasını arzulayır.

Beləliklə, hər bir xalqın tarixi onun keçmiş olduğu ictimai-siyasi proseslərdə əks olunur. Tarixdə elə bir millət tapmaq çətindir ki, onun soykökünün, etnik-milli təfəkkürünün söykəndiyi hikmətli dəyərlər olmasın. Bu dəyərlər sistemi onun sonradan mənəvi cəhətdən inkişaf etməsinə, digər xalqlar arasında öz yerini tutmasına kömək edir. Prof. Kamran Əliyevin dediyi kimi: "Hər hansı bir folklor mətni xalq tərəfindən yaradılırsa və xalq həmin mətndə öz təfəkkür tərzini ortaya qoyursa, həmin xalqın sənətkar nümayəndəsinin qələmə aldığı bədii əsərdə də folklor nümunəsində müşahidə olunan müəyyən cizgilər özünü kifayət qədər büruzə verməlidir" (10, 122).

Sözügedən əsərlərdə olan ayrı-ayrı motiv və situasiyaların təhlili də göstərir ki, folklor elementləri tarixi fakt və hadisələrlə birlikdə bədii elementlərə çevrildikdə onlar yeni ideya-estetik yük daşıyır, əlavə mahiyyət kəsb edir. Yəni müəllif xalq psixologiyasının təsvirinə yer verərək əsərə yeni ruh verir və onu daha da koloritli edir.

ƏDƏBİYYAT

1. Azərbaycan folkloru antologiyası, I kitab, Naxçıvan folkloru. Bakı, "Sabah", 1994, 388 s.
2. Azərbaycan folkloru antologiyası, IV kitab, Şəki folkloru, I cild. Bakı, "Səda", 2000, 498 s.
3. Azərbaycan folkloru antologiyası, XI kitab, Şirvan folkloru. Bakı, "Səda", 2005, 443 s.
4. Azərbaycan folkloru antologiyası, XIII kitab, Şəki-Zaqatala folkloru. Bakı, "Səda", 2005, 550 s.
5. Azərbaycan folkloru antologiyası, XXIII kitab, Naxçıvan örnəkləri, II cild. Bakı, "Elm və təhsil", 2012, 332 s.
6. Bayat F. Oğuz epik ənənəsi və "Oğuz Kağan"dastanı. Bakı, "Sabah", 1993,194s.
7. Bəydili C. (Məmmədov). Türk mifoloji sözlüyü. Bakı, "Elm", 2003, 418 s.

8. Elçin. Seçilmiş əsərləri. Bakı, "Avrasiya Press", 2005, 424 s.
9. Əhmədov S. Yasamal gölündə qayıqlar üzürdü. Romanlar. Bakı, "Yazıçı", 1984, 312 s.
10. Əliyev K. Romantizm və folklor. Bakı, "Elm", 2006, 160 s.
11. Ərqun M. Türk ağac kultunun Dədə Qorqud oğuznamələrindəki izləri// "Dədə Qorqud" jur., Bakı, "Nurlan", 2002, № 1, s. 3 -17
12. Xürrəmqızı A. Azərbaycan mərasim folkloru. Bakı, "Səda" nəşriyyatı, 2002, 210 s.
13. Kitabi-Dədə Qorqud Ensiklopediyası 2 cilddə. I cild. Bakı, "Yeni nəşrlər evi", 2000, 623 s.
14. Ögəl B. Türk mifologiyası. I cild. Bakı, "MBM", 2006, 626 s.
15. Süleymanlı M. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006, 480 s.
16. Şıxlı İ. Seçilmiş əsərləri: İki cilddə. II cild. Bakı, "Azərnəşr", 1986, 480 s.
17. Мифы народов мира: Энциклопедия. В 2 т. / Под ред. С.А.Токарева. – Репринтное изд. - М.: Большая Российская энциклопедия, Дрофа, том 2, 2008, 720 с.
18. http://unyezile.com/seyhahmet.htm

ГЮЛЬНАР ОСМАНОВА

КУЛЬТЫ СВЯЗАННЫЕ С ЗАРОЖДЕНИЕМ И СОВРЕМЕННАЯ ПРОЗА

РЕЗЮМЕ

В статье исследуются фольклорные мотивы в современной азербайджанской прозе. Как известно, в мифологической вере тюркских народов широко распространены культ воды, горы, дерева, огня-света. Такие веры, связанные с культом природы встречаются и в образцах письменной литературы. Исследование посвящена анализу этих вер, встречающихся в фольклоре и в произведениях таких представителей нашей современной прозы как И.Шыхлы, Анар, Эльчин, С.Ахмедов.

GULNAR OSMANOVA

THE CULTS DEALING WITH THE CREATION AND MODERN PROSE

SUMMARY

In the article the folklore motives are investigated in modern Azerbaijan prose. As you know, the cults of water, mountain, tree, fire-light are widespread in the mythological belief of the Turkic peoples. Such beliefs dealing with the cult of nature are found in the samples of the written literature. The investigation is dedicated to the analysis of the beliefs which found in folklore and in the works of the representatives of our modern prose like I.Shikhli, Anar, Elchin, S.Ahmedov.

Rəyçi: Kamran Əliyev
Əməkdar elm xadimi, fil.ü.e.d., prof.

MÜNDƏRİCAT

Rəhman Quliyev. Müasir türk dillərinin alınma leksikasına bir baxış.....3
Sevda Ağayeva. V.Skottun "Ayvənhəu" romanında işlənmiş latın dili söz, idarə və cümlələrin dövrün milli-tarixi koloritinin yaradılmasında rolu və onların tərcümə problemi 10
İlahə Məmmədova. İngilis dilində prefikslər vasitəsilə sözdüzəltmə.....16
Fil.f.d. Nuriyyə Əliyeva.
Könül Fərəcbəyli. Dil materiallarının tədrisinə dair bəzi qeydlər.....22
Nəcəfova Təranə. Xarici dil mətnləri üzərində işin təşkilinə dair bəzi tövsiyyələr 28
Gülnar Axundova. Zaman bildirən sözlərin semantik funksiyaları.....33
F.e.n., Sevil Əliyeva. Developing the skill of asking and answering questions 38
B/m. Mətanət Paşayeva. Təlim prosesində öyrənmə və öyrətmə fəaliyyətinin nəzəri əsaslarına dair bəzi qeydlər 43
Qahirə Zeyniyeva. İbtidai siniflərdə leksik və qrammatik şəkilçilərin tədrisi prosesində fəal/interaktiv təlim metodlarindan istifadə.....48
İradə Cəfərova. İngilis həyat tərzinin idarəçilik, rəsmi-işgüzar dairələrində siyasi-diplomatik üslubiyyətin işlənməsində əsas meyarlar 56
Sevinc Şahlarova.
Kəmalə Hüseynova. İngilis dilindən Azərbaycan dilinə tərcüməsi prosesində optimal variantın tapılması və onun ifadə üsulları.....61
Sevinc Quliyeva. Omonomliyin köməkçi nitq hissələri sistemində tutduğu mövqe və onların qarışılıqlı əlaqəsi.....66
Dürdanə Vəkilova. İngilis və Azərbaycan dillərində əksmənalı sözlərin təsnifi və onların leksik-semantik xüsusiyyətləri.....71
Rəfiq Cəfərov. Ümumi dilçilik sistemində morfoloji yolla söz yaradıcılığının bəzi məsələlərinə dair.....76
Nailə Hacıyeva. Müasir ingilis ədəbi dilinin söz yaradıcılığında omonimlərin yeri 81
Rəsmiyə Babayeva. İngilis dilində sərbəst söz birləşmələrinin tədqiqi tarixi.....86
İradə Abdullayeva.
Nübar Tağıyeva. Azərbaycan və ingilis dillərində termin yaradıcılığında leksik-semantik və morfoloji xüsusiyyətlərin tədqiqi.....91
Rəna Hüseynova. Ümumi dilçilik elmində frazeologizmlərin tutduğu mövqe və dilçi alimlərin rəy və mülahizələri 96
Çiçək Bədəlova. Boloniya təhsil prosesində kredit sistemi üzrə xarici dilin tədrisinin aparılması prinsipləri 101
Gülnar Nağıyeva. Müasir ingilis dilində leksik və qrammatik yolla söz yaradıcılığı və onun Azərbaycan dilində ifadə üsulları.....106
Aytən Hüseynova. İngilis və Azərbaycan dillərində mətndaxili cümlələr arasında əvəzliyin rolu və əhəmiyyəti 112
Ruhiyyə Əhmədova. Sovet dövründə nəşr olunan ensiklopedik lüğətlərdə ingilis və başqa avropa dillərinə məxsus söz və terminlərin ifadə üsulları 117

Ülviyyə Dadaşova. Termin yaradıcılığında leksik və morfoloji üsullardan istifadə edilməsi 122
Safura İbrahimova. İngilis dilində bəzi qramatik materialların tədrisi metodikası 127
Səbinə Məmmədova. İngilis və Azərbaycan dillərində feilin gələcək zaman növləri, feilin şəkilləri və feili xəbərin sintaktik-funksional xüsusiyyətləri 132
Nailə Qasımova. Morphological structure of languages 138
Səkinəxanım Bilalova. Language teaching methods 144
Bəhmənli Z.F. Ənənəvi dərsdən fəal dərsə 150
Zəhra Qəhrəmanova. Xarici dilin tədrisində dioloji nitqin öyrədilməsinə dair bəzi qeydlər 156
Sevər Orucova. The process of english teaching and its history in unec 161
f.ü.f.d. Nahidə Həsənova. Müasir Azərbaycan dilində -çılıq şəkilçisinin işlənməsinin qanunauyğunluğu 167
Mirvari Qasımova. Antonimlərinin zidiyyətin dərəcəsi baxımdan təhlili 173
Aytən Əhmədova. Azərbaycan dilində qoşmaların sintaktik mövqeyi 178
Əlvan Cəfərov. Ağdam rayonu dialektlərində səs artımı və səs düşümü hadisəsi 183
Aysel Məmmədli. Konstativ və performativ cümlələr 188
B/m. Nübar Qasımova. Fransız dilində obyekt və kontaktsız sözönülərinin işlənmə şərtləri haqqında 193
Dürdanə Əliyeva. Onomastik vahid konsepti 199
Xəyalə Mustafayeva. Ərəb ədəbi dilində rəng və fiziki nöqsan bildirən sifətlərin semantik xüsusiyyətləri 207
Gülşən Cümşüdova. Basic language skills 217
Günel Süleymanova. İngilis dilində əmr cümlələrinin səciyyəvi xüsusiyyətləri 222
Бабаев Дж.М. Интонация как прагматический компонент семантической структуры высказывания 229
Уклейн Диана Юрьевна. Перевод заголовков технических статей 234

ƏDƏBİYYATŞÜNASLIQ

Агаверди Халилов. Межрелигиозные отношения в огузском обществе средних веков: тенгрианство и ислам (на материале огузских письменных памятников)....234
İsmayıl Ağayev. H.Cavidin "Xəyyam" faciəsində şəxsiyyət və zaman münasibətləri....246
Махира Кулиева. Классическая литература на стыке современности....251
Siracəddin Hacı. Nizami Gəncəvinin ədəbi kimliyi....267
Phd. Vazeh Əskərov. La litterature azerbaïdjanaise de l'emigration....275
Чичек Эфендиева. «…Убуди жирня времена» и «… дажьбог»....280
Günel Əliyeva. "Kitabi-Dədə Qorqud" dastanlarının dilində işlənən fars mənşəli sözlərin quruluşca növləri....286
Şəbnəm Məmmədova. Bronte ailəsi fenomeni....291
Günel İsmayılova. Şarlotta Brontenin "Ceyn eyr" əsərinin psixoloji təhlili....298
N.S.Məsumzadə. İmadəddin Nəsimi yaradıcılığında insana münasibətin bədii əksi....303
İlahə Xantəmirova. Mirzə bala Məhəmmədzadənin "Qadınlara hürriyyət" məqaləsində qadın azadlığı problemi....309
S.R.Səmədova. Müstəqillik illəri roman janrında tarixi şəxsiyyətlərin bədii təsviri....315
A.R.Əliyeva. Yusif Balasaqunlunun "Qutadğu-bilig" poeması bir siyasətnamə kimi....320
Gülnar Hüseynova. Yazıçı-tərcüməçi Cahanbaxş və XX əsr gəncə ədəbi mühiti....325
Севиндж Рзаева. Рецептивно-эстетический художественный характер литературного произведения....330
Yücel Karauz. Müharibə əsirləri ilə əlaqədar 1918-ci ildə edilən razılaşmalar....337
Anar Abuzərli. Prof. Yavuz Axundlunun yaradıcılığında ədəbi-tənqidi məsələlər....342
Samirə Məmmədova. Şah İsmayıl Xətai qərb şərqşünaslarının tədqiqində....346
Şəbnəm Salayeva. Bəxtiyar Vahabzadənin poemalarında insanın mənəvi aləminin tədqiqinə maraq....351
Ümit Pektaş. XX əsrin əvvəllərində Türkiyə uşaq mətbuatının yaranmasında "Çocuq dünyası" jurnalının rolu....357
Maya Musayeva. Kosmoqonik miflər əsasında yaranan mifoloji toponimlər folklor onomastikasının bir layi kimi....365
b/l. İlahə Həsənova. "Kitabi-Dədə Qorqud" dastanlarının dil xüsusiyyətləri....370
Aytac Abbasova. Kəlbəcər regionuna məxsus nağıl variantları....377
Gülnar Osmanova. Yaradılışla bağlı kultlar və müasir nəsr....384
Günel Əliyeva. Bədii mətnin onomastik mənzərəsi haqqında....391

«Elm və Təhsil» nəşriyyatının direktoru:
professor Nadir MƏMMƏDLİ

Çapa imzalanmış **05.03.2016.**
Şərti çap vərəqi **25,125.** Sifariş **№ 156.**
Kağız formatı **84x108 1/16.** Tiraj **500.**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
E-mail: nurlan1959@gamil.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.